SƏMƏD SƏRDARİNİYA

# QARABAĞ TARİXİN GEDİŞİNDƏ

## (fars dilindən tərcümə)

Bakı – 2023

*Azərbaycan Milli Elmlər Akademiyası akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun Elmi Şurasının qərarı ilə nəşr edilir*

**Elmi redaktorlar:** **Gövhər Baxşəliyeva**
*akademik*

**Möhsün Nağısoylu**
*akademik*

**Tərcüməçi:** **Şəmsi Pənahoğlu**
*filologiya üzrə fəlsəfə doktoru*

**Rəyçilər:** **Eynulla Mədətli**
*fəlsəfə elmləri doktoru*

**Səməd Bayramzadə**
*tarix üzrə fəlsəfə doktoru*

**Məsiağa Məhəmmədi**
*filologiya üzrə fəlsəfə doktoru*

**Səməd Sərdariniya.** Qarabağ tarixin gedişində (fars dilindən tərcümə). Bakı: "Elm", 2023, – 424 səh.

ISBN 978-9952-556-95-7

© Səməd Sərdariniya, 2023

## MÜNDƏRİCAT

**Tərcüməçidən** .......... 5
**Ön söz** .......... 6
**Səməd Sərdariniya** .......... 13
**Giriş** .......... 39
Qarabağ haradır? .......... 52
Dağlıq Qarabağ .......... 60
Qarabağ qədim və əzəmətli bir mədəniyyətin beşiyidir .......... 65
Azərbaycanın Aran (iki çay arası) vilayəti .......... 73
İslamdan qabaq Qarabağ .......... 79
İslamdan sonra Qarabağ .......... 92
Xilafətin dağılması və yerli dövlətlərin yaranması .......... 93
Rusların Qarabağa hücumları və Bərdənin viran edilməsi .......... 107
Şəddadilər .......... 115
Qarabağ Səlcuqlular dövründə .......... 122
Xalqın təşəkkülü, şifahi ədəbiyyatın inkişafı və Azərbaycan türk yazışmaları .......... 129
Qarabağ Azərbaycan Atabəyləri dövründə .......... 137
Qarabağ Monqollar dövründə .......... 147
Qarabağ Elxanilər dövründə .......... 152
Qarabağ əl-Cəlairlər və Çobanilər dövründə .......... 164
Qarabağ Teymurilər dövründə .......... 176
Qarabağ Qaraqoyunlular dövründə .......... 188
Qarabağ Ağqoyunlular dövründə .......... 198

Qarabağ Səfəvilər dövründə..........206
Qarabağ Nadir şah dövründə..........234
Qarabağ xanlıqlar dövründə..........255
İbrahim Xəlil xan Cavanşir..........268
İbrahim Xəlil xan Cavanşirin aqibəti..........275
Xanlıqlar dövründə Azərbaycan incəsənəti
və ədəbiyyatı..........284
Ağa Məhəmməd xan Qacarın Qarabağa hücumu..........288
Qarabağ İran-Rusiya müharibələrində..........300
Bəzi xanların taleyi..........314
Ermənilərin İrandan Qarabağa köçürülməsi..........323
Ermənilərin Türkiyədən Qarabağa köçürülməsi..........332
Qarabağ çarizmin hakimiyyətində..........348
Daşnaqsütun partiyası..........360
Qarabağ Azərbaycan ədəbiyyatı və
incəsənətinin beşiyidir..........365
1905-1906-cı illərdə erməni-Qafqaz
müsəlmanları müharibəsi..........369
Qarabağ 1918-1920-ci illərdə. Bakı və digər
şəhərlərdə qətliamlar..........372
Qarabağın 1923-cü ildəki muxtariyyəti..........388
Qarabağ 1923-1988-ci illərdə..........397
Qarabağ 1988-ci ildən sonra..........405
**Mənbə və məxəzlər**..........414

# TƏRCÜMƏÇİDƏN

Otuz illik işğaldan sonra müzəffər ordumuz tərəfindən çox qısa bir müddətdə-44 gün ərzində Qarabağın əksər hissəsinin azad edildiyi və ölkə rəhbərliyinin həyatın bütün sahələrində ciddi və ardıcıl islahatlar həyata keçirdiyi bir vaxtda elmimiz qarşısında duran mühüm vəzifələrdən biri, bəlkə də, birincisi, işğaldan azad olunmuş ərazilərin hər yönü ilə elmi əsaslarla öyrənilməsi və araşdırılmasıdır. Şübhəsiz ki, bu işdə tarixən bir neçəsi cənublu soydaşlarımız tərəfindən olmaqla, müxtəlif adlarla qələmə alınmış, lakin çoxusunun bu günə qədər çap olunmadığı 20-yə qədər “Qarabağnamə”nin olduqca böyük əhəmiyyəti vardır.

“Qarabağnamə”lərin çoxusu Qarabağ tarixinin müəyyən kəsiyindəki hadisələri işıqlandırsa da, bir neçəsi ən qədim dövrlərdən başlayaraq, XX əsrin 90-cı illərində baş vermiş erməni işğalını ehtiva edir. Bu baxımdan Səməd Sərdariniyanın "قره باغ در گذرگاه تاریخ" (“Qarabağ tarixin gedişində”) əsəri öz mükəmməlliyi və müfəssəlliyi ilə diqqəti cəlb edir. Maraqlıdır ki, o, təkcə Qarabağın deyil, bütövlükdə Azərbaycanın (İranın) və külli halında daha geniş bir regionun tarixini işıqlandırır. Bu səbəbdən əsərin fars dilindən tərcümə edib qədirbilən xalqımızın ixtiyarına verməyi qərara aldıq.

*Əsər mütəxəssislər, eləcə də geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

## ÖN SÖZ

Tarixən müxtəlif adlarla 20-yə qədər "Qarabağnamə" qələmə alınmışdır:

1. Mirzə Adıgözəl bəy. Qarabağnamə;
2. Mirzə Camal Cavanşir Qarabaği. Qarabağ tarixi;
3. Əhməd bəy Cavanşir. 1747-1805-ci illərdə Qarabağ xanlığının siyasi mövcudiyyəti;
4. Mirzə Yusif Qarabaği. Tarixe-safi;
5. Mir Mehdi Xəzani. Kitab-e tarix-e Qarabağ;
6. Rzaqulu bəy Mirzə Camal oğlu. Pənah xan və İbrahimxəlil xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri;
7. Mirzə Rəhim Fəna. Tarix-e cədid-e Qarabağ;
8. Məhəmmədəli bəy Məxfi. Əhvalat-e Qarabağ;
9. Həsən İxfa Əlizadə. Şuşa şəhərinin tarixi;
10. Həsənəli xan Qarabaği. Qarabağ vilayətinin qədim, cədid keyfiyyət və övzaları;
11. Baharlı M. Əhvalat-e Qarabağ;
12. Mirzə Xosrov Axundov. Qarabağ tarixi;
13. Mirzə Yusif Əhəri. Əhərnamə. (Əsər Əhərin tarixindən bəhs etsə də, Qarabağ xanlığının tarixinin bir sıra prinsipal əhəmiyyətli məsələlərini də işıqlandırır);
14. Abbasqulu ağa Bakıxanov. Gülüstan-e İrəm;
15. Məhəmməd Hafizzadə. Qarabağ. Təbriz: 2001, 251 s.;
16. Əlirza Rahvər İqvan və Pərviz Zore Şahmers. Tarix-e Qarabağ. Tehran: 1997;

17. Əbduləhməd Behzad. Qərebağ dər çeşməndazi-ye tarix.

18. Səməd Sərdariniya. Qərəbağ dər qozərqah-e tarix. Təbriz: Nedayi-Şəms, 2006. 547 s.

Yeri gəlmişkən, sözügedən əsərlərdən, N.Axundovun da çox haqlı olaraq vurğuladığı kimi, Abbasqulu ağa Bakıxanov "Gülüstane-İrəm" əsərində ilə ilk dəfə olaraq xalqımızın tarixini bütöv halda, onun siyasi və coğrafi mövqeyi nəzərə alınmaqla işıqlandırır. Əsər Qarabağın antik, qədim, orta əsrlər tarixini, o cümlədən, Qarabağ bəylərbəyiliyi və Qarabağ xanlığı dövrünün mürəkkəb hadisələrini işıqlandırmaqda da əvəzsiz mənbədir (1, 21).

Digər bütün məziyyətləri ilə yanaşı, "Qarabağnamə"lərdə ən ümdə məsələlərdən biri onların əksəriyyətində ermənilərin Qarabağa sonradan gəlmələrinin öz əksini tapmasıdır (8).

Ancaq reallıqda "Qarabağnamə"lərin sayı daha çoxdur, çünki Qarabağdan çıxmış bir çox klassiklərimizin, o cümlədən, Yusif Vəzir Çəmənzəminli, Əbdürrəhim bəy Haqverdiyev, Nəcəf bəy Vəzirov, Qasım bəy Zakir, Mirmöhsün Nəvvab, Üzeyir bəy Hacıbəyov, Ceyhun bəy Hacıbəyov və başqalarının yaradıcılıqlarının hər biri də ayrı-ayrılıqda "Qarabağnamə" hesab oluna bilər.

Bundan başqa, çarizm Qafqazı, o cümlədən, Qarabağı ələ keçirəndən sonra, dövlətin tələbi ilə P.Butkov (10), H.Dubrovin (12), İ.Şopen (16; 17), Şavrov (15) və başqaları tərəfindən bu yerlərin, əsasən, iqtisadiyyat və təsərrüfat həyatına, o cümlədən, tarixinə dair bir sıra əsərlər yazılmışdır. Əlavə olaraq, Qarabağla bağlı çoxlu arxiv sənədləri (9), xülasə (13) və məcmuələr (14) də mövcuddur. Təbii ki, qeyd

olunan əsər və materiallarda ictimai-iqtisadi, sosial-siyasi həyatın müxtəlif sahələrinə dair çox geniş məlumatlar vardır. Qeyd olunanların Azərbaycan dilinə tərcüməsi və araşdırılması vacibdir.

"Qarabağnamə"lərin araşdırılması və tədqiqinə hələ sovet dövrünün sonlarında-keçmiş SSRİ-nin dağılması ərəfəsində, senzuranın mövcud olduğu bir vaxtda vətənpərvər alimlərimiz A.Fərzəliyev və N.Axundov tərəfindən başlanılmışdır. Bu həmin dövr idi ki, mərkəzi hakimiyyətin zəifləməsinə baxmayaraq, Moskvada iş başında oturan ermənilər və ermənipərəst qüvvələr, erməniləri hər zamankından daha artıq dəstəkləyirdilər. Məhz həmin arada ermənilər İrəvanda rus dilində "Ermənistan XVIII əsrin I yarısında" adlı saxta Ermənistan xəritəsi çap etdirmiş, həyasızcasına təxminən bütün Azərbaycan ərazilərini, kiçik Asiyanın üçdə bir hissəsi və cənubi Gürcüstanı, hətta Bakını belə ora daxil edərək, paytaxtımızın adını "Bakunakert" kimi qələmə vermişdilər (1, 5).

"Qarabağnamə"lərin cüzi bir hissəsi müəlliflərinin sağlığında çap olunmuşdur. Bəziləri isə yuxarıda adlarını çəkdiyim, əslən şuşalı vətənpərvər alimlərimiz tərəfindən 2 kitab şəklində tərtib olunmuş "Qarabağnamələr"ə salınmışdır. I kitab A.Fərzəliyev (4), II kitab isə N.Axundov (6; 7) tərəfindən çapa hazırlanmışdır. I kitabı tərtib və çap etdirən A.Fərzəliyev, haqlı olaraq yazır ki, Azərbaycan SSR EA Əlyazmalar İnstitutunda Qarabağın tarixinə dair böyük əhəmiyyət kəsb edən onlarla əsər və tarixi sənədlər saxlanılır. Təəssüf ki, Qarabağa göz dikən erməni ekstremistlərinin haqsız tələblərinin cılızlığını və əsassız olduğunu bir

daha açıb göstərən və sübuta yetirən bu mənbələrin çoxu çap olunmamış və lazımınca qiymətləndirilməmişdir (4, 3).

I kitabda XVIII-XIX əsrlər Qarabağ tarixini əhatə edən 3 mənbə (Mirzə Adıgözəl bəy. Qarabağnamə; Mirzə Camal Cavanşir Qarabaği. Qarabağ tarixi. Farscadan tərcümə. Tərcümə, müqəddimə və qeydlər F.Babayevindir; Əhməd bəy Cavanşir. Qarabağ xanlığının siyasi vəziyyətinə dair: 1747-ci ildən 1805-ci ilə qədər. Ruscadan tərcümə. Tərcümə, müqəddimə və qeydlər Ə.Şükürzadənindir) əsərləri yer almışdır. I kitabın nəşrində çap xətası olaraq, bir çox səhifələr ağ getmişdir. Buna rəğmən, adları qeyd olunan mənbələrin çap olunması böyük hadisə idi. Əlbəttə, əsərin təkrar nəşrində (5) qeyd olunan çap xətası aradan qaldırılmışdır. II kitaba isə Azərbaycanın XIX əsr salnaməçiləri Mirzə Yusif Qarabaği, Mir Mehdi Xəzani və Rzaqulu bəy Mirzə Camal oğlunun Qarabağ haqqında tarixi, ədəbi-bədii və publisistik oçerkləri daxil edilmişdir. Daha sonra N.Axundov çap etdirdiyi "Qarabağ salnamələri" kitabında 8 "Qarabağnamə" və onların müəlliflərindən (Mirzə Adıgözəl bəy, Mirzə Camal Cavanşir Qarabaği, Rzaqulu bəy Mirzə Camal oğlu, Əhməd bəy Cavanşir, Mirzə Yusif Qarabaği, Mir Mehdi Xəzani, Baharlı, Abbasqulu ağa Bakıxanov) bəhs etmiş, Qarabağ xanlığının təşəkkülü, onun siyasi tarixi, iqtisadi-ictimai və mədəni həyatını araşdırmışdır (1). Əsərin diqqətəlayiq yönlərindən biri də odur ki, müəllif, kitaba 3 əlavə etmişdir. Bunlardan biri "Qarabağ xanları və onların ailə şəcərəsi", ikincisi "Əhməd bəy Cavanşir tərəfindən 1797-ci ildə Şuşada şahın öldürülməsi və Şuşanın təbii mənzərəsinin təsviri"dir. Üçüncü əlavə 2 hissədən ibarətdir və orijinalda, yəni rus dilində olduğu kimi verilmişdir.

Bunlar A.S.Qriboyedovun (11) 2 cildliyindən götürülmüş “Ermənilərin İrandan bizim vilayətlərə köçürülməsi haqqında qeydlər” (“Записка о переселении армян из Персии в наши области”) və N.İ.Şavrovun (15) “Zaqafqaziyada rus işinə yeni təhlükə: Muğanın xaricilərə satılması” (“Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам”) əsərləridir.

“Qarabağnamə”lərin tariximizi öyrənmək üçün mənbə olmasına dair namizədlik işi (3) müdafiə olunmuşdur.

İlkin araşdırma göstərir ki, “Qarabağnamə”lərin bəziləri çap olunsa da, bir çoxları işıq üzü belə görməmişdir. Onların elmi tədqiqata cəlb edilməsi isə, demək olar ki, həyata keçirilməmişdir.

Möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandanımız İlham Əliyevin də vurğuladığı kimi, tariximizin həqiqətə uyğun olması ilə bağlı alim və mütəxəssislərimiz dolğun məlumat verməlidirlər (2).

Strateji bir məsələ olduğundan, “Qarabağnamə”lərin, eləcə də, adları yuxarıda qeyd olunan digər aidiyyatı bütün mənbələrin tərcüməsi (ana dilində yazılanların elmi-tənqidi mətnlərinin hazırlanması), nəşri, təbliği, əsaslı bir şəkildə öyrənilməsi və yekun olaraq Qarabağ ensiklopediyasının hazırlanması vacibdən vacibdir. Çünki onlar, xüsusən, Qarabağ regionumuzun təkcə tarixini deyil, həm də ədəbiyyatını, maddi və mənəvi dəyərlərini, mədəniyyətini, bir sözlə, bütövlükdə kulturalogiyasını araşdırmaq üçün əvəzsiz mənbələrdir.

Hələlik isə biz Səməd Sərdariniyanın "قره باغ در گذرگاه تاریخ" (“Qarabağ tarixin gedişində”) əsərini fars dilindən

ana dilimizə tərcümə edərək elmi ictimaiyyətə və oxucularımıza təqdim etməyi zəruri hesab etdik.

Hər kəsə faydalı olur, inşallah!

## Ədəbiyyat

1. Axundov Nazim. Qarabağ salnamələri. Bakı: Yazıçı. 1989. 232 s.

2. "Elm" qəzeti. 29 yanvar, 2021-ci il.

3. Hüseynov Yunis. "Qarabağnamələr" Azərbaycan tarixini öyrənmək üçün mənbə kimi. Bakı: Elm. 2007. 216 s.

4. Qarabağnamələr. I kitab. Tərtibçi: A.Fərzəliyev. Bakı: Yazıçı. 1989. s. 190 s.

5. Qarabağnamələr. I kitab. Tərtibçi: A.Fərzəliyev. Bakı: Şərq-Qərb. 2006. 216 s.

6. Qarabağnamələr. II kitab. Tərtibçi: N.Axundov. Bakı: Yazıçı. 1991. 480 s.

7. Qarabağnamələr. II kitab. Tərtibçi: N.Axundov. Bakı: Şərq-Qərb, 2006. 288 s.

8. Qeybullayev Qiyasəddin. Qarabağ (etnik və siyasi tarixinə dair). Bakı: Elm, 1990. 248 s.

9. Акты, собранные Кавказской Археологической комиссией. Архив Главного Управления Наместника Кавказа. Под редакцией А.Берже. Тифлис. 1866 и сл. гг.

10.Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 гг. чч. I, II, III. СПБ. 1869 и сл. гг.

11.Грибоедов А.С. Сочинения. В двух томах. т. 2. Москва: Правда. 1971 г.

12. Дубровин Н. История войны и владычества русских на Кавказе. Томы. От 1803 г. Т. I. СПБ. 1871.

13. Обозрение Российских владений за Кавказом в статическом, этнографическом и финансовом отношениях. СПб: Типография департамента внешней торговли. 1836. Ч. 3. Т. III.

14. Сборник материалов для описания местностей и племен Кавказа.

15. Шавров Н.И. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. Санкт-Петербург. 1911 г.

16. Шопен И. Исторический памятник состояния Армянской-области въ эпоху ея присоединения къ Российской-империи. Санктпетербург. 1852.

17. Шопен И. Кавказ и его обитатели. СПБ. 1866.

18. صمد سرداری نیا. قره باغ در گذرگاه تاریخ. تبریز: ندای شمس. 2006. 547 ص.

## SƏMƏD SƏRDARİNİYA[1]

*(12.05.1947, Təbriz – 10.04.2008, Təbriz)*

Güney Azərbaycanın tanınmış tarixçi və tədqiqatçı alimi Səməd Sərdariniya 12 may 1947-ci il tarixində Təbrizin Əmirəqız məhəlləsində dünyaya göz açmışdır.

S.Sərdariniyanın ata nəsli Təbrizin şimal-qərbində 75 km-lik məsafədə, Mərəndin şərqində yerləşən Əlincə kəndindən idi. Səmədin atası Məhəmmədhüseyn Ələncəqiyanın valideynləri sonradan Təbrizə köçmüş və burada Əmirəqız məhəlləsində sakin olmuşdular.

Məhəmmədhüseynin də ana babası Məhəmməd Kartforuş Səttarxanın yaxın silahdaşlarından biri olmuş və bu məhəllədə onlara məxsus bir əttar dükanları var idi.[2]

Səmədin anası Həbibə Qəssab Qərai isə Təbrizin Dəvəçi məhəlləsində dövrünün tanınmış qəssablarından olan və Təbriz qəssablarını topdan ətlə təmin edən adamlardan biri Hacı Ələkbərin nəslindən idi.[3]

Səməd Məhəmmədhüseyn Ələncəqiyan *(Əlincəlilər – S.B.)* ilə Həbibə Qəssab Qərainin izdivacından olan beş uşaqdan biri olmuşdur (qardaşları Həsən ilə Cavad 1 yaşına çatmamış xəstəlikdən ölmüşlər, bacıları Fatimə ilə Bətul həyatdadırlar).

---

[1] S.Sərdariniyanın tərcümeyi-halı və yaradıcılığı haqda yazını, oğlu, "Ana varlıq" jurnalının təsisçisi və baş redaktoru Aydın bəy fars dilində hazırlamış, Azərbaycan dilinə t.ü.f.d. Səməd Zülfəli oğlu Bayramzadə tərcümə etmişdir.

[2] "Ana Varlıq" dərgisi, No 7, yaz 1397/2018, s.10-13

[3] "Ana Varlıq" dərgisi, No 7, yaz 1397/2018, s. 9

Səmədin uşaqlığı, Dəvəçi məhəlləsinə köçənə kimi, Əmirəqız məhəlləsində keçmişdir. Atası işin çoxluğundan əziyyət çəkdiyi üçün, Səməd gözünü açanda özünü Sahibüləmr meydanında atasının və əmisinin yanında iş başında gördü. Səmədin çalışdığı bu iş mühiti tamamilə elm, ədəbiyyat və təhsildən uzaq bir mühit idi, ailəsinin güzəranı isə orta təbəqənin yaşayış səviyyəsindən də aşağı idi.

Səmədin təhsil almasında onun bibisinin əri Hacı Kazım İbrahiminin böyük rolu olmuşdur (Kazım, eyni zamanda, Səmədin anası Həbibə xanım Qəssab Qərainin bibisi oğlu idi). O, öz zəmanəsinin ziyalılarından hesab olunurdu və cahillik düşüncəsinin əksinə olaraq, dərs oxumağı, təhsil almağı kafir olmaq hesab etmirdi. Səmədin dediyinə görə, o, 7 yaşına – məktəb yaşına çatanda Hacı Kazım onun əlindən tutub məktəbə aparıb. Bu hadisə ömürlərinin sonuna kimi həmin iki nəfərin arasında qarşılıqlı hörmətə və sevgiyə səbəb olmuşdur.[4]

Bununla belə, Səməd Sərdariniya bütün ömrü boyu yazıb oxumağı bacarmayan, lakin sinəsi bugünkü savadlılardan daha dolu anası Həbibə xanımın onun ilk müəllimi olduğunu dəfələrlə vurğulamışdı. Belə ki, anasının hər bir cümləsi, işlətdiyi məsəllər, atalar sözləri və ya söylədiyi hekayələri Səməd üçün sahilsiz bir mədəniyyət və şifahi xalq ədəbiyyatı okeanı olmuşdur. Səməd bu okeanda çırpınıb bir sahil axtardıqca, susamış bir insan kimi onun şor sularına, o xəzinənin dərinliklərinə daha çox qərq olurdu. Beləliklə, ağızdan-ağıza öz əcdadları haqqında məlumatlar əldə edirdi.[5]

---

[4] “Ana Varlıq” dərgisi, No 7, yaz 1397/2018, s.16
[5] “Ana Varlıq” dərgisi, No 7, yaz 1397/2018, s. 9

Səməd uşaq yaşlarından həm işlədi, həm məktəbə getdi. O, əmisinin həm hesabdarı və həm mirzəsi idi. Əmisi Hacı Mehdi Ələncəqiyan onu öz himayəsi altına aldı və bu da onun təhsil almasına şərait yaratdı. O, Sahibüləmr meydanındakı məktəbdə oxumaqla yanaşı, onu əhatə edən cəmiyyət mühitindən də dərs aldı. Elə buradaca nadanlıqla biliyin, xurafatla dinin, mərdliklə namərdliyin, yaxşılıqla pisliyin fərqinə vardı və bununla da, özünü tapmış oldu, özünü formalaşdırmağa başladı.

Səməd ibtidai təhsilini "Ünsüri", "Daneş" və "Bağban" məktəblərində, orta təhsilini isə ədəbi yönümlü "Razi", "Fiyuzat" və "Dehxuda" mədrəsələrində aldı. 1966-cı ildə orta təhsil haqqında diplomunu əldə etdi. Diplomunu alan zaman o, Səməd Ələncəqiyan idi. Ələncəqiyan onun ata əcdadının damarlarından və kökündən xəbər verirdi, amma həm oxunması və tələffüzü, həm eşidilməsi və yazılışı çətin olduğundan, həm də ailə üzvləri arasında bu adla bağlı çoxlu satirik lətifələr danışıldığından, Səməd qərara aldı ki, familiyasını dəyişdirsin. Səttarxana olan böyük hörmətindən Sərdari-milli familiyasını götürmək istəyir, amma Vətəndaşlıq Aktlarının Qeydiyyatı idarəsində bu adı götürməsinə icazə verilmir. Səməd "Sərdar", "Salar", "Sərdariniya", "Salariniya", "Sərdarivənd" kimi adları da çox xoşladığından, onları da Vətəndaşlıq Aktlarının Qeydiyyatı idarəsinə təqdim edir və nəhayətdə, həmin adlar içərisindən "Sərdariniya" familiyası qəbul edilir. Səmədin ardınca atası və iki bacısı da Sərdariniya familiyasını qəbul edirlər.[6]

[6] "Ana Varlıq" dərgisi, No 7, yaz 1397/2018, s. 16

S.Sərdariniya orta məktəbi bitirdikdən sonra Təbriz universitetinin tarix fakültəsinə qəbul olunur. Beləliklə, Səməd Sərdariniya tarix fakültəsinin tələbəsi olur və ömrünün axırına kimi də bu ixtisasın arxasınca gedir. 1971-ci ildə Təbriz universitetini bitirir, bakalavr dərəcəsinə yiyələnir və əsgərlik xidmətinə gedir. Əsgərlik xidmətinin çox hissəsini Salmas şəhərində keçirir. Əsgərlik xidməti barədə, özünün xatirələrində göstərdiyi kimi, günortalardan sonra Salmas çayxanalarında stolun arxasında oturmuş qocaların heç bir kitabda və ya tarixi mənbələrdə qeyd edilməmiş soyqırım barədə söylədiklərinə, onların canlarını bu bəladan necə xilas edib yaxalarını qurtardıqları barədə söhbətlərinə qulaq asarmış. Get-gedə bu hadisələrə marağı artmağa başlayır. İllər sonra bu barədə araşdırmalarının nəticəsi olaraq "**Arazın hər iki tayında müsəlmanların soyqırımı**" adlı kitabını yazır.[7] Adıgedən kitabda müəllif Cənubi Azərbaycanın qərb bölgəsində (Urmiya, Xoy, Salmas, Maku, Şərəfxana və s.) erməni daşnaklarının 1918-ci ildə (Bakıdakı soyqırımı ilə bir vaxtda) törətdikləri kütləvi qırğın və olmazın zorakılıqlar haqqında indiyə qədər qapalı saxlanılmış məlumatları açıqlayır. Kitabda təsvir edilən qanlı hadisələr özlərini bütün dünyaya "məzlum" millət kimi göstərən ermənilərin əslində iç üzlərini açıb göstərir, onların qatil və cəllad simasını oxucusuna tanıtdırır. Kitabda Arazın hər iki tayında Azərbaycan türklərinin ermənilər tərəfindən soyqırıma məruz qalmalarından bəhs olunsa da, əsas yer Cənubi Azərbaycanın qərb bölgəsindəki olaylara verilmişdir.

[7] "Ana Varlıq" dərgisi, No 7, yaz 1397/2018, s.19

Belə ki, kitabın nəşrinə qədərki dövrlərdə ermənilərin Arazın o tayında törətdikləri kütləvi qırğın və cinayətlər barədə yetərincə məlumatlar işıq üzü görməmişdi. Səməd Sərdariniyanın "Arazın hər iki tayında müsəlmanların soyqırımı" kitabı keçən əsrin əvvəllərində Arazın o tayındakı azərbaycanlılara qarşı erməni daşnaklarının əli ilə törədilmiş kütləvi qırğınlar, qarətlər və zorakılıqlarla tanış olmaq, bu olayları gələcək nəsillərin qan yaddaşına hopdurmaq baxımında olduqca dəyərli bir mənbədir.[8]

1973-cü ildə əsgərlik xidmətini başa vurduqdan sonra İranın Radio və TV şirkətində işə düzəlmək üçün müsabiqədə iştirak edir, 1000 nəfər iştirakçı arasından 4-cü dərəcəni qazanmağa və bu təşkilatda işə düzəlməyə müvəffəq olur. Bundan sonra S.Sərdariniya Təbrizin Dəvəçi məhəlləsinin Boyaqçılar küçəsindəki evlərini satıb anası, atası və kiçik bacısını da götürüb Tehrana gəlir, burada yenidən universitetə qəbul olmaq qərarına gəlir və bu dəfə İran Milli universitetində (indiki şəhid Beheşti universiteti) məhkəmə hüququ ixtisası üzrə bakalavr təhsili almağa başlayır. 1978-ci ildə, inqilab baş verməmişdən və universitetlərin bir neçə illiyə bağlanmasından öncə adıgedən ixtisas üzrə məzun olur.

İslam inqilabı baş verməmişdən bir neçə ay öncə, 22 iyul 1978-ci il tarixində fars dilində "**Azərbaycan, yeni poeziyanın beşiyidir**" adlı ilk məqaləsi İran Milli Radio-Televiziyasının orqanı olan "Tamaşa" dərgisinin 373-cü sayın-

---

[8] Səməd Sərdariniya. Arazın hər iki tayında müsəlmanların soyqırımı – Bakı, "Elm" nəşriyyatı, 2006, s. 5-6

da çap olunur. Sonralar müəllif bu məqaləni daha da təkmilləşdirərək, Təbrizdə nəşr olunan "Foruğe azadi" qəzetində və daha sonralar isə "**Azərbaycan, müasir poeziyanın və ədəbi tənqidin beşiyidir**" adı ilə özünün müəllifi olduğu "Məşahir-e Azərbaycan" ("Azərbaycanın məşhurları") kitabının 2-ci cildində çap etdirir.[9]

İslam inqilabı baş verdikən sonra Tehranda "Azərbaycan əncüməni" (Azərbaycan Şairlər və Yazıçılar Cəmiyyəti) orqanı olaraq "Günəş" dərgisi fəaliyyətə başlayır və jurnalda Azərbaycan xalqının pəhləvilər tərəfindən illər boyu tapdalanmış milli-mədəni hüquqlarının bərpası ilə bağlı yazılar dərc olunur.[10] Cəmi 3 sayı nəşr olunmuş bu dərginin hər bir sayında, Azərbaycan dilində olmaqla, Səməd Sərdariniyanın "Azərbaycan" ruznaməsi, Səttarxan Sərdari-millinin orqanı"[11], "Təcəddüd" qəzeti, Şeyx Məhəmməd Xiyabaninin orqanı" və "Əncümən" ruznaməsi, Azərbaycan əyalət əncüməninin orqanı" adlı 3 məqaləsi çap olunur.

Dr. Cavad Heyət Dr. Həmid Nütqi ilə birlikdə 1979-cu ildə Tehranda "Əncüməni-Azərbaycan" ədəbi və mədəni qrupunun aylıq orqanı olaraq, "Varlıq" jurnalını təsis etdikdə (jurnalın ilk sayı 21.04.1979-cu il tarixdə çıxıb yayılmışdır)[12] 8 nəfər müəssislər və redaksiya heyəti içərisində

---

[9] Səməd Sərdariniya. Məşahir-e Azərbaycan, cild 2, Təbriz, "Şayeste" nəşriyyatı, 1379/2000, s.472-483

[10] Y.Hacıyeva. İran İslam inqilabından sonra cənubi azərbaycanlıların ana dili uğrunda mübarizəsi (1979-2005-ci illər). Bakı, "Adiloğlu" nəşriyyatı, 2017, s.180

[11] "Günəş" jurnalı, Tehran, 1980 (İranın İslami inqilabının 2-ci ildönümü münasibətilə), No 1, s. 16-21

[12] "Varlıq" jurnalı, No 1, ordibeheşt 1358/ aprel-may 1979, s.3

ən cavan üzv olaraq, Səməd Sərdariniya da var idi. Yeni fəaliyyətə başlamış bu gənc yazıçı öz qələmini "Varlıq" məktəbində cilaladı.

Səməd Sərdariniyə 20 iyun 1980-ci ildə, İraq-İran müharibəsinin başlanmasına 3 ay qalmış "Varlıq" məktəbinin digər görkəmli nümayəndələrindən biri, 21 Azər hərəkatı zamanı Ərdəbildə Azərbaycan Demokrat Firqəsinin fədailərindən olmuş, enişli-yoxuşlu bir həyat yaşamış Teymur Pirhaşiminin qızı Faiqə ilə ailə həyatı qurur. Bu izdivacdan 3 sentyabr 1981-ci il tarixində onun Elnaz adlı bir qızı (Tehranda) və 4 yanvar 1987-ci il tarixində isə Aydın adlı bir oğlu (Təbrizdə) olmuşdur.

Səməd Sərdariniya bir neçə il Tehranda yaşamasına baxmayaraq, ürəyinin istəyinə uyğun olaraq Təbrizə dönmək qərarına gəlir. 1982-ci ildə onun İranın "Səda və sima" Radio və TV şirkətinin Təbriz şəhər bölməsinə göndərilməsi barədə xahişinə müsbət cavab verilir və S.Sərdariniya Təbrizə gələrək, həmin şirkətin buradakı nümayəndəliyində fəaliyyətə başlayır. Eyni zamanda da, o, "Varlıq" dərgisinin Təbrizdə nümayəndəlik və yayım məsuliyyətini öz üzərinə götürür, ömrünün sonuna kimi də bu vəzifəni şərəf və ləyaqətlə yerinə yetirir.

Artıq bu dövrdə S.Sərdariniyanın fars dilində "Əli Müsyö, Təbriz gizli mərkəzinin rəhbəri", "Azərbaycan qəzet və jurnallarının tarixi", "İranın Məşrutə inqilabında Təbriz gizli mərkəzinin rolu" kimi kitabları işıq üzü görmüşdü.[13]

---

[13] "Ana Varlıq" dərgisi, No 7, yaz 1397/2018, s.23

“Varlıq” dərgisinin çox az saylarını göstərmək olar ki, Səməd Sərdariniyanın milli ruhlu yazıları orada olmasın. Cənubi Azərbaycan tarixinin çeşidli və çox aktual mövzularının işıqlandırılmasında, azərbaycanlıların milli kimliklərini inkar edən şovinistərə tutarlı cavablar verməkdə “Varlıq” və digər türkdilli mətbuat orqanları S.Sərdariniya üçün uğurlu söz tribunası olmuşdur. O, öz yazılarında düşüncə və təkliflərini cəsarətlə oxucularına çatdırmaqdan çəkinməmişdi. Sətiraltı yazılarında, məruzə və çıxışlarında millətinin haqqını tələb edirdi. İranda Ana Yasaya riayət olunmasını, verilmiş vədlərin yerinə yetirilməsini, insan haqlarına, hüquq və bərabərliyə, demokratik prinsiplərə əməl edilməsini istəyirdi.

Səməd Sərdariniyanın elmi-publisistik fəaliyyətində diqqəti çəkən cəhət İran inqilabından sonra onun Güney Azəbaycanın tarix və mədəniyyətinə aid çoxsaylı əsərləridir. “Azərbaycan məşhurları” (iki cilddə), “Molla Nəsrəddin Təbrizdə”, “Bağırxan Salari-milli”, “Azərbaycan qəzet və dərgilərinin tarixi”, “ Təbrizin mərkəzi-qeybisi”, “Təbrizdə tənbəki üsyanı”, “Azərbaycan mədəni cəmiyyətin öncülüdür”,  “Təbriz birincilər şəhəri”, və s. kitabları Azərbaycan tarixşünaslığına verilmiş dəyərli töhfələrdəndir. Onun “İrəvan müsəlman sakinli vilayət olmuşdur”, “Arazın hər iki tayında müsəlmanların soyqırımı”, “Qarabağ tarixin gedişində” kitabları XIX əsrin sonundan başlayaraq, günümüzədək erməni daşnaklarının Azərbaycan xalqına qarşı törətdikləri qanlı olaylardan, zorakılıq, talan və cinayətlərdən bəhs edir.

2003-cü ildə S.Sərdariniya gördüyü işlərin uğurlu nəticələrinə görə, Azərbaycan Dövlət Universitetinin fəxri tarix

elmləri doktoru alimlik dərəcəsinə layiq görülür və bu barədə ona müvafiq diplom verilir.

Zəhmətkeş insan, vətənpərvər tarixçi alim Səməd Sərdariniya, 10 aprel 2008-ci ilin aprel ayının 10-da 61 yaşının tamasına düz bir ay qalmış qələmini yerə qoydu və haqqın dərgahına qovuşdu.

Səməd Sərdariniyanın son illərdə apardığı tədqiqatlarda və çap etdirdiyi əsərlər sırasında diqqəti çəkən və günümüz üçün çox önəmli olan mövzuları xalqımızın diqqətinə çatdırmaq məqsədilə burada onun yazdığı hər bir kitab barəsində ayrıca danışmağı məqsədəuyğun hesab edirik.

Azərbaycan əsilli İran müəllifləri Nəvid Məhəmmədi və Aydın Sərdariniya tərəfindən "Ana Varlıq" dərgisinin Dr. Səməd Sərdariniyaya həsr olunmuş 7 saylı (yaz 2018) xüsusi buraxılışında birlikdə hazırladıqları "Dr. Səməd Sərdariniya kitablarının biblioqrafiyası" ünvanlı yazıda tarixçi alimin 30 adda kitablarının adlarını qeyd etmişlər. Onların içərisində müəllifin özünün elmi-tədqiqat işlərinə aid kitabları, tərcümələri və çap olunmamış əsərləri vardır.

***S.Sərdariniyanın öz araşdırmaları və tədqiqatları əsasında yazdığı kitablar:***

1. **"Yaddaşti bər tarixçe-ye teatr-e Azərbaycan"** ("*Azərbaycan teatr tarixinə dair bir qeyd*").[14]

Bu kitabda Azərbaycanın Mirzə Fətəli Axundzadə, Mirzağa Təbrizi, Hacı Məhəmmədtahir Mirzə, Üzeyir Hacıbəyli, Cəlil Məmmədquluzadə kimi insanların tərcümeyi-halı və digər bir neçə nəfər teatr səhnəsi ustaları barədə qısa

---

[14] S.Sərdariniya. Yaddaşti bər tarixçe-ye teatr-e Azərbaycan, Təbriz, nəşriyyat-e "Azərbaycan", 1357/1978

şəkildə məlumatlar verilir. Sonralar bu kitab müəllif tərəfindən təkmilləşdirilmiş və onun "Təbriz birincilər şəhəri" kitabının "İlk tamaşa və teatr Təbrizdə quruldu" adlı fəsli kimi nəşr edilmişdir. Kitabı oxuyan hər bir kəs bu gün Azərbaycanda, xüsusilə də, Təbrizdə teatr tarixi sahəsində geniş və diqqətəlayiq bir tədqiqatla tanış olur.

2. **“Əli Müsyö: rəhbər-e mərkəz-e qeybi-ye Təbriz”** (*“Əli Müsyö: Təbriz gizli mərkəzinin rəhbəri”*).[15]

Bu əsərdə Əli Müsyönün tərcümeyi-halı və Təbrizin "Mərkəzi-qeybi"sinin (gizli mərkəzinin) hərəkət və fəaliyyətləri barədə məlumatlar verilmişdir. Müəllifin Məşrutə tarixi və "Mərkəzi-qeybi"nin fəaliyyəti barədə nəşr etdiyi ilk əsəri oxucular tərəfindən çox böyük maraqla qarşılanmışdır. Bu kitab, əslində, sonralar müəllif tərəfindən "İran məşrutə inqilabında Təbriz mərkəzi-qeybisinin rolu" adlı tam və əhatəli bir əsərin yazılması üçün müqəddimə oldu.

3. **“Tarix-e ruzname və məcəlleha-ye Azərbaycan”, celd-e əvvəl** (*“Azərbaycan qəzet və jurnallarının tarixi”, 1-ci cild*).[16]

Bu kitabın mündəricatında "Məşrutədən öncəki mətbuat", "Azərbaycanda nəşr olunmuş ilk qəzetlər", "Məşrutə dövrü qəzetləri", Məşrutə dövrünün irticaçı qəzetləri", "Məşrutə dövrünün satirik qəzetləri" başlıqlı fəsillərə və həmçinin, müvafiq olaraq, bu fəsillərdə adları getmiş qəzetlər haqqında ayrıca şərhlərə rast gəlirik.

---

[15] S.Sərdariniya. Əli Müsyö; rəhbər-e mərkəz-e qeybi-ye Təbriz, Tehran, “Dünya”, 1359/1980

[16] S.Sərdariniya. Tarix-e ruzname və məcəlleha-ye Azərbaycan, Tehran, "Donya", 1360/1982, 144 s.

4. **“Nəqş-e mərkəz-e qeybi-ye Təbriz dər enqelab-e məşrutiyyət-e İran”** (*“İran Məşrutə inqilabında Təbriz gizli mərkəzinin rolu”*).[17]

1984-cü ildə çap edilən bu kitab, əslində, müəllifin 1980-ci ildə “Əli Müsyö; rəhbər-e mərkəz-e qeybi-ye Təbriz” (*“Əli Müsyö; Təbriz gizli mərkəzinin rəhbəri”*) adlı əsərinin tamamlanmış və təkmilləşdirilmiş variantıdır. Kitabda, ilk öncə, Mərkəzi-qeybi, Əli Müsyö və "İran İctimaiyyun-amiyun" təşkilatı barədə məlumat verilir və daha sonra Mərkəzi-qeybinin təsisi və tarixi şərh edilir, müəyyən tarixi dövrlərdə təşkilatın fəaliyyəti, mövqeyi, gördüyü işlər, ayrı-ayrı şəxslər və qruplarla əlaqələri göstərilir. Əsərin sonunda isə Əli Müsyö və övladları barədə qısa tərcümeyi hallar təqdim olunur. Bu kitab Təbrizdə "Mərkəzi-qeybi"nin yaranması və fəaliyyəti barədə indiyə kimi nəşr olunmuş ilk ən mükəmməl və əhatəli tədqiqat işi hesab oluna bilər.

5. **“Baqer xan salar-e melli”** (*“Salari-milli Bağır xan”*)[18] kitabı Cənubi Azərbaycanın mərkəzi Təbriz şəhərində Məşrutə inqilabı rəhbərlərindən və qəhrəmanlarından, eyni zamanda, Səttarxan Sərdari-millinin ən yaxın silahdaşı olan Bağır xanın həyatından bəhs edir. Bu kitab Dr. Seyfəddin Altaylı tərəfindən Türkiyə türkcəsinə tərcümə edilərək, 1996-cı ildə Ankarada nəşr olunmuşdur.

---

[17] S.Sərdariniya. Nəqş-e mərkəz-e qeybi-ye Təbriz dər enqelab-e məşrutiyyət-e İran, "Təlaş", 1984, 320 s.

[18] S.Sərdariniya. Baqer xan salar-e melli, Təbriz, "İraniyan", 1369/1990, 159 s.

6. **"Məşahir-e Azərbaycan", celd-e əvvəl** (*"Azərbaycanın məşhurları", 1-ci cild*).[19]

Bu kitab S.Sərdariniyanın əsərləri içərisində ən yüksək yerlərdən birini tutur və onun məşhur kitablarından biridir. Kitabda 26 nəfər, o cümlədn,  Hüseyn xan Bağban, Baxşəli xan Yekani, Hacı Əli Davaçı, Hacı Mehdi Küzəkonani, Məşədi Məhəmmədsadıq xan Çərəndabi, Mir Kərim Bəzzaz, Məşədi Məhəmməd Əmoğlu Üskui, Mirzə Qafar xan Zünuzi, Mir Əbdülhüseyn Xazin Xiyabani, Hacı Rza Sərraf Təbrizi, Mirzə Mahmud Qənizadə, Səid Salmasi, Mirzə Həsən Rüşdiyyə, Mirzə Cabbar Bağçaban, Hacı Məhəmməd Naxçıvani, Məhəmmdəli Tərbiyət, Şəhriyar və s. kimi Azərbaycan mücahidləri, mübarizləri, şairləri və alimləri barədə ətraflı şərhlər verilir. Şəxsiyyətlər barədə şərhlərdən sonra kitabın sonunda "Şəhriyar və Azərbaycan", "Azərbaycan yeni şeirin beşiyidir", "Azərbaycan nümayəndələri 1-ci İran Şura Məclisində", "Tənbaku hərəkatında Azərbaycanın rolu", "Təbriz bələdiyyəsi", "Təbriz polis idarəsi", "İstanbulda iranlıların Səadət cəmiyyəti", "Sədaət məktəbi və qəzeti", "Azərbaycanın ilk satirik mətbuat orqanları", "Molla Nəsrəddin və İran" kimi başlıqlar altında müəllifin elmi-tədqiqat xarakterli dəyərli məqalələri verilmişdir.

7. **"Məşahir-e Azərbaycan", celd-e dovvom** (*"Azərbaycanın məşhurları", 2-ci cild*).[20]

---

[19] S.Sərdariniya. Məşahir-e Azərbaycan, Celd 1, enteşarat-e "Zövqi", Təbriz, 1370/1991, 591 s.

[20] S.Sərdariniya. Məşahir-e Azərbaycan, Celd 2, enteşarat-e "Şayeste", Təbriz, 1379/2000, 555 s.

S.Sərdariniyanın bu kitabında da, eyni adlı kitabın 1-ci cildində olduğu kimi, Azərbaycanın Səttarxan, Bağırxan, Siqqətülislam, Xiyabani, Əli Müsyö, Məhəmmədtağı xan Pesyan, Pərvin Etesami, Hacı Hüseyn xan Maralani, Mirzə Saleh xan Bağmeşəli, Əsəd ağa Fişəngçi, Hacı Məhəmmədəli Badamçı və s. kimi 29 nəfər görkəmli şəxsiyyətləri barədə ətraflı məlumat verilir. Bu kitabın da sonunda müəllifin "Azərbaycanlılar Məşrutə inqilabı dövründə mədəni cəmiyyətdə yaşadılar", "Məşrutə inqilabında Təbriz ianə komissiyası", "Milli Bankın təsisində Təbrizin rolu", "İranda karikaturanın yaranması və onun Məşrutənin inkişafında rolu", "Şəhriyarın mənzilində", "Məşrutə hərəkatından sapma və Xiyabaninin qatili", "Rusların ultimatumuna qarşı Müdərris deyil, Xiyabanı çıxdı", "İranlıların rus inqilabında rolu" və s. bu kimi elmi-tədqiqat xarakterli yazıları dərc edilmişdir.

8. **"Molla Nəsrəddin dər Təbriz"** (*"Molla Nəsrəddin Təbrizdə"*).[21]

Müəllifin bu kitabında göstərilir ki, "Molla Nəsrəddin" karikatura fenomenini İrana gətirən ilk qəzetdir. Bu qəzet dövrünün ziyalısı Cəlil Məhəmmədquluzadə tərəfindən Bakı, Tiflis və Təbriz şəhərlərində nəşr edilmişdir. Kitabda S.Sərdariniya qəzetin Təbrizdə nəşr olunmuş səkkiz sayının tarixçəsindən, ondakı materialların məzmun və hədəflərindən bəhs edir. Daha sonra Cəlil Məhəmmədquluzadənin şəxsiyyəti, xarakteri və fəaliyyətləri barədə məlumatlar təqdim olunur.

---

[21] S.Sərdariniya. Molla Nəsrəddin dər Təbriz, Təbriz, "Hadi", 1371/1992, 392 s.

9. **“Təbriz dər nehzət-e tənbaku”** (*“Təbriz tənbəki hərəkatında”*).[22]

S.Sərdariniya bu kitabında ilk öncə XIX əsrin sonuna doğru bölgədə yaranmış real vəziyyəti təsvir edir, sonra bu dövrdə İranın və Azərbaycanın siyasi mövqeyinin şərhini verir. Davamında kitabda İngilis-İran müqaviləsinin "Əxtər" qəzeti vasitəsilə xalq üçün açıqlanması və Təbriz əhalisinin bu müqaviləyə qarşı "Tənbəki hərəkatı" adı ilə tarixə düşmüş qiyamı təsvir edilir. Müəllif bu əsərində Tənbəki hərəkatının Hacı Mirzə Cavadağa Müctəhid, Zeynəb paşa, Hacı Məhəmməd Kazım Məliküttüccar, Hacı Möhsün Müəyyənülmülk kimi tanınmış simalarını oxucularına təqdim edir. Kitab təkrar olaraq 2016-cı ildə Təbrizin "Əxtər" nəşriyyatında çap edilmişdir.

10. **“Azərbaycan pişqam-e camee-ye mədəni”** (*“Azərbaycan mədəni cəmiyyətin öncülüdür”*).[23]

Müəllif bu kitabında İran İslam Respublikasında prezident seçkilərində iştirak edən namizədlərin hakimiyyətə gəldikləri təqdirdə, mədəni cəmiyyəti quracaqlarını, bununla da, vətəndaşların demokratik hüquqlarını təmin edib qoruyacaqlarına söz verdikləri halda, hələ 100 il bundan əvvəl azərbaycanlıların İranda ilk mədəni cəmiyyəti yaratdıqlarını tarixi faktlar və əsaslı dəlillərlə ortaya qoyur. S.Sərdariniya, Azərbaycanın İranda mədəni cəmiyyətin ya-

---

[22] S.Sərdariniya. Təbriz dər nehzət-e tənbaku, Təbriz, "Aşina", 1377/1998, 181 s.

[23] S.Sərdariniya. Azərbaycan pişqam-e camee-ye mədəni, Təbriz, “Hadi”, 1378/1998, 152 s.

ranmasında rolunu bu kitabın "Azərbaycan mədəni cəmiyyətin tarixi öncülüdür", "Azərbaycan qanunun aliliyinin və demokratiyanın möhürüdür", "Azərbaycan xalq şuralarının yaradılmasının öncülüdür", "Təbrizdə ilk xalq polisi" və "Təbriz milli jurnalistikanın banisi" başlıqlarlı altı fəsilində açıqlayır.

11. **"İrəvan yek vilayət-e mosəlman neşin bud"** (*"İrəvan müsəlman sakinli vilayət olmuşdur"*).[24]

Dr.S.Sərdariniyanın bu kitabında Türkmənçay müqaviləsi (1828) ilə Şimali Azərbaycanın çarizmin əsarətinə düşməsindən sonra ermənilərə bu bölgədə yaradılmış şərait, verilmiş imtiyazlar açıqlanır. Kitabda gedən məlumatlarda göstərilir ki, çar Rusiyası İrəvan və onun ətrafındakı əyalət və yaşayış məntəqələrindəki demoqrafik mənzərəni ermənilərin xeyrinə dəyişdirmək məqsədilə əsaslı tədbirlər həyata keçirmişdir. Belə ki, ruslar ermənilərin arzusu ilə İrəvan mahalını və onun ətrafındakı 4 xanlığı, 41 bəyliyi və sultanlığı ləğv edib türkləri (azərbaycanlıları) oradan köçməyə məcbur etmişlər.[25] Müəllifin bu kitabını vərəqlədikcə, son 100 ildən artıq bir müddətdə erməni cəlladlarının azərbaycanlılara qarşı törətdikləri çoxsaylı qətllərin, talan və zorakılıqların geniş panoraması göz önünə gəlir.[26]

---

[24] S.Sərdariniya. İrəvan yek vilayət-e mosəlman neşin bud, Tehran, "Zufa", 1379/2010, 247 s.

[25] S.Sərdariniya. İrəvan müsəlman sakinli vilayət olmuşdur, Bakı, "Zərdabi" nəşriyyatı, 2014, s.5

[26] S.Sərdariniya. İrəvan müsəlman sakinli vilayət olmuşdur, Bakı, "Zərdabi" nəşriyyatı, 2014, s.7

12. **"Təbriz şəhr-e əvvəlinha"** (*"Təbriz birincilər şəhəridir"*).[27]

S.Sərdariniyanın 780 səhifədən ibarət bu kitabı Təbrizin adını tarixdə bir daha əbədiləşdirdi. Bu kitab Şərqi Azərbaycan ostanının "Azərbaycan Mədəniyyət, İncəsənət və Ədəbiyyat Mərkəzi" tərəfindən ilk dəfə nəşr edildikdən sonra (2003) bir çox insanların marağına səbəb oldu və bu nəşr oxucular tərəfindən çox yüksək qarşılandığından bir neçə dəfə nəşr olundu. Kitabın sonuncu 5-ci nəşri (2014) Təbrizin "Əxtər" nəşriyyatına məxsusdur. Müəllifin tərtib etdiyi bu topluda oxucular İrana mədəniyyət, ədəbiyyat, incəsənət, sənaye, idman və s. sahələrdə müasir sivil yenilikləri gətirən təbrizlilərin yaradıcılıqları ilə tanış oluruq. Bu kitab, hər birində Təbrizdəki bir və ya bir neçə tarixi yenilikdən (ilk çapxana, ilk xarici kitabın tərcüməsi, ilk müəllimlər evi, ilk ümumi kitabxana, yeni poeziya və ədəbi tənqid, İranda ilk kino-teatr, ilk tamaşa və teatr, ilk fotoqrafiya, ilk xalçaçılıq fakültəsinin təsisi, ilk tibb bacısı və mamalıq məktəbi, ilk fabrik-zafodların tikintisi və s.) bəhs edən 41 fəsildən ibarətdir.

13. **"Darolfonun-e Təbriz, dovvomin mərkəz-e amuzeş-e ali-ye İran"** (*"Təbriz Darülfününu İranın ikinci ali təhsil mərkəzidir"*).[28]

S.Sərdariniyanın bu kitabı Qacar dövründə ali təhsil ocağı olan Təbriz Darülfünununun (Akademiyasının) necə

[27] S.Sərdariniya. Təbriz şəhr-e əvvəlinha, Təbriz, Kanun-e fərhəng və honər və ədəb-e Azərbaycan (Azərbaycan Mədəniyyət, İncəsənət və Ədəbiyyat Mərkəzi), 2003, 780 s.

[28] S.Sərdari niya. Darolfonun-e Təbriz, dovvomin mərkəz-e amuzeş-e ali-ye İran, Təbriz, "Neda-ye Şəms", 1382/2003, 129 s.

təsisi, quruluşu və fəaliyyəti və eyni zamanda da, fəaliyyət göstərdiyi müddətdə bu bölgənin mədəniyyətinə əhəmiyyətli təsirindən, gənc nəslin tərbiyəsində və bir sıra istedadlı gənclərin maarifləndirilməsi işində rolundan danışır. Kitabda getmiş "Azərbaycan məktəblərində türk dilinin tədrisi tarixi"  başlıqlı yazı müəllifin özünün bildirdiyi kimi, Azərbaycanda təhsilin, təlim-tərbiyənin tarixindən danışan tədqiqat işlərindən biridir və həmin yazı müəllif tərəfindən ilk dəfə "Nəvid-e Azərbaycan" qəzetinin 2003-cü ildəki  xüsusi "Novruz"  buraxılışında dərc edilmişdir. Bu mövzu günümüzdə də daha çox öyrənilə və araşdırıla bilən məsələlərdən biridir.[29]

14. **"Qətl-e am-e mosəlmanan dər do su-ye Ərəs"** (*"Arazın hər iki tayında müsəlmanların soyqırımı"*).[30]

Müəllifin bu kitabı barədə öncə məlumat verilmişdir.

15. **"Təbriz məhd-e sənət-e çap dər İran"** (*"Təbriz İranın çap sənətinin beşiyidir"*).[31]

Müəllif, 1817-ci ildə Təbrizdə ilk çap maşınının işə salınmasını ölkənin bir çox sahələrində əmələ gələn böyük bir dəyişikliyin başlanğıcı və İran cəmiyyətinin yeni dünya sisteminə daxil olması kimi dəyərləndirir. Müəllif, bu kitabında Tənbəki hərəkatının ortaya çıxmasını, Məşrutə inqilabını, yeni tipli məktəblərin, teatrların, kinoteatrların yaradılmasını həmin başlanğıcdan sonrakı tarixi inkişafın nəticələri kimi təqdim edir.

---

[29] S.Sərdari niya. Darolfonun-e Təbriz, s.7

[30] S.Sərdari niya. Qətl-e am-e mosəlmanan dər do su-ye Ərəs, Təbriz, "Əxtər, 1383/2004, 211 s.

[31] S.Sərdari niya. Təbriz məhd-e sənət-e çap dər İran, 1384/2005, 182 s.

16. "**Qərebağ dər qozərqah-e tarix**" (*"Qarabağ tarixin gedişində"*).[32]

Bu əsərdə müəllif tərəfindən Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan və erməni daşnakları tərəfindən işğal edilmiş və 30 ilə yaxın bir müddət ərzində düşmənin nəzarəti altında olmuş olan Dağlıq Qarabağın tarixini öyrənməyə cəhd göstərilmişdir. Müəllifə görə, qədim dövrlərdə Qarabağda bir çox şəhər tikilmişdir. Onlardan bəziləri hərbi məqsədlər üçün, bəziləri də ticarət yolları üzərində inşa edilmişdir və bu şəhərlər regional əhəmiyyətə malik idilər. Müəllif adıgedən əsərində göstərir ki, həmin şəhərlərdən bir neçəsi sonradan hökmdarların iqamətgahına, bəziləri isə sənaye mərkəzlərinə çevrildi. Eyni zamanda, əsərdə qeyd olunur ki, Qarabağın dağlıq ərazisindəki bütün digər şəhərlər də eyni xüsusiyyətlərə malik idi. Belə ki, onlarda yaşayış yerləri, iqamətgahlar, hərbi qalalar, ticarət və sənətkarlıq mərkəzləri var idi. Müəllif kitabda Bərdə şəhərinin tarixinə və təsvirinə xüsusi yer ayırmışdır.

17. **"Bələdiye-ye Təbriz: nəxostin şəhrdari-ye İran"** (*"Təbriz bələdiyyəsi: İranın ilk şəhər bələdiyyəsi"*).[33]

Müəllif bu kitabda Təbrizin çağdaş tarixdəki rolunu, təbrizlilərin yaradıcılıq qabiliyyətlərini, yeniliklərini və qəhrəmanlıq dastanlarını göstərməyə çalışmış, burada da

---

[32] Sərdariniya. Qərebağ dər qozərqah-e tarix, Təbriz, "Neda-ye Şəms", 1384/2005, 550 s.

[33] S.Sərdariniya. Bələdiye-ye Təbriz: nəxostin şəhrdari-ye İran, Təbriz, Setad-e bər qozari-ye yeksədomin sal-e təsis-e şura və şəhrdari-ye Təbriz (Təbriz şəhər şurası və bələdiyyəsinin qurulmasının 100 illiyi qərargahı),1386/2007, 112 s.

Təbrizi birincilər şəhəri olaraq təqdim etmişdir. Bu məqsədlə də, o, Təbrizdə baş vermiş yenilikləri bir daha gündəmə gətirmiş və yazmışdır ki, ilk mətbəə Təbrizdə quruldu, xarici kitablar ilk dəfə Təbrizdə tərcümə edildi, Əbdürrəhim Talıbov Təbrizi modern nəsrin qurucusu, Axundzadə ilk roman və pyesin müəllifi oldu, Təbriz uşaq ədəbiyyatının beşiyi, Təbriz milli jurnalistikanın ixtiraçısı idi, ilk İran kinosu Təbrizdə yaradıldı, ilk tamaşa və teatr Təbrizdə quruldu və s.

18. **"Seyri dər tarix-e Azərbaycan"** (*"Azərbaycan tarixinə bir baxış"*).[34]

S.Sərdariniyanın bu kitabı Azərbaycanın keçmişindən Məşrutə hərəkatı dövrünə qədər olan tarixinə qısa bir baxışdır. Müəllif kitabda Azərbaycanın bölgədəki geostrateji və geosiyasi mövqeyini və əhəmiyyətini qeyd edərək, onu Şərqin qapısı adlandırır, bu bölgənin ilk insan məskənlərindən biri olduğunu bildirir və daha sonra məlum faktlara və statistikaya söykənərək, göstərir ki, Azərbaycan həm də əkinçilik və heyvandarlığın inkişaf etdiyi bir diyar olmuş, onun xalqı ictimai iş sistemini yaratmış, İslamın yaranmasından əvvəl inkişaf etmiş sivilizasiyaların yaradıcısı olan mədəni xalqların da vətəni olmuşdur. Belə ki, azərbaycanlıların İslamı qəbul etməsi bu bölgənin tarixində yeni bir səhifə açmış və bu insanların taleyini və kimliyini dəyişdirmişdir. Bu əsnada müəllif Azərbaycan xalqının Babək Xürrəminin başçılığı altında Əməvi və Abbasi xəlifələrinin zülmünə qarşı mübarizəsindən də danışır.

---

[34] S.Sərdariniya. Seyri dər tarix-e Azərbaycan, Təbriz, "Əxtər", 1386/2007, 244 s.

S. Sərdariniya bu kitabında yazır ki, orta əsrlərdə Azərbaycanda hakim sülalələrin böyük əksəriyyəti türklər olmuşdur. və o, Səfəvi dövlətinin yaranmasını da İran tarixinin ən mühüm hadisələrindən biri kimi qeyd edir, Qacar sülaləsinin hakimiyyəti dövründə Təbrizin siyasi, iqtisadi və mədəni rol oynadığına, İran-Rusiya müharibələri bitdikdən və Azərbaycanın bölünməsindən sonra İran Məşrutə İnqilabına qədər modernləşmə və islahatlar mərkəzi olduğuna işarə edir.

19. **"Əmir Heşmət Neysari qəhrəman-e Məşrute"** *("Məşrutə qəhrəmanı Əmir Hişmət Neysari").*[35]

Müəllif, Məşrutə inqilabının qəhrəmanlarından olan Əbülhəsən xan Əmir Heşmət Neysarinin timsalında azərbaycanlıların sözügedən hərəkatdakı mərdliyini və qəhrəmanlıqlarını nəinki İran xalqları üçün, eləcə də, bütün Şərq xalqları üçün bir nümunə kimi göstərir.

***S.Sərdariniyanın tərcümə etdiyi əsərlər:***

20. **"Cəng-e Qərebağ"** (*"Qarabağ müharibəsi"*) kitabı Azərbaycanın tanınmış əməkdar jurnalisti mərhum Ziyəddin Sultanovun 2005-ci ildə Bakıda nəşr edilmiş "Qarabağ gündəliyi" kitabının tərcüməsidir və əslində, bu kitab birinci Dağlıq Qarabağ müharibəsinin gündəlik xronikasıdır. Kitab fars dilində 125 səhifədə ilk dəfə 2005-ci ildə "Haşimi Sudmənd", ikinci dəfə isə 2018-ci ildə Təbrizin "Əxtər" nəşriyyatı tərəfindən çap olunmuşdur.[36]

---

[35] S.Sərdariniya. Əmir Heşmət Neysari qəhrəman-e Məşrute, Təbriz, "Əxtər, 1394/2015, 136 s.

[36] "Ana Varlıq" dərgisi, yaz 1397/2018, No 7, s.48

21. **“Baku şəhr-e nəft və musiqi”** (*“Bakı neft və musiqi şəhəridir”*) kitabı Manaf Süleymanovun 1989-cu ildə Bakıda nəşr olunmuş və çox qısa zaman kəsiyində nadir kitablardan birinə çevrilmiş "Eşitdiklərim, oxuduqlarım, gördüklərim" kitabından tərcümələrdir. Adıgedən tərcümə kitabın, əsasən, XX əsrin əvvəllərində Bakı şəhərinin təsvirinə həsr edilmişdir. Kitabda o dövr Bakısının mühiti və mədəni həyatı ilə tanışlıqdan əlavə, öz sərvətini Azərbaycan mədəniyyətinin və elminin inkişafı və genişlənməsi üçün sərf edən Zeynalabdin Tağıyev kimi görkəmli şəxsiyyətlərin siması da farsdilli oxuculara təqdim olunur.

Kitab fars dilində 704 səhifədə ilk dəfə 2006-cı və ikinci dəfə 2016-cı ildə Təbrizdə "Əxtər" nəşriyyatı tərəfindən çap edilmişdir.[37]

22. **“Salha-ye xunin”** (*“Qanlı illər”*) kitabı Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan yazıçı Məmməd Səid Ordubadinin 1905-1906-cı illərdə Qafqazda erməni-müsəlman müharibələri tarixindən bəhs edən və 1911-ci ildə "Qanlı sənələr", 1991-ci ildə "Qanlı illər" adı ilə Bakıda nəşr olunmuş əsərinin tərcüməsidir. Kitabın fars dilində tərcüməsi 2018-ci ildə "Əxtər" (Təbriz) nəşriyyatı tərəfindən çap edilmiş və yayılmışdır.

***S.Sərdariniyanın çap olunmamış əsərləri:***

23. **“Tarix-e səd sale-ye bələdiyye-ye Təbriz”** (*“Təbriz bələdiyyəsinin 100 illik tarixi”*) kitabı əlyazmasında 310 səhifədə yazılmış və 60 fəsildən ibarətdir. Güney Azərbaycanın tanınmış tədqiqatçılarından olan Nəvid Məhəmmədi və Aydın Sərdariniyanın (Səməd Sərdariniyanın oğlu, "Ana

---

[37] "Ana Varlıq" dərgisi, yaz 1397/2018, No 7, s.49

Varlıq" dərgisinin təsisçisi və baş redaktoru) verdikləri məlumata görə, kitaba mövzular üzrə müvafiq şəkillər də əlavə edildikdən sonra 400 səhifədə çapı planlaşdırırlır.[38]

24. "**Neqargəran-e bozorg-e Azərbaycan**" (*"Azərbaycanın böyük rəssamları"*) kitabı, Azərbaycanın Mir Müsəvvər, Rəssam Ərjəngi, Tahirzadə Behzad, Kəmaləddin Behzad və Sultan Məhəmməd Təbrizi kimi 5 görkəmli rəssamı və onların yaradıcılıqları barəsindədir. Kitab 2003-cü ildə Kəmaləddin Behzadın yubileyi münasibətilə çapa hazırlanmışdı, amma təşkilatçılar vədlərinə əməl etmədiklərindən, adıgedən kitab bu günə kimi öz nəşrini gözləməkdədir.[39]

25. "**Təbriz dər douran-e xan neşini**" (*"Tərbiz xanlıqlar dövründə"*) kitabında Azərbaycan və xüsusilə, Təbriz tarixinin haqqında danışılmayan hadisələrinə, xüsusilə də, İranın federal olaraq idarə olunduğu, eyni zamanda, Azərbaycanda xanlıqlar, sultanlıqlar və məlikliklər kimi idarə sistemlərinin mövcud olduğu dövrlərə toxunulub.[40]

26. "**Tarix-e mətbuat-e Azərbaycan**" (*"Azərbaycanın mətbuat tarixi"*) kitabı əslində S.Sərdariniyanın öncə haqqında danışdığımız "Azərbaycan qəzet və jurnallarının tarixi" kitabının təkmilləşdirilmiş variantıdır.[41]

27. "**Məşahir-e Azərbaycan", celd-e sevvom** (*"Azərbaycan məşhurları", 3-cü cild*) kitabı da 1-ci və 2-ci cildin davamı olmaqla Azərbaycanın Hüseyn Ümid, Əli Dehqan, Molla İmamverdi Meşkini, Həbib Sahir, Səfər Qəhrəmani, Hacı

---

[38] "Ana Varlıq" dərgisi, yaz 1397/2018, No 7, s.51
[39] "Ana Varlıq" dərgisi, yaz 1397/2018, No 7, s.52
[40] "Ana Varlıq" dərgisi, yaz 1397/2018, No 7, s.53
[41] "Ana Varlıq" dərgisi, yaz 1397/2018, No 7, s.53

Mirzə Əli Nağı Gəncei, Məhəmmədəli Tərbiyət, professor Məhəmmədəli Fərzanə, Bulud Qaraçorlu Səhənd, Gəncəli Səbahi, Dr. Qulamhüseyn Saedi və başqa görkəmli şəxsiyyətlərinin həyat və yaradıcılıqları barədə məlumat verir.[42]

28. "**Azərbaycan sərzəmin-e əyyaran**" (*"Azərbaycan igidlər diyarıdır"*) kitabı S.Sərdarniyanın ayrı-ayrı illərdə müxtəlif mətbuat orqanlarında və nəşrlərdə çap olunmuş məqalələrinin toplusudur. Topluda müəllifin 22 məqaləsi yer almışdır.[43]

29. "**Mar-e xaldar**" (*"Xallı gürzə"*) müasir Azərbaycan yazıçısı Mustafa Çəmənlinin Qarabağ xanlığının təsisinə və Molla Pənah Vaqifin XVIII əsrin əvvəllərində bu xanlıqda idarəçiliyi əlinə alması və buradakı tarixi hadisələrə həsr etdiyi "Xallı gürzə" adlı tarixi romanının fars dilinə tərcüməsidir. Romanın tərcüməsi S.Sərdariniya tərəfindən başa çatdırılmamış və yarımçıq qaldığından, işıq üzü görməmişdir.[44]

30. "**Nameha-ye Nəriman Nərimanof**" (*"Nəriman Nərimanovun məktubları"*) tərcümə kitabı S.Sərdariniyanın son işlərindən biridir. Tərcümə N.Nərmanovun 1992-ci ildə Bakıda kiril əlifbası ilə "Azərnəşr" tərəfindən buraxılmış "Ucqarlarda inqilabımızın tarixinə dair" adlı kitabı üzərindən aparılırdı. Təəssüf ki, vaxtsız ölüm S.Sərdariniyaya kitabı tamamlamağa imkan vermədi və farsdilli oxucular da bu kitab ilə tanış olmaq imkanı əldə edə bilmədilər.[45]

---

[42] "Ana Varlıq" dərgisi, yaz 1397/2018, No 7, s.53-54
[43] "Ana Varlıq" dərgisi, yaz 1397/2018, No 7, s.55
[44] "Ana Varlıq" dərgisi, yaz 1397/2018, No 7, s.55
[45] "Ana Varlıq" dərgisi, yaz 1397/2018, No 7, s.55

Səməd Sərdariniyanın yaradıcılığı, onun haqqında danışdığımız əsərləri Cənubi Azərbaycanda, eləcə də, İranın bütün nahiyyələrində məskunlaşmış azərbaycanlıların milli şüurunun inkişafında və formalaşmasında, Azərbaycan milli varlığının, milli mədəniyyətinin nəinki ölkənin digər xalqları və etnik qrupları arasında, eləcə də, beynəlxalq aləmdə tanıtdırılmasında, beləliklə də, İranda yaşayan digər xalqlar və etnik vahidlərlə qarşılıqlı milli-mədəni əlaqələrin qurulması və birgə idarəçilik məsələlərinin gündəmə gətirilməsində böyük əhəmiyyət kəsb etməklə, gələcək nəsillərin milli ruhda, vətənpərvərlik hissləri əsasında tərbiyəsində və yetişməsində əvəzsiz mənbədir.

## Ədəbiyyat


1. "Varlıq" jurnalı, No 1.; ordibeheşt 1358/ aprel-may 1979

2. "Ana Varlıq" dərgisi, No 7.; yaz 1397/2018

3. "Günəş" jurnalı, Tehran, 1980 (İran İslam inqilabının 2-ci ildönümü münasibətilə), No 1

4. S.Sərdariniya. Darolfonun-e Təbriz, dovvomin mərkəz-e amuzeş-e ali-ye İran *("Təbriz Darülfünunu İranın ikinci ali təhsil mərkəzidir")*, Təbriz, "Neda-ye Şəms", 1382/2003, 129 s.

5. S.Sərdariniya. Qətl-e am-e mosəlmanan dər do su-ye Ərəs *("Arazın hər iki tayında müsəlmanların soyqırımı")*, Təbriz, "Əxtər, 1383/2004, 211 s.

6. S.Sərdariniya. Təbriz məhd-e sənət-e çap dər İran *("Təbriz İranın çap sənətinin beşiyidir")*, 1384/2005, 182 s.

7. S.Sərdariniya. Azərbaycan pişqam-e camee-ye mədəni, *(“Azərbaycan mədəni cəmiyyətin öncülüdür”)*, Təbriz, “Hadi”, 1378/1998, 152 s.

8. S.Sərdariniya. Baqer xan salar-e melli *(“Salari-milli Bağırxan”)*, "İraniyan", 1369/1990, 159 s.

9. S.Sərdariniya. Bələdiye-ye Təbriz: nəxostin şəhrdari-ye İran *(“Təbriz bələdiyyəsi: İranın ilk şəhər bələdiyyəsi”)*, Təbriz, 1386/2007, 112 s.

10. S.Sərdariniya. Əli Müsyö; rəhbər-e mərkəz-e qeybi-ye Təbriz *(“Əli Müsyö; Təbriz gizli mərkəzinin rəhbəri”)*, Tehran, "Dünya", 1359/1980, 94 s.

11. S.Sərdariniya. Əmir Heşmət Neysari qəhrəman-e Məşrute *(“Məşrutə qəhrəmanı Əmir Hişmət Neysari”)*, Təbriz, "Əxtər, 1394/2015, 136 s.

12. S.Sərdariniya. İrəvan müsəlman sakinli vilayət olmuşdur, Bakı, “Zərdabi” nəşriyyatı, 2014.

13. S.Sərdariniya. İrəvan yek vilayət-e mosəlman neşin bud *(İrəvan müsəlman sakinli vilayət olmuşdur)*, Tehran, “Zufa”, 1379/2010, 247 s.

14. S.Sərdariniya. Məşahir-e Azərbaycan, Celd 1 *(“Azərbaycan məşhurları”, cild 1)*, enteşarat-e “Zövqi”, Təbriz, 1370/1991, 591 s.

15. S.Sərdariniya. Məşahir-e Azərbaycan, Celd 2 *(“Azərbaycan məşhurları”, cild 2)*, enteşarat-e “Şayeste”, Təbriz, 1379/2000, 555 s.

16. S.Sərdariniya. Molla Nəsrəddin dər Təbriz *(“Molla Nəsrəddin Təbrizdə”)*, Təbriz, "Hadi", 1371/1992, 392 s.

17. S.Sərdariniya. Nəqş-e mərkəz-e qeybi-ye Təbriz dər enqelab-e məşrutiyyət-e İran *(“İran Məşrutə inqilabında Təbriz gizli mərkəzinin rolu”)*, "Təlaş", 1984, 320 s.

18. S.Sərdariniya. Seyri dər tarix-e Azərbaycan *("Azərbaycan tarixinə bir baxış")*, Təbriz, "Əxtər", 1386/2007, 244 s.

19. S.Sərdariniya. Tarix-e ruzname və məcəlleha-ye Azərbaycan, celd 1, *("Azərbaycan qəzet və jurnallarının tarixi", 1-ci cild)*, "Donya", 1360/1982, 144 s.

20. S.Sərdariniya. Təbriz dər nehzət-e tənbaku *("Təbriz tənbəki hərəkatında")*, "Aşina", 1377/1998, 181 s.

21. S.Sərdariniya. Təbriz şəhr-e əvvəlinha *("Təbriz birincilər şəhəri")*, Təbriz, Kanun-e fərhəng və honər və ədəb-e Azərbaycan (Azərbaycan Mədəniyyət, İncəsənət və Ədəbiyyat Mərkəzi), 2003, 780 s.

22. S.Sərdariniya. Yaddaşti bər tarixçe-ye teatr-e Azərbaycan *("Azərbaycan teatr tarixinə dair bir qeyd")*, Təbriz, nəşriyyat-e "Azərbaycan", 1357/1978

23. Səməd Sərdariniya. Arazın hər iki tayında müsəlmanların soyqırımı – Bakı, "Elm" nəşriyyatı, 2006, 120 s.

24. Sərdariniya. Qərebağ dər qozərqah-e tarix *("Qarabağ tarixin gedişində")*, Təbriz, "Neda-ye Şəms", 1384/2005, 550 s.

25. Y.Hacıyeva. İran İslam inqilabından sonra cənubi azərbaycanlıların ana dili uğrunda mübarizəsi (1979-2005-ci illər). Bakı, "Adiloğlu" nəşriyyatı, 2017, 306 s.

# GİRİŞ

Qarabağ Azərbaycan Respublikasının bir regionudur. Onun tarixi adları "Uti", "Arran" ("Ərran") və "Aran" olmuşdur. Regionun tarixi olduqca qədimdir və o, əzəmətli bir ədəbiyyat və mədəniyyət beşiyidir. Onu görmüş hər kəs, məxsusən, qələm sahibləri bu füsunkar diyarın gözəlliklərinə, xüsusən, axan çaylarına, uca göylərə yüksələn dağlarına heyran olmuşlar. Məhəmməd Kazım Mərvi, عالم آرای نادری("Nadirin dünyanı bəzəməsi") əsərində yazır: "Qarabağ bahar fəslində özünün misilsiz yaşıllığı, çəmənləri, gül və çiçəkləri ilə cənnətin və behişt bağçasının bir nümunəsidir" (159).

Dağlıq Qarabağda doğulmuş və böyümüş Ziyəddin Sultanov, Murov dağı və onun yam-yaşıl və dilbər ətəklərini belə təsvir edir: "...Son aşırımdan (boğaz, gədik) da keçdik. İlan kimi qıvrılan yollar dağın meşəli dolanbacları ilə uzanıb gedirdi. Hər addımda və hər döngədə yeni bir mənzərə ilə rastlaşırdıq. Aşağıdakı Tərtər çayı, sanki, Günəşin aynası idi. Dəniz səviyyəsindən minlərlə metr yüksəkdə yerləşən Murov dağın ətəyində uca dağların arasındakı sıx meşələrin yam-yaşıl gözəlliyi insanı heyran edirdi".

Bu tarixi regionun böyük bir hissəsi, keşməkeşli taleli Dağlıq Qarabağ bir neçə ildir ki, erməni daşnakları tərəfindən işğal olunmuşdur və tarixinin ən acı günlərini yaşayır.

Qarabağ bəşəriyyətin ən qədim, ən zəngin və ən parlaq mədəniyyətlərindən birinə malik bir regiondur. Füzuli şəhəri yaxınlığında, Araz çayının şimal tərəfində yerləşən

Azıx mağarası və ona qonşu ərazilərdəki digər mağaralarda aparılmış tədqiqatlardan qiymətli elmi məlumatlar əldə olunmuşdur. Bəşəriyyətin ən böyük kəşflərindən biri olan ən qədim od və ocaq qalıqları məhz burada aşkar olunmuşdur. Bu üzdən bu regionda ən qədimdən insan məişətində əsrarəngiz dəyişikliklər baş vermişdir. Gəlinən elmi nəticələrə görə, bu ərazidə odun kəşfi 1 milyon 250 min il bundan qabaq baş vermişdir.

Yer kürəsinin bu regionunda yaşamış insan qrupları get-gedə qəbilə və tayfalara bölünmüşlər. Metalın kəşfi ilə burada şəhərlər meydana gəlmiş, ticarət inkişaf etməyə başlamış, dövlətlər yaranmışdır.

Azərbaycanın şimal vilayətləri, həmçinin, cənubi Dağıstan qədimdən Albaniya adlanmışdır. Albaniyanın ərazisində müxtəlif dillərdə danışan 24 qəbilə yaşamışdır. Onlardan ən böyüyü Utilər olmuşdur. Onların qalıqları hazırda Azərbaycan Respublikasının Qutqaşen (indiki Qəbələ) rayonunda "Udinlər" adı ilə yaşamaqdadırlar. Digər qəbilələrdən "Lulubəylər" və "Qutilər" e.ə. III-II minilliklərdə cənub, "Xəzərlər", yaxud "Kaspilər" isə qərb və cənub-qərb rayonlarda məskunlaşmışlar. İkincilərin yaşadıqları ərazinin adı "Kaspiana" olmuşdur. Xəzər dənizinin adı ordandır.

Araz çayının o tərəfindəki ərazilərdə, xüsusən də, Qarabağda yaşamış qəbilələr, bu regionun tarix və mədəniyyətinin formalaşmasında öz izlərini qoymuşlar. Onlardan biri olan "Quti"ləri assurilər "Ğuti" adlandırmışlar. Bu qəbilə Azərbaycanın qədim tarixində, onun maddi və mənəvi həyatında mühüm rol oynamışdır. İlk dəfə olaraq məşhur

italyan türkoloqu İ.Rusi 1937-ci ildə türk dilinin dilçilik materiallarını araşdıraraq, belə bir qənaətə gəlmişdir ki, "Quti" termini "Oğuz" termininin yeni bir variantıdır.

O dövrün Arran və hazırkı Qarabağ vilayəti 646-cı ildə xəlifə Osman bin Əffanın zamanında ərəb sərkərdəsi Salman Baheli tərəfindən ələ keçirilmişdir. O ildən sonra yerli əhali islam dinini qəbul etmiş və Qarabağ müsəlman əhalinin yaşadığı ölkələrdən birinə çevirilmişdir. Beləliklə, bu regionun taleyi və müstəqilliyi yeni məzmun kəsb etmişdir. Xalqın islamı qəbul etməsi xristianlıq və atəşpərəstliyi aradan qaldırmış, cəmiyyətdə dini vəhdət yaratmışdır.

Abbasi sülaləsinin hakimiyyəti dövründə dövlət daxilində ixtilaflar baş qaldırana qədər bütün müsəlman ölkələrində, o cümlədən, Azərbaycanda hakimlər xəlifə tərəfindən təyin olunmuşdur. Ancaq IX əsrin əvvəllərindən etibarən Abbasi xilafəti zəifləməyə başlamış, Azərbaycanda, o cümlədən, Arranda da yerli hakimlər müstəqil hakimiyyətin əsasını qoymuşlar. Belə bir şəraitdə Azərbaycanda, eləcə də, o vaxtkı adı ilə Arranda, indiki Qarabağda ilk olaraq müstəqil Salarilər dövləti yaranmışdır. Bu sülalənin ən güclü hökmdarı Salar Mərzban olmuşdur.

Salarilərin zəifləməsi ilə Araz çayının cənubunda Rəvvadilər, şimalında isə Şəddadilər hakimiyyətə gəlmişlər. Şəddadi hökmdarlarının paytaxtı əvvəl Dvin (Debil), sonra Gəncə şəhərləri olmuşdur.

İslam tarixində türk səlcuq sülaləsinin hakimiyyətə gəlməsi böyük hadisə olmuş və yeni dövrün əsasını qoymuşdur. 1054-cü ildə səlcuq hökmdarı Səlcuq Toğrul Azərbaycana gəlmiş, Təbrizdə Rəvvadiləri, Gəncədə isə Şədda-

diləri özünə tabe etdirmişdir. 1067-ci ildə Alp Arslanın Arranı ələ keçirməsi ilə Xəzər dənizinin sahillərindən Dərbəndə qədər bütün vilayətlərə türk valilər təyin olunmuşdur.

"İran tarixi" əsərinin Kembric Universitetindən olan müəlliflərinin yazdıqlarına görə, həmin dövrdən etibarən, türkmənlərin perspektiv bazası kimi Azərbaycanın xüsusi önəmi başlamışdır. Azərbaycan xristian aləmi ilə ortaq sərhədə malik vilayət olaraq və məhsuldar əraziləri ilə türkmənlərin təmərküzləşdiyi, türkdilli (azərbaycanlı) etnik cəmiyyətin aparıcı olduğu regiona çevrilmişdir. Bu özəllik bu günə qədər qorunub saxlanılmışdır.

Məlikşah Səlcuq bütün Arran-Azərbaycanın idarəsini əmisi oğlu Qütbəddin İsmayıl bin Yaqutiyə həvalə etmiş və ona Məlik adı vermişdir. Bununla da, ikincinin hakimiyyəti rəsmiləşdirilmişdir.

Azərbaycan Atabəylərinin hakimiyyəti dövründə də Qarabağ adıgedən sülalənin idarəçiliyi altında olmuşdur. Qızıl Arslanın 1191/1192-ci ildə öldürülməsindən sonra onun qardaşının oğlu Nüsrətəddin ləqəbli Əbubəkr taxta keçmişdir. 1210/1211-ci ildə Nüsrətəddin Əbubəkrin ölümündən sonra onun qardaşı, sonuncu Azərbaycan atabəyi Müzəffərəddin Özbək hakimiyyətə gəlmiş, 15 il müddətində Azərbaycanın, o cümlədən, Qarabağın hakimi olmuşdur. 1263/1264-cü ildə monqolların qorxusundan Gəncəyə qaçmış Cəlaləddin Xarəzmşah, Naxçıvan yaxınlığındakı Əlincə qalasına sığınmışdır.

1221/1222-ci ildə Arran regionunda Gəncənin yerli qazilərinin dəfələrlə gürcülərin hücumunu qəhrəmancasına dəf etdiklərini eşidən monqollar, bu şəhərə hücum etmək-

dən çəkindilər. Onlar Beyləqanda qırğın və dağıntılar törətdikdən sonra Gəncədən əldə etdikləri cüzi pul və müxtəlif mallar müqabilində Gəncəyə hücum etmədən onun kənarından keçərək, yollarına davam etdilər.

Bu arada monqollardan qaçmış Cəlaləddin Xarəzmşah öz kiçik dəstəsi ilə qətllər törədir, talançılıqla məşğul olurdu. Buna qarşı yerli xalq mərdanə bir şəkildə qiyamlar qaldırırdı. Gəncədə 1231-ci ildə Ustad Bəndarın başçılığı ilə baş vermiş belə xalq qiyamlarından birinin uğurla başa çatması böyük əhəmiyyətə malik idi.

Axırda monqollar Azərbaycanı, o cümlədən, Qarabağı ələ keçirdilər. Monqol işğalı xalqın taleyində müsibət dolu nəticələrə səbəb oldu.

İlxanilərin hakimiyyəti dövründə Təbriz və Marağanın paytaxt rolunu oynamasına baxmayaraq, Qarabağ regionu da öz fövqəladə əhəmiyyətini qoruyurdu. Məhz bu dövrdən başlayaraq, regionun Arran adı Qarabağ adı ilə əvəz olundu.

İlxani hökmdarları Qarabağ regionunu qışlaq kimi dəyərləndirdiklərinə görə, o dövrdə burada bir çox hadisələr baş vermişdir. Məsələn, Qazan xan Qarabağın hakimi oldu, Ulcaytu burada şiə məzhəbini qəbul etdi, Ərğun şah və Əbu Səid Bahadur burada dünyalarını dəyişdilər.

Olcaytu (Sultan Məhəmməd Xudabəndə) 1307-ci ilin qışında Qarabağın dilbər guşələrindən birində şiə məzhəbini qəbul etməsinə görə, ölkədə ilk dəfə məhz bu bölgədə şiəlik rəsmi şəkildə yayılmağa başladı.

Dəfələrlə Azərbaycana qoşun çəkmiş Əmir Teymur, Qarabağın ab-havasının onun üçün çox münasib olduğuna görə, bir çox səfərlərindən sonra bu əraziyə qayıdırdı. Bu

üzdən də regionun abadlaşdırılması və təhlükəsizliyinin qorunmasına xüsusi diqqət yetirirdi. O, Qarabağı öz əlində saxlamaqdan ötrü 50 min türk ailəsini gətirərək, burada məskunlaşdırmışdı.

Teymurun vaxtında Qarabağda yerləşdirilən Qaramanlı tayfası Qaraqoyunluların zamanında gücləndi və Əmir Qaraman bəylərbəyiliyi Qara Yusifin hakimiyyətinin son illərində Gəncə və Bərdənin hakimi oldu. Sonuncu Qaraqoyunlu hökmdarı Həsənəli şah, Ağqoyunlu hökmdarı Uzun Həsən tərəfindən məğlub edildikdən sonra Qaramanlı tayfasına pənah apardı.

Bu gün Gəncə və Bərdədə mövcud olan Qaraman və Qaramanlı kimi yer adları bu tayfanın adı ilə bağlıdır.

Səfəvi dövlətinin təşkili İran və Orta Şərq regionunun tarixində mühüm hadisələrdən biridir. Şah İsmayıl Səfəvi XVI əsrin əvvəllərində yerli hakimiyyətləri aradan qaldırmaqla, vahid İran dövlətini yaratdı. O, dini-siyasi fikir və düşüncələr əsasında, eləcə də, şiə məzhəbinə rəsmiyyət verməklə, əsrlərlə İranda davam edən hərc-mərcliyə son qoya və vahid dövlət sistemini yarada, hakimiyyətin dini-siyasi və idari əsaslarını ərsəyə gətirə bildi. Bu, elə güclü bir standartlar oldu ki, hətta özündən sonra da İran Məşrutə inqilabına qədər davam etdi və növbəti dövlətlər üçün də bir özül rolunu oynadı.

Şah İsmayılın hakimiyyətə gəlməsində qarabağlılar əhəmiyyətli bir rola sahib oldular. Çünki bu region Olcaytu tərəfindən şiəliyin qəbul edilməsindən sonra şiə məzhəbinin mərkəzlərindən biri olmuş və növbəti illərdə də öz təsirini davam etdirmişdir.

Şah İsmayılın Lahicandan Ərdəbilə tərəf siyasi-ictimai yürüşü başladı. Bu səfərdə onu azsaylı müridləri və ardıcılları müşayiət edirdilər. Onların arasında Qarabağdan olan Biram Qaramani (yaxud Qaramanlı) və Qara Piri bəy Qacar da var idi. "Ələmarayi-Səfəvi"nin yazdığına görə, şəraitin namünasib olması ucbatından Şah İsmayıl Səfəvi Qarabağ bölgəsinə yollanır (190) Bu zaman Gəncədən olan şiələr, xanəgah mürşidini şəhərin 10 fərsəngliyində[46] qarşılayır və Gəncənin ən yaxşı malikanəsini Şah Xətainin qalması üçün hazırlayırlar. Şah İsmayıl Gəncə şəhərindən Şirvanşahla müharibəyə gedir və onu məğlub edir. Bu, onun Səfəvi dövlətinin yaradılması ilə bağlı ideyalarının reallaşdırması üçün atdığı ilk addım idi.

Həmin dövrdə Təbrizi öz paytaxtları etmiş müxtəlif sülalələrin hakimləri, yaxşı ab-havasına görə Qarabağdan qışlaq kimi istifadə edirdilər. Şah İsmayıl Səfəvinin hakimiyyəti sabitləşəndən və Təbriz paytaxt olmaqla, İranda mərkəzləşdirilmiş hakimiyyətin qurulması və Azərbaycanın müxtəlif vilayətləri birləşdiriləndən sonra Qarabağ vilayəti mərkəzi Təbriz şəhəri olmaqla, aşağıdakı 4 bəylərbəyiliyə bölündü:

1. Təbriz; 2. Qarabağ; 3. Çuxursəəd; 4. Şirvan.

Qarabağ bəylərbəyiliyi Gəncə, Bərdə, Bərgüşad, Luri və Cavanşir bəyliklərindən ibarət idi.

Nadir şah Əfşarın səltənəti vaxtında Qarabağın inzibati ərazi quruluşunda dəyişikliklər baş verir. Bu, onun gələcək taleyinə təsir göstərir. "Mərkəzi Asiya və qafqazdakı dəyişikliklərin mahiyyəti" əsərinin müəllifləri yazırlar:

---

[46] Fərsəng (fərsəx)-6,25 km-ə bərabər uzunluq ölçüsüdür.

“Nadirqulu sünni məzhəbli idi, halbuki, əhalinin əksəriyyətini şiələr təşkil edirdilər. Bundan sui-istifadə edən ermənilər, Nadir şahın zamanında daha çox canfəşanlıq etməyə başladılar. Nadirqulu da ermənilərin təşviq edilməsi və himayə olunmasına xüsusi diqqət göstərirdi. Nadirqulu şahlığa seçiləndə bir erməni keşişi onun belinə bir qılınc bağlayır. O zaman Qarabağda hakimiyyət Ziyadoğlu Qacar tayfasının əlində idi. Onlar Nadirin məqsədlərinin əksinə olaraq, səltənətin idarəçiliyinin Səfəvi sülaləsində qalmasını tələb edirdilər. Ona görə də Nadir şah taxta oturandan sonra bu tayfanın Qarabağdakı səlahiyyətlərini azaldır, bu tayfadan olan bir çox ailələri Xorasana köçürür. Qazax və Borçalı mahallarını Qarabağ bəylərbəyiliyindən alıb Gürcüstan valiliyinə tabe etdirir. Bərgüşad və Xəmsə mahallarını isə Təbriz bəylərbəyiliyinə birləşdirir. Bu arada ilk dəfə olaraq, eyni vaxtda 5 erməni feodal ailəsinə Dağlıq Qarabağın müxtəlif rayonlarında hakimiyyət haqqı verilir” (175).

Nadir şah qətlə yetiriləndən sonra Azərbaycanda çoxlu sayda xanlıqlar yaranır. Bu xanlıqların hamısı Qarabağ xanı Pənah xan Cavanşirdən cəsarət və ilham alaraq, ona mənəvi və maddi kömək edirdilər. Səfəvilər dövründən Pənah xanın Qarabağda hakimiyyətə gəlməsinə qədər bu bölgənin müxtəlif rayonları Gəncə bəylərbəyiliyinə tabe idilər. Bu zamandan sonra Qarabağın bir sıra məntəqələri Pənah xanın hakimliyində güclü bir xanlığa çevrildi və bölgənin siyasi-ictimai həyatında mühüm rol oynamağa başladı. Pənah xan Cavanşir Qarabağ və bütövlükdə Azərbaycan tarixinin həssas bir zamanında bir sıra əsərlər yaratdı və özündən sonra qiymətli yadigarlar qoydu. Bu səbəbdən hələ sağlığında əfsanəvi şəxsiyyət kimi məşhurlaşdı.

Pənah xandan sonra böyük oğlu İbrahim Xəlil xan Şuşada hakim oldu. Onun uzun müddət davam edən hakimliyi dövründə Qarabağ xanlığı daha da gücləndi və regionun qüdrətli dövlətinə çevrildi.

Ağa Məhəmməd xan Qacar, İbrahim Xəlil xan Cavanşirin güclənməsindən, onun digər xanlarla müttəfiq və dost olmasından qorxuya düşdü və bu regiona ardıcıl yürüşlər etməyə başladı. O, 1794/1795-ci ildə Qafqazın dikbaş hakim və xanlarını məhv etmək üçün məntəqəyə qoşun yeritdi və Pənahabad qalasını mühasirə etdi. Ancaq qalanı 33 gün mühasirədə saxlamasına baxmayaraq, özünün güclü ordusu ilə heç nəyə nail ola bilmədi. O, bir müddət sonra daha güclü və təchizatlı bir ordu ilə yenidən Qarabağa hücum etdi, Şuşanı ələ keçirdi, onu qarət etdi, ancaq xidmətçilərinin sui-qəsdi ilə öldürüldü. Bu hadisədən bir neçə gün qabaq Şuşadan qaçmış İbrahim Xəlil xan, yenidən Şuşaya geri döndü və hakimiyyətini bərpa etdi. Ancaq bir müddət sonra o da ailəsi ilə birlikdə bir rus komandirinin göstərişi ilə həyata keçirilən sui-qəsdin qurbanı oldu.

Fətəli şah Qacarın hakimiyyəti zamanı Qafqaz uğrunda İran və Rusiya arasında bir çox müharibələr baş verdi. Bu müharibələr biabırçı Gülüstan və Türkmənçay sülh müqavilələrinin bağlanması ilə başa çatdı. Nəticədə Araz çayının şimalında 17 vilayət, o cümlədən, Qarabağ həmişəlik İrandan qoparıldı və Rusiyanın ixtiyarına keçdi.

Uzun sürən bu müharibələrdə ərazidə yaşayan müsəlmanlar işğalçı çar ordusuna qarşı igidliklə müqavimət göstərdilər. Gəncə camaatının və şəhərin hakimi Cavad xanın rus qoşununa qarşı apardığı döyüşlər və misli görünməmiş

qəhrəmanlıqları bu müqavimətin simvoluna çevrildi. Ancaq ermənilərin xəyanəti və onların silahlı qüvvələrinin ruslara köməyi müsəlmanların məğlubiyyətinin əsas amillərindən biri oldu və qeyd etdiyimiz kimi, Araz çayının şimalında yerləşən 17 vilayət ruslar tərəfindən işğal edildi.

Taleyüklü bu müharibələrdə Qarabağ regionu döyüşən hər iki tərəf üçün həyati əhəmiyyət daşıyırdı. Azərbaycanın XIX əsr tarixçisi Əhməd bəy Cavanşir bununla bağlı yazmışdır: "Şuşa qalası İran üçün Qafqazın açarı, ruslar üçün isə İrana açılan darvaza hesab olunurdu" (8).

Bundan başqa, Qarabağ, hətta Səfəvilərdən də əvvəl şiələrin yaşadıqları bölgələrdən biri idi, ona görə də onun qorunması xüsusi əhəmiyyət kəsb edirdi. Bu məsələ ilə bağlı Jan Yuniyor yazırdı: "Qarabağ vilayəti şiələrin Qafqazdakı böyük mərkəzlərindən biri sayılırdı. Xüsusən, Şuşa şəhəri əhalisinin məhərrəmlik ayında keçirdikləri yas mərasimləri və tədbirlər Qafqazdakı bütün müsəlmanlar arasında şöhrət qazanmışdı. Şuşa, şiələrin Qafqazdakı ən böyük mərkəzi olduğuna görə, Fətəli şah onun geri qaytarılmasını zəruri hesab edirdi" (115).

Qafqazın rus imperatorluğunun hakimiyyətinə keçməsi buradakı əhali üçün yeni bir şərait yaratdı, onun taleyini dəyişdirdi. Belə ki, bir çox müsəlmanlar Arazın cənub tərəfinə köçdülər. Çünki ruslar işğal etdikləri yerli müsəlman əhaliyə qarşı istismarçı siyasət yeridirdilər. Çar Rusiyası Osmanlı və İran imperatorluqlarında yaşayan emənilərin İrəvan və Naxçıvana köçürülməsinə rəvac verirdi.

Belə ədalətsiz siyasətlərə və tədbirlərə qarşı Qafqazın müsəlman əhalisi etirazlar etməyə başladı. Bu üsyanlar bir neçə məntəqədə dəfələrlə təkrarlandı. Onların içəriində

Şeyx Şamil Dağıstanlı hərəkatı daha güclü və geniş miqyaslı idi. Belə ki, Şeyx Şamil 26 il müddətində işğalçı çar ordusuna qarşı əldə silah mübarizə apardı.

XIX əsrin sonlarında Azərbaycan xalqının rus işğalına qarşı azadlıq mübarizəsi yenidən alovlandı və o, xalq üsyanlarına çevrildi. Bu üsyanların əksəriyyətində silahlı dəstələr çar ordusuna qarşı qəhrəmanlıqla vuruşurdular. Bu cür silahlı dəstələrə xalq arasında "qaçaqlar" deyilirdi.

1890-cı ildə Tiflis şəhərində 3 nəfər ifrat millətçi "Daşnaksütun" partiyasını yaratdılar. Partiyanın məqsədi "Böyük Ermənistan" dövlətini qurmaq idi. O, qurulduğu vaxtdan başlayaraq 100 ildən artıq bir müddətdə saysız-hesabsız vəhşi, terrorçu və qeyri-insani əməlləri törətdi. Bu barədə irəlidə ətraflı məlumat veriləcəkdir.

Daşnakların ilk hədəfi mərkəzi İrəvan şəhəri olmaqla, Şərqi Anadolu və Çuxursəəd vilayətlərindən ibarət bir erməni dövləti yaratmaq idi. Ancaq XIX əsrin axırlarında Osmanlıda bu çərçivədə bir iş görə bilmədiklərinə görə, bütün qüvvələrini səfərbər edərək, Qafqazda iğtişaşlar törətməklə, öz proqramlarının bir hissəsini həyata keçirməyə başladılar. 1905-ci il fevral ayının 2-də erməni komitəsi Bakının Quba meydanında Ağa Rza adlı bir müsəlmanı qətlə yetirdi. Bununla da, Arazın şimal hissəsində Azərbaycanın müxtəlif şəhərlərində ermənilərlə müsəlmanlar arasında müharibə başladı və çoxlu can və mal tələfatları baş verdi.

1917-ci ilin fevral və oktyabr inqilablarında Rusiyada baş verən inqilablar çar hökumətinin yıxılması ilə nəticələndi. Belə bir vəziyyətdə özbaşına rus çar rejiminin zülmü altında olan xalqların, o cümlədən, Arazın o tayındakı azər-

baycanlıların, çar Rusiyasının "millətlərin zindanı" adlandırılan 100 illik alçaldıcı əsarətindən qurtarmaları üçün misilsiz bir tarixi fürsət yarandı. Belə bir şəraitdə Azərbaycan xalqı istiqlal mücadiləsi apardığı bir vaxtda ermənilər hər zaman bu mübarizəyə zərbələr vurur və əngəllər törədirdilər. Belə ki, 1918-ci il martın 31-də, yəni Azərbaycanın müstəqilliyinin elan olunmasından təqribən 2 ay əvvəl ermənilər, Azərbaycanın əksər regionlarında silahsız əhaliyə qarşı qırğınlar həyata keçirdilər və tarixdə misli görünməmiş vəhşi cinayətlər törətdilər. Ermənilərin Bakıda və Azərbaycanın digər bölgələrində törətdikləri genosidin miqyası o dərəcədə faciəli idi ki, sonrakı illərdə 31 mart tarixi Azəbaycan Respublikasında soyqırım günü kimi qeyd olunur, müxtəlif tədbirlər keçirilir və o qara günlərin qurbanarının xatirəsi yad edilir.

Rusiya imperiyasının xarabalıqları üzərində qurulan respublikalardan Azərbaycan yeganə müsəlman ölkəsi oldu ki, avropalılar tərəfindən rəsmən tanındı. Qurulan bu yeni türk dövləti həm də islam dünyasında yaradılan ilk respublika idi.

Rusiyada Romanovlar sülaləsinin hakimiyyətinə son verilməsi və 1918-ci ildə Qafqazda müstəqil dövlətlərin meydana çıxması, eləcə də, I Dünya müharibəsinin başa çatması ilə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında kəskin sərhəd münaqişəsi kimi Dağlıq Qarabağ məsələsi meydana çıxdı. Bu arada daşnaklar İrəvan və onun ətrafındakı 211 kənddə 300 min nəfər müsəlman türkü qətlə yetirdilər və onların qanı ilə suvarılmış ərazidə Ermənistan Respublikası yaratdılar və Dağlıq Qarabağ vilayətini ona ilhaq etmək istəyirdilər.

Baş vermiş bu tarixi hadisələrdən sonra yeni yaranmış sovet dövləti daxili müxalifət üzərində qələbə çaldıqdan sonra özünü toparlayaraq, möhkəmləndi və Qafqazı, ilk növbədə, Azərbaycanı işğal etmək fikrinə düşdü. 1919-cu il 22 avqust müqaviləsi ilə Azərbaycan Respublikasının hakimiyyətini qəbul etmiş Qarabağ ermənilər yaranan vəziyyətdən sui-istifadə edərək, qiyam qaldırmaq xəyalına düşdülər. Ermənilərin bu xəyanəti Azərbaycan Demokratik Respublikasını zəifləməsi və süqutunda mühüm rol oynadı.

1920-ci ilin aprel ayında Azərbaycan sovet ordusu tərəfindən işğal olunduqdan sonra Qarabağ onun ərazisi kimi qalmışdı. Ancaq sovet rejiminin başbilənləri belə qərara gəldilər ki, Dağlıq Qarabağa istədikləri kimi muxtariyyət versinlər. Axırda heç biri Azərbaycan vətəndaşı olmayan 3 nəfərdən ibarət bir heyət yaradıldı və 1923-cü ildə Dağlıq Qarabağa "Dağlıq Qarabağ Muxtar Vilayəti" statusu verildi. Rus S.Kirov və erməni Mirzoyanın iştirakı ilə verilmiş bu status ilə, əslində, əski sovet dövlətinin mərkəzi hökuməti bu regiona nifaq toxumu səpildi və region gələcəkdə baş verməsi qacınılmaz olan hadisələrə hamilə oldu. Həmin hadisələr isə 65 ildən sonra 1988-ci ildə başladı və daşnaklar tərəfindən saysız-hesabsız günahsız azərbaycanlıların ölümünə və 1 milyondan artıq insanın öz dədə-baba yurd-yuvalarından didərgin düşməsinə, Azərbaycan Respublikasının ərazisinin 20 faizindən artığının işğal olunmasına gətirib çıxardı.

## QARABAĞ HARADIR?

“Qarabağ” sözünün etimologiyasına gəlincə, o, sıx, çox, geniş, şuluq, qarışıq, izdihamlı, qara rəngli mənalarında olan sırf türk sözləri “qara”/”qərə” və ağaclıq, bağ, bostan, çəmənlik, çiçəklik mənalarında olan “bağ” sözlərinin birləşməsindən ibarətdir. Qarabağ adı o məntəqələrə verilir ki, ərazisi sıx və geniş meşəli olsun və ağacların sıxlığından meşənin rəngi qaraya çalsın. İstər Azərbaycanda, istərsə də İranda və digər türkdilli və hətta qeyri-türdilli ölkələrdə bu adda çoxlu toponimlər mövcuddur.

Əskidən Çəmən Kalpuşun şimal və şimal-qərb regionu da Qarabağ adlanırdı və burada Gəraylı türk tayfası (eli) yaşayırdı. Bu elin ərazisi Astrabad vilayətini əhatə edirdi. “Mətlə əl-Şəms” (172 Mətl, 156) bu elin tarixini belə şərh edir: “Qoçandan Bojnurd, Cacorm və Kalpuşa qədər əsl adı Gərayətli olan Gəraylı tayfasının ərazisi idi... Qoçan, Şirvan, Bojnurd və Səməlqan Gəraylı yurdudur”. Ancaq Nadir şahın ölümündən sonra türkmənlərin hücumu nəticəsində ərazi dağıdılmış və xarabazarlığa çevrilmişdir. Minorski “Təzkere-ye əl-moluk”a yazdığı şərhdə iki Qarabağdan da xəbər verir. Onlardan biri Əfqanıstanda Qəzninin qərbində, o birisi isə Buxara ilə Səmərqənd arasında, Soğd çayının cənub tərəfində mövcud olan Kerminə (Kerminiyyə) şəhərinin yaxınlığında yerləşir (64, 192).

Bizim haqqında bəhs etdiyimiz Qarabağ barədə ilk məlumat hicrinin VIII əsrində Həmdullah Müstövfi Qəzvini

tərəfindən qələmə alınmış “Nezhət ül-qülub”da verilmişdir. Bu Qarabağ, qədimdə Ərran, yaxud Aran adı ilə tanınmışdır. O (qədim Aran), Kür və Araz çayları arasında yerləşir. Minorski hesab edir ki, ola bilsin ki, tarixdə Qarabağ adı ilə bağlı tayfa adı da mövcud olmuşdur.

Ə.Kəsrəviyə görə, Əmir Teymurun hücumları, Qaraqoyunlu və Ağqoyunlularla bağlı türk dastanlarında Aran adına deyil, Aran Qarabağı ifadəsinə rast gəlirik (115, 256). Bu qeydin özü onu göstərir ki, Əmir Teymurun hücumlarından əvvəldən başlayaraq, Aran adı istifadədən çıxmış və tədricən Qarabağ adı ilə əvəz olunmuşdur.

Qeyd olunmalıdır ki, islama qədər, eləcə də, Arazın şimal hissəsi Albaniya adlanan vaxtlarda indiki Qarabağ və əvvəlki Aran, Uti vilayəti adlanmışdır. N.Quliyev bunu belə şərh edir: “Ərəb tarixçiləri Uti vilayətini Aran, yaxud da Ərran, orada yaşayan əhalinin dilini isə Lisan əl-Ərran adlandırmışlar”. Adıgedən tədqiqatçı səhifənin sonunda verdiyi izahda Uti vilayətinin ərazisinin hazırkı Qarabağ olduğunu və Kür ilə Araz çayları arasında yerləşdiyini vurğulayır.

Uti vilayəti öz adını Albaniya ölkəsində yaşayan tayfalardan birinin adından götürmüşdür. Çünki tarixi Albaniya ərazisində fərqli dillərdə danışan 26 tayfa yaşamışdır. Onlardan ən böyüyü Utilər olmuşdur. Bu tayfanın qalıqları hələ də Qutqaşen (hazırkı Qəbələ) rayonunun ərazisində Udin adı ilə yaşamaqdadırlar (35, 14-25).

Yaqut Həməvi Aranın şəhərlərindən bəhs edərkən, Bərdə, Gəncə, Şamxor, Beyləqanın da adlarını çəkir. Bərdə Aranın mərkəzi şəhəri və bu regionun böyük və abad şəhərlərindən biri olmuş, Kür çayının əvvəlki adı da Bərdə

çayı imiş və onu Dəclə çayına bənzədirmişlər (83, 76). Bərdə şəhəri Tərtər çayının kənarında, Şuşa şəhərinin şimalında və Gəncə şəhərinin şərqində yerləşir.

Rəşid Göyüşov yazır ki, qədim dövrlərdə Qarabağda çoxlu şəhərlər salınmışdır. Onlardan bəziləri hərbi üslubda, bəziləri isə ticarət yolu üzərində tikilmiş və regional əhəmiyyətə malik olmuşlar. Belə şəhərlərdən bir neçəsi hökmranların iqamətgahı, digərləri sənaye mərkəzlərinə çevrilmişlər. Elə şəhərlər də olmuşdur ki, yuxarıda sadalanan özəlliklərin hamısına sahib olmuşlar. Yəni həm iqamətgah, həm hərbi şəhərcik, həm də ticarət və sənaye mərkəzi kimi fəaliyyət göstərmişlər. Belə şəhərlərdən biri Bərdə olmuşdur. Görkəmli ərəb tarixçisi ibn Houğəl IX əsrdə Bərdəni "Aranın anası" adlandırır, onu regionun ən gözəl şəhəri kimi qiymətləndirir.

Doğrudan da, Bərdə şəhəri gözəl təbiətli, saf ab-havalı bir ərazidə yerləşir. Bərdə adı başqa xalqların dillərində müxtəlif formalarda, o cümlədən, Bardus, Bərdea, Firuzabad, Şəhrstan, Pərtov və s. şəklində deyilmişdir.

Tarixi mənbələrə əsasən, Bərdə şəhəri, Qəbələdən sonra Azərbaycanın (Albaniyanın) ikinci paytaxtı olmuşdur (16, 37).

Fars ədəbi dilində Bərdə adı iki formada işlənmişdir: Bərde və Bərdee. Həkim Nizami Gəncəvi öz qiymətli əsərlərində Bərdee adından çox bəhs etmiş, onun qədim adının Horum olduğunu qeyd etmişdir:

*Əvvəldən ləqəbi Horum idi,*
*İndi müəllim onu Bərdə çağırır.*

Bərdənin qədim sakinləri Xalxala köçmüş və orada yaşamışlar. Bugünkü Xalxalın paytaxtı Herəvabaddır (140, 148). Dehxudanın "Lüğətnamə"sində Nizaminin aşağıdakı beytləri yer alır:

*Bərdə necə gözəldir, necə qəşəngdir,*
*Yazı da, qışı da güldür, çiçəkdir.*
*Quş və balıqla doludur bu yer,*
*Nüşabə Bərdəyə vermişdir rəy.*
*Firdovsi isə Bərdə haqqında yazmıdır:*
*Onun başına acı tale gəldiyindən,*
*Qisasçı oğlan adını Bərdı qoydu.*
*Yenə də Nizamidə oxuyuruq:*
*Cəhrə kilimi ilə Bərdə nət`i deyilirdi,*
*Həsir və qamışdan qəlbimdə bir təşviş var (200).*

"Atropatena"nın müəllifi Bərdə şəhərini belə tanıdır: "Bərdə, Tərtər[47] (Sərsur) çayının Kürə töküldüyü yerin yaxınlığında yerləşir və onun ortasında 3 fərsənglikdə çay (arx) əmələ gəlib".

Həmzə İsfəhani Bərdə sözünü Bordevar kimi anlayıb və ona məna da verib.

Həmdullah Mustövfi Qəzvini, Bərdənin əsasının qoyulmasının Makedoniyalı İsgəndərə bağlı olduğunu, Sasani Qubad bin Firuz tərəfindən yenidən qurulduğunu yazır.

Bərdə Aranın paytaxtı və ən böyük şəhəri olmuşdur. O, yüksək imarətləri və çoxlu nemətləri ilə tanınmışdır. Onun su ehtiyacı Tərtər çayından təmin edilmişdir. Bərdədə böyük bir bazar, gözəl Cümə məscidi və möhkəm bir qala da

[47] Kür çayının, Bərdəyə qədər, uzunluğu 1 fərsəxdən az olan qollarından biridir.

olmuşdur. Təkcə onu demək kifayətdir ki, Bərdə şəhəri vaxtında islam aləminin ən böyük və cah-cəlallı şəhəri Bağdad ilə bərabər tutulmuşdur.

Tarixçi Estəxri, Bərdəni görmüş, onun 1x1 fərsəx genişliyində olduğunu qeyd etmiş, yazmışdır ki, İraq ilə Xorasanın arasında yerləşən Bərdə, nemətlərinin çeşidi, çoxluğu, torpağının məhsuldarlığı və meyvəsi ilə Rey və İsfəhandan sonra ən böyük, ən ruzili və xoş bir şəhərdir.

Estəxridən əvvəl və sonra gələn digər müəlliflər də Bərdənin abadlığı və nemətlərindən çox söhbət açmışlar.

Bartold güman edir ki, məhz öz sərvətlərinə və nemətlərinə görə, Bərdə şəhəri hicrinin 333-cü ilində ruslar tərəfindən yağmalanmışdır.

Bərdənin 1 fərsəxdən az yaxınlığında Əndərab adlı bir bağ mövcud olmuşdur. Əndərab elə böyük bir sahəni əhatə etmişdir ki, onu keçmək üçün 1 saat yol getmək lazım gəlmişdir.

Bərdədə istehsal olunan çoxlu ipəyin böyük miqdarı Fars və Xuzistan bölgələrinə ixrac edilmişdir. Kür çayından ovlanan müxtəlif növ balıq növləri uzaq ölkələrə daşınmışdır.

Yenə də Estəxri yazır ki, Bərdədə "Bab əl-Əkrad" adlanan saray, onun yanında isə 1 fərsəx uzunluğunda olan və "Kərəki" adlı bazar yerləşir. Hər həftənin bazar günləri hər yerdən, hətta İraqdan insanlar bura axışır və "Bab əl-Ərkad"a şikayətə gəlirlər. Bəhs olunan bazar Kursərə (Kulsərə) bazarından böyükdür. Daha sonra, eyni zamanda, həm də "Beyt ül-mülk" adlanan Came məscidindən bəhs edən Estəxri, onun dəmir darvazası olduğunu, 9 sü-

tun üzərində inşa olunduğunu və tavanının xüsusi qarışımla möhkəmləndirildiyini qeyd edir. Hökumət binası, şəhərin mərkəzi hissəsində, Cümə məscidinin və bazarların yanında yerləşir.

Ancaq bütün bu təmtəraq və əzəmət yavaş-yavaş sıradan çıxmış, hicrinin VI əsrinin sonlarına doğru ondan az əsər-əlamət qalmışdır. Belə ki, Yaqutun zamanında Bərdə şəhəri viran edilmiş, evlər dağıdılmış, vəziyyət dəyişmiş, sayı azalmış əhali pərişan və fəlakət dövrünü yaşamışdır (83, 78).

Qeyd olunmalıdır ki, Mövləvi də "Məsnəvi"sində yazır:

*Bərdəli Həkim necə də gözəl demiş,*
*İçdiyin badə həmin canın başıdır.*

Burada qeyd olunan Həkim Sənayi Teybüllahdır və o, böyük həkimin "Hədiğə"sindəki şeirinə şahid olmuşdur:

*Məstlik halından əl çəkmə,*
*Binanın içdiyin o başı meydir (134, 245).*

Azərbaycan Respublikasının II böyük şəhəri olan və ünlü Azərbaycan şairi Həkim Nizami Gəncəvinin uyuduğu Gəncə şəhəri, Aran vilayətinin və tarixi Qarabağın əhəmiyyətli və tarixi şəhərlərindəndir. Bu qədim şəhər, Bərdənin şimal-qərbində onun 16 fərsəngliyində yerləşir. Burada əkinçilik geniş yayılmış, nemətlər bolluğu olmuş və abadlıq hökm sürmüşdür. Gəncədə hər cür yun paltarlar toxunmuşdur. Toxuculuq sənayesi XIII əsrin əvvəllərində özünün inkişaf zirvəsinə çatmış, bunun sayəsində monqol dağıntılarından xilas olmuşdur. İranın əksər şəhərlərində olduğu kimi, burada da islamın sünni məzhəbi yayılmışdır.

Gəncəyə ərəb dilində Cənzə deyilmişdir. Ancaq XI, XII və sonrakı əsrlərdən Gəncə kimi tanınmışdır. Onun adı ilə bağlı fərqli fikirlər mövcuddur. Bunlardan birinə görə, adın etimologiyasında "Gen çay" dayanır. Bu, şəhərin kənarında yerləşdiyi çayın adıdır. Başqa bir düşüncəyə görə, Gəncə adı "Arranın xəzinə ilə dolu xəzinəsi" mənasını ifadə edir. O üzdən şəhərə Gəncine deyilmişdir. Həmdulla Müstövfi yazır:

*İranda üstün olan bir neçə şəhər var,*
*Ab-havası ilə ən yaxşısı və perspektivlisi,*
*Aranda xəzinə dolu Gəncə, İraqda Sefahan,*
*Xorasanda Mərv və Tus, Rumda Ağsəradır.*

XII əsrdə yaşamış və Gəncəni görmüş şair Cəmaləddin İsfəhani, onu belə təqdim edir:

*Gəncə şəhəri bütün üfüqlərdə,*
*Yer üzündə, həqiqətən, zülm görməyib.*

Şamxor (Şəmxor) şəhəri Bərdəyə yaxındır, Gəncənin 11 fərsəngliyindədir. "Təqvim əl-bələdan" əsərində onun məscidinin minarəsinin hündürlüyü xatırlanır. Bu şəhər olduqca abad və bol nemətli olmuş, Buğanın xarabaya çevirməsindən sonra yenidən bərpa edilmiş və adı dəyişdirilərək, Mütəvəkkəliyyə qoyulmuşdur (83, 3-71).

Əski Sovetlər Birliyi zamanı bir müddət Jdanovsk adlandırılmış Beyləqan şəhərinin tarixi adı, Azərbaycan Respublikası istiqlaliyyətinə qovuşandan sonra, bərpa edilmişdir. O, Bərdənin 14 fərsəng cənubunda yerləşir, çoxlu nemətləri, bağları, sıx ağacları, bol suları, pərde, taxıl və şir-

niyyatı ilə tanınır, xoşxasiyyət insanlara sahibdir. Havası istidir, binalarının çoxu bişmiş kərpicdən tikilmişdir. Həmdullah Mustövhi Qəzvini öz əsərini yazan zaman artıq bütün bu abadlıqlar mövcud deyildi, çünki ondan bir müddət əvvəl şəhər monqollar tərəfindən viran edilmişdi. Daha sonra Əmir Teymurun əmri ilə Beyləqan şəhəri yenidən inşa olunmuşdur. Nizaməddin Şami, Beyləqanın yenidən tikilməsini belə qələmə almışdır:

Hicrətdən səkkiz yüz altı ildən az keçəndə,
Meşə və çöllərdən qayıdış başladı.
Bu tarixdən 1 ay müddətində şəhəri,
Millət və din qütbü, Əmir Teymur tikdi (83, 83).

Bərdə dağıdılandan sonra Beyləqan mərkəz oldu (84, 273).

XII əsrin məşhur şairi-Beyləqanda doğulub boya-başa çatmış Mücirəddin Beyləqani, öz vətəni haqqında belə yazmışdır:

*Bu söz Xorasan torpağına tənə etdiyi üçün,*
*Yəqin ki, Mücirin vətəni Beyləqandan doğub.*

1191/1192-ci ildə vəfat etmiş, yaxud da qətlə yetirilmiş M.Beyləqani, Təbrizin “Məqbərət ül-şüəra” qəbristanlığında dəfn olunub. Əli Nəzmi Təbrizi onun vəfat tarixi ilə bağlı yazmışdır:

*Mücirəddin heç vaxt ölməmiş və ölməz,*
*Çünki onun şanlı adı zamanda qaldı.*
*Səsi şeir və ədəbiyyatda əbədi qaldı,*
*Nə kədər? Özü dünyada qaldı ki, qaldı!*
*Nəzmi rəqəm dedi onun ölüm tarixinə,*
*Mücirəddin adı ədəbiyyatda əbədi qaldı ( 136, 368).*

# DAĞLIQ QARABAĞ

Tarixi Dağlıq Qarabağ vilayətinin dağlıq əraziləri Kiçik Qafqaz silsilsinin cənub-şərqində yerləşir. O, Böyük Qarabağ, yaxud da, Dağlıq Qarabağ adlanır və tarixi Qarabağın ayrılmaz bir parçasıdır. Düzənlik və dağlıq hissədən ibarət olan bu iki bölgə tarix boyu həmişə bir tərkibdə olmuşlar.

Dağlıq, yaxud yuxarı Qarabağ 1988-ci ildən ermənilərlə azərbaycanlıların arasında kəskin döyüşlərin meydanı olub. Çünki 1923-cü ildə, guya, Dağlıq Qarabağda ermənilərin sayı çox olduğundan, ermənilərə havadarlıq edən antimüsəlman və antitürk ünsürlər tərəfindən əvvəldən planlaşdırılaraq, bura muxtar vilayət statusu verilmişdir. Adıgedən ərazi Kiçik Qafqaz sıra dağlarının cənub-şərqində yerləşir. Onun şimal tərəfi isə yenə də Kiçik Qafqazın Murovdağ silsiləsi ilə əhatələnir. Murovdağın ən hündür zirvəsi Camış dağ dəniz səviyyəsndən 3724 metr hündürlükdədir. Ərazinin qərb və cənub tərəfləri Qarabağ dağ silsiləsinin şimal ətəkləri, 2823 metr hündürlüyə malik Qız qalası, 2827 metr ucalıqlı Qırx qız, 2725 metr yüksəklikli Böyük kirə yüksəklikləri, şimal-şərqdə və şimalda isə düzənlik çöllər (Mil, Muğan və Qarabağ çöllərinin qərb sahilləri) ilə həmsərhəddir.

Ərazidə il boyu qarla örtülən Murovdağ silsiləsindən başlanğıclarını götürən və Mil, Muğan və Qarabağ düzlərinə tərəf axan çaylar var. Onlar dərin dərələr və sıldırımlar əmələ gətirirlər (49).

3 milyon il əvvəl, III dövrün axırları, IV dövrün əvvəllərində Azərbaycanın indiki relyefi formalaşmışdır. Azərbaycan ərazisinin əhəmiyyətli hissəsi III dövrün ikinci yarısına qədər böyük dənizin körfəzlərinin təsirinə məruz qalmışdır. Dəniz suyunun çəkilməsi ilə tədricən geniş sahələr sudan azad olmuş, Kür və Araz çayları arasındakı düzənlik yaranmışdır. Böyük və Kiçik Qafqaz dağları, eləcə də, Talış yüksəklikləri mülayim iqlim qurşağına xas bitkilərlə örtülmüşdür. Bu ərazidə keçmiş zamanlarda Qipariun at cinslərinin bir növü olan Qarabağ atları, antilop, donuz, kaftar və başqa məməli heyvanlar yaşamışlar. Bundan sonra burada insanabənzər meymunlar da yaranmışdır (61, 7).

Başları göylərə ucalan dağlar, ərazinin kənd təsərrüfatı üçün təyinedici olmasında rol oynamaqla qalmır, həm də coğrafi baxımdan gözəl və ürəkoxşayan təbiət yaradır. Dağlıq Qarabağda doğulub, boya-başa çatmış Ziyəddin Sultanov, Murovdağ və onun ətəklərini belə təsvir edir: "Son dar keçiddən (boğazdan) də keçdik. İlan kimi qıvrılan yollar, meşəli aşırımın kəməri boyu uzanıb gedirdi. Hər addımda və hər dolanbacın başında yeni bir mənzərə ilə qarşılaşırdıq. Aşağıda Tərtər çayın suyu Günəşin şüaları altında ayna kimi parıldayır və bərq vururdu. Burada, Murovdağın dəniz səviyyəsindən minlərlə metr yüksəkliyində uca dağlar arasındakı sıx meşələr insanın mavi gözünün gözəlliklərində əsrarəngiz bir şəkildə əks olunurdu" (23, 22).

Ağrı (Ararat, yaxud Turus) dağları Araz çayının dərin və geniş dərəsi ilə Qaradağı (Ərəsbaranı) iki yerə bölürdü (192, 10).

Qaradağ (Ərəsbaran) dağ silsiləsi,... həqiqətən də, Qarabağ dağlarının ardınca yerləşir və Araz çayı vasitəsi ilə bir-birindən ayrılır (69, 11).

Araz çayı, boyunbağı qaşı kimi, şimalda Qarabağ, cənubda isə Qaradağ silsilələri arasında asılmışdır (100, 28).

Mişov dağ da Ərəsbaranın cənub dağ və Azərbaycanın dağ silsilələrinin bir hissəsidir. Bu dağların şərq səmtinə Murov, qərb səmtinə isə Mişov deyilir... Murov dağın ən hündür qülləsi həmin dağın uzantısındakı 2187 metr yüksəklikdəki zirvəsidir (26, 32-35). Dağ keçisi, qonur ayı, meşə pişiyi, ceyran, canavar, tülkü, dovşan, sincab, dələ və kirpi bu bölgənin vəhşi heyvanlarından, qırqovul, kəklik və göyərçin isə buraların quşlarındandır (49).

İqlim baxımından Dağlıq Qarabağı 3 məntəqəyə bölmək olar: mülayim isti, mülayim soyuq və soyuq. Dağlıq Qarabağın şaxəli çay sistemi var. Bu çaylardan ən mühümləri Tərtərçay, İncəçay, Xaçınçay, Gərgərçay, Köndələnçay və Quruçaydır.

Dağlıq Qarabağın meşələrində palıd, yer badamı, sərçə dili, zizfun (zirfun), momərz, qırmızı ağac, həmçinin yarpaqlarından boyaq maddələri alınan kollar, eləcə də, qiymətli sarı ağac bitir. Qoz, alma, armud, alça, zoğal kimi meyvə ağacları da bölgənin təbii sərvətlərindəndir. Buradakı meşə və kolluqlar ərazinin üçdə birini tutur.

Dağlıq Qarabağın mədənlərində gil, mis, barıt, mərmər, travertin, gəc, yanmayan gil kimi qiymətli təbii ehtiyatlar mövcuddur. Burada dəyirman daşları da istehsal edilir. Şuşa şəhərinin yaxınlığında qazlı, dəmir, karbon tərkibli mədən suları mövcuddur.

Bölgə, inkişaf etmiş kənd təsərrüfatı və heyvandarlığa malikdir. Buranın sənayesi də inkişaf etməkdədir. Əsas sənaye sahələri elektrik və ipək istehsalıdır. Bundan başqa, maşınqayırma, inşaat, mebel, toxuculuq, gön-dəri, ət, paxla və digər məhsulların istehsalı da uğurla inkişaf etməkdədir.

Qarabağın iqtisadiyyatı Azərbaycan Respublikası iqtisadiyyatının ayrılmaz tərkib hissəsidir (13).

Dağlıq Qarabağın ərazisi 4,4 min $km^2$-dir ki, bu da Azərbaycan Respublikasının ümumi ərazisinin 20 %-i deməkdir. İnzibati ərazi bölgüsünə görə o, aşağıdakı 5 rayona bölünürdü:

1. Əsgəran;
2. Ağdərə;
3. Martuni;
4. Hadrut;
5. Şuşa.

Bu inzibati ərazidə 2 şəhər (Xankəndi və Şuşa), 5 şəhərcik, 1 qəsəbə, 220 kənd yerləşirdi.

Əvvəllər Dağlıq Qarabağ 17 mahala bolünmüşdü:

1. Sisyan:
2. Dəmirçi-Aslanlı;
3. Kübara;
4. Bərgüşad;
5. Bahabyurd;
6. Kəbirli;
7. Talış;
8. Cavanşir;
9. Xaçın;
10. Çiləbürd;
11. Otuziki;

12. İyirmidörd;
13. Qaraçurlu;
14. Vərənd;
15. Dizax;
16. Xırdapara Dizax;
17. Acantürk.

Bir neçə yaşayış yeri istisna olmaqla, bütün yaşayış məskənlərinin sakinlərinin hamısı azərbaycanlılardan ibarət olmuşdur. Dizax, Vərənd, Çiləbürd, Xaçin, Talış mahallarında azərbaycanlılarla birlikdə ermənilər də yaşamışlar (13).

## QARABAĞ-QƏDİM VƏ ƏZƏMƏTLİ BİR MƏDƏNİYYƏTİN BEŞİYİDİR

Qarabağ, bəşəriyyətin ən qədim və parlaq bir mədəniyyətinin yarandığı bölgələrdən biridir. Arxeoloqların əldə etdiyi qiymətli materiallar önu göstərir ki, ən qədim zamanlarda-daş dövründə burada insan yaşayışı mövcud olmuşdur. Doğrudan da, Araz və Kür çaylarının arası bəşər mədəniyyətinin ən qədim ərazilərindən biridir. Çünki III dövrün sonları, IV dövrün əvvəllərində burada insanların yaşaması üçün uyğun şərait kökm sürmüşdür. Çox böyük ehtimalla, Aralıq dənizi sahilləri, Şimali Afrika kimi, Qarabağ da bəşərin əcdadlarının sosial varlıq olaraq yaşadıqları region olmuşdur.

Azıx mağarasının[48] kəşfi, əndər rast gəlinən ilk insan məskəni, ilkin insan cəmiyyətlərinin təşəkkül yeri, mddi və mənəvi mədəniyyətin formalaşması baxımından müstəsna əhəmiyyətə malikdir. Azıx mağarası, Araz çayının yaxınlığında yerləşir. O, tarixdən əvvəlki dövrdə insanların kollektiv şəkildə yaşadıqları yerlərdən biridir. Bu mağaranın elmi tədqiqi ibtidai insanların yaşadıqları mühitin bədii və diqqətəlayiq cəhətlərini öyrənməyə imkan verir.

Azıx mağarasının kəşfi, tədqiqatçılara imkan verdi ki, Azərbaycan, eləcə də, Qrabağ tarixinin tarixdən öncəki, yəni 1 milyon il qabaqkı vəziyyətini öyrənsinlər. Bu ba-

[48] Azıx sözü qədim türk dilində ayı mənasını verir (Behzad Behzadı. Fərhənge-Azərbaycan, 98).

xımdan, həyata keçirilən aaşdırmaların sonunda məlum du ki, Azərbaycanın və Qarabağın tarixi on minlərlə nəsli əhatə edir.

Maraqlıdır ki, Azıx mağarasında tapılmış əşyalar, ibtidai insan cəmiyyətinin əsas və ümumi qanunlarının vüsət alması və tərəqqisini, insanların ictimai həyatlarının ümumi mənzərəsini göstərir. Bu isə insanların və cəmiyyətlərin müəyyən qaydalar əsasında formalaşmış və modelləşmiş həyat tərzindən xəbər verir.

Qeyd olunmalıdır ki, qədim dövrdə insan qrupları çayların kənarlarındakı geniş çöllərdə dağınıq halda yaşamışlar. Onların sabit yaşayış məskənləri və sığınacaqları olmamışdır. Daş dövründə insanlar hələ məhsul istehsal etməyə qadir deyildilər. Bu səbəbdən də, heyvan ovlayır, balıq tutur, bitki özəkləri və köklərini, eləcə də, meyvə toplayırdılar.

İqlim şəraiti dəyişəndən və havalar soyuqlaşandan sonra insanlar mağaralara və iri qayaların altına sığındılar. Belə mağaralara Azərbaycanın müxtəlif bölgələrində, xüsusən, Böyük və Kiçik Qafqaz dağlarında rast gəlmək olar.

İbtidai insanlar özlərinin ilkin alətlərini daşdan düzəldirdilər. Başlanqıcda bu alətlər daş nizələr, sonralar isə daş çəkiclər, baltalar, nizələrə taxmaq üçün iti uclu başlıqlar və s.-dən ibarət olmuşlar. İnsanlar hər bir alətdən xüsusi təyinat üçün istifadə edirdilər.

Tədqiqat zamanı Böyük Azıx mağarasının dərinliklərində on minlərlə daş alətlər, eləcə də, artıq bu bölgədə kökləri kəsilmiş gərgədan, ayı, ceyran kimi heyvanların bütöv və sındırılmış sümükləri əldə olundu. Onların hamısı artıq daşa bənzəyirdilər.

Burada yaşamış ilk insanlar adıgedən heyvanların ətləri ilə qidalanmışlar. Digər bəzi mağaralarda da belə alətlər tapılmışdır (17, 4).

Rəşid Göyüşov "Dünyanın ən qədim mədəniyyətinin əsərləri" kitabında yazır: "Qarabağın təbii coğrafi şəraiti buna səbəb oldu ki, bu bölgə bəşəriyyətin ən qədim mədəniyyətlərini öz qoynunda bəsləsin. Azərbaycan arxeoloqları indiki Füzuli şəhərinin yaxınlığında bəşəriyyətin ən qədim yaşayış məskənləri olan Azıx və Tağlar mağaralarını kəşf etmişlər. Bir neçə böyük salondan ibarət olan Azıx mağarası Quruçay və Köndələnçay çaylarının qovşağında yerləşir (11). O, uzun müddət ibtidai insanların yaşayış yeri olmuşdur. Mağarada aparılan qazıntılar zamanı burada yaşamış ibtidai insanların məişət şəraitini göstərən əşyalar tapılmışdır. Bu əşyalar Azərbaycanın 1,5-2 milyon il əvvəlki cah-cəlallı mədəniyyətinin göstəriciləridir. 1969-cu ildə Azıxda elmi-tədqiqat işləri apararkən, çox mühüm bir hadisə baş verdi. Belə ki, mağaranın salonlarından birində çox qədim bir insanın çənə sümüyünün bir hissəsi tapıldı. Bu, dünyada tapılan beşinci çənə sümüyü idi. Adıgedən tapıntı elmi ədəbiyyata "Azıx Antrop" ("Azıx insanı") adı ilə daxil oldu. Azıx Antrop təkcə Azərbaycanın deyil, bütün Qafqazın ən qədim insanıdır.

Alimlərimiz Azıx insanının həyat və fəaliyyətini araşdırararaq, diqqətəlayiq nəticələr əldə etdilər. Hər şeydən əvvəl, məlum oldu ki, Azıx insanı oddan necə istifadə etmiş və onu necə qorumuşdur. Azıx insanı, ov və digər məqsədlər üçün alətlər düzəltməkdən ötrü mədən daşlarından istifadə etmişdir.

Azıx insanı və ətrafındakılar bəşəriyyətin ən qədim mədəniyyətlərindən birini yaratmışlar. Arxeoloqlar bu mədəniyyəti "Quruçay mədəniyyəti" adlandırmışlar. Onun ən gözəçarpan xüsusiyyətləri bu idi ki, Quruçay vadisinin ibtidai insanları silah, ov alətləri üçün daşları seçə bilirdilər; ümumiyyətlə, onlar təbiətlə birbaşa təmasla idilər. Maraqlıdır ki, bu xüsusiyyətlər təkcə daş dövrünə aid deyil; onlar həm bəşr tarixinin növbəti dövrlərində də öz təkamülünü davam etdirmişlər. Azıx və Tağlar mağaralarının ən üst qatlarının sakinləri daş dövrünün mühüm texniki ölçülərini təcrübədən çıxarmışlar. Onlar miladdan öncə V və IV minilliklərdə mis-daş dövründə bəşəriyyətin mühüm nailiyyətlərinə imza atmışlar. Beləliklə, onlar dünyanın ən qədim mədəniyyət mərkəzlərinin əldə etdikləri iki böyük hadisədə iştirak etmişlər. Bunlardan biri ictimai əmək bölgüsü sisteminin kəşfi, o birisi isə matriarxizmdən patriarxizmə keçiddir.

Quruçay bölgəsinin sakinləri ilk olaraq metal və misdən istifadə qaydasını öyrənmiş, kənd təsərrüfatı və heyvandarlıqla məşğul olmuşlar. Onlar Quruçay vadisində və Köndələnçay sahilində yeni yaşayış yerləri yaratmışlar. Uca təpələrin üstündə salınmış belə yaşayış yerlərindən biri "Qaraköpük təpə" adlanır. Bu ərazi hazırda Füzuli şəhərinin ərazisində, Köndələnçayın sağ sahilində 50 metr hündürlükdə yerləşir. Qaraköpük təpə yaşayış sahəsi çoxsaylı mədəni təbəqələri ilə uzun müddət yaşayış üçün istifadə olunmuşdur. Belə ki, eneolit dövründən miladdan öncə V-IV minilliyin orta yüzilliklərinə qədərki dövrdən miladın XII-XIV əsrlərinə qədər burada əzəmətli bir mə-

dəniyyət yaradılmışdır. İbtidai yaşayışın dövrlərinin xüsusi əsərlərini özündə ehtiva edən bu yaşayış məskəni, əl istehsalı daş alətlər və gil qablardan tutmuş, mis silahlar, naxışlı saxsı qablar və xüsusi gözəl memarlıq üslubuna sahib binaları ilə onu göstərir ki, burada parlaq bir mədəni təkamül yaşanmışdır.

Quruçay və Köndələnçay vadilərində, Qaraköpük təpənin kənarında mövcud olan Günəşli təpə, Meynə təpə, Xan təpə, Kültəpə kimi başqa tarixi əsərlər, Azıxda insan yaşayışından başlamış Tunc dövrünün inkişafına qədər insanların iqtisadi və ictimai həyatları, məişət şəraitləri və onlarda baş vermiş dəyişiklikləri araşdırmağa imkan yaradır. Qarabağın düzlərinə yaraşıq verən yüzlərlə təpələr, bəşər tarixi böyu, yəni insan yaranandan ictimai qrupların təşkilinə qədərki dövrdə nələrin baş verdiyini öyrənmək üçün əsas verir.

Belə zəngin mədəniyyətlərdən tapılmış əsərlər hazırda təkcə Azərbaycanın, Moskva və Sankt-Peterburqun deyil, dünyanın bir çox şəhərlərinin, o cümlədən Paris, Berlin və Londonun muzeylərinin zinəti kimi saxlanılır (16, 8).

Azıx mağarasının ocaqlarından tapılmış əsərlərdən məlum olur ki, Azıx insanı od istehsal etməyi və onu bir müddət qoruyub saxlamağı bacarmışdır. Oddan istifadə etmək bacarığı ibtidai insanlara imkan vermişdir ki, təbiət qüvvələrinə qalib gəlmək yolunda addımlar atsınlar və heyvanlardan ayrılsınlar.

Qeyd olunmalıdır ki, ilkin insanlar çöllərdə pərakəndə halda yaşayanda çoxlu, o cümlədən, külək, istilik, soyuq, yağış, bunlardan daha çox isə yırtıcı heyvanların hücum

təhlükələri ilə rastlaşırdılar. Çünki onların nə sığınacaq yerləri, nə də özlərini müdafiə edəcək silahları yox idi. İnsanlar yüksəkliklərə pənah aparır və maraqla qaranlıq mağaraların içinə daxil olur və oradan çıxan yırtıcı heyvanlar onları parçalayırdılar. Günlərin bir günü təsadüfən bir ağac yanmağa başladı və atəş meşəni bürüdü. İnsan bunu ümidsizliklə və qorxu ilə müşahidə etdi və gördü ki, bütün heyvanlar atəşin qarşısında qaçırlar. İnsan oda yaxınlaşdı. Yanan budağı əlinə aldı və qaçmağa başladı. O, gördü ki, belədə heyvanlar ondan qorxurlar. Beləliklə, bəşər övladı ən böyük kəşfini etdi. O, atəşi öz silahına çevirdi və mağaralara sahib oldu. Əslində, biz odun insan üçün nə dərəcədə qiymətli olduunu dərk etmirik, halbuki, od müqəddəsləşdi, tanrı oldu, atəşpərəstlik dinini yaratdı (54).

Qarabağ regionunda odun kəşf edilməsinin təqribi tarixi haqqında "İttilaat" qəzetinin əlavəsində dərc olunmuş "Qafqazda ilk insan qalığı" adlı yazıda deyilir: "Əldə olan dəlillərə görə, odun kəşf edilməsi 1 milyon 250 min il bundan qabaq baş vermişdir" (162; 135).

Odun əldə edilməsi və onun qorunması çətin bir iş idi. Bu onunla nəticələndi ki, odun əldə edilməsi və qorunmasına diqqət yetirildi, ona hörmətlə və müqəddəs bir varlıq kimi yanaşıldı. Bu minvalla, oda sitayiş qədim dövrlərdən Azərbaycanda, o cümlədən də, Qrabağda xalqın məişətinə və mədəniyyətinə böyük təsir buraxmışdır. Səbəbsiz deyildir ki, odun müqəddəsdirilməsinin əlamətləri hələ də Azərbaycan dastanlarının və nağıllarının bir çoxunda yaşamaqdadır. Bəzi tədqiqatçıların fikrincə, "Azərbaycan" sözü, xalqın atəşpərəstlik inancı ilə bağlıdır. Təsadüfi deyil ki, uzun tarix boyu Azərbaycan "Odlar yurdu" kimi tanınmışdır.

Orta paleolit dövründə bütün Azərbaycanda qəbilə və tayfa birlikləri meydana gəlmişdir. Yeni daş dövründə insanlar öz məişətlərində və işlərində filizlərdən də istifadə etməyi bacardılar. Onlar əvvəl misi tanıdılar. Araşdırmalar göstərdi ki, o dövrdə tayfalar Gədəbəy, Daşkəsən və Dağlıq Qarabağ bölgəsində mis mədənlərindən istifadə etmişlər.

Miladdan əvvəl III və II minilliklərdə ilk insanlar tədricən mis və filizdən silah və alətlər düzəltməyi mənimsədilər. Arxeoloqlar tədqiqat zamanı Xocalı, Mingəçevir, Naçıvan, Şamxor, Daşkəsən, Gədəbəy, Xanlar ətrafında böyük bürünc qılınclar, baltalar, təbərzinlər, xəncərlər və yüzlərlə daş oraqlar, nizə ucluqları, eləcə də, müxtəlif keramika əşyaları tapmışlar.

Bürünc dövründə kənd təsərrüfatı alətləri təkmilləşdirildi və bunun hesabına kənd təsərrüfatı inkişaf etdi. Üzümün və heyvandarlığın kəşfi əhəmiyyət qazandı. Bir çox yerlərdə insanlar ova da gedirdilər. Tədriclə digər işlər də meydana çıxdı (17).

Eneloit dövründə Qarabağ regionunda, böyük ehtimalla, miladdan əvvəl V və VI minilliklərdə davamlı olmayan kənd təsərrüfatı və heyvandarlıq mövcud olmuşdur. Bu dövrə aid yaşayış məskənləri hələ də öyrənilməmişdir. Xankəndi ətrafındakı təpələrdə kollektiv qəbirlər və cənazə yandırılan yerləri mövcuddur. Belə qəbirlərin əşyaları və təchizatları balta, iti ucluqlar, əyilmiş və kilid qarmaqlar, qızıl çıraqlar, bürünc qılınclar, müxtəlif keramika məmulatları və s.-lərdən ibarətdir. Xaçınçay ərazisindəki kurqanda üzərində nəfis naqqışlar olan silindir şəkilli ostovaneyi qab, eləcə də, ətrafları sığallanmış qara rəngli keramika məhsulları kəşf edilmişdir (13).

Rene Qurse də Gəncə və Qarabağda gözəl bilərziklərin kəşf olunmasından söhbət açır. Onlar bürüncdən zinət məqsədi ilə hazırlanmışdır və üzərlərində həndəsi formada heyvan şəkilləri çəkilmişdir. Bu sənət miladdan 1200-1250 il qabaq başlamış, ən azından, VIII əsrə qədər davam etmişdir. Bu sənət Talışa qədər yayılmışdır (103, 30).

## AZƏRBAYCANIN ARAN (İKİ ÇAY ARASI) VİLAYƏTİ

Söhbət Qarabağdan, onun qədim adından getdiyində, eləcə də, keçmişdə bəzi müəlliflər Aran adından, onun hüdud və sərhədlərindən bəhs etdiklərində, Araz və Kür çayı arasında yerləşən Aranın sərhədlərini Azərbaycan Rspublikasının ərazisi kimi göstərmişlər. Lakin qeyd etmişlər ki, Azərbaycan, təkcə Azərbaycan Respublikasını həqiqi və tarixi adı deyildir. Bu ad 1918-ci ildə Müsavat partiyasının hakimiyyətə gəlişindən sonra bu ölkəyə aid olunmuşdur. Ona görə də mövcud kitabın bir bölməsinin bu mövzuya ayrılması və aydın olan məsələnin daha da aydınlaşdırılması zəruridir. Deyildiyi kimi, Aran Azərbaycan Respublikasının bir parçasının qədim adıdır. Zamanla bu ad öz yerini Qarabağ adına vermişdir. Mərhum Mirzə Məhəmməd xan Qəzvininin yazdığına görə, bu ad dəfələrlə dəyişdirilmiş və Aran, Qarabağ olmuşdur (183, 40). Bu ölkə, qədim Arandan və indiki Qarabağdan başqa, Şirvan, Mil, Muğan, Talış və digər məntəqələri-bütövlükdə Azərbaycan Respublikası ərazisini əhatə etmişdir. Məhəmməd Hüseyn bin xələfi-Təbrizinin dili ilə desək, Aran Azərbaycanın bir vilayətidir.

Yaqut Həməvi Azərbaycanın sərhədləri ilə bağlı yazır: “Azərbaycanın hüdudları Şərqdə Bərdədən Qərbdə Ərzincana, Şimalda Deyləm, Cəbəl və Tarom ölkələrinə qədər uzanır” (189, 260).

“Tarix-e Təbəri”nin “Azərbaycan və xəzərlərin Dərbəndi haqqında məlumat və Səmmak bin Xuşenin Azərbaycana göndərilməsi” fəslində Azərbaycanın sərhədləri düz Dərbəndə qədər verilir: “Sərhədin əvvəli Həmədandan başlayır, Əbhər və Zəncana qədər uzanır. Sonrası xəzərlərin Dərbəndinə və bu arada nə qədər şəhərlər varsa, hamısı Azərbaycan adlanır... Və Azərbaycana gedən yollar, o cümlədən, Xəzəran ölkəsi də ona aiddir” (65, 529).

X əsrin əvvəllərində yaşamış Məsudi, “Azərbaycan Aranı”ndan (171, 227) və “Azərbaycan ölkəsindən olan Aran”dan bəhs edir.

Həmdullah Müstövfi Qəzvini, 1339/1340-cı ilində qələmə aldığı “Nezhət ül-qülub” əsərində ilk dəfə olaraq, Qarabağın adını çəkir. Burada Sultaniyyə ilə digər ölkələr arasındakı məsafədən söhbət getdiyi yerdə Aran adını Qarabağ adı ilə yanaşı çəkir və belə yazır: “Qarabağ və Aran: 72 fərsəng”(73, 61). O, kitabının başqa bir yerində Aranın Araz və Kür çaylarının arasında yerləşdiyi üçün ona Beynəlnəhreyn deyir və yazırlar: “Arazın kənarından Kürə qədər iki çay arasına Aran deyilir” (73, 91).

Maraqlıdır ki, Aran vilayəti Araz çayı ilə Xəzər dənizi arasındakı əraziyə deyil, məhz Araz çayı ilə Kür çayı arasındakı bölgəyə deyilmişdir. Yəni Arazla Kürün qovuşmasının qərbi Aranı, bu bölgənin şərqi isə Muğan çölünü təşkil edir: “Araz və Kür çaylarının qovuşması Talış dağlarına qədər şimaldan cənuba, Savalan dağlarının ətəklərindən Xəzər dənizinin sahillərinə qədər Şərqdən Qərbə doğru uzanır”. Bu ərazi şimalda Kür çayından Dərbəndə (Bab ül-əbvab-Dəmir qapı) Xəzər dənizinin qərbinə düşür və Şirvan adlanır (83, 87).

Həmdullah Müstövfi Qəzvini də Kür çayından Dərbəndə qədər olan ərazini Şirvan vilayəti kimi qeyd edir və Azərbaycanın sərhədlərini belə verir: "Azərbaycanın sərhədləri Əcəm İraqı, Gürcüstan, Ermənitanı ehtiva edir. Təbriz, Ucan, Gərgər, Naxçıvan, Əcnan, Ordubad, Azad və Makuyə" (73, 91).

"Bürhane-qate"nin müəllifi Məhəmməd Hüseyn bin Xələf Təbrizi Bürhan adıgedən əsərini 1651/1652-ci ildə, yəni Səfəvilər dövründə Hindistanda qələmə almışdır. O, Aran adı haqqında belə yazır: "Aran Azərbaycanın təşdidlə yazılan vilayətinin adıdır. Gəncə və Bərdə ona bağlıdır. Deyilənə görə, orada qızıl və gümüş mədənləri var. Bu söz təşdidsiz də işlədilir" (156, 69).

1724/1725-ci ildə Səfəvilər dövründə əfqan seyidlərinin göstərişi ilə Mirzə Səmia tərəfindən qələmə alınmış qiymətli "Təzkirət ül-moluk" əsərində də yazılır ki, Səfəvi sultanlarının və yerli sarayların mənsəb sahibi ərbablarının hər birinin göstərişinə əsasən, hər iki Azərbaycan Səfəvi sülaləsinin hakimiyyəti dövründə bir ölkə olmuş, "sərhəd əmirlərinin məvacib və tyul torpaqlarına və xidmətçilərinin sayına görə" aşağıdakı 4 regiona bölünmüşdür: Təbriz, Çuxursəəd, Qarabağ, Şirvan (181, 1-70).

Həmçinin, Kərim Oder, Mərakeşin tanınmış coğrafiyaşünası və kartoqrafı Şərif İdrisinin 1741/1742-ci ildə çəkdiyi və Konrad Mulerin 1928-ci ildə Ştutqardda nəşr etdiyi bir xəritəyə əsaslanaraq yazır ki, Qafqaz dağları ilə Kür çayı arasındakı ərazi, Şimali Azərbaycanın, Şirvan, Araz və Kür çayları arasındakı ərazinin qalanı isə İran Azərbaycanının ərazisidir və Azərbaycan ölkəsi kimi yazılır (15, 20).

Övliya Çələbi, haqlı olaraq, Naxçıvanı Azərbaycanın bir parçası hesab etmişdir. Əlbəttə, digər əsərlərdə də, ərəb coğrafiyaşünaslarının Nəşəvi adlandırdıqları Naxçıvan da Azərbaycanın şəhərlərindən hesab olunmuşdur (21, 37; 24, 179).

Şəmsəddin Sami 1898-1899-cu illərdə nəşr etdirdiyi "Qamus əl-Elam" lüğətinin "Nizami" maddəsində, şairin doğum yerinin Azərbaycanın Gəncə şəhəri olduğunu yazır və bu şəhəri Azərbaycanın şəhərlərindən biri hesab edir (22, 4589).

Qafqaz xanlıqları çar Rusiyası tərəfindən işğal ediləndə onlara Azərbaycan xanlıqları deyilirdi. XVIII əsrin sonlarında Heraklusun hakimiyyəti zamanında Gürcüstan hakimi, İdil-Ural türklərindən olan və Rusiyanın Tiflisdəki hərbi qarnizonunda xidmət edən bir zabitə Azərbaycan xanlıqlarının hərbi gücü, siyasi münasibətləri, eləcə də, daxili vəziyyətləri barədə bir əsər yazmaq barədə tapşırıq verir. Həmin əsər hazır olandan sonra 1884-cü ildə Kiyevdə nəşr olunur. Adıgedən əsərdə İran Azərbaycanı və Qafqaz Azərbaycanı xanlıqlarından vəhdət halında bəhs olunur.

Moskva Lazarev adına İnstitutun professoru Mixail Lazarev, özünün "Türk ədəbiyyatı antologiyası" adlı əsərində Cənubi Qafqaz türklərini Azərbaycan türkləri adlandırır (198).

Mirzə Kazım bəy, Kazan və Sank-Peterburq Universitetlərinin fars və ərəb ədəbiyyatları professorlarından biri, Bartoldun dediyi kimi, Rusiya şərqşünaslığının banilərindən biri, "Gülüstan"ın rus dilinə, "Dərbəndnamə"nin isə ingilis dilinə ilk tərcüməçisi, Avropa və Amerikanın bir neçə şərqşünaslıq cəmiyyətlərinin rəsmi və fəxri üzvü... və s.

olmuşdur. O, Kazan Universiteti tərəfindən çap olunan "Türk dillərinin tətbiqi qrammatikası" əsərində Azərbaycan türk dilini Cənubi (İran) Azərbaycan və Şimali (Qafqaz) Azərbaycan olmaqla, iki dialektə ayırır.

Adolf Berge Qafqazın türkdilli İran şairlərinin şeirlərindən ibarət bir məcmuə tərtib etmiş və onu "Azərbaycan şairlərinin şeirləri" adı ilə 1847-ci ildə Leyspikdə çap etdirmişdir (99, 83).

XIX əsrin əvvəllərində İran-Rusiya müharibələri başladı və İranın məğlubiyyəti ilə nəticələndi; İran öz ərazisinin 17 vilayətini itirdi. Bu müharibənin ilk dövrü sona çatandan və biabırçı Gülüstan müqaviləsi bağlanandan sonra iki ölkə arasında zahiri sülh yarandı. Ancaq bu sülh İranda qəzəb və intiqam hissləri yaratdı və cahadla bağlı kitablar meydana çıxdı. I və II İran-rus müharibələri arasında (1813-1828) keçən 12 ildə müharibəyə çağırışla bağlı çoxsaylı yazılar dərc olunurdu. İtirilmiş torpaqların azad olunması ilə bağlı xalq arasında təşkilatlanma günü-gündən güclənirdi (194, 27). Nəticədə, müqavimət ədəbiyyatı yarandı. Bu işdə tanınmış İran ruhaniləri xüsusi fəallıq göstərirdilər. O zaman Arazın o tayı döyüş meydanlarına çevrilmişdi; İrəvan, Naxçıvan vilayətərindən başqa, Xəzər sahilindəki Talış bölgəsi də hələ İran dövlətinin əlində idi. Bütün bu ərazilər başqa adla deyil, Azərbaycan adlanırdı. Bununla bağlı iki əlyazmaya diqqət yetirək: "O illərdə İsfahanın imam cüməsi Mir Məhəmməd Hüseyn bin Əbdülbaqi, Abbas Mirzəyə müraciət edərək cahad istədi. O, hesab edirdi ki, Rusiyanın Azərbaycana hücum etməsi, "külək yolunda çıraq, sel yolunda ev tikmək kimidir" (99). İsfəhanın imam cüməsi, o alimlərdən hesab olunurdu ki, siyasətçilərin təcavüzkar

Rusiya ilə müharibəyə dair 24 sualına cavab vermiş və onları fars dilində kitab şəklində çap etdirmişdi.

Üləmalar cahada çağırış kitablarında və xalqa müraciətlərində yazırdılar: "Bilin ki, Azərbaycanda öldürülmüş günahsız insanların intiqamını almaq, islamı və müsəlmanları qorumaq, mömin insanların namusunu müdafiə etmək Kərbəla şəhadətidir" (180, 18-19).

# İSLAMDAN QABAQ QARABAĞ

Qarabağ dünyanın ən qədim və əzəmətli mədəniyyətlərindən birinin başlanğıcı olmuşdur. Burada yaşayan insan qrupları getdikcə qəbilə və tayfalara bölünmüşlər. Nəticədə, filizin tapılması ilə şəhər cəmiyyətlərinin yaranması, ticarətin meydana gəlməsi ilə bu regionun sakinləri dövlətlər və hökumətlər qurmağa başlamışlar.

Tarixin qədim dövrlərində Arazın o tayında yaşayan müxtəlif tayfalar, o cümlədən, "Lulubəy" və "Quti"lər eramızdan əvvəl III və II minillikdə cənub, "Xəzərlər" və ya "Kaspilər" qərb və cənub-qərb bölgələrində məskunlaşmışlar. Onların yaşadıqları ərazi "Kaspiana" adlanırdı. Xəzər dənizinin adı oradan gəlir. Kaspilər köynəyə oxşar yun paltar geyirdilər. Qısa nizələrlə silahlanır, qamışdan oxlar düzəldirdilər.

Azərbaycanın şimal vilayətləri, eləcə də, cənubi Dağıstan qədim dövrdə Albanya adlanmışdır. Bəzi alimlərə görə, Albanya sözünün mənası "Dağlar yurdu" deməkdir. Hazırda da Azərbaycan Respublikasının Quba rayonunda Alban adlı kənd mövcuddur. Albanya sahillərində Xəzər dənizinə Alban dənizi deyilmişdir.

Albanya ərazisində qədimdə müxtəlif dillərdə danışan 26 tayfa mövcud olmuşdur. Onlardan ən böyüyü Utilər idi. Onların nəsillərindən qalan Udinlər, hazırda Azərbaycan Respublikasının Qutqaşen rayonunda yaşayırlar. Qar-qar çayının sahillərində isə Qar-qar tayfasının qalıqları məskunlaşmışlar.

Qədim yunan coğrafiyaşünaslarından biri yazmışdır ki, albanlar xoşəndam, bədənli, açıqürəkli, səmimidirlər. Tarixçilərdən birinin verdiyi məlumata görə, albanların qızılı saçları, mavi gözləri olmuşdur.

Albanyanın təbii və coğrafi şəraiti münasib hesab edilmişdir. Onun torpağı məhsuldar idi. Üzüm bağları məşhur olmuşdur. Bir-birinin ardınca uzanıb gedən otlaqlar heyvandarlıq üçün münasib idi. Albanlar ovçuluq və balıqçılıqla da məşğul olurdular. Qədim müəlliflərin verdikləri məlumatlara görə, burada bəslənən böyük itlər vəhşi öküzləri, hətta şirləri də parçalayırdılar.

Alban sənətkarları filiz üzərində nəqqaşlığı öyrənmişdilər. Arxeoloji araşdırmalar nəticəsində Albanya ərazisində qızıl boyunbağılar, bürünc qolbaqlar və s. bəzək əşyaları tapılmışdır. Xocalıda aparılan qazıntılar zamanı aşkar edilən sikkənin üzərində Assuri sərkərdələrindən birinin şəkli həkk olunmuşdur. Bu, Albaniyanın xarici əlaqələrindən xəbər verir.

Albanlar arasında təbəqələşmənin və etnik birliyin yaranması Albaniya dövlətinin yaranmasına səbəb oldu. Onun paytaxtı Qəbələ (Qutqaşen yaxınlığında) şəhəri idi. Şəhərin ətrafında böyük qayalar arasından iti çaylar axırdı. Qəbələ dövrünün ən gözəl yaşayış məskənlərindən biri idi və 1500 il mövcud olmuşdu (17, 13).

Piliney, qədimliyinə görə, Qəbələ, yaxud Qabalayı Albaniyanın ilk şəhəri adlandırır. Bu şəhər özünün inkişaf etmiş ticarət və sənayesi ilə siyasi, idari və mədəni bir mərkəz idi. O, geniş ticarəti və pul dövriyyəsi ilə zamanının ən yüksək ictimai, iqtisadi və məişət şəraiti səviyyəsinə yüksəl-

mişdi. Qəbələnin qalıqları günümüzə qədər gəlib çatmışdır... Strabon, Piliney, Ptolemey kimi qədim tarixçilər Albaniyada 30-dan artıq şəhərin mövcud olması barədə məlumat vermişlər (3, 42, 50).

Bu şəhərlərin ən mühümləri Qəbələk (Kabalay, Qəbələ), Pərsəvə (Bərdə), Dərbənd, Şabran, Beyləqan idilər. Karvan yollarının üzərində yerləşən Bərdə, Yaxın və Orta Şərqin ən əsas ticarət mərkəzlərindən biri idi (98, 70).

Albaniyanın sərhədlərinə gəlincə, AMEA Tarix İnstitutunun alimləri belə bir nəticəyə gəlmişlər ki, Albaniyanın sərhədləri sabit qalmasa və tez-tez dəyişsə də, əldə olan sənədlərə əsasən, ümumi şəkildə demək mümkündür ki, tarixi Albaniya indiki Azərbaycan Respublikasını və Dağıstanın cənub bölgələrini əhatə etmişdir (61, 50).

Albanların adı tarixdə ilk dəfə Atropatın sərkərdəliyi altında Quqamel döyüşündə iştirakla bağlı çəkilir və göstərilir ki, Albaniyadan olan Kadusi, Alban və Saksini tayfaları bu döyüşdə iştirak edirdilər (98, 70).

Albaniyanın özünəməxsus sikkəsi, sikkə istehsal edən zərbxanası, ordusu və padşahı olmuşdur... Strabon yazır: “Alban padşahları əhəmiyyətli şəxsiyyətlər idilər. İndi də orada 1 padşah bütün xalqı idarə edir”. Tarixçinin “indi” dediyi vaxt eramızdan əvvəl III-II yüzilliyi, ola da bilsin ki, daha da qədim dövrü əhatə edir.

Mütəxəssislərin müəyyən etdiklərinə görə, Alban dili, Dağıstan dilləri qrupuna mənsub olmuşdur. Yəni Alban-Uti qohum-irqi dili bu regionun yerli dili idi və əsas dil hesab olunurdu (3, 50). Hazırda Azərbaycan Respublikasının şimal-şərqində yaşayan Udinlərin və digər qədim xalqların dilləri, abanların dillərinin qalıqlarıdır.

Alban hökmdarları öz hakimiyyətlərini möhkəmləndirməkdən ötrü xristianlığı rəvac vermişlər... Albaniyada xristianlıq tədricən rəsmi dinə çevrilmişdir. Xristianların Qəbələdəki əsas məbədi böyük ictimai və siyasi əhəmiyyətə malik olmuşdur. Ancaq Albaniyada xristian dini, Ermənistan və Gürcüstandakı kimi dərin kök sala bilməmişdir. Albaniyanın əhalisi uzun zaman Günəşə, Aya, Atəşə tapınmışlar (17, 14-28).

Albanlar I əsrin ortalarına qədər yerli padşahlar tərəfindən idarə olunmuşlar. Əlbəttə, İranda mərkəzi hakimiyyətin gücləndiyi vaxtlarda, məsələn, I Daranın zamanında Həxamənşilərin hakimiyyəti şimalda Qafqaz dağlarına qədər genişlənmişdi. Bu zaman o, Albaniyadan başqa, Ermənistan və Gürcüstanı da əhatə edirdi. Ancaq Albaniya şimal sərhəddinin sonunda yerləşdiyindən və mərkəzdən uzaq olduğundan, yerli hakimlər daha çox azad və müstəqil idilər. Ona görə də mərkəzi hakimiyyət zəifləyən zaman onlar yenidən tam istiqlaliyyət əldə edirdilər (98, 71-72).

Miladın I əsrinin ikinci yarısında Albaniyanın həyatında baş vermiş ən böyük hadisə bu ölkənin Parfiya-Arşagitlər (Əşkanilər) tərəfindən işğal olunması olmuşdur. Bu işğal qısa fasilələrlə IV əsrin əvvəllərinə qədər davam etmişdir (3, 53).

Əşkanilərdən fərqli olaraq, mərkəzi hakimiyyətə daha çox əhəmiyyət verən Sasanilər, hakimiyyətə gələndən sonra Albaniyanın strateji əhəmiyyətini nəzərə alaraq və Qafqaz keçidlərini əldə saxlamaqdan ötrü bu bölgədəki yerli hakimlərin muxtariyyətini rəsmən tanıyırdılar. Sasani şahənşahları ilə Albaniya şahları arasındakı ittifaqda qarşılıqlı izdivaclar da əhəmiyyətli rol oynayırdı. Bu ittifaq V əsrin

ortalarına qədər davam etmişdir. Ancaq Sasanilərin artan iqtisadi və siyası zülmünün artması ilə Albaniyada, eləcə də, Ermənistan və Gürcüstanda onlara qarşı iğtişaşlar baş qaldırdı. Belə iğtişaların ən diqqətəlayiqi 457-459 və 483-484-cü illərdə baş vermişdir. Hər iki qiyamın yatırılmasına baxmayaraq, qiyama rəhbərlik etmiş başçılar Sasani dövlətindən müəyyən imtiyazlar əldə etdilər.

I Firuz (459-484) 461-ci ildə Əşkaniləri məğlub etdi, Parfi xanədanına aidiyyatı olan və ana tərəfdən Sasanilərə qohumluğu çatan və xalq qiyamına rəhbərlik etmiş Alban hakimi II Vaçenin hakimiyyətini tanıdı və Albaniyanı Sasani dövlətinin əyalətlərindən birinə çevirdi. Ancaq Albaniyada sabitlik yaranmadı. II dəfə 487-ci ildə qiyam yenidən alovlandı. Məzdəki hərəkatını məğlub edən, idari və ordu islahatları həyata keçirən Ənuşirəvan (531-579), Arazla Qafqaz arasındakı torpaqları tam ələ keçirmək qərarına gəldi. O, bu məqsədlə Şirvan qalasını və Dərbənd istehkamlarını ələ keçirmək, yerli qiyamlara son qoymaq, eləcə də, şimaldan Xəzərlərin hücumlarının qarşısını almaqdan ötrü Qafqazın müxtəlif yerlərində sərhəd məntəqələri yaratdı. Bu məntəqələrdən biri də Albaniyanın bir hissəsində hakimiyyətdə olan Şirvanşahlar idi (98, 71-72).

Ancaq zamanla Albaniya qüdrətlənsə də, şimaldan köçərilərin ardı-arası kəsilməyən hücumları qarşısında zəiflədi və şimaldakı ərazilərinin bir hissəsini itirdi və paytaxtı Bərdəyə köçürdü (17, 28).

Sonuncu Alban padşahı Arşagidlər nəslindən olan III Vaçaqan (487-510) Qadirman, ya Girdiman feodal dövlətinin başında dururdu. Daha sonra Mehranilər sülaləsi hakimiyyətə gəldi. Bu sülalənin ən böyük padşahı Cavanşir

(637-680) olmuşdur. Onun zamanında Albaniya daha da abadlaşmış, elm və mədəniyyət diqqətəlayiq bir şəkildə irəliləmiş, məbədlər və xanəgahlar tikilmişdır. Cavanşir, Şərqdə milli hökmdarlardan biri idi (3, 60).

Ağvan tarixindən məlum olduğu kimi, Mehranilər, Sasani sülaləsindən idilər. Onların nəsilləri zaman keçdikcə yerli Alban dilini, adət-ənənələrini və dinini qəbul etmişlər. Əvvəl Girdiman çayının hövzəsində yerləşən bu yerli dövlət, sərhədlərini Gürcüstandan tutmuş Dərbəndə və Araz çayına qədər genişlətmişdi. Mehranilər Bərdəni ələ keçirəndən sonra paytaxtı Girdiman qalasından ora köçürdülər. Cavanşir, dövlətinin müstəqilliyi üçün Sasani, Bizans, Xəzər və köçərilərlə müharibə və danışıqlar aparmağa məcbur idi (98, 72).

Bu dövrdə Alban dövlətinin iqtisadi həyatında dəyişikliklər baş verdi. Belə ki, kənd təsərrüfatında süni suvarma tətbiq edilməyə başladı. Çindən gətirilən ipək qurdu yetişdirilməsi genişləndi. Abşeronun neft mədənlərindən, eləcə də, Girdimanın filiz yataqlarından ən primitiv bir şəkildə istifadəyə rəvac verildi.

Sənətkarlar gözəl keramik qablar, zərgərlik əşyaları və parçalar istehsal edirdilər. İpək, kətan və yun parçalardan yaraşıqlı paltarlar tikilirdi. Yundan hazırlanmış məhsulların çeşidlərinin artması, sabit rənglərin əldə olunması xalça toxuculuğunun inkişafına əhəmiyyətli təkan verdi. Xalçaçılıq sənəti istər köçərilər, istərsə də oturaq əhali arasında rövnəq tapdı. Ərəb tarixçiləri qeyd edirlər ki, VII əsrdə Azərbaycanın şimal-şərq hissəsində əla xalçalar toxunurdu. Elçilərin ərlik qızlardan ilk soruşduqları sual bu olurdu ki, qızım, xalça toxumağı bacarırsanmı?

Sənaye və ticarətin inkişafı ilə birlikdə köhnə şəhərlər böyüyür, yeni şəhələr meydana gəlirdi. Yeni şəhərlər, adətən, ticarət yollarının üzərində salınırdı. O dövrdə şəhər əhalisi hələ də kənd iqtisadiyyatından asılı idi. Adıgedən dövrdə Albaniyada Qəbələ, Bərdə, Şəki, Şamaxı, Şirvan, Şabran və s. kimi məşhur şəhərlər vardı (17, 28).

Bu dövrdə Arazın o tayında, xüsusən, Qarabağda yaşayan müxtəlif tayfalar ölkənin mədəniyyət və tarixinin formalaşması ilə bağlı özlərinə məxsus əsərlər yaratmışlar. Belə tayfalardan biri Kutilərin adı, Assuri mənbələrində "Ğuti" kimi qeyd olunur. Bu tayfa Azərbaycanın tarixində, onun maddi və mənəvi həyatında mühüm rol oynamışdır.

Fransa antropoloqu Hami, "Bəşərin çöhrəsi" əsərində yazır: "Hazırda Dağlıq Qarabağın mərkəzi Şuşada azərbaycanlıların arasında yaşayanlar öz görkəmləri ilə lulubəylərdən və qutilərdən qalmadırlar. Mad və Həxamənşi incəsənətlərinin araşdırılmasından aydın olur ki, madlar, babillilərin və assurilərin təsiri altına düşməzdən öncə lulubəy və qutilərin təsiri altında olmuşlar. Bunun dəlili adıgedən tayfaların Maddakı diqqətəlayiq rollarıdır. Onlardan məlum olur ki, eramızdan əvvəl III minilliyin yarısında lulubəy və quti tayfaları İran tayfaları üzərində bir çox izlər buraxmışdılar" (86, 56-59).

İlk dəfə olaraq məşhur italyan türkoloqu İ.Rusi 1937-ci ildə türkoloji konfransda qutilərin türk mənşəli olmalarını vurğulamışdır. O, həmçinin, 1957-ci ildə daha da irəli gedərək, türk dilindəki linqvistik proseslərin tədqiqi nəticəsində quti sözünün "oğuz" kəlməsinin bir variantı olduğu qənaətinə gəlmişdir. Vəcihə Xətiboğlu da türkoloji jurnalda "quti", yaxud "kuti" sözünün izahı ilə bağlı yazır ki, "qut"

sözündəki “t” və “d” hərfləri “s” və “z” hərflərinə çevrilmiş və yuxarıdakı söz “oğuz” və ya “ozuz” variantına dəyişmişdir. Bizans dönəmində biz dəfələrlə “uz” (“öz”) sözünün tafya mənasında işlədilməsinin şahidi oluruq. Burada “g” “k” və “h”-yə dəyişmiş, “kuz” və “huz” sözləri yaranmışdır. Sonradan bu sözlər “kas”a dönmüşdür. Başqa sözlə, kaslar və “Kars” toponimi qutidən əmələ gəlmişdir. Qeyd edilməlidir ki, kas tayfalarındakı müharibə ilahəsi “Qıdır” (“Xıdır”) adı da Azərbaycanın cənub-şərqindəki bir şəhərin adıdır. Bu, onu göstərir ki, “kas” ünsürü bütün Azərbaycanda yayılmışdır (176, 266).

Z.İ.Yampolski də bu fikirdədir ki, “quti” sonradan “uti”, “uyti”, “uydi”, “uytin”, “udin” adlanmışdır (91, 233).

Rəfiqə Behzadi yazır: “Lulibəylər qərb, qutilər isə şərq bölgələrində məskun idilər. Güman olunur ki, həmin ərazilərdə mehrani tayfaları da yaşamışlar. Bölgənin cənub-qərbi isə kasilərə məxsus olmuşdur. Zaqrosun qərb dərələrində isə huri tayfaları məskunlamışlar. Əldə olan az-çox etibarlı mənbələr göstərir ki, onların dilləri bütövlükdə ilami dilinə bağlı imiş (52, 264).

Bütün bu tayfaların dilləri ilami dili olduğuna görə, ilami dilinin mənşəyi məsələsinə aydınlıq gətirilməlidir. Doktor Ziya Sədr müxtəlif etibarlı mənbələrə istinadən yazır ki, ilami tayfalarının Türkmnistandan, yaxud da, Azərbaycan Respublikasının Azıx mağarası bölgəsindən Xuzistana köçü ölkəmizin tarixində yeni bir mərhələ açdı. Onlar eyni kökdən olan sumer tayfalarının ardınca və onlardan ilham alaraq, təqribən e.ə. V-IV minillikdə Elam mədəniyyətini və Şuş şəhər dövlətini formalaşdırdılar, “El, kənd və şəhər”

prinsipi üzrə bütün ölkə üzrə çoxsaylı şəhər dövlətləri yaratdılar, ilkin Elam əlifbasını kəşf etdilər, keramika istehsalı, inkişaf etmiş kənd təsərrüfatı, mədəni hüquq, kişi və qadınların bərabərliyini təmin etdilər. Bununla da Elamlar e.ə. 2250-ci ildə keramika, rəngli keramika, kaşı, metal və dəmir dövründən yeddi min il əvvəl İranda bütün ölkə üzrə parlaq mədəniyyətli bir dövlət yaratdılar (59, 578-581).

İranda o dövrdən sonrakı bütün tayfalar Elamların layiq və qeyri-layiq davamçıları olmaqla, iki yerə bölündülər. Elam hakimiyyəti 2210 il sonra sona çatdı, lakin onun mədəniyyəti və sivilizasiyası Sasanilərin süqutuna, yəni 330-cu ilə qədər davam etdi. X əsrə qədər müsəlman tarixçiləri Elam dilindən bəhs etmişlər(38, 43-950). Elam mədəniyyətindən sonra Xuzistanın Zaqros dağlarının ətəklərindən Azərbaycana, Kaşanın Siyələyinə, yanmış şəhər Kirmana... qədər digər mədəniyyətlər mövcud olmuşdur. Əslində, bütün bu regionlarda Elam mədəniyyətinin qalıqları rəvac idi. Dilçilər onların, o cümlədən də, qutilərin, lulubəylərin, mannaların, kasilərin, urartuların, başqalarının, eləcə də, madların altı tayfasından ikisi olan budiuyların və muğların dillərini calaq iltisaği dillər qrupuna aid edirlər. Tarixçilər onların hamısının dilini "Azianik" adlandırırlar (148, 33).

Geopolitik baxımdan, bu dillər Ural-Altay dilləri ailəsinə aid olmuşdur. Hazırda kore, finland, mancur, türk, monqol, macar və s. dilləri Ural-Altay dillərinin qolları hesab edirlər. Halbuki bu dillərdə Hind-Avropa, elə cə də, Sami-Arya dillərinin terminləri də mövcuddr. Dillərin ən uyğun adlandırılması (qruplaşdırılması) onların öz strukturuna görə aparılan təsnifatdır. Daha uyğunu isə ölü (elami və

s.) və fin, türk və digər diri dillərin iltisaqi adlandırılmasıdır (137, 12).

Nəzərə alsaq ki, bəhs edilən elamilərin və digər sivilizasyaların dillərinin hamısının təhlili-flektiv (aryayi) deyil, iltisaqi olduğunu nəzərə alsaq, Pəhləvilərin hakimiyyətə gəlişlərinin 53-cü ilində bu sivilizasiyalar unudulmağa başlamışlar. Bununla da, İran tarixi o aradan, yəni Həxamənşilərdən və ən yuxarısı Maddlardan başlayaraq, yerli və bəzi xarici tarixçilərin (Petruşevski, Dyakunov) diqqətini cəlb etdi. Həmin siyasətin davam etməsində aryamehrin qalıqları hələ də Elaminin parlaq mədəniyyətinin şərhi kimi şiddətlə tərif edilməkdədir (85, 62).

Rəfiqə Behzadi aryayilərin İrana gəlməsi və onların yerli əhali ilə qarışması barədə yazır: "Arya qəbilələri və onların döyüşçüləri bacarıqlı süvarilər idilər və miladdan əvvəl ikinci minilliyin əvvəllərində bütün Türküstan çöllərindən, Qfqazın və Xəzər dənizinin şimal çöllərindən İranın daxilinə vardılar və səhraların dərinliklərinə çatanda iki qola ayrıldılar... Anaq əksər tarixçilər aryayilərin indiki İran ərazisinə köçünü eramızdan əvvəl I minilliyin əvvəllərinə aid edirlər.

Qərbi İrana yetişən aryayilər, yüksək və parlaq mədəniyyətə sahib yerli əhalinin arasında yerləşdilər. Bununla da, bu fatehlər, məğlub etdiklərindən çox şeylər əxz elədilər. Bu mövzu, doğrudan da, geridə qalmış gəlmələrim təkamül tarixində öz təsirini göstərdi... Azərbaycan və İranın qərbində madlar və yeni gəlmiş digər iranlılar qeyri-hind və Avropa dilində danışan urartular, mannalar, huryanilər- və başqaları kimi yerli çoxluqla qarşılaşdılar..." (52, 27).

Son tədqiqatçı, qutilər haqqında diqqətəlayiq bu məlumatı da verir: "Qutilər eramızdan əvvəl XXIII əsrdə, Kiçik Asiyada Zaqros, Ermənistan və Toros dağlarının ətəklərinə qədər bütün Beynəlnəhri idarə edən Akkad padşahı Nasinin zamanında tarix səhnəsində peyda olurlar. Onlar Elama və güman ki, Suriyanın bir hissəsinə də sahib idilər. Akkadların tarixi rəvayətlərinə görə, Akkad padşahı Naramsin, hakimiyyətinin sonlarında məcburən qutilərlə müharibə edir və onlara məğlub olaraq, devrilir. Danimarkalı sumerşenas Yakubson yazır ki, qutilərin padşahı Vəzir Anrida, Naramsin üzərində qələbə çaldıqdan sonra Beynülnəhrin cənub hissəsində nüfuz qazandı və şumerlərin müqəddəs şəhəri Nipuru ələ keçirdi; oradakı Akkad katiblərinin əli ilə kitabə yazdırdı.

Aydındır ki, həmin dövrdə qutilərin mədəni səviyyəsi mükəmməl deyildi və bədəvi-əkinçi həyatı, çox güman ki, matriarxal, yəni rəngli keramika mədəniyyəti dövrünü yaşayırdılar. Buna baxmayaraq, onların, böyük ehtimalla, dövrünün ən güclü və qüdrətli ordusuna sahib bir dövləti necə məğlub etmələri məlum deyildir. Əslində, bu məsələ elə də qəribə deyil, çünki Beynülnəhreyn bölgəsində, torpağının qeyri-adi məhsuldar olması ilə inkişaf etmiş sinifli cəmiyyət, özünün formalaşmasında bir addım qabaqda idi. Ona görə hələ də metal dövrünün ilk mərhələsini keçirirdi. Akkad ordusu daha çox könüllülərdən ibarət olduğu üçün silahları oduqca bəsit, yəni mis dəbilqə, kaman və təbərzindən ibarət idi. Bu cür silahlar qutilərin silahlarından fərqli deyildi. Ancaq Akkadların hakimiyyətinin sonlarında onların ordusunda azalma vardı. Ona görə də

qutilərin sayca üstünlüyü onların qələbəsini şərtləndirmişdi. Belə məlum olur ki, qutilərin başçıları hücum zamanı öz qəbilələrinin güclü ittifaqını təmin edə bilmişdilər.

Bütün bunlara baxmayaraq, padşah Naramsinin oğlu Şarkali Şari vəziyyəti öz xeyrinə dəyişməyi bacardı və Beynəlnəhreynin ərazisini qorudu, hətta qutilərin sərkərdəsi Sarlagabı əsir götürdü.

Bununla belə, azsaylı sənədlərə görə, qutilərin qələbələrinin xüsusiyyətləri və onların Mavərənnəhrdə hakimiyyətdə olması barədə məlumat mövcuddur. Quti padşahlarının siyahısı iki özəlliyə malikdir. Bu özəlliklər onları başqalarından fərqləndirir. Birinci özəllik onların hakimiyyətinin qısa müddətli olmasıdır. İkinci xüsusiyyət isə odur ki, siyahının əvvəlidə belə bir qeyd var: "Qutilərin tayfasında şah olmamışdır" (52, 265).

Fransız alimlərə görə, Qarabağ əhalisinin kökü huryani tayfalarındandır... Hətta Xəzər dənizinin ətrafının qohum dillərinin bəziləri Tövratda hit, fars mənbələrində isə hiti gedir. Qədimdə Aranda, xüsusən, Kür çayı sahilində və Gürcüstan sərhədlərində Hun-türk tayfalarından olan "Uz", yaxud "Uzz" tayfaları yaşamışlar. Onların hit tayfaları ilə yaxın bağlılıqları olmuşdur. Aran (Alban) mədəniyyəti xitlərin mədəni inkişafının köklərinə dayanır. Sonradan Ağacəri adlanan bu tayfalar Bərdə, Zəncan və Xalxalda yaşamışlar (140, 148).

Arxeoloji tapıntılara əsasən, Azərbaycanda ilk dövləti huri tayfaları qurmuşlar. Onların dili türk dili ailəsindən olan iltisaqi dil qrupundan olmuşdur. Bu tayfalar 4 min il əvvəl, yəni eramızdan əvvəl II minillikdə Azərbaycan,

Anadolu və Beynəlnəhrin şimalında dağınıq bir halda yaşamışlar.

İllər sonra hurilər siyasi və ictimai dəyişikliklərlə əlaqədar mitani adını götürmüşlər. Belə ad dəyişmələri türk tarixi boyu çox yayqın olmuşdur. Ona dair misallar saysızdır. Herodot mitaniləri matitər, Strabon isə matyanər adlandırmışlar. Bu ad Tövratda midyan, Quranın "Ərəfat" surəsinin 85-ci ayəsində mədin kimi getmişdir (176, 261).

Huri sözü cənnətin xoşsifət qadınlarına aiddir. O, başlanğıcını Azərbaycanın hurilər qəbilələrindən götürmüşdür. Əsli yaxın və uzaq ərəb və tacik tayfalarının dillər əzbəri, dünyanın gözəl üzlü, gözəl sifətli qadınının Azərbaycanın göyçək üzlülərinə oxşadılmşdır (81, 25).

## İSLAMDAN SONRA QARABAĞ

Qarabağ VII əsrdə Bərdə şəhəri mərkəz olmaqla, Mehranilər sülaləsinin əsası olmuşdur. Cavanşir təkcə o dövrün Aranının, bugünkü Qarabağının deyil, həm də bütün Albaniyanın hökmranı idi. O əsrin əvvəllərində islam peyğəmbəri (s.) Məkkədə öz peyğəmbərliyini elan etdi və yeni dünyanın yaranmasının müjdəsini verdi. Bu hadisə Orta və Yaxın Şərq xalqlarının, o cümlədən, Qarabağın tarixində yeni bir səhifə açdı, onların taleyini və dini kimliyini dəyişdi.

Ömər bin Xəttabın xəlifəliyi zamanında müsəlman ərəblərin ilk ordularının İrana yürüşü başladı. Ərəblərlə sasanilər arasında çoxlu döyüşlər baş verdi. Cavanşir Dəclə və Fərat çaylarının ətrafındakı döyüşlərdə iştirak edirdi. O, Qadisiyyə döyüşündə Aran ordusunun sərkərdəsi kimi böyük şücaətlər göstərdi. Ancaq ərəblərin sasanilər üzərində qələbəsindən sonra öz ölkəsinə geri döndü. Bir müddətdən sonra o, yenidən qiyam qaldırdı. Ancaq axırda VII əsrin son rübündə əlacsız qalaraq, xəlifəyə bac verməklə, xaqan və qeysər oldu. İslam dövründə iranşah kimi tanınan Mehranilər sülaləsi 821/822-cı ilə qədər İranda hökmranlıq etmişdilər.

O dövrün Aran vilayəti, bu günün Qarabağı 645/646-cı ildə Osman bin Əffanın xəlifəliyi zamanı ərəb sərkərdəsi Salman Baheli tərəfindən işğal olundu. O dövrdən bu bölgənin əhalisi islam dinini qəbul etdi. Qarabağ müsəlmanların yaşadığı fəth olunmuş ölkələrin bir parçasına çevrildi.

# XİLAFƏTİN DAĞILMASI VƏ YERLİ DÖVLƏTLƏRİN YARANMASI

İslamın ilk əsrlərində xəlifə tərəfindən Arazın hər iki tərəfindəki ərazilər üçün Azərbaycan valisi təyin edilirdi. Valinin iqamətgahı Ərdəbildə yerləşirdi. Həzrət Əli bin Əbutalibin (ə) xəlifəliyi zamanında Azərbaycanın valisi Əşəs bin Qeys idi. O, ikinci dəfə bu vəzifəyə təyin olunmuşdu. V.Madlunq, Azərbaycanın islam dinini necə qəbul etməsi barədə yazırdı: "Azərbaycan və Zaqafqaziyanın Şərqi İran vilayətləri, Xəzər dənizi çevrəsi vilayətinin əksinə olaraq, Dərbəndə qədər ərəblərin ilk işğalı qarşısında hətta Ömərin xəlifəliyi dövründə elə də müqavimət göstərməmişdilər. Azərbaycanın sasani sərhədçiləri xərac qarşılığında ərəblərə təslim olmuşdular. Bu barədə sonrakı mənbələrdə məlumata rast gəlinmir. Ərəblərin Qapı, yaxud Dəmir qapı adlandırdıqları Dərbənddəki İran sərkərdəsi digər düşmənlərlə, xüsusən, erməni və xəzərlərin əksinə olaraq, ərəblərlə müttəfiq idilər. Əslində, xəzərlər ərəblərin şimala yürüşlərinin qarşısında maneə idilər və irəlidəki on illiklər boyu Aran, Ermənistan və Azərbaycana yürüşlər etmişdilər. Osmanın xəlifəliyi zamanı sərkərdə Salman Baheli, Ermənistandan Zaqafqaziyanın şərqinə yürüş həyata keçirəndə yerli şahzadələr qərbdə Şəkidən şərqdə Şirvana, şimalda Məsqətə qədər ona təslim oldular, ona xərac verməyə razılaşdılar. Həmin dövrdə onlara qarşı bir çox hücumlar da olurdu. Belə hücumlardan birində xəzərlər Qəbələni ələ keçirdilər. Bölgənin dağlıq olması səbəbi ilə dağınıq halda

yerləşən ərazilərdəki xalq, şahzadələrin hakimiyyətlərində olan yerlərdə onlara lazımi kömək göstərirdilər. Belə şahzadə inzibati-idarə sisteminin bir hissəsini sasani dövləti xüsusi olaraq yaratmışdı ki, sərhədlərin qorunmasını gücləndirsin. Belə yerli sülalələr də ərəb işğalçılarına xərac verirdilər. Onlar, ən azından, Əməvilərin hakimiyyətinin sonlarına qədər bu şəkildə idarəçiliklərini davam etdirirdilər (62, 196).

Qarabağ ərəblər tərəfindən işğal edildikdən bir neçə il sonra xəzərlər Albaniyaya hücum etdilər. Cavanşir öz ordusu ilə Kür çayını keçdi və xəzərlərlə döyüşdə onları məğlub etdi. O, əsir götürdüyü xəzər sərkərdəsini bu şərtlə azad etdi ki, bir daha Albaniyaya hücum etməsinlər. Buna baxmayaraq, iki il sonra xəzərlər yenidən Albaniyaya hücum etdilər. Cavanşir Kür çayının sahilində xəzər xaqanı ilə görüşdü və sülh müqaviləsi bağladı. Sülh sazişi Cavanşirin hakimiyyətini daha da gücləndirdi.

VII yüzilliyin 70-ci illərində Cavanşir, xəlifə ilə məsləhətləşmələr apardı və xəlifənin sarayına yola düşdü. Xəlifə onu xüsusi təntənə ilə qarşıladı və Albaniyadakı hakimiyyətini təsdiq etdi. Ona bir çox hədiyyələr, o cümlədən, bir ədəd fil bağışladı. Bu minvalla, ərəblər Mehranilərin Albaniyadakı hakimiyyətini məhdudlaşdırdılar (17, 45-47).

Albaniya, xilafətə birləşdirilsə və rəsmən Mehranilərin müstəqilliyinə son qoyulsa da, tarixi mənbələrin verdiyi məlumata görə, Mehrani şahları hətta IX əsrdə də ad-san sahibi idilər. Sonuncu Mehrani şahı 822-ci ildə öldürüləndən sonra bu sülalə tarix səhnəsindən silindi. İslamın hakimiyyəti dövründə Albaniyanın siması və taleyi dəyişdi (98, 73).

Azərbaycan xalqı islamı qəbul etdikdən sonra digər dinlər (atəşpərəstlik və xristianlıq) dəbdən düşdü və xalq arasında dini vəhdət yarandı (17, 45-47).

Azərbaycan və Zaqafqaziyanın sərhədləri müdafiəsiz olduğuna görə, ərəb işğalçıları bu sərhədlərdə çoxsaylı ordu saxlamağa məcbur idilər. Osmanın xəlifəliyi zamanı çoxsaylı Kufə döyüşçüləri Azərbaycanda məskunlaşmışdı. Ona görə də Kufə, Bəsrə və Suriyadan olan çoxlu ərəb qəbilələri Azərbaycana köçmüşdülər. Onlar geniş torpaq sahələrini kəndlilərin əllərindən almışdılar. Təqribən 758-759-cu illərdə Abbasi xəlifəsi Mənsurun əmri ilə Yezid bin Hatəm Mohlebi, Azərbaycana hakim təyin olundu. O, Yəməndən çoxlu sayda ərəb qəbilələrini Azərbaycana gətirdi və onları müxtəlif bölgələrdə yerləşdirdi. O zaman gələcək Rəvvadilərin babası Rəvvad bin Müğənni əl-Əzdi də Bəzz ilə Təbriz arasında məskunlaşdı və sonradan hakimiyyətə yetişdi. Ərəb qəbilə başçıları digər şəhərlərdə də özləri üçün yaşayış sahələri və istehkamlar düzəldirdilər. Məsələn, həmin dövrdə Rəbiə qəbiləsindən olan Əbülbəis Hələs, Mərənddə, Məvalinin Əzd qəbiləsindən olan Sədəğə bin Əli Urmiyada, Bərzənin Ud tayfasından olan Əbu Abdulla bin Cəfər Həmədani Miyanədə, Mərr bin Ömər Musli Tai, Təbrizdə, Əşəs bin Qeys Kəndinin nəvələri Sərabda tanınan ərəb qəbilə başçıları idilər. Onlar və ailələri VIII-IX əsrlərdə böyük iqtisadi və idari gücə malik idilər və yerli əhali üçün böyük problemlər yaradırdılar. Onların iş başında olması yerlərdə vəziyyəti pisləşdirirdi.

O zaman Bərdə şəhəri ərəblərin istehkam şəhəri və xəzərlərə qarşı hərbi bazası idi. Əbdülməlikin xilafəti zama-

nında Bərdə ətrafında yeni istehkamlar quruldu. Əbdülməlikin oğlu Müsəlləmin 731-ci ildə iyirmi dörd min suriyalı əsgəri Bərdə kazarmalarında yerləşdirməsi onu daha da möhkəmləndirdi... İslamın ilk əsrlərində Azərbaycanın əksər müsəlmanları sünni məzhəbinin daşıyıcıları idilər. Ancaq burada xaricit məzhəbə xidmət edənlərə də rast gəlinirdi. Məlum olduğu kimi, Məmunun xəlifəliyi zamanı Bərdədə sünnilərlə mötəzililər arasında toqquşmalar baş vermişdir. Sünni məzhəbindən olan hədis alimləri mühafizəkar hənbəliləri himayə edir, hənəfi, şafeiyə kiçik fiqhi məktəblər kimi baxırdılar (62, 197).

İslamı qəbul etmələrinə baxmayaraq, Qarabağ əhalisi Əməvi və Abbasi xəlifələrinin zülmünə qarşı çıxışlar edirdilər. Ancaq güclü xilafət bu çıxışları amansızlıqla yatırırdı. 683-684-cü illərdə Əməvi xəlifəsi Vəlid bin Əbdülməliyin əmri ilə Qafqaza 30 min əsgər göndərildi.

Qafqazın cənub bölgələri islamlaşandan sonra, müsəlmanlar şimala (Dağıstan, Xəzərlərin yaşadığı bölgələr, Tatarıstan və s.) doğru irəlilədilər və zaman keçdikcə oralar da islamlaşmağa başladı. Bu arada Kufə, Şam, Bəsrə və digər bölgələrdən Qafqaza köçlər davam edirdilər. Müxtəlif xalqların nümayəndələri, eləcə də, xanlar və xəzər xaqanları ailələrinin üzvləri ilə xilafət sülalələrinin təmsilçiləri arasında nigahlar bağlanırdı. Beləliklə, yeni islam sosial-mədəni mühiti formalaşırdı.

Araşdırmalara görə, islamlaşmış digər bölgələr kimi, Qafqazda da narazılıqlar, iğtişaşlar və qiyamlar baş verirdi. Məsələn, xəzərlərin qaldırdıqları kütləvi üsyanlar 737-ci ildə bölgəyə göndərilmiş Mərvan bin Məhəmməd tərəfindən ya-

tırılmışdır. Daha sonra Babək Xürrəmidinin başçılığı ilə başladılmış azadlıq hərəkatı bütövlükdə Arazın hər iki tayında xalqın ədalət və azadlıq tələbinin göstəricisi idi (187, 59).

Ərəb dövləti vilayətlərdən (canişinliklər) ibarət təşkil olunmuşdu. Bu baxımdan Azərbaycanda iki vilayət mövcud idi. Onları əmirlər idarə edirdilər. Vilayətin əmiri xəlifənin canişini hesab olunurdu. O, mülki və hərbi məsələlərdə külli ixtiyar sahibi idi. Xəlifənin vilayətdəki siyasətini isə ərəb hərbi bazaları həyata keçirirdi. Bu bazalar böyük şəhərlərdə və şimal sərhədlərində əhalisi çox olan mühüm yaşayış məskənlərində yerləşirdilər. Hərbi bazaların əsas funksiyası gözətçilik və intizamı təmin etməkdən ibarət idi. Cəza və vergilərin toplanması da hərbi bazalara həvalə olunmuşdu.

Bu dövrdə qədim və yeni şəhərlərin inkişafının əsas səbəblərindən biri sərhəddən kənar ticarətin artması idi. Bu, Azərbaycanda pulun və əmtəənin dövriyyəsini sürətləndirirdi. Azərbaycanın əsas ixracat malları neft, zəfəran, ipək, pambıq, boyaq maddəsi, bitki toxumları, zeytun, gənə gərçək, xalça, duz, meyvə, balıq, silah, yun və s. idi. Həmin dövrdə Azərbaycanın daxili bazarlarında yerli mallarla yanaşı, hind, rus, Yaxın və Orta Şərq, Suriya, Kiçik Asiya və s. ölkələrin malları da satılırdı. Azərbaycan xilafətin Şərqi Avropa və Rusiya ilə ticarətində mühüm rol oynayırdı. Təsadüfi deyil ki, Azərbaycan sikkələri şimal ölkələrində və Rusiyanın Avropa hissəsində rəvac idi. Yaxın və Orta Asyanı Avropa ilə birləşdirən Xəzər dəniz yolu xarici ticarətdə böyük təsirə malik idi. IX-X əsrlərdə Şirvanşahlar dövlətinin tərkibində olan Dərbənd şəhəri, Xəzər sahilindəki ən mühüm liman hesab olunurdu.

O dövrdə Arazın şimal tərəfində müxtəlif bölgələrdə bir sıra mədrəsələr fəaliyyət göstərirdilər. Onlarda cəmiyyətin müxtəlif təbəqələrinin övladları təhsil alırdılar. VII-VIII əsrlərdə qədim yerli əlifba ərəb qrafikası ilə əvəz olundu. Əsərlər ərəbcə yazılmağa başladı. VII əsrdən sonra Azərbaycan mədəniyyəti islam mədəniyyəti əsasında və ona töhfələr verməklə inkişaf etməyə, yeni forma və məzmun kəsb etməyə başladı. VIII-X əsrlərdə isə çiçəklənən islam sivilizasiyasının bir parçasına çevrildi. Bu dövrdə elmi dil ərəb dili oldu. Ərəb əlifbası rəsmi və dövlət qrafikası hesab olunurdu. Bu vəziyyət 1926-cı ilə qədər davam etdi.

O dövrdə Azərbaycanda mövcud olan məktəblərdə ərəb dili tədris edilir, riyaziyyat, təbabət, nücum, fəlsəfə, coğrafiya və başqa elmlər inkişaf edirdi. Hər halda, təhsil yalnız imkanlılar üçün əlçatan idi. Yoxsulların övladları bu imkandan məhrum idilər.

Söhbət gedən dövrün memarlıq və inşaat işləri özünü şəhərlərin və hakimlərin oturduqları mərkəzlərin müdafiə və istehkamlarında, karvansaraylarda, körpülərdə, ictimai binalarda, mədəni, dünyəvi və dini obyektlərdə göstərirdi. Belə əsərlər qədim şəhərlərin çoxunda, o cümlədən, Bərdə, Gəncə və Qəbələdə qalmaqdadır.

VII əsrdə ilk dəfə olaraq, Araz çayı üzərində Xudafərin körpüsü tikildi. Bu əsrdə Arazın şimal tərəfində şəhərlərdə məscidlər inşa edildi. Onların inşaat tərzi, bəzək xüsusiyyətləri və xarici görünüşlərində yerli memarlıq üslubları diqqəti cəlb edirdi.

Şəhərlərdə incəsənət və sənətkarlıq çiçəklənirdi. Bərdədə ipək parçalar, Dərbənddə kətan istehsal edilirdi. Bakıda neftdən istifadə tədricən genişlənirdi.

Bütün Şərqdə tanınan Bərdə şəhəri genişlənir və onun əhəmiyyəti artırdı. Bu dövrdə şəhərdəki qədim binalara hündür tikililər əlavə olunurdu. Şəhərin mərkəzində alban hökmdarlarının təmtəraqlı iqamətgahında ərəb əmiri otururdu. Onun ətrafında karvansaraylar və hamamlar inşa edilmişdi. Bərdənin böyük örtülü bazarı, xüsusən, cümə günlərində çox izdihamlı olurdu. Çoxsaylı arxlar şəhərin hər yerindən cari idilər. Bərdə zərbxanalarıda gümüş və qızıl sikkə kəsilirdi. Bərdə o dövrün əhalisi ən çox olan şəhəri idi. Şəhərin əsas əhalisi olan albanlardan başqa, burada tatlar (fars), ərəblər, yəhudilr və başqa xalqlar da yaşayırdılar.

Bərdədə çoxsaylı müxtəlif emalatxanalar fəaliyyət göstərirdilər. Şəhər və onun ətrafının əhalisi ticarət və sənətkarlıqdan başqa, kənd təsərrüfatı və heyvandarlıqla da məşğul olurdu. Əhalinin əksəriyyəti sənətkar və usta idi. Onlardan başqa, şəhərdə feodallar, tacirlər, dövlət məmurları, hərbçilər və ruhanilər də yaşayırdılar. Əhali arasında oxumuş şəxslər də var idi.

Rəşidilər xilafəti başa çatanda və Əməvilər hakimiyyətə gələndə artıq islam dünyası genişlənmişdi. Əməvilər 70 il xilafəti idarə etdilər. Onların zamanında hər cür haqsızlıqlar baş alıb gedirdi. Belə haqsızlıqlara qarşı hər cür üsyanı və hərəkatı Əməvilər amansızlıqla yatırırdılar. Bu illərdə Arazın hər iki sahilində xalq islamı qəbul etmişdi. Yəni bu regionda da hakimiyyət Əməvi hakimlərinin əlində idi. Bu dövrdə Azərbaycan islam dünyasının ən mühüm məmləkətlərindən hesab olunurdu.

750-ci ildə Əməvilər sülaləsini Abbasilər sülaləsi əvəz etdi. Abbasilər dövründə islam xilafəti daha da genişləndi.

Onun sərhədləri Sakit okeandan Send çayına, Xəzər dənizindən Nil çayına qədər uzanırdı. Aydındır ki, belə geniş bir ərazidəki zülmkar hakimiyyət uzun sürə bilməzdi. Ona görə də çox keçmədi ki, Abbasilər zəifləməyə başladı və xəlifə Məmunun zamanından azadlıq hərəkatları meydana çıxdı və onlar İranın əksər regionlarına yayıldı. Xorasanda Tahir Zuəlyəmin, Azərbaycanda isə Babək hərəkatları Abbasilərin zülmkar xilafətini lərzəyə saldı.

Qeyd olunmalıdır ki, Abbasi sülaləsində ixtilaf və düşmənçilik başlamamışdan qabaq da bütün islam aləmində hakimiyyət xəlifəyə məxsus idi. Ancaq xilafət laxlamağa başlayanda onun yerli idarəçiləri, o cümlədən, Azərbaycanda və Aranda müstəqil olmağa başladılar. Hətta xilafətin başında duran ərəb tayfalarından Azərbaycana gələnlər və burda məskunlaşanlar mərkəzi hakimiyyətə qarşı baş qaldırdılar və onların arasından çıxan sülalələr hakimiyyəti öz əllərinə aldılar. Əslində, hicrinin III əsrinin əvvəllərindən Azərbaycanda artıq yerli hakimiyyət mövcud idi və Bağdadda oturan xəlifələrin hakimiyyəti burada keçərli deyildi (83, 136).

Kəsrəvi, dəyərli kitabı "İtkin vətəndaşlar" kitabının müqəddiməsində yazırdı: "Bilənlərə və tarix fənni ilə tanış olanlara məlumdur ki, İranı tutan ərəblərin buradakı hakimiyyəti və gücü hicri tarixinin III əsrinin əvvəllərinə qədər olmuşdur. Ondan sonra yerli hakimlər bu və digər regionda baş qaldırıb, yavaş-yavaş ərəblərin İrandakı hakimiyyətini aradan qaldırdılar. Bu minvalla IV əsrin ortalarına çatmamış artıq bütün İran öz istiqlaliyyətinə qovuşmuşdu. Nə Bağdaddan bura hakim gəlir, nə də Bağdad xəzinəsinə bac

göndərilirdi. Əksinə, iranlılar Bağdad və İraqa hökm edirdilər. Xəlifənin yalnız adı qalmışdı" (28, 9-66).

Kəsrəvi, daha sonra o dövrdə Azərbaycanda, o cümlədən, o dövrkü Aran və indiki Qarabağda hakimiyyəti ələ almış və istiqlaliyyət əldə etmiş ilk sülalə kimi Salariəri və onların ən güclü nümayəndəsi Salar Mərzbanı göstərir, lakin əlavə edir ki, Salar Mərzbandan qabaq ancaq Əbu əs-Sacın 2 oğlu (Məhəmməd Aqşin və onun qardaşı Yusif) bütün 3 vilayətə (Azərbaycan, Aran və Ermənistan) hökmranlıq edə bilmişdilər. Bunun üçün onlar bütün rəqiblərini sıradan çıxarmışdılar. Mərzban da öz gücü və qüdrəti ilə onlara qalib gəldi və hakimiyyətə yiyələndi. Əslində, həm Məhəmməd Aqşin, həm də qardaşı Yusif sonradan xəlifəyə yağı (düşmən) çıxsalar və müstəqil siyasət yürütsələr də, xəlifə tərəfindən təyin olunmuşdular və onun nümayəndəsi hesab edilirdilər. Ancaq Mərzban öz gücü ilə ölkəni ələ keçirib hakimiyyətə gəlmişdi və hər baxımdan azad və müstəqil idi.

V.Madlunq yazır ki, Babək inqilabı ərəb başçılarının Azərbaycandakı gücünü yalnız müvəqqəti azaltmışdı. Əslində, bu başçıların üsyankar hərəkətlərini azaltmaq, bəziləri isə baqratlar sülaləsinin nüfuzunun qarşısını almaqdan ötrü, xəlifə Mötəməd 889-890, ya da 892-ci ildə, ordusunun ən böyük sərkərdələrindən olan Məhəmməd bin Əbüssacı Azərbaycana və Ermənistana hakim təyin etdi. Sac sülaləsi Orta Asiyanın Əşrusnə camaatından idi. Çox güman ki, Soğddan çıxmışdılar.

Məhəmmədin atası Əbussac Divdad Divdəşt, Aqşinin komandanlığı altındakı orduda Babəklə son döyüşdə şöh-

rət qazanmış, müxtəlif vilayətlərdə xəlifələrə xidmət göstərmişdir. 879-cu ildə onun ölümündən sonra 2 oğlu (Məhəmməd və Yusif) atalarının yolunu davam etdirmişlər. Məhəmmədin Azərbaycanda birinci tapşırığı Abdulla bin Həsən Həmədani üsyanını yatırmaq olmuşdu. Həmədanilərin başçısı Marağanı ələ keçirmişdi. 893-cü ildə Məhəmməd, Abdullanı təslim olmağa vadar etsə də, sonradan onun malını və mülkünü müsadirə etdi, özünü isə öldürdü. Məhəmməd, Marağanı özünə mərkəz eləsə də, sonradan vaxtının çoxunu Bərdədə keçirirdi. 901-ci ildə Bərdədə bir xəstəliyə tutulan Məhəmməd, dünyasını dəyişdi.

Məhəmməd öləndən sonra qoşunu onun oğlu Divdadı onun yerinə seçdi. Lakin 5 aydan sonra əmisi Yusif onu hakimiyyətdən uzaqlaşdırdı... Yusifin ölümündən sonra xəlifə onun qardaşı oğlu Əbülmüsafir əl-Fəthi (Məhəmməd bin əl-Aqşinin oğlunu) Azərbaycana hakim təyin etdi. Bir il yarımdan sonra, yəni 929-cu ildə bir xidmətçisi Əbülmüsafiri zəhərlədi. Əbülmüsafirin ölümü ilə Sacilər sülaləsinin hakimiyyəti başa çatdı. Bundan sonra Azərbaycan xəlifəyə tabe olmaqdan boyun qaçırdı və xəlifə bir daha Azərbaycana hakim göndərə bilmədi (62, 198).

Kəsrəvi, Salariləri və Mərzbanı belə təqdim edir: "Salarilərin kəngərlilərin bir qolu olduğu məlumdur. Salarilər sülaləsinin banisi Salar Mərzban zamanının adlı-sanlı hakimlərindən biri olmuşdur. Onun gördüyü işlər və apardığı müharibələr haqqında çoxlu dastanlar və rəvayətlər günümüzə qədər gəlib çatmışdır. Bu dastanlarda o, ağıllı, səriştəli, igid və mərd bir şəxsiyyət kimi təqdim olunur.

Azərbaycan, Aran və Ermənistanın hər biri geniş ərazilərdir. Buralarda müxtəlif xalqlar yaşayır və onların idarə edilməsi elə də asan məsələ deyildir.

Əldə olan dastanlardan da məlum olur ki, o zaman bu regionlarda çoxlu üsyankar insanlar peyda olmuş və onlardan bir çoxu ölkənin müxtəlif yerlərində hökmranlıq etmişlər (27 Kəsrəvi, 65).

Salar Mərzban şiə məzhəbli olmuşdur. O, ilk şəxsiyyətdir ki, Azərbaycanın müstəqilliyinə nail olub və Abbasiləri ölkənin hüdudlarından qovmuş, eləcə də, o arada ölkəyə təcavüz etmiş və Bərdəni yerlə yeksan eləmiş rus işğalçılarına qarşı dayanmışdır.

Mərzban ismaili təriqətli idi. Cəfər bin Əlini özünə vəzir təyin etmiş və ona icazə vermişdi ki, ismaili təriqətini aşkar bir şəkildə təbliğ etsin. Cəfər ondan Təbrizə getmək icazəsi almış və orada Kürd Deysəmi dəvət etmiş və ondan istəmişdir ki, ona qoşulsun və Təbriz camaatının köməyi ilə Deyləmin tayfa başçılarını qətlə yetirsin.

Deysəm Təbrizə gələndən sonra Mərzbanın incitdikləri bütün kürdlər onun ətrafına toplaşdılar. Mərzban özünün Deyləm qoşunu ilə onları məğlub etdi və Təbrizi mühasirəyə aldı.

Cəfər 955-ci ildə ibn Houqəl Azərbaycana səyahət edəndə öz vəzirlik vəzifəsinə geri döndü. Əslində, o, ismaili məzhəbinə dəvətə görə məmnun idi. Çünki ibn Houqəlin yazdığına görə, həmin dövrdə vilayətin əhalisinin çoxu batini məzhəbli idi.

Bu arada Mərzban bütün Azərbaycanın və Zaqafqaziyanın şərq hissəsinin hakimi oldu. Əldə olan sikkələrə görə, o, 945-ci ildə Dvini ələ keçirmişdir (62, 198).

Salarilərin ən çiçəklənən və güclü dövrü Salar Mərzbanın vaxtında olmuşdur. Onun ölümündən sonra oğlanları və qardaşı Vəhudanın düşmənçiliyi, ikitirəliyi və digər səbəblər üzündən Salarilərin hakimiyyəti çox keçmədən sona çatdı. Bu sülalənin hakimiyyəti 40 ildən artıq davam etmədi (28 Kə, 66).

Qeyd olunduğu kimi, Mərzbanın iqtidarı zamanında bu regionun bəzi məntəqələrində bir neçə padşah və əmir hökmranlıq edirdilər. Onların hamısı Mərzbana xərac verirdi. Kəsrəvi, ibn Houqəlin kitabına istinadən bu yerli hakimlər haqqında qiymətli məlumatlar verir, onlardan 12 nəfərinin adlarını və hökmranlıq etdikləri məntəqələrin sərhədlərini göstərir. Adıgedən 12 nəfərdən 3-ü Aranın müxtəlif məntəqələrinə hökmranlıq edirdilər.

İbn Houqəl ilk dəfə olaraq, Qafqaz dağlarının adını çəkir və yazır: "Bu dağlar padşahlara və allahlara məxsus idi. Orada saysız nemətlər, qiymətli torpaqlar və qalalar, atlar vardır... Bu padşahlara, Azərbaycan hökmdarına göndərilməsi üçün müəyyən illik bac və xəraclar müəyyən edilmişdi. Bütün bu regionda Azərbaycan, Aran və Ermənistanın hökmdarı söz sahibi idi. Əbuəssac müəyyən qədər ondan razı idi və aldığını hədiyyə olaraq qəbul edirdi. Ancaq hakimiyyət Salar Mərzbana çatanda bu bac və xəraclar üçün divanlar (vergi idarələri) yaratdı, qanun qoydu və nəzarətçilər təyin elədi" (28, 100-103).

Kəsrəvi yazır ki, Aranın müxtəlif məntəqələrinə hakimlik edən 3 nəfər də Mərzbana tabe idilər:

1. Bu dövrdə Ərran və Ermənistana hakimlik edən Musa, ya Musanın oğlu, Ərran məntəqəsinin Udi hakimi hesab edilidi. Onun oğlunun adı Məqsuddur. Onlara "Soğyan"

deyilirdi, görünür, bu adda yanlış var, çünki onun düzgün variantı məlum deyildir;

2. Əbülqasım Xizani (Xizan adını o dövrün Məsudi, Blazeri və digər coğrafiyaşünasları işlətmişlər) Aranın Xizan məntəqəsinin hakimi olmuşdur. Əbülqasım haqda geniş məlumat yoxdur;

3. Senxarib Xodavənd Xaçin. Xaçin indiki Qarabağda bir qala və kənd olmuşdur (28, 100-103).

İbn Hoqəlin kitabından məlum olur ki, o dövrdə Aran müxtəlif məntəqələrdən, o cümlədən, Udi (Uti), Xizan və Qarabağdan ibarət olmuşdur. N.Quliyevin yazdığına görə, Arsax, Dağlıq Qarabağın bir hissəsi və Mil düzünü əhatə edir (17, 29). Zaman keçdikcə Aran adı Qarabağ adı ilə əvəz olunmuş, digər adlar isə sıradan çıxmışdır.

Mərzbana bac verən ən böyük yerli hakimlərdən biri də Məhəmməd Əzdinin oğlu Şirvanşah Əhməd idi.

İbn Hoqəldən 12 il əvvəl yaşamış Məsudi, zəmanəsinin Şirvanşahını Qafqazın ən böyük hakimi hesab etmiş, onun Şirvan, Aran və Muğanı idarə etdiyini yazmışdır.

Kürün şərqində, bu çayla Xəzər dənizi arasında yerləşən Şirvanı idarə edən Şirvanşahlar, Sasani Ənuşirəvanından başlamış Şah Təhmasib Səfəvi dövrünə qədər hakimiyyət sürmüşlər. Bu sülalənin şahları müxtəlif qəbilə və tayfalardan olmuşlar. Onlar bəzən ərəblərə, bəzən Səlcuqlara tabe olmuş, bəzən isə müstəqil dövlət olaraq fəaliyyət göstərmişlər.

Ərəblər, Şirvanşahlar dövlətinin torpaqlarına II xəlifənin dövründə gəldilər. O vaxta qədər Şirvanşahlar müstəqil olmuşlar. Ərəblərin gəlişindən sonra Şirvanşahlar xəlifənin təyin etdiyi ərəb hakimlərinə tabe oldular. Bununla belə,

Şirvanşahlar adı saxlanmışdı. Ərəb əsilli Hişəm bin Xalid Şirvana əmir təyin ediləndən sonra IX əsrin ortalarından X əsrin yarisına qədər Şirvanın müəyyən hissəsində müstəqil bir sülalənin əsasını qoydu. Bu sülalə tarixə Məzidiər kimi düşdü (83, 93).

Yəzid 2 dəfə (787-789 və 799-801-ci illərdə) Azərbaycanın və Ermənistanın hakimi olmuşdur. O, xəzərlərlə müharibədə şöhrət qazanmışdı. Ondan sonra 3 oğlu və nəvəsi Məhəmməd bin Xalid dəfələrlə Azərbaycan, Aran və Ermənistana əmir göndərilmişlər. Məhəmməd bin Xalid 859-860-cı illərdə Gəncəni ərəb xilafətinə daxil etdi, şəhərin bir çox tikililərinə və əmlakına sahibləndi (62, 211).

Məsudinin yazdığına görə, hicrinin IV əsrinin əvvəllərində Məhəmməd bin Yəzidin banisi olduğu və Bəhram Gurun nəslindən olan Kəsranilər adlı başqa bir sülalə hakimiyyətə gəldi. Həmin Yəzid adına görə, Xaqani, Şirvanşahları Yəzidilər və al-Yəzid adlandırmış və Axsitanın mədhində yazmışdır:

Yüksək şücaəti Yəzidilərin gövhərindən doğulmuş, Zülfüqarının başından həqiqət hadisəsi olmuşdur.

Məhəmməd, Dərbəndi işğal etmişdir. Övliyya Çələbinin yazdığına görə, o, bir ay burada qaldıqdan sonra Şamaxını özünə paytaxt seçmişdir. Həmin vaxtdan Şamaxı, Şirvanşahların mərkəzi olmuşdur (83, 93).

Həmin Məhəmmədin oğlu Şirvanşah Əhməd, Salar Mərzbanın müasiri olmuş və ona bac vemişdir.

## RUSLARIN QARABAĞA HÜCUMLARI VƏ BƏRDƏNİN VİRAN EDİLMƏSİ

Mərzbanın Qarabağdakı hakimiyyəti dövründə baş vermiş və bu ölkənin taleyində əhəmiyyətli bir təsir qoymuş mühüm hadisələrdən biri də rusların buraya hücumu, əhalinin qətl edilməsi və Bərdə şəhərini viran etmələridir. Bu vəhşi yürüşün təsiri o dərəcədə dağıdıcı və viranedici olmuşdur ki, Bərdə kimi böyük və əzəmətli bir şəhər bir daha özünü doğrulda və əvvəlki əzəmətini bərpa edə bilməmişdir.

Ruslar bir neçə dəfə bu vilayətə hücum etmişlər. Ancaq Kəsrəvinin araşdırdığına görə, Mərzbanın hakimiyyəti dövründə, 945-ci ildə baş vermiş IV hücum, Qarabağın mərkəzi və ən böyük şəhəri, cah-cəlallı və abad Bərdəni viranəyə çevirmişdir. Bu dəhşətli faciə sonrakı əsrlərdə də yaddan çıxmamışdır. Belə ki, 2 əsr sonra-XII əsrdə Nizami Gəncəvi, bu qanlı, dağıdıcı, eləcə də, tale dəyişdirən hadisəni araşdırmış, onun təsirini poetik bir dillə ifadə etmişdir.

Şimalda yaşayan slavyan qəbilələri ruslar adı ilə tanınmışdır. Onlar indiki rus, ukrayn və belarusların əcdadları hesab olunurlar. Bu qəbilələr arasında şərqi slavyanların qədimdən Xəzər sahili ölkələrlə ticarət əlaqələri olmuşdur. Xüsusən də, Kiev hökmdarları qonşu ölkələrə hücumlar həyata keçirmişlər (17, 55).

O dövrdə ruslar elə də böyük və adlı-sanlı olmamış, Baltik dənizi yaxınlarındakı ərazidə yaşamışlar. Onlar Arandan 100 fərsənglərlə uzaqda olmuş, Aranla onlar arasında güclü Xəzərlər dövləti və digər  xalqlar yerləşmişlər

(28 Kəs, 78). Buna baxmayaraq, onlar gəmiçilik və dənizçilikdə çox bacarıqlı, eləcə də, igid və döyüşkən bir xalq olduqlarına görə, o zaman İtil də adlanan Volqa çayı ilə Xəzər dənizinə gəlmiş, Xəzərin sahillərində yerləşən Aran, Gilan, Mazəndaran və Qorqana basqınlar, taraclar, quldurluqlar və soyğunçuluqlar həyata keçirmiş, qətllər və dağıntılar törətmişlər.

945-ci ilin yazında ruslar qayıqlarla Kür çayından keçərək Zaqafqaziyaya gəlmiş, vali Mərzbana tabe və daha çox yerli könüllülərdən ibarət olan ordunu dağıtdıqdan sonra Bərdəni işğal etmişlər. Onlar əvvəlcə yerli əhali ilə yaxşı davranmış, ancaq onun müsəlman ordusuna açıq dəstək verdiyini görəndən sonra camaatı qılıncdan keçirmiş, onların mallarını talan etmişlər (62, 202).

Kəsrəvi, bu hadisələrin baş verdiyi dövrə yaxın zamanda yaşamış Məskubəyə istinadən, Aranda və Bərdə şəhərində yaşayan və baş vermiş hadisələri öz gözləri ilə görmüş sakinlərin verdikləri məlumatları araşdırmış, tədqiqatın nəticələrini "Naməlum vətəndaşlar" əsərində ümumiləşdirmişdir. Müəllif yazır: "Ruların hücumundan bir müddət əvvəl Aranın mərkəzi Bərdəni görmüş Estəxri, onun genişliyinin və uzunluğunun 1 fərsəx olduğunu, İraqla Xorasan arasında yerləşdiyini, Rey və İsfahandan sonra ən böyük və nemət dolu bir şəhər kimi tanındığını qeyd edir. Yəqin ki, o vaxtkı Bərdə abadlıq və əhalinin sıxlığı baxımından İranın bugünkü ən böyük şəhərlərindən kəm olmamışdır. Buradan aydın olur ki, o zaman rusların əhalini qırması, qadın və uşaqları qul kimi əsir götürmələri islam aləmi üçün necə böyük bir müsibət olmuş, müsəlmanlara, xüsusən də, Aran və Azərbaycan əhalisinə necə

təsir etmişdir. Dini təəssüb və islam düşmənlərinə qarşı kin və qəzəb hissi ilə yaşayan on minlərlə mücahid və qazi hər il Xorasan və digər uzaq regionlardan könüllü şəkildə Rum sərhədlərinə axışmış və canlarını fəda etmişlər. İbn Məskuyənin yazdığına görə, ruslar, əsirlərin hər birini 20 dirhəmə satmış, can vergisi verən xristian və yəhudilərə də aman verməmişlər.

İbn Məskuyə yazır ki, Bərdədə baş verən müsibətləri eşidən müsəlmanlar, kafirlərə qarşı cahad müharibəsi aparmaq üçün bu regiona axışırdılar. Bununla da, Mərzban öz ordusunu toparladı və yenidən qurdu. Könüllülər də ona qoşuldular. Nəticədə, 30 minlik bir ordu meydana gəldi. Ancaq bu ordu sayca özünə bərabər rus qoşununa qarşı uğur qazana bilmədi. Mərzban hər gün döyüşə girişsə də, məğlub olurdu. O, hiyləyə əl atmaq qərarına gəldi. Bu arada müxtəlif və saysız yerli meyvələrdən yeyən ruslar bəzi xəstəliklərə düçar oldular. Mərzban ruslara pusqu qurdu, onlarla döyüşərək, geri çəkildi. Mərzbanı və döyüşçülərini qovan ruslar, pusquya qoyulmuş Mərzban əsgərlərinin hücumuna məruz qaldılar və məğlub oldular. Bu döyüşlərdə ruslar, böyükləri də daxil, 700 nəfər itki verdilər. Onlar mal-mülklərini və əsirləri saxladıqları şəhər qalasına sığındılar. Mərzban qalanı mühasirəyə aldı və gözləməyə başladı. Bu zaman Mərzban məlumat aldı ki, Əbu Abdulla Hüseyn ibn Səid ibn Həmədan Azərbaycana gəlmiş, Cəfər ibn Şekuyə və Kərdan Hedayani ilə birləşmişlər. Mərzban 500 nəfər deyləmli, 500 nəfər kürd süvarisi və 2000 nəfər könüllünü sərkərdələrindən birinin komandanlığı altında qalanın mühasirəsinə qoydu, özü isə ordusunun əsas hissəsi ilə Azərbaycana yürüş etdi.

İbn Məskuyə yazır ki, Mərzbanın qalanı mühasirədə saxlayan qoşunu bir müddət sonra bezdi və yoruldu. Bu arada qalada mühasirədə qalan rusların bir çoxu dünyasını dəyişdi. Gecələrdən birində qalan ruslar götürə bildikləri qənimətləri (mal, zinət əşyaları və qiymətli qab-qacaqları) çiyinlərinə alıb, istədikləri əsir qadın və uşaqları götürərək, qalan hər  şeyə od vurdular və qaladan çıxaraq, Kürün yolunu tutdular. Özlərini burada saxladıqları gəmilərə və 300 nəfərlik qoşuna yetirdilər və öz ölkələrinə geri döndülər. Bununla da, Allah, müsəlmanları rusların bəlasından qurtardı" (28, 81-83).

Rusların Qarabağa acımasız hücumları, burada həyata keçirdikləri qırğınlar, abad və əzəmətli Bərdə şəhərini viran qoymalaarı o qədər dəhşətli və nifrətverici idi ki, bu faciədən 2 əsr sonra, sülhpərvər və ədalətpərvər Həkim Nizami Gəncəvinin həssas qəlbi, yaşananların tam mahiyyətinə vararaq, sarsılmış, Vətənini hər cür müsibətlərə və bəlalara düçar etmiş dəhşətli hadisəni son əsəri "İsgəndərnamə"də bədii bir şəkildə nəzmə çəkmiş və tarixi bir əfsanədən istifadə edərək, o dövr Bərdəsinin çiçəklənən vəziyyətini və rus işğalçıların əli bu gözəl və füsunkar şəhərin viran edilməsini böyük məharət və istedadla aşağıdakı kimi canlandırmışdır:

*O abadlığın taxtı çil-çil oldu,*
*Əzəmətini külək sovurdu.*
*O təzə güllərin barı töküldü,*
*O nar və nərgizə qubar gəldi.*
*Quru odun və yaş selovdan, artıq*
*O meşədə başqa şey görməzsən.*

Nizami, öz dövrünə qədər bir neçə əsr müddətində rusların Qarabağa və Azərbaycanın digər rayonlarına dəfələrlə etdikləri hücumlarının acı xatirələrini xatırlamaq üçün, qədim tarixlərə istinad edərək, İsgəndərin və onun türklərin köməyi ilə ruslar üzərindəki qələbələri haqqındakı əfsanələr əsasında gözəl bir məsnəvi yaratmışdır. Bu əsər tarixi bir poema hesab olunmasa da, ancaq, heç şübhəsiz ki, tarixi həqiqətlərdən təsirlənmişdir.

İsgəndər Çindən qayıdarkən, Abxazın hakimi Duali ona şikayət edir ki, ruslar Abxaziyada[49] qətliam törətmiş, ölkəni tarac etmiş, Bərdə mülkünü viran qoymuş, Bərdənin şahbanusunu əsir götürmüşlər. İsgəndər düşünür ki, bu sərhəddə bir xələl olsa, düşmənin tamahı Xorasana qədər uzanacaqdır. Ona görə də o, ruslara qulaqburması vermək qərarına gəlir. Ceyhundan, Xarəzmdən və Soğlabdan keçərək, Qıfçaq (Qıpçaq) çölünə çıxdı.

Nizami bu barədə yazır:

*Bütün çölü saysız qıpçaqla dolu gördü,*
*Orada əyləncə dünyasını saz gördü.*

İsgəndər burada Qıpçağın başbilənlərini topladı və bir çox mənzillər[50] keçdi, ruslara tərəf yol aldı. Kür və Araz çayları arasında rum və rus orduları üz-üzə gəldi. Seli andıran rus ordusunun sərkərdəsi Rus Qəntalı, Bərtası, Alan və Xəzərləri dağıtdı. Filiqus İsgəndər də, çinli Qədər xan, xətənli

---

[49] Abxazlar-türkdilli xalq olub, Qafqazın qərbində, Qara dənizin sahilində yaşayırlar.
[50] Mənzil-məsafə ölçüsü olub, iki yaşayış məntəqəsi arasındakı məsafə deməkdir.

Qurxan, abxazlı Duvali, gilli Zəryund, xavəranlı Niyal Yel, ərmənli Bərşad və digər sərkərdələrindən ibarət ordu komandanlığını topladı. 7 döyüşdən sonra İsgəndər, türklərin köməyi ilə ruslara qalib gəldi və Nüşabəni onların əsirliyindən qurtardı. Nüşabəni Duvali ilə evləndirdi (100, 879).

Nizaminin Nüşabəsi qədim Bərdənin (Horum) hökmdarıdır. Bu azərbaycanlı əfsanəvi qadın ən nəcib bəşəri keyfiyyətlərə və xüsusiyyətlərə malik bir surət kimi təsvir olunur. Tovuz quşu kimi gözəl, ceyran kimi cəld və iti olan mələk xislətli və iradəli Nüşabə, ismətli və həyalı bir qızdır. Böyük sənətkar onu təsvir edərkən, yenidən onun mütərəqqi və perspektiv düşüncələrindən doğan sağlam və ləyaqətli ənənələrinə (keçmişinə) qayıdır və o zamanın xürafat dolu mürtəce feodal dünyagörüşünün əksinə olaraq, Nüşabənin təhrikedici fiziki və mənəvi gücündən, onun insanların təhlükəsizliyinin və xoşbəxtliyinin təmin edilməsi yolundakı misilsiz rolundan bəhs edir.

Nüşabənin hökmdar olduğu ölkədə başqa qadınlar da dövlətin mühüm vəzifələrində çalışırlar. Sarayın bütün işləri qadınların öhdəsindədir. Kişilər yalnız ölkənin müdafiə işləri ilə məşğuldurlar. Nüşabənin ədaləti və qayğısı sayəsində Bərdə şəhəri dünyanın ən gözəl və abad şəhərinə çevrilmişdir. O zaman "Horum" adlanan bu şəhər haqda Nizami belə yazır:

*Bərdə necə gözəldir, necə qəşəngdir!*
*Yazı da, yayı da güldür, çiçəkdir!...*

Vətənpərvər şair tarixi bir əfsanədən istifadə edəndən sonra Bərdənin o vaxtkı vəziyyətini, yəni bu möhtəşəm şəhərin rus işğalçıları tərəfindən necə viran edilməsini böyük

məharətlə təcəssüm etdirir və arzu edir ki, ölkəsinin sıradan çıxarılmış cah-cəlalı yenidən özünə qayıtsın və xüsusi olaraq vurğulayır ki, ədalət, sülh və əmin-amanlıq olmadan, bu, mümkün deyildir.

Nizamidən əvvəl İsgəndər haqqında yazılmış dastanlarda və əsərlərdə onun Azərbaycana hücumu barədə məlumat yoxdur. Lakin qeyd olunur ki, İsgəndər atəşkədələri dağıtmış və əhalini vadar etmişdir ki, atəşpərəstlikdən üz döndərsin. Bu baxımdan Nizami yeni mətləblərdən söz açaraq, yazır ki, İsgəndər Azərbaycana ayaq basmamışdan qabaq, Nüşabənin tərifi və onun hökmdarlığı haqqında eşidir.

Nizami, İsgəndərin Bərdəyə çatması zamanı, bu şəhərin İsgəndərin təəccüb və heyrətinə səbəb olmuş gözəlliyindən söhbət açır. İsgəndərlə Nüşabənin görüşü mükəmməl və müstəqil bir məsnəvidir. Burada şairin sevgi ilə təqdim etdiyi qəhrəman, öz ağlı, zəkası, gücü və qüdrəti baxımından başqa şahlarla eyni səviyyədədir.

Nüşabənin üstünlüyü təkcə onda deyildir ki, o, elçi sifəti ilə saraya gəlmiş İsgəndəri tanıyır, həm də onun ipək parçada çəkilmiş rəsmini ona göstərir...

Nizaminin əsərində Nüşabənin şəxsi keyfiyyətləri (xarakteri) onun bütövlüyündə və çoxcəhətli olmasındadır. Nüşabə bir tərəfdən şux və nazənin bir dilbərdir, digər tərəfdən isə İsgəndər kimi qarşı tərəfə meydan oxuyan bir fatehdir və adil hökmdardır. Bününla belə o, çalışır ki, İsgəndəri qan tökməkdən çəkindirsin. Nüşabə, həm də, çox təvazökardır. Şair onun dilindən İsgəndərə belə müraciət edir:

*Mənim məhəbbətimi yanlış anlama,*
*Mənim evimi öz evin kimi bil,*

*Mən sənin vurğun kənizinəm,*
*Hər iki dərgahda bəndələrdən biriyəm.*

Belə bir müraciətdən sonra Nüşabə, özünə və gücünə güvənən pəhləvanlar kimi Makedoniyalı İsgəndərə meydan oxuyur.

Nüşabənin mərdliyini, ağlını və qüdrətini görən İsgəndər, ona heyran olur. Nüşabə öz ağlı sayəsində təkcə öz ölkəsinin İsgəndər tərəfindən qarət edilməsinin qarşısını almır, həm də onu özünün böyük dostuna çevirir.

# ŞƏDDADİLƏR

Aranın da hakimiyyətləri altında olduğu Salarilərin zəifləməsi ilə Arazın o tayının cənubunda Rəvvadilər, şimalında isə Şəddadilər hakimimiyyətə gəldilər. Şəddadilər bir kürd  tayfasından, çox güman ki, Həzbani qəbiləsindən idilər.

Böyük sovet şərqşünası V.F.Minorski (1877-1966), Münəccimbaşının ərəb dilində yazılmış "Dövlətlərin cəmiyyətləri" əsərini tərcümə edərək, Şəddadilərin tarixi barədə qiymətli bir araşdırma aparmışdır. Həmin əsər "Qafqaz tarixi ilə bağlı araşdırmalar" adı altında fars dilinə tərcümə olunaraq, 1997-ci ildə İranda çap edilmişdir. Adıgedən tərcümənin "Giriş" hissəsində yazılır: "İslam sülalələrindən biri, şərqi Qafqazda Kür və Araz çaylarının arasında hakimiyyətdə olmuş Şəddadilərin tarixi öyrənilməmişdir... Şəddadilər dövlətinin əhəmiyyəti bu baxımdan əhəmiyyət kəsb edir ki, onlar müharibə fəaliyyətləri və sülhpərvər siyasətləri ilə öz xristian qonşuları, yəni ermənilər, gürcülər, eləcə də, alanların və rusları şimaldan gələn çoxsaylı hücumları ilə birbaşa təmasda idilər. Şəddadilər Qafqazın tarixində aparıcı bir həlqə idilər və onlarsız hadisələrin yalnız bir tərəfini müşahidə etmək mümkündür. Digər bir məsələ ondan ibarətdir ki, Şəddadilərin dünya siyasətindəki qarşıdurmaları (müharibələri) o zamana təsadüf edir ki, Şərqi Roma imperatorluğu Ermənistandakı və bütövlükdə Qafqazlardakı mövqelərini tələm-tələsik möhkəmlətməyə çalışırdılar. Eyni zamanda, türklərin

şərqdən hücumları formalaşmaqda, Şərqin vəziyyəti dəyişmək ərəfəsində idi. Nəticədə, Şəddadilər İranın diqqəti cəlb edən görüntülərindən biri idi. Onlar qısa müddətdə hakimiyyətdə olsalar da, ərəb işğalı və türklərin qələbəsində əhəmiyyətli rol oynamışdılar...".

Şəddadilərin 10 hökmdarı olmuşdur. Bu sülalənin paytaxtı əvvəl Dvin (Debil) şəhəri, sonra Gəncə idi. Şəddadilərin hakimiyyəti 951-1075-ci illəri əhatə etmişdir (64).

V.Madlunq, Şəddadilərlə bağlı yazır: "951-ci ildə Mərzban Salari Dərbənddə olarkən, Məhəmməd bin Şəddad bin Fortəq, ola bilsin ki, onun himayəsini istəyən Dvin müsəlmanlarının dəvəti ilə bu şəhəri ələ keçirdi. Atasının mənafeyini qorumağa çalışan İbrahim bin Mərzban, oyuncaq xristian hakimlərindən birini təşviq etdi ki, Məhəmmədə hücum etsin, ancaq o, sonradan Məhəmməd tərəfindən məğlub edildi. Bu hadisədən sonra İbrahim, Məhəmmədə qarşı deyləmli və kürdlərdən ibarət bir qoşun göndərdi ki, Şəddadiləri Dvindən çıxarsın. Ancaq az sonra deyləm əsgərlərindən narazı qalan Dvin camaatı təkrarən Məhəmmədi Dvinə dəvət etdi və Ani məntəqəsinin hakimi III Aşot Baqratidin Dvinin işğalının qarşısını aldı. 954-cü ildə Mərzban bir daha Azərbaycana sahib oldu. O, deyləmlilərdən ibarət qoşunu Məhəmmədin üzərinə göndərdi və onu Dvindən çıxartdı. Məhəmməd və onun tayfası Vasporqana pənah apardı. O, Dvini təkrar geri almaqdan ötrü Bizansdan kömək istədi, ancaq buna nail ola bilmədi və 955-ci ildə dünyasını dəyişdi.

Məhəmmədin 3 oğlu var idi. Böyük oğlu Ləşgəri Əbülhəsən Əli, atasının ölümündən sonra tayfanın rəisi oldu. Gəncə camaatı onunla əlbir idi və öz hakimlərini həbs edib,

şəhərin darvazalarını Ləşgərinin üzünə açdılar. Beləcə, Ləşgəri 971-ci ildə Gəncəni tutdu və onun hakimi oldu. İbrahim Salari həmin ili Gəncəni mühasirə etsə də, şəhərə girə bilmədi. Şəddadilərin müstəqilliyini rəsmən tanımaq barədə sülh müqaviləsi imzalayandan sonra mühasirəni dayandırdı. Ordu dilmanlıları oradan qovdu və get-gedə öz hakimiyyətini şimal-qərbdə Şamxora, şərqdə Bərdəyə qədər genişləndirdi. İbrahim Salari 978-979-cu ildə dünyasını dəyişdi. Ordu komandanlığı, qardaşı Fəzlinin onun canişini olmağına razılıq versə də, Məhəmmədin ikinci oğlu Mərzban, qoşunun və rəiyyətin köməyi ilə taxt-taca sahib oldu. O, 982-983-cü ildə Bərdəni, Şirvanşah Məhəmməd bin Əhməddən aldı. Saray adamlarından bəziləri Fəzl ilə onun arasında fitnə yaratdılar. 985-ci ildə Fəzl onu öldürdü, oğlu Şirvanı mühasirə etdi və özü taxta çıxdı. Fəzl, uzunmüddətli hakimiyyəti dövründə bəzi uğursuzluqlarına baxmayaraq, Şəddadilərin hakimiyyətini genişləndirdi. O, Bərdə və Beyləqanı ələ keçirdi... 1027-ci ildə Fəzl, Araz çayı üzərindən (çox güman ki, söhbət Xudafərin körpüsündən gedir) körpü salınması barədə fərman verdi. Ola bilsin ki, onun məqsədi hakimiyyətini Azərbaycanın içərilərinə doğru genişləndirmək olmuşdur.

Fəzl 1030-cu ildə fateh kimi Gürcüstana yürüş etdi. Ancaq geri dönərkən, gürcü cəngavəri Lipart, III Georgi, Xudavənd Kaxt və Tşir padşahı Davit Enhohlinin birləşmiş qoşunları onun ordusuna hücum edərək, 10 min əsgərini öldürdülər və ələ keçirdiyi bütün qənimətləri geri aldılar. Həmin il Fəzlin oğlu Əsgəriyyə Beyləqanda qiyam qaldırdı. Məğlubiyyətdən sonra möhkəm xəstələnən Fəzl, başqa oğlu Musanı qiyama qarşı göndərdi. Musa, Şirvana gəlmiş

rusların köməyi ilə Beyləqanı ələ keçirdi və Əsgəriyyəni öldürdü. Fəzl 1031-ci ildə dünyadan köçdü (62, 208).

Fəzlin zamanında Xəzərlərə ağır zərbə endirildi və onların davamlı hücumlarına son qoyuldu. Sikkə istehsalı rəvac oldu, Gəncənin məşhur dəmir darvazaları hazırlandı (17, 55).

Bütün bunlara baxmayaraq, məişət sıxıntıları, quraqlıq, təbii fəlakətlər, feodallar tərəfindən kəndlilərin güclü istismarı, yoluxucu xəstəliklərin yayılması səbəblərindən, əhalinin həyat şəraiti çox çətin olmuşdu. Bu üzdən də XI və XII əsrlərdə daxili istismara və xarici istilalara qarşı dəfələrlə üsyanlar baş vermişdi. Məsələn, bu arada Beyləqanda yerli əhali tərəfindən Şəddadilərin əmiri Fəzlə qarşı qiyam qaldırılmışdı (61, 80).

Fəzlin oğlu və canişini Əbülfəzl Musa cəmi 3 il şahlıq elədi və 1034-cü ildə Ləşgəri Əli onu öldürdü və hakimiyyətə gəldi. Ləşgərinin şahlığı əvvəl uğurlu idi. Gəncədə 1041-ci ilə qədər onun sarayında yaşamış Qətran Təbrizi, onun mədhinə  həsr etdiyi bəzi qəsidələrində Ləşgərinin Gürcüstan və Ermənistan şahlarının birləşmiş qoşunu üzərində çaldığı böyük qələbələrdən söhbət açır (62 , 209-210).

Ləşgəri, Qətran Təbrizinin ən böyük himayədarlarından biri idi. Qətran Təbrizi, onun şəninə 15-16 qəsidə və qitə həsr etmişdir. Bu şeirlərdən Ləşgərinin gördüyü bəzi işlər haqqında məlumat əldə edilir. Eləcə də, şairin qəsidələrindən aydın olur ki, Ləşgəri, Fəzl kimi, Gürcüstan və Ermənistanla müharibə etmiş, onları ağır məğlubiyyətə uğratmışdır. Beləliklə də Fəzlin və Məmlanın intiqamını almışdır. Bununla bağlı şairin bir qəsidəsində oxuyuruq:

*Ölümün öldürəmədiyi Ləşgərini kim öldürər?*
*Ki, o, çərxin yarada bilmədiyi qalanı yaratdı.*
*Onun qılıncının odundan bədənlərdə can,*
*Sepənd odu kimi nalan və təpan olur...*
*Allah, səndən hər bayramdakından daha məmnun,*
*Ö üzdən ki, öküz və qoyun yerinə kafir öldürmüsən.*

Məlumat üçün deyək ki, Qətran Təbrizi, Şəddadi əmirlərindən digər bir neçəsinə də qəsidə yazmışdır.

Ləşgərinin, Rəvvadi Vəhudanla münasibətləri əvvəllər o qədər də yaxşı olmamışdır. O, Vəhudanın oğuz türkmənlərini xidmətə götürməklə, öz əleyhinə qarşı ciddi təhdid yaradırdı. Ancaq ona müvəffəq oldu ki, onlardan bəzilərini Arana gətirsin. Bununla da, hər iki tərəfin münasibətləri yaxşılaşdı. Ehtimal olunur ki, Vəhudan 1036-1041-ci illər arasında 1 dəfə Şəddadilərin sarayında onun görüşündə olmuşdu...

Ləşgəridən sonra onun kiçik yaşlı oğlu Ənuşirəvan, taxta çıxdı. Onun qəyyumu Əbu Mənsur ölkəni idarə edirdi. Əbu Mənsur və ordu böyükləri razılaşmışdılar ki, bir neçə sərhəd qalasını Kaxetiya, Gürcüstan şahlarına, dağlıq Did qəbiləsinə və Bizans imperatoruna versinlər ki, onların Arana təzyiqini azaltsınlar. Bu qərar, verildiyi 1049-cu ildə Şamxor əhalisinin üsyanına səbəb oldu. Onlar Ərk şəhərini ələ keçirdilər və Əbussəvar Şavur bin Fəzli padşah elan etdilər (62, 209-210). 1022-1049-cu illərdə Dvində, 1067-ci ilə qədər isə Gəncədə hakimiyyətdə olmuş Əbussəvar Şavur bin Fəzl, cənubdan və qərbdən erməni əmirlərinin üsyanına qarşı Dvini tərk etdiyi zaman, Bizans imperatoru fürsətdən istifadə edərək, Dvinə hücum etdi, onu

qarət elədi və viran qoydu. 1043-cü ildə Əbussəvar Şavur bin Fəzl, Bizansın təhriki ilə Anidə hakim olan şahzadəyə hücum etdi, Qazi titulu qazandı və şan-şöhrət əldə etdi. Onunla birlikdə xristianlarla vuruşmuş və qazi tituluna layiq görülmüş Keykavus bin İsgəndər Ziyari, Əbussəvar Şavur bin Fəzlin qəhrəmanlığını və ağlını tərənnüm etmişdir. Əbussəvar, 1054-cü ildə Səlcuqlu Toğrul bəyin vassallığını qəbul etdi və ömrünün sonlarında Səlcuqlularla birlikdə Ermənistana və Anadoluya yürüşlərdə iştirak elədi. O, 1056-cı ildə, 1 il əvvəl xristianlar tərəfindən çıxarıldığı Aninin hakimi oldu. Əbussəvar, həm də qonşusu Şirvanşahlarla rəqabət aparırdı.

Şəddadilər Gəncədə gümüş dirhəmlər kəsmişdilər.

Məlikşah, İranın şimal-qərb sərhədlərinə elə də əhəmiyyət vermirdi. Onun üçün əsas məsələ Aranı ələ keçirmək, bununla da, Azərbaycanı və Arazdan keçərək, Ermənistanın içərilərinə gedən yolu qorumaq, gürcülərin hücumlarına duruş gətirmək idi. Məlikşahın hakimiyyəti dövründə Azərbaycan, türkmənlərin təmərküzləşdiyi və buradan Anadoluya hərəkət edərək, döyüşdükləri və öz orduları üçün təminat gətirdikləri bölgə kimi əhəmiyyət daşıyırdı. Axırda Məlikşah belə bir qərar qəbul etdi ki, bütün Aran-Azərbaycanı "Məlik" titulu verdiyi bibisi oğlu Qütbəddin İsmayıl bin Yaqutinin ixtiyarına versin. Bu, regionun əhəmiyyətinin sultan tərəfindən rəsmən tanınması idi.

Məlikşah şahlıq taxtına oturan zaman düşündü ki, Gəncə və Dvinin Şəddadi əmiri, 1037-ci ildə atasının yerinə oturmuş II Fəzlin oğlu, III Fəzlin müstəqilliyinin bir qədər artırılması ilə onun gücləndirilməsi zəruridir. Bu səbəbdən

də Arana qoşun göndərdi, Gəncəni ələ keçirdi, Fəzli hakimiyyətdən kənarlaşdırdı, onu Qorqanda Astrabada hakim təyin etdi.

Məlikşah, Alp Arslanın zamanında bu regiona yürüşlərdən tanıdığı Savtəkini Gəncəyə hakim təyin etdi. Ancaq Gürcüstan çarı II Georginin oğlu IV Boqratın təcavüzkar hərəkətləri nəticəsində Qars yenidən, müvəqqəti də olsa, xristianlar tərəfindən işğal edildi. Məlikşahın göstərişi ilə 1078-ci ildə türkmən əmiri Əhmədin hücumu ilə Qars azad olundu. O, Arana geri döndükdən sonra türkmən bəylərindən Yaqub və İsa Burini Gürcüstana göndərdi. Onlar Qırmızı dənizin sahilindəki Lizistan və Çuruk dərəsinə qədər getdilər, Trabzonu da təhdid etdilər. Anakomnenanın yazdığına görə, Trabzon, əslində, işğal edildi, ancaq az sonra Bizans sərkərdəsi onu türkmənlərdən geri aldı.

1085-ci ildə Savtəkinin ölümündən sonra Gəncəyə öz yerinə təyin olunan III Fəzl Şəddadın qiyam qaldırması, 1086-cı ildə Məlikşahı məcbur etdi ki, Qafqaza qayıtsın. O, Şirvanşah Firuz bin Salardan itaət sözü və xərac aldıqdan sonra Qara dənizin sahilinə yetişdi. Orada sərdar Qulam Buzana Gəncəni almaq əmri verdi. Sonunda III Fəzl hakimiyyətdən devrildi və Gəncədə Şəddadilər sülaləsinin hakimiyyətinə son qoyuldu. Ancaq onların bir qolu Anidə, Məlikşahın vəfalı hakimi Əmir Əbülfəzl Mənüçehrin idarəsində qalmaqda idi. Şirvanşah zahirən Arana nüfuz edirdi. Ancaq daha çox Araz çayı hövzəsi hərbi məntəqələrə bölünmüşdü. Belə bir vəziyyətdə Azərbaycanın türkmənlər tərəfinən ələ keçirilməsi asan olmuşdu. Bu region bütövlükdə Qütbəddin İsmayılın səltənətinə daxil idi (62, 41-97 ).

# QARABAĞ SƏLCUQLULAR DÖVRÜNDƏ

XI əsrin ortalarında Qırqız çölündə yaşayan Oğuz türkmənlərindən bir dəstə, Səlcuq bin Dəğdağın başçılığı ilə Türküstan regionundan Mavərənnəhrə tərəf yola çıxdılar, Conda yerləşərək, islam dinini qəbul etdilər. Onlar tədricən güc topladılar və çoxaldılar. 1039/1040-cı ildə Mərvin Dəndaneqan divarı yaxınlığında Məsud Qəznəvinin qoşununu ağır şəkildə məğlub edib, güclü bir dövlətin əsasını qoydular, İranın daxilindəki dövlətləri darmadağın edib, onların ərazilərində ən önəmli bir türk dövləti yaratdılar. Bu hadisə islam aləmində, xüsusən, İranda və Azərbaycanda və onun ətrafında ən əhəmiyyətli hadisələrdən və böyük dəyişikliklərin başlanğıcı hesab olunur. Belə ki, doktor Bastani Parizinin fikrinə görə, İran tarixində 7 tarixi dövr olmuşdur ki, onlardan biri Səlcuq türkmənləri imperatorluğunun hakimiyyətə gəlməsidir (107, 7).

C.C.Sanderz türkmən tayfasının və onun islamı qəbul etməsinin əhəmiyyəti barədə yazır ki, təqribən 960-cı ildə Oğuz türklərindən Səlcuq sülaləsi öz çadırlarını dəniz kənarındakı Cond şəhərinin yaxınlığında qurdular və islamı qəbul etdilər. Bu inanc dəyişməsi o qədər əhəmiyyət kəsb edirdi ki, onu 5 əsr əvvəl Klovisin başçılığı ilə frankların xristianlığı qəbul etmələri ilə müqayisə etmək olar (117, 45).

Bu məsələ ilə bağlı Möin öz lüğətində daha artıq şərh verərək, yazır ki, 1037-1300-cü illərdə Qərbi Asyada hökmranlıq etmiş türk sülaləsi Səlcuqluların islam tarixində

meydana çıxmaları böyük hadisələrdəndir və yeni bir dövrün başlanğıcıdir. Bu tayfanın fəthlərinin əvvəlinə yaxın xilafət zəifləmişdi və sultanlardan heç birinin islam dövlətlərini bir hökumət altında birləşdirmək gücü yox idi. Əksinə, bu dövlətlər ayrı-ayrı sülalələr tərəfindən ələ keçirilmişdilər. Bu baxımdan, Fatimilər dövləti istisna təşkil edirdi. Bununla belə, o da böyük dövlət olsa da, Abbasi xəlifələri ilə yola getmirdi və xəlifəlik iddiasında idi. Köçəri türkmənlər əvvəl şəhər həyatına, mədəniyyət və dinə münasibətdə diqqətsiz idilər. İslamı qəbul edəndən sonra sadəlikdən doğan bir təəssübkeşliyə düçar oldular. Bu təəssübkeşlik səbəbindən də ölümə doğru getməkdə olan dövlətin və xilafətin köməyinə tələsdilər və onu xilas etdilər. Səlcuqlular İran, Əlcəzair, Şam və Kiçik Asyaya hücum çəkdilər, qarşılarına çıxan bütün sülalələri aradan qaldırdılar. Nəticədə, Əfqanıstanın qərbindən Rum dənizinin sahilinə qədər müsəlman Asyasını bir dövlət halında birləşdirdilər. Bununla da, müsəlmanlarda qeyrət və təəssüb hisslərini oyandırmaqla, yenidən islam ölkələrinə təcavüzə başlayan Şərqi Roma əsgərlərini geri oturtdular. Beləliklə, yeni və döyüşkən bir nəsil yarandı. Xristian səlibçilərinin məğlubiyyətlərinin çoxusu məhz bununla bağlı idi. Ona görə də islam tarixində Səlcuqluların mövqeyi ucadır (141, 780).

Bu dövrdə türkmənlərin rəisi Səlcuqlu Toğrul idi. O, 1055/1056-ci ilə qədər tədricən böyük imperatorluq yaratmış İran Səlcuqlular sülaləsinin banisidir. Onun fəth elədiyi ölkələrə Azərbaycan da daxil idi. Kembric Universitetində yazılmış "İran tarixi" əsərinin müəlliflərinin fikrincə, həmin dövrdən başlayaraq, Azərbaycanın, türkmənlərin inkişaf etməkdə olan mərkəzi kimi xüsusu əhəmiyyəti artdı. Bu

region, Reydən və İranın şimalından keçən 3 yol ayrıcının sonunda yerləşirdi. Türkmənlər Xorasan və onun arxasından gəlmişdilər. Bu regionun məhsuldar dərələri-Azərbaycan İranın çoxsaylı regionlarından biri idi. Burada geniş miqyasda demyə əkin aparmaq mümkün idi. Eləcə də, köçərilərin heyvanları üçün kifayət qədər otlaq sahələri vardı. Buradakı siyasi hakimiyyət pərakəndə bir halda idi. Bu isə yerli əmirlərə xidmət üçün çoxlu işçi qüvvəsi yaradırdı. Bundan başqa, Azərbaycanın xristian ölkələri ilə ortaq sərhədləri və kafirlərlə qədimdən uğurlu döyüş təcrübələri vardı. Əvvəldə qeyd etdiyimiz kimi, Şəddadilərin bu sahədə böyük rolları olmuşdur. Bütün bu amillər Azərbaycanın türkmənlərin mərkəzi olmasını şərtləndirirdi. Həmin dövrdən başlayaraq, burada qohumluq və türk dilinin üstünlüyü başladı və bu günə qədər özünü qorumaqdadır. Sonradan qazilər zaman-zaman buradan Ermənistan və Gürcüstanın xristian əmirlərinə təzyiqlər edir, eyni zamanda, Anadolunun içərilərinə doğru irəliləyirdilər. Bunun nəticəsində Anadoluda Daneşməndiyyə və Mənqucəkiyyə kimi qazi dövlətləri quruldu, Səlcuqlu səltənətinin hakimiyyəti Romaya qədər uzandı. Böyük Səlcuqlu dövlətinin parçalanmasından sonra da bir neçə onilliklər boyu onların hakimiyyəti davam etmişdir.

1054-cü ildə Toğrul, müvafiq olaraq, Təbriz və Gəncədə hakimiyyətdə olan Rəvvadiləri və Şəddadiləri özünə tabe etdirməkdən ötrü Azərbaycana getdi (62, 49-50).

Rüknəläddin Toğrul bəydən sonra, Məhəmməd, onun vəsiyyətinə uyğun olaraq, Səlcuqlu səltənətini onun qardaşı oğlu Alp Arslan Cəğəri bəyə verdi. Onun ölümündən sonra isə oğlu Cəlaləddin Məlik şah atasının yerinə taxta keçdi.

Əzəmətli Səlcuqlu imperiyası bu iki güclü padşahın dövründə özünün ən qüdrətli dövrünü yaşadı.

Verilən məlumatlara görə, 1067-ci ildə Alp Arslan Aranda idi. O, Şəddadi II Fəzldən və Şirvanşah Fəxrəddin Fəriborz bin Səlardan xərac aldı. Növbəti illərdə Xəzər dənizinin qərb sahillərindən Dərbəndə qədər olan ərazidə türk bəyləri hakim idilər.

Qərbdə Bizans, şərqdə isə Ermənistan sərhədləri kimi geniş bir ərazidə yaşayan türkmənlər, qədimdən düşmən olduqları bizanslılara qarşı ərəb, kürd və deyləmli müsəlmanların cəngavər qazilərinin sıralarına qoşuldular. Bununla da, orduda "axınçı" (hücumçu, hücum edən) və "ouc"-"uc" (güman ki, hədd, sərhəd-sərhəddə vuruşan) kimi qazi terminləri yarandı (62, 49-50).

Doktor Məhəmməd Cavad Məşkur yazır ki, Azərbaycanda çoxlu otlaqlar olduğuna və türklər köçəri olduqlarına və mal-heyvan bəslədiklərinə görə, daha çox Azərbaycana üz tuturdular. Onlardan əvvəl bu regionda çoxlu vəhşi heyvanlar yaşamışdılar.

Münəccimbaşına görə, Xəzər tayfasının qalanları 1066-cı ildə Qafqazın Dərbəndindən keçərək, Arana gəldilər və Dərbəndin yaxınlığındakı Qəhətan məntəqəsində məskunlaşdılar.

1076-cı ildə bu türklər bütün Arana və Araz çayının arxasına yayıldılar. Həmin il Məlik şah Səlcuqlu, türklərin bir hissəsini Savtəkinin idarəçiliyi altında Aranda yerləşdirdi. O zamandan etibarən, Gəncə tədriclə türkdilli şəhərə çevrildi.

Türklərin Azərbaycanda və Anadoluda yerləşməsi, siyasi baxımdan daha çox gürcü və Bizans xristianlarına qarşı islamın sərhədlərini qorumaq baxımından əhəmiyyət kəsb edirdi (83, 213).

Məlik şahın 4 oğlu vardı: Bərkyaraq, Məhəmməd, Mahmud, Səncər. Məlik şah 1093-cü ildə öləndən sonra Sultan Mahmudla Bərkyaraqın tərəfdarları arasında müharibə qızışdı. Bu arada Mahmud öldü və Bərkyaraq rəsmi şəkildə atasının yerinə keçdi. O, Səncəri Xorasanın hakimi təyin etdi. Az keçmədi ki, Bərkyaraqla, Gəncə hakimi olan qardaşı Məhəmməd arasında nifaq düşdü. Bir neçə döyüşdən sonra onlar barışdılar. Beləliklə də, Səlcuqlu torpaqları 2 qardaş arasında bölündü. Gəncə paytaxt olmaqla, Azərbaycan, Muğan və Ermənistan Sultan Məhəmmədin hakimiyyətində qaldı. Səlcuqluların digər əraziləri Bərkyarağın ixtiyarına buraxıldı.

Bərkyaraq, Gəncəni Səncərin ekizi Məhəmmədə verdi, Qıtlaqtəkini isə onun atabəyi təyin etdi. Ancaq çox keçmədi ki, Məhəmməd atabəyini öldürdü və bütün Aranı ələ keçirdi.

...Məlik şahın ölümündən sonra 12 il müddətində ölkədə davam edən iğtişaşlar və sülalədaxili müharibələr, ancaq 1105-ci ildə Bərkyarağın ölümü ilə sona çatdı. Bu illər ərzindəki qarışıqlıqlara baxmayaraq, Məlik şahın və onun vəzirinin vaxtında türkmənləri Azərbaycanda və Aranda təmərküzləşdirməklə ölkənin şimal-qərb sərhədlərinin, Qaraxaniləri yerləşdirmək və onlara qayğı göstərməklə isə şimal-şərq sərhədlərinin mühafizəsi ilə bağlı yürütdükləri ağıllı siyasət nəticəsində ölkə daxilindəki ümumi sakitlik və sərhədlərin toxunulmazlığı təmin edilmişdi (62, 110).

Bərkyarağın ölümündən sonra 5 yaşlı oğlu II Məlikşah onun yerinə keçdi. Ancaq Məhəmməd onu və digər rəqiblərini aradan qaldırdı və təkbaşına Səlcuqlu imperiyasının şahı oldu.

Məhəmməd dünyasını dəyişəndən sonra oğlu II Mahmud onun yerində əyləşdi. Ancaq özünü səltənətin varisi hesab edən əmisi Səncərlə apardığı müharibədə məğlub oldu, əmisindən üzr istədi və əmisi onu İraq hakiminə müavin verdi. Bu zaman Azərbaycan və onun ətrafındakı məntəqələr Mahmudun ixtiyarında idi və bu ərazi Azəvbaycan Səlcuqluları kimi tanınırdı. O, təqribən 80 ilə qədər davam etdi (83, 152).

Daxili çətinliklərə giriftar olan Mahmud, zaman-zaman xarici sərhədlərə diqqət edə bilirdi. Onun zamanında əsas təhlükə mənbəyi Aran və Qafqazda, yəni şimal-qərbdə Gürcüstan hakimi "Qurucu" ləqəbli IV Davud (1089-1125) idi.

Mənbələrə görə, Mahmud şah ədalətli və rəhmdil bir padşah olmuşdur. O, ədəbiyyat sahəsində ad çıxarmışdı. Lakin Ənuşirəvan bin Xalid "Divan"ında onun 10 eybindən, o cümlədən, Səncər və Debisə qarşı dözümsüzlük, saray xidmətçiləri arasındakı dağınıqlıq, sarayda əxlaqsızlığın rəvac olması, atasının yığdığı xəzinənin dağıdılması və s.-dən bəhs edilir (62, 125).

Səlcuqlular Rəvvadilərin və Şəddadilərin hakimiyyətlərinə son qoydular. Lakin Şirvanşahlar 70 min dinar ödəməklə və ildə 40 min dinar ödəyəcəkləri təəhhüdü götürməklə Səlcuqluların vassallığını qəbul edərək, hakimiyyətlərini qoruyub saxladılar.

XII əsrdə Səlcuqlular dövləti zəiflədi, Şirvanşahların güclənməsi üçün münasib şərait yarandı. Şirvanşahların, Səlcuqlulara qarşı mübarizəsi, xüsusən, Şirvanşah II Mənuçehrin zamanında gücləndi. Məhz bu zaman Şirvanşahlar dövləti müstəqillik əldə etdi və onun təchizatlı dəniz qüvvələri yarandı.

XII əsrdə Şirvanşahlar, gürcü şahı ilə əlaqə qurdu. Bunun nəticəsində Səlcuqlular Şirvana hücum edəndə gürcü qoşunu Şirvanşahlara köməyə gəldi. II Mənuçehr Gürcüstan padşahının qızı ilə evləndi. Bununla da, onların ittifaqı və birliyi daha da möhkəmləndi (17, 56-57).

# XALQIN TƏŞƏKKÜLÜ, ŞİFAHİ ƏDƏBİYYATIN İNKİŞAFI VƏ AZƏRBAYCAN TÜRK YAZIŞMALARI

Gördüyümüz kimi, İranda (Azərbaycanda) islam dininin yayılması və xalqın onu qəbul etməsi, ərəb əlifbasının özündən əvvəlki əlifbanı əvəzləməsi, Azərbaycan xalqının, eləcə də, Qarabağ əhalisinin yeni dini kimliyinin formalaşmasında əhəmiyyətli rol oynadı. Bu dəyişikliklərin fonunda şifahi xalq ədəbiyyatı və türk yazısının inkişafı Azərbaycan xalqının formalaşmasında əhəmiyyətli amil idi. Bununla da, Azərbaycan xalqı yeni bir mahiyyət və məzmun kəsb etdi. Yəni Aərbaycan müsəlman türk xalqı formalaşdı.

Azərbaycan xalqının meydana gəlməsi və təşəkkülü prosesi və türk dilinin hegemon olması XI əsrdə başa çatdı. Bu dövrdə ölkənin müxtəlif regionları arasında az-çox dərəcədə ümumi iqtisadi əlaqələr sabitləşdi. Bütün ölkədə türk xalqının məskunlaşması və onun mədəniyyətinin hegemonluğu özünü göstərdi.

İndi isə Azərbaycan xalqının formalaşması və onun yeni kimliyinin yaranması, bu prosesin hansı mərhələlərdən keçdiyinə diqqət yetirək. Bu konteksdə, hər şeydən əvvəl, türklərin müxtəlif dövrlərdə bu ərazilərə köç etmələrini araşdırmağa çalışaq. Bunun üçün doktor Cavad Heyətin ilkin mənbələr əsasında yazılmış "Türk dili və ləhcələrinin tarixi" kitabına müraciət edək.

Herodotun yazdığına görə, türk tayfalarının Azərbaycana ilk köçləri miladdan öncə VII əsrdə sakaların (skitlərin) köçləri ilə başlayır. Növbəti belə köçlər, yəni hunların

bu ölkəyə axını IV-V əsrlərə təsadüf edir. Erməni mənbələrində ağ hunlar "xiləndork" ("xiləntork") adı ilə qeyd olunur (Markvart, İranşəhr, 96). Və cənubi Muğandakı Balasaqun şəhəri onların paytaxtı olmuşdur (Şərqi Türküstandakı şəhərlərdən birinin adı da Balasaqundur). Avropaya mühacirət etmiş qədim Bolqar, Xəzər, Ağacari, Sabir türk tayfaları Azərbaycana da gəlmiş və burada məskunlaşmışlar.

Tarixçilər türklərin bu köçləri haqqında müfəssəl məlumat vermişlər (132, 150).

Ağacərilər Xəzər türk tayfalarından hesab olunur. 460-cı ildə onlar, 468-ci ildə isə Sarıuğurlar (Sarı uyqurlar) Qafqazın cənubuna gəlmişlər. 488-ci ildə onlar Sasanilərlə vuruşmuşlar. Ağacərilər adı sonrakı dövrlərdə də, məsələn, Hülaki xanın Ələmut qalasına hücumu zamanı xatırlanır. Bu tayfanın adı bəzən Qacar tayfası kimi qeyd olunmuşdur.

Sabirlər tayfasının başçısı Ambazok 508-ci ildə Ənuşirəvanın atası Qubadla müharibə etmişdir. Ancaq onun övladları onunla müqavilə bağlamış və Romaya qarşı birgə vuruşmuşlar. 515-516-cı illərdə Sabirlər, Ermənistanı ələ keçirmiş və Konyaya qədər irəliləmişlər. Ümumilikdə, Qubadın səltənətinin sonuna qədər Aran, Gürcüstan və Azərbaycanın şimal hissəsi Xəzərlərin və onlara yaxın digər türk tayfalarının hakimiyyəti altında olmuşdur. Bu üzdən bu əraziyə Xəzərlər ölkəsi də deyilmişdir (Belazori, 194; Təbəri ibn Xordadbeh; Tarixe Yəqubi). Xəzərlərin paytaxtı Qəbələ şəhəri idi. Xəzər sözü gəzər sözü ilə eyni kökdəndir. Ənuşirəvanın zamanında da bəzi türk tayfaları Azərbaycanda yerləşdirilmişlər... Ərəblərin hücumları zamanında da bu regionun türkdilli tayfalarının bəziləri diqqət mərkəzində

olmuşdur. İbn Hüşamın, Heydərabadda çap olunmuş "Eltican" əsərinin "Vəhəb bin Mənəbbə" hekayətində deyilir ki, bir gün xəlifə Müaviyyə öz müşaviri Əbid bin Saryedən soruşur ki, Azərbaycan nədir? Əbid cavabında deyir ki, Azərbaycan qədimdən türklərin ölkəsi olmuşdur. Türklərin İrana, xüsusən, Azərbaycana kütləvi köçləri Səlcuqlular dövründə baş vermişdir... Məlik şahın zamanında türkmənlər Azərbaycana gəlmişlər. Onlar tezliklə Gəncə, Xoy, Urmu, Həmədan kimi şəhərləri doldurmuşlar. O zaman Xoy şəhərinə İran Türküstanı deyilmişdir. Oğuz (quz) tayfalarından başqa, Qıpçaq türk tayfaları da Azərbaycana gəlmişlər. Qıpçaq elat tayfalarının mühüm hissəsi Xəzərin şimalından keçərək, Qafqaza yetişmişlər (5, 169).

Nizami Gəncəvi də 2 hissədən ibarət olan "İsgəndərnamə"nin "Şərəfnamə" hissəsində İsgəndərin türklərlə qarşılaşmasından bəhs edərək, yazır:

*Xəzər dağlarından Çin dənizinə qədər,*
*Bütün yer üzü türklərlə doludur.*

Tofiq Hacıyev, Nizaminin bu beyti ilə əlaqədar olaraq, yazır ki, şair "İsgəndərnamə"də bu beyti əbəs yerə işlətməmişdir. Biz Madlar və Albanlar haqqında qədim məlumatların böyük hissəsini yunan mənbələrindən alırıq. Nizami, İsgəndərlə bağlı məlumatları ümumiləşdirərək, onun türklərlə təkcə Mad ölkəsində deyil, bütövlükdə bütün Şərqdə qarşılaşdığını müəyyənləşdirmişdir. Böyük şairin zəngin ədəbi yaradıcılığı, eyni zamanda, tarixi dəyər və sənəd xarakteri kəsb edir. Onun miladdan öncə IV əsrdə türk tayfalarının Yaxın, Orta Şərqdə və Ön Asiyada yayılması barədəki iddiası sənədlərə söykənən bir fikirdir.

O dövrün tarixçilərindən birinin yazdığına görə, Səlcuqlu sultanı tərəfindən Aran və Muğana göndərilən türklər "pərvanə kimi səhralara, dağlara və qalalara yayıldılar". Aranın və Muğanın iqlim şəraiti maldarlıq və heyvandarlıq üçün münasib idi...

Belə bir şəraitdə Azərbaycanda türk dilinin rolu əhəmiyyət qazandı və bu dil özündən əvvəlki ləhcələri sıxışdırdı. Nəticədə, ölkənin şimal və cənub torpaqlarının bütün əhalisi üçün vahid bir dil (ləhcə) formalaşdı. Bu, Ural-Altay türk dilləri ailəsinə daxil olan Azərbaycan türkcəsi idi.

Azərbaycan türkcəsi özünün sadəliyi və anlaşıqlığı ilə sürətlə yayıldı. Bu dildə klassik ədəbi əsərlər, eləcə də, bayatılar, dastanlar, nağıllar və yerli mahnılar yaradıldı.

Aşıqlar xalqın mədəni həyatının və məişətinin yaşadılmasında misilsiz rola malik olmuşlar. Xalq, toylarda və digər şənliklərdə onların oxuduqları dastanları və aşıq mahnılarını həvəslə dinləyirdilər. İnsanlar aşıqlardan, onların çalıb oxumalarından və rəqs etmələrindən çox təsirlənirdilər. Ümumiyyətlə, aşıqlar qısa bir girişdən sonra dastan məzmunlu bir musiqi çalır və ara-sıra münasib aşıq havaları ilə dastanı danışırdılar.

Aşıqların səmimiyyəti, onların xalqa və məqsədlərinə sədaqəti sayəsində "Aşıq xalqın atasıdır", "Aşığın hər yerdə məkanı var", "Aşıq bizdəndir" və s. atalar sözləri yaranmışdır (17, 64-66).

Qədimdə aşıqlara həm də ozan deyilmişdir. Ozanlar tayfaların fərdləri arasında xüsusi ehtirama layiq idilər. Bu aşıqlar, əllərində qopuz eldən elə, obadan obaya dolaşır, tayfaların qəhrəmanlarını öz nəğmələrində əbədiləşdirirdilər.

Ozanlar şeirlər qoşur, dastanlar danışır, eyni zamanda, tayfanın ağsaqqalları və başbilənləri ilə birlikdə əhalinin problemlərinin həllində kömək göstərirdilər. Ozanlar, hazırkı aşıqların əcdadları olmuşlar. Onların ən adlı-sanlılarına və mahirlərinə dədə deyilmişdir. Məşhur "Dədə Qorqud" qəhrəmanlıq dastanları da bu ozanların yaradıcılıq əsərlərindəndir (71, 3).

Aşıqlar əsrlər boyu hər zaman davamlı olaraq, öz sazları və sözləri ilə fəal bir şəkildə xalqın yanında olmuş, xüsusən, onun qəmlərini və sevinclərini bölüşmüşlər. Bu canlı birlik əsrarəngiz bir şəkildə təkcə Azərbaycan xalqının şifahi danışıq və ədəbiyyatına təsir etməmiş, eyni zamanda, onun mədəniyyətinin ayrılmaz bir parçası olmuşdur. Çünki aşıqlar təkcə xalqın arzularının, hiss və duyğularının tərənnümçüsü deyil, həm də onun vətənsevərliyinin və haqq-ədalət istəklərinin çarçısı olmuşlar. Ona görə də, aşıqların səsi və sözü gələn kimi hər kəs səfərbər olur:

*Atım, sazım, vətənim,*
*Biz 4 bədənik və 1 can.*
*Ey düşmən, canımı al, ancaq*
*Atım, sazım, vətənimi verməném.*

Aşıqların hər bir zili və bəmi, 200-dən artıq aşıq havası insanların canına yanqı salır və bu yanqı hər bir aşiqin eşqini alovlandırır.

Aşiqlər bədəni sazda, ruhu avazda ümumiləşdirir və qulağa yaşamaq eşqi pıçıldayır və nəticədə insan saflaşır, sevgi dərsi əxz edir.

Aşıqlar öz zəmanələrinin övladlarıdırlar. Onlar atalarının miraslarını növbəti nəsillərə ötürürlər. Onlar öz dastanları ilə gözləri sehirləyir, ruha eşq, bədənə yüngüllük bağışlayır, insanları aşiq olmağı və sevməyi öyrədirlər.

İranın-Azərbaycanın qədim qəhrəmanlıq tarixindən, folklorundan, xalqın kədər və sevincindən yoğrulmuş aşıq havaları, keçmişdən bu günə qədər aşıq sənətini yaşatmış, onu Savalan dağı kimi başıuca tutmuşdur.

Ən qədim zamanlardan Azərbaycanda məskən salmış türk xalqı olduqca zəngin şifahi xalq ədəbiyyatına sahibdir. Bu ədəbiyyat onun yazı mədəniyyətinin formalaşmasında önəmli rol oynamışdır.

Azərbaycan xalqının ən qədim yazılı abidələrindən olan "Kitabi-Dədə Qorqud" qəhrəmanlıq dastanları xalqımızın mədəni zənginliyindən xəbər verir. Alman şərqşünası Dits "Kitabi-Dədə Qorqud"dan "Təpəgözün dastanı"nı alman dilinə çevirərək, çap etdirmiş və onu Homerin "Odissey"i ilə müqayisə etmişdir. Ditsə görə, Homer "Odissey"i yazarkən, qədim "Təpəgözün dastanı"ndan yararlanmışdır. Ya da, ən azından, Homerin "Təpəgözün dastanı"ndan xəbəri olmuşdur (5).

XI-XII əsrlər Azərbaycan mədəniyyətinin çiçəklənmə dövrüdür. Bu dövrdə Azərbaycan bəşəriyyətə bir çox mütəfəkkir, sənətkar, şair və alimlər bağışlamışdır. Onlardan coğrafiyaşünas və astronom Bərdəyi Məkki Əhmədoğlu, Həkim Bəhmənyar, ədib və dilçi Xətib Təbrizi, memarlar Əbubəkr Əcəmi, Məhəmməd bin Əbubəkr, Əmirəddin Məsud, Əbu Mənsur bin Musa, tarixçi Məsud bin Namdar, şa-

irlər Əbülüla Gəncəvi, Məhsəti Gəncəvi və başqalarını göstərmək olar. Bu dövrdə Azərbaycanda ibtidai və orta məktəblər, eləcə də, institutlar mövcud olmuşdur (17, 67).

Adıgedən dövrün ən məşhur ədəbi siması Xaqani, fars dilinin Şərq ölkələrində yayılması və inkişafında önəmli rol oynamışdır. Bu vətənpərvər şair, xəlifə sarayının dəvətini rədd etmiş, öz həmvətənləri arasında yaşamağı və yaratmağı daha üstün tutmuşdur. O, ömrünün sonlarında Təbrizdə yaşamış, bu şəhərdə vəfat etmişdir. Məzarı Təbrizin məşhur "Şairlər məqbərəsi" qəbristanlığındadır. Professor Həmid Araslı bu dahi şair haqqında yazır: "Dünya ədəbiyyatı tarixində elə klassiklər var ki, onların ədəbi şedevrləri yalnız öz xalqlarının deyil, həm də bir çox xalqların təfəkkürünün böyüməsi və inkişafında effektiv olmuş, günümüzə qədər öz müəllifinin adını yaşatmışdır. Azərbaycanin dahi şairi Əfzələddin Xaqani də dünya ədəbiyyatının belə ölməz şairlərindəndir. Xaqani vətənpərvər və humanist bir şair olmuş, insan ağlına, ləyaqətinə və gücünə inanmış, əməyə və zəhmətkeş xalqa ehtiramla yanaşmış, xalqlar dostluğu və vətənpərvərliyi tərənnüm etmişdir. Məhz bu xüsusiyyətlərinə görə, onun yaradıcılığı bu qədər əhatəlidir və bütün əsrlərdə canlı və həmişəyaşardır. Xaqaninin ədəbi irsi Yaxın Şərqin ədəbiyyatına əsaslı təsir göstərmiş, əsrlərlə təqlid edilmişdir. Şərqin qabaqcıl ziyalıları şairin yaradıcılığının mütərəqqi xüsusiyyətlərindən geniş bir şəkildə faydalanmışlar. Xaqaninin ecazkar əsərləri hazırkı dövrdə də yaradıcı insanların ilhamverici pərəstiş yeridir"( 2, 3).

Azərbaycanın ən dəyərli mədəniyyət inciləri və ən yüksək ictimai düşüncələri Nizami Gəncəvinin poeziyasında əks olunmuşdur. Şairin "Xəmsə" adı ilə məşhur olan

poemaları, ən qiymətli əsərlər kimi dünya ədəbiyyatına daxil olmuşdur. Şairin "Xəmsə"si poeziyanın, xüsusən də, məsnəvi janrının inkişafında əvəzsiz rol oynamışdır. Hər birisi öz dövrünün ədəbiyyatının parlaq siması olmuş Əmir Xosrov Dəhləvi, Əbdürrəhman Cami, Əmir Əlişir Nəvayi, Molla Məhəmməd Füzuli və başqaları öz əsərlərini qələmə alarkən, Nizami Gəncəvidən təsirlənmişlər.

Nizamin Gəncəvinin dünya ədəbiyyatında özünəməxsus yeri vardır. Onun yaradıcılığı ilə dünya ədəbiyyatı və ictimai fikir tarixində yeni bir mərhələ başlamışdır. Onun əvəzsiz əsərləri və mütərəqqi fikirləri sürətlə Orta və Yaxın Şərqdə yayılmış, bu coğrafiyada yaşayan bir çox xalqların mədəniyyət və ədəbiyyatlarının inkişafına inanılmaz təsir göstərmiş, özünün dəyər və qiymətini əsrlər boyu qoruyub saxlamışdır.

# QARABAĞ AZƏRBAYCAN ATABƏYLƏRİ DÖVRÜNDƏ

"Ata" sözü türk dilində ata, "bəy" isə böyük deməkdir. Atabəy sözünün sinonimi "lələ" olub, uşağın qoruyucusu və müəllimi mənalarını ifadə edir. Lakin sonralar onun mənası genişlənərək, sədr-əzəm (baş nazir), əmir, hətta şah mənaları kəsb etmişdir.

Səlcuqlu sultanlarının əvvəldən belə bir ənənəsi olmuşdur ki, uşaqlarını tanınmış saray, yaxud da ordu əmirlərindən birinə etibar etmişdilər ki, onların təlim-tərbiyəsi ilə məşğul olsunlar və qayğılarına qalsınlar. Şahzadələrin etibar edildiyi əmirə atabəy demişlər... Səlcuqlular dövləti zəifləyəndə daha çox nüfuza və gücə sahib olan atabəy əmirlər, himayələrində olan şahzadələri bəhanə edərək, özlərini müstəqil dövlət elan etdilər. Onlar yerləşdikləri ərazinin-əmirliyin adı ilə Atabəylər dövləti kimi tarixə düşdülər. Bunlardan biri də Azərbaycan Atabəyləri sülaləsi idi. Həm də onlardan bəhs etmiş, onlara mədhnamələr yazmış Nizami Gəncəvi, Zəhir Faryabi və digər klassiklərin hesabana Azərbaycan Atabəylərinin şöhrəti daha böyük olmuşdur.

Azərbaycan Atabəyləri sülaləsinin əsası Eldəgiz tərəfindən qoyulmuşdur və bu sülalə 91 il ərzində Azərbaycanda, onun ətrafında, bəzən də, İraqda hökmran olmuşlar (83, 152).

Atabəylər, xüsusən, Səlcuqlular dövrünə aid sülalələr idilər, ancaq onların ictimai təşkilatlanmalarını, adət-ənə-

nələrini türkmənlərdə axtarmaq lazımdır... Zahirən, atabəyliklər, özlərinin ibtidai formalarında ictimai mahiyyət daşıyırdı, sonrakı mərhələdə isə onlar siyasiləşdilər və dövlət olaraq meydana çıxdılar. Bərkyarağın atabəylərindən Əli bin əbu Əli Qumi istisna olmaqla, Atabəy dövlətlərinin hamısı, yaxud da, əksəriyyəti Səlcuqluların hakimiyyətinin son dövrlərinə təsadüf edir. Adıgedən atabəy onun himayəsinə verilmiş şahzadnin anası ilə izdivac etmişdi.

Səlcuqlular zamanıında meydana gəlmiş atabəylik institutunun 2 əsas (ictimai və siyasi) cəhəti vardır. Atabəylər həm də şahzadələrin təlim və tərbiyəsi ilə məşğul olurdular. Atabəylərə verilən şahzadələrə, adətən, 1 vilayət və ya region da ayrılırdı və atabəy həm də həmin ərazini idarə edirdi. Məlik şahın dövründə, bu qaydaya zidd olaraq, Bərkyarağa və dolayısı ilə onun atabəyinə ərazi verilməmişdi. İstisnasız olaraq, atabəylər türklərdən seçilirdi ( 62, 233).

Eldəgizlər adı ilə də məşhur olan Azərbaycan Atabəyləri, Aran, Naxçıvan və Qərb vilayətində hökmranlıq edirdilər. Bu sülalənin banisi azyaşlı Səlcuqlu padşahın qəyyumu (atabəyi) Şəmsəddin Eldəgiz idi. Azərbaycan Atabəylərinin paytaxtı Təbriz, bəzən isə Naxçıvan olmuşdur. Bu dövlət 1225-ci ilə qədər davam etmişdir. Eldəgizlər ərazilərini genişləndirməkdən ötrü zaman-zaman Şirvana, Ermənistan və Gürcüstana hərbi yürüşlər təşkil edirdilər. Bəzən də gürcü padşahları onların ərazisinə təcavüz həyata keçirirdilər (17, 57).

Qarabağ da Azərbaycan Atabəylərinin hakimiyyətinə daxil idi. Eldəgizlərin mükəmməl idarəçilik (dövlət) və hərbi strukturu vardı. Onlar, özlərinə məxsus pul vahidi (sik-

kələr) də istehsal edirdilər. Yəni Azərbaycan Atabəyləri regionun mühüm siyasi və hərbi gücü idi. Əhər məlikləri, Kirman və İraqın Səlcuqlu hakimləri, Şirvan hakimləri, Fars Solqurları, Artuk əmirləri, Zəngilər, Səkmənlər, Təbəristan vilayəti də Eldəgizlərin nüfuzu altında olan regionların parçaları idilər (44, 76).

Azərbaycan Atabəyləri dövlətinin qurucusu Şəmsəddin Eldəgiz zamanında Sultan Məsud Səlcuqlu tərəfindən, daim təhlükə mənbəyi olan xristian gürcülərə qarşı cihad vəzifəsi ilə görəvləndirilmişdi. Səlcuqlu şahzadə Arslanın atabəyi olmuş, daha sonra isə onun anası ilə evlənmiş Şəmsəddin Eldəgiz, Azərbaycan Atabəyləri dövlətini qurmuş və təqribən 30 il onu idarə etmişdir. Bu müddətdə o, Arslan şah istisna olmaqla, Məsud şahdan sonra hakimiyyətə gəlmiş heç bir Səlcuqlu şahının hüzuruna getməmişdir. Ancaq Arslan şah Həmədanda taxta çıxanda oğlu Nüsrətəddin Məhəmməd Cahan Pəhləvanı öz yerinə təyin edərək, onun hüzuruna getmiş, orada məskunlaşmışdır.

Atabəy Eldəgiz bir tərəfdən Rey və İsfəhanı ələ keçirmiş, Xorasanda Arslan şahın adına xütbə oxutdurmuş, digər tərəfdən isə, gürcüləri ağır məğlubiyyətə uğradaraq, Aranın və Şimali Azərbaycanın bir hissəsini onlardan geri almışdır. Bununla da, o, zəifləməkdə olan Səlcuqlu dövlətini yenidən gücləndirmişdir.

Atabəy Eldəgiz vəfat etdikdən sonra onun böyük oğlu Nüsrətəddin Məhəmməd Cahan Pəhləvan onun yerinə taxta çıxmış, qardaşı Müzəffərəddin Osman Qızıl Arslanı hakim kimi Azərbaycan və Aranı idarə etməyə göndərmişdir.

Atabəy Şəmsəddin Eldəgiz dünyasını dəyişəndən sonra İraqda atasının yerinə taxta çıxmış 7 yaşlı son Səlcuqlu

padşahı III Toğrul, Cahan Pəhləvanın əlində (qəyyumluğunda) idi. İnsanpərvər, adil, ədəbpərvər Cahan Pəhləvan və atası, vaxtilə hakimiyyətə gətirdikləri Toğrulun geniş imperiyasını asanlıqla idarə edirdilər.

Atabəy Cahan Pəhləvan dünyasını dəyişəndən sonra qardaşı Qızıl Arslan, III Toğrulun atabəyi oldu və qardaşının dul arvadı Qətibə xatunla evləndi. Ancaq tezliklə Qızıl Arslanla Toğrulun münasibətləri pozuldu o, Toğrulu həbs etdirdi və səltənəti ələ keçirməyə hazırlaşdı. Ancaq çox keçmədi ki, onun ölüsünü tapdılar; bədəninə 15 bıçaq zərbəsi vurulmuşdu. O dövrün ənənəsinə görə, onun ölümünü İsmailli fədailərinin işi hesab etdilər (130, 382).

Qızıl Arslanın ölümündən sonra onun qardaşı oğlu Nüsrətəddin Əbubəkr onun yerinə keçdi və Azərbaycan Atabəyləri dövləti zəifləməyə başladı. Nüsrətəddin Əbubəkr vəfat edəndən sonra qardaşı-son Azərbaycan Atabəyi Müzəffərəddin Özbək hakimiyyətə gəldi və 15 il şahlıq etdi. Bu arada Cəlaləddin Xarəzmşah monqolların qorxusundan Gəncəyə hücum etdi. Özbək monqollara müqavimət göstərməyə qabil olmadığını anlayaraq, Naxçıvan yaxınlığındakı Əlincə qalasına sığındı. Burada arvadının Cəlaləddin Xarəzmşaha ərə getdiyini eşidən Özbək, qəhrindən dünyasını dəyişdi. Bununla da, Azərbaycan Atabəyləri dövlətinin hakimiyyəti sona çatdı.

Bu illərdə süni suvarma sistemi rəvac oldu və əkilən ərazilərin sahəsi genişləndi. Suvarma üçün yeraltı arxlardan (kəhriz) istifadə olunurdu. Həmçinin, kənd təsərrüfatında kübrədən də istifadə yayılmışdı.

XIII əsrdə coğrafiyaya dair yazılmış bir əsərdə göstərilir ki, Aranda ipək və düyü istehsal olunur, böyük mal-qara

sürüləri və at ilxıları bəslənilirdi. Bərdə və Beyləqan ətrafında çoxlu sayda meyvə bağları mövcud idi. Gəncə yaxınlığında pambıq əkinləri genişlənmişdi. Bərdə, Gəncə, Şəki və Şirvan regionlarında barama qurdu bəslənməsi təkmilləşdirilmişdi. Şəhərlərdə sənət və sənətkarlıq canlanırdı. Qarabağ və Muğanda toxunan xalçalar məşhur idilər. Müxtəlif sənətlər, xüsusən də, bədii işləmə böyük əhəmiyyət kəsb edirdi.

Müxtəlif məişət əşyalarının hazırlanmasından ötrü çıxarılan filizlərdən istifadə edilirdi. XII əsrdə Naxçıvanda hazırlanmış mis kuzə hazırda Parisin Luvr Muzeyində saxlanılır.

Gəncə, Beyləqan və digər şəhərlərdə keramik və çini qablar istehsal olunurdu. Onların üzərinə vurulan bəzəkli naxışlar və rəsmlər müasirlərini heyrətə salırdı.

Bərdə, Gəncə, Şamaxı, Naxçıvan və başqa şəhərlərdə şəhər həyatı müxtəlif yönləri ilə qaynayırdı. Gəncə çayı şəhəri 2 yerə bölürdü. Şəhərin ətrafında 3 qat qala divarı çəkilmişdi. Bu arada baş verən zəlzələlər, xüsusən də, 1139-cu ildəki zəlzələ böyük dağıntılar törətmiş, on minlərlə insan tələf olmuşdu. Bu fəlakəti Nizami Gəncəvi "İsgəndərnamə"sində ürək ağrısı ilə təsvir etmişdir. Zəlzələ nəticəsində Kəpəz dağının qülləsi uçmuş, çayın qarşısını kəsərək, Göy gölün yaranmasına səbəb olmuşdur. Göy gölün qeyri-adi gözəlliyi haqqında şair Məmməd Rahim belə yazmışdır:

*Göy gölü, Qubanı görməmisənsə,*
*Demə ki, görmüşəm Azərbaycanı!*

Bu dövrdə bütün böyük şəhərlərin ətrafında qala divarları mövcud olmuşdur. Belə güman edilir ki, Bakının qala divarları da XII əsrdə bərpa edilmişdir.

Orta əsr Azərbaycan şəhərləri kiçik və yığcam idi. Onlarda çoxlu sayda dar küçə və dalanlar mövcud olmuşdur. Evlər, adətən, bir mərtəbəli idilər. Hündür binalar ancaq feodallar və varlılar üçün tikilirdi. Əksər hallarda, şəhər mərkəzində böyük meydan salınırdı.

Şəhər əhalisi, adətən, müxtəlif sənət növü ilə məşğul olan sənətkarlardan ibarət olurdu. Onlar çalışdıqları sahələr üzrə məhəllələrdə yaşayırdılar. Bu minvalla, şəhərlərdə Dəmirçilər, Silahsazlar, Misgərlər, Zərgərlər və s. məhəlləri mövcud idi. Şəhər əhalisinin bir çoxu da kənd təsərrüfatında çalışırdı.

Bu dövrdə qərbdə Bizansla ticarət öz əhəmiyyətini itirmiş, ticarət karvan yolları Xəzər-Volqaya tərəf istiqamətlənmişdi. Bu, Azərbaycanın ticarət əlaqələrinin genişlənməsinə əhəmiyyətli təsir göstərmişdi.

Sənətkarlar daxili və xarici bazarlara yun, pambıq və ipək paltarlar, müxtəlif yataqlar, filiz, çini və keramika məhsulları, xalça, zərgərlik məmulatları və s. çıxarırdılar. Karvan yollarında bir neçə gömrük məntəqəsi mövcud idi. Onlar feodal hakimlər üçün vergi toplayırdılar. Ticarətlə yanaşı sikkə zərbi də rövnəqlənirdi. Dövlətlərin mərkəzlərində mis, gümüş və qızıl sikkələr istehsal edən zərbxanalar yaradılırdı (17, 61).

Azərbaycan Atabəyləri, şairləri himayə etməklə, poeziyanın və bütövlükdə, ədəbiyyatın inkişafına, Xorasan üslubundan başqa, yeni ədəbi məktəblərin yaranmasına səbəb olurdular (140, 645).

Azərbaycan Atabəyləri, xüsusən də, Eldəgiz və onun oğlanları Cahan Pəhləvan və Qızıl Arslan o dövrün şairləri, xüsusən, Xaqani Şirvani, Zəhirəddin Faryabi, Nizami Gəncəvi, Mücirəddin Beyləqani, Əsirəddin Əxsikəti, Cəmaləddin Əşhəri və Şərəfəddin İsfəhani tərəfindən xoş sözlərlə təriflənmişlər (130, 387).

Azərbaycanın Gəncə əhalisindən olan Həkim Cəmaləddin əbu Məhəmməd İlyas bin Yusif bin Zəki bin Müəyyəd Nizami, təfəkkürün və sözün tayı-bərabəri olmayan ustadıdır... O, elə bir şairdir ki, keçən əsrlər onun poeziyasının təravətini və gücünü bir zərrə belə azaltmamışdır... Hazırkı Azərbaycan dünya şöhrətli bu övladının xatirəsini uca tutur, onu təkcə özünün deyil, bütün türk xalqlarının yetirməsi hesab edir... Nizami doğulduğu Gəncəni çox sevmişdir. Azərbaycanın hakimi Qızıl Arslan, Gəncənin 30 fərsəngliyindən keçərkən, Nizamini görmək istəmişdir (62).

Nizami, Atabəyin dəvəti ilə, Qızıl Arslanla görüşərkən, Qızıl Arslan ona elə bir ehtiram nümayiş etdirmişdir ki, Toğrulun sultan olmasına baxmayaraq, şair məhz Qızıl Arslana mədhiyyə demişdir. Nizami görüş salonuna girməmişdən öncə, Atabəy göstəriş vermişdir ki, eyş-işrətə aid hər şey ortadan qaldırılsın, saqi və mütrüb salondan çıxarılsın. Qızıl Arslan, Nizamini ayaq üstə qarşılamış, ona hər cür qayğı göstərmiş və bütün günü onunla həmsöhbət olmuş, şairin şeirlərini dinləmiş, ondan nəsihət və dua istəmişdir. Qızıl Arslan başa düşmüşdür ki, qardaşı Atabəy Cahan Pəhləvan "Xosrov və Şirin"i yazmaqdan ötrü Nizamiyə ənam söz versə də, bu günə qədər sözünə əməl etmə-

mişdir. Buna görə o, qardaşının əvəzindən şairdən üzr istəmiş, əvəz olaraq şairə Həmdoniyan adı ilə 1 kənd bağışlamış, onu sevindirmişdir.

Təzkirəçilərin verdikləri məlumata görə, Qızıl Arslan, Nizamiyə 4 kənd bağışlamışfır. Lakin şair onlardan bəhs etməmiş, yalnız Qızıl Arslanın ona bağışladığı Həmdoniyan kəndindən söhbət açmışdır. Ancaq şairin dediklərindən belə məlum olur ki, Qızıl Arslan ona başqa hədiyyələr də verməyə hazır olmuşdur. Ancaq şair Fərat çayının başlanğıcında yerləşən dağınıq Həmdonivan kəndinin ona bağışlanmasından sevinmiş, başqa hədiyyələr istəməmişdir. Qızıl Arslan tərəfindən adıgedən kəndin Nizamiyə bağışlanması Gəncədə, eləcə də, bütün Aranda böyüklərin şairə diqqətini artırmış və bir çoxlarının həsədinə səbəb olmuşdur.

... Qızıl Arslanla görüşü əsnasında Nizami, Cahan Pəhləvanın adına yazdığı qəsidəni Qızıl Arslanın adına oxumuşdur. Sonralar Qızıl Arslan batinilərin əli ilə öldürüləndə Nizami bu münasibətlə kədər dolu bir mərsiyyə də yazmış, onu "Xosrov və Şirin"in son nüsxəsinin axırına əlavə etmişdir (92, 27-77).

"Zəhir" təxəllüslü Zəhirəddin Tahir bin Məhəmməd 1156-cı ildə Bəlxin cənub-qərbində yerləşən Faryabda bir elm adamının ailəsində dünyaya gəlmişdir. Şeirlərində işlətdiyi çoxsaylı türk tərkiblərindən və ifadələrindən belə məlum olur ki, əsli və nəcabəti türk olmuş, ya da türklərin arasında böyümüşdür (62, 545).

Faryab və Nişapurda təhsilini başa vurduqdan sonra İsfəhana, oradan da Azərbaycana gəlmiş, Atabəy Qızıl Arslanın yanında xidmət etmişdir.

Zəhirəddin bir çox sultanları və əmirləri mədh etmişdir. Ancaq qəsidələrinin çoxu Toğan şah bin Müəyyəd və Qızıl Arslan bin Eldəgizin mədhinə həsr olunmuşdur.

Şəmsəddin Eldəgiz, Qızıl Arslan və Dərbənd məlikləri tərəfindən basdırılmış bir çox mis sikkələr (dirhəmlər) zəmanəmizə qədər gəlib çatmışdır (bunların içərisində Eldəgizlərin Qarabağda basdırdıqları xüsusi yer tutur).

Zəhirəddin ömrünün sonlarında Təbrizdə xəlvətə çəkilmiş, ibadətlə məşğul olmuşdur. O, 47 yaşında dünyasını dəyişmiş, Surxabın "Məqbəreye-şüəra" qəbristanlığında, Xaqani və Mücirəddin Beyləqaninin qəbirlərinin yanında dəfn edilmişdir (136).

Əsirəddin Əbülfəzl Məhəmməd bin Taher, Fərqanənin uzaq Əxsikət şəhərində doğulmuşdur. "Əsir" və "Əsir Əxsikət" təxəllüsləri ilə yazmışdır... O, Azərbaycanda Eldəgizlər sarayında xidmət etmiş və böyük ədəbi şöhrət qazanmışdır (62). Qəsidələrinin çoxu Böyük Atabəy Şəmsəddin Eldəgizə və Qızıl Arslana həsr edilmişdir (136).

Azərin "Atəşkəde" təzkirəsində və digər bütün mənbələrdə 1181, yaxud 1183-cü ildə Xalxalda vəfat etdiyi qeyd olunur (84).

Əbülmükarim Mücirəddin Beyləqani, Xaqani, Zəhir Faryabi və Əşhəri Nişaburinin müasirlərindəndir. Onlardan qabaq vəfat etmiş, Təbrizdə "Məqbərətül-şüəra" qəbristanlığında dəfn olunmuşdur.

Mücirəddin Beyləqani daha çox Azərbaycan Eldəgizlərini, xüsusən, Nüsrətəddin Cahan Pəhləvan Məhəmməd bin Eldəgizi mədh etmişdir.

Xaqani Şirvani XII əsrin ən böyük şairidir. O, Eldəgizlərin, xüsusən də, Qızıl Arslanın məddahlarından olmuşdur. Qafar Kəndli Herisçi bununla bağlı qeyd edir ki, Xaqani Qızıl Arslana yazdığı məktubunda 10 ildə ona şeir həsr etmədiyinə görə ondan üzr istəyir. O, bu müddət ərzində səyahətdə olduğunu göstərir və illər öncə Qızıl Arslana həsr etdiyi şeiri ona göndərərək yazır ki, bu şeirimi başqası, təxəllüsümü dəyişərək, öz adına çıxmış və Sizə təqdim etmişdir. Bu o zaman idi ki, Əbi Hamidin dediyinə görə, Qızıl Arslan Toğrulu Kəhran qalasında zindana salmışdı və səltənəti Həmədandan idarə edirdi, Azərbaycanın idarəçiliyini isə qardaşı oğlu Əbubəkrə tapşırmışdı.

Xaqani, doğulduğu Şirvanda yaşayarkən, bədxahları tərəfindən sui-qəsdlərə məruz qalmış və bir çox problemlər yaşamış, Qarabağa getmiş və Laçın bəyləri onu himayə etmişlər. Xaqani, Şirvanın məlik üş-şüərası Məhzəbəddinə yazdığı məktubda Kür çayının ətrafını elm və ədəbiyyat ölkəsi adlandırmış, buradan çıxmış çoxsaylı alimlərlə fəxr etdiyini qeyd etmişdir (140).

## QARABAĞ MONQOLLAR DÖVRÜNDƏ

1219/1220-ci ilin payızında monqol Çingiz xan, əvvəllər monqolların işğal etdikləri Kaşqar və Belasaqun yolu ilə Xarəzmşah ərazisinə yürüş edir. Davamlı olaraq həyata keçirilən hücumlar, sözün həqiqi mənasında, qətl və qarətlərlə müşayiət olunur, İranın, bütün ərazilərində, eləcə də, o zaman Atabəy Özbəyin hakimiyyətində olan Qarabağda faciəvi təsirlər buraxır. Ardıcıl və ildırım sürəti ilə edilən hücumların nəticəsində Sultan Məhəmməd Xarəzmşah, qaçdığı Xəzər dənizinin Absekun adasında həlak olur. Digər regionlar kimi, Qarabağ da bu qanlı yürüşlərdən öz acı nəsibini alır.

İbn Əsir monqolların hücumunu belə qələmə alır: "... Tarix belə bir şey və ya ona bənzər faciə görməmişdir. Monqol qoşunlarından bəziləri Azərbaycana və Arana daxil oldular. Onlar bir ildən az bir müddətdə qarət və dağıtmaqla məşğul oldular, insanların çoxunu qətl etdilər. Bəzi insanlar ölkədən qaçaraq canlarını qurtardılar" (17, 70).

Həmin ilin qışında yenidən Azərbaycana və Qafqaza qoşun yeridən monqollar Gəncəni işğal etdikdən sonra Gürcüstana gedən yolda bir maneə qalmadı. Monqollar davamlı hücumlarla Ərdəbili ələ keçirərək, Təbrizə tərəf irəlilədilər (197, 33). Təbriz 3 dəfə mühasirəyə alındı. Atabəy Özbək şəhərdən qaçdı. Şəhərin müdafiəsini, şəhər əhalisinin ciddi bir şəkildə dəstəklədiyi qalabəyi Şəmsəddin Toğrayi öz öhdəsinə götürdü. Şəhəri ələ keçirə bilməyən monqollar, şəhər əhalisindən böyük bir miqdarda xərac almaqla, nəhayət ki, ona hücumu dayandırdılar (61, 83). Ancaq əvvəllər səfirlərinin

qətl olunduğu Beyləqanı yerlə yeksan etdilər (197, 33). Beyləqanı mühasirə edən monqollar, onun qala divarlarını mancanaqla dağıtmaq istədilər, lakin daş tapa bilmədiklərinə görə yoğun çinar ağaclarının kötüklərini doğradılar və kötük parçalarını daş əvəzinə mancanağa qoyaraq, atdılar. Nəticədə, qala divarları zədələndi və monqollar şəhərə daxil olaraq, onu qarət etdilər və yandırdılar. Monqollar getdikdən sonra, hələ hücumdan qabaq şəhəri tərk etmiş əhali geri qayıdaraq, onu yenidən qurdu (152, 192).

Diqqətəlayiqdir ki, monqolların hücumuna məruz qalmış ərazilərin əhalisi, monqollardan daha çox Cəlaləddin Xarəzmşah və onun qoşunundan zərər gördü. Bununla bağlı İqbal Aştiyani yazır: "Vətənin müdafiəsi uğrunda xalqın apardığı rəşadətli, cəsarətli və qəhrəmancasına mübarizəyə baxmayaraq, Cəlaləddin Xarəzmşahın amansızlığı, zülmü və eyş-işrətpərəstliyi 10 il müddətində İranın bütün regionlarını viran elədi, monqollardan intiqam almaq istəyən və qiyam qaldıran müsəlmanların əksəriyyəti qılıncdan keçirildi. Cəlaləddin Xarəzmşah təkcə rəiyyətə zülm etmirdi, o, həm də imkanlı şəxslərə və məqam sahiblərinə qarşı da amansız idi. Nəticədə, insanlar, xüsusən, ismaililər, Gəncə və Təbriz müsəlmanları onun hakimiyyətindənsə, monqol təbəəliyinə üstünlük verirdilər" (131, 138-141).

Monqollara qarşı müharibə və qaçış taktikasına üstünlük verən Cəlaləddin Xarəzmşah, Heratın monqollar tərəfindən tutulmasından sonra Qəznidən çıxmış və monqolların köməkçi dəstələri ilə bir neçə uğurlu kiçik döyüşlərdən sonra Send çayının sahilində Çingiz xanın qoşunu ilə üzüzə gəlmiş və məğlubiyyətə uğramışdır, ancaq Send çayını üzüb keçərək, canını qurtara bilmişdir. Bu qələbə Çingiz

xana təqdir və heyranlıq gətirdi. Cəlaləddin Xarəzmşah bir müddət Hindistanın şimal-qərbində qaldı, pərakəndə düşmüş ordusunu  toparladı, Hindistanı tərk edərək, Kirman yolu ilə Təbrizə yola düşdü (197, 35).

Cəlaləddin Xarəzmşah bir müddət Təbrizdə qalandan sonra Aranın paytaxtı Gəncəyə qoşun çəkdi. Gəncənin işğal edilməsi ilə orada hökmranlıq edən Atabəy Özbək şəhərdən qaçaraq, Naxçıvanın Əlincə qalasına sığındı. Az sonra xanımının Cəlaləddin Xarəzmşahla evləndiyini eşitdi və çox keçmədi ki, qəhrindən dünyasını dəyişdi. Qışı Mahanda (Ərdəbil) keçirən Sultan Cəlaləddin, eşitdi ki, monqollar Oucanın Çəmənini keçib, onun arxasınca hərəkət edirlər. O, məcburən Gəncəyə getdi. Orada monqollara havadarlıq edən və Xarəzmlərin dövlət xadimləri və ordu mənsublarından bəzilərini öldürmüş və başlarını monqollara göndərmiş qrupu  cəzalandırdı (131, 118-138-141).

Monqolların təzyiqi ilə dəfələrlə hakimiyyətini tərk edərək, qaçmış Cəlaləddin Xarəzmşah, Zaqafqaziyada əhali ilə qəhr olmuş işğalçı kimi davranırdı. O, Azərbaycan Atabəylərinin hakimiyyətinə son qoydu. Şimali Azərbaycan əhalisi baş verən qətl və qarətlərə qarşı qorxmazcasına qiyam və üsyanlarla cavab verirdi. 1231-ci ildə Ustad Bendarın rəhbərliyi ilə baş vermiş qiyamın qələbə ilə nəticələnməsi böyük əhəmiyyət kəsb edirdi. Bu qiyamda qiyamçılar Gəncə şəhərində olan Xarəzmşah qoşununun bir hissəsini məhv etdilər və dövlətlə müzakirələrdən imtina elədilər. Ancaq Cəlaləddin Xarəzmşah Gəncə qiyamını yatırtdı, şəhəri yenidən işğal etdi və qiyamçıları ağır cəzalandırdı. Üsyanın rəhbərlərindən 30 nəfər edam edildi. Ustad Bendarı isə tikə-tikə doğradılar.

Gəncə üsyanı yatırılsa da, Cəlaləddin Xarəzmşahın mövqeyi zəiflədi. Belə ki, həmin il monqol qoşunu Çurmağonun başçılığı ilə Cəlaləddin Xarəzmşahı məğlub etdi (61, 85).

Doktor Əbdülhüseyn Zərrinkub, o dövrdə Gəncə şəhərinin mövqeyi və onun mübariz övladlarının gedən proseslərdəki rolu haqqında yazır: "Gəncədə hətta monqolların Aran rayonlarına hücumu, Gəncə qazilərinin dəfələrlə gürcü yürüşlərinə qarşı göstərdiyi rəşadətlə qarşılaşdı. Nəticədə, monqolların şəhərə bir neçə hücumu nəticəsiz qaldı. Onlar Beyləqanı dəfələrlə dağıdandan sonra Gəncəyə hücum etməkdən çəkindilər və cüzi bir xərac almaqla oradan uzaqlaşdılar... " (92, 300).

Cəlaləddin Xarəzmşah Diyarbəkirə qədər gedə bildi. O, İsfahana yürüş etmək istəyirdi. Lakin onu təqib edən monqollar burada ona yetişdilər. Cəlaləddin dağlara qaçmağa məcbur oldu. Burada qarətçiliklə məşğul olan bir kürdün xəncərinə tuş gəldi, bununla da, həyatı acı və şərəfsiz bir şəkildə sona yetdi (197, 39).

Cəlaləddin kimi bir təhlükəli düşməndən qurtaran monqollar, maneəsiz olaraq, Azərbaycan, Aran, Ermənistan, Gürcüstan, Əlcəzirə və İraqı çapıb-taladılar. Bu regionların, qədimdən əmirlərin rəqabətləri, Cəlaləddinin zülmü ilə üzləşmiş əhalisi bir daha monqolların qətl və qarətlərini yaşadı. Monqollar Bağdadın ətraflarına və Anadolunun içərilərinə qədər getdilər (131, 142).

Nəticədə, monqollar Azərbaycanı, o cümlədən də, Qarabağı işğal etdilər, əhalinin başına olmazın müsibətlər açdılar, yüz minlərlə insanı qətlə yetirdilər, ya da əsir götürdülər. Tarixçi Cuveyninin yazdığına görə, yüz minlərlə insanın yaşadığı yerlərdə heç yüz nəfər də qalmamışdı (61, 87).

XIX əsr tarixçisi yazır ki, monqol hücumlarının nəticəsində incəsənət əsərləri, zəngin kitabxanalar, kənd təsərrüfatı və abadlıq, saraylar və məscidlərin hamısı yerlə yeksan oldu. Beyləqan, Gəncə və Şamaxı kimi şəhərlər xarabalığa çevrildi. Əlkənin ən münasib əraziləri monqolların əlinə keçdi və otlağa çevrildi, suvarma sistemi dağıdıldı. Xalq, dövlətə və feodallara 20-yə yaxın vergi ödəməyə məcbur edilirdi. Əhali vergi yığanları "zəli" adlandırırdı. Onlar vergi ödəyə bilməyənlərin paltarlarını belə soyundurub götürür, oğlan və qızlarını belə əllərindən alıb aparırdılar. Kəndliləri yol çəkilişi, saray inşaatı və qalaların salınması işlərində işlədirdilər. Belə icbari işlərə beygəri deyirdilər.

Özbaşınalıq və talançılıq o dərəcəyə çatmışdı ki, bir çoxları ev-eşiyini tərk edir və başqa yerlərə köçməyə məcbur olurdular. Kənd və şəhərlər boşalırdı. Şəhər əhalisi, vergi məmurlarının gözünə görünməməkdən ötrü qapılarını qıfıllayır, bacalardan girib-çıxırdılar. Vergi məmurları, xainlərin və satqınların köməyi ilə zirzəmilərdə, bağ və viranəliklərdə gizlənmiş insanları tapırdılar. Onlar kişiləri tapmayanda qadınlara əziyyət verirdilər. Qadınların ahnaləsi və fəryadları göylərə yüksəlirdi.

XIII əsrin 70-ci illərində Azərbaycan və Gürcüstanda monqollar əleyhinə üsyanlar alovlandı. Monqol işğalçıları Aran, Şirvan və Təbrizdə üsyançıları qan içində boğdular.

Monqolların ağılalmaz zülmü kəndliləri və sənətkarları öz evlərini tərk edərək, dağlara, çöllərə və səhralara getməyə məcbur edirdi. Buna görə də, dövlət xəzinəsi günügündən boşalırdı.

# QARABAĞ ELXANİLƏR DÖVRÜNDƏ

Elxanilər dövründə Təbriz və Marağa mərkəz olsa da, Qarabağ öz hərbi-strateji əhəmiyyətini qoruyub saxlayırdı. Bu dövrdə Qarabağ termini Aran terminini əvəz edirdi.

Elxanilərin hökmdarları Qarabağdan qışlaq kimi istifadə edirdilər. Ona görə də bu dövrün bir çox hadisələri məhz Qarabağda baş vermişdir. Qazan xan Qarabağda taxta çıxmışdı. Ulcaytu burada islamın şiə məzhəbini qəbul etmişdi. Arqun və Əbu Səid Bahadur Qarabağda dünyalarını dəyişmişlər.

Rene Qruse yazır ki, İran monqollar tərəfindən işğal ediləndən, Cəlaləddin Xarəzmşah 1231-ci ildə öldürüləndən və Xarəzmşahlar dövlətinə son qoyulandan sonra regionda müvəqqəti bir sistem yarandı. Monqol əmirləri qərbdə aşağı Kür və Araz çayları sahillərində, Aran və Muğanın çəmənliklərində düşərgə salmışdılar və külli ixtiyar sahibi sərkərdələrinin idarəçiliyində idilər. Monqollar İranı ələ keçirəndən sonra 20 il müddətində belə bir fikirdə idilər ki, Aran və Muğanda əsgəri və hərbi, Xorasan və Əcəm İraqında isə mülki və maliyyə (vergi) hökuməti yaratsınlar. Bu iki hökumətə uyğun olaraq əzəmətli və vahid bir siyasi strategiya qurulmalı idi. Monqolların 1251-ci ildə keçirilən böyük qurultayında Böyük xan Mənqu Qaan qərar qəbul etdi ki, kiçik qardaşı Hülaku xanı İranın naibüssəltənəsi etsin. Bu qərar təsdiq ediləndən sonra Mənqu Qaan Hülakiyə göstəriş verdu ki, hələ də İranda qalmaqda olan 2 mənəvi və 2 ruhani gücü sıradan çıxarsın. Onlardan birincisi İsmailiyyə

məzhəbinin Mazəndaranı işğalı və gücü, ikincisi isə Bağdaddakı Abbasilər xilafətinin məhv edilməsi və Şamın işğalı idi.

İsmaililərin işini bitirəndən sonra Hülaku xan, islamın mənəvi rəhbəri və dini lideri, eləcə də, ərəb İraqında konkret dövlət mirasının sahibi olan Abbasi xəlifələri ilə məşğul olmağa girişdi...

Bağdad şəhəri alınandan və xilafətə son veriləndən sonra Hülaku xan Həmədan yolu ilə Azərbaycana yollandı. O da özündən əvvəl İranda hökmranlıq etmiş monqol sərdarları Çurmagun və Baycu kimi, Azərbaycanın şimalını öz sülaləsinin iqamətgahı, Təbriz və Marağanı isə paytaxt olaraq seçdi. Muğan və Aran isə Hülaku və canişinlərinin qış iqamətgahı oldu. Onun atlarını otarmaq üçün bu regionlara gətirirdilər. Yayda Hülaku sülaləsinin şahzadələri Ağrı dağı silsiləsinin Aladağ dağlarına tərəf yollanardılar (10, 565-575-585).

Hülaku xan, İranın qalan ərazilərini və Şamı ələ keçirəndən sonra ölkənin işləri ilə məşğul olmaq və şəxsi düşmənlərini aradan götürmək fikrinə düşdü. Belə düşmənlərdən biri Cucinin Qıpçaqda səltənət qurmuş oğlu Bərkay idi. Bərkay qardaşı Batının göstərişi ilə Mənqu Qaanın xan dərəcəsinə çatmaq istəyirdi və özünü Hülakudan üstün sayır və ona hökm etməyə cəhd edirdi. Hülakunun və Bərkayın arasındakı rəqabət, axır ki, onların bir-biri ilə müharibəsi ilə nəticələndi. Belə ki, Bərkay 30 minlik bir ordunu Hülakuya qarşı savaşmaqdan ötrü İrana göndərdi. Bu ordu Dərbənddən keçərək, Şirvana yetişdi. Hülaku da öz ordusu ilə Şamaxıya gəldi. O, Bərkayın ordusunu məğlub etdikdən sonra Dərbəndə tərəf hərəkət etdi. Oğlu Abaqa xanı Bərkayın

hakimiyyətində olan regionlara göndərdi. Abaqa xanın qoşunu qarşılarına çıxan ev və mülkləri qarət etdilər. Lakin Bərkay ordusunu toparladı və Abaqa xanın ordusunu məğlub etdi. Abaqa xan Dağıstana qayıtdı. Hülaku xan bu məğlubiyyətin qisasını almaqdan ötrü Təbrizə gəldi. Onun fikri burada lazımi tədarük görüb, növbəti ildə Bərkayın üzərinə yürüş etmək idi. Lakin bu arada Qubilay Qaan monqol xanı taxtına çıxdı və Ceyhun çayından tutmuş Şam və Misir daxil Hülaku xanın ixtiyarına verildi.

Hülaku xan da ona verilən əraziləri özünə sədaqətli və müti olan qardaşları və əmirləri arasında bölüşdürdü. Belə ki, İraq, Xorasan və Mazəndaran böyük oğlu Abaqan xana, Aran və Azərbaycan Yəşmuta, Rum ölkələri, əvvəllər Kiçik Asiya Səlcuqlarının vəziri və monqollara sədaqətli olmuş Müəyyənüddövlə Pərvanəyə, Kirman Türkan xatuna, Farsı Əmir Ənkiyanuya, Adanı isə əmirlərdən birinə verdi.

Hülakunun ölümündən sonra onun xristian arvadı Doqquz xatun, erməni Vartan Caslıqla məsləhətləşəndən sonra, Xorasan və Mazəndaranda hakim olan oğlu Abaqa xanı Hülakunun canişinliyinə namizəd verdi və təcili bu arada Aranda qışı keçirən Abaqa xanın yanına bir qasid göndərərək, onu bu barədə xəbərdar etdi və yanına çağırdı. Bu arada Dərbənddə olan Yeşmut xan da atasının ölümünün 7-ci günündə gəlib yetişdi. Yasdan sonra Hülaku imperiyasının əmirləri və başbilənləri toplandılar və Abaqa xanı rəsmən Hülaku xanın canişini seçdilər. Ancaq oğlunun taxta çıxmasından 3 gün qabaq Doqquz xatun dünyasını dəyişdi və Abaqa xanın taxta çıxma mərasimində iştirak edə bilmədi. Abaqa xan taxta çıxan kimi Yəşmut xanın

Arandakı hakimiyyətini təsdiqlədi. Məhzəbüddövlə Mənsur Yəhudi hökumət işində onunla həmkarlıq edirdi.

Bu minvalla, Abaqa xanın hakimiyyətə gəlməsi ilə İlxanilərin idarəçilik dövrü başlayır. Abaqa xan Təbriz şəhərini paytaxt olaraq seçir. Qışda Aran, Bağdad və Cığatu kənarında qışlaq qurar, yayı isə Aladağda, Qaradağda keçirərdi. Təbriz şəhəri onun paytaxtı, Şəmsəddin divan sahibi (baş nazir) olandan sonra bu şəhər güclü inkişaf etməyə başlayır, İranın və Mavərənnəhrin digər şəhərləri kimi ziyan görmür və qarətə məruz qalmır (130, 197-200-202).

İlxanilər özlərini İranın şahı hesab etdiklərindən, ölkənin sərhədlərini qorumağa çalışırdılar. Bunu İranın xatirinə etmirdilər. Özlərinin mənafeyi də bunu tələb edirdi. Qədimdən Mərkəzi Asiyanın və Türküstanın xalqları İranın şərqinə yürüşlər edirdilər. Hətta o dövrdə-Ceyhun çayının hər iki tərəfində monqol xanlarının hakimiyyətləri zamanında da Şərqdən gələn təhlükə davam edirdi. Həm də bu üzdən monqollar Azərbaycanı və Aranı öz imperiyalarının mərkəzinə çevirmişdilər. Monqollardan sonra Səfəvilər də hərəkətlilik siyasətlərini davam etdirirdilər. Rusiya da XIX əsrdə çalışırdı ki, bu regionu işğal etsin və bunu bacardı da. Bu baxımdan, XIV əsrin əvvəllərindən başlayaraq, bu regionda ticarət rəqabəti də böyük əhəmiyyət daşıyırdı. Bu, Qıpçaq səhrasının xanını vadar edirdi ki, o, iranlıların Qara dənizə çıxışının qarşısını alsın və sonda istədiyinə nail oldu (197).

Abaqa xan öləndən sonra onun yerinə keçən qardaşı Təkudar islamı qəbul etdi, Əhməd adını götürdü və müsəlmanları himayə edəcəyinə söz verdi. Bu, monqol xanlarını ona qarşı qaldırdı. Onlar Abaqa xanın oğlu, Tekudarın qardaşı oğlunun ətrafında birləşdilər, Tekudarı məğlub etdilər.

Tekudar aradan çıxsa da, tutuldu və edam olundu. Arqun xan seçilərək, taxta çıxdı.

Sultan Əhməd Xorasan, İraq, Aran və Azərbaycanı müstəqil bir şəkildə, Rum ölkələrini isə Səlcuqlularla birlikdə Xacə Şəmsəddinə, Diyarbəkir, Mosul və Ərbili onun oğlu Xacə Haruna, Bağdadı Kəmafi əs-Sabeq Ətamülkə verdi (130 Abbas İq, 220).

Sultan Əhməd öldürüldükdən sonra Ərqun xan, ondan sonra Keyxatu xan və ondan sonra Baydu xan İlxanilərin hökmdarı oldular. Onların hakimiyyətləri dövründə Təbriz paytaxt olaraq qalmaqda davam edirdi. Aran (indiki Qarabağ) isə onların qışlağı hesab olunurdu. Əmir Nurin Dərbəndin mühafizəsindən ötrü 1294-cü ildə Arana göndərilir.

Aran həm də ordu mərkəzi olduğuna görə, hakim daha çox orada yaşayırdı. Qaanın daimi nümayəndəsi Çinq Sanq Polad, İran dərbarında-Arandakı Mənsuriyyədə otururdu. Onun bir neçə katibi və məmuru vardı (197, 269).

Arqun xan 1289-1290-cı ili Aranda keçirdi. Yazda isə Zərrinin ordusu ilə müxtəsər bir döyüşü oldu. 1290-cı ildə o, qorxulu bir xəstəliyə düçar oldu, ancaq bir müsəlman (bəlkə də, yəhudi) həkimin köməyi ilə bir az yaxşılaşdı. Bəziləri onun artıq xroniki olmuş xəstəliyini göz yarası kimi dəyərləndirir və sağalması üçün sədəqə verilməsini tövsiyyə edirdilər. Ancaq cadugər və şamanlar onun xəstəliyini sehr və cadu ilə əlaqələndirirdilər və xatunlarından biri, ona verilən işgəncə nəticəsində, etiraf etdi ki, xaqana məhəbbət dərmanı içirtmişdir. Buna görə onu və Arqun xanın bütün arvadlarını Kür çayına atdılar. Arqun xan 1291-ci il mart ayının 10-da şənbə günü Arandakı iqamətgahlarından birinin bağçasında dünyasını dəyişdi. O, təqribən,

1258-ci ildə anadan olmuşdu və öləndə 30 yaşı vardı. Maraqlı burasıdır ki, o, ömrünü uzatmaq üçün tədbirlər görməsəydi, atası Abaqa xandan və oğlu Qazan xandan çox yaşayardı.

Arqun xan son İlxani hökmdarı idi ki, gizli dəfn ənənəsinə uyğun olaraq, onu Səcas[51] yaxınlığındakı bir dağın kənarında basdırmışlar. Onu gizlin basdırdılar və qəbrini itirdilər. Onun qəbrini ziyarət etmək qadağan edildi. Ancaq 5 il sonra qızı Olcay onun qəbrinin yerləşdiyi ərazidə dərvişlər üçün xanəgah tikdirdi və qoyulmuş qadağa aradan götürüldü (62, 349).

Qazan xan Baydu xanı Oucanda qətlə yetirdi və böyük cah-cəlalla Təbrizə girərək, Hülakunun taxt-tacının varisi oldu. Taxta çıxdığı gün verdiyi ilk fərmanla monqolların islam dinini qəbul etməsi, dini ayinlərin icrası, ədalətə riayət olunmasının vacibliyini, əmir və böyüklərin öz tabeliklərindəkilərə zülm etmələrinin qadağan edilməsini elan etdi.

Beləliklə də, Qazan xanın taxta çıxmasından İran İlxanilər sülaləsinin sonuna qədər dövlətin rəsmi dini, islam şəriəti və qaydalarına uyğun olaraq həyata keçirildi. Bununla da, İran İlxanilərinin Xanbalıqdakı (Pekin) Qaana itaətinə sön verildi, Xanbalıqla İlxani sarayı arasındakı rabitə tədricən kəsildi.

Qazan xan Təbrizdə az bir müddət qaldıqdan sonra Qarabağa getdi və orada qurultay keçirdi. Şahzadələrdən və

---

[51] Səcas-Sultaniyyənin 5 fərsəx qərbində yerləşirdi. Onun ətrafındakı 100-dən artıq yaşayış məskənində monqollar yerləşdirilmişdi (Lestrenc. 241).

monqol xanlarından hakimlər təyin etdi və təkrar olaraq tac-qoyma mərasimi keçirdi, sultan adını götürdü və monqol adətinə uyğun olaraq, böyük ziyafət verdi (131 Abbas, 259).

Qazan xanın Misirə göndərdiyi elçilər geri döndülər və Qarabağda onun hüzuruna yetişdilər və Sultana 2 müraciət gətirdilər. Misir tarixçiləri hər 2 müraciətin tərcüməsini əsərlərində vermişlər. Müraciətlərdə Qazan xanın hücumlarına qarşı eyham vurulsa da, sonda barışıq məramlı sülh və birlik təklif olunurdu.

Bu arada Qazan xan ov etmək məqsədi ilə Qarabağdan Şirvan və  Ləzgistana, yəni Qafqaz dağlarının cənub-şərq yüksəkliklərinə, oradan isə Muğanın Qavbari çölünə gedir. Burada quş ovlayır və balıq tutur. Sonra özünün türkcə Quş darvazası adlandırdığı məntəqəyə yollanır. Quş darvazası Dunçidən (köhnə Bərməki) cənubda yerləşən dar sahil zolağıdır (62, 366).

Qazan xan bir sıra ərazi islahatları da həyata keçirdi. Bu islahatlara görə, kəndlilər torpağa təhkim edildilər. Bəzi muzdurluqlar ləğv olundu. Bu islahatlar vəziyyəti az-çox dərəcədə qaydaya saldı, sənətkarlıq, daxili və xarici ticarət canlandı, ticarət əlaqələri və karvan yollarının vəziyyəti yaxşılaşdı. Təbriz sənət və ticarət mərkəzi oldu, o qədər inkişaf etdi və rövnəqləndi ki, Avropa səyyahlarının, o cümlədən də, Marko Polonu heyrətləndirdi. Marağa, Dərbənd və Gəncə də mühüm sənət və ticarət mərkəzlərinə çevrildilər. Əvvəllər viran edilmiş Gəncə şəhəri Oktayın fərmanı ilə yenidən bərpa edildi (197, 446).

Qazan xan tərəfindən yeni şəhərlər də salındı. Onlardan biri Muğandakı Mahmudabad idi.

Bütün bunlara baxmayaraq, XIII-XIV əsrlərdə xarici işğalçıların təcavüzləri və hücumları, daimi müharibələr nəticəsində Azərbaycanın bəzi şəhərləri ya bütövlükdə yer üzündən silindilər, ya da öz əvvəlki əhəmiyyətlərini itirdilər, kiçik şəhərlərə, yaxud da kəndlərə çevrildilər. Məsələn, monqollar tərəfindən dağıdılan Beyləqan biyabana döndü, Bacrəvan, Barzənd və Biləsuvar isə kəndə çevrildi. Ticarət və sənətkarlıq şəhəri olan Qəbələ öz əvvəlki əhəmiyyətini xeyli dərəcədə itirdi (61, 88).

Qazan xan böyük binalar, saraylar və qalalar tikdirdi, qanunları mükəmməlləşdirməyə çalışdı. Onun ordusu, Dərbənd tərəfdən hücum edən Qıpçaq çölünün xanı Təğtəğanın qoşununu asanlıqla məğlub etdi. Bu arada bəzi ləzgi əmirləri də aradan götürüldü. Ancaq bu arada Təğtəğa tərəfindən göndərilmiş və İsa Gürganın rəhbərlik etdiyi 325 nəfərlik bir heyət Qazan xanın sarayına gəldi. Onlar Qafqazın Təğtəğa xana verilməsini istədilər. Hərbi təhlükəyə baxmayaraq, Qazan xan özünü itirmədi, Qıpçaq xanının bu təklifinə istehza etdi və gələnləri pərt elədi. Bu tələb Olcaytu xanın zamanında bir daha təkrarlandı. Ancaq Qazan xanın vaxtilə Aranda qurduğu istehkamlar Qıpçaq xanının Qafqaza qoşun çəkməsinə mane oldu. Qeyd edilməlidir ki, 1313-cü ildə Fəxrəddin Əhməd Təbrizi, Aran və Azərbaycanın hakimi olur. 1314-cü ildə isə Əmir Cavanbəxt Dərbəndin mühafizəsi üçün Şirvan və Arana ezam olunur.

Qazan xanın qəfil ölümü onun islahatlarının sona çatmasına imkan vermir. O, ölüm ayağında vəsiyyət edir ki, vergi sistemi qorunmalıdır. Onun yerinə gələn qardaşı Olcaytu xan elan edir ki, Qazan xanın bütün proqramları davam etdiriləcəkdir. Olcaytu kəndləri tərk etməmək barədə

fərman versə də, onu icra etmək mümkün olmadı və tezliklə nizamsızlıq özünü göstərdi. Bu şəraitdə vergi gəlirləri sürətlə azalmağa başladı və monqolların hücumundan əvvəlkindən çox daha aşağıya düşdü. Əbu Səidin ölümündən sonra baş vermiş hadisələr bu prosesi daha da sürətləndirdi. 1335/1336-cı ildə Aran və Muğandan yığılan vergi cəmi 303 min dinar təşkil etmişdi, halbuki bu rəqəm Məlik şahın zamanında 3 milyon dinar idi (97, 106).

Qazan xan şiəliyə üstünlük verir və Beynülnəhrdəki şiə ziyrətgahlarına gedirdi. Hətta basdırdığı sikkələrdə şiəliyin elementləri yer alırdı. Olcaytu, əslində, xristian, olsa da, dəfələrlə buddizmi, sonda isə islamı qəbul etmişdi. Ancaq o, islamı qəbul etdikdən sonra da əvvəl hənəfi, sonra şafei məzhəbini götürmüş, ən sonda Qarabağda şiəliyi qəbul etmişdi (62, 515).

Sultan Məhəmməd Olcaytu şiəliyi qəbul etdikdən sonra şiələr ona Xudabəndə ləqəbi verdilər. Ancaq sünnilər ona qarşı olan kin və düşmənçilikləri üzündən Olçaytunu gizlicə Xərbənde adlandırırdılar. Bu səbəbdən də qədim kitablarda hər iki ləqəbə rast gəlinir (131, 523).

Şəmsəddin Kaşaninin tarixə dair nəzmlə yazdığı əsərdə də Olcaytu Xərbəndə ləqəbi ilə təqdim olunur (174, 527).

Olcaytu şiəliyi 1307-ci ilin qışında Qarabağın heyrətamiz mənzərəli bir yerində qəbul etdiyi üçün, məhz bu vaxtdan etibarən Qarabağda şiəlik yayılmağa başlamışdır. Ancaq onun dinlə bağlı qərarları başqa regionlarda xoş qarşılanmırdı.

İbn Bətutə "Səfərnamə"sində, Sultan Olcaytunun 3 xəlifənin adının islam tarixindən silinməsi fərmanının icrası-

na qarşı Bağdad, İsfəhan və Şiraz camaatının müxalif olması ilə bağlı yazir ki, fərmanın icraçıları ilk olaraq əhalisi sünni məzhəbli və Hənbəli tərəfdarı olan Bağdad şəhərinin "Bab ol-əzac" məhəlləsinə çatanda Xudabəndənin əmrlərini qəbul etməkdən imtina etdilər. Onlar cümə günü əldə silah Cümə məscidinə toplandılar. Xətib məscidin minbərinə çıxanda təqribən 12 min nəfərdən ibarət silahlılar xətibin yanında and içdilər ki, əgər o, xəlifələrin sayını artırsa, yaxud azaltsa, onu və Sultanın göndərdiyi nümayəndələri öldürəcəklər. Xətib, canının qorxusundan öz xütbəsini adi qaydada etdi. Şiraz və İsfahanda da əhali bu cür hərəkət etdi. Sultanın adamları bunu ona çatdırdılar. Sultan əmr etdi ki, Bağdad, Şiraz və İsfahanın qazilərini onun hüzuruna gətirsinlər. Biri Şiraz qazisi Mücədəddin olmaqla hər 3 şəhərin qazisini Qarabağa-Sultanın yanına gətirdilər. Sultan əmr etdi ki, onları iri cüssəli yırtıcı itlərin qabağına atsınlar (174, 527).

Sultan Məhəmməd Xudabəndin hakimiyyəti zamanı baş verən hadisələrdən biri də onun iki vəziri arasında paxıllıq üzündən yaranan düşmənçilik və bu üzdən işlərin axsaması oldu. Olcaytu bu vəziyyəti aradan qaldırmaqdan ötrü ölkəni iki yerə ayırdı. Əcəm İraqı, Xuzistan, Loristan, Fars və Kirmanın idarəçiliyini vəzir Rəşidəddinə, Ərəb İraqı, Diyarbəkir, Aran və Rum məmləkətlərinin idarəçiliyini isə vəzir Əli şaha verdi. Ancaq Əli şah Sultandan xahiş etdi ki, onların hər ikisini də bütün ölkənin idarəsinə şərik etsin və hökm və fərmanların altında hər ikisinin imzası olsun. Olcaytu 1315/1316-cı ildə Əli şah və Rəşidəddini ölkənin idarəçiliyində ortaq etdi ki, birlikdə məsrəflərə qənaət etsinlər (131, 322).

1316/1317-ci ildə, demək olar ki, sonuncu böyük ilxan olan Sultan əbu Səid Bahadur halimiyyətə gəldi. 1335-ci ilin yayında səs yayıldı ki, Qıpçaq çölünün əmiri Özbək yenidən İlxanilərə hücum etməyə hazırlaşır. Bağdad, Diyarbəkir qoşunları Arana göndərildi. Onlar Ağsu çayının ətrafında düşərgə saldılar. Onların ardınca Əbu Səid də ora gəldi. O, 1335-ci ilin 30 noyabrında Qarabağda vəfat etdi. Onun ölümü zəhərlənməyə bənzəyirdi, ancaq keçmişdə bir neçə dəfə yoluxucu xəstəliklər keçirmişdi. İbn Bətutənin verdiyi məlumata görə, onu həyat yoldaşı Bağdad xatun, özündən gənc günübacısı Dilşad xatuna həsəd apardığı üçün zəhərləmişdi. Dilşad xatun onun qardaşı Dəməşq Xacənin qızı və sonralar Şeyx Həsən Bozorgun zövcəsi və onun oğlu və canişini Şeyx Üveysin anası idi (62, 386).

Əbu Səidin övladı olmurdu, ona görə də Hülaki xanın qardaşı Əriq Buğanın oğlanlarından biri-Arpa xan ilxan seçildi. Ancaq tezliklə bu vəzfədən azad edildi və Baydu xanın oğlanlarından Musa xan onu əvəz etdi. Şeyx Bozorg, Çobanilər sülaləsinin rəqibi olduğuna görə, Musa xanın ilxanlığını (şahlığını) qəbul etmədi. O, əvvəl Əbu Səidin bacısı və Əmir Çobanın zövcəsi Satıbəyimi ilxan elan etdi. Sonra Satıbəyimi Süleyman adlı şəxsə ərə verərək, Süleymanı ilxan elən elədi. Son Kiçik ilxani Ənuşirəvan Adil 1355/1356-cı ildə öldü (56, 25).

XIII-XIV əsrlərin ən gözəl memarlıq əsərləri hələ də Azərbaycanda qalmaqdadır. Təbrizin Böyük Ərki, Bakı ətrafında Abşeronun Mərdəkan, Ramana və Nardaran yaşayış məskənlərindəki müşahidə qüllələri buna misaldır.

XIII əsrin sonlarında və XIV əsrdə elm və mədəniyyət sahəsində də diqqətəlayiq inkişaf gözə çarpırdı. İzəddin

Həsənoğlunun şeirləri, Azərbaycan türkcəsinin gözəl əsərləri sayılırdı. 1259-cu ildə banisi Xacə Nəsrəddin Tusi olan məşhur Marağa rəsədxanası tikildi.

Bu dövrdə Təbrizdə "Rəbi-Rəşidi" təsis edildi. Onun tərkibində kitabxana, rəsədxana, tibbi və mədəniyyət mərkəzləri, bir neçə mədrəsə vardı. Tanınmış tarixçi Xacə Rəşidəddin Fəzlullah bu böyük kompleksin yaradıcısı idi.

Bu dövrdə incəsənət və musiqi də tərəqqi edirdi. Urmiyanın adlı-sanlı musiqiçisi Səfiəddin Əbdülmömin bir neçə gözəl muğam yaratmışdır.

Məşhur filosof Şeyx Mahmud Şəbüstəri və tanınmış riyaziyyatçı Əbid Təbrizi bu dövrdə yaşayıb-yaratmışlar (17, 73).

Bu dövrün alimlərindən biri də Şəmsəddin Əbdülkafi əl-Əbid əl-Təbrizi olmuşdur. O, ensiklopedik elm və fəzilət sahibi olmuş, 1307-ci ildə vəfat etmiş və Təbrizdə dəfn edilmişdir (158, 269).

Sözügedən dövrdə məşhur alim Məhəmməd Naxçıvani 14 min Azərbaycan sözünü özünün Fars-Azərbaycan-ərəb lüğətində şərh etmişdir.

# QARABAĞ ƏL-CƏLAİRLƏR VƏ ÇOBANİLƏR DÖVRÜNDƏ

Abbas İqbala görə, Çingiz xan Monqolun İrana hücumu, qırğınlar, talan və dağıntılarla müşayiət edilsə də, ölkələr tutmaq və qoşun çəkmək baxımından lazım olan xüsusiyyətlərdən əlavə, 2 cür üstünlüyə malik idi; əvvəla, ölkəni daha yaxşı idarə etmək, ədalət, qanun, qayda və müəyyən normaları gözləmək, ikincisi, dini təəssüb hissindən uzaq olmaq. Bu üstünlüklər ona səbəb oldu ki, Çingiz xan dövləti, qurucusunun ölümündən sonra da uzun müddət yaşadı; övladları, Böyük okeandan tutmuş Aralıq dənizi sahillərinə qədər onun fəth etdiyi geniş ərazilərdə qayda-qanunla bir əsrə qədər hökmranlıq etdilər (131, 638).

Kembric Universitetinin tədqiqatçılarının fikirlərinə görə, Teymurun özü, damarlarında əsil türk qanı axmasına və türk irqindən olmasına baxmayaraq, bütün ömrü boyu, hətta bütün dünyada ən güclü hökmdar sayıldığı günlərdə belə, monqollarla münasibətə və onlarla qohumluq əlaqələrinə həddən artıq əhəmiyyət verirdi. Bu məsələ Çingiz xan və onun varislərinin, hətta İlxanilər imperatorluğunun süqutundan xeyli vaxtlar sonra belə qazandıqları yüksək ehtiram və diqqətin aşkar əlamətidir (63, 11-12).

Yuxarıda qeyd olunan səbəblərə görə, Amerikanın "Vaşinqton Post" qəzeti II minilliyin bitməsini gözləmədən, Çingiz xana "II Minilliyin şəxsiyyəti" adını verdi. Adıgedən qəzet hesab edir ki, Çingiz xan insan mədəniyyəti və vəhşiliyinin iki həqiqi çöhrəsinin təcəssümüdür (162, 2).

Çingiz xanın İranda İlxanilər kimi tanınan və hakimiyyətlərinin mərkəzi Azərbaycan olan canişinləri bir müddətdən sonra islam dinini qəbul edərək və yerli adət-ənənə, qaydalar və mədəniyyəti mənimsəyərək, zamanın ən böyük sahibi və ağası oldular və böyük xidmətlər göstərdilər. Ancaq bu sülalənin hakimləri də, digər qüdrət sahibləri kimi, sonunda özündən müştəbehlik və əyyaşlıq üzündən çökdülər və süqut etdilər. Əbu Səiddən sonra hakimiyyətə gələn bir neçə ilxaninin taleyi bu həqiqətin göstəricisidir. Belə ki, Əbu Səidin ölümündən sonra İranın siyasi tarixi, əslində, səltənət iddiaçılarının, onların qalibiyyət və məğlubiyyətlərinin həyat hesabatıdır. Bununla da, İlxanlar bir-birindən ayrı düşdülər və hər biri fərdi tale paylarını yaşadılar (41, 134).

İranda İlxani imperatorluğunun sona çatması belə bir fitrətlə nəticələndi ki, güc ünsürü zəiflədi və dövlət daxilində müxtəlif qüvvələr meydana çıxdı. Bu zamandan başlayaraq, İran Teymurun yürüşlərinə qədər bir-biri ilə rəqabət aparan ayrı-ayrı kiçik əmirliklər tərəfindən idarə olunurdu. Onların arasında yalnız Bağdadda hakimiyyətdə olan və Azərbaycanı fəth edən əl-Cəlairlər İran tarixində xüsusi əhəmiyyət kəsb etdilər (63, 11-12).

"Cəlair" sözü böyük və önəmli monqol qəbilələrindən birinin adından gəlir. Bu sülalənin hakimiyyəti Şeyx Həsən Bozorgun Bağdadda 1340-cı ildə idarəçiliyi ələ alması ilə başlamış və Hillənin mühasirəsində II Hüseynin ölümü ilə sona çatmışdır. Bu sülalənin bir çox nümayəndələri ilka və ya ilkaniyan da adlanır. İlka adı, Şeyx Həsənin ənkə babası İlgə (İlka) Noyandan gəlir. İlkə Noyan, Hülaki xanın Mərkəzi Asiyanın və Yaxın Şərqin fəthində önəmli rol oynamış

sərkərdələrindən biri olmuşdur. Onun oğlanları da İlxani imperatorluğunun hərbi rəhbərliyində əhəmiyyətli məqamlara sahib olmuşlar. Hətta onlardan bir neçəsi Hülaki xanədanından olan qızlarla evlənmişlər. Bu baxımdan İlqanın nəvəsi Hüseyn, ilxan Arqunun qızı Ulctayla izdivac etmişdir. Bu izdivacdan olan Şeyx Həsən Calairlər silsiləsinin banisi olmuşdur.

Şeyx Həsən Bozorg Əbu Səidin, eləcə də, Arpaqavanın zamanında ən böyük məqama-ulusbəyi və canişin vəzifəsinə yüksəlmişdir. O, İranda monqolların son dövründə baş vermiş hakimiyyət uğrunda gedən davamlı keşməkeşlərdə dəfələrlə Al-Çoban və xüsusən, Şeyx Həsən Kiçiklə döyüşmüş və onun ölümündən sonra 1343-cü ildə qardaşı Əşrəflə birlikdə geri çəkilməyə məcbur olmuşdur. Əgər biz məsələlərə yeni baxışla nəzər yetirsək, görərik ki, onun məqsədi daha çox İlxanilər imperatorluğunu yenidən qurmaq idi. Əslində, o, müəyyən dərəcədə buna nail olmuşdur. Şeyx Həsən Bozorg Ulusbəyi adından başqa bir ad götürməmişdir. Ulus monqol dilində dövlət deməkdir, bəy isə türk dilində əmir mənasını ehtiva edir. Şeyx Həsən Bozorg, bir neçə Çingiz xanını (Toğa Teymur, Cahan Teymur və Süleyman) da rəsmi olaraq tanımış, 1346-1356-cı illərdə hakimiyyətdə olmuşdur. Diqqətəlayiq cəhət budur ki, o, elə bir qarışıq dövrdə ölümünə qədər öz hakimiyyətini qoruyub saxlaya bilmişdir. İbn Bəzzaz heyranlıqla yazır: "Hazırda onun məqamına, mövqeyinə və yaşına uyğun bir şəxs yoxdur". Şiə məzhəbli Şeyx Həsən Bozorgun sünni məzhəbli Al-Çobanla müqayisəsi, ondan 22 il əvvəl dünyasını dəyişmiş böyük arif Şeyx Səfiəddinin də təsbit etdiyi kimi, təbii üsulla baş verir (63, 15).

Əslində, Əbu Səidin ölümü ilə Hülaki xanədanı sarsıldı. Çingiz xanın ailəsinin başqa qolundan olan Tuluyun ən kiçik oğlu Əriq Buğanın nəvəsi Arpaqavon (Arpa) taxta oturduldu. Arpa qədim monqol zümrələrindən idi və özündən sonra iş başına gəlmiş əldəqayırma əmirlərin tam ziddinə olan bir şəxsiyyətə sahib idi. O, həqiqi bir padşah olaraq, özünün güclü və qüdrətli bir əmir kimi göstərmişdir. Onun ilk işlərindən biri Bağdad xatunun qətlinə fərman verməsi idi. Bağdad xatun Zərrinin ordusu ilə danışıq və yazışmada və öz ərini zəhərləməkdə ittiham olunurdu. Arpa qışın soyuğunda Kür çayının kənarında Özbəklə qarşılaşdı, onun ordusunu məğlub edərək, qovmaqla öz qoşunlarına qələbə qazandırdı. Arpa bu qələbə ilə geri döndükdən sonra Əbu Səidin bacısı, Əmir Çobanın dul arvadı Satıbəy xatunla evlənməklə öz mövqeyini möhkəmləndirdi. O, eyni zamanda, öz rəqibləri hesab etdiyi bir neçə Çingiz şahzadəsini öldürtdürdü. Ancaq Bağdadın Uyratı hakimi Əli padşahı unutmuşdu. Əli padşah Baydunun nəvəsi Musanı ilxan edib, Arpanın əleyhinə qiyam qaldırdı. 1336-cı il aprelin 29-da Cəğatuda baş verən döyüşdə Arpa məğlub oldu. Ancaq onu Sultaniyyədən Ucana apardılar. Orada məğlub edilmişlərdən birinin əli ilə öldürüldü. Onun vəziri, Rəşidəddinin oğlu Qiyasəddin, bundan əvvəl Əli padşahın istəyinin əksinə, öldürülmüşdü.

Bu arada Şeyx Həsən Bozorg hakimiyyət uğrunda mübarizədə iştirak edirdi və Mənqu Teymurun nəticələrindən azyaşlı Məhəmmədi ilxanlığa namizəd göstərdi. İki rəqib xan arasında Alatağ regionunda baş verən döyüşdə Şeyx Həsənin qəfil hücumu Musanın məğlubiyyəti və Əli

padşahın ölümü ilə nəticələndi. Həsən, Bağdada tərəf qovulan Musanı təqib edəndən sonra onun təbəələrinə ağır itki verdi və Təbrizə daxil oldu, onu özünə məkan seçdi. Əbu Səidin bacısı, vəfat etmiş ilxandan olan qızını yenicə dünyaya gətirmiş Dilşad xatunla evləndi. Bu sıxıntılı zamanda Xorasanda yaşayan əmirlər Şeyx Həsənə qarşı çıxdılar, Çingiz xanın qardaşı Cuçi Qəssarın nəvələrindən Toğa Teymuru ilxan elan etdilər. Onlar Toğa Teymurun başçılığı ilə Azərbaycanı və Əcəm İraqını fəth etmək üçün yürüşə başladılar; 1337-ci ilin mart ayında Sultaniyyə yetişdilər. Şeyx Həsən belə məsləhət bildi ki, Təbrizi tərk edib Arana getsin... Bu çətinlikdə Aranda Satıbəy xatunla birləşmiş Həsən Kiçik, Əbu Səidin bacısı və babasının dul arvadı Satıbəyi ilxan elan etdi və rəqibini qarşılamağa yollandı. Vəziyyəti belə görən Şeyx Həsən Bozorg, Qəzvinə geri çəkildi. Həsən Kiçiyin qüvvələri Azərbaycanı işğal etdilər. Həsən Bozorg qarşılıqlı həmlə üçün Qəzvindən çıxdı. Ancaq real döyüşə qədər iki rəqib sülh razılığına gəldilər. Həsən Kiçiyin rəqibi və düşməni Həsən Böyük, başqa bir məqamda Həsən Kiçiyə hücum etməkdən ötrü bu fürsətdən istifadə etmək qərarına gəldi. O, Toğa Teymura təklif etdi ki, İraqa gəlib, Əbu Səidin taxt-tacına sahib olsun. Toğa Teymur 1339-cu ilin fevralında Əcəm İraqına gəldi. Həsən Böyük, Makyaveli hiyləsi ilə Toğa Teymuru elə etibarsız bir vəziyyətə saldı ki, ikinci yayın əvvəllərində Xorasana qayıtdı. Bundan sonra Həsən Bozorg, Alafərəngin oğlu, Gixatunun nəvəsini ilxan elan etdi. Həsən Kiçik, rəqibindən geri qalmamaqdan ötrü Satibəy xatunu ilxanilikdən kənarlaşdırdı, Hülakunun üçüncü oğlu Yəşmutun nəvələrindən Süleymanı İlxan taxtına çıxardı və Satıbəy xatunu

zorla onunla evləndirdi. İki Həsən 1340-cı ilin iyununda özlərinin iki rəqib xanları ilə birlikdə Coğatuda üz-üzə gəldilər. Baş verən döyüşdə Həsən Bozorg məğlub oldu və Bağdada qaçdı. Orada Cahan Teymuru istefaya göndərdi və özü müstəqil padşah oldu. Bununla da, Cəlairlər sülaləsinin hakimiyyəti başladı (62, 387).

Əbu Səidin, öz xanədanının kütləvi qırğınından canını qurtarmış Teymur Taşın oğlu, Əmir Çobanın nəvəsi, monqol Şeyx Həsən Kiçik də Təbrizi Şeyx Həsən Cəlairin əlindən aldı. Bununla da, Həsən Kiçik Çobani Azərbaycanın şimal-qərbində və Əcəm İraqında bir səltənət qurdu və 1343-cü ildə onun qətlindən sonra qardaşı Əşrəf onun yerinə keçdi. Bu arada Təbriz şəhəri paytaxt olaraq qalırdı.

Şeyx Həsən Kiçiyin öz arvadı İzzət mələk tərəfindən qətlə yetirilməsi məsələsi elə bir reallıqdır ki, hətta orta əsrlərin həmin dövründə də nadir hadisələrdən biridir. Bu hadisənin xülasəsi belədir: Şeyx Həsən Kiçik 1343/1344-cü ildə qoşun hazırlamış və əmirlərindən biri Yaqub şahın başçılığı ilə onu Şadrumu ələ keçirməyə göndərmişdi. Ancaq bu qoşun məğlub olduğuna görə Həsən Kiçik Yaqub şahı həbs etdirmişdi. Həsən Kiçiyin, Yaqub şahla qeyri-qanuni intim əlaqəsi olan arvadı, ikincinin özünə görə həbs edildiyini və sirrinin tezliklə faş olacağını güman edərək, gecə yarısı ərinin xayalarını sıxaraq, onu qətl etmişdi. Sonralar Şeyx Kiçiyin tərəfdarları şahzadə İzzət mələkəni ələ keçirərək, öldürmüş, bədəninin hissələrini yemişlər. Tanınmış şair Salman Savçı bu faciə ilə bağlı bir neçə beyt yazmışdır. Həmin beytlər bir sıra təzkirələrdə yaşamaqdadır (103, 638).

Şeyx Həsən Kiçik sağlığında Şeyx Həsən Böyük, əmisi Yağıbastı və qardaşı Əşrəf arasında nifaq toxumu səpə bilmişdi. Yağıbastı və Əşrəf qəflətən Şeyx Həsən Bozorgun yanından qaçdılar, Sultaniyyə yaxınlığında Şeyx Həsən Bozorgun ordu düşərgəsinə hücum etdilər və çoxlu qənimət ələ keçirdilər. Sonra İsfəhanı tutdular və bu şəhərdən külli miqdarda bac aldılar. Növbəti addım olaraq məqsəd Şirazı mühasirə etmək idi. O zaman İncu xanədanının təsisçisi Şeyx Cəmaləddin əbu İshaq İncunun oğlu burada hakim idi. Bu arada Şeyx Həsən Kiçiyin qətli xəbəri yetişdi.

Həmin vaxt Qarabağda Hacı Həmzə və Çoban İqtacını özünə vəzir təyin etmiş Sultan Süleyman, Əmir Yaqub şahı məğlub etməyə macal tapmamış, Yağıbastı və Əşrəfdən kömək istədi. Yağıbaşı və Əşrəf təcili Sultaniyyəyə tərəf yola çıxdılar və 1344/1345-ci ilin novruz vaxtı ora yetişdilər. Oradan isə Təbrizə yollandılar. Şeyx Həsən Kiçik tərəfindən Kiçik Asyada zindana atılmış Əmir Soyurqan burada onlara qoşuldu və yüksək səviyyədə qəbul olundu. Ancaq Sultan Süleyman Diyarbəkirə getməyi üstün tutdu. Halbuki, onun vəziri Hacı Həmzə və başqa sərdarları Əşrəfin yanında qaldılar (41, 141).

Çobanın əmirləri iki nəfərdən çox deyildi. Onlardan biri Əmir Teymurtaş bin Əmir Çobanın oğlu Əmir Şeyx Həsən, o biri isə qardaşı öldürülən zaman Farsda olan qardaşı Əmir Əşrəf. Şeyx Həsənin qətl xəbərini eşidən Çoban, Təbrizə gəldi və onun yerinə oturdu. O, Ənuşirəvan Adili ilxan elan etsə də, az sonra onu hakimiyyətdən kənarlaşdırdı və müstəqil ilxan oldu.

Qarabağ kiçik ilxanilər dövründə də hərc-mərclik zamanını yaşamışdı. Onun bir hissəsi İlxanilər tərəfindən idarə olunmuşdu; əslində, İlxanilərin və onların əmirlərinin qışlağı idi və əvvəllər olduğu kimi, Azərbaycanın digər regionları ilə eyni taleni yaşayırdı. Belə ki, 1336/1337-ci ildən 1353/1354-cü ilə qədər Gəncə, Bərdə, Beyləqan, Naxçıvan və hətta Şirvan və Bakıda da, İranın digər şəhərlərindəki kimi, Məhəmməd bin Yul Qutluq, Satıbəy, Süleyman və Ənuşirəvan Adilin adlarına sikkələr istehsal olunmuş və olunurdu (41, 135).

Məlik Əşrəf 1356-cı ilə qədər, yəni 12 il müddətində Azərbaycanda tam zülm, zorakılıq və özbaşınalıqla hakimiyyət etdi... O, öz ərazisini Əcəm İraqı, Azərbaycan, Aran, Muğan, Gürcüstanın bəzi rayonları və Kürdüstan olmaqla, əmirləri arasında bölmüşdü. Onlar yerlərdən topladıqları var-dövləti ona göndərirdilər. Məlik Əşrəf bəzən bununla qane olmur, əlavə vergilər tələb edirdi. O, kiminsə malımülkü olduğunu eşidən zaman onu öz əlinə keçirincəyə qədər rahat olmurdu. Bunun üçün o, şəhərlərə qoşun çəkir, qətl və qarətlər törədirdi. Belə ki, bir neçə dəfə Şirvana qoşun çəksə də, oranın əmirinə bata bilmədiyindən Gürcüstan sərhədinə qədər bütün yaşayış məntəqələrini talamışdı.

1349-cu ildə Məlik Əşrəf İsfahanı ələ keçirmək üçün yola düşdü. Lakin İsfəhan şəhəri müqavimət göstərdi. Qələbə çala bilməyəcəyini anlayan Əşrəf, bununla qənaətlənməli oldu ki, İsfahanda onun adına xütbə oxunsun və pul kəsilsin. Bundan sonra o, Təbrizə döndü, həbsdə olan əmir və xadimləri öldürtdü və Qarabağa qayıtdı.

Əşrəfin zülmü Təbriz əhalisini can gətirmişdi. Şəhərin alimləri və başbilənləri bu zülmə dözməyərək, şəhəri tərk

edirdilər. Onlardan biri-Qazi Məhiəddin Bərdei Qazan şəhərinə-Cani bəyin və Dəşti-Qıpçaqdakı müsəlmanların padşahı, dindar və fəzilətpərvər Özbək xanın yanına getdi və orada vəzlər oxumağa başladı. Bir gün Qazi Məhiəddin Bərdeinin məclisində iştirak edən Cani bəy, onun çıxışından Əşrəfin törətdiyi zülmlər haqqında təsirli məlumat aldı. Cani bəy və məclisdə iştirak edənlər belə qərara gəldilər ki, Əşrəfin zülmünə son qoysunlar. Cani bəy bir ay müddətində ordusunu hazırladı və onu 1356/1357-ci ildə Dərbənd yolu ilə Azərbaycana göndərdi.

Cani bəyin ordusunun yaxınlaşdığını eşidən Məlik Əşrəf, zülm və zorla topladığı var-dövlətini dörd yüz qatır və min dəvəyə yüklədərək, Xoya tərəf yola saldı, özü isə Oucanda düşərgə saldı. Cani bəyin ordusu asanlıqla Əşrəfin düşərgəsini dağıtdı. Əşrəf tələsik öz xəzinəsinin dalıca yola çıxdı. Ancaq Xoyda tutuldu və Təbrizə gətirildi. Şirvanın hakimi və Qazi Məhiəddin Bərdeinin israrı ilə öldürüldü və bütün var-dövlətinə əl qoyuldu. Bununla da, Çobani əmirlərinin hakimiyyətinə son verildi. O dövrün bir şairinin, Əşrəfin malının aqibəti barədə söylədiyi aşağıdakı beyt sonralar zərbülməsələ çevrilmişdir:

*Uzunqulaq Əşrəfin etdiyini gördünmü?*
*O, zülm sahibi, başqası mal sahibi oldu!*

Cani bəy, az sonra oğlu Bərdi bəyi 50 minlik qoşunla Azərbaycanda qoydu və Məlik Əşrəfin oğlu Teymur Taşı və onun qızı Sultan Bəxti özü ilə götürüb Kazana qayıtdı. Ancaq az müddət sonra, atasının xəstəlik xəbərini eşidən Bərdi bəy, Dəşti-Qıpçağa qayıtdı. Onun naibi Əxi Cuğ Təbrizdə qaldı.

Əmir Şeyx Həsən Bozorg 17 il Ərəb İraqında müstəqil şəkildə sultan oldu. 1355/1356-cı ildə onun ölümündən sonra 19 yaşlı oğlu Mözələddin Üveys onun yerinə keçdi. Bu gənc sultan Cəlairlərin ən məşhur əmiri oldu. O, yüksək tərbiyə almışdı, poeziyanı çox sevir və şeir yazırdı. Məhəmmədəli Tərbiyət onun haqqında yazmışdır: "Üveys qabiliyyətli, lətif təbli, natiq, xoşgörülü sultanlardan idi, nəqqaşlıq və musiqi sahəsində də fövqəladə məharətə malikdi; aşağıdakı beyt ondandır:

*Dərman vermə, təbib, dərdim eşqdir,*
*Biz sağalmarıq, sən bədnam olarsan" (158, 56).*

1357/1358-ci ildə Üveys böyük bir ordu ilə Təbrizə yola düşdü və Bərdi bəyin naibi Əxi Cuğu Azərbaycandan qovdu. Bu tarixdən etibarən Azərbaycan, o cümlədən, Qarabağ və Muğan Cəlair əmirlərinin hakimiyyətinə keçdi. Şərqdən Sultaniyyəyə və Xəzər sahillərinə qədər onların ixtiyarında idi.

Bu zaman Şirvan və Gəştasb ölkələrində qədim Şirvanşahın nəvələrindən olan Kavus bin Keyqubad padşahlıq edirdi. O, həyatının sonuna qədər, yəni 1343/1344-cü ilə qədər bütün Azərbaycana sahib olmaq uğrunda Üveyslə düşmənçilik etdi. Onun bu siyasəti Məlik Əşrəf Çobana qarşı da həyata keirilirdi.

Üveys 1343/1344-cü ildə Şirvanşahları məhv etmək üçün Qarabağa qoşun yeritsə də, Xacə Mərdanın Bağdadda qiyam qaldırdığını eşitdi və məcburən səfərini yarımçıq qoyub, özünü Bağdada çatdırdı... Qışdan sonra onun əmirləri Şirvanşah Kavusu ələ keçirib, Üveysin yanına

apardılar. Üveys 3 ay sonra Kavusu bağışladı və Şirvana geri göndərdi.

Sultan Üveys 1374/1375-ci ildə Təbrizin Rəbi-Rəşidi imarətinə köçdü və 19 illik hakimiyyətindən sonra orada dünyasını dəyişdi.

Təbrizlə Trabzon arasındakı qədim ticarət yolunu yenidən açmaq üçün çox çalışan Sultan Üveys, Təbrizdə gözəl binalar inşa etdirdi. Onlardan biri də Dövlətxana adlanan hökumət evi idi. Üveysin müasiri olmuş Avropa səyyahlarından birinin yazdığına görə, Dövlətxanada 20 min otaq və mənzil olmuşdur (131, 464).

İqbal Aştiyani yazır ki, həmin avropalı səyyah məşhur ispaniyalı Klavixo olmuşdur. Teymurilərin dövründə Təbrizdə olmuş Klavixo yazır: "Bütün Təbrizdə gözəl binalar və çoxlu məscidlər görünür. Xüsusən, məscidlər mavi və qızılı kaşılarla bəzədilmişdir. Bu məscidlərdə, bənzərini Türkiyədə gördüyüm büllur kasalar (çıraqlar üçün) var. Deyilənə görə, bütün bu tikililər əvvəlki dövrdə şəhər əhalisi və varlıların birgə səyləri nəticəsində iç-içə tikilmişdir. Onlar öz var-dövlətlərini tam könüllü olaraq, bu yolda xərcləmişlər. Belə tikililərdən biri çox gözəl bir imarət idi. Bu imarətdə 20 min otaq və ayrıca, müstəqil tikililər görünür. Məlum oldu ki, bu böyük imarəti Sultan Üveys Cəlairi adlı bir padşah tikdirmişdir. O, bu imarəti tikdirməkdən ötrü sultanlığının birinci ildönümündə Misir padşahının göndərdiyi xəracın hamısını xərcləmişdir. Bu məhəllə hazırda Dövlətxana adı ilə məşhurdur. Dövlətxana sözünün mənası Tale evi deməkdir. Bu əzəmətli sarayın böyük hissəsi hələ də qalmaqdadır. Arzu edilməlidir ki, Təbrizin belə tikililəri bu cür də qalmaqda davam etsinlər" (147, 162).

Üveys dünyasını dəyişəndən sonra kiçik oğlu Hüseyn sultan oldu. 1382/1383-cü ildə onun qardaşı Əhməd gözlənilmədən şəhəri tərk edib, Ərdəbil, Muğan və Qarabağa getdi, ordu hazırlayıb, Təbrizə geri döndü, qəflətən qardaşına qarşı hərəkətə keçərək, onu tutdu və qətlə yetirərək, Sultan Əhməd adı ilə taxta çıxdı. Sultan Əhməd zalım, qaniçən bir padşah idi. Ona görə də əmirlərin ondan zəhlələri gedirdi və onu taxtdan kənarlaşdırmağa çalışır, onun müxaliflərini Azərbaycanı işğal etməyə təşviq edirdilər. Sultan Əhməd qismən uzun müddət sultan olsa da, hakimiyyətindən kifayət qədər faydalana bilmədi. Əslində, zülmkarlığına baxmayaraq, Sultan Əhməd poeziya həvəskarı idi, özü də şeir yazır, musiqini bilirdi. Bəlkə, elə bu səbəbdən, Xacə Hafiz Şirazi iki qəzəlində onu mədh etmişdir.

Cəlair sülaləsinin müxtəlif sultanlarının İranın mədəni həyatına göstərdikləri xidmətlərə baxmayaraq, xüsusən, onların hakimiyyətlərinin son dövrlərində, aralarındakı çəkişmələr və düşmənçilik səbəbindən ölkənin siyasi həyatında oynadıqları dağıdıcı rol da təkzibedilməzdir. Cəlairlərin dövründə İranda, xüsusən, rəssamlıq sənəti xüsusi əhəmiyyət kəsb etmişdir. Cəlairlərin incəsənət fəaliyyətləri, o cümlədən, yüksək memarlıq nümunələrinin inşası Təbrizdə, ələlxüsus, Bağdadda təmərküzləşmişdi. Araşdırmamıza görə, Cəlairlər dövrü türkdilli dövr olmuşdur. Cəlairlər hətta Ərəb İraqında türk ünsürlərini elə möhkəm əsaslar üzərində qurmuşlar ki, türk dili, ərəb dilindən sonra, regionun əhalisinin əksəriyyətinin istifadə etdiyi dil olmuşdur. Ancaq bu, onların farsdilli şairləri himayə etmələrinə mane olmamışdır. Çoxlu digər şairlər kimi, Salman Savəçi də bu müddəanı təsdiq etmişdir (63, 19).

## QARABAĞ TEYMURİLƏR DÖVRÜNDƏ

İlxanilər imperatorluğunun zəifləməsi və sıradan çıxması ərəfəsində İranda müxtəlif qrupların hakimiyyət davası zaman-zaman rəqiblərdən hansınınsa hansı regiondasa qısa ömürlü hakimiyyətə gəlməsi ilə nəticələnirdi. Daxili düşmənçilik və çəkişmələr ölkənin ümumi təhlükəsizliyini sual altında qoyurdu. İran bu qarışıqlıqdan çoxlu zərər və ziyanlar yaşayırdı. Ancaq daha çox itkilər XIV əsrin 80-ci illərində ölkənin vəhdətinin təmini zamanı baş verdi. Bu birlik kənardan Əmir Teymur tərəfindən təmin edildi. Belə ki, Orta Asiyadan hərbi yürüşə başlayan Teymur, hakimiyyət iddiasında olan hər kəsi ya sıradan çıxardı, ya da zəif və etibarsız hala gətirdi (63, 11-99).

Orta Asyanın əşrəflərindən və türk irqli Teymur, Nizaminin humanist ideya və düşüncələrindən də xəbərdar idi. Onun ideyası dünya monqol hakimiyyətinin bərpa edilməsindən başqa bir şey deyildi. Teymurun rəhmsiz müharibə gedişləri-dəhşət simvolları, kəllələrdən minarələr ucaldılması zamanın ağlasığmaz tələblərindən irəli gəlirdi. Teymuru müasirləri olan şahlardan ayıran onun bir hərbçi sərkərdə məharəti və istedadı, ömrü boyu onu müşayiət etmiş müharibələrdəki misli görünməmiş taleyi idi. Bu cəhət ona təkcə bütün salnamələrdə şöhrət qazandırmaqla qalmadı, həm də Şərq və Qərbin şifahi və yazılı ədəbiyyatlarında bu günə qədər haqqında deyilənlər və yazılanlar üçün bir baza rolunu oynadı (63).

Əmir Teymur bir neçə dəfə Azərbaycana gəlmişdir. Qarabağın ab-havası onun məzacına uyğun olduğundan, yürüşlərdən sonra çox zaman Qarabağa qayıdırmış. Buna görə də bu regionun abadlığı və təhlükəsizliyinə xüsusi diqqət yetirirdi. O, Qarabağı öz əlində saxlamaqdan ötrü 50 min türk ailəsini buraya yerləşdirmişdir.

Teymur ilk dəfə 1386/1387-ci ildə Azərbaycana ayaq basmışdır. Bu gəliş onun qohumu olan, lakin ondan qaçan Seyid Əmir Vəlinin Azərbaycana üz tutmasından və Təbrizdə Sultan Əhməd Cəlairə sığınmasından sonra baş vermişdir.

Həmin arada Teymurun Dəşti-Qıpçağa əmir təyin etdiyi Zəhəbi elinin başçısı Toxtamış xan, Dərbənd yolu ilə Təbrizə hücum etmiş, onu Əmir Vəlinin əlindən almış və yağmalamış, bir müddət qətl-qarətlə məşğul olandan sonra Dəşti-Qıpçağa qayıtmışdı. Bu arada Sultan Əhməd Bağdadda idi.

Qeyd olunan hadisələrdən xəbər tutan Teymur Qurqani, İrana yola düşür, Ceyhun çayından keçərək, Şətt çayının bu tərəfində 3 il döyüşlər aparır, at çapır, qətl və qarətlə məşğul olur. Adıgedən döyüşlər Teymurun müasirləri tərəfindən tarixə “3 illik döyüşlər” kimi düşmüşdür.

Əmir Teymur Təbrizi özünə mərkəz seçir, 1386-cı ilin yayını burada keçirir. Naxçıvan yolu ilə Gürcüstanı işğal etməyə gedir. Gürcülər xristian idilər. Əmir Teymur gürcülərlə müharibəni cahad və müqəddəs dini müharibə adlandırır. 1386-cı ilin qışında Teymur Qarsa tərəf hərəkət edir, onu viran qoyur. Bir hücumla Tbilisini ələ keçirir, Gürcüstan padşahı Boqratı həbs edir, lakin islamı qəbul etdiyinə görə həbsdən buraxır. Bu barədə Yəzdinin “Zəfərnamə”

əsərində məlumat verilmişdir. Həmin məlumata görə, V Boqrat, Davud peyğəmbərin hazırladığı tarixi zirehi Əmir Teymura hədiyyə etmişdir (103, 707).

Əmir Teymur 1386-cı ilin qışını keçirmək üçün Azərbaycanın şimalına və Qarabağa gedir. 1987-ci ilin yazında Toxtamış xan qəflətən və özbaşına Dərbənddən keçib, Qarabağa hücum edir. Bu zaman Əmir Teymur Kür çayının cənubunda Bərdədə idi. O, ancaq gözətçilər dəstəsini Kürün şimalına göndərə bilir. Həmin dəstə Toxtamış xanın ordusu ilə döyüşdə məğlub olur. Ancaq Teymurun III oğlu Miran şah onların köməyinə gəlir və məğlub edilən Toxtamış qaçmağa məcbur olur (103, 722).

Teymur ikinci dəfə 1391/1392-ci ildə İrandakı üsyanları yatırtmaqdan ötrü bura üz tutur. O, 5 il bu işlə məşğul olur. Bu döyüşlər tarixə "5 illik yürüş" adı ilə daxil olmuşdur.

Teymur bu yürüşdə Mənsur şahı öldürməklə al-Müzəffərilər sülaləsinin hakimiyyətinə son qoyur. O, Qafqazın Şimalında Terek çayının sahilində yenidən Dərbəndə və Arana yürüş edən Toxtamışı məğlub edir, Moskvanı fəth etdikdən sonra Azərbaycana qayıdır. 1395/1396-cı ildə Azərbaycanın idarəçiliyini Miranşaha tapşıraraq, Səmərqəndə geri dönür (152, 192).

İ.Abbas yazır ki, bu səfərdə Beyləqan Əmir Teymurun mühasirəsinə düşür və ələ keçirildikdən sonra dağılmış binaların yenidən inşasına, Arazdan şəhərə qol çəkilməsinə, onun Teymurun mənsub olduğu qəbilənin şərəfinə Barlas çayı adlandırılması və üzərində körpü tikilməsi barədə göstəriş verir (130, 632).

Teymur Səmərqəndə qayıdandan sonra eşidir ki, oğlu Miranşah ov zamanı atdan yıxılaraq, damaq zədəsi almış

və yersiz hərəkətlər edir. Bu üzdən də Gürcüstan, Azərbaycan, İraqın məğlub edilmiş əhalisi üsyanlar çıxarır. Teymur İrana və qərbə tərəf səfərə hazırlaşmağa başlayır və hazırlıqlar bitdikdən sonra yola çıxır. Bu səfər "7 illik yürüş" olur. Bu yürüşdə Teymur əvvəl Təbrizə gəlir, Miranşahın yaxınlarını və müsahiblərini tənbeh edəndən sonra qayda-qanun yaratmağa müvəffəq olur (131, 635). Miranşahı işdən kənarlaşdırıb, onun oğlu Əbubəkri təyin edir. Qışı Qarabağda keçirib, Gürcüstana qoşun çəkir...

Teymur, özünə qarşı Sultan Əhməd Cəlair və Qara Yusif Türkmən tərəfindən yaradılmış ittifaqı dağıtmaqdan ötrü hücuma keçir. Onlar müqavimət göstərə bilməyərək, qaçmağa və Osmanlı imperatoru İldırım Bayazidə sığınmağa məcbur olurlar.

Teymur 1400/1401-ci idə Bağdadı fəth etdikdən sonra Kürdüstan yolu ilə Təbrizə gəlir, bir müddətdən sonra istirahət üçün Qarabağa yola düşür. Yolüstü Gürcüstana gedir, oradan bac, xərac və hədiyyələr aldıqdan, oranı ağır vergilərə bağladıqdan sonra Qarabağa gəlir və orda düşərgə salır. Ailəsi, vəliəhdi Məhəmməd Sultan və əmirlərinin iştirakı ilə istirahət və əyləncə ilə məşğul olur, növbəti yürüşə hazırlaşır. Teymurun məqsədi İldırım Bayazidlə vuruşmaq idi (56, 191).

Etemadüssəltənənin yazdığına görə, Əmir Teymur Qorqani Qarabağın ab-havasını çox sevirdi (157, 9). Ona görə də Azərbaycana səfərlərində qışı həmişə bu dilbər guşədə keçirirdi. O, çoxlu türkləri bu ərazidə yerləşdirmişdi. Abasqulu ağa Bakıxanov yazır ki, Teymur Rum, Şamdan 50 min, əlavə olaraq, Hülaku xanla Türküstandan İrana gəlmiş, zamanla tayfadaxili ziddiyyətlər yaşamış Rum elinin

Ayrım tayfasından 200 min türk ailəsini Gəncə, Qarabağ və İrəvanda məskunlaşdırmışdır (1).

Mir Hidayət Hesariyə görə, Əmir Teymur 20 min sünnü albanı da Əfqanıstana köçürmüş, onları Qəndəharda yerləşdirmişdir. İndi də onların yaşadığı ərazi Qarabağ adlanır. Onlar bu adı özləri ilə bərabər aparmışlar (184, 24).

Əmir Teymurun Gürcüstana çoxsaylı yürüşlərindən və türkləri Qarabağda məskunlaşdırmalarından bəhs edən Lestrenc, hesab edir ki, daha çox türkün Qarabağda yerləşdirilməsi islamın bu məntəqədə güclənməsi və qələbəsinə səbəb oldu (152, 190).

Etimadüsəltənə yazır ki, Teymurun zamanında qaramanlılardan olan, Gəncə və Bərdə ətrafında yaşayan bir qrup Yarəhməd adlı qəsəbədə yerləşdi (157, 273).

Qaramanlu, yaxud qaramanlılar sonradan gücə çevrildilər və ad çıxardılar. Teymur Meymun ili 1404-ün mart ayının 16-da Səmərqəndə getmək üçün Qarabağdakı qışlağından yola çıxdı. Araz çayını keçəndən sonra Burlas çayının kəndlərindən olan Nemətabadda Cuğatay hakimi Teymura ziyafət verdi. Teymur, Hülaki xanın ölkələrini və onların əhalisinin idarəçiliyini nəvəsi Ömər Mirzə bin Miranşaha verdi. Bununla da, "Al-tuğma" ("Qırmızı Ay") adlı yarlığa (fərmana) görə, bütün Azərbaycan, Əcəm İraqı, Aran, Ermənİyyə (Ermənistan), bütöv Rum, yəni İstanbula qədər bütün ölkələr, eləcə də, Misirə qədər uzanan Şam (Suriya) Ömər Mirzənin ixtiyarına keçdi. Fars və Əcəm İraqını idarə edən şahzadələr, Şeyx İbrahim Şirvanşah, Mardin hakimi, Kürdüstan hakimi Məlik İzəddin, Konstandil (Konstantin), Gürcüstan padşahı, Ərdəbil, Dizək (Dizağ)

hakimi Bestam Əmir Sərav, Urmiya əmiri, Marağa hakimi Çalığ Türkmən da onun tabeçiliyinə verildilər (9, 83).

Ömər Mirzə də Teymur kimi qış aylarının çoxunu Qarabağda keçirirdi. Məşhur ispaniyalı səyyah Klavixo, Səmərqənddən Azərbaycana qayıdandan sonra Ömər Mirzə ilə görüşmək istəyir. Bunun üçün yol yoldaşları ilə birlikdə Qarabağa yollanır. Klavixo yazır ki, yaxşı otlaqları olan Qarabağ geniş bir çöldür. Soyuq qış fəslində onun havası yumşaq və mülayimdir. Təsadüfən burada qar yağsa, tezcə əriyir. Ona görə də Ömər Mirzə hər il qışı burada keçirir. Biz də şahzadəni görmək və ona ehtiramımızı bildirməkdən ötrü əlacsız qalıb Qarabağa getməli olduq. Bunun üçün 1405-ci il mart ayının 5-də Təbrizdən yola çıxdıq.

Ancaq Klavixo və yol yoldaşları yolun yarısından Təbrizə geri dönməli və şahzadənin fərmanını gözləməli olurlar. Fərman 17 marta qədər gəlib çatmır. Bundan sonra onlara deyilir ki, Qarabağa getməlisiniz. Klavixo və yol yoldaşları martın 19-da Qarabağa tərəf yola düşür. Təbrizin şimalındakı bir neçə uca dağı aşdıqdan sonra meşəli, çöllü və məhsuldar bostanlı bir dərəyə yetişirlər. Dərədən Aras çayı axır. Mülayim iqlimli bu məntəqədə bol meyvə yetişdirilir. Yolçular 4 gün ərzində bol düyü yetişdirilən kənd və meşələrdən keçirlər. Düyü o qdər boldur ki, onu ata da yedirirlər. Burada yetişdirilən bol məhsullardan bütün ətraf məntəqələr də istifadə edir. Bütün ərazi boyu Ömər Mirzənin elindən olan köçərilər yaşayırlar. Burada çadırlar qurulmuş, düşərgələr salınmışdır. Martın 25-də tatarların çadırlarının arasından keçdik. Ömər Mirzə buradan 10-12 fərsəxlikdə yerləşən məntəqədə yaşayırdı. Az keçmədi ki, qəflətən bizə tərəf gələn bir qrupla rastlaşdıq. Onlar dedilər ki, orduda

qarışıqlıq olduğuna görə, yaxşı olar ki, geri qayıdaq. Ordudakı qarışıqlığın səbəbini soruşduq. Məlum oldu ki, ordunun komandanı Əmir Cahanşah, Ömər Mirzəyə qarşı çıxıb. Tatarların başbilənlərinin və böyüklərinin göstərişinə əsasən, el camaatı Cahanşah Mirzəyə qarşı ayağa qalxmış, onu tutmuşlar. Ömər Mirzə onun başının bədənindən ayrılması barədə fərman vermişdir. Buna görə Cahan şahın tərəfdarları ilə Ömər Mirzənin eli arasında döyüşlər gedir. Hər iki tərəfdən çoxlu sayda ölənlər var. Ömər Mirzə də hazırda özünün xüsusi atlıları ilə Kür çayını keçmiş və göstəriş vermişdir ki, taxtadan olan körpünü məhv etsinlər. Məqsədin nə olduğunu kimsə bilmir. Bütün ordu son dərəcə narahat və nizamsız bir haldadır. Bu xəbərlər bizi çox həyəcanlandırdı və belə qərara gəldik ki, hadisə yerinə bu qədər yaxınlaşmışkən yaxşı olar ki, irəli gedək və həqiqətləri öz gözlərimizlə görək. Bu üzdən irəlilədik və 26 martda ortasında Ömər Mirzənin yaşadığı böyük bir ordugaha çatdıq. Dayandıq və ümidlə Ömər Mirzənin bizi qəbul etməsini gözlədik. Ancaq bütün ordu rəhbərləri bir-birlərinə dəymişdilər və dilxor idilər. Hər tərəfdən tatarlar axışıb gəlirdilər. Onların qarşılarında iribuynuzlu və xırdabuynuzlu sürüləri vardı. Nəhayət, cığataylardan biri yanımıza gəldi və Ömər Mirzənin məktubunu gətirdi. Başına gələnlərdən möhkəm həyəcanlanmış şahzadə, yazırdı ki, bizi qəbul edə bilmir və tələb edirdi ki, dərhal Təbrizə geri qayıdaq və onun fərmanını gözləyək. Gələn Cığatay dedi ki, ona göstəriş verilmişdir ki, bizimlə Təbrizə getsin və orada ehtiyaclarımızı qarşılasın. Təcili atlara səvar olduq və Təbrizə geri döndük. Qeyd edək ki, hazırda Ömər Mirzə öz elinin ordusu-45 min süvari ilə birlikdə Kür çayının cənub sahilindəki

ordugahdadır. Yəqin ki, onun ordusu bu sayla məhdudlaşmır. Çünki onun ordusunun bir çox hissələri başqa yerlərdə dislokasiya olunmuşdur. Deyilənə görə, keçmişdə qayda belə idi ki, Teymur hər zaman bu çöllərə gələndə qışı burada keçirirdi və Beyləqan şəhəri onun göstərişi ilə yenidən inşa olunmuşdu. Hazırda bu şəhərdə 20 min nəfər yaşayır (147, 305).

Teymurun zamanında İranın hərbi sistemi və divanı bir çox yerlərdə Mavərənnəhrdəkindən fərqlənirdi. Burada orduda, Mavərənnəhrdəki kimi, 7 tümən yox idi. Bunun əvəzində, İran, Fərqanə istisna olmaqla, bütün ölkə vilayətlərə və hakimlərin nüfuz dairəsinə görə məntəqələrə bölünmüşdü. Əlbəttə, İranda koordinasiya mövcud deyildi. Sahə ölçüsü baxımından İranın inzibati bölgüsü fərqli idi. Onların qanuni tərtibi zaman-zaman eyni olmurdu. İranda 2 region qədim zamanlardan tanınmış və özəl xüsusiyyətlərə sahib idi. Onlardan biri Sultaniyyə ilə birlikdə Təbriz, o birisi isə Qəndəhar idi. Şahzadə Miranşah Azərbaycanda hökmran olduğu 1396-1399-cu illərdə elan olunmuşdur ki, o, Hülakinin taxtına təyin edilmişdir. Onun canişini Məhəmməd Sultan bin Ömər Şeyx də 1401-ci ildə təyin ediləndə belə bir məqama sahib idi. Ancaq 3 il sonra Miranşahın ikinci oğlu şahzadə Ömər onun yerini tutdu. Ömər həm də İranın qərb vilayətlərinin, o cümlədən, Fars, Əcəm İraqı, eləcə də, Beynülnəhrin qəyyumu idi. Çox nüfuzlu əmir Cahanşah onun canişini seçiləndə, səlahiyyətləri müəyyən ölçüdə azaldılmışdı. Buna bənzər olaraq, Qəndəharın hakimi Pir Məhəmməd Cahangir də Hindkuşun qərbindən Send çayına qədər olan regionları əldə edəndə, əslində, Sultan Mahmud Qəznəvinin taxtına

sahib olmuşdu. Yüksək məqam sahibi belə şahzadələrin (onların taxt-taclarının 3-dən artıq canişini təyin edilməmişdir) idarə etdikləri bu cür iki mülk, Teymura görə, Mavərənnəhrdən sonra ikinci dərəcəli xüsusi əhəmiyyət kəsb edirdi. Bu məsələ Azərbaycan və ona aid olan regionlara münasibətdə xüsusi olaraq hiss edilirdi. Ancaq, iqtisadi baxımdan Təbrizdən geri qalan Qəndəharın niyə belə əhəmiyyət kəsb etdiyi məlum deyildi (63, 102).

Teymur 12 fevral 1405-ci ildə Çinə qoşun çəkəndə Seyhun çayının sahilində 69 yaşında vəfat etdi. O, öləndə qurduğu imperatorluq Hindistandan Krım yarımadasına, Aralıq dənizindən Monqolustana qədər uzanırdı... Savadsız olan bu şəxs, ömrünün 35 ilini at belində keçirmiş, at çapmışdı. Ancaq ibn Xəldun onu fəlsəfəni sevən, ədəbpərvər, memarlıq və mühəndisliyə marağı olan bir insan kimi dəyərləndirir. İbn Xəlduna görə, Teymur hərb sənətini düşmən əsgərlərinin əhval-ruhiyyəsinin zəifliyinə görə yaxşı qiymətləndirirdi (105, 16).

Teymur həmişə bir dəstə alimlə ünsiyyətdə olur, dini təriqətlərin başçıları, söz əhli, dini həyat təmsilçilərinə xüsusi isti münasibət bəsləyirdi. O, hamıdan artıq ibn Xəlduna əhəmiyyət verirdi. Əlbəttə, onun Hafizə münasibəti nəzərə alınmaya bilər, çünki bu barədə etibarlı sənədlər mövcud deyildir. Qərb (Mərakeş) alimi ibn Xəldun (bəziləri onu tunisli hesab edir) 1401-ci ilin yanvar və fevral aylarında Teymur ilə Dəməşqdən kənardakı hərbi düşərgədə keçirdiyi görüşlər barədə müfəssəl məlumat vermişdir. Həqiqət budur ki, Teymur ibn Xəldunun tarix və fəlsəfə sahəsindəki şöhrəti haqqında eşitmiş, ikincinin Dəməşqə səfərindən

sonra bunu dərhal başa düşmüşdür. Teymurun, ibn Xəldunu dəfələrlə müzakirələr aparmaq üçn yanına dəvət etməsi xüsusi əhəmiyyətə malikdir. Müxtəlif mövzulardakı müzakirələr dostluq atmosferində və uzun müddətli olmuşdur. Güman ki, bunun səbəbini ibn Xəldunun cəlb ediciliyi, maraqlı və zərif təqdimatı, fərasəti və bəlağətində (natiqlik) axtarmaq lazımdır. Bu xüsusiyyətləri ilə o, az bir müddətdə Teymurun sevgisini qazana bilmişdir (63, 96).

Abbas İqbala görə, Çingiz xanın əksinə olaraq, Teymur fəth edilmiş ölkələrin idarə olunmasında ədalət, qanun və qaydalara riayət etmirdi. Onda güclü dini təəssübkeşlik var idi; məğlub etdiyi ölkələrin əhalisinin dini inanc və ayinlərinə münasibətdə bitərəf deyildi. Ona görə də, Teymur öləndən sonra, Nadirin imperiyası kimi, onun imperiyası da parçalandı. Teymurdan sonra onun canişinlərindən heç biri bütün imperiyada həqiqi qayda-qanun və idarəçiliyi qoruya bilmədi (İq, 638).

Teymurdan sonra onun varisləri arasında davamlı müharibələr başladı. Bu, Teymurilərin Azərbaycandakı hakimiyyətini zəiflətdi. Azərbaycanın Təbriz, Marağa, Qarabağ və digər regionlarında xalq üsyanları tüğyan etdi. Şirvanşah I İbrahim, Teymurilərin ölkədən qovulması üçün fürsətdən istifadə elədi və Azərbaycanı öz hakimiyyəti altında birləşdirdi. Şəki hakimi Seyid Əli xan və Azərbaycanın başqa feodalları öz qüvvələri ilə Şirvanşah I İbrahimə kömək etdilər. İbrahim, Teymuriləri Azərbaycandan qova bildi və 1406-cı ildə Təbrizi ələ keçirdi (61, 90).

F.Sumer yazır ki, 1406-cı ilin fevral ayında Sərabın əmiri Bestan bin Çəğir Təbrizə daxil oldu. Bu zaman onun müttəfiqi Şeyx İbrahim Şirvanşah şəhərdən kənarda idi.

Ancaq Təbrizin başbilənləri bu iki əmirin birliyini pozdular. Ona görə də Bestam bəy Çağraoğlu öz ölkəsinə qayıtdı, İbrahim Təbrizə gəldi, burada bir neçə gün qalandan sonra Oucana getdi. Oucanda olan zaman Sultan Əhmədin İraqdan Azərbaycana hərəkət xəbərini eşitcək, dedi ki, ölkə başsız qalanda əhali sıxıntıya düşər, ona görə də biz gəldik və onu qoruduq. İndi ölkənin sahibi təşrif gətirdiyinə görə, biz də öz məmləkətimizə geri qayıdaq. Bu minvalla Şirvanşah I İbrahim Şirvana döndü. Doğrudan da, az keçmədi ki, Sultan Əhməd Təbrizə daxil oldu və xalq tərəfindən qarşılandı (9, 84).

K.Busurs yazır ki, Teymurun bütün ömrü müharibə və hərbi fəthlərdə keçdi. Teymuri əmirləri XV əsrdə şərqi islam dünyasına əzəmətli mədəniyyət vəhdəti bağışladılar. Bu mədəniyyətin səmərələri cığatay türkcəsi və fars ədəbiyyatlarında, çox yüksək səviyyəli memarlıq, nəqqaşlıq və kitabçılıqda özünü göstərdi. Bundan başqa, Şahrux Mirzənin nücum elminə maraq göstərən oğlu Uluq bəy bu sahədə məşhurlaşdı (149, 248).

E.Braun yazır ki, Şahruxun oğlu Baysunqur İranda kitab yazmağın ən gözəl üsulunun əsasını qoyan və banisidir. Onu dünyanın ən böyük kitab sevərlərindən biri adlandırmaq olar. Hər zaman onun himayəsi altında, Abdulla bin Mirəli Təbrizinin şagirdi olmuş Mövlana Cəfər Təbrizinin rəhbərliyi altında 40 katib və xəttat kitabların üzlərini çıxartmaqla (köçürtməklə) məşğul idilər (197, 151). Onların içərisində Ağa Mirək Təbrizinin miniatür rəssamlığında tayı-bərabəri yox idi.

Teymurilər dövründə yaşayıb-fəaliyyət göstərmiş tarixçilərdən Nizaməddin, Təbrizin Şam Qazan məhəlləsindən olduğu üçün ona Şam Qazan, ya da Nizaməddin Şami deyirdilər. Əmir Teymur Bağdadı fəth edəndə Nizaməddin Bağdadda yaşayırdı. O, bir qrup alimlə itaətlərini ifadə etmək üçün Teymuru ziyarət etmişdi. Əmir Teymur 1401/1402-ci ildə ondan özünün hökmdarlığı və fəthləri barədə kitab yazmağı istəmişdi. Nizaməddin, özünün ixtiyarına verilmiş məlumat və sənədlərdən istifadə edərək, "Vəğayee-tarixi" ("Tarixi hadisələr") əsərini Teymurun ölümündən bir il qabaq, yəni 1403/1404-cü ildə fars dilində bitirmişdir. Əsər "Zəfərnameye-Şami" adı ilə məşhurdur. Teymurdan sonra oğlu Şahrux, Hafiz Əbrudan istəmişdir ki, həmin kitabın davamını yazsın və Teymurun həyatının son ilini şərh etsin. "Zəfrnameye-Şami" əsərinin bir nüsxəsi Britaniya muzeyində saxlanılır. Bu nüsxə son vaxtlar "Eşkuda" şirkətinin redaktəsi ilə Beyrutda çap olunmuş, sonralar isə Tehranda da işıq üzü görmüşdür. Şərəfəddin Əli Yəzdi bu kitabdan çox istifadə etsə də, mənbəni göstərməmişdir (173, 1).

## QARABAĞ QARAQOYUNLULAR DÖVRÜNDƏ

Qaraqoyunlu türkmənləri, türkmənlərin ittifaqı idi. Onlar monqol hücumundan qabaq Şərqə getmişdilər. Güman olunur ki, onların hakim xanədanı oğuz tayfalarından olan iva tayfasından olmuşdur. Bu xanədan Van və Urmu göllərinin şimalında hökmranlıq etmiş, oradan tədricən Azərbaycana və Anadolunun şərq ətəklərinə yayılmışlar.

Bu xanədanın başçısı Qara Məhəmməd, Sultan Üveys Cəlairin xidmətində olmuşdur. Ancaq onun oğlu Qara Yusif Təbrizi alandan sonra özünü müstəqil elan etmiş və bu şəhər bundan sonra Qaraqoyunluların iqamətgahı olmuşdur. Ancaq bədbəxtlikdən o, Teymura qarşı çıxmış və az müddətdə Misir məmaliklərinin yanına qaçmağa məcburiyyətində qalmışdır. Yalnız 1406-cı ildə Teymurun ölümündən sonra geri dönən Qara Yusif, yenidən Təbrizi ələ keçirmişdir. Siyasi baxımdan Qaraqoyunlu türkmənlərinin ittifaqının yaranması İraqda və İranın qərbində İlxanilər hakimiyyətinin sonu, eləcə də, Teymurilərin İranın qərbində öz hakimiyyətlərini qorumaq iqtidarında olmamalarının göstəricisi idi (149, 250).

Cəlairlərin süquta uğraması ilə Qaraqoyunluların hakimiyyəti sürətlə zirvəyə yetişdi. Onların hökmdarı Azərbaycan və Ermənistanın mühüm hissələrini ələ keçirdi. 1408-ci ildə Qara Yusif Miranşaha, az sonra isə isə Əhməd Cəlairə qalib gəldi və 1410-cu ildə Təbrizdə Qaraqoyunlu dövlətinin əsasını qoydu.

Qara Yusifin ərazisi Azərbaycan (Kür çayından cənuba tərəf), Ermənistan, Kürdüstan, Ərəb İraqı vilayətlərindən ibarət idi. Qaraqoyunlular Maku, Qafqaz regionlarında, Şərqdə Gəncə, ortada Savə şahsevənləri məntəqələrində idilər. Mərhum Əbdülrəhim Şərif bəy yazır ki, Xoy və Marağa arasında Ağqoyunlu və Qaraqoyunlu kəndləri olmuşdur. Onların yaylaqlarında da Ağqoyunlu və Qaraqoyunlu tayfaları yaşamışlar (9, 38).

Professor Faruq Sumer özünün "Qaraqoyunlular" kitabına yazdığı "Ön söz"də bu tayfaları belə təqdim edir: "XIV əsrin ortalarında Ağqoyunlu və Qaraqoyunlu adlı 2 türkmən tayfası Şərqi Türkiyə (Anadolu) regionunun siyasi səhnəsinə çıxdı. Onlar, zamanının ən güclü dövlətləri ilə qonşu idilər. Hətta bu dövlətlərdən birinin bu regionda nüfuz sahibi olmasına davam etməsinə baxmayaraq, onlar Türkiyənin (Anadolunun) qərb və mərkəzindəki qardaşlarından çox geridə qalmışdılar. Ancaq onlar qısa bir zamanda çoxsaylı siyasi uğurları ilə dövlətlərin əksəriyyətini geridə qoydular.

Bu tayfalardan biri, yəni Qaraqoyunlular Şərqi Anadolunun sərhəddində yaşayırdılar. Bu baxımdan, Qaraqoyunlular, sərhəddə yaşayan digər türk tayfalarının hər biri, məsələn, Qərb sərhəddindəki Osmanlılar kimi, cəngavərlik ruhuna sahib olaraq, onların hərəkətverici qüvvəsi hesab olunurdular. Qaraqoyunlular yarım əsr ərzində çoxlu qələbələrə nail olmuşdular. Belə ki, onlar XV əsrin ortalarında, Xorasan və bəzi dağlıq rayonlar istisna olmaqla, bütün İranı və İraqı ehtiva edən bir imperatorluq yaratdılar.

Bunun ardınca, Qaraqoyunlular, Teymurun ağır itkilər hesabına öz hakimiyyətinə daxil etdiyi mərkəzi və qərbi

İranı və İraqı ələ keçirmiş, həmçinin, İlxanilər dövlətinin siyasi mövcudluğunu davam etdirən Cəlairlərin hakimiyyətinə son qoymuş, Səlcuqluların süqutu ilə İranda Qərbi türklərin sona çatmış hakimiyyətlərini yenidən bərpa etmişlər. Qaraqoyunluların hakimiyyəti, xanədan və siyasi yapı istisna olmaqla, irq olaraq bu günə qədər davam edir... Türklərin, Anadoludan İrana siyasi köçlərinə əsas səbəb olmuş Qaraqoyunlular, eyni zamanda da, İranda türk amilinin yenidən hakimiyyətə gəlməsinə və bununla da, Azərbaycanın qəti olaraq türkləşməsinə və vahid türk canişinlik hərəkatının səbəbi oldular. Deyilənlərdən belə bir nəticə çıxır ki, onların danışdıqları türk dili bu gün Azərbaycan ləhcəsi adlanan dil, yəni Şərqi Oğuz və türkmən dilidir. Günümüzdə yaxşı anlaşılır ki, Qaraqoyunlu hökmdarlarından Cahan şahın özü Azərbaycan ədəbiyyatının nümayəndələrindən və təmsilçilərindən biri olmuşdur" (9, 1-29-49).

Teymurun zamanında Qarabağda sakin olmuş Qaraqoyunlular tayfası güclənmiş, Qara Yusifin bəylərbəyilərindən olan Əmir Qaraman, birincinin hakimiyyətinin son illərində Gəncə və Bərdənin hakimi olmuşdur. Bəzi əsərlərdə onun adı Qara kimi verilmişdir. Qara Yusifin ölümündən sonra Qaraman o qədər də yaşamamış, onun torpaqlarını övladları idarə etmişlər.

Qaraqoyunluların son hakimi Həsənəli xan, Ağqoyunlu Uzun Həsən tərəfindən məğlub edildikdən sonra Şeyx Cüneyd və onun övladlarına qoşulmuş, Səfəvi dövlətinin yaradılmasında rol oynamışdır. Səfəvilər dövründə Qaraqoyunlu tayfasından çoxlu əmirlər çıxmışdır. Şah İsmayılın əmirlərindən Birəm bəy onlardan biri idi. Günümüzdə Şimali Azərbaycanda, xüsusən, Gəncə və Bərdədə

toponim olaraq, Qaraman və Qaramanlı (Qaramanlu) yer adları mövcuddur. Bu adlar Qaraqoyunlu tayfasından qalan adlardır.

Bu dövrdə Qarabağda sakin olmuş tayfalardan biri də Alpavut (Alpagut, yaxud Alpaqut) tayfası olmuşdur. Alpavut sözünün mənası "Təklikdə düşmənə həmlə edən şəxs" deməkdir. Adıgedən tayfa Qaraqoyunlu elinin ən əhəmiyyətli tayfalarından biridir...

Alpavutlar, Qaraqoyunlular kimi, Azərbaycanda, xüsusən, Bərdə regionunda sakin olmuşlar (9, 1-29-69).

Həmin dövrdə Qarabağda yaşamış tayfalardan biri də Çobanilər olmuşdur. F.Sumer yazır: "Əlincəqin (Əlincə) hakimi Xacə Gövhər öz adamlarından Altun adlı birinə göstəriş vermişdir ki, Aranda yaşayan, mal-heyvan sürüləri ilə məşhur olan türkmən tayfası Çobaniləri qarət etsin. O, Təbrizdəki naibi İmadəddinə əmr göndərdi ki, bu işdə Altuna qoşulsun. Onlar Çobanilərə hücum etdilər və çoxlu sayda mal-heyvan ələ keçirdilər. Ancaq Əlincəyə geri dönərkən, Xalxal hakimi Mahmud mal-heyvanları onların əlindən aldı. Əmir Mahmud ələ keçirdiyi mal-heyvanın bir hissəsini sahiblərinə qaytardı, bir hissəsini isə özünə saxladı" (9, 1-29).

Şahruxla müharibə etmək qərarına gəlmiş Qara Yusif, ordusunu Təbrizdə topladı və düşmənlə üz-üzə gəlməkdən ötrü hərəkət etdi, Təbrizin cənub-şərqindəki 3 mənzillikdə düşərgə qurdu. Bu zaman onun xəstəliyi şiddətləndi və 13 dekabr 1420-ci ildə 65 yaşında Oucanın şimal-qərbində, ondan 2 fərsəng məsafədə yerləşən Sistan kəndində dünyasını dəyişdi. Bu arada Şahruxun ordusu hələ Reydə idi. Qara

Yusifin ölümü və ordusunun dağılması xəbərini Rey ətrafında eşidən Şahrux, Mirzə Baysunquru Təbrizi tutmaq üçün göndərdi. Mirzə İbrahimi isə Marağaya tərəf yolladı. Özü isə əvvəl Sayınqalaya, oradan isə Sultaniyyəyə gəldi. Bütün hakimiyyəti boyu əhali ilə mehriban və şəfqətlə davranmış və böyük hökmdar kimi tanınmış Şahrux, cığatay əsgərlərindən qorxaraq, qalaya sığınmış şəhər əhalisinə müraciət etdi ki, ordusu keçənə qədər yerində qalsın. Şahrux Əmir Musanı şəhərə vali təyin etdi, özü isə 4 yanvar 1421-ci ildə Ərdəbil və Muğan tərəfdən Qarabağ Qışlağına daxil oldu... Qaraqoyunlu əmirləri və səfirləri hər tərəfdən axışıb, Şahruxun hüzuruna gəlirdilər... Qaraqoyunlu əmirləri, yəni Yarəhməd və qardaşı Şirzad da Gəncə və Bərdə regionundan gəlmişdilər...

Şahrux, 14 mart 1421-ci ildə Qarabağı tərk etdi, Təbrizə getməkdən ötrü Beyləqana gəldi. Beyləqanda olarkən, eşitdi ki, Mirzə Ömər Şeyxin adamlarından olan və Qarabağ regionundakı cığatay elinin idarəçiliyinin həvalə etdiyi Ata Bahadır türkmənlər tərəfindən tutulub və Espəndin yanına göndərilib. Bu xəbərin ardınca məlum oldu ki, Farsın hakimi şahzadə İbrahim Sultan və Əmir şah Məlik qədimdən Naxçıvan bölgəsində yaşayan və Qaraqoyunlular elinin ən aparıcı dayağı hesab edilən Səədlu tayfasına hücum etmək üçün yola düşmüşlər. Elə bu vaxt Espənd Mirzənin adamlarından biri Şahruxun hüzuruna gəlir və onun narahatçılığını Şahruxa çatdırır. Şahrux onu ağırladıqdan sonra geri qayıtmasına icazə verir. Aprelin sonu-mayın əvvəllərində Şahrux Qarakumıkdakı (Qaraqumux)

iqamətgahında Əbubəkr Mirzə Müstövfinin qızını Şirvanşah Xəlilullaha ərə verir. Qara Yusif, Əbubəkrlə olan son döyüşündə bu qızı ələ keçirir.

Bu arada Şahruxun hüzuruna gələn əmirlər arasında ziddiyyət yaranır. Qaramanlı tayfasının başçısı Yarəhməd Gəncə-Bərdə regionunda vergi toplayan cığatay təhsildarlarına (vergi məmuru) hücum edərək, topladıqları vergiləri əllərindən alır. Buna görə də Şahrux, Baysunquru əmirlərdən bir neçəsi ilə birlikdə Yarəhmədin üzərinə göndərir. Gürcüstanın hakimiyyətindəki Esfərzən qalasına sığınan Yarəhmədə aman verilərək, bağışlanması üçün Şahruxun hüzuruna gətirilir və əfv edilir. Bu zaman Yarəlinin, Ketmə Qiyasi iqamətgahına yetişən adamı, Şahruxun hüzuruna qəbul edilir. Ağçaqaladakı iqamətgaha yetişən qasid isə Əmir şah Məlikdən xəbər gətirir ki, Şəki və Dizəğin (Dizək) hakimləri Əleykə bin Çaliğ və Seyid Əhməd arasında nifaq düşmüşdür. Onların düşmənçiliyi İsgəndər Mirzənin Qara Yuluq üzərindəki qələbəsi ilə əlaqədar olmalı idi.

... Məşhur təzkirənin sahibi Dövlətşahın və bəzi digər müəlliflərin yazdıqlarına görə, Şahrux, Azərbaycanın idarə olunmasını oğulları və əmirlərinə təklif etsə də, onlardan heç biri İsgəndərin qorxusundan irəli durmadı. Ona görə də Şahrux Azərbaycanı əvvəlki sahiblərinə buraxdı və Xorasana qayıtdı. Bu barədə Əzizi adlı bir şair gözəl bir beyt də yazmışdır (9, 130-139).

Qaraqoyunlu dövləti Cahan şahın 30 illik hakimiyyəti dövründə təkcə Teymurilərdən azad olaraq istıqlaliyyət qazanmadı, həm də sərhədlərini Van gölündən başlamış, İran çöllərini şərq viayəti Xorasandan ayıran sərhədlərə qədər,

digər tərəfdən, Xəzər dənizindən Fars körfəzinə qədər genişləndirdi. Bu, təqribən bir imperatorluq idi. Məsələnin mahiyyətinə varmaqdan ötrü bu da nəzərə alınmalıdır ki, onlar Cəlairlərin canişinləri, İlxanilərin varisləri idilər. Cahan şahın özünü ilxan adlandırıb-adlandırmasından asılı olmayaraq, Qaraqoyunlular, monqolların siyasi üslub və formalarını götürmüşdülər. Bu, onların monqol ləqəbləri olan xaqan, noyan və bahadır istilahlarından istifadəsində də təzahür edirdi. Qaraqoyunluların saray divanlarında qəbul olunmuş sənədlərin Cəlair sənədləri ilə müqayisəsi və oxşarlığı da bu fikri gücləndirir.

Cahan şah, bu sahədə özündən əvvəlkilərin yolu ilə getsə də, türkmənlərin mədəni nailiyyətləri nəzərə alındıqda, onun şəxsiyyətinin yeni və daha geniş ölçüləri meydana çıxır. Ondan əvvəlki hakimlərin öz zamanlarının mədəniyyət, düşüncə və incəsənət həyatlarına diqqət etmək imkanları olmamışdır. Bilgilərin azlığına və Qaraqoyunlular haqqında təqdim edilmiş məlumatların reallığına görə, onlar hətta xoş baxmadıqları qələm əhlini də təqdir etmiş və qiymətləndirmişlər. Əlbəttə, bizim Qaraqoyunluların mədəni fəaliyyətləri haqqındakı məlumatlarımız müəyyən dərəcədə natamamdır. Cahan şah, xidməti xüsusiyyətlərə, güc və qarət hərisliyinə sahib türkmən başçıları arasında öz hərbi və siyasi, eləcə də, intellektual istedadları ilə seçilirdi. İranın bir sıra şəhərlərində, xüsusən də, Təbrizdə tikdirdiyi Göy məscidin əzəmətli binası hələ də mövcuddur. Cahan şahın ədəbi fəaliyyətləri haqqında çox deyilmişdir. O, fars və türk dillərində şeirlərinin toplandığı divanında Həqiqi və Həqiqət təxəllüslərindən istifadə etmişdir. Güclü əruz

qəlibləri və poetik strukturlu bu əsərlər böyük məharətin məhsuludur və heyrət doğurur.

Cahan şah bir çox şair, ədib və alimə himayədarlıq etmişdir. O, özü də böyük həvəslə zehni və mədəni işlərlə məşğul olmuşdur (63, 171). Volter Hintersin fikrincə, Azərbaycan, onun dövründə mədəni və kulturoloji mərkəzlərdən birinə çevrilmişdir (191, 61).

Bu dövrdə türk dilində yazan şairlərin sayı artmışdır. Tanınmış şair İzəddin Həsənoğludan başqa Qazi Bürhanəddin də Azərbaycan türkcəsində əsərlər yaratmışdır.

Şamaxıda anadan olmuş Seyid İmadəddin Nəsimi XIV əsrin sonlarında, XV əsrin əvvəllərində yaşamış adlı-sanlı Azərbaycan şairi, odlu-alovlu şeirlərini xalq danışıq dilində yazmış, özünəməxsus ədəbi üslub yaratmışdır. O, əsərlərində açıq-aşkar şəkildə dini xurafat nadanlığı, feodal cəmiyyətindəki zülm və istismara qarşı çıxmış, sonunda 1417-ci ildə kafirlikdə və hürufilik ideyalarının təbliğində ittiham edilərək, dərisi soyulmuşdur.

Adıgedən dövrdə Qara Yusif və Cahan şah tərəfindən gümüş sikkələr kəsilmişdir. Həmçinin, nücum, riyaziyyat, coğrafiya, tarix, fəlsəfə, məntiq, dilçilik, ədəbiyyat, lüğətçilik və digər elm sahələrində çoxlu əsərlər meydana gəlmişdir. Seyyid Bakuyi hikmət və nücum, Əbdülrəşid Bakuyi tarix və coğrafiya, Ramazan Lənkərani təbabət sahəsində məşhur olmuşlar (17, 81).

Təbriz Cahanşahilərinin Təbrizdəki sülaləsi Cahan şah Qaraqoyunlu nəslinə mənsubdur. Bununla bağlı doktor Mehdi Müctehidi yazır: "Həşərinin yazdığına görə, Cahaşahi Mir Mehdi Təbatəbainin ailəsinin ulu cəddi hicrinin VII-VIII əsrlərinin nəcabətli seyidlərinə dayanır, Qazan xan

onların əli ilə müsəlman olmuş, Qazan xan tərəfindən önəmli vəzifə olan nəqib[52] məqaməna təyin edilmişdir. Onun övladlarının Cəhanşahi bağlılığının səbəbi budur ki, XIV əsrdə Azərbaycan və Ərəb İraqında hökmdar olmuş Əmir Cahanşah Qaraqoyunlu öz qızlarını Mir Mehdi Təbatəbainin övladları ilə evləndirmişdir ki, onlardan doğulanlar seyid olsunlar. Cahan şah şiə idi, Göy məscidi xanəgah və ziyafətgah olaraq tikdirmişdir. O, özünün qız nəvələri (Cahanşahi seyidləri) üçün çoxlu mülklər vəğf[53] etmişdir. Bununla bağlı etibarlı və əsl sənədlərdən olan "Sərih olmolk" ("Mülkün münasibi") vəğfnaməsi, Səltənət muzeyində mövcuddur. Azərbaycanın bir çox mülklərinin adları həmin vəğfnamədə yazılmışdır.

Cahanşahi ailəsi hər zaman fazil və alim şəxsiyyətlər yetşdirmişdir. Məsələn, Mirzə Əhməd Cahanşahi, onun oğlu Hacı Mirzə Mehdi Cahanşahi; onların hər ikisi tanınmış alim və məşhur ədəbi şəxsiyyətlərdəndirlər. Mirzə Əhməd Cahanşahi, Sahib Cəvahirin, Hacı Mirzə Mehdi Cahanşahi isə Fazil Ərdəkaninin şagirdlərindən olmuşlar.

Nəsirəddin şahın zamanında təşkil olunan ədliyyə divanxanasında bu ailədən olan və əvvəllər ruhani kimi tanınmış şəxslər çalışmışlar. Belə ki, Mirzə Şəfinin əmisi Mirzə Məhəmməd Tağı Sədr Cahanşahi Azərbaycan Divanxanasının sədri olmuşdur.

Mirzə Şəfi Cahanşahi 1882-cü ildə anadan olmuş, babasının yanında tərbiyə almışdır. Təhsilini bitirdikdən sonra

---

[52] Nəqib-seyidlərin başçısı

[53] Vəğf-xeyriyyə mülkü

ədliyyə sahəsində xidmət etmiş, 1909/1910-cu ildə isə ali divanın, yəni İran Ali Məhkəməsinin rəisi olmuşdur.

Cahanşahi pak bir insandır və bütün fazil xüsusiyyətlər onda cəmlənmişdir. Məhkəmə sistemində ustaddır, öz vəzifələrini şərəflə yerinə yetirir, xalq tərəfindən qəbul olunan bir şəxsiyyətdir. Bu ailədən bir neçə məhkəmə və idarə xadimləri də çıxmışdır. Onlar azərbaycanlıların iftixarıdırlar. Hazırda öz qədimliyinə görə, Cahanşahi ailəsi kimi bir ailə yoxdur. Ağqoyunlular dövründən Vəhhabi seyidləri Azərbaycanda məqam və nüfuz sahibi olmuşlar. Halbuki, Cahanşahi seyidləri Qaraqoyunlu, bəlkə də, Qazan xan zamanından həmişə əhalinin diqqət mərkəzində dayanmışlar (94, 63).

## QARABAĞ AĞQOYUNLULAR DÖVRÜNDƏ

Ağqoyunlu türkmənləri, mərkəzləri Diyarbəkirdə olan türkmənlərin birliyi idi. Onların idarəçiləri qədim Oğuz elinin Bayandır tayfasından idilər. Bir hissəsinin XIV əsrin yarısında Trabzona köç etdiyi bu ayfanın adı Bizansın mənbə və məxəzlərində çəkilir. Bu sülalənin real banisi anası Kumnəna xanım olmuş Qara Yuluk Osmandır. Qara Yuluk Osman Bizansın şahzadə qızlarından biri ilə ailə qurmuşdir. Onun sülaləsinin Trabzon imperatorluğu ilə uzun müddət çox yaxın əlaqəsi olmuşdur. Qaraqoyunlu əmirlərinin əksinə olaraq, Qara Yuluğun Teymurla sülhpərvər münasibəti var idi. O, Teymurla birgə 1402-ci ildə Ankarada Osmanlı sultanı Bayazitlə döyüşmüşdür. Teymur, bunun müqabilində mükafat olaraq, Diyarbəkiri ona bağışlamışdı. Qaraqoyunlu türkmənləri bir müddət Ağqoyunlu türkmənlərinin Şərqə yolu üzərində sədd olmuşlar. Ancaq Qaraqoyunluların ünlü əmiri Uzun Həsən, sonunda 1467-ci ildə Cahan şahı məğlub etmişdir. Bundan sonra Sultan Əbu Səid Teymuriyə qalib gələn Uzun Həsən, Qaraqoyunluların hakimiyyətini Xorasan, İraq və Fars körfəzinə qədər bütün İranda bərqərar edə bildi.

Uzun Həsənin əsas düşməni Osmanlı sultanları idilər. Onlar XV əsrdə Anadolunun mövcud dövlətlərini sıradan çıxardılar və Şərqə qarşı davamlı təzyiq etməyə başladılar.

Uzun Həsənin Osmanlılara qarşı siyasəti onu Qaramanlılarla müttəhid etmişdi. Uzun Həsən, arvadı-bizanslı

Despina xatun vasitəsi ilə qohum olduğu Trabzon imperatorlarını Məhəmməd Fatehin hücumlarından qorumağa çalışırdı. Uzun Həsənin hakimiyyəti dövründə Ağqoyunlular dövləti büynəlxalq əhəmiyyət qazandı. 1464-cü ildə Qaraqoyunlular, öz düşmənləri, o cümlədən, Osmanlı sutanları ilə siyasi münasibətlər qurmağa və Ağqoyunlularla müharibəyə hazırlaşmağa başladılar. Buna baxmayaraq, Uzun Həsənin ordusu 1437-ci ildə Tərcan döyüşündə Osmanlıların topxanasının öhdəsindən gələ bilmədi və ağır məğlubiyyətə uğradı (149, 253).

Uzun Həsən, Cahan şah Qaraqoyunlunu öldürəndən və 1 il sonra Qarabağda Sultan Əbu Səid Teymurini məğlub edəndən sonra 2 böyük düşmənini asanlıqla aradan qaldıraraq, böyük şöhrət və diqqətəlayiq etibar qazandı. Bununla da, bütün Ərəb İraqı, Əcəm İraqı, Fars və Kirman, Fars körfəzi sahillərinə qədər onun imperiyasına daxil oldu. Əbunnəsr Həsən bəy, Anadoli sarhədlərindən Ommana qədər olduqca geniş bir ölkənin yaradılmasına nail oldu (130, 651-654).

Valter Hintes, Uzun Həsənin Ağqoyunlulara və Teymurilərə qələbə çalması ilə bağlı olaraq, yazır: "Uzun Həsənin böyük qələbəsindən və Cahan şah Qaraqoyunlunun ölümündən sonra ikincinin dəfələrlə zindana atdığı, ona görə də xəstə ruhlu Həsənəli adlı oğlu bütün xəzinəni hərbçilər arasında bölüşdürdü və bu üzdən də böyük ordu topladı. Sonunda bu müharibə görməmiş, qayda-qanun və tabeçilik öyrənməmiş insanlar, 1468-ci ilin yazında Mərənd yaxınlığında Ağqoyunlularla ilk döyüşdə darmadağın edildilər. Ancaq bu hadisədən əvvəl Həsənəli, Türküstan və

Xorasanın Teymurilərdən olan hakimi Əbu Səiddən kömək istəmişdi ki, bütün İranı ələ keçirsin. Əbu Səid bu hadisədən sonra tatar, kalmık, qaşqay və xorasanlılardan ibarət böyük bir ordu hazırladı və 1468-ci ilin mart ayında Heratdan yola çıxdı, Sərxəs, Nişapur və Məşhədi-Müqəddəs yolu ilə Uzun Həsənlə döyüşməyə gəldi.

Bu şəraitdə Qaraqoyunlular üzərində qələbə artıq bütün əhəmiyyətini itirdi. Çətinliyə düşən Uzun Həsən, ona qarşı irəliləyən düşmənə qarşı bir neçə heyət göndərdi, sülh və anlaşma xahiş etdi. Heç bir nəticə əldə etməyən Uzun Həsən, ata-babalarının Teymuri xanədanı arasındakı dostluğu və səmimiyyəti xatırladaraq, Əbu Səidin bütün İran üzərindəki hajimiyyətini rəsmən tanıdı. Onun yeğanə xahişi və şərti ikincinin Azərbaycanı onun ixtiyarına buraxması oldu. Bununla da, xorasanlıların qərb bölgələrinə qoşun çəkmələri üçün heç bir maneə qalmadı.

1468-ci ilin payızında Əbu Səid Bestam və Rey yolu ilə, nəhayət ki, bir zamanlar monqolların paytaxtı olmuş Sultaniyyəyə çatdı. Bu xəbərin yetişməsi ilə Uzun Həsən hələ də Qaraqoyunluların əlində olan Təbrizi ələ keçirməkdən vaz keçdi və qış fəslini Qarabağın mülayim havasında keçirməkdən ötrü şimala tərəf getdi.

Bu arada Mərənddəki məğlubiyyətdən sonra Ərdəbilə getmiş Həsənəli, Şeyx Cəfər Səfəvinin karvanında Sultaniyyəyə yollandı. Əbu Səid, Şeyxin gəlişindən bir gün sonra onun hüzuruna getdi və saatlarla onunla həmsöhbət oldu.

Sultaniyyədə böyük bir hərb şurası təşkil edildi. Xorasan əmirləri təklif etdilər ki, ordunun qışlamasından ötrü münasib bir yer hazırlansın. Sultaniyyənin sərt qışı məşhurdur. Ona görə də belə münasib görüldü ki, Uzun Həsən

Qarabağdan qovulsun. Doğrudan da, həmin vaxt qoturluq xəstəliyinə tutulmuş atlar üçün yemin olmaması hiss edilirdi. Bununla da, Qarabağa hərəkət etmək qərarı verildi. Şeyx Cəfər, güclü qar çovğununda Əbu Səidi Miyanəyə qədər müşayiət etdi. Oradan o, Ömər bəy Çakərlu ilə Ərdəbilə getdi ki, orada ordunun hərəkəti üçün lazım olan tədbirləri görsün.

3 günlük güclü şaxtalı havadan sonra Əbu Səid Səfəvi məqbərəsinə çatdı. Ölkənin bütün böyükləri onun yanına toplandılar. O, Həsənəlini Təbrizə göndərdi. Həsənəli orada ən pis şəraitdə özünü arsızlığa qoydu və içkiyə qurşandı. Əbu Səid özü isə, təchizat baxımından çox bərbad halda olan və çoxusunun cırıq ayaqqabılarla hərəkət etdiyi əsgərlərlə birlikdə böyük səylə Araz çayının dərəsinə endi.

Orada Uzun Həsəni, çoxlu həyati mənbələrə və qış otlaqlarına malik Qarabağa buraxmamaq üçün cığatay və xorasanlıların yolunu kəsdi. Düşmənin çətinliklərini mümkün qədər artırmaqdan ötrü 1463-cü ildə atası Xəlilin canişini olmuş Şirvanşah Fərrux Yasarı məcbur etdi ki, Araz çayı üzərindəki bütün körpüləri viran etsin və Əbu Səidin əsgərlərinə taxıl satışına mane olsun.

Həm ab-hava, həm də hərbi-strateji baxımdan Uzun Həsənin xeyrinə olmayan belə bir hal və şəraitdə Muğan çölündə tərəflər arasında müharibə oldu. Əbu Səidin ordusunun ön qüvvələrinin komandanı məğlub oldu, əsgərləri isə ya öldürüldü, ya da əsir düşdülər. Əbu Səid başa düşdü ki, vəziyyət başqa cürdür, artıq sülh xahiş etmək növbəsi onundur. Ancaq Uzun Həsən, vaxtilə Əbu Səidin ona etdiyini elədi; hətta Əbu Səidin anasının vəsadəti də bir nəticə

vermədi. Sonunda 28 yanvar 1469-cu ildə Mahmudabad regionunda qəti döyüş baş verdi və tamam başqa sonluq və nəticə ilə bitdi.

Əbu Səid özünü təhlükədən qorumaqdan ötrü arxadakı bütün qoşunları irəli verdi. Buna baxmayaraq, Uzun Həsənin oğlu Zeynal onu əsir götürdü və atasının hüzuruna apardı. Uzun Həsən ona yaxşıca başa saldı ki, vəziyyət dəyişmişdir. Ancaq zahirən onu aradan götürmək istəmədi. Lakin Teymuri şahzadəsi-Şahruxun nəvələrindən Ağqoyunlu ordusundakı şahzadə Yadigar Məhəmməd, anası Gövhər şahbəyimin fitvası ilə Əbu Səidin öldürülməsini istədi. Bu minvalla, 7 fevral 1469-cu ildə Əbu Səid qətlə yetirildi. Onun başı Qahirəyə-Sultan Məmalikə göndərildi.

Bu hadisənin Türküstanda necə yaddaşlarda qaldığını bilməkdən ötrü iranlı tarixçilərdən birinin 1599-cu ildə qələmə aldığı əsərə baxmaq lazımdır. Bu əsərdə Özbəyin özündən artıq gücə sahib birisi tərəfindən təzyiqə məruz qalan sərdarlarından biri özünün və düşməninin taleyini Uzun Həsənlə Əbu Səidin taleyi ilə müqayisə edir. Bu tarixi hadisəni xatırlayaraq, düşmənlə döyüş və ona qalib gəlmək üçün ondan ilham, yəni güc alır.

Həsənəli, özünün ortağı Əbu Səidin məğlubiyyət xəbərini eşidən kimi Həmədana qaçır. Orada 1469-cu ilin aprel ayında Uzun Həsənin oğlu Uğurlu Məhəmməd tərəfindən öldürülür. Bu hadisə ilə sonuncu Qaraqoyunlunun da müqaviməti qırılır. Beləliklə, İran və Azərbaycanın zəngin regionları yetişmiş meyvələr kimi Uzun Həsənin ixtiyarına keçir. O, öz övladlarını ölkənin müxtəlif məmləkətlərinə hakim təyin edir. Yaqub əvvəl İsfahanın hakimi, sonra isə bütün ölkənin padşahı olur.

Uğurlu Məhəmməd bir müddətdən sonra yerini Xəlilə verir və Farsa təyinat alır. Zeynal Kirmanın, Maqsud Bağdadın hakimi olur (191, 67).

Uzun Həsən hərbi qabiliyyətləri ilə birlikdə diqqətaliyiq siyasi bacarığa da malik idi. Bu bacarıq, xüsusən, onun hakimiyyətini sonlarında daha qabarıq bir şəkildə 1471-1478-ci illərdə özünü göstərdi. Konstitusiya özəlliyinə sahib və bu gün mahiyyətinin böyük bir hissəsinin bizə məlum olduğu Həsən padşahın qanunu həmin dövrə aiddir. Bu qanun türkmən imperatorluğunun müxtəlif regionlarının maliyyə-vergi məsələlərini özündə ehtiva edən və əsası qədimlərə bağlanan qaydaları əhatə edirdi. Bu qaydaların toplanması və tənzimlənməsi daha çox belə bir məqsədi güdürdü ki, vergilər artırılmasın, yeniləri təyin olunmasın və xalqın soyulub-talanmasının qarşısı alınsın. Uzun Həsənin icra ediləcək və təsirli vergi qanunvericiliyinin işləkliyinin əhəmiyyətinin qiymətləndirilməsində təkcə onu yada salmaq kifayət edir ki, ondan əvvəl 150 il müddətində xalq qeyri-insani bir şəkildə istismar edilmiş, zülm və müharibə dəhşətlərini yaşamışdır. Uzun Həsənin qanunu təkcə xalqın rifah səviyyəsini qaldırmaq üçün əsas amil olaraq qalmadı, həm də sağlam iqtisadi mühit yaratdı. Adıgedən qanun illər sonra da Osmanlı imperatorluğunda və İranda işlək olmaqda davam etdi. O dövrün Şərq müəllifləri Uzun Həsənin qanununu vurğulamış və onun bütün uğurlarından bəhs etmişlər. Bununla da, adıgedən qanun Qazan xanın vaxtında həyata keçirdiyi islahatları ilə birlikdə iqtisadiyyatda etibar və yüksək işləklik kəsb etdi.

1478-ci ilin yanvar ayında Uzun Həsən 53 yaşında dünyasını dəyişəndə özündən 11 il əvvəl Qaraqoyunlu Cahan

şah tərəfindən yaradılmış Ağqoyunlu imperatorluğundan da geniş bir ərazini əhatə edən bir imperatorluq qoymuşdu. Bu imperatorluq Fərat çayının yuxarı qollarından başlamış Böyük Duz səhrasına, Kirman vilayətinə, Zaqafqaziyadan Beynəlnəhrə və Fars körfəzinə qədər uzanırdı. Uzun Həsən özünə vəliəhd təyin etməmişdi, ancaq buyurmuşdu ki, bu imperatorluq türk əsilli dövlətlərin əleyhinə deyildir. Bu fikir daxili sabitliyi qoruyurdu və onun müəllifinin adının əbədiliyini təmin edir. Oğlu Xəlil Sultanın onun yerinə keçməsinə baxmayaraq, hakimiyyətdə cəmi bir neçə ay qala bildi. Onu devirmiş gənc qardaşı Yaqub isə nisbi sakitliklə 12 il hakimiyyət sürdü. Onun bəxti gətirmişdi ki, İstanbulda Sultan Məhəmməd Fatehin canişini II Bayazid müharibə tərəfdarı deyildi. Həmçinin, Heratın Teymuri hakimi Hüseyn Bayqara və Misir sultanı da ona qarşı təhdid yaratmırdı (63, 187).

Münəccimbaşının yazdığına görə, Uzun Həsən qüdrətli, ağıllı, mömin, xeyirxah və igid bir padşah idi, mərifət ərbabını, qələm sahiblərini himayə edirdi və çoxlu sayda ictimai qurumlar yaratmışdı. O, öz ətrafına kifayət qədər tanınmış fazil və başbilən toplamışdı. Tanınmış fazil Əli Quşçu Məkkə ziyarətindən Təbrizə qayıdanda Uzun Həsən onu qarşılamış və çox ağırlamışdı. Uzun Həsəni görmüş Venesuela dərbarının elçisi Zeno onun haqqında yazır: "Uzun Həsən çox yüksək qüdrətli bir padşahdır. Onun cahcəlalı Daranınkından da artıqdır. Filosof, fazil, alim və şair Mövlana Cəlaləddin Dəvani özünün "Əxlaqe-Cəlali" kimi məşhur olan farsca "Ləvam əl-eşraq" əsərini Uzun Həsənin adına yazmış və bunu bəyan etmişdir. Onun təxəllüsü "Fani" olmuşdur" (103, 767).

Sultan Yaqubön elmə və incəsənətə marağına görə, onun sarayında Əmir Humayun Esfərayni, Molla Şəhidi, Dərviş Dehəki, Mir Məqbul Həbibi və Molla Benayi kimi çoxlu sayda böyük söz ustadları, arif və şairlər toplaşmışlar.

Sultan Yaqubun hakimiyyətinin 9-cu ilində o vaxt böyük sərvət hesab olunan 10 min Şahruxi sikkəsi hədiyyə olaraq Xorasana Əbdürrəhman Camiyə göndərilmişdir. Nəticədə Mövlana Əbdürrəhman Cami "Səlaman və Əbsal" mənzuməsini Sultan Yaqub Bayandura həsr etmişdir. Öz dövrünün söz sərrafı, adıgedən məsnəvinin əvvəlində Həsən padşahla bağlı eşitdiklərini və təxəyyül aləmində duyduqlarını Yaquba müraciətlə rübai şəklində ifadə etdiyi məşhur şeirində Bayandur ailəsinə ehtiramını ifadə etmişdir (25, 616).

Xatırlatmaq gərəkir ki, Uzun Həsən, göstərişi ilə Quranın türk dilinə tərcümə edildiyi ilk türk hökmdarıdır (111, 3).

# QARABAĞ SƏFƏVİLƏR DÖVRÜNDƏ

Səfəvilər dövlətinin yaradılması İran və Yaxın Şərq regionu tarixinin ən mühüm hadisələrindən biridir. Şah İsmayıl Səfəvi XVI əsrin əvvəllərində yerli hakimiyyətləri aradan qaldırmaqla, vahid bir İran yaratdı. O, dini-siyasi fikir və düşüncələrlə şiə məzhəbinə rəsmilik verərək, əsrlərlə davam edən idari-siyasi parçalanmalara son qoyaraq, dövlətin əsasını yaratmağı bacardı, onun dini-siyasi strukturlarını, yerli divanlarını təşkil etdi. Bu qurumlar hətta Səfəvilər dövlətinin süqutundan sonra da öz fəaliyyyətlərini davam etdirdilər və özlərindən sonrakı dövlətlər üçün standartlar rolunu oynadılar.

Kəsrəvi yazır: "Sasanilərin böyük və geniş padşahlığı Fəratdan Ceyhuna, Hind dənizindən Qafqazdakı Dərbəndə qədər böyük bir ərazini əhatə edirdi; özlərinin dediyi kimi, o, bir dünya dövləti idi. Bu dəfə məntəqə-məntəqə olub, hər bir məntəqənin ayrıca özünəməxsus padşahı vardı. Səlcuqlular, monqollar və Əmir Teymur da İranın bu başından o başına keçərək güclü bir hakimiyyət yaratdılar. Ancaq tayfa hakimiyyətlərinin kökünü kəsə bilmədilər. Lakin Səfəvilər dövründə Şah İsmayıldan və Şah Abbasdan başlamış, bu sülalənin güclü şahları İranda vahid bir şahlıq qurmaq üçün çalışdılar və tayfa hakimiyyətlərinin qalıqlarının çoxunu sıradan çıxardılar" (28, 9).

Səid Nəfisinin sözləri ilə desək, İran hakimiyyətində Səfəvilərin yaratdıqları, əsas Məşrutə dövrünün başlanğıcına qədər davam etdi. Hətta Səfəvilərin saray mənsublarına

və vəzifə sahiblərinə verdikləri türkcə adlar və ləqəblər, eləcə də, ölkənin inzibati ərazi bölgüsü və idarəçiliyi, ordunun təşkili, ruhanilərin nüfuzu, köçəri tayfalardan dəstəyin saxlanması və s. qaydaları 300 yüz ildən artıq bir müddətdə rəvac olmaqda davam etdi (120, 72).

Bu dövlət, eyni zamanda, türk hökumətlərinin miraslarından bəhrələndi, təşəbbüs və yaradıcılıqlarının reallaşdırılmasından ötrü öz coğrafi hüdudları daxilində rəsmi məzhəbini, mərkəzləşmiş idari-siyasi sistemini yaratdı... Səfəvi dövlətinin meydana çıxması elə bir dövrün başlanğıcıdır ki, İran beynəlxalq münasibətlərdə müstəqil bir subyekt kimi zahir oldu, geniş xarici ticarət daxili iqtisadiyyatın çiçəklənməsini gücləndirdi (123, 21).

Səfəvilər, hakimiyyətə gəlməkdən ötrü tarixi zərurətlər və təsirli ictimai amillərdən bacarıqla yararlandılar.

Səfəvilər hərəkatının təsirləri bir və ya bir neçə tarixi mərhələ amilləri ilə məhdudlaşmır, əksinə, onun nəticələri və nailiyyətləri təkcə İranda deyil, həm də başqa bir neçə coğrafi regionda bizim dövrümüzə qədər qalmış və qalmaqda davam edir (57, 6).

Səfəvi hərəkatı öz dövrünün siyasi problemlərnin bir çoxunu sıradan çıxarmağı və nizamlamağı bacardı. Bu səbəbdən də, Valter Hintes hesab edir ki, XVI əsrin əvvəllərində İranda Səfəvilər sülaləsinin meydana gəlməsi təkcə İran və onun qonşuları deyil, bəlkə, bütövlükdə, Avropa üçün də çox mühüm tarixi hadisə hesab olunur (191, 13).

Prof Faruğ Sumer də öz əsərinin "Müqəddimə"sində yazır ki, Səfəvi dövlətinin yaranması islam və Türkiyə tarixinin mühüm hadisələrindən biridir. Bu hadisənin əhəmiy-

yətli nəticəsi islam dünyasında yeni bir mərkəzin yaranmasıdır. Yaranmış mərkəz bu gün də davam etməkdə və öz məna və məzmununu qoruyub saxlamaqdadır. Bu mövzunun əsas və önəmli mahiyyəti şiələrin Anadoludan İrana gəlmələridir. İranda şiə məzhəbinin qurucu amilləri elə Anadoludakı qızılbaş türklərinin arasında Səfəvi şiə dövlətinin təşkili ünsürləri idilər (123, 5-17).

İranda Səfəvi hökumətinin qurulmasını Şah İsmayıla aid etsələr də, əslində, bu, onun cəddi babası Cüneydə və atası Heydərə bağlıdır. Çünki Şərqdə bu güclü dövlətin qurulması və əsrarəngiz hadisənin yaranması məsələsini ortaya onlar atmışdılar. Nəticə etibarı ilə bu iki tarixi şəxsiyyətin səbrli, məqsədyönlü və mahir planları olmasaydı, Şah İsmayıl meydana çıxmazdı (114, 8).

Həqiqətən, Şeyx Səfiəddin Ərdəbilinin XV əsrdə qurduğu Səfəvi təriqəti, canişinləri, xüsusən də, Cüneyd və Heydər tərəfindən onun gücləndirilməsi 2 qərinə sonra Səfəvi dövlətinin qurucusu Şah İsmayılın fəaliyyətləri üçün güclü bir baza yaratmışdı.

Qeyd edilməlidir ki, Səfəvi dövlətinin ardıcıllarının əksəriyyəti Anadoludan sonra Qarabağdan idilər və burada fəaliyyət göstərmişlər. Professor Faruğ Sumer yazır: "Səfəvi təriqətinin başı Azərbaycanın Ərdəbil bölgəsində, bədəni isə Anadoluda olmuşdur. Təriqətin İrandakı ardıcıllarının sayı çox az olmuşdur. Onların çoxu Ərdəbil, Qaraçadağ türkləri, talış camaatı, Aranda yaşayan qacar və qaraqoyunlu köçəriləri hesab edilirdilər" (123, 5-17).

Cüneyd və Heydər, siyasi hakimiyyətə gəlməkdən ötrü öz səylərini davam etdirərkən, Arazın o tayında həlak olmuşlar.

Şeyx Cüneyd, 1459-cu ilin payızında Ərdəbildə cahad etməkdən ötrü çərkəzlərin ölkəsinə getmiş və Gürcüstanda böyük qırğınlar törətmişdi. Şirvanın hakimi Xəlil Sultan, Cüneydin Qarabağda yerləşməsindən təşvişə düşmüşdü. Ancaq Cüneydin əmisi Şeyx Cəfərdən gələn və Cüneydi ruhani şəxsiyyət kimi deyil, yağı kimi təqdim edən məktubu, onu Cüneydə hücum etmək fikrindən daşındırdı. Bu məqsəd Cahan şahın Təbrizdən daxil olacaq kömək qoşununun gəlməməsi ilə daha da gücləndi. Şirvan hakimi paytaxtı Şamaxıdan Qarasu dərəsinə tərəf hərəkət etdi. Cüneyd qaçmağa macal tapmadı. 1460-cı ilin mart ayında tərəflər arasında şiddətli döyüş baş verdi. Həmin döyüşdə Cüneyd aldığı ox yarasından həlak oldu (93, 33). Ürəkdən döyüşən səfəvilər, rəhbərlərinin ölümündən sonra qaçmağa üz qoydular. Cüneydin cəsədi etibarlı köməkçiləri tərəfindən döyüş meydaanından çıxarıldı və həmin məntəqədə-Qurbal, yaxud Qurnal adlı yerdə dəfn edildi və məzarı tezliklə ziyarətgaha çevrildi (191, 102).

Bir mənbənin verdiyi məlumata görə, Şeyx Səfinin övladının tərəfdarı olan bir dəstə təbərsər, Cüneydin nəşini Quryan kəndindən çıxarıb Quba vilayətinə apardılar və orada basdırdılar. Bir təbərsər ailəsi Cüneydin yeni məzarının xidmətçisi oldu. Cüneydin basdırıldığı kənd sonralar "Həzərə" adlandırıldı (167, 144).

Cüneydin ölümündən bir ay sonra 1460-cı ilin aprelində onun xanımı Xədicə bəyim Dəramədin bir oğlu oldu və adını Heydər qoydular. Uzun Həsən, şəxsən Səfəvilərin bu ən kiçik nümayəndəsin öz qəyyumluğuna götürdü. Uzun Həsən, Qaraqoyunlularla qəti döyüşdə fateh olana qədər,

Heydər, Ağqoyunluların paytaxtında böyüdü. Ondan sonra Təbriz paytaxt oldu və 9 yaşlı Heydər Ərdəbilə getdi və üzünü görmədiyi atası Cüneydin rəsmən canişini oldu.

Uzun Həsənin bacısı, Sultan Yaqubun bibisi və Şeyx Cüneydin dul arvadı Xədicə bəyim 1488-ci ildə Ərdəbildən, şiələrin ziyarətgahı olan Qum şəhərinə getdi. Buranın hakimi Sultan Yaqub ilə görüşdü və oğlu Heydərin çərkəslər üzərinə yeni hücum etmək üçün qoşun çəkməsinə icazə verilməsini xahiş etdi. Bibisi oğlu, Heydərin xətrini istəyən Sultan Yaqub, qaynatası Şirvanşah Fərrux Yasara bir fərman göndərdi ki, çərkəslərə qarşı cahad müharibəsində Heydərə kömək etsin.

Xədicə bəyim bu xəbərlə Ərdəbilə dönən kimi Şeyx Heydər vaxt itirmədən əcdadlarından ona miras qalan informasiya vasitələrini işə saldı. Yaxşı təchiz olunmuş və kifayət qədər mükəmməl işləyən bu vasitələr heç bir problem olmadan Şeyx Heydərin xəlifələrini onun təbəələri, xüsusən, Talış (Xəzər sahili region) və Qarabağ əhalisi ilə əlaqələndirdilər (191, 102).

Heydər, xüsusən, atasının intiqamını Şirvanşahdan almaq istəyirdi. Ona görə də sürətli bir şəkildə lazımi döyüş hazırlıqlarına başladı. Mahir bir silah ustası olan Heydər, öz səyləri ilə tərəfdarlarını təşviq edir, həm də ordusunu qaydaya salmaqdan ötrü lazımi təşkilati işləri yerinə yetirirdi. O, döyüşçüləri üçün vahid uniforma və qırmızı rəngli 12 ləl追kli türk papaq belə hazırlatmışdı. Bu papaq Heydər papağı kimi məşhurlaşmışdı. Lələklər üzərində 12 imamın adı yazılmışdı. Qızılbaş adı həmin qırmızı papaqdan yaranmışdır (93, 38).

Heydərin müridlərinin sayının günbəgün artması onu məcbur etdi ki, hərəkətə keçsin. Hətta özü istəsəydi belə, bu hərəkatın qabağını ala bilməzdi... Döyüş uğurla başa çatdı. Heydər və ordusu böyük bir qənimətlə geri döndü. Növbəti ildəki səfər də beləcə uğurlu oldu. Ardıcıl olaraq qazanılan bu müvəffəqiyyətlər Heydərin şöhrətinin və nüfuzunun artmasına çox təsir etdi.

Şeyx Heydər 1488-ci ildə III dəfə Şirvana daxil oldu. Onun məqsədi Şirvanşahı məhv etmək idi. Ordusunun sayca daha çox və daha təchizatlı olmasına baxmayaraq, özünü Heydərin müqabilində bacarıqsız hiss edən Şirvanşah Fərrux Yasar, çarəni Qarabağdakı Qalaya (Gülüstan) pənah apararaq, gizlənməkdə və kürəkəni Yaqub bəydən təcili kömək istəməkdə gördü.

Canlarından keçməyə hazır olan müridlərinə arxayın olan Şeyx Heydər, qorxmaz qərarları ilə özünü, dayısı oğlu Sultan Yaqubun sərkərdəsi Süleyman bəy Bijən oğlunun qoşunu ilə döyüşməyə hazırladı. 1488-ci ilin avqust ayında baş verən döyüşdə müridlərin qeyri-adi fədakarlıqlarına baxmayaraq, Şeyx Heydərin ölümü onların məğlubiyyətinə səbəb oldu.

İkinci zərbədən sonra da müridlər sarsılmadılar və Şeyx Heydərin oğlanlarından Sultan Əlinin ətrafında birləşdilər. Bu təhlükəni hiss edən Sultan Yaqub, bacısının 3 oğlunu (Əli, İsmayıl və İbrahim) Farsda İstəxr qalasında zindana saldırdı. Onlar təqribən 4,5 il zindanda qaldılar. Bu müddətdə Sultan Yaqub Qarabağda dünyasını dəyişdi və Ağqoyunlu sülaləsində canişinlik uğrunda çəişmələr baş alıb getdi. 1492-ci ildə Maqsud bəyin oğlu, Uzun Həsənin nəvəsi Rüstəm bəy hakimiyyəti ələ aldı. O, Sultan Yaqubun

oğlu Baysunqura qarşı mübarizədə Səfəvi müridlərinin nüfuzundan istifadə etməkdən ötrü Sultan Əli və qardaşlarını zindandan azad etdi.

Rüstəm bəy, düşməni Baysunqur Mirzəni məğlub etdi, ancaq 1493-cü ilin avqustunda ondan daha təhlükəli olan Sultan Əli ilə qarşı-qarşıya qaldı. Rüstəm bəy, öz sülaləsinin əmirlərindən Ayibə Sultanın sərkərdəliyi ilə gənc Səfəvi şeyxini Baysunqurun taleyinə düçar etdi (123, 19-68).

Şah İsmayılın siyasi-ictimai fəaliyyəti onun Lahicandan Ərdəbilə səfəri ilə başladı. Bu səfərdə onu azsaylı müridləri və tərəfdarları müşayiət edirdilər. Hüseyn Bəyulla, Dədə bəy Talış, Xadim bəy Xəlifə, Rüstəm bəy Qəhrəmani, Biram bəy Qaramani, İlyas bəy Uyqur oğlu və Qarapiri bəy Qacar da Şah İsmayılla birlikdə yola çıxmışdılar (93 Mirəh, 43). Bu şəxsiyyətlərdən Biram bəy Qaramani (Qaramanlu) və Qarapiri bəy Qacar Qarabağdan idilər. Faruğ Sumer yazır: "Qaramanlılardan olan Biram bəy və Rüstəm bəy Şeyx Heydərin və Şah İsmayılın yaxınlarından olmuş, Səfəvilər dövləti qurulandan sonra Biram bəy divanbəyi vəzifəsinə yetişmişdi" (123, 19-68).

Şah İsmayılın tərəfdarları müxtəlif yolüstü məntəqələrdə onun dəstəsinə qoşulurdular. Bu minvalla, səfər əhlinin sayı sürətlə çoxalırdı. Çox keçmədi ki, dəstədəki insanların sayı 1500-ə çatdı. Şah İsmayılın yolu Dilmandan Tarıma, oradan da Ərdəbilə tərəf idi. "Aləm-arayi Abbasi"nin müəllifinin yazdığına görə, Ərdəbil hakimi Sultanəli bəy Çakərlunun razılığı olmadan, hər zaman Səfəvi təriqətinin ardıcılları ilə dolu olan bu şəhərə giriş asanlıqla baş tutdu. Qızılbaş tərəfdarları Şah İsmayılın ətrafına toplandılar. An-

caq "Aləm-arayi Səfəvi"nin müəllifi, Şah İsmayılın Ərdəbilə daxil olması ilə bağlı yazır ki, həmin vaxt münasib şərait olmadığından, Şah İsmayıl Qarabağa getmişdir.

Qızılbaşlar ilk vaxtlarda ustaclu, təkəllu (təkəlu), baharlı (rumlu), zülqədər, əfşar və qaçar tayfalarından olmuşlar. Onların hamısının başında "Kamil mürşid" İsmayıl dururdu. İsmayılın müridləri fədakar və mərdanə bir ruha sahib idilər və mürşidləri yolunda heç bir xidmətdən çəkinmirdilər.

İsmayıl qısa bir müddətdə qızılbaşlardan ibarət təchizatlı bir ordu yarada bildi və atasının intiqamını almaqdan ötrü Şirvana üz tutdu. Bu səfərdə Bayram bəy Qaramanlu və başqa böyüklər də onu müşayiət edirdilər. Onlar əməli olaraq, hərbi işlərə rəhbərlik edirdilər (93, 43).

Ceyms Davon yazır ki, Gəncənin şiələri, xanəgah mürşidi Şah İsmayılı qarşılamaq üçün şəhərin 10 fərsəngliyində gözləyirdilər. Onlar şəhərin ən gözəl imarətini Şah İsmayıl üçün tədarük etmişdilər.

Gəncəyə daxil olanda, Şirvanşahın müharibə üçün əsgər toplamaqla məşğul olduğunu eşidən Şah İsmayıl, başa düşdü ki, tərəf onunla döyüşə hazırlaşır.

Seçilmiş müridlər gənc mürşidlərinin ziyarətinə gəlirdilər. Şah İsmayıl onlara deyirdi ki, bura daha təhlükəsiz olduğundan Ərdəbildən bura gəldik. Ancaq burada daha böyük təhlükə bizi təhdid edir. Bu, bizi aradan götürmək üçün Rüstəm bəylə Şirvanşahın yaratdıqları ittifaqdır. Hal-hazırda onlar bizə həmlə etmək üçün ordularını hazırlamaqla məşğuldurlar.

Şah İsmayılın yanında olan və vaxtilə onun atası Şeyx Heydərə xidmət etmiş Div Sultan Rumlu ehtiramla dedi ki,

ey böyük mürşid, xoşbəxtlikdən, burada, Naxçıvanda, Şirvanın özündə xanəgahın çoxlu sayda müridləri var, onların hamısından kömək almaq olar. Şah İsmayıl buyurdu ki, yalnız şiələri çağırmaq kifayət deyil, həm də onlara təlim verilməlidir. Bizim, sallaqxanada qoyun kimi Şirvanşahın və Rüstəm bəyin əsgərlərinin qılınclarına qurban gedəcək şəxslərə deyil, döyüşkən insanlara ehtiyacımız vardır.

Şah İsmayılın qüvvəsi döyüşə girəcək sayda olanda o, qərar verdi ki, əvvəl Şirvanşahla döyüşsün. Çünki Şirvanşah, Rüstəm bəydən daha təhlükəli idi.

Səfərbərlik işlərini bitirən Şirvanşah, tezliklə Şah İsmayıla qarşı vuruşmaq niyyətində idi, lakin Şah İsmayıl onun Gəncəyə hücuma keçməsini gözləmədən yürüşə çıxdı.

Şirvan və Gəncənin o vaxtkı coğrafi vəziyyəti indiki kimi idi. Fərq ordaydı ki, bu iki məntəqə arasından axan Kür çayı məcrasını dəyişmişdir.

O zaman Gəncə və Şirvan bir-birindən ayrı hakimiyyət hesab olunurdu və onları Kür çayı ayırırdı. Çay məcrasını dəyişdiyindən onun keçid məntəqələri də dəyişmişdir. Hazırda elə keçid məntəqələri mövcuddur ki, keçmişdə onlar olmamışdır (74, 119).

Şirvanşah Fərrux Yasar 20 min atlı və bir neçə min piyada ilə tələsik Gülüstan qalası civarında ordugah qurdu. 1501-ci ildə Gülüstan yaxınlığında baş verən döyüşdə Şah İsmayıl qoşununun sağ cinahının komandanlığını şamlu tayfasının başçısına, sol cinahının komandanlığını isə ustaclı tayfasının başçısına tapşırmışdı. Rumlu və təkəlli tayfasının başçıları isə qoşunun ön qarovul dəstəsinin başında dururdular. Şah İsmayıl özü isə qoşunun ortasında mövqe tutmuşdu... Bu döyüşdə Şirvanşah, Hüseyn Bəyullanın

adamlarından Şahgəldi tərəfindən öldürüldü. Bununla da, Şah İsmayıl şöhrət qazandı. O, qarşı tərəfə çoxlu sayda itki verdi və ərazini viranəyə çevirdi və kifayət qədər qənimətlər əldə etdi. Bu döyüşdə Şirvanşah Fərrux Yasarın oğlu Sultan İbrahim canını sağ qurtara bildi və Gilana qaçdı. Fürsətdən istifadə edən Şah İsmayıl, Bakını da ələ keçirdi. Ancaq Əlvənd Mirzə Ağqoyunlunun ordusu yaxınlıqda olduğuna görə, Gülüstan qalasını uzun müddət mühasirədə saxlamadı (93, 44).

Çox keçmədi ki, qızılbaşlar Naxçıvan regionunda Ağqoyunlu hakimi ilə döyüşə girdilər. Ağqoyunlu hakimi ordusuna etibar etmədiyindən əmr vermişdi ki, onu hər iki tərəfdən bir-birinə zəncirlə bağlanmış dəvələrlə mühasirəyə alsınlar. Döyüş Ağqoyunlu ordusunun darmadağın edilməsi ilə başa çatdı və qızılbaşlar çoxlu sayda qənimətlər əldə etdilər.

Bu qələbədən sonra 1501-ci ildə Şah İsmayıl böyük bir təntənə ilə Təbrizə daxil oldu və 1502-ci ildə özünü şah elan elədi. Bununla da, Təbriz şəhərində Səfəvi dövlətinin əsası qoyuldu. Əvvəldə bu dövlətin əhalisinin əksəriyyəti Azərbaycan türkləri idilər. Hərbi, maliyyə, vilayətlərin idarəçiliyi və sarayın bütün vəzifələri Azərbaycan türk əyanlarının əlidə idi. Ordu da, əsasən, Azərbaycan türk tayfalarından təşkil olunmuşdu. Saray, hərbi və müəyyən qədər siyasi yazışmalar türk dilində aparılırdı (17, 85).

Təbriz şəhəri Səfəvi dövlətinin yaradılmasından 1555-ci ilədək təkcə onun idari, siyasi deyil, eyni zamanda, ölkənin iqtisadi və ictimai mərkəzi oldu (61, 98).

Bununla da, Şeyx Cüneydin və oğlunun sonsuz səyləri və fədakarlıqları mümkün olmayan ideyanı mümkün etdi və reallaşdırdı (123, 31).

Şah İsmayıl, qızılbaşların köməyi ilə İranın vəhdətini təmin etməyi bacardı. O, Lahıcandan çıxandan sonra Kirman, Fars və Xorasandan başlamış, Xuzistan və Ərəb İraqına qədər bütün İranı vahid bir bayraq altında birləşdirdi, tayfa hakimiyyətlərinə son qoydu və mərkəzləşdirmə siyasətini gerçəkləşdirdi (57, 90).

Əvvəllər də qeyd etdiyimiz kimi, Qarabağ torpağı qədimdən müxtəlif dövrlərdə İran Azərbaycanı ilə ortaq taleyə malik olmuşdur və Təbrizi özlərinə paytaxt seçmiş fərqli sülalələr, gözəl iqliminə görə, Qarabağdan qışlaq kimi istifadə etmişlər. Təbriz paytaxt olmaqla, Şah İsmayıl Səfəvinin hakimiyyəti sabitləşəndən, təmərküzləşmə siyasəti reallaşandan və Azərbaycanın müxtəlif əyalətləri bir parça olandan sonra ölkə, aşağıdakı 4 bəylərbəyliyə bölündü:

1. Təbriz;
2. Qarabağ;
3. Çuxursəəd;
4. Şirvan (181, 85).

Təbriz bəylərbəyiliyi, indiki Şərqi Azərbaycan, Qərbi Azrbaycan, Ərdəbil vilayətlərini, eləcə də, Astara, Talış, Zəncan, Sultaniyyə və hazırda Ermənistanda olan Qapan (Zəngəzur) regionunun böyük hissələrini əhatə edirdi.

Qarabağ bəylərbəyiliyi Gəncə, Bərdə, Bərgüşad, Lori, Cavanşir regionlarından ibarət idi.

Çuxursəəd bəylərbəyiliyi İrəvan, Naxçıvan, Maku və Bayazidi əhatə edirdi.

Nəhayət, Şirvan bəylərbəyiliyi Bakı, Şəki, Quba və Salyandan ibarət idi (175, 51).

Səfəvilərin inzibati idarəetmə əsaslarını mükəmməl bilən və Əşrəf Əfqanın göstərişi ilə "Təzkirət ül-moluk" əsərini qələmə almış Mirzə Səmia, adıgedən əsərdə Səfəvilər dövründə Qarabağ bəylərbəyiliyi və onun tabeliyindəkilərin gəlirinin 24726 tümən 978 dinar olduğunu yazmış və sonra Qarabağ bəylərbəyiliyi tabeliyindəki şəhərlərin hakimlərinin xidmətçilərinin sayını diqqətlə qələmə almışdır. Yeri gəlmişkən, 1 haşiyə çıxaq və yalnız şəhərlərin və məntəqələrin hakimlərini qeyd etməklə kifayətlənək. Qarabağ bəylərbəyiliyinə tabe olan hakimlər: Zəkəm hakimi, Bərdə hakimi, Ehnabad hakimi, Cavanşir hakimi, Bərgüşad hakimi, Qara ağac hakimi, Luri və Pənbək hakimi, Arasbar ölkəsi alkayı və Bayazidlu eli hakimi, Səmavi və Tərkur ölkəsi hakimi (181, 70-76).

Şah İsmayıl Şirvana II səfərindən geri qayıdanda Qarabağa getmiş və ora çatanda onu qarşılayanda ona quşatan tamaşası da göstərmişlər. Tamaşaya baxandan və ona verilən şərhi dinləyən Şah İsmayılın bu silah haqqındakı fikri dəyişmiş və onun müharibəyə layiq bir silah olduğu qənaətinə gəlmişdir.

Şah İsmayılın quşatan barədəki fikrinin dəyişməsinə səbəb olan o idi ki, Qarabağ quşatani ilə 300 zər[54] məsafədən hədəfi sürətli güllələrdən vura bilirdilər. O günə qədər Şah İsmayıl quşatan ilə sorbi patronunun atılmasını görməmişdi və elə güman edirdi ki, quşatanla daşdan başqa bir şey atmaq olmaz.

---

[54] Zər-107 sm-ə bərabər ölçü vahididir.

Məlum oldu ki, sorbla tüfəng üçün güllə töküldüyü kimi, quşatan üçün də güllə tökmək olar və quşatanla atılan sorbi patron daşdan daha tez atılır və onun gülləsi yumru olduğu üçün hədəfə isabət ehtimalı daş güllədən artıqdır. Tüfəngdən üstünlüyü isə bundadır ki, ikinci atışdan sonra tüfəng qızır, halbuki, quşatan qızmır. Onun patronu olana qədər düşməni məhv etmək mümkündür. Hətta patron bitəndən sonra da onunla daş atıla bilər. Ancaq standart həcmə və formaya malik olmayan daşın atılma və nişanalma imkanı sorbidən üstün deyil.

Oxatmada məharət sahibi olan Şah İsmayıl, quşatan atmada özünü yoxlamaqdan ötrü quşatani əlinə aldı və sorbi gülləni ona yerləşdirdi, çəkdi və buraxdı. Məmnuniyyətlə müşahidə etdi ki, güllə 300 zər məsafəni qət etdi, ancaq hədəfi vura bilmədi. Buna görə heç kəs ona irad tuta bilməzdi, çünki bu iş təcrübə tələb edir. Təcrübəsi olmayan sorbi gülləni hədəfə vura bilməz.

Şah İsmayıla dedilər ki, sorbi güllənin zərbəsi elə güclüdür ki, düşmən zireh geyməmiş olsa, hətta 150 zər məsafədən güllə bədənə daxil olur. Bu baxımdan o, tüfəng gülləsi kimidir, ancaq isti olmadığından bədənə daxil olandan sonra genişlənmir və şəmxal gülləsi qədər çox təhlükəli olmur. Ancaq məsafə yaxın olanda, düşməni sıradan çıxarır.

O vaxta qədər quşatanı döyüş əhəmiyyətli bir silah hesab etməyən Şah İsmayıl, başa düşdü ki, əgər ondan yaxşı istifadə edilsə, həcm baxımından standart olmayan daşlarla müqayisədə sorbi patronlardan istifadə olunarsa, o, təsirli bir silah hesab edilə bilər (76, 481).

Çaldıran döyüşü Şah İsmayıl Səfəvi hakimiyyətinin mühüm hadisələrindən biridir. Osmanlı Sultan Səlim Azərbaycana yürüş etməzdən və Çaldıran düzündə Şah İsmayıl ilə qarşı-qarşıya gəlməzdən qabaq şiələrin yaşadıqları 2 regionu-Diyarbəkiri və Qarabağı ələ keçirməkdən ötrü ora qoşun göndərdi. Osmanlıların Qarabağa bu yürüşü haqqında "Çaldıran və Yunanıstanda iranlıların hərb padşahı" kitabında belə yazılmışdır: "Urmu gölünün şimal-qərbində böyük bir əşirət (tayfa) yaşayırdı. Onun başçısının adı Məhəmməd Qarabaği idi. Bu əşirətin keçmişi haqqında əldə məlumat yoxdur. Ancaq şübhə yoxdur ki, o, Qarabağdan ora köçmüşdür. 1000-ci ildən sonra Şərqdə, xüsusən, Qafqaz və İranda bəzi əşirətlər siyasi səbəblərdən yer dəyişmişlər. Yəni, o zamankı sultanlar onları bir regiondan başqasına köçürmüşlər. Bu yolla da əşirətlər arasındakı ixtilaf və müharibələrin qarşısını almışlar. Osmanlı zabiti İzzət Çapinin görüşə təhrik etdiyi ilk şəxs Məhəmməd Qarabaği olur...

Sultan Səlim, İrana qoşun çəkməmişdən və Çaldıran döyüşündən qabaq, zamanın tələblərinə uyğun olaraq böyük olan öz ordusunu 3 yerə bölür; I hissə Diyarbəkiri, II hissə Qarabağı işğal etməyə yola düşür. Özü isə III hissə ilə Van gölünün şimalından keçərək, Azərbaycana doğru irəliləyir.

Qarabağı işğal etməli olan qoşuna Yunis Orxan adlı əmir başçılıq edirdi. Sultan Səlim, Diyarbəkir və Qarabağın işğalını umumi işğalın bir parçası hesab edirdi. Ona görə, adıgedən vilayətlər qısa bir zamanda ələ keçiriləcəkdi. Bu üzdən də, ora göndərilən qoşunların əmirlərinə göstəriş vermişdi ki, getdikləri yerdə işlərini bitirəndən dərhal son-

ra yola çıxaraq, ona birləşsinlər. Yunis Orxan Qarabağa yetişəndə baharın son ay, yəni elin yay fəslini keçirmək üçün qışlaqdan yaylağa getmək vaxtı idi.

Osmanlı zabiti İzzət Çapinin aldada bilmədiyi Məhəmməd Qarabaği, öz eli ilə birlikdə yayı keçirməkdən ötrü Qarabağa gəlmişdi. O, Osmanlı qoşununun Qarabağa girməsi xəbərini alan kimi əksəriyyəti şiə olan yerli xanların hamısını topladı və dedi ki, osmanlılar İran padşahını qəfil yaxaladılar; Şah İsmayılın Azərbaycanda olmadığı bir vaxta fürsətdən istifadə edərək, hücuma keçdilər. Buna görə bizim Qarabağı müdafiə etməmiz çətindir, ancaq buna baxmayaraq, biz bu müşkül vəzifəni öz öhdəmizə götürməliyik.

Qarabağda Dağdalı adlı bir məntəqə var. Məhəmməd Qarabaği tayfaların başçılarına tapşırdı ki, mümkün qədər tez bir şəkildə arvad-uşağı və mal-qaranı ora göndərsinlər ki, müharibə zonasından uzaq olsunlar və onlara bir zərər dəyməsin və tələf olmasınlar.

Sübhdən 1 saat əvvəl Osmanlı əsgərlərinin əşirətlərə qarşı hücumu başladı. Könüllü olaraq ölümə gedən atlı Osmanlı əsgərləri qabaqdakı piyada əşirətlərin mövqelərinin mərkəzinə soxuldular. Sağ və soldan isə barıt və dördparça dolu kuzələri müdafiəçilərin üzərinə atırdılar. Qarabağ əşirətləri, onlara qarşı atılan gözləmədikləri silahlardan heyrətlənirdilər. Osmanlılar, Qarabağ müdafiəçilərinin mərkəzində irəliləyərək özlərinə uzun bir dəhliz açdılar və onların piyadaları bu dəhlizə daxil olaraq irəlilədilər. Qarabağ hakimi, əşirətlərin qoşun başçısı Soulət İnanlu davamlı olaraq, əmr verirdi ki, hücum edənləri görmək üçün məşəllər yandırılsın.

Çox keçmədi ki, qoşunların dəhşətli üz-üzə döyüşləri başladı. Artıq dan yeri sökülürdü. Bu ağır döyüşdə qılınc, nizə və ox zərbəsi alan Orxanın əsgərlərindən 25 min, əşirət qoşunundan isə 15 min nəfər həlak oldu. Çünki əşirətlilər geri çəkilmək fikrində deyildilər və son nəfəslərinədək döyüşürdülər. Osmanlı sərkərdəsi başa düşdü ki, əşirətlərə qalib gəlmək elə də asan bir iş deyil.

Əşirətlər tərəfindən əlavə 2500 əsgərin döyüşə daxil edilməsi vəziyyətə ciddi təsir etdi. Osmanlı sərkərdəsi əsgərlərinə əmr verdi ki, geri çəkilsinlər. Döyüşə yeni daxil edilən əsgərlər onları təqib etmək istəsələr də, Soulət İnanlu buna icazə vermədi.

Döyüşün belə bitməsi Osmanlı sərkərdəsi Orxanın ovqatını çox acı eləmişdi; o, bu məğlubiyyətin hesabatını sultana necə verəcəyini bilmirdi.

Orxan, Sultan Səlimin Qarabağa göndərdiyi qüvvə ilə bağlı bir plana sahib olduğunu bilirdi. Bu plana görə, adıgedən qüvvə Azərbaycanda sağ-salamat sultanın ordusuna birləşməli idi. Ancaq Orxanın ordusunda cəmi 16 min nəfərdən bir az artıq canlı qüvvə qalmışdı. Ona görə də o, bu azsaylı qoşun ilə nə döyüşə, nə də Sultan Səlimin ordusuna qatıla bilirdi.

Osmanlı sərkərdəsi Orxanın ruhunun pozulduğu belə bir şəraitdə, onun əksinə olaraq, əşirət qoşununun əhval-ruhiyyəsi qeyri-adi dərəcədə yüksək idi. Bu məqama diqqət edilməlidir ki, həmin dövrdə Osmanlı ordusu böyük bir şöhrətə sahib idi və belə bir fikir hökm sürürdü ki, heç bir qüvvə onu məğlub edə bilməz. Ona ancaq o halda qələbə çalına bilər ki, onun zabitləri xəyanət etsinlər. Osmanlı ordusunun əsassız olmayan bu şöhrəti insanların və xalqların

ürəklərində xof yaratmışdı. Osmanlıların iki ordusu, xüsusən, məşhur idi və onlardan çox qorxurdular. Bunlardan biri yeniçərlər, digəri isə İçoğlan adlanırdı. Adıgedən döyüşdə məhz yeniçərlər məğlub edilmişdi. Bununla da, sübut olunmuşdu ki, Osmanlı ordusunu məğlub etmək olar. Həm də bunun üçün xüsusi təlim görmüş bir orduya ehtiyac yoxdur. Qarabağ döyüşü göstərdi ki, ölümü gözünə almış, geri çəkilmək fikrində olmayan 1 ovuc fədakar və qərarlı əsgər də osmanlıları məğlub edə bilər.

Əşirətlərin qoşununun başçısı Sulət İnanlu belə qərara gəldi ki, Qarabağ döyüşündəki qələbə xəbərini Şah İsmayıla rapor etsin. O, bunun üçün məlumatlı bir nəfər seçdi ki, Qarabağın vəziyyətini və döyüşün təfsilatını padşaha çatdıra bilsin. Seçilən Məhəmməd Qarabaği idi.

Məhəmməd Qarabaği, Osmanlı əsgərləri ilə rastlaşmamaq üçün ara yollarla Təbrizə yola düşdü (124, 39-179-420).

Atası və cəddi Qarabağda öldürülmüş Şah İsmayıl da özünün macəralarla dolu həyatının son günlərini Arazın o tayında keçirdi. O, 1523-cü ilin yazında Təbrizdən çıxaraq, Arazın o tərəfindəki vilayətlərə doğru hərəkət etdi. Şəkidə ova çıxdı.

Faruq Sumer yazır ki, Sayin aşırımı adlanan xoş ab-havalı geniş dağlıq ərazidə dayanan Şah İsmayıl, burada qalmasının ikinci günü narahatlıq keçirdi. Onun yanında olanlar yaxşı başa düşdülər ki, şahı Təbrizə qaytarmaq lazımdır. Bunun üçün təxti-rəvan hazırlandı və Şah İsmayılı bu taxta qoyub, Təbrizə yola düşdülər. Səfəvi sülaləsinin banisi Təbrizə çatmadan, 1524-cü ildə 38 yaşında dünyasını dəyişdi.

Şah İsmayılın ölümündən təqribən 500 il ötsə də, Azərbaycanın bəzi yerlərində hələ də onun ölümünə yazılmış mərsiyələr oxunur.

Təhmasib hakimiyyətə keçəndə qızılbaş tayfalarının hər birinin İranın bir regionunda mülkləri var idi. Ustacluların əsas mülkləri, onlardan daha çox əmirin olduğu Azərbaycan, Əcəm İraqının bir hissəsi və Kirmanda, rumlu tayfasının mülkləri daha çox Azərbaycan və Aranda, qacar və qaramanlıların mülkləri isə, əsasən, Gəncə və Bərdə regionunda yerləşirdi (123, 47-73).

Təhmasibin hakimiyyəti dövründə Qarabağın ixtiyarı qacar elinin əlində idi.

Faruq Sumer yazır: "XV əsrin sonlarında qacar eli Anadolunun Buzuğ (Buzqat) regionundan Gəncə məntəqəsinə köç etdi. Onların övladları çoxdur. Qacarlar Aranın Gəncə regionunda məskunlaşmışlar. Gəncənin valisi, Qarabağdakı qacar əmirlərindən Şahverdi Sultan Ziyadoğlu, pələng ili 1567/68-də vəfat etdi və İbrahim bəy (sultan) onun yerinə təyin olundu " (123, 119-174-225).

Gəncə mərkəz olmaqla, Qarabağ zahirən 1554-cü ildən tamamilə İranın ixtiyarına keçdi. Çünki I Təhmasib Gürcüstandan qayıdarkən, bir müddət Gəncədə istirahət etmişdi. Gəncə hətta Tiflis kimi regionlara nəzarət edirdi... Qarabağ vilayəti Aran, Tiflis, Luri, Pənbək, Kür çayının şimalı, Qara ağac və hətta bəzən Kaxt kimi geniş regionları özündə birləşdirirdi (93, 136).

II Şah İsmayılın zamanında qacarlar öz ərazilərində-Qarabağda yaşayırdılar. Bu vaxt Qarabğ bəylərbəyi İmamqulu xan onların başında dururdu. O, osmanlılarla davamlı döyüşlər apararaq, öz ərazisini qoruyurdu. Fərhad paşanın

sərkərdəliyi ilə Osmanlı ordusu Qarabağı ələ keçirəndə, İmamqulu xan ordusunun əhəmiyyətli bir hissəsi ilə Arasbarana geri çəkilmişdi. O, qacarların Yuva (Yiva) obasından idi və 1588-ci ildə Ərəsbaranda dünyasını dəyişdi. Onun yerinə Ziyad xanın oğlanlarından Şahverdi Sultanın nəvəsi Xəlil xanın oğlu Məhəmməd xan keçdi... Qarabağ regionunda qacarlardan başqa, qaramanlı tayfsının iyirmi dörd və otuz iki adlı iki eli da yaşayırdı... Şərəf xan 1586-cı ildə verdiyi fərmanda yazır ki, Gəncə və Bərdənin hakimiyyəti, Gəncə təbəələrindən olan iyirmi dörd elinin əmiri, oğlanları və adamlarının kafir Çobanoğlunu öldürən Mustafa bəyə tapşırılsın (123, 119-174-225).

Şah Abbas 1587-ci ildə ağır bir şəraitdə taxta çıxdı. Bu zaman xarici qüvvələr və daxildə tüğyan edən hadisələr dövlətin varlığını təhdid edirdi.

1587-1603-cü illərdə Təbriz Osmanlıların əlində idi. Onlar burada güclü bir hərbi baza yaratmışdılar. İran-Osmanlı razılaşması Təbrizin cənub-şərqindəki Ərşednab kəndini iki dövlət arasında sərhəd olaraq müəyyənləşdirmişdi. Ancaq sonralar Qarabağ da Osmanlının əlinə keçdi. Beləliklə, Qarabağ hakimi Osmanlı paşasının tabeliyinə düşdü... Ancaq Şah Abbas 1606-cı ildə həmin məntəqəni yenidən Osmanlıdan geri ala bildi (93, 136).

I Şah Abbas, 6 aylıq mühasirədən sonra 1606-cı ildə Gəncəni tutdu və şəhəri dağıtdı və ondan 1 fərsəng yuxarıda yeni bir şəhər saldı. Türk səyyahı Övliyya Çələbi 1647-ci ildə Gəncə şəhərini hasar və divarları olmayan və 6 min ailənin yaşadığı bir yaşayış məskəni kimi təsvir etmişdir. O zaman bağları, cümə məscidi, xeyriyyə cəmiyyəti, örtülü bazarı olan Gəncə, xanlıq mərkəzi idi və 7 nahiyəni özündə

birləşdirirdi. Bu şəhər özünün pambıq, düyü, yun, dəmir və at nalı ilə şöhrət qazanmışdı (112).

Şah Abbas, Osmanlı hakimiyyəti dövründə o regionu tərk etməmiş və osmanlıların hakimiyyətini qəbul etmiş Qaracadağ və Qarabağ əhalisinin böyük bir hissəsini cəzalandırdı. Osmanlı hakimiyyətini qəbul etdiklərinə görə, otuz iki, kazaklar və şəmşəddinlu tayfalarına "Dönük" ("satqın") adı verdi, bu tayfaların bəzi başbilənlərini qətlə yetirdi. 1612-ci ildə təqribən 15 min ailə olmaqla, adıgedən tayfalardan bir çoxlarını, Qarabağ və Şirvanın bəzi müsəlman və qeyri-müsəlman insanları da daxil, Mazəndaranın Fərəhabad məntəqəsində yerləşdirdi. Əhmədli və otuz iki tayfaları, Şah Abbasın köçürmə qərarına etiraz etdiklərinə görə cəzalandırıldılar. Kazak tayfası da Fars vilayətinə köçürüldü. Şah Abbasın köçürmə siyasəti təkcə cəzalandırmaq deyil, həm də regionun təhlükəsizliyi məqsədini güdürdü.

Osmanlı fəthindən sonra Arasbarandan qaramanlı, kazak, şəmsəddinlu və cavanşir tayfasından Qarabağa öz yerlərinə geri dönənlərə də dönük (satqın) adı verildi. Onlar Osmanlıya xidmət etdilər. Otuz iki tayfasının obalarından biri olan cavanşir obasının rəisi Hüseyn Mirzə bəy də Osmanlıya xidmət etdi. Ancaq osmanlılar qovulandan sonra o, Şah Abbasın hüzuruna gəldi və öz obasının mövqeyini qorudu. Ancaq qardaşı Əli xanın onun yerinə keçmək təşəbbüsü onunla nəticələndi ki, hər ikisi də həlak oldular. Qulamlardan Novruz sultan obanın rəisi təyin edildi. Cavanşir tayfasının bir hissəsi isə Türkiyəyə mühacirət etdi.

XVI əsrdə kazaklar Qarabağda yaşayan ən mühüm tayfalardan biri idilər. İsgəndər bəy, kazakların otuz iki tayfasına aid olub-olmadıqları barədə məlumat vermir.

Kazakları espirlularla müttəfiq kimi osmanlılara qarşı qoymuşdular, ancaq onlar sonradan osmanlılara xidmət etməyə başladılar və onların rəisi Nəzər sultana paşa rütbəsi verildi. Nəzər sultanın oğlu Məhəmməd xan Şah Abbasın vaxtında Lurinin hakimi oldu. O, gürcülər tərəfindən öldürüldükdən sonra onun yerinə qardaşı Mustafa bəy təyin olundu. Ancaq o da, 1414-cü ildə Şah Abbasın əmri ilə məşhur şəmsəddinlu Dəli Məhəmməd bəy tərəfindən qətl edildi.

Bundan sonra Şah Abbas, Şəmsi xanı kazak tayfasına rəis qoydu və onu Farsın Darabgerd şəhərinə hakim təyin etdi və dönük kazakların ora köçürülməsi barədə göstəriş verdi. Şah Abbasın bu göstərişi təkcə dönük kazakları tənbeh etmək üçün deyildi, o, həm də osmanlıların nüfuzu təhlükəsinin qarşısını almaq istəyirdi.

Az bir müddətdən sonra Şəmsi xan Axıskaya hakim göndərildi. Buradan belə çıxır ki, ya Şah Abbas öz fikrindən daşınmış, ya da qısa bir müddətdən sonra tayfanın öz yerlərinə geri qayıtmasına icazə vermişdi. Şəmsi xan da dönüklərdan idi və osmanlılar tərəfindən ona paşa adı verilmişdi. O, Axıskada hakim olan zaman osmanlılarla döyüşdə məğlub olmuş və qoşununun böyük bir hissəsi öldürülmüş, özü isə əsir düşmüşdü (123, 186-237).

Şah Abbas, Qarabağı və Tiflisi osmanlılardan geri alandan sonra cənubda Kür çayı regionun sərhədi oldu. Lori, Şəmsəddinlu və Kərox gah Kartil hakiminin nəzarətində olurdu, gah da Qarabağ bəylərbəyiliyinin ixtiyarına keçirdi. Regionun xüsusi mövqeyinə görə, Şah Abbas Tiflisdə hərbi baza tikdirdi və qalabəyiliyi Tiflisin idarəçiliyi ilə birlikdə Şəmsəddinluya tapşırdı (93, 134).

Qarabağ osmanlıların əlinə keçəndən sonra qacarlar onların hakimiyyətini qəbul etmək istəmədilər. Onlar Arazın, Səfəvilərin hakimiyyətində olan o tayına mühacirət etdilər. Mühacirlərin vəziyyəti əvvəl ağır oldu. Şah Abbas Qaramanlı Fərhad xanı öldürəndən sonra 1598-ci ildə Astrabadın idarəsini Ziyadın oğlanlarından ləyaqətli əmir Hüseyn xan Qacara tapşırdı. Şah Abbas, osmanlıların tutduqları əraziləri geri almaqdan ötrü hərəkətə keçdi və Hüseyn xana da Qarabağı azad etmək vəzifəsi verdi. Qarabağın, osmanlıların hakimiyyəti altında olan əhalisinin hamısı, ya da əksəriyyəti 1403-cü ildə Hüseyn xana qoşuldu. 1404-cü ildə Qarabağ geri alındı, ancaq Qarabağ əhalisinin şikayət və narazılıqları üzündən Hüseyn xan öz mövqeyini itirdi. Qarabağın idarəçiliyi Ziyad xanın övladlarından Xəlil xanın oğlu Məhəmməd xana həvalə edildi. Bu hadisədən sonra mənbələrdə Hüseyn xanın adına təsadüf olunmur. Belə ehtimal edilir ki, o, Şah Abbasın əli ilə qətlə yetirilmişdir... Məhəmməd xan da 1615-ci ildə gürcülərlə döyüşdə öldürüldü. Qarabağın yeni hakimi də Ziyadın övladlarından Məhəmmədqulu xan oldu. Məhəmmədqulu xan 1626-cı ildə vəzifəsindən azad olundu. Qarabağ bəylərbəyiliyinin idarəçiliyi, eləcə də, qaçar elinin rəisliyi qulamlardan Davud xana tapşırıldı.

Şah Abbasın ölümü ərəfəsində qacarlardan dövlət işlərində cəmi 2 əmir qalmışdı. Onlardan biri Çuxursəəd bəylərbəyi, Əmir Gunənin oğlu Təhmasibqulu xan, o birisi isə Bərdə valisi Peykər xan İyirmi dörd idi.

Qacarların əsas obaları Ağca qoyunlu, Ağcalu, Şambəyati, Yuva və İyirmi dörddür.

Qaramanlıların əsas yaşayış yeri Qarabağ olmuşdur. Səfəvi dövlətinin yaradılmasında onun rolundan bəhs etmişdik. Bu zəif tayfa Şah Təhmasib və onun canişini dövründə elə əhəmiyyətli mövqeyə sahib olmadı. Lakin Şah Abbasın taxta çıxması ilə bu tayfanın ulduzu yenidən parladı. Çünki ordunun baş komandanı Fərhad xan bu tayfadan idi. Lakin məlum olmayan səbəbdən Şah Abbas tərəfindən qətlə yetirildi. Onu öldürməkdən ötrü çadırına daxil olanda, o, qulamlardan Allahverdi xanı və onunla gələn adamlarını görəndə türkcə belə demişdi: "Belə mi oldu?"

Şah Abbas Fərhad xanı öldürtdükdən sonra Azərbaycan bəylərbəyiliyində məqam sahibi olan qardaşı Zülfüqara toxunmadı, hətta sonralar onu geri alınmış Şirvan şəhərinə vali təyin etdi. Ancaq o da it ili 1609-cu ildə böyük qardaşı Fərhad xanın yaşadığı taleni yaşadı. Onun ətrafındakı qaramanlıların bir hissəsi qurçi[55] olmuşdu. Başqa bir hissəsi isə Şirvanın yeni bəylərbəyisi Yusif xanın yanında qulamlıq edirdilər. Fərhad xanın, Əlvənd Sultan adlı başqa bir qardaşı və Qaraman adlı qohumu da tarixə düşmüşlər. Şah Abbas ölən zaman qaramanlı tayfasından dövlət idarəçiliyində heç bir əmir yox idi. 1636-cı ildə Şah Səfinin zamanında Zülfüqar xanın övladlarından Hüsam sultan Qızıl ağac valisi idi (123, 220-230).

Azərbaycan ədəbiyyatında Şah Abbas surəti mənfur və zülmkar olaraq verilir. Onun fərraşları şəhər və qəsəbələrdəki gözəl qızları zorla götürərək toplayır və şahın hərəmxanasına aparırlar. Bu gözəllərdən biri Aşıq Abbas Tufarqanlının sevgilisidir. "Abbas və Gülgəz" adlı bu dastan Şah

---

[55] Qurçi-qvardiya ordusu; qvardiya ordusunun əsgəri

Abbasla bağlıdır. Burada Aşıq Abbas, Şah Abbasın rəqibidir. Dastan biri aşiq, o birisi şah olan iki Abbasın ətrafında cərəyan edir. Aşıq Abbas güc baxımından Şah Abbasla müqayisə oluna bilməsə də, öz sənətinə, yəni şeirə arxalanır, öz aşiqanə qəmnamələrində Şah Abbasın zülm və ədalətsizliyini bəyan edir. Gülgəzi İsfahana aparırlar. Aşıq Abbas onun ardınca gedir və Şah Abbas tərəfindən tutularaq, zindana salınır, işgəncəyə məruz qalır və dar ağacından asılır (29, 144).

XVIII əsrin birinci yarısında Səfəvilər dövlətində yaranmış nizamsızlıq və dövlət hakimiyyətindəki zəiflik nəticəsində məmur və feodal özbaşınalıqları artdı. Bununla da, əhalinin həyat səviyyəsi aşağı düşdü. Xalqın narazılığından istifadə edən bəzi sünni rəhbərlər və feodallar Səfəvilərə tabe olmaqdan boyun qaçırdılar. Osmanlı bu vəziyyətdən istifadə edərək, Şimali Azərbaycanı ələ keçirmək fikrinə düşdü. XVIII əsrin 20-ci illərində dövlətdən narazılıq daha çox Şirvanda özünü biruzə versə də, kəndli hərəkatları heç bir uğur qazana bilmədi.

Bu arada şimal-şərqi Azərbaycanda feodallardan sünni məzhəblilərin lideri Hacı Davud kəndli üsyanlarına rəhbərliyi öz üzərinə götürsə də, öz qüvvələri ilə təklikdə bir iş görə bilməyəcəyini başa düşərək, Rusiya dövlətinə müraciət edərək, kömək istədi. Ancaq Hacı Davudun proqramı I Pyotrun Şərq siyasətinə zidd idi. Ona görə də Rusiya onun müraciətinə məhəl qoymadı. Bundan sonra Hacı Davud Dağıstan ləzgilərinin feodallarına müraciət etdi, onlardan hərbi əməkdaşlıq istədi. 1721-ci ildə Hacı Davud dağıstanlıların köməyi və özünün muzdurlardan ibarət qoşunu ilə Şamaxını mühasirə etdi və yerli sünnilərin yardımı ilə

şəhəri ələ keçirdi. Hacı Davudun və onun müttəfiqlərinin ordusu, xüsusən, muzdurlar Şamaxını, eləcə də, rus tacirlərinin buradakı mallarını qarət etdilər.

Rus tacirlərinin mallarının qarət olunması I Pyotru narazı saldı. O, qarətçi üsyançıları cəzalandırmaq qərarına gəldi. Bu arada Hacı Davud Rusiyanın intiqamından qorxaraq, Rusiya ilə problem yaşayan Osmanlıya müraciət etdi və ondan Qafqazı tutaraq, Xəzər sahillərinə çıxmasını istədi. Şamaxıda rus tacirlərinin mallarının yağmalanması və Hacı Davudun Osmanlıya müraciət edərək, ondan hərbi yardım istəməsi, Rusiyanın Qafqaza və Xəzər sahillərinə qoşun çəkməsi üçün bəhanə oldu. I Pyotr hücuma keçmədən əvvəl türk dilində bir müraciət çap elətdirdi və onu şimali Qafqaz əhalisi arasında yaydı. Bu, türk dilində ilk çap idi. Müraciətdə deyilirdi ki, rus tacirləri qədim və adi qaydalara əsasən, ticarət etməkdən ötrü Şamaxıya gəlmişdlər. Daha sonra iddia edilirdi ki, dost qızılbaş dövlətinə kömək etmək və qayda-qanun yaratmaq üçün regiona qoşun yeridilir (61, 117).

Abbas İqbal Aştiyani yazır ki, Böyük Pyotr Şah Sultan Hüseynin vaxtından İranın şimal bölgələrini işğal etməyi planlaşdırırdı. O, İrana iki səfir göndərəndən sonra şəxsən bir ordu ilə Volqa boyu ilə gələrək, Dərbəndi işğal etdi və Dağıstanın içərilərinə doğru irəlilədi, lakin Osmanlının müqaviməti ilə qarşılaşdı. Rusiya, Dağıstana görə Osmanlı ilə müharibəyə girmək istəmədi və ordu geri döndü.

Az sonra əfqanlar Rəşti işğal etmək üçün qoşun çəkdilər. Onlara müqavimət göstərmək gücündə olmayan Rəşt hakimi, I Pyotrdan kömək istədi. İkinci fürsətdən istifadə edərək, Rəşti, bir il sonra Bakını işğal etdi. Əl-ayağa düşən

Təhmasib Mirzə, İranın şimal vilayətlərini Rusiyaya verməyə hazır idi ki, ikinci ona hərbi yardım etsin. Ancaq Rusiya heç bir yardım etmədi. Bir ara nə edəcəyini bilməyən Təhmasib Mirzə, Əşrəfin, Şah Sultan Hüseyni qətlə yetirdiyini eşitdi və Qəzvinə gəldi, orada atasının yerinə özünü şah elan etdi. I Pyotr Təhmasib Mirzəyə kömək bəhanəsi ilə Dərbənddən Mazəndarana qədər Xəzər sahillərini işğal etdi və onu davam etdirməkdən ötrü fürsət gözləməyə başladı. Osmanlı da İrandakı vəziyyətdən istifadə edərək, Gürcüstana hücum etdi və Tiflisi mühasirəyə aldı. Qafqaz yenə də Osmanlı ilə Rusiya arasında müharibə meydanına çevrildi. Sonunda onlar İranın şimal və qərb hissələrini öz aralarında böldülər. Belə razılaşıldı ki, Xəzər dənizinin sahilləri Rusiyanın, Azərbaycan, Kirmanşah və Həmədan Osmanlının olsun. Bu razılaşmanın sonunda Osmanlı, Təbriz şəhərini mühasirəyə aldı. Ancaq şəhərin əhalisi şəhəri mərdliklə müdafiə edərək, onun işğalına imkan vermədilər (130, 707).

Təbrizin qəhrəmancasına müdafiəsi ilə bağlı "Nadir şah Əfşar dövləti" kitabında yazılır ki, Təbrizin əhalisi öz şəhərlərini qəhrəmanlıqla müdafiə etdilər. Qarşı tərəfin uzun sürən hücumuna tab gətirməyən müdafiəçilər geri çəkilməyə məcbur oldular və üz-üzə qanlı döyüşlər getdi. Həzinin dediyi kimi, şəhər əhalisinin igidliyi qarşısında çarəsiz qalan osmanlılar, hücumu dayandırdıqlarını elan etdilər. Təbrizlilərə icazə verildi ki, ailə-uşaqlarını və götürə biləcəkləri malları alıb şəhəri tərk etsinlər. 5 min nəfər əli qılınclı şəhəri tərk etdi (əlbəttə, bu Həzinin verdiyi rəqəm-

dir, bu rəqəm sıx əhalili şəhərdə qalan idi). Şahidlərin dediklərinə görə, dünya yaranandan bəri heç bir şəhərdə belə qəhrəmanlıq baş verməmişdi (42, 66).

Səfəvilər dövründə türklər təkcə hakimiyyətdə deyildilər, onlar həm də güclü bir mədəniyyət sahibi idilər. Onların şifahi ədəbiyyatla yanaşı, nəzm ədəbiyyatları da var idi. Sam Mirzə və Sadiqi öz təzkirələrində türk bəylərinin şeirləri məsələsinə xüsusi yer ayırmışlar. Xüsusən, Səfəvi sarayında yerli "Çuxuroba" poeziyası ilə birlikdə Əmir Əlişir Nəvayi və Molla Məhəmməd Füzulinin də şeirləri oxunurdu. Bu dövrdə türk ziyalılarının içərisindən çoxlu sayda müəlliflər də çıxmışdır. Onların başında Həsən bəy Rumlu, İsgəndər bəy Türkmən və Əliqulu bəy Şamlı kimi tanınmış şəxsiyyətlər dururdu (123, 10-185).

Bu arada Şah İsmayıl sarayının ehtiram və himayəsinə layıq elm, ədəbiyyat və incəsənət xadimləri meydana çıxmışdır. Sürurі, Şahi, Matəmi, Tefili, Qasimi kimi şairlər, o dövrün saray poeziya məclislərində Həbibinin rəhbərliyi ilə fəaliyyət göstərirdilər.

Səfəvilər sülaləsinin banisi Şah İsmayıl özü də şair idi və "Xətai" təxəllüsü ilə türkcə şeirlər yazırdı. Onun yaradıcılığı Azərbaycan ədəbiyyatının inkişafına əhəmiyyətli dərəcədə təsir göstərmişdir.

Xətainin ana dilində yazdığı "Divan"ı və "Dəhnamə" mənzuməsi də var. "Dəhnamə"də şairin istiarə istedadı özünü, xüsusilə, biruzə verir. Burada Xətainin məşuqəsi ilə münasibəti bəyan olunur. Adıgedən münasibətlər xüsusi istiarələrlə verilir. Şair, özünə "Aşiq", məşuqəsinə "Pəri", məşuqəsinin evinə "Bağ", evin qoruyucularına "Bağban", qasidə "Bade Səba", sirli ürək sözünə "Namə", ürəyinin

ahına "Kəskin Atəş" adı verir, məşuqəsi ilə dialoqlarını poetik bir şəkildə qələmə alır.

Şah İsmayıl Xətainin ana dilində yazması təkcə anadilli sənətkarların yolunu açmaqla qalmadı, həm də onları Azərbayan türkcəsində yazmağa həvəsləndirdi. Hətta bəzi fars şairləri Səfəvi sarayına yaxın olmaqdan ötrü Azərbaycan dilində yazıb-yaratmağa başladılar. Bir çoxları isə, xüsusən, Saib Təbrizi Azərbaycan-fars müləmmələri yazdılar.

XVI əsrdə Molla Məhəmməd Füzulinin ədəbi şedevrləri ilə Azərbaycan ədəbiyyatı özünün zirvəsinə yüksəldi. O dövrün ədəbiyyatının inkişafında Məhəmməd Əmani, Qövsi Təbrizi, Məsihi, Tərzi Əfşar, Saib Təbrizinin və başqalarının da müstəsna əhəmiyyəti olmuşdur. Yazılı ədəbiyyatla yanaşı, çoxsaylı şifahi xalq ədəbiyyatı nümunələri (tarixi, qəhrəmanlıq və məhəbbət dastanları, nağıllar, bayatılar, mahnılar və s.) də o dövrlərdən günümüzə qədər gəlib çatmışdır.

Səfəvi imperiyası öz ideologiyası, bazası, mədəni və hərbi quruculuğu ilə özündən əvvəlki türk dövlətlərindən daha çox türklük özəlliklərinə sahib idi (123, 10).

# QARABAĞ NADİR ŞAH DÖVRÜNDƏ

Səfəvilərin paytaxtı İsfəhanın süqutu və İranın əfqanlar tərəfindən işğal edilməsi ilə bütün ölkədə görünməmiş hərc-mərclik başladı. Zülm baş alıb gedirdi. Vəziyyəti belə görən Rusiya və Osmanlılar qərb və şimal-qərbdən hücum edərək, Azərbaycanın bir sıra məntəqələrini işğal etdilər.

Belə bir ağır və həssas tarixi şəraitdə xalq arasından Nadirqulu Əfşar adlı bir şəxsiyyət çıxdı və vətəninin ən qarışıq və keşməkeşli bir dövründə tarix yazmaqla, təkcə İranı təcavüzkarların əlindən qurtarmaqla qalmadı, həm də xalqının zədələnmiş milli qürurunu özünə qaytardı.

Nadir, Əfşar elinin kiçik Qırxlı tayfasından idi. Əfşar eli, Türküstanın monqol istilası ərəfəsində oradan köç edərək, Azərbaycanda məskən salmış və Şah İsmayıl tərəfindən Xorasanda (Əbyurd) yerləşdirilmiş türkmənlər idilər. Əfşarlar yayı Xorasanda keçirir, qışı isə Dərəgöz mahalının Dəstcerd regionunda qışlayırdılar. Nadir Dəstcerddə 1688/89-cu ildə də dünyaya gəlmişdi. Bu üzdən sonralar həmin ərazidə imarətlər saldırmış və adını Mövludxana qoymuşdu (130, 710).

Tanınmış iranşünas doktor Lakart 1939-cu ilin novruz bayramında Londonun "Humayun-Asya mərkəzi"ndəki çıxışında maraqlı bir məqama toxunaraq, qeyd etmişdir ki, Nadir məşhurlaşandan sonra hər bir region və şəhər onu özünə aid göstərməyə çalışırdı. Bu səylər xaricdə və daxildə Nadirin harda doğulması haqqında cürbəcür əfsanələrin

yaranmasına səbəb olmuşdur; hətta irlandiyalılar onu özlərinə çıxmışlar. Nadir, sonralar özünə "Təhmasibqulu" ləqəbi götürəndə, irlandiyalılar bu adı təhrif edərək "Tomasqulu" şəklinə salmışlar (151, 173).

İsfəhan şəhəri Mahmud Əfqanın ordusu tərəfindən tutulandan sonra 1722-ci ilin iyul ayında çar I Pyotrun başçılığı ilə rus donanması cənuba doğru irəliləməyə başladı və Xəzərin sahillərini işğal etdi. Bunu görən Osmanlı dövləti 1723-cü ildə Zaqafqaziyaya qoşun yeritdi. 1724-cü ildə ruslarla osmanlılar arasında müqavilə bağlandı. Bu müqaviləyə görə, Zaqafqaziya Rusiya ilə Osmanlı dövlətləri arasında bölündü. Osmanlı, Rusiyanın Xəzərin sahillərini işğal etməsini rəsmən tanıdı. Rusiya isə öhdəsinə götürdü ki, Zaqafqaziyanın qalan ərazilərinin Osmanlı tərəfindən işğalına qarşı çıxmasın. Sonunda ağır itki verən osmanlılar, Azərbaycanın Gəncə, Təbriz, Xoy, Ərdəbil və digər şəhərlərini ələ keçirdilər (61, 119).

Nadir şah, əfqanları ölkədən qovmağa başlamadan öncə Rusiyadan tələb etdi ki, işğal etdiyi Xəzərsahili əraziləri boşaltsın. Pis hava şəraiti üzündən Xəzər sahillərində çoxlu maddi və canlı qüvvə tələfatına məruz qalmış Rusiya, Nadir şahın bu tələbini qəbul etdi və osmanlıların o əraziləri tutmasından ehtiyat edərək, Şah Təhmasibə xəbər göndərdi ki, onun boşaltdığı ərazilərə sahib çıxsın.

1732/33-cü ildə İran və Rusiya heyətləri Rəşddə müqavilə bağladılar. Həmin müqaviləyə əsasən, ruslar Salyan şəhərini və Kür çayının cənubuna qədər işğal etdikləri bütün əraziləri boşaltdılar. Ancaq Dərbənd və Bakının boşaldılması İran tərəfindən İrəvanın və Qafqazın Osmanlıdan

azad edəcəyi və onun Xəzərə çıxış yolunu bağlayacağı vaxta qədər təxirə salındı. Nadir şah Şamaxı və Dağıstanı osmanlılardan azad etdikdən sonra ruslar başqa bir müqavilə ilə qalan əraziləri də tərk etdilər (130, 715).

Nadir şah Fars körfəzi sahillərindəki tayfaları mütiləşdirəndən sonra 1734-ci il yazın əvvəllərində öz şəxsi nümayəndəsini Osmanlı qazısı Əhməd Əbdülkərim Əfəndi ilə birlikdə belə bir məzmunlu məktubla osmanlıların yanına göndərdi ki, "Bizim məqsədimiz Arazın o sahilindəki vilayətlərdir. Əgər səhv olaraq, işğal olunmuşlarsa, qonaq qəbul etməyə hazır olsunlar. İnşallah, yaxın vaxtlarda biz təşrif gətirib, lazım olanı edəcəyik" (93, 229).

Məktub Osmanlı səfirinə təqdim olunanda rus şahzadəsi Sergey Dimitrieviç Qolitzeyn (Mirzə Mehdi xan onu Rusiyanın təcrübəli siyasi nümayəndəsi adlandırmışdır) də mərasimdə iştirak edirdi. Nadir şah Qolitzeyni hər zaman öz yanında saxlayırdı (58, 133).

Ərdəbildə məlum oldu ki, Osmanlı paşaları Nadir şahla Əhməd Əbdülkərim Əfəndinin məsləhətinə cavab vermək səlahiyyətinə malik deyillər və Misir valisi Paşa Körpülüzadənin komandanlığı altındakı yeni bir Osmanlı ordusu İrana tərəf yola düşmüşdür və sülh, yaxud müharibə qərarını o, verəcəkdir. Paşa Körpülüzadə, İranın işğal olunmuş qərb torpaqlarını boşaltmaq üçün 2 il möhlət istədi. Nadir şah bu cavabın müqabilində dərhal Ərdəbildən Şirvana hərəkət etdi, 1734-cü il avqustun 25-də Kür çayını keçərək, Şamaxıya daxil oldu. Osmanlı hakimi Sərxan xan Ləzgi əlacı qaçmaqda gördü, Tiflis və Gəncədə olan Osmanlı paşalarından kömək istədi.

Nadir şah, Məhəmməd xan Bəlucu məğlub edərək, Farsı azad etmiş sərdarı Təhmasibqulu Cəlayiri, Sərxan xanı təqib etməyə göndərdi. 1 neçə döyüşdə məğlub olan Sərxan xan, Çərkəz viayətinə qaçdı. Dağıstan azad ediləndən sonra Nadir xan, Təhmasibqulu Cəlayiri Qəndəhara əmir göndərdi. Özü isə Gəncəni fəth etməyə yollandı. Səfi xana isə əmr etdi ki, Tiflisi mühasirəyə alsın (58, 721).

Məhəmməd Kazım Mərvinin yazdığına görə, Nadir şah Qarabağdan olan bir neçə əyanı təhdid və təslim məktubu ilə Osmanlı bəylərbəyləri Gəncəli və Qoçəli paşaların yanına göndərdi (159, 380).

Nadir şahın ordusu 1734-cü ilin oktyabr ayında Gəncəni mühasirəyə aldı, Gəncə çayının istiqamətini qalaya doğru dəyişdi. Qalanın divarları getdikcə suya qərq olurdu, lakin Gəncəni ələ keçirmək mümkün olmadı (17, 115).

Məhəmməd Kazım Mərvi özünün "Aləmaraye-Nadiri" əsərində Gəncənin mühasirəsinə xüsusi şeir həsr etmiş, qalanı göylərə baş vuran İsgəndər səddinə bənzətmişdir.

Nadirin əmirləri və sərkərdələri Gəncəni tuta bilməyəndə Nadir öz katiblərini və müstövfilərini toplayıb onlara satirik bir tərzdə səsləndi: "Onlar bacarmadılar, indi növbə sizindir; öz qələm və mürəkkəb qablarınıızla hücuma keçin və Gəncə qalasını ələ keçirin!" (159, 229).

Əfqanların İranı işğalı və Nadirin hakimiyyətə gəlməsi arasında Osmanlı fürsətdən istifadə edərək, İrəvan, Gəncə, Qars və Tiflis şəhərlərini ələ keçirmişdi. Nadir osmanlıları bu şəhərlərdən çıxarmadan bütövlükdə regionu azad edə bilməzdi.

Nadir və sərkərdələri bu şəhərləri mühasirədə saxladıqları zaman Osmanlı Abulla Paşa 70 min süvari və 50 min

piyadadan ibarət ordu ilə, Nadirə qarşı vuruşmaqdan ötrü, İrəvan ətrafına gəldi, Bağavurd, yaxud Muradtəpə adlanan yerdə 18 sentyabr 1735-ci ildə baş verən döyüşdə Nadir tərəfindən ağır məğlubiyyətə uğradıldı. Bu döyüşdə, Abdulla Paşa və Diyarbəkir paşası da daxil, 50 min nəfər Osmanlı döyüşçüsü həlak oldu. Bu döyüşdən sonra Gəncə və Tiflis şəhərləri təslim oldular, ancaq İrəvan və Qars şəhərləri müqavimət göstərməyə davam edirdilər.

Osmanlı Sultanı, İrəvan şəhərini Nadirə təslim etmək qərarına gəldi və Bağdad valisi Əhməd Paşaya Nadirlə sülh sazişi bağlamaq səlahiyyəti verdi. Ancaq onun şərti bu idi ki, Qars şəhəri Osmanlıda qalmalıdır. Bu minvalla, 1736-cı ilin əvvəllərində Osmanlı ilə Nadir arasındakı sülh müqaviləsi İran hakimiyyəti tərəfindən təsdiq edildi. Bununla da, İranın qərb və şimal-qərb əraziləri Osmanlılardan azad olundu.

Bundan sonra Nadir Gürcüstanın asi padşahı, Dağıstan və Ləzgi üsyançılarının üzərinə qoşun çəkdi. Onlara qalib gəldikdən və yerlərə öz hakimlərini təyin etdikdən sonra 1736-ci il ocaq ayının 22-də Araz sahillərinə qayıtdı, Muğan çölündə ordugah qurdu (130, 722).

Nadirin qələbələri Xəzər sahillərindəki rus qoşununu qorxuya saldı. I Pyotr öldükdən sonra Rusiyada daxili vəziyyət qarışdı, ordu zəiflədi. Bu arada İngiltərə, İran və Osmanlını Rusiyaya qarşı təhrik edirdi. Belə bir şəraitdə Nadirin 1735-ci ilin mart ayında Gəncə yaxınlığındakı ordugahında ruslarla bağladığı müqavilə əsasında rus qoşunları Xəzərsahili ərazilərdən qovulmuş oldular. Ancaq yuxarıda qeyd olunan müqaviləyə əsasən, rus tacirləri İranda azad

bir şəkildə, yəni gömrük rüsumu ödəmədən ticarət etmək hüququ qazandılar (17, 115).

Kazım Mərvinin yazdığına görə, Nadir, Gəncədən olan Kəlbəli xan Ziyad oğlu Qacarın oğlu Uğurlu xanı Gəncə və Qarabağa, onun qardaşı Həsənəli xanı isə Bərdəyə hakim təyin edəndən sonra 1735-ci il may ayının 11-də, cümə gününün axşamı Gəncədən çıxdı (159, 381).

Beləliklə, Nadirqulu Əfşar gecə-gündüz səy edərək, son bir neçə ildə itirilmiş torpaqları yenidən azad etdi və ana vətənə qaytardı. O, misli görünməmiş bir uzaqgörənliklə İranın istiqlalını və ərazi bütövlüyünü təmin etdi və haqlı olaraq İranın xilaskarı kimi tanındı. Nadir o vaxta qədər səltənətin naibi kimi tanınırdı. Əslində, səltənət sözdə Səfəvilərə aid olsa da, faktiki olaraq Nadir tərəfindən idarə olunurdu. Ancaq İranı azadlığa və ərazi bütövlüyünə qovuşdurması, mərkəzi hakimiyyəti bərpa etməsindən sonra Nadirdə belə bir fikir formalaşdı ki, ölkənin zahiri və qanuni siması da dəyişdirilməlidir. Yəni elə bir tarixi şərait yetişdi ki, müvafiq göstəriş əsasında ölkənin hakimləri, rəisləri, alimləri, əyan və əşrəfləri  Muğan çölündə qurultaya toplaşdılar (182, 267). Qurultaya qədər Nadir göstəriş verdi ki, Qarabağ, Araz çölü vilayətləri və onların ətrafındakı ərazilərdə hakimlər xalqı vəhşi heyvanları Muğan çölünə tərəf bir araya qovmağa məcbur etsinlər. Bu, qəribə bir görüntü idi. Belə bir ov növü "Cirgə atmaq" adlanır və onun tarixi çox qədimlərə söykənir.

Bu arada Araz və Kür çaylarının qovuşduğu və Cavad körpüsü[56] adlanan ərazidə ağac və qamışdan on iki min ədəd müasir alaçıq, eləcə də, məscid, hamam, bazar və meydan qurulmuşdu. Nadirin özü və hərəmxanası üçün xüsusi saray da inşa edilmişdi.

Mirzə Mehdi xan Astrabadinin verdiyi məlumata görə, Muğan çölündə 100 min nəfərdən artıq insan toplaşmışdı. Burada, demək olar ki, cəmiyyətin bütün təbəqələri təmsil olunmuşdular. Onların arasında şiə müctehidləri, camaat imamları, qazilər, baş keşişlər (Abraham Kortates və erməni katalikosu), Osmanlı dövlətinin nümayəndəsi Əli Paşa, hətta bəzi kənd və yaşayış məskənlərinin bir çox kəndxudaları da var idi.

Bu günlərdə Nadir günün 4 saatını şəxsən cari işlərlə məşğul olur, şikayətlərə baxır, ölkənin gündəlik məsələlərini həll edirdi (58, 142).

Nadir o arada bir ziyafət məclisi təşkil etdi. Əvvəl öz gücünü və siyasətini göstərməkdən ötrü öz təbəələrindən 1-2 nəfəri bir bəhanə ilə öldürdü, sonra ölkənin idarəçiliyindən söhbət açdı və dedi ki, mən özümdən asılı olanı etdim, İranı əfqanların, osmanlıların və rusların işğalından qurtardım. Şah Təhmasib və oğlu Abbas Mirzə hər ikisi sağdırlar. Onlardan hansını istəyirsiniz hakimiyyətə gətirin. Mən bir kənara çəkilib istirahət etmək istəyirəm. Fikrim Xorasanda sakit yaşamaqdır.

---

[56] Cavad körpüsü adlanan ərazidə o zaman Cavad şəhəri yerləşmişdi, onun adı dəyişdirilərək, Mirzə Ələkbər Sabirin şərəfinə Sabirabad adlandırılmışdır.

Nadirin əsl niyyətini bilən və vəziyyətin ikibaşlı olduğunu anlayan məclis iştirakçıları yekdilliklə belə bir fikir səsləndirdilər ki, Əfşar xanı, ölkənin şahı olmağa səndən başqa ikinci bir adam layiq deyildir.

Nadir əvvəl etiraz etsə də, sonunda məclisin təklifini qəbul etməkdən ötrü aşağıdakı 5 şərtinin olduğunu bəyan etdi:

1. İranlılar sünnət əhlinə qarşı olan əvvəlki düşüncələrindən əl çəkməli, şiəliyi qəbul etməlidirlər; sünnət əhli cəfəri məzhəbini 4 məzhəbdən biri və onların qaymağı kimi bilməlidir;

2. Kəbə evində iranlılar cəfəri ayini ilə namaz qılsınlar;

3. Hər il İrandan həcc əmiri təyin edilsin ki, Şam, Misir həcc əmirləri kimi İran zəvvarlarını Kəbəyə aparsın və Osmanlı dövləti də onunla digər həcc əmirləri kimi rəftar etsin;

4. Osmanlıdakı İran əsirləri və İrandakı Osmanlı əsirləri azad edilsin. Əsirlərin alış-satışına son verilsin;

5. İki dövlətin hər birinin bir vəkili qarşı dövlətin paytaxtında otursun və qarşılıqlı məsələlər məsləhətləşmələr yolu ilə həll edilsin.

Bu şərtlər məclis tərəfindən qəbul olunandan və təsdiq ediləndən sonra Nadir 1735-ci il mart ayının 9-da (Novruz bayramına 12 gün qalmış) səltənət tacını başına qoydu və Nadir şah oldu. Bununla da, əslində, II Təhmasib 1733-cü ildə taxtdan salınsa da, III Şah Abbasın da hakimiyyətdən kənarlaşdırılması ilə Səfəvilər sülaləsinin hakimiyyətinə rəsmən son qoyuldu.

Nadir şah hakimiyyətə gələndən sonra Rzaqulu Mirzəni, Təhmasibqulu xan Cəlayirin müavini kimi Xorasan vi-

layətinə, öz qardaşı İbrahim xan Zəhirəldövləni isə Azərbaycana hakim təyin etdi, hər bir vilayəti bir sərkərdəyə tapşırdı. Osmanlı və Rusiyaya səfirlər göndərdi ki, taxta çıxması barədə onları məlumatlandırsınlar. Bu çərçivədə İstanbula göndərilən Əbdülbaqi xan Zəngənə həm də qurultayın qəbul etdiyi 5 bənddən ibarət sənədi Osmanlı dövlətinə çatdırmalı idi (130, 723).

Nadir şahın olmadığı halda ölkənin idarəsi Rzaqulu Mirzəyə həvalə olunurdu. Ancaq Nadirin qardaşı İbrahim xan Zəhirəddövlə Azərbaycanın komandanı idi və Lakharta görə, Rzaqulu Mirzənin cənubdakı məqamı, şimalda ona məxsus idi. "Nadir şahın dövləti" kitabında oxuyuruq: "Qoşunun baş komandanı İbrahim xan, Azərbaycan, Gürcüstan və Dağıstanın ali hakimi idi. Bu ərazilərdəki bütün bəylərbəyilər və xanədanlar, eləcə də, Abraham Kartatsi, Naxçıvan xanı, İrəvan sərdarı da ona tabe idilər. İbrahim xan "II şah" adlanırdı və onun sarayı Təbrizdə yerləşirdi.

İbrahim xan keyfbaz, əyyaş və oyunbaz idi, qərar qəbul etmək cürətinə sahib deyildi. Onun əsgərləri istədikləri kimi xalqa zülm edirdilər. Əslində, ləzgi üsyanının səbəblərindən biri də bu, idi...

İbrahim xan yerli hakimlərin səlahiyyətlərini məhdudlaşdırmışdı. Bu qaydaya tabe olmayanları aradan götürürdü. Məhəmməd Kazım Mərvinin yazdığına görə, 1736/37-ci ildə İbrahim xan, Nadir şahın göstərişi ilə Arazın o tayına hərəkət etmişdir ki, Gürcüstan valisi Təhmurəs Mirzənin qızını oğlu Əliqulu xana istəsin. O, Xudafərin körpüsündən keçərək, Qarabağın ilk rayonu olan Bərgüşadda düşərgə salır. Bir neçə ağsaqqal zabiti töhfə və hədiyyələrlə birlikdə

Gürcüstan valisinin yanına göndərir. İbrahim xan, Gürcüstan şahzadəsinin göndərilməsindən arxayın olduqdan sonra Bərgüşaddan hərəkət edir və Gəncənin 2 fərsəxliyində keyf məclisi qurur, ovla məşğul olur. Bu zaman Azərbaycanın bütün hakimləri, vəzifə sahibləri və zabitləri onun xidmətində idilər.

Bu arada, Qarabağdan, Yengicə kəndindən bir dəstə adam gəlir və iddia edirlər ki, bizim ərazidə xəstəlik peyda olub, ona tutulan adam 3 gündən artıq yaşamır.

Bu məsələni aydınlaşdıranda məlum olur ki, 1 mil məsafədə taun xəstəliyi peyda olubdur. Bundan sonra İbrahim xanın dəstəsi Gəncəyə tərəf hərəkət edir və bir neçə gün orada qalır. Burada Gəncə bəylərbəyi Uğurlu xan Ziyad oğlu onlara misli eşidilməmiş və görünməmiş qonaqlıqlar verir" (159, 650).

Tezliklə taun xəstəliyi Azərbaycanın bir çox yerlərinə yayılır. Ona görə də İbrahim xan Təbrizə qayıtmaq qərarına gəlir.

Taunun yayılma səbəbi və digər ictimai məsələlər barədə N.Quliyev yazır ki, XVIII əsrin 30-cü illəri və 40-cı illərinin birinci yarısı Azəbaycanın tarixində məşəqqətli bir dövrdür. Təbriz, Ərdəbil, Şamaxı və başqa şəhərlərdə ticarət iflic olmuşdu. İpək ixracı dayanmışdı. Nadir şah çalışırdı ki, İranın şərqində, Xorasanda yeni ticarət mərkəzi yaratsın. Bunun üçün Tiflis, İrəvan, Naxçıvan və Qafqazın digər şəhərlərindən çoxlu sayda incəsənət adamlarını və sənətkarları Xorasan vilayətinə köçürdü. Bu. Qafqazda incəsənətin və sənətkarlığa mənfi təsir göstərdi.

Nadirin maliyyə siyasəti xalqı taqətdən salmışdı. Mənbələrin verdikləri məlumatlara əsasən, kəndlilərin bütün

məhsulları əllərindən çıxarılırdı. O dövr tarixçilərindən birinin yazdığına görə, kimsə vergi məmurlarından bir parça çörək gizlətsəydi, Nadirin əmri ilə elə işgəncəyə məruz tutulurdu ki, az qalırdı canını tapşırsın. İşgəncədən ölənlərin sayı təsəvvür edilməyəcək həddə çatmışdı.

1745-1746-cı illərdə xəzinənin müəyyən etdiyi vergilərdən əlavə, Şirvan camaatından 150 min tümən, Gəncə və ətraf kəndlərdən isə 111 min tümən əlavə pul toplanmışdı. Bu məbləğ illik vergi məbləğindən artıq idi. Vergini ödəmək iqtidarında olmayanlar çox vaxt övladlarını bazarda satırdılar. Ancaq onları alan yox idi. Ev sahibi ailəsini və uşaqlarını tərk edib gedirdi.

Xəzərsahili vilayətlərdə kəndlilər müftə olaraq neft və duz çıxarır, yol çəkilişi, körpü tikintisi və gəmiqayırmada işləyirdilər. Nadir şahın göstərişi ilə rəiyyət hərbi xidmətə də cəlb edilirdi. Astara hakiminin əmri ilə 1737-ci ildə 6 min nəfər kəndli zorla hərbi xidmətə cəlb edilmişdi. Nadirin hakimləri tələb edirdilər ki, insanlar öz qızlarını saraya, hakim və əmirlərə qulluq etmək üçün göndərsinlər. Bu, böyük təhqir idi.

Bütün bunlar, müharibə və məhsulun pis gəlməsi nəticəsində 1737-ci ildə taun xəstəliyi baş qaldırdı (17, 116).

Nadir şahın hakimiyyəti dövründə Qarabağda baş verən dəyişikliklər bu diyarın gələcək taleyinə təsir göstərdi. "Mərkəzi Asyada və Qafqazda baş verən dəyişikliklər" kitabında oxuyuruq: "Nadirqulu sünni məzhəb idi[57], halbuki o zaman çoxları şiə idilər. Ona görə də o dövrdə ermənilərə

[57] Bu fikrin, yanlış olduğu gün kimi aydındır. Belə olmasaydı, Nadir hakimiyyətə gələndə 5 tarixi şərt irəli sürməzdi (*tərcüməçi*).

böyük meydan verilmişdi. Nadir özü onları xüsusi təşviq və himayə edirdi. Nadir şahlığa seçiləndə bir erməni keşişi onun belinə bir xəncər bağlamışdı. O zaman Qarabağda idarəçilik Ziyadoğlu Qacarın əlində idi. Bu tayfa Nadirin istəklərinin əksinə olaraq, hakimiyyətin Səfəvilərə verilməsini tələb edirdi. Ona görə də Nadir şahlığa çatandan sonra bu tayfanın Qarabağdakı səlahiyyətlərini məhdudlaşdırdı, bu tayfadan olan bir çox ailələri Xorasana köçürdü. Qazax və Borçalı mahallarını onlardan ayırdı və Gürcüstan valisinin ixtiyarına verdi. Bərgüşad və Xəmsə mahallarını isə Təbriz valisinə tapşırdı. Məhz bu dövrdə 5 erməni feodal ailəsi eyni zamanda Qarabağın müxtəlif bölgələrində hökmranlıq etməyə başladılar" (175, 51).

Bu kontekstdə Mirzə Adıgözəl bəy tərəfindən yazılmış "Qarabağnamə"də oxuyuruq ki, Gəncə xanları Qacar tayfasından idilər və Ziyadoğlu kimi tanınırdılar. Onlar təkcə bəylərbəyi deyildilər, həm də ləyaqətli sərdarlar idilər. Bu, hamıya aydın və aşkar idi. Gəncə xanlığının hüdudları şərqdə Sınıq körpüdəki Suridaşa, cənubda isə Xudafərinə qədər uzanırdı. Bəzən Gəncə xanlığının sərhədi Darülsərvərə (Tiflis) gedib çatır, Tiflis əhalisi onun təbəəsi hesab olunurdu. Gəncə xanları Muğan çölündə baş verən proseslərdə aşkar və gizlin şəkildə Səfəvilərin hakimiyyətdə qalmalarını istəyirdilər. Onların bu istəklərini, təbii ki, Nadirə çatdırırdılar. Nadir şah Ziyadoğluların gücünü nəzərə alaraq, onlara qarşı kəskin addımlar ata bilmirdi. Bununla belə, o, Qazax və Borçalı tayfalarının idarəçiliyini Gürcüstana verdi. Onun göstərişi ilə Qarabağ tayfaları, o cümlədən, Cavanşir, Otuz iki və Kəbirlilər Xorasana köçürüldülər və Sorxes məntəqəsində yerləşdirildilər.

Xəmsə məliklərinə də göstəriş verildi ki, Gəncə xanlarına tabe olmasınlar. Lazımi müraciətləri birbaşa onun özünə etsinlər.

Bütün bu tədbirlər nəticəsində Gəncə xanlarının səlahiyyətləri məhdudlaşdırıldı və onlar zəiflədildi.

İbrahim xan Zəhirəddövlənin Dağıstana qoşun çəkməsi və ləzgilər tərəfindən öldürülməsi ilə bağlı Məhəmməd Kazım Mərvi yazır ki, İbrahim xan, Nəvvab Rzaqulu Mirzənin yaşca kiçik olmasına baxmayaraq, onun Mavərənnəhr məmləkətlərini fəth xəbərlərini eşitcək, belə qərara gəldi ki, o da Dağıstanı ələ keçirsin.

O, batil düşüncə ilə idarəçiliyində olan xanlara, sərkərdələrə, qazilərə xəbər göndərdi ki, öz qüvvələri ilə onun sərəncamına gəlsinlər. Nəticədə, Urmu, Marağa, Soyuqbulaq, Dünbülü, Bərgüşad və Qaradağdan olan birliklər Təbrizə gəldilər. Onlar özlərinin tam təchizatı, topxana və kiçik topları ilə Qarabağa yola düşdülər. Qarabağa daxil olarkən, onlara Şirvan, İrəvan, Gürcüstan, Gəncə və Qarabağdan gələn birliklər də qoşuldu. Qoşulan dəstələrin hər birində çoxlu sayda əsgər və lazımi təchizat var idi. Daha sonra Bərdədən gələn dəstə də gəlib yetişdi. İbrahim xan Araz və Kürün sahilində toplantı keçirdi, vəqf sahiblərinə və bacarıqlı memarlara göstəriş verdi ki, çay üzərində yaxşı bir körpü inşa etsinlər. Ordu istirahətlə məşğul oldu.

Hesablamalar sonu məlum oldu ki, düşərgədə 32 min nəfərlik bir ordu mövcuddur. Yerli əhaliyə görə, indiyə qədər burada belə nizamlı və əzəmətli bir ordu olmamışdı.

Tale elə gətirdi ki, orduda İbrahim Divanə adı ilə tanınan bir ləzgi, İbrahim xanı 2 güllə ilə  vurdu. Özünü İbrahim xana yetirən Gəncə hakimi Uğurlu xan bağırdı ki, sənə

fəda olum, burda dayanmaq olmaz, düşmən bizə tələ qurub, bir tərəfə çəkilmək lazımdır. İbrahim xan ona cavab verdi ki, neçə ki, sağam, buradan qaçsam, başıma kül olsun! Bu zaman başqa bir güllə Uğurlu xanın sinəsinə isabət etdi və o, həlak oldu. İbrahim xan, qardaşı Həsənəli xana göstəriş verdi ki, sən, diqqət elə ki, orduda qarışıqlıq düşməsin, yoxsa, bütün Azərbaycan məmləkətlərinə od düşər. Bu zaman başqa bir güllə Həsənəli xanı yaraladı. İbrahim xanın başına toplaşan bütün sərkərdələr və başbilənlər deyirdilər ki, burda dayanmaq olmaz. Kamançıları işə qoşub vuruşmaq lazımdır... (18).

Baş verən bu döyüşdə ləzgilərin əmiri İbrahim Divanənin 2 gülləsi ilə öldürülən İbrahim xan Zəhirəddövlənin cəsədi ləzgilər tərəfindən ağacdan asıldı və yandırıldı.

Bundan sonra Nadir şahın bibisi oğlu Əmir Aslan Qırxlı xan Azərbaycana sərdar, Uğurlu xanın qardaşı Bərdə hakimi Həsənəli xan isə Qarabağ bəylərbəyisi təyin edildilər. Məhəmməd Kazım Mərvi yazır: "Əmir Aslan Qırxlı xan belə qərara gəldi ki, çapar kimi Azərbaycana gəlsin, Təbrizdə iqamət etsin. Vilayətin bütün hakimlərini və məsul şəxslərini hüzuruna çağırsın, hər bölgənin hərbi komandanlığı ilə tanış olsun. Yaz və yay aylarının çoxunu Gəncə, Qarabağ, Göycə və İrəvanın yaylaqlarında, qışı isə Təbrizdə keçirsin" (159, 1000).

Qeyd olunmalıdır ki, 1743-cü ilin oktyabr/noyabr ayında Xoyda dünbülülər üsyan qaldıranda Hacı xan Çemeşgörk Gəncənin xanı idi. Nadir şah onu bir qrup dövlət adamı ilə dünbülüləri tənbeh etməyə göndərdi (159, 680).

O zaman Qarabağda baş vermiş və burada qeyd edilməli hadisələrdən biri də Nadir şahın oğlu Nəsrullah Mirzənin ova çıxması və Qarabağ meşələrində ona sui-qəsd olunmasıdır.

Nəsrulla Mirzə 1743-cü ildə Sam Mirzənin fitnə-fəsadını aradan qaldırmağa məmur edilir. O, Həmədandan hərəkət edərək, Təbrizə gəlir. Kür çayına yetişərək, Şamaxı qalasına daxil olur.

Nəsrulla Mirzə, Dağıstanda Surxay xan Ləzginin oğlu Məhəmmədə qoşulmuş Sam Mirzəni məğlub edir və ikinci Gürcüstana qaçır.

Məhəmməd Kazım Mərvi bu əhvalatı belə nəql edir: "Nəsrulla Mirzə Şamaxıdan qayıdan zaman bahar fəsli idi, Qarabağın gül-çiçəklə bəzənmiş təbiəti cənnətin gülüstanını xatırladırdı. Nəsrulla Mirzə, Bəyat bazarı məntəqəsində Şah bulağın aşağı hissəsində ov etmək qərarına gəlir. Hər tərəfə at çapan zaman, qismətdən, onun diqqətini bir ceyran cəlb edir və o, ceyranı qovalamağa başlayır. Bu zaman meşədə bir ağacın arxasından onun sinəsinə doğru tüfəngdən atəş olunur. Ancaq qoruyan Allahın inayəti ilə güllə bu müqəddəs şahzadəyə dəymir, atın yəhərinə tuş gəlir və qızılı cilova tərəf yönəlir. Güllə atan Surxab (Surxay) Ləzginin oğlu Məhəmmədin qulamlarından biri imiş" (159, 1039).

Dağıstanlılardan intiqam və qisas almaq düşüncəsi daim Nadir şahı düşündürürdü. O, bir neçə dəfə qardaşı uşaqlarına söz vermişdi ki, İbrahim xanın intiqamını alacaqdır.

Ona görə də Nadir şah bu sözünü yerinə yetirmək üçün Hindistan səfərindən qayıdarkən, birinci dəfə Qəndəharda Qəni xan Abdalı ləzgiləri yatırtmaq üçün vəzifələndirdi.

Qəni xanın tabeliyində olan hərbçilərin 20 min nəfəri əfqan və bəluclardan, 20 min nəfəri isə Azərbaycan ordusundan ibarət idi.

Qəni xan ləyaqətli bir sərdar idi. İbrahim xandan fərqli olaraq, ticarəti yaxşı bilən və hərbi istedada malik olan Qəni xan, Azərbaycana gəldi. Onun ordusu Kür çayı üzərindəki körpüdən keçərək, Cara yaxınlaşdı. Hazırlaşmış ləzgi qoşunu dağlarda və təpələrdə Qəni xanın ordusunu gözləyirdi. Bu arada Gəncə xanın komandanlığı altında olan bir birlik Qəni xana köməyə gəldi. Baş verən döyüşdə 12 min nəfər olduğu deyilən ləzgi qoşunu igidcəsinə döyüşsə də, kütləvi qırğına məruz qaldı. Öldürülənlər arasında İbrahim Divanə, Xəlil xan, Hacı Şəban, Rəfi və başqa başçılar da var idi.

Qəni xan növbəti gün Carutluya hücum etdi. Orada qətl və qarətlər törətdi. Daha sonra öz hərbi uğurları barədə Nadir şaha məlumat göndərdi və ondan cavab gözləməyə başladı. Nadir şah ona əmr göndərdi ki, Şirvana getsin (58, 256).

Bundan sonra Nadir şah özü Dağıstana tərəf hərəkət etdi. Ancaq ləzgi və avarlarla döyüşlərdə nəinki qələbə qazana bilmədi, düçar olduğu məğlubiyyət səbəbindən ruhi müvazinəti pozuldu.

Camal Gökcə yazır ki, Nadir şah 1742-ci ildə Dağıstan xanlarına məktublar yazaraq, onlardan tələb etdi ki, ona tabe olduqlarını bəyan etsinlər. Dağıstan və Şirvan xanı Surxay xan, Krım xanı və Osmanlı dövlətinin dəstəyi ilə Nadirə tabe olmaqdan boyun qaçırır. Ona görə də Nadir şah Dağıstana qoşun çəkir. Əvvəl Kumuk qəzasına 10 min nəfərlik

bir qoşunla hücum edir, nəticə hasil olmayınca, Lütfəli xanın komandanlığı ilə ora əlavə olaraq 20 min nəfər göndərilir. Onlar böyük itki və tələfatlar bahasına Kumıka daxil olurlar

Ancaq bu uğur çox da davam etmir. Surxay xan və oğlu Məhəmmədin ələ keçirilməsinə baxmayaraq, Nadir şah bir çox çətinliklərlə üzləşir. Digər tərəfdən, Qfqazda Nadirə qarşı olan bütün qüvvələr Murtuzaəli xanın ətrafında birləşirlər. Nadir şahın arxa ilə əlaqəsinin kəsilməsi də ona çoxlu problemlər yaradır. Bu səbəbdən Nadir şah məğlubiyyətə düçar olur. Məhəmməd xan Soqratda Nadirin qüvvələrini sıradan çıxarır. O, bununla təkcə atasının intiqamını almır, həm də Nadir şahın tam məğlub edilməsinin əsasını qoyur. Nadir şah tacını və xəzinəsini qoyaraq, özünü çətinliklə Dərbəndə çatdırır. Burada öz qoşununu qaydaya salır. "Ağlını itirən şah, Qafqaza hücum edər" zərbülməsəli o vaxt yaranmışdır (6, 32).

Nadir başa düşdü ki, ləzgiləri məğlub etməyə qadir deyildir. Hətta döyüşlərdən birində Nadirin özü gülləyə tuş gəlmiş, möcüzə olaraq, ölümdən qurtarmışdı. Bu güllə onu öldürməsə də, şəstini zədələmişdi. Nadirin, ağır tələfat və sədəmələrə düçar olmuş və Tabasaranın şimalında düşərgə salmış ordusunda Nadir şaha "İran xarab" ayaması (ləqəbi) verilmişdi. Tarixçilərin çoxusu Nadirin ruhi problemlərini və əqli müvazinətini itirməsini Dağıstandakı məğlubiyyəti ilə əlaqələndirirlər (195, 858).

Dağıstandakı hərbi uğursuzluqlar Nadirin əsəblərinə öldürücü təsir buraxmışdı. Çünki qalib sərkərdə artıq özünü qələbəyə inandıra bilmirdi. Onun dağlı rəqibləri ondan iti davranırdılar. Nadir şahın dağ şeyxlərini təhdid etmək

və yumşaltmaq imkanı tükənmişdi. Onun həm də naməlum və sıldırımlı dağlardan keçərək, düşməni mühasirə etmək şansı da yox idi. Qarşı tərəf isə bütün dağ yollarını və aşırımlarını Nadirdən və onun adamlarından yaxşı bilir, keçi kimi sıldırımlara dırmanırdılar. Nəticədə, nə topxana, nə hərbi təchizat, nə ordu, nə də komandanlıq qabiliyyəti işə yaramırdı. Həm də ortada məlum olan bir düşmən, səf bağlamış ordu yox idi. Əliyalın, mübariz, qürurlu və azadlıq aşiqi xalq birləşmişdi və yumruğu güclü idi. Bu xalq kiminsə ona ağalıq etməsinə imkan vermirdi.

Ona görə də Nadirin ömrünün və qiymətli vaxtının il yarımı Dağıstanın uca dağlarının ətəyində tələf oldu. Nadir şah, o dövrdə dünyada, bəlkə də, yeganə qalib ordusuna dəymiş sonsuz bir ziyanla və özünün əsəb və iradə pərişanlığı ilə İranın bu insanpərvər regionunu xaraba halında buraxaraq, geri döndü.

Nadirin təzyiqləri Dağıstanın güclü cəngavər xalqını sındıra bilmədi. Əksinə, yerli əhalidə İrana qarşı etinasızlıq yarandı. Bu, sonrakı illərdə (I Aleksandr və Fətəli şahın vaxtında) Rusiya ilə İran arasında baş vermiş müharibələrdə onun İrandan ayrılmasının əsasını qoymuş oldu (101, 102).

Beləliklə, o vaxta qədər özünü dünyanın fatehi hesab edən Nadir şah, Dağıstanın fədai xalqının zərbəsi ilə təkcə əqli və ruhi problemlərə düçar olmadı, həm də siyasi-hərbi baxımdan zəiflədi. 1742-ci il 15 fevralda Rusiyanın İrana ezam olunmuş səfiri Kaluşkin, Nadirlə görüşmüş, onun Osmanlı üzərində qələbəsi, Hindistanı fəthi, Mavərənnəhrdə əmin-amanlıq yaratması və şəxsi təfəkkürü barədə məlumat əldə etmiş, onun məğlubiyyətdən əvvəlki təkəbbürü

və lovğalığı barədə məlumat vermişdir. Kaluşkinə görə, 1741-ci il may ayının 15-də Səvaduhda Nadirə sui-qəsd olunması, yəni ona güllə atılması ilə Nadirin davranışları dəyişmişdi. Sankt-Peterburqda çar, onun müşavirləri və generalları qarşısındakı çıxışında Kaluşkin demişdir ki, Nadirlə görüşmək çox çətindir. O, öz qələbələrindən elə məst olub və açıqca deyir ki, mən yerimdən tərpənsəm, bütün yer üzünü fəth edərəm.

Sonda onu deyək ki, İran televiziyasının Mahaçqalanın bir tarix muzeyindən verdiyi məlumata görə, Nadirin portreti, eləcə də, onun çoxsaylı soyuq silahları, o cümlədən, bir çox qılıncları, sanki, onun ləzgilərlə döyüşündən qalmışdır.

Nadirin öldürülməsinin 250 illiyi münasibəti ilə 20.03.1376-cı il tarixdə "İran" qəzetində dərc olunmuş məqalədə diqqətu çəkən aşağıdakı məqamlar yer alır: "Nadir şah 1747-ci il iyun ayının 10-da Qoçanın Fəthabad qəsəbəsində bir neçə sərkərdəsinin əli ilə öz yatağında öldürülmüşdür. Bununla da, Şərqin Napoleonu dünyadan köçdü. Nadirin arzusu İranı yenidən dünyanın ən qüdrətli ölkəsinə çevirmək idi. O, 1736-cı ildə ölkənin alimləri, əmirləri, xanları, tayfa başçıları, kəndxudaları tərəfindən şah seçilmişdir. Nadir, Rusiyanı Dağıstanın o tərəfinə qovaladı, osmanlıları İrandan çıxardı, Mavərənnəhri təhlükəsiz əraziyə çevirdi, əfqan işğalçılarını cəzalandırdı, 1739-cu ildə Dehlini ələ keçirdi. Bununla da, İranın hakimiyyətini təkcə Fars körfəzində deyil, bütün Məsqətə və Omana yaydı, Afrika sahillərində Zəngbar adasını ələ keçirməyə qədər irəlilədi.

Nadir öz həyatının üçdə ikisini at yəhəri üzərində, daim hərbi yürüşlərdə keçirmişdir.  Nəticədə ömrünün sonla-

rında həzm pozuqluğu və xroniki qara ciyər xəstəliyinə düçar olmuş, onda zəifməzaclıq, fiziki yorğunluq, pis xasiyyət yaranmış, qeyri-məntiqi qərarlar qəbul etməyə başlamışdır. Onun məntiqsiz qərarlarından ikisi bəzi regionlara ağır gilər qoyması, ətrafındakı insanları, o cümlədən, ordu əmirlərini qısa zamanda ağır cəzalandırmaları idi. Qoyulan ağır vergilər Sistan, Kirman və İsfəhan əhalisinin etirazlarına səbəb oldu. Belə olan halda Nadir şah Kirmana, oradan İsfahana, sonra Məşhədə getdi, sistanlıların Herata qədər uzanan etirazlarını yatırmaq üçün yürüşlər etdi. O, Novruz bayramını Kirmanda keçirdi, Qoçanın Fəthabad qəsəbəsində düşərgə saldı. Bu qısa müddət onun necə böyük və inanılmaz bir sürətlə hərəkət etdiyini təcəssüm etdirir.

Qoçanın (o zaman Xobuşan adlanırmış) 12 kilometrliyində yerləşən Fəthabad düşərgəsində Nadir şah ordunun mühafizəsini 25 yaşlı əfqan zabit Əhməd xan Əbdala tapşırır. Bu, təhlükəsizliklərinə əmin olmayan digər zabitləri qorxuya saldı. Beləliklə, tezliklə qacar və əfşar tayfalarından olan 70 zabit bir araya gələrək, Nadiri öldürmək qərarı verdilər. Onlar 10 iyun 1747-ci ildə gecə Nadirin yataq çadırına yaxınlaşıb, çadırın gözətçisini boğdular və içəri daxil oldular. Nadir şah özünü müdafiə etmək üçün qılınca əl atsa da, Saleh xan onun əlini, Məhəmməd xan isə başını kəsdilər. Növbəti gün o böyük hərbi düşərgədə Nadirin cəsədindən başqa bir şey qalmamışdı. Tarixin ən böyük şəxsiyyətlərindən birinin sonu belə oldu. Nadirin cənazəsi özünün əvvəlcədən Məşhədin Bala prospektində hazırlatdığı məzarda dəfn olundu. O zaman camaat diqqət etdi ki, Nadir şah yaşının çox olmasını bildirməməkdən ötrü saqqalına rəng vurdururmuş. Nadir şah hər günün sonunda öz

qeydlərini katibi Mirzə Mehdi xana yazdırırmış ki, yaddan çıxmasın. O, həkim xidmətindən başqa, avropalıların heç bir köməyindən istifadə etməmişdir. Nadir şah avropalılar barədə çox bədbin olmuşdur. Ona görə Avropadan gəmi almaq əvəzinə, Mazəndarandan Məşhəd yolu ilə Buşəhrə ağac göndərmiş və toplu 19 hərbi gəmi düzəltdirmişdir. Nadir şahın təşəbbüsü ilə o zaman dünyada analoqu olmayan yüngül toplar düzəldilmiş və onlara "Zənburək" adı verilmişdi. Nadir şahın kitab toplamağa xüsusi marağı olmuşdur. Onun hədiyyə kitablardan ibarət xüsusi kitabxanası var idi. Nadir şah yüzlərlə nəfis əlyazma kitabını Astani-Qüdsi-Rəzəvi Kitabxanasına təqdim etmişdir (105, 16).

## QARABAĞ XANLIQLAR DÖVRÜNDƏ

Bildiyimiz kimi, Nadir şah Əfşar fəaliyyətinin əvvəllərində əfqanları İrandan qovub çıxardı və İranın işğal olunmuş ərazilərini işğalçılardan azad edərək, İranın ərazi bütövlüyünü yenidən bərpa etdi və möhkəmləndirdi. O, qeyri-adi və misli görünməmiş fatehlik istedadına malik idi və əksər hallarda az qüvvə ilə özünün qüvvətli rəqibinə qalib gəlməyi bacarırdı. Ancaq onun ölkəni idarə etmək səriştəsi yetərsiz idi. Ona görə də Şah İsmayıl Səfəvi və başqaları kimi, geri aldığı əraziləri qaydaya sala və idarə edə bilmirdi. Hər şeydən pisi o idi ki, Nadir şah pul və qızıl toplamağa meyilli idi. Bu, onu zülmə sürükləyirdi. Nəticədə, xalq ona nifrət edirdi və axırda öz yaxınları və sərkərdələri tərəfindən öldürüldü.

Nadir şahın daxili siyasətdəki uğursuzluqları, hakimiyyətinin son illərində daha çox vergi toplamaq üçün xalq kütlələrinə etdiyi təzyiqlər, eləcə də, Dağıstanda məğlubiyyətinin onun siyasi şöhrətinə və imicinə vurduğu ağır zərbə çoxlu sayda üsyanların və qiyamların meydana gəlməsinə səbəb oldu.

Nadir şah dövrü, doktor Şəbaninin dediyi kimi, "dövlətin sərvət toplaması və sonsuz zülmü, xalqın artıq dərəcədə yoxsullaşması və zəifləməsi dövrü" kimi tarixə düşdü. O, tədricən xalqın nifrətini qazanmaqla qalmadı, həm də öz hərbçilərinin qəzəb və hətta düşmənçiliyinin hədəfinə çevrildi. Köməksiz xalq padşahın və hakimlərin zülmü şərai-

tində qiyamdan başqa bir çarə görmürdü. Ona görə də insanlar müxtəlif vasitələrlə hakimiyyət əleyhinə mübarizəyə başlayırdılar. Bəzən kollektiv şəkildə yaşadıqları ərazini tərk edir (bu üsul qədim dövrlərdə də mövcud olmuşdur), ölkə sərhədlərindən kənara gedir, bəzən də qiyam edən digər regionun qiyamçılarına qoşulur, quldur dəstələri təşkil edirdilər. Bu hal daha çox böyük məbləğli vergilərin, yaxud da orduya əsgər toplanması vaxtlarında baş verirdi. Belə vəziyyətlərdə Nadir şah əmirlərə və hakimlərə, fərarilərin tutulması və yaşayış yerlərinə qaytarılması haqqında fərmanlar göndərirdi. Bununla belə, insanların fərarilik etməsi davam edirdi. "Tarixe-aləmaraye-Naderi" əsərində belə fərarilər haqqında çoxlu məlumatlar mövcuddur (58, 283).

Bu dövrdə Arazın şimalında da qiyamlar baş verirdi. Belə qiyamlar yeni şərait və reallıqlar yaradırdı. Nəticədə, ölkədə bir-birinin ardınca çoxlu sayda xanlıqlar yarandı. Bu kontekstdə Şəkidə 1743-cü ildə Nadirin təyin etdiyi Məlik Nəcəf, Hacı Çələbi tərəfindən öldürüldü və İranda ilk olaraq Şəki xanlığı yaradıldı. Nadir şah, Xanəli Kuklan və Gəncə hakimi Həsənəli xana fərman göndərdi ki, 10 min nəfərlik qoşunla Hacı Çələbinin qarşısını alsınlar və onu dəf etsinlər (159, 857). Ancaq Hacı Çələbinin əsas mövqe tutduğu "Gələsən, görəsən" qalasına edilən hər cür hücumlar heç bir nəticə vermədi. Hacı Çələbinin saray şairi Nəbi bu barədə yazmışdır:

*Şah Nadir çün gətirdi üstünə yüz min səvar,*
*Bərabər cəngə durdun, kimdə var bu ixtiyar?*
*Döndü getdi, xeclətindən oldu sərmşar[58] (70, 13).*

---

[58] Başıaşağı, xəcalətli

XVIII əsrin 50-ci illərində Şəki xanı Hacı Çələbi öz ərazilərini genişləndirdi və uzun müddət çalışdı ki, Gəncə, Qarabağ və Şirvan xanlıqlarını da özünə tabe etsin. Ancaq buna nail ola bilmədi. O zaman xanlığın paytaxtı Şəki şəhəri, İranın inkişaf etmiş şəhərlərindən biri hesab olunurdu. Burada vergi toplanması qaydaya düşmüş, xanlığın iqtisadiyyatı sabitləşmişdi (17, 122).

Nadirin ölümündən sonra Qarabağ, Şirvan, Gəncə, Bakı, Naxçıvan, Dərbənd, Təbriz, Urmiya, Ərdəbil və digər çoxsaylı xanlıqlar meydana gəldi. Onların hər birinin özünəməxsus bayraqları vardı. Bundan başqa, xanlıqlara bağlı İlisu (İlıq su), Qazax, Şəmşəddin, Şəmşədil, Ərəş, Qəbələ sultanlıqları da yarandı.

O dövrdə Azərbaycanın ən qüdrətli xanlıqları, Şəki, Qarabağ və Quba xanlıqları idilər. Azərbaycanın cənubundakı xanlıqlar az müddətdən sonra Qacar dövləti tərəfindən ələ keçirildilər (17, 122).

Arazın şimalındakı xanlıqlar Pənah xan Cavanşirin xan olduğu Qarabağ xanlığından cəsarət, ilham, maddi və mənəvi güc alırdılar (70, 11).

Pənah xanın əvvəlki adı Pənahəli bəy olmuşdur. O, Qarabağ xanlığının əsasını qoymuşdur. Pənah xan Nadir şahın sərkərdələrindən biri və carçısı olmuş, Cavanşir süvariləri ilə osmanlıları Qarabağdan qovub çıxarmış, Hindistanın fəthində Nadir şahla birlikdə döyüşmüşdür. Ancaq Nadir şahın eşikağası (təqribən, daxili münasibətlər, qismən də, xarici işlər naziri vəzifəsinə uyğun gəlir-*tərcüməçi*) olan böyük qardaşı Fəsləli bəy, şahın qəzəbinə tuş gəlib edam olunandan sonra Pənahəli bəy, Nadir şahın ona qarşı olan qəzəbli baxışlarından və rəftarından başa düşdü ki, onu da

qardaşının aqibəti gözləyir. Ona görə də ordudan fərar edib Qarabağa gəldi və burada qiyam qaldırdı. Bundan sonra Nadir şah, Pənahəli bəyin və digər qiyamçıların qətlinə fərman vermdi.

Pənahəli bəy, Nadir şahın fərmanından sonra öz qiyamçı tərəfdarları ilə anadan olduğu dağlıq əraziyə çəkilmiş, yarımfərari həyatı yaşayaraq Nadir şahın ölümünə qədər dövlət strukturları ilə müharibə və mübarizə aparmışdır (70, 11).

Mirzə Camal Cavanşir "Qarabağnamə"sində Pənah xanı belə təsvir edir: "Mərhum Pənah xanın əsl-nəcabəti Dizağın Cavanşir elindəndir. Bu el qədimdə Türküstandan gəlmişdir. O, Bəhmənli elinin qollarından olan Sarıcalı tayfasındandır. Pənah xanın əcdadları Cavanşir eli arasında sayılıb-seçilən, varlı və rəhmli insanlar olmuşlar" (19).

Rzaqulu xan Hidayət də Qarabağ xanlığının banisinin əcdadları və Cavanşir elinin Qarabağa gəlişi haqqında yazır "Bu elin əsli Türküstandan, Uğurlu xanın IV oğlu Yıldır xanın oğlu Uşirxan (bəlkə də, Əvşir oxunmalıdır) qəbilələrindəndir. Onları Uşar, Əfşar adlandırırlar... Cavanşir eli Cavanqardandır. Bu el 120 min əhalinin tərkibində Hülaki xanın vaxtında Türküstandan fəthə çıxmış və müxtəlif regionlarda yerləşmişlər. Böyük Teymur Gürganın vaxtında Rumdan geri dönmüş, Türküstan, Qəndəhar, Kabul və İrana səpələnmiş və məskunlaşmışlar. Çoxları Qəndəhar və Kabulda yerləşmişlər. Səfəvilər zamanı, xüsusən, Şah Abbasın dövründə Cavanşir elindən bir qrup Qarabağ və Aranda yaşayırdılar. Onların başçısının adı İbrahimxəlil ağa idi. Ondan sonra oğlu Pənah ağa, ondan sonra oğlu II

İbrahimxəlil ağa, eləcə də, II Pənah ağa və Nadir şahın dövründə III İbrahimxəlil ağa onlara başçılıq etmişlər. Nadir bu eli Sərxəsə (bəlkə də, Sərxos, yaxud da, Sorxəsdir) köçürmüşdür“ (194, 296).

Nadir şah Qarabağ, Gəncə, Tiflis və Şirvanı ələ keçirdikdən sonra hər eldə və kənddə olan igid və işbilən adamları yanına çağırtdırır, onları öz yaxınları sırasına daxil edir, ehtiram göstərir, mənsəb və məvacib verirdi. O cümlədən, Pənahəli bəy Cavanşir Sarıcalı da belələrindən biri idi və sonradan Pənah xan olmuşdu...

Pənah xan 1737/38-ci ildə Qarabağa fərar edəndən sonra yaxınları ilə birlikdə gah dağlarda, gah da Şəkinin Qəbələ mahalında yaşayırdı (19).

1147-ci ildə Nadirin ölüm xəbəri hər yerə yayıldı... Cavanşir, Kəbirli, Otuz iki tayfaları və Gürcüstan əhalisinin, Nadir şah tərəfindən Xorasana köçürülmüş bir hissəsi “Vətən sevgisi imandandır” deyimindən ilham alaraq, Xorasandan Qarabağa geri döndülər. O vaxta qədər orda-burda yaşayan Pənah xan həmvətənləri geri dönəndə onları öz himayəsinə aldı; yer-yurdla təmin etdikdən sonra ehtiyaclarını qarşılamaq üçün əlindən gələni etdi.

Geri dönənlərin yerləşdirilməsi zamanı Pənah xanın təşkilatçılıq qabiliyyəti aydın şəkildə üzə çıxdı. Onun xidmətləri Əmir Aslan bəyə də çatdı. Əmir Aslan bəy, İbrahim xanın oğlu, Nadir şahın qardaşı oğlu Əliqulu xanın sərkərdələrindən idi. Nadir şahın ölümündən sonra Əliqulu xan, Adil şah adı ilə ölkəni idarə edirdi. Əmir Aslan xan, Pənahəli bəyi görmək arzusu ilə gəlib, onunla görüşdü. Həmin

günün axşamı Pənahəli bəyə sultan[59], növbəti gün isə xan titulu verdi və ondan istədi ki, Adil şaha itaət etsin. Əmir Aslan xan bu barədə Adil şaha məlumat verdi. Adil şah Pənahəli bəyə xanlıq verilməsi barədə fərmanla birlikdə ona qiymətli xalat, cəvahir işləməli qılınc və çoxlu hədiyyə göndərdi. Bundan sonra Nadir şahın nəvəsi Şahrux Mirzə taxta çıxdı və Adil şahı öldürtdü. Bu arada qaracadağın hakimi Kazım xan, Əmir Aslan sərdarı tutub zindana saldı (18).

Səfəvilər zamanından Pənah xanın Qarabağ xanı olmasına qədər Qarabağın müxtəlif əraziləri Gəncə bəylərbəyinə tabe idi. Pənahəli xan Qarabağ xanlığını yaradandan sonra o, güclü bir xanlığa çevrildi və bu regionun ictimai-siyasi həyatında əhəmiyyətli rol oynadı.

Pənah xan öz hakimiyyətini möhkəmlətməkdən ötrü mühüm tədbirlər gördü. O, bu çərçivədə 3 möhkəm qala inşa etdirdi. Sonrakı tarixi hadisələr göstərdi ki, onun gördüyü tədbirlər necə böyük bir uzaqgörənliklə həyata keçirilmişdi. Tikdirdiyi qalalar isə düşmən üçün əlçatmaq olmuş və onların məğlub edilməsində əvəzsiz rol oynamışdır. Məhəmməd Həsən xan Qacar, Fətəli xan Əfşar, Şəki xanları, Şirvan xanı və başqaları Pənah xanı məhv etmək istəsələr də, məqsədlərinə çata bilmədilər.

Mirzə Camal Cavanşir "Qarabağnamə"sində adıgedən qalaların inşasının səbəbləri və onların necə layihələndirməsini şərh etmişdir. Bu əsərə istinad edərək, bu qalaların inşası üzərində dayanmağa dəyər. Mirzə Camal, Bəyat qalasının bərpası ilə bağlı yazır: "Şirvan və Şəkinin hakimləri,

---

[59] XVIII əsrdə sultan titulu feodallara verilirdi və rütbə baxımından xandan kiçik idi.

Pənah xanın Qarabağdakı ad-sanını görəndən sonra onun varlığını özləri üçün təhlükə kimi dəyərləndirdilər, onu aradan götürmək üçün birləşdilər.

Pənah xan, Qarabağın Xəmsə mahallarının onun hakimiyyətinə keçməsindən əvvəl onların onun torpaqlarına təcavüz edəcəklərini ön görmüşdü. Bu üzdən də öz ailəsini və qohumlarını təhlükəsiz yerləşdirə biləcəyi münasib bir qala tikdirməyi planlaşdırmışdı. Bunun üçün o, Kəbirli mahalındakı Bayat qalasının binasını uyğun görmüş və qısa müddətdə bu qalanın ətrafına möhkəm bir hasar çəkdirmiş, onun həndəvərində isə dərin bir xəndək qazdırmış, qalanın içində bazar, hamam, məscid tikdirmişdi. Pənah xan ailə üzvlərini, yaxınlarını, qohum-əqrabadakı ağsaqqalları bu qalada məskunlaşdırmışdı. Ətraf vilayətin bəzi sakinləri, hətta Təbriz, Ərdəbilin bir çox sakinləri və sənətkarları Pənah xanın qabaqcıl, xoşrəftar və sevgi dolu bir insan olmasını eşidərək, öz ailələri ilə Bayat qalasına yerləşirdilər. Bayat qalasının bərpası və inşası 1748-ci ildə başa çatmışdır.

Bayat qalası möhkəmləndirildikdən və onun əhalisi artdıqdan sonra Şirvan və Şəki hakimləri birləşərək, böyük bir ordu ilə Bayat qalasını mühasirəyə aldılar. Pənah xan 2-3 gündən bir güclü və təcrübəli süvariləri ilə qaladan çıxır, qala ilə düşmən arasındakı böyük meydanda düşmən qüvvələri ilə qəhrəmancasına vuruşurdu. Beləliklə də, o, qalib gəldi.

Bəyat qalasının mühasirəsi bir ay çəkdi. Şirvan və Şəki xanları, Pənah xanın qarşısında aciz qalmışdılar. Onlar hər gün ordularındakı insanların öldürüldüyünü, mallarının qarət edildiyinin, at və uzunqulaqlarının sayının azaldığını

müşahidə edirdilər. Sonunda, onlar kor-peşiman Bayat qalasının mühasirəsindən əl götüdülər və öz yerlərinə geri döndülər. Zamanın bişmiş və təcrübəli bir şəxsiyyəti, hərbi və siyasi xadimi Şəki xanı Hacı Çələbi mühasirədən geri dönərkən demişdi: "Pənah xan bir xan idi. Biz gəldik, onunla vuruşduq, bir iş görə bilmədik. İndi biz onu şah etmişik və geri dönürük".

Mirzə Camal Cavanşir, Pənah xanın tikdirdiyi ikinci qala haqqında yazır: "Xaçın camaatı Pənah xanla düşmənçilik etdiklərinə görə, Pənah xan onların Ballı qayadakı sığınacaqlarına hücum edir və oranı ələ keçirir... Bu hadisədən sonra hazırda Şah bulağı adı ilə tanınan Tərnəkut qalasını tikdirmək qərarına gəlir. O, bu qalanı böyük bir çeşmənin yaxınlığında tikir. Qalanın ətrafında isə təpələr üzərində hasar ucaltdırır, bazar, meydan, hamam və məscid inşa etdirir. 1751/2-ci ildə Pənah xan, sənətkarların ailələrini, tayfa ağsaqqallarını, yaxınlarını və ətrafındakı insanları oraya köçürür.

Pənah xan 3-4 il müddətində Şahbulağında yaşayır. Onun qüdrəti, hərbi gücü və müstəqillik şöhrəti günbəgün artır və ətrafa yayılırdı. Şirvan, Şəki, Gəncə, İrəvan, Naxçıvan, Təbriz və Qaradağ xanları, Pənah xana məktub və nümayəndələr göndərərək, onunla dostluq və müttəfiq olmaq istədiklərini bəyan edirdilər. Pənah xan onlardan bəziləri ilə qohumluq münasibəti yaratdı.

... Bu arada Pənah xan belə qərar qəbul etdi ki, Gəncə, İrəvan, Naxçıvan, xüsusən də, Ərdəbil vilayətlərini ələ keçirsin. O, qısa müddtdə bu xanlıqların bəzilərini zorla, bəzilərini isə məktub və nümayəndə göndərməklə, və qo-

humluq münasibətləri yaratmaqla özünə tabe etdi. Dərgahqulu bəy Sarıcalını Ərdəbil hakimi təyin elədi. Gəncə xanzadələrindən istədiklərini iş başına gətirdi, istəmədiklərini işə işdən uzaqlaşdırdı. Pənah xan vilayət xanlarının övladlarından bir neçə nəfəri girov kimi Şah bulağı qalasında saxlayırdı" (19).

Məhəmməd Həsən xan Qacarın güclənməsi və İranda baş verən hadisələr Pənah xanı daha çox müdafiə tədbirləri görməyə vadar edirdi. Bu çərçivədə o, Azərbaycanın siyasi, ictimai və mədəni həyatında mühüm və önəmli rol oynamış Şuşa şəhərini tikdirdi.

Mehdi Bamdad Şuşa qalasının əvvəlki adının Davər olduğunu yazır (179, 41). Şuşa qalası, Şuşa kəndinin kənarında böyük bir dağın üzərində tikildi. Əvvəllər o, banisinin şərəfinə Pənahabad kimi məşhurlaşmışdı və tezliklə böyük bir şəhərə çevrildi (17, 122).

Şuşa qalasının açarları gümüşdən düzəldilmişdir.

Mirzə Camal Cavanşir Şuşa qalasının necə tikilməsi ilə bağlı yazır: "Pənah xanın başbilən yaxınlarından bir neçə nəfəri, onun göstərişi ilə gedib, qala tikiləcək ərazini və onun ətrafını nəzərdən keçirdilər. Qala tikiləcək yerdə 2-3 çeşmədən başqa axar su yox idi. Bu çeşmələrin suyu qalada yaşayacaq insanlara bəs etməzdi. Ona görə də suyun mövcud olduğu güman olunan yerlərdə quyular qazıldı. Məlum oldu ki, ərazinin bir çox yerlərində çoxlu sayda su quyusu qazmaq olar. Bu məlumatı Pənah xana çatdırdılar. Buna sevinən Pənah xan, yaxınlarından bir neçə nəfərlə qala tikiləcək əraziyə gəldi, məntəqə ilə tanış olandan sonra xoş niyyətlə qalanın inşası başladıldı.

1756-cı ildə Şuşa qalası artıq hazır idi. Əyanların, məliklərin, yaxınların, kəndxudaların ailələri və Şah bulağında yaşayan bütün rəiyyət ailələri qalaya köçürüldü və burada yerləşdirildi. Əvvəllər qalanın ərazisi Şuşa kəndin sakinlərinin otlaq və əkin yeri olmuşdu. O, Şuşa kəndin şərq tərəfində ondan 6 verst məsafədə yerləşir" (19).

Şuşa qalası görünüşünə görə, mal quyruğu kimi üzü yuxarı uzanıb gedir. Onun sonu sərt sıldırım qayalıqlara çıxır. Bu sıldırımlar onu divar kimi əhatə edir. Sıldırımların aşağısında Xəzinə dərəsi adlı kifayət qədər dərin dərə yerləşir. Dərənin bu tərəfindən piyada aşağı enib və o tərəfindən yuxarı qalxmaqla çox çətinliklə qalaya daxil olmaq olar, ancaq dərədən çay axır. Çayın üzərində bir dəyirman mövcuddur. Dərə elə də enli deyildir. Top və güllə mərmisi dərənin bir tərəfindən o biri tərəfinə rahat yetişir. Dana quyruğuna bənzər bu ərazinin o tərəfdən sonu yüksəkliklərlə tamamlanır. Bu yüksəkliyin adı Könüllü təpəsidir. Bu başın bir tərəfi çox sərt enişli və yolu dardır. Qədimdə bu ərazi meşə və istifadəsiz olmuşdur. Onun dörddə bir fərsəxliyində Şuşakənd yerləşmişdir.

Şuşada Pənahabad adlı gümüş sikkəkər kəsilmişdir. Sikkələrin bir üzündə "Pənahabad", o biri üzündə isə "Ləiləhəilləlah Məhəmməd rəsüləllah və əleyha vəliullah" yazılmışdır. Onların çəkisi bir misqal idi. Əvvəllər belə sikkənin qiyməti bir abbasiyə (4 şahı), sonradan isə on şahıya bərabər olmuşdur (194, 297). Pənahabad adı tələffüzdə Pənabad kimi deyilmiş və Müzəffərəddin şahın hakimiyyətinin sonuna qədər bu ad işlənmişdir (Bamdad). Ondan sonra da İran Azərbaycanında 10 şahılıq sikkələrə pənabad deyilmişdir.

Qarabağda "Xan arşını" adlı ölçü vahidi də mövcud olmuşdur. Onun uzunluğu bir metrdən 5-10 sm artıq idi. Çəkidə isə estil adlı tərəzi daşından istifadə edilmişdir. Onun çəkisi, təqribən, 800 qrama bərabər idi.

Pənahabad şəhəri gündən-günə, ildən-ilə böyümüş və abadlaşmışdır. Zaman-zaman Pənahabad qalası və Pənah xan qalası ixtisar edilərək, Qala adı ilə əvəz olunmuşdur. Burada bəzən Qala əvəzinə Şuşa qalası ifadəsi də işlədilir. Az sonra Şuşa qalası Şuşa, yaxud da Şişə adı ilə əvəz olundu. Mehdiqulu xan Şuşaya həsr etdiyi şeirdə onun qəribə ab-havası olduğunu qeyd etmiş, burada yeri olanı xoşbəxt adlandırmışdır.

Şuşa şəhəri tikiləndən 1 il sonra Məhəmməd Həsən xan Qacar, böyük bir ordu ilə Arazın şimalına hücum çəksə də, Xatundan o tərəfə keçə bilmədi. Urmiyanın hakimi Fətəli xan Əfşarın da bir-birinin ardınca Qarabağa hücum etməsi bir nəticə vermədi (70, 12).

Dağlıq Qarabağda bəzən erməni məlikləri müstəqil olmağa çalışsalar da, onlar, hər zaman türk xanlarına tabe olmuşdur. Əslində, erməni məlikləri heç zaman öz aralarında razılıq əldə edə bilməmiş, hər zaman bir-biri ilə müharibə aparmışlar. Nəticədə, Pənah xan onların aralarındakı ziddiyyətlərdən istifadə edərək, onları aradan qaldırmışdır (6, 132).

1756-cı ildə Fətəli xan Əfşar Qarabağa hücum etdi. O, möhkəm Şuşa qalasını ələ keçirə bilmədi. Lakin qalanın mühasirəsinin uzun sürməsi ilə qaladakıların ərzaq ehtiyatı tükəndi. Ona görə də Pənah xan, Fətəli xan Qacarın təbəəliyini qəbul etməyə və oğlunu ona girov verməyə razı

oldu. Fətəli xan, həmçinin, Talış xanını və Qutqaşen sultanını da özünə tabe edə bildi.

Bu zaman Kərim xan Zənd, İranın bir çox regionlarını ələ keçirdi və Azərbaycanı işğal etmək fikrinə düşdü. Fətəli xan Qacar onunla müharibə etməyə məcbur oldu. Baş verən ağır döyüşdə Fətəli xan Qacarın ordusu qalib gəlsə də, ondan əvvəl Məhəmməd Həsən xan Qacarla döyüşlərdə çoxlu tələfat verdiyinə görə, qələbəni axıra çatdıra bilmədi. O, Şirazda Kərim xan Zəndə döyüşdə məğlub oldu.

Kərim xan Zəndin növbəti düşməni Fətəli xan Əfşar idi. Kərim xan Zənd, Fətəli xan Əfşarın siyasətindən narazı olan Azərbaycan xanları ilə əlaqə yaratdı. Nəticədə 1761-ci ildə Qarabağ xanı Pənah xanın ordusu Kərim xan Zəndin ordusuna qoşuldu. Bu, Kərim xan Zəndin Fətəli xan Əfşara qalib gəlməsinə səbəb oldu (17, 126).

Kərim xan Zənd, Azərbaycandan Farsa və Şiraza qayıdan zaman Azərbaycanın bəzi mötəbər əmirlərini də özü ilə apardı. Onların arasında Qarabağ hakimi Pənah xan da var idi. Pənah xan, Kərim xan Zəndin ölümündən bir neçə il qabaq dünyasını dəyişdi. Onun yerini böyük oğlu IV İbrahimxəlil xan tutdu (179).

Pənah xan Cavanşir, Qarabağ və bütövlükdə, Azərbaycan tarixinin həssas dövrlərindən birində böyük tarixi rol oynamış, özündən sonra ölməz və parlaq yadigarlar qoymuş, hətta sağlığında əfsanəvi bir şəxs hesab olunmuşdur. Onun geyimi hazırda Bakıda Nizami muzeyində qorunub saxlanır. Bu geyimin üzərində Quranın bütün ayələri yazılmışdır. Pənah xanın sağlığında belə bir şayiə dolaşmışdır ki, bu geyimə heç bir silah təsir etmir.

Azərbaycan Respublikasının tanınmış yazıçısı Mustafa Çəmənli "Xallı Gürzə" romanında Pənah xanın keşməkeşli həyatını təsvir etmişdir. Adıgedən əsər, Qasım bəy Zakirin, Pənah xanın xalqa söykəndiyini göstərən bu beyti ilə başlayır:

*Əyyami-sabiqdə biz idik sepah*[60]*,*
*Süfrədə, həzərdə*[61] *Pənaha pənah.*

Daha sonra əsər bu cümlələrlə davam edir:

- Oğlum, at ayaqlarının səsini eşidirsən?
- Eşidirəm, ata, ancaq süvarini görə bilmirəm.
- Onu ürək gözü ilə görmək mümkündür. O tək atlı 2 əsrdən artıqdır ki, at üstündə yol gedir. Ən azından bir neçə əsr bundan sonra da beləcə yəhər üstündə gələcəyə doğru atını dördnala çapacaqdır!

Mirzə Adıgözəl bəy "Qarabağnamə"sində Pənah xanın ölümü ilə bağlı yazır: "Onlar bir neçə gün sonra Şiraza yetişdilər. Pənah xan bir neçə ildən sonra burada təbii bir ölümlə dünyasını dəyişdi. Onun cənazəsini təntənəli bir mərasimlə Ağdama gətirdilər. Burada öz şəxsi mülkündə dəfn etdilər" (18).

Mustafa Çəmənli Pənah xanın ölüm tarixini 12 avqust 1763-cü il yazır və romanının ürək dağlayan bu bayatı ilə bitirir:

*Burdan bir atlı keçdi,*
*Atın oynatdı, keçdi,*
*Gün kimi işıq saçdı,*
*Ay kimi batdı, keçdi.*

---

[60] Ordu
[61] Yol

# İBRAHİMXƏLİL XAN CAVANŞİR

Pənah xan, Kərim xan Zəndlə Şiraza yola düşdüyü vaxtdan Qarabağda onun böyük oğlu İbrahimxəlil xan xanlığın başına keçdi. Onun uzunmüddətli hakimiyyəti dövründə Qarabağ xanlığı daha da gücləndi və regionun ən qüdrətli dövlətinə çevrildi. Mirzə Camal Cavanşir yazır ki, İbrahimxəlil xan özünə şah titulu götürməsə də, onun cah-cəlalı İran şahının cah-cəlalından aşağı deyildi.

Atası Pənah xan, Nadir şahın yanından-Xorasandan fərar edəndə İbrahimxəlil xanın 15 yaşı var idi. Onlar Xorasanda öz evlərində yaşayırdılar. O da atasından bir müddət sonra Qarabağa gəldi, atasının köməkçisi və yavəri oldu. Atası Şiraza gedəndə IV İbrahimxəlil xan adı ilə onun yerinə xanlıq taxtına oturdu və atasının ideyalarının həyata keçirilməsini davam etdirdi və onun düşüncələrinin bir çoxunu reallaşdırdı.

İbrahimxəlil xan atasının sağlığında girov kimi Urmiya xanı Fətəli xan Əfşarın yanında saxlanılırdı. Fətəli xan Əfşar söz vermişdi ki, bir müddət sonra onu girovluqdan azad edəcəkdir, lakin sözünə əməl etmədi. Pənah xan, Kərim xan Zəndlə birləşərək, Fətəli xan Əfşarı məğlub edəndən sonra Fətəli xan Əfşar, İbrahimxəlil xanı hüzuruna çağıraraq, ona qiymətli bir xələt, daş-qaşla bəzədilmiş bir qılınc, qızıl yəhərli gözəl bir at bağışlayır və onun Qarabağa hakim təyin edilməsi haqqında fərman verir. Bundan sonra

Pənah xandan xahiş edir ki, səyahət məqsədi ilə onunla birlikdə bir neçə günlüyünə Şiraza getməsinə razılıq versin. Pənah xan onun bu təklifini qəbul edir (19).

İbrahimxəlil xan inşaat işləri ilə birlikdə Qarabağ xanlığının digər regionların xanları ilə münasibətlərini genişləndirir, elm və mədəniyyət xadimlərini təşviq edən tədbirlər görür. Hər tərəfdən şairləri, sənətkarları və uzaqgörən siyasət xadimlərini öz sarayına toplayır. Qarabağ valisi İbrahimxəlil xanın səhər-axşam söhbətlərindən zövq alan və sevinən Əbdürrəzaq Dünbülü Məftun yazır: "Zamanın şair və fazillərindən məhkəmə qazısı, mükəmməl fəqih, dərin fəzilət və zəka  sahibi, əsl başbilən, mouzə və nəsihətlərinin kəlamı ilə qəmli ürəklərə şəfa bağışlayan, fəzilət dünyası, fazillər padşahı Molla Rza Şəfayi Təbrizi Qarabağa daxil olanda ondan xahiş edir ki, onu İbrahimxəlil xanla tanış etsin... Həmin vaxt xan Aranda yaylaqda idi. Dünbülü, Mövlananın istəyi üzərinə yazılı müraciət edir... Xan Şuşaya qayıdanda Mövlanan böyük ehtiram və lütf ilə qarşılayır..." (95, 92).

İbrahimxəlil xan alımləri cəlb etmək çərçivəsində Azərbaycanın böyük şairi və mütəfəkkiri Molla Pənah Vaqifi öz sarayına dəvət edir, əvvəl onu eşikağası, sonra isə vəzire-əzəm (baş vəzir) təyin edir. Bu uzaqgörən hərəkəti ilə İbrahimxəlil xan, illərlə Molla Pənah Vaqifin misli görünməmiş dühasından və istedadından müxtəlif sahələrdə istifadə edir, ölkəsinin inkişafı və çiçəklənməsində ondan faydalanır.

İbrahimxəlil xanın baş vəziri Molla Pənah Vaqif xəyanətkarlara və işğalçılara qarşı Qarabağın müdafiə qabiliyyətinin artırılması üçün əlindən gələni edir, həmçinin,

Azərbaycan xalq ədəbiyyatının və ədəbi dilinin zənginləşməsi üçün təsirli addımlar atır. O, bir şair kimi xalqın ruhunu qidalandırır, bir siyasətçi kimi xanlığın işlərinin idarə olunmasında çalışır.

Vaqif, Qarabağ xanlığının siyasi və diplomatik fəaliyyətlərində-Şuşa ilə digər dövlətlərin (Peterburq, Tiflis, Tehran, Azərbaycanın digər xanlıqları, Osmanlı) arasında səfirlərin mübadiləsi və yazışmalarda mühüm rol oynayır. Bütün bunlar birbaşa onun təşkilatçılığı və rəhbərliyi ilə həyata keçirilir.

Vaqif, Azərbaycanın və Qafqazın xanlıqları və digər idarəçiləri arasında birlik və vəhdət yaratmaqdan ötrü çox çalışdı. Onun bu sahədə gördüyü tədbirlər və apardığı siyasətdəki mütərəqqi siyasi dünyagörüşü indi də bir çox vaqifşünasların diqqətini cəlb edir (70).

Qarabağ xanlığının hakimiyyət nüfuzu Cənubi Azərbaycanın bəzi xanlıqlarına da siyarət edirdi. Hətta bu xanlıq bəzi vaxtlarda Gəncə xanlığını da idarə edirdi. İbrahimxəlil xan Gürcüstan padşahı II İrakli ilə də yaxşı münasibətlər qurmuşdu. Molla Pənah Vaqif Gürcüstanla münasibətləri qaydaya salmaqdan ötrü Tiflisə səfər etmişdi (17, 123).

Gürcüstan valisi bütün böyük və kiçik məsələlərdə İbrahimxəlil xanın tövsiyyələrinə əməl edirdi. Çünki avar xanı Məme (Ömər) xan və Dağıstanın digər əmirləri İbrahimxəlil xanla qohum olduqlarından, ona tabe idilər...

Bu arada Rusiya çariçası Yekaterina qəflətən öldü. Bu səbəbdən Yekaterinanın göstərişi ilə Qafqazda olan rus sərkərdəsi Zubov Rusiyaya qayıtmağa məcbur oldu. Bu xəbəri eşidən İbrahimxəlil xan, Gürcüstan padşahına xəbər gön-

dərdi ki, Qarabağ və Dağıstan hərbçiləri ilə Gəncəyə hücum etmək istəyir. O da ordusu ilə Gəncəyə tərəf hərəkət etsin və Gəncəni ələ keçirsinlər.

Gürcüstan valisi də müvafiq hazırlıqlar görməyə başladı, ordusunu toparladı. Gəncənin mühasirəsində Məlik Məcnun həlak oldu. Gəncə hakimi Cavad xan, İbrahimxəlil xanın tabeliyini qəbul etdikdən sonra qızını və böyük oğlunu İbrahimxəlil xanın yanına girov göndərdi.

İbrahimxəlil xanın hakimiyyəti dövründə Şuşada çoxlu sayda quruculuq işləri görüldü. 1783-1784-cü illərdə şəhərin ətrafında başqa bir möhkəm hasar çəkildi. Birinci mərhələdə 1753-1754-cü illərdə

Şuşa qalasının divarlarının çəkilməsi və qəsrlərin inşası başlamış, şəhərin aşağı məhəllələrinin formalaşdırılması başa çatdırılmışdır. II mərhələdə isə Şuşanın yuxarı hissəsi quruldu və formalaşdı (133).

İbrahimxəlil xanın hakimiyyəti dövründə Azərbaycanın ədəbiyyat və incəsənətinin inkişafı üçün daha əlverişli şərait yarandı, poeziya, nəsr, musiqi, rəssamlıq, xəttatlıq, memarlıq sahələrində dəyərli əsərlər meydana gəldi. Şifahi xalq ədəbiyyatı sürətlə inkişaf etməyə başladı, istedadlı aşıqlar yarandı. Onlar gələcək aşıqların ustadı və ilham mənbəyi oldular. Bu illərdə Şuşa elm, ədəbiyyat və mədəniyyət mərkəzinə çevrildi. O, Azərbaycanın böyük şəhərlərindən biri hesab olunurdu (70).

İbrahimxəlil xan Azərbaycanı ələ keçirmək fikrinə düşdü. Ordusunu Naxçıvan yolu ilə Xoy və Salması tutmağa göndərdi. Araz çayının 40 kilometrliyindəki Nazik qalası mühasirəyə aiındı.

Xoy hakimi Əhməd xan Dünbülü Urmiyanın bəylərbəyisi İmamqulu xandan kömək istədi. İmamqulu xan kürd və əfşarlardan ibarət bir qoşunla Xoya gəldi. Əhməd xan Xoy şəhərinin şərq tərəfində yerləşən Çəmənbağda İmamqulu xanın qoşununu ağırladıqdan sonra hər ikisinin birləşmiş ordusu Qarabağdan gələn ordu ilə döyüşə yollandı və onu məğlub etdi (154, 164).

Sonralar İbrahimxəlil xan qızlarından birini Xoyun sonrakı xanı-Əhməd xan Dünbülünün oğlu Hüseynqulu xana ərə verdi.

Həmin il Ağa Məhəmməd xan Qacar, İbrahimxəlil xanı aradan götürməkdən ötrü Qarabağa qoşun çəkdi. Bu arada Xoy xanı Hüseynqulu xanı hakimiyyətdən kənarlaşdırıldı və Tehranda zindana salındı. Xan göstəriş verdi ki, İbrahimxəlil xanın qızı olan Hüseynqulu xanın arvadını Qəzvində girov kimi saxlasınlar. Bu, Xoy və Qarabağ xanlarının baş qaldırmayacaqlarına əmin olmaq üçün edilirdi (154, 181).

İbrahimxəlil xanın idarəçilik sistemi aydın bir struktura malik idi. Bu strukturun yaradılması hələ atasının vaxtında başlamışdı. Bu idarəçilik sisteminə görə, Qarabağın bütün köçəri əyalətləri və tayfaları xanlığı süvarilərlə təmin etməli idilər.

Ordunun piyada qoşunu isə zəruri hallarda təşkil edilirdi. O, kompakt yaşayan kəndlilərdən, Qarabağın Xəmsə bölgəsindən formalaşırdı. Qarabağın əyalət və tayfaları istehsal və məhsul vergilərindən azad idilər. Əksinə, ancaq müharibə halında piyada qoşunu formalaşdırmalı olan kompakt yaşayan kəndlilər vergilər ödəməyə mükəlləf idilər. Adları müvafiq siyahılarda yer alan daimi hərbçilər heç

bir vergi ödəmirdilər. Onların at, taxıl və döyüş ləvazimatları xan və dövlət divanxanası tərəfindən təmin olunurdu. Ordunun daimi mənsublarının hər birinə ev verilirdi. Onlar öz ailələri ilə bu evlərdə yaşayırdılar. Hər il Novruz bayramında qoşun başçılarına xələt, hədiyyə və 1 at bağışlanırdı. Xan sarayının ərzaq təminatı üçün hər gün 40 put[62] düyü, 30 baş qoyun ayrılırdı. Bunun üçün vəsait vergilərdən və xüsusi gəlirlərdən ayrılırdı. Taxıl, ipək, heyvandarlıq, mal-mülk icarəsi vergiləri, rəiyyətin, ərazi böyüklərinin və erməni məliklərinin mal və nağdı şəklində ödədikləri ianələr və hədiyyələr İbrahimxəlil xanın sərvətinin mənbələrindən birini təşkil edirdi. İbrahimxəlil xan bütün Qarabağda ən çox torpaq sahələrinə və sürülərə malik idi. Xanın əkin sahələrindən və bağlarından hasil olan məhsulun yarısı ona çatırdı. 50 il müddətundə Qarabağ xanlığının vəziri və mirzəsi olmuş Mirzə Camal Cavanşir Qarabaği yazır ki, yadımdadır bir dəfə hesabladılar ki, mərhum xana məxsus olan heyvan və kotan sayı əhaliyə məxsus olan heyvan və kotan sayına bərabər, hətta ondan 2 baş artıq idi. Müəllifin yazdığına görə, İbrahimxəlil xanın torpaqlarının bir hissəsi kəndlilərə icarəyə verilirdi, bir hissəsi isə onun rəiyyəti tərəfindən becərilirdi. İbrahimxəlil xanın ilxısının bütün Qafqazda və Azərbaycanda analoqu yox idi. Qarabağın seçmə cins atları İbrahimxəlil xanın ilxısından çıxmışdı. Onun at ilxısının əsası, atası Pənah xan tərəfindən Nadir şahın ilxısından götürülmüşdür. Belə ki, Nadir şahın ölümündən

[62] Put-16 kq-ya bərabər çəki vahididir.

sonra şaha məxsus bir neçə min şahənşah, şəqaqi və Xorasan cinsli atlar Pənah xanın əlinə keçmişdi. Bu, onun hakimiyyətinin güclənməsinə səbəb olmuşdur.

İbrahim xəlil xanın ilxısında 4 min seçmə dişi, bir neçə yüz seçmə erkək at var idi. O, minlərlə baş xırdabuynuzlu, yüzlərlə baş iribuynuzlu mal-qaraya sahib idi (138, 140).

## İBRAHİM XƏLİL XAN CAVANŞİRİN AQİBƏTİ

Ağa Məhəmməd xan Qacar öldürüləndən və Fətəli şah Qacar hakimiyyətə gələndən sonra İbrahimxəlil xan Şuşaya qayıtdı və öz hakimiyyətini davam etdirməyə başladı. O, mərkəzi hakimiyyətlə münasibətləri nöhkəmləndirməkdən ötrü Ağabacı kimi tanınan qızı Ağabəyimi Fətəli şaha ərə verdi. Ancaq Fətəli şah, onun əmisi Ağa Məhəmməd xan Qacara yaratdığı problemlər və onun Qafqaza 2 dəfə qoşun çəkməsi və sonunda öldürülməsi və digər səbəblərdən elə ilk gündən İbrahimxəlil xanın qızından xoşlanmırdı. Ancaq Fətəli şah həddən artıq əyyaş olduğundan ömrünün sonuna qədər onunla yatmadı və onu boşamadı. Ağabacı Qumda inzivada[63] yaşayırdı (179, 12).

Halbuki, dəfələrlə müşahidə olunmuşdu ki, Ağabacı yaşlansa da, içəri girəndə çox gözəl və cavan olan, Fətəli şahın zövcəsi Tacəddövlə dərhal ayağa durar, onun əyləşməsini gözləyərdi.

Ağabacı məşhur bir xanım idi. Ona qarşı heç bir vaxt hörmətsizlik olunmamışdı. Çox zaman Qasım imamzadəsi məhəlləsindəki sarayında yaşayırdı. Sonradan Qum şəhəri ona verildi. Onun xidmətində Qarabağdan gətirdiyi 200 nəfərdən artıq xidmətçi və nökər var idi. Onların hamısı igid və seçilmiş şəxslər idilər. Qumda toplanan vergilərin bir hissəsi Ağabacıya çatırdı.

[63] Ətraf aləmdən təcrid olunma

Qarabağın böyüklərindən Məlik bəy, Ağabacının vəziri, tanınmış və hörmətli Xacə Ağa Bəhram isə onun xacələrindən biri idi. Keykavus Mirzə və Mürəssə xanım isə övlad kimi Ağabacıya verilmişdilər. Ağabacının şahdan övladı olmamışdı. Çünki nikahdan sonra Fətəli şah heç vaxt ona zövcə münasibəti bəsləməmişdi. O, sanki, bir cariyə idi. Fətəli şah bir dəfə öz yaxınlarına demişdi ki, Ağabacı onun sarayına ilan kimi gəlmişdir. Buna baxmayaraq, Fətəli şah, Ağabacıya çox böyük hörmət və ehtiramla yanaşırdı.

Ağabacı Qumda dünyasını dəyişmiş, orada da dəfn edilmişdir (179, 12).

İstedadlı şahzadə Ağabacı həm də şairlik qabiliyyətinə sahib idi və "Məluli" təxəllüsü ilə şeirlər yazırdı. Onun zifah gecəsində cəmi bir neçə yığcam sorğu-sual olmuşdu. Həmin gecənin sabahısı Ağabacı türkcə bu sadə beyti zümzümə etmişdi:

*Yarım gecə gəldi, gecə qaldı, gecə getdi,*
*Heç bilmədim, ömrüm necə gəldi, necə getdi.*

İbrahimxəlil xan 1805-ci ilin may ayında öz oğlanları, əyanları, kürəkəni Şəki hakimi Səlim xan və Şəki feodalları ilə birlikdə Sisiyanovun görüşünə getdi. Bu görüş Gəncənin yaxınlığında, Kürəkçayın sahilində baş tutdu.

Sisiyanovla görüşdə may ayının 14-də Qarabağ xanlığının, 21-də isə Şəki xanlığının Rusiyaya birləşdirilməsi ilə bağlı müzakirələr aparıldı. Bağlanmış müqaviləyə görə, o, imzalanandan sonra hər bir xan Rusiya xəzinəsinə xərac ödəməli, rus qoşununu öz ərazilərində yerləşdirməli idilər. Ancaq xanlar daxili idarəçilikdə öz müstəqilliklərini tam

saxlayacaqdılar. Xanlara və onların övladlarına rus rütbləri verildi və onlara maddi imkanlar təyin olundu.

Bu müzakirələrdən az bir müddət keçəndən sonra 1 dəstə rus qoşunu Şuşanın 10 verstliyində, Xan bağı adlı ərazidə yerləşdirildi (44, 158).

Rzaqulu Hidayət, İbrahimxəlil xanın ruslara baş əyməsinin səbəbini belə izah edir: "Azərbaycanın bəzi xanları və əmirləri Qarabağ xanı İbrahimxəlil xanın məqamı və üstünlüklərinə görə, onu daha yuxarı hesab edirdilər və o, Qacar şahına tabe olmaq istəmirdi " (194, 420).

Sisiyanov Bakı xanı Hüseynqulu xanın bibisi oğlu İbrahim xan tərəfindən Bakıda öldürüldükdən sonra Qafqazın bir qrup xanları və əmirləri, o cümlədən, İbrahimxəlil xan Cavanşir, Səlim xan və başqaları məlumatsızlıq üzündən belə güman etdilər ki, Sisiyanovun ölümündən sonra daha kimsə onlara əziyyət verə bilməyəcək və artıq azad olmuşlar. Ona görə də ruslarla müqavilədən əl çəkdilər və keçmişdə olduğu kimi, yenidən İrana meyl etdilər. İbrahimxəlil xan şah sarayına yazılı şəkildə bildirdi ki, ruslarla müqavilə bağladığına görə peşiman olmuşdur və Şuşada qalmış bir qrup rus əsgəri və zabitini oradan çıxarmaqdan ötrü İran hökumətindən kömək istədi (179, 13).

Rzaqulu Hidayət bu tarixi hadisəni şərh edərək, İbrahimxəlil xanın öldürülməsini müfəssəl bir şəkildə aşağıdakı kimi qələmə almışdır: "Uca şah həzrətləri yaxın vasitəçiləri ilə İbrahimxəlil xana xəbər göndərdi, baş verənlərdən üzüldüyünü çatdırdı. İbrahimxəlil xan da cavabında öz peşimanlığını bildirdi. Məktubun məzmunu şahı təsirləndirdi və o, müxaliflərinin fikirlərinə göz yumaraq, islamı gücləndirmək qərarına gəldi. Belə qərara gəlindi ki, padşahın və

şahzadənin qoşunu daxildən və xaricdən Şuşadakı rus qoşunu ilə vuruşsun. Yaşlı İbrahimxəlil xan düşmənin Qarabağdan çıxarılması üçün əlindən gələni etdi, damadının iştirakı və yardımı ilə Naibüssəltənəyə məktub göndərdi. Buna qədər isə gənc oğlu Əbülfət xan Cavanşiri Qafan yolu ilə yolladı ki, Fərəculla xan Şahsunu və digər hərbi qrupları Çanaxçı yolu ilə toparlasın.

Əbülfət xan Xudafərin körpüsündən keçəndən sonra məlum oldu ki, qəddar fələk yeni bir oyun oynayıb və böyük insanın (İbrahimxəlil xanın) qanı axıdılıbdır. Belə ki, İbrahimxəlil xan ailəsi, təqribən, 2 min nəfərdən ibarət əmələ və xidmətçiləri ilə birlikdə istirahət adı ilə Şuşadan çıxmış, şəhərin 1 fərsəxliyində, intiqam hissi ilə alışıb yanan şah ordusu ilə gələcək oğlu Əbülfət xanı və Fərəculla xanı gözləməyə başlayır ki, onun köməyi ilə rusları Qarabağdan qovub çıxarsın.

Qismətdən İbrahimxəlil xanın nəvəsi, Məhəmmədhəsən xanın oğlu Cəfərqulu xan Əbülfət xana qarşı idi və ona düşmən münasibəti bəsləyirdi. O, həm zahirən, həm də daxilən rus dövlətinə bağlı idi. Cəfərqulu xan, babasının planı barədə ruslara məlumat çatdırır və 300 nəfərdən ibarət rus qoşunu onun bələdçiliyi ilə Şuşadan çıxaraq, gecə saat 4-də İbrahimxəlil xanın və adamlarının yerləşdiyi əraziyə qəflətən hücum edir. Belə bir hücumu ağlına belə gətirməyən İbrahimxəlil xan və onun 32 nəfər yaxını məst rus əsgərləri tərəfindən qətlə yetirilir. Onların əksəriyyəti xanın ailə üzvləri idilər. Ölənlərin arasında Şəki xanı Səlim xanın qızı və bacısı qızı da var idi. İbrahimxəlil xanın səsə oyanan adam-

ları 3 saat qəhrəmancasına müqavimət göstərsələr də, faydası olmur və onlar məğlub olurlar. Bu qətliam 3 saat davam edir“ (194, 25-420).

İbrahimxəlil xanın öldürülməsindən sonra Qarabağ xanlığı dağılır; Şuşa qalasında və Pənahabadda iğtişaşlar tüğyan edir. Naçar qalan rus hərbçiləri öldürülmüş xanın yerinə onun oğlu Mehdiqulu xanı təyin edirlər.

Bu hadisədən sonra bir çoxları Qarabağ xanlığından Qaracadağa köçdülər.

O zaman baş vermiş faciələrdən biri də bu oldu ki, şahzadə Naibüsssəltənə[64] Həsən-Hüseyn bulağının başında düşərgə salan zaman Ətaulla xan Qarabağ ellərini köçürməyə gedir. Ellər, Fətulla xanla hərəkət edəndə Cəbrayıllı tayfasından bir nəfər gizlicə rus komandanına bu barədə xəbər göndərir və ondan qoşun istəyir və Cəfərqulu xanı köməyə çağırır. Qafanda sərt bir dağ keçidində sabahdan 2 saat keçmişdən axşama qədər qızğın döyüş gedir. Rus əsgərlərinin güllə və barıtları qurtarır və onlar məğlub olurlar. Bu xəbəri eşidən Nəvvab[65] Naibüssəltənə, İsmayıl xanı və Həsən xan Sərdarı ora göndərir, özü isə Aslandüz yolu ilə yola çıxır. Bu xəbər rus komandanını dilxor edir və o, bir dəstə əsgəri Pənahabada göndərərək, özü Gəncəyə tərəf hərəkət edir.

Cəfərqulu xan belə düşünürdü ki, İbrahimxəlil xanın ölümündən sonra ruslar onu Qarabağa hakim təyin edəcəklər. Lakin onun gözlədiyinin əksinə, onu həbs etdilər,

---

[64] Abbas Mirzə

[65] Bu ad şahzadələrə verilirdi.

Tiflisə yola saldılar ki, oradan da Sibirə sürgün etsinlər. Tiflis yolunda 1 rus əsgəri onun atının cilovundan yapışmışdı. Kürün bir qolu olan Tərtər çayını keçəndə atın afsarı qəflətən əsgərin əlindən çıxdı. Bu zaman Cəfərqulu xan atın yalına yansıyaraq, çayı keçdi və özünü İrana tərəf köç halında olan bir elə yetirərək, İrana pənah apardı. Naibüssəltənə Abbas Mirzə, onun bu çevikliyi və cəldliyini nəzərə alaraq, onu illik 4 min tümən maaşla Qaracadağa (Ərəsbaran) hakim təyin etdi (179, 44).

Cəfərqulu xandan başqa, Qarabağdan bir neçə nəfər, eləcə də, İbrahimxəlil xanın bir neçə övladı, o cümlədən, Əbülfət xan, Mötəmədüldövlə kimi tanınan Abbasqulu Cavanşir və Ağa Bəhram Xacə İranda yüksək məqamlara təyin olundular və xidməti vəzifə sahibi oldular.

İbrahimxəlil xanın böyük oğlu, Abbasqulu xanın atası Əbülfət xan, Məhəmməd şahın və Nəsrəddin şahın zamanlarında məşhur siyasi xadim kimi tanınmış, bir neçə dəfə vilayət və əyalət hakimi olmuşdur (179, 247).

Əbülfət xanın oğlu Abbasqulu xan Kaşanın hakimi təyin edilmiş, sonra bu vəzifədən azad olunmuş və yerinə Bəhmən Mirzə Bəhaüddövlə gətirilmişdir.

Abbasqulu xan bir müddət işsiz qalmış, sonra Fəzləli xanın yerinə Kirmana hakim təyin olunmuşdur. O, hakimliyi dövründə xalqla ədalətli davranmış, özündən əvvəlki məmurların və hakimlərin vurduqları zərərləri bərtərəf etməyə çalışmışdır. Vəzifəsindən azad ediləndən sonra artıq bəylərbəyi kimi tanınan Fəzləli bəy təkrar Kirmana hakim təyin edilmişdir. Məhəmməd şahın ölümündən sonra, vəliəhdin Təbrizdən Tehrana 45 gün davam edən səfəri zamanı

hakimiyyət Nəsirəddin şahın anası, Məhdülya kimi tanınan Mələk Cahan xanımın əlində olmuşdur. O, bəzi məmur və hakimlər təyin etmişdir. Bu qarışıq vəziyyətdə şah torpaqlarının məhsullarının aradan getməsinin və taxıl qıtlığı yaranmasının qarşısını almaqdan ötrü işlərin idarə olunması Abbasqulu xana həvalə edilmişdir. Daha sonra Abbasqulu xan Ərdəbil və Meşkinə hakim göndərilmişdir.

Mirzə Ağa xan Nuri sədrəzəmlikdən çıxarıldıqdan sonra Nəsrəddin şah 6 nazirlik yaratmış və ölkənin idarə olunmasını onlar arasında bölmüşdür. Bu zaman ədliyyə naziri vəzifəsi Abbasqulu xana verilmiş və o, Motəməddövlə adına layiq görülmüşdür. Abbasqulu xan dünyasını dəyişənə qədər ədliyyə naziri olmuşdur. Bundan başqa, o, Nəsrəddin şah tərəfindən təşkil olunmuş İran Dövlət Ali Şurasının üzvü seçilmişdir. O, öləndən sonra vəzifəsi və adı qardaşı Məhəmməd İbrahim xana verilmişdir.

Abbasqulu xan Motəməddövlə ağıllı, adil, siyasətcil, məğrur, xoşniyyətli bir şəxsiyyət olmuşdur. Başqa hakimlərin əksinə olaraq, acgöz olmamış, xalqın haqqına təcavüz etməmişdir.

Divan əmiri, yaxud divanxana vəziri Məhəmməd İbrahim xan az bir müddət işləmiş, sonra vəzifəsindən uzaqlaşdırılmışdır. Onun yerinə sabiq Hacebəddövlə adına layiq görülmüş Hacı Əli xan, Ziyaülmülk adı verilməklə, bu vəzifəyə təyin olunmuşdur.

Məhəmməd İbrahim xan daha sonra Nəsrəddin şah tərəfindən Motəmədülmülk adı ilə təltif edilməklə, təkrar ədliyyə divanxanasının inzibat məmuru-divan əmiri təyin etmişdir (179, 227).

Əbülfət xanın başqa oğlanları da İranda mənsəb sahibləri olmuşlar. O cümlədən, iki oğlu Təbrizdə Qəhrəmaniyyə ordusunda komutanlığa yüksəlmişlər. Bununla bağlı Nadir Mirzə yazır ki, Naibüssəltənənin səkkizinci oğlu, Təbrizin valisi Qəhrəman Mirzə padşah kimi bir vali idi. O, yaraşıqlı gənclərdən ibarət bir ordu təşkil etdi və adını Qəhrəmaniyyə qoydu. Bu ordunun komandanı Əbülfət xanın oğlu, podpolkovnik Məhəmmədəli xan, onun müavini isə böyük qardaşı Məhəmmədqulu xan idi (186, 247).

Məhəmmədqulu xanın ölüm xəbəri Təbrizdə çıxan "Nasiri" qəzetində belə verilmişdi: "İranın böyük və tanınmış zabitlərindən, 80 il orduda dövlətə şərəfli xidmət yolu keçmiş Əbülfət xan Cavanşirin oğlu, tümən əmiri Hacı Məhəmmədqulu xan Hüsamüddövlə rəcəb ayının 8-də səhər podaqra xəstəliyindən dünyasını dəyişmişdir.

Bu yüksək dərəcəli dövlət qulluqçusu təqribən 15 yaşından hərbi sahədə xidmətə başlamış, çətin vəzifələrdə çoxsaylı qələbələr qazanmış, sultanlıqdan tümən əmirliyinə qədər yüksəlmiş, böyük dövlət təltiflərinə layiq görülmüş, son illərdə yaşı hərbi sahədə fəaliyyətə imkan vermədiyindən böyük dövlət vəzifələrində fəaliyyətini davam etdirmişdir. Onun ölümü böyük üzüntü və kədərə səbəb olmuşdur" (110).

Bu çərçivədə Ağa Bəhram Xacə Qarabağinin adı da qeyd olunmalıdır. O, Qacar sarayında saray ağası olmuşdur. Mehdi Bamdadi yazır: "Ağa Bəhram Xacə Qarabaği, İbrahimxəlil xanın qızı, Ağabacı kimi məşhurlaşan Ağabəyim xanım Fətəli şah Qacarla evlənərək, onun 12-ci arvadı olan və Tehrana gələn zaman özü ilə birlikdə Qarabağdan 200 nəfərdən artıq seçilmiş və igid şəxsi xidmətçi gətirmişdi.

Ağa Bəhram da onlardan biri idi. Fətəli şah İsfəhanın "Həft dəst" ("Yeddi guşə") sarayında Ağa Bəhramın qucağında dünyasını dəyişmişdir.

Ağa Bəhram, Fətəli şahın hakimiyyəti dövründə həm mötəbər və möhtərəm xacələrdən biri idi, həm də Məhəmməd şahın zamanında çox əhəmiyyətli bir dövlət xadimi olmuşdur. Əvvəl ona "Divan etibarı" ləqəbi verilmiş, Nəsrəddin şahın vaxtında isə "Divan əmiri" ləqəbi ilə şahın ilk ədliyyə naziri olmuşdur" (179, 59).

## XANLIQLAR DÖVRÜNDƏ AZƏRBAYCAN İNCƏSƏNƏTİ VƏ ƏDƏBİYYATI

Əvvəl də qeyd olunduğu kimi, xanlıqlar dövründə Qarabağda ədəbiyyat və incəsənət diqqətəlayiq bir şəkildə inkişaf etdi. Çünki Qarabağı idarə edənlər, təkcə ədəbiyyat və incəsənət xadimlərini yazmağa və yaratmağa təşviq etmirdilər, həm də Cavanşir xanın sülaləsinin əksər üzvləri şair, ədib və incəsənət adamları idilər.

Azərbaycan ədəbiyyatı tarixində dönüş nöqtələrindən biri olan Molla Pənah Vaqifin (1717-1797) yaradıcılığı da məhz bu dövrə təsadüf edir. Bu filosof şair və istedadlı dövlət xadimi həm, İbrahimxəlil xanın vəziri olaraq, xanlığın işlərini idarə etmiş və siyasətini müəyyənləşdirmiş, həm də özünün məzmunlu ədəbi və bədii yaradıcılığı ilə Azərbaycan ədəbiyyatına dərin təsir göstərmiş, özündən sonrakı nəsillərə nümunə olmuşdur. Məhəmməd Füzulidən sonra Vaqif yaradıcılığını Azərbaycan ədəbiyyatının intibahı adlandırmaq olar.

Cavanşir sülaləsinin hakimiyyəti dövründə Şuşa Qarabağ vilayətinin elm və ədəbiyyat mərkəzinə çevrimişdir. İllər əvvəl bədii yaradıcılığa başlamış Vaqifin Şuşa həyatı onu Qarabağ camaatı ilə qaynayıb-qarışmasına, yaradıcılığında dərin püxtələşməyə səbəb olmuşdur.

Qüdrətli və fitri istedadlı şair olan Vaqif, həm də mahir ovçu, bacarıqlı memar və astroloq idi. Alman şərqşünası Adolf Berjenin yazdıığına görə, Şuşanın əzəmətli tikililəri onun rəhbərliyi altında inşa olunurdu.

Vaqifin dövrü Azərbaycan şifahi xalq ədəbiyyatının çiçəklənmə dövrü kimi tarixə düşmüşdür. Maksim Qorkinin dediyi kimi, şifahi xalq ədəbiyyatı hər zaman yazılı ədəbiyyatın ana qaynağı olmuşdur. Vaqif də şifahi xalq ədəbiyyatından ustalıqla faydalanmış, ondan ilham almış, özü də onun inkişafına böyük təsir göstərmişdir. O, Azərbaycan türk yazılı ədəbiyyatı ilə şifahi ədəbiyyatını böyük ustalıqla sintez etmişdir. Şairin yaradıcılığı ilə şifahi xalq ədəbiyyatı arasında qırılmaz həyati bağlılıq mövcuddur. Bu məsələdə şair, o dərəcədə irəli getmişdir ki, təkcə Qarabağda deyil, bütün Azərbaycanda diqqəti cəlb etmiş və əlçatmaz bir zirvəyə ucalmışdır. Məhz elə bu səbəbdən də xalq arasında məşhur "Hər oxuyan Molla Pənah Vaqif olmaz" zərbülməsəli yaranmışdır.

M.F.Axundov, Vaqifi yeni Azərbaycan poeziyasının banisi adlandırmışdır.

Xanlıqlar dövründə Azərbaycan ədəbiyyatının çiçəklənməsi elə vüsət almışdır ki, bu zaman yaranan Azərbaycan lirik poeziyası və qoşmaları Qafqazın bütün xalqlarının ədəbiyyatıa təsir etmiş, geniş əks-səda doğurmuş, erməni, ləzgi, yəhudi, gürcü və digər xalqların nümayəndələri Azərbaycan dilində şeirlər yazıb-yaratmışlar. Maraqlıdır ki, ermənilər və gürcülər bir çox hallarda öz əlifbaları ilə azərbaycanca çoxlu sayda poeziya nümunələri yaratmışlar. Sayat Nova isə əsərlərini həm azərbaycanca, həm ermənicə və həm də gürcücə yazmışdır. Bu da diqqəti cəlb edir ki, milliyyətcə erməni olan bu şairin əsərlərinin böyük əksəriyyəti məhz Azərbaycan dilində qələmə alınmışdır. Sayat Nova Tiflisdə yaşamış, Ağa Məhəmməd şah Qacarın bu şəhərə hücumu zamanı öldürülmüşdür. Cəfər Həşimoğlu onun

haqqında belə yazmışdır: "Əsl adı Artyun Sağiyan olmuşdur. Atası Karapet Hələbdə, anası Sara isə Tiflisin Avlabar məhəlləsində doğulmuşlar. Sayat Novanın Lari (Lori) bölgəsinin Sənabin kəndində, ya da Tiflisdə 1712-ci ildə anadan olması ehtimal edilir. Sayat şeirlərindən birində yazır:

*Vətənim Tiflisdir, səmti Gürcüstan,*
*Anam avlabarlı, atam hələbli."*

Sayat Novanın günümüzə qədər gəlib çatmış şeirlərinin sayı 200-dən bir az artıqdır. Onlardan 112-si Azərbaycan dilində, 66-sı ermənicə və 38-i gürcücə yazılmışdır. Şair ilk şeirini Azərbaycan dilində 1742-ci ildə, ermənicə ilk şeirini isə 1752-ci ildə qələmə almışdır. Buradan da göründüyü kimi, o, 10 il müddətində ancaq azərbaycanca yazıb-yaratmışdır.

Erməni yazıçısı Gevorq Haqverdiyan yazır ki, Sayat Nova Azərbaycan dilinin incəliklərini və saz musiqisini öyrənmək üçün çox çalışmışdır.

Yeri gəlmişkən, Azərbaycan türk dilinin və poeziyasının vurğunu və Azərbaycan dilində yazıb-yaradan təkcə Sayat Nova deyildi, onun müasiri və ondan sonra gələn erməni aşıqlarının əksəriyyəti məhz azərbaycanca yazmışlar. Onlardan Aşıq Vartan Xoylunu, Aşıq Atanı, Keşişoğlunu və başqalarını göstərmək olar. Erməni aşıqlardan elələri də olmuşdur ki, ancaq Azərbaycan dilində yazıb-yaratmışlar.

Hətta erməni dilində yazılmış şeirlərdə çoxlu türk (Azərbaycan) sözləri işlədilmiş, qafiyələrin əksəriyyəti onlarla formalaşdırılmışdır. Erməni tədqiqatçısı Qaregin Levonyan erməni dilində yazdığı təkcə 1 şeirində 85 türk (Azərbaycan) sözü işlətmişdir.

XVIII əsrdə Azərbaycanda, o cümlədən də, Qarabağ bölgəsində musiqi, rəssamlıq və memarlıq sənətləri də öz inkişafını davam etdirmişdir. Musiqi sahəsində xalq mahnıları daha cazibədar olmuş, aşıqlar yeni şeirlər yazaraq, onları sazın müşayiəti ilə oxumuşlar. Yeni mahnılar və saz havaları bəstələnmiş, qədim muğamlara rəvac verilmişdir. Bu dövrdə musiqi alətlərindən saz, tar, kamança, ney (balaban), zurna, nağara və dəfdən geniş istifadə edilmişdir.

Bu dövrün məşhur şairlərindən biri də M.P.Vaqifin yaxın dostu, istedadlı şair Mirzə Vəli Vidadi ibn Bayram xan Baharlı olmuşdur. Ərəb və fars dillərini də mükəmməl bilən Vidadi, Azərbaycan ədəbiyyatının tanınmış simalarından biridir.

Cavanşir xanın sülaləsindən Əbülfəth xan Tuti, Ağabəyim Məluli, Cəfərqulu xan Nəva, Xurşidbanu Natəvan, Qasım bəy Zakir, Mehdiqulu xan Vəfa, Məhəmməd bəy Aşiq, Baba bəy Şakir, Abbas və s. kimi lətif zövqlü qələm sahibləri çıxmışdır. Onlardan hər birinin Azərbaycan ədəbiyyatı tarixində özlərinə məxsus yerləri vardır.

## AĞA MƏHƏMMƏD XAN QACARIN QARABAĞA HÜCUMU

Ağa Məhəmməd xan Qacar Fars və Kirmanda zəndilər və Lütfəli xanla döyüşəndə İbrahimxəlil xan öz qüdrətini gündən-günə genişləndirirdi. O, Gəncə hakimi Cavad xanı özünə tabe edəndən sonra Tiflis, Şirvan, Quba və Dərbənd xanları ilə əlbir olaraq, öz gücünü daha da artırdı.

Ağa Məhəmməd xan Qacar, İbrahimxəlil xanın təşəbbüsü və başçılığı ilə yaranmış bu birlikdən ehtiyat edirdi. Çünki Azərbaycan xanları İran və Osmanlı saraylarına müxalif mövqe tutur, özlərinin beynəlxalq ticarət əlaqələrinə üstünlük verir və onu qoruyub saxlayırdılar. Xəzər-Volqa ticarət yolu öz əhəmiyyətini davam etdirir, xanlıqlar və bütövlükdə, Qafqaz ölkələri getdikcə Rusiya ilə əlaqələrini genişləndirirdilər. Bu məsələ Ağa Məhəmməd xan Qacarı narahat edirdi və onun üçün həyati bir məsələyə çevirilirdi. Bu səbəbdən də o, davamlı olaraq Azərbaycana hücumlar həyata keçirirdi. "Nasex ol-təvarix" əsərinin müəllifi o dövrdə Qacarın əmiri Süleyman xanın başçılığı ilə 6 min nəfərdən ibarət qoşunun Azərbaycana dağıdıcı hücumunu belə təsvir edir: "Bu ordu Talışa göndərildi ki, oranı qarət eləsin, əhalini isə Zəncana köçürsün. Sonra Sərab dağıdıldı və atəşə verildi" ( 70, 14).

Ağa Məhəmməd xan Qacar Kirmandan qayıdandan, Lütfəli xan Zəndi öldürəndən sonra Zənd sülaləsinin hakimiyyətinə son qoydu. Azərbaycan xanlarını, o cümlədən də,

Qarabağ xanı İbrahimxəlil xanı Tehrana çağırdı. Digər xanlar getsələr də, İbrahimxəlil xan Tehrana getmədi. Onun getməməyinin səbəbi qorxusu idi. Bu qorxu ondan qaynaqlanırdı ki, bundan əvvəlki çağırışa, müxtəlif bəhanələrlə özü getməmiş, əmisi oğlu Əbdülsəməd bəyi nümayəndəsi kimi, çoxlu hədiyyə və töhfələrlə Tehrana yollamışdı. Əbdülsəməd bəy, Ağa Məhəmməd xan Qacarla birlikdə Kirmana yürüşdə iştirak etmiş, lakin fərariliyinə görə Tehranda yaxalanaraq, öldürülmüşdü.

Bütün bu hadisələrdən sonra Ağa Məhəmməd xan Qacar Qarabağa və Qafqaza qoşun çəkdi.

Qafqazda Ağa Məhəmməd xan Qacara boyun əymək istəməyən nüfuzlu və qüdrətli hakim və xanlardan ən güclüsü, Qarabağ xanı, otuzikilər tayfasının başçısı İbrahimxəlil xan Cavanşir idi.

Ağa Məhəmməd xan Qacarın göstərişi ilə onun ordu sərdarı Mirzə Əsədulla xan Tehranın yaxınlığında bir düşərgə saldı və burada Qafqaza gedəcək ordunu komplektləşdirməyə başladı.

Novruz bayramından 53 gün sonra hazırlanmış ordu yürüşə çıxdı, ancaq heç kim onun hara gedəcəyini bilmirdi.

Ağa Məhəmməd xan Qacar yola çıxan ordusunu 3 yerə böldü. Onun bir hissəsi sağ tərəfdən Muğan, Şirvan və Dağıstana, o biri hissəsi sol tərəfdən İrəvana, qalan üçüncü hissə isə özü ilə bərabər Şuşa istiqamətinə tərəf hərəkət etdi.

Ərdəbilə çatandan sonra Ağa Məhəmməd xan Qacar, Məhəmməd Hüseyn xan Qovanlıya göstəriş verdi ki, bir dəstə ilə irəliləyib, Araz kənarında düşərgə salsın ki, İbrahimxəlil xan, Xudafərin körpüsünü sıradan çıxara bilməsin.

Ancaq Məhəmməd Hüseyn xan nə qədər sürətli hərəkət etsə də, təyin olunmuş yerə çatanda gördü ki, körpü artıq sıradan çıxarılmışdır. Bu xəbər Ağa Məhəmməd xan Qacara çatdırılanda o, əmirlərindən Süleyman xana göstəriş verdi ki, körpü bərpa olunsun. Körpü hazır olandan sonra onun hər iki başında 4 qüllə də tikildi və Mustafa xan Qacar, Talış tərəfə göndərildi. Onun ardınca isə 5 min nəfər tüfəngçi ilə Süleyman xan və 3 min nəfərlik qoşunla sədrəzəm Hacı Məhəmməd İbrahimin qardaşı Məhəmməd Hüseyn xan yola çıxdılar.

Bu xəbəri eşidən Talış əyanları arvad-uşaqlarını və var-dövlətlərini gəmilərə mindirərək, Salyan tərəfə hərəkət etdilər. Ancaq Salyan camaatı qorxularından onları sahilə buraxmadılar və onlar suyun ortasında gəmidə qaldılar.

Gilan tüfəngçilərinə əmr olundu ki, üzərək gəmiləri ələ keçirsinlər. Süleyman xan və Mustafa xan dağlara pənah aparmış camaata çox əziyyət verdilər və bir çoxlarını əsir götürdülər. Ağa Məhəmməd xan Qacar, onlardan bir neçəsini öldürdü, qalanlarını isə Mazəndarana və Ərdəbilə göndərdi. Ancaq Gilanın böyüklərindən Şah Pələngin oğlu Şahnəvar xanı öz yanında saxladı.

Bundan sonra Xudafərin körpüsündən keçən Ağa Məhəmməd xan Qacar, yolüstü erməniləri məhv etməkdən ötrü Mustafa xanı bir dəstə qoşunla Qafana göndərdi. Mustafa xan, 116 nəfərin başını vurdu və arvadlı-kişili, qocalı-cavanlı böyük bir dəstə ermənini əsir götürdü. Ağa Məhəmməd xan Qacar, əsirləri öz hərbçiləri arasında bölüşdürdü, Rzaqulu xanı başqa rayonları ələ keçirmək üçün göndərdi.

Əbdülrəhim xan Şirazini və Çıraq xan Bəxtiyarini bir dəstə ilə Təxti-Tabus adlı məntəqədə qoydu ki, Xudafərin

körpüsünü qorusunlar. Süleyman xan və Mustafa xanı 10 min nəfərlik bir ordu ilə Pənahabad qalasını ələ keçirməyə göndərdi. Onlar yarı yolda İbrahimxəlil xanın ordusu ilə qarşılaşdılar. Məğlub olan Qarabağ ordusu geri çəkilərək, qalaya sığındı. Qala mühasirəyə alındı. Onlara yetişən Ağa Məhəmməd xan Qacar, qalanı top atəşinə tutdu. Sonra 5 min nəfərlik bir qoşunla Mustafa xanı Pənahabad qalasının 3 fərsəngliyində yerləşən Əsgərana yolladı ki, fərarilərin yolunu bağlasın. Rzaqulu xanı isə Təxti-Tavusa göndərdi ki, yolçuların və karvanların yolunu kəssinlər.

Axırda İbrahimxəlil xan 10 min nəfərlik bir ordu ilə qaladan çıxdı. Baş verən döyüşdə onun təqribən 1000 nəfəri həlak oldu ( 121, 62).

Ağa Məhəmməd xan Qacar 33 gün qalanın ətrafında qalsa da, öz böyük qüvvəsi ilə qalanın 5 verstliyindən[66] axan çaydan o tərəfə keçə bilmədi.

Qarabağ atlıları, piyadaları, tayfa və kənd başçıları, Vərəndeh, Dizax və Xaçın məlikləri meşələrdə, yollarda və keçidlərdə Ağa Məhəmməd xan Qacarın adamlarını tutub soyurdular. Hər gün vilayətlərdən karvalarla gələn atları, qatırları, dəvələri və digər malları dəstə-dəstə soyaraq, insanları isə əsir götürərək, İbrahimxəlil xana gətirirdilər. İş o yerə gəlib çatmışdı ki, bazarda qatırı 4, dəvəni 6, atı isə 10 manata satırdılar. Ağa Məhəmməd xan Qacarın ordusu gecə basqınlarından qorxduğu üçün öz düşərgəsinin ətrafında möhkəm bürclər tikmişdi. Vərəndeh mahalının piyadaları gecə dəstə ilə xüsusi tüfəngçilər tərəfindən mühafizə olunan bürclərə hücum edir, gözətçilərin bəzilərini öldürür,

[66] Verst- 1086,781 m-ə bərabər ölçü vahidi

sağ qalanları isə səhər açılanda İbrahimxəlil xana gətirirdilər. Bu minvalla, gecə-gündüz Ağa Məhəmməd xan Qacarın ordusuna rahatlıq verilmirdi. Ağa Məhəmməd xan Qacar özü bir neçə dəfə böyük bir qüvvə ilə çayı keçmək və qalaya yaxınlaşmaq istəsə də, Qarabağın igid atlıları və piyadaları onun qarşısını kəsdi, qəhrəmancasına döyüşərək onu geri çəkilməyə məcbur etdilər (19).

Ağa Məhəmməd xan Qacar dəfələrlə məktub yazdı, elçilər göndərdi ki, bəlkə, İbrahimxəlil xanı və əhalini tabe olmağa razı salsın, ancaq heç bir nəticə alınmadı. Sonunda Seyid Məhəmməd Orfi Şirazinin bir beytini aşağıdakı kimi dəyişdirərək, İbrahimxəlil xana göndərdi:

*Fələyin mancanağından[67] fitnə daşı yağır,*
*Sən axmaq şüşə hasarın[68] arxasına gizlənirsən.*

İbrahimxəlil xan, vəziri Vaqifin yazdığı bu cavabı ona yolladı:

*Məni qoruyan Odur[69], mən bilirəm,*
*Şüşəni daşın müqabilində qoruyar.*

Bundan sonra Ağa Məhəmməd xan Qacar ordusunun zabitlərini topladı və göstəriş verdi ki, 30 yaşdan az yaşı olan Qacar şahzadələrini, onunla birgə gələn tayfaların gəncləri ilə bir tərəfdə, yaşlı şahzadələri və tayfaların 50 yaşdan yuxarı yaşlı nümayəndələrini o biri tərəfdə düzsünlər.

---

[67] Daş atan qurğu

[68] Şüşə mənasında Şuşa qalasının adına işarədir.

[69] Yəni, Allahdır.

Ağa Məhəmməd xan Qacar əvvəl cavanlara, sonra yaşlılara müraciət edərək, belə bir sual vermişdir ki, biz bu qədər uzaq yolu Pənahabadı almaq üçün gəldik, onu mühasirə etdik və ala bilmədik, qarşıdan qış gəlir, ot-ələf tapılmayacaq. Necə məsləhətdir, qalıb müharibəni davam etdirək, yoxsa, geri qayıdaq?

Gənclər dedilər ki, məsləhət Sizindir, nə əmr etsəniz, onu edəcəyik.

Yaşlılar isə dedilər ki, qış yaxınlaşır, ot-ələf və ərzaq tapmaqda çətinlik çəkəcəyik, qayıdaq Tehrana, qışı orda keçirək, yazda yenidən bura gələrik.

Ağa Məhəmməd xan Qacar yaşlılara dedi, sizin fikriniz doğru deyil, böyüklər öz xanımlarının yanına getmək istəyirlər, ancaq düşünmürlər ki, gedib arvadlarına nə deyəcəklər? Deyəcəklər ki, İranın bütün böyükləri getdilər, ancaq bir çarçının öhdəsindən gələ bilmədilər? Carçı deyəndə, İbrahimxəlil xan nəzərdə tutulurdu, çünki onun babalarından biri carçı olmuşdur.

Yaşlılar dedilər ki, o zaman burada qalaq və o qalanı yerlə bir edib, İbrahimxəlil xanı tutmayınca heç yana getməyək.

Ağa Məhəmməd xan Qacar dedi, siz haqlısınız, ancaq mən gənclərin vəkili olduğuma görə, onların məsləhtinə əməl edəcəm. Sabah səhərə hər kəs hazır olsun və mən nə etməli olduğunu deyəcəm.

Sabahısı hər kəs əmrə müntəzir dayanmışdı, Ağa Məhəmməd xan Qacar Tiflisə tərəf hərəkət etməyə başladı, bütün ordu da onun ardınca düşdü.

Qaraçayda düşərgə salındı. Ağa Məhəmməd xan Qacar buradan Gürcüstanın padşahı Heraklisə (İranda ona

İrakli xan deyilir) 1 məktub yazdı ki, İbrahim xanın xahişini qəbul edərək, ona bir neçə gün möhlət verdim. İndi Tiflisə gəlirəm, Gürcüstan Şah İsmayıl Səfəvidən üzü bəri İranın bir parçası olub, indi də bizim olmalıdır.

Hacı Məhəmməd İbrahim xan Etimaddövləni bir qoşunla Qaraçayda qoyan Ağa Məhəmməd xan Qacar, ordusu ilə yoluna davam etdi.

İrakli bu məktuba etina eləmədi. Müharibəyə hazırlaşaraq, öz ordusu ilə Tiflisdən çıxdı. Baş verən ağır döyüşdə gürcü ordusu məğlub oldu və Ağa Məhəmməd xan Qacar Tiflisə girərək, şəhəri talan elədi. 15 min nəfər qadın, qız və oğlanı əsir götürdü. Keşişlərin əllərini bağlayaraq, Kür çayına atdılar. Kilsələr yandırıldı, evlər viran edildi. 9 gündən sonra İran ordusu Tiflisi tərk etdi...

Ağa Məhəmməd xan Qacarın, Xorasanda Nadir şahın tərəfdarlarını aradan götürməklə məşğul olduğu zaman Rusiyada kraliça Yekaterina dünyasını dəyişdi və I Pavel hakimiyyətə gəldi. Bunu eşidən rus ordusu, Şirvan və Dərbənddən çəkildi və Rusiyaya geri döndü.

Bu vəziyyətdən istifadə edən Ağa Məhəmməd xan Qacar yenidən Qafqaza yürüş etdi. Bu arada o, Rusiya ilə bağlı olan Qafqaz əmirlərini də cəzalandırmaq istəyirdi.

Beləliklə, Ağa Məhəmməd xan Qacar tam təchizatlı bir ordu ilə Azərbaycana, oradan da Qarabağa tərəf hərəkət etdi və Arpaçayın Araz çayına töküldüyü ərazidə düşərgə saldı. İbrahimxəlil xanın adamları çayın aşağı hissəsində müvəqqəti bir səd qurdular və suyu İran ordusunun düşərgəsinə yönəltdilər. Gecənin bir yarısı İran ordusunu basan su, ordunun bir çox əşya və ləvazimatını sıradan çıxardı...

Ağa Məhəmməd xan Qacar Pənahabad qalasını mühasirəyə aldı. Jan Gurenin "Taclı Xacə" əsərində yazdığına görə, 3 tərəfdən qalaya top atdılar. IV tərəf sıldırım dağ idi. Qalanın alınması xüsusi hərbi əhəmiyyət daşıyırdı.

Qalanın alınması ilə bağlı döyüşdə İran ordusunun 2 min nəfərə qədər hərbçisi öldürüldü, yaxud da yaralandı.

Sonunda qala divarının bir hissəsini ələ keçirmək mümkün oldu. Qalaya daxil olan əsgərlər, qala darvazasının arxasına qalaqlanmış daşları aradan qaldıraraq, darvazanı açdılar. Müdafiəçilərin, demək olar ki, hamısı öldürüldü, yalnız 207 nəfəri əsir götürmək mümkün oldu.

Bundan sonra Ağa Məhəmməd xan Qacar Şuşaya tərəf hərəkət etdi və II dəfə onu mühasirəyə aldı. Top mərmiləri qalanın divarlarında dəliklər açsa da, müdafiəçilər gecə ilə onu heyrətamiz bir sürətlə yamayırdılar. Top atəşlərinin sayı artanda İbrahimxəlil xan əmr elədi ki, şəhərin darvazalarını açsınlar və topçulara hücum etsinlər. İbrahimxəlil xan başda olmaqla, topçulara hücum edildi. Qanlı və ağır tələfatlı döyüşdə Şuşa müdafiəçiləri geri çəkilməyə məcbur oldular. Ağa Məhəmməd xan Qacarın ordusu hər cəhətdən İbrahimxəlil xanın ordusundan güclü idi. Qalanın, topçulara hücum edən müdafiəçiləri ilə qalanın əlaqəsinin kəsilməsi müdafiəçiləri təhlükəli vəziyyətə saldı. 60 yaşlı İbrahimxəlil xanın və döyüşçülərinin göstərdikləri qeyri-adi rəşadətə və topçuları sıradan çıxarmalarına baxmayaraq, onlar təkrar qalaya qayıda bilmədilər və Dağıstana tərəf getdilər (55, 217).

Mirzə Camal Cavanşir o dövrün ictimai şəraitini şərh edərkən, bu məğlubiyyətin səbəbini 3 illik quraqlıqda və güclü qıtlıq yaranmasında görür.

İbrahimxəlil xanın qaçma xəbərini eşidən Ağa Məhəmməd xan Qacar, onu və adamlarını tutmaq üçün təcili bir dəstə göndərir. Dəstə, Tərtər çayının üzərindəki körpünün yaxınlığında İbrahimxəlil xanın dəstəsinə yetişir və ona hücum edir, lakin məğlub olur. İbrahimxəlil xan və adamları Car Balakənə çatırlar. Yolda Ağa Məhəmməd xan Qacarın göstərişi ilə ləzgilər onun yolunu kəsib tutmaq və xana təhvil vermək istəyirlər. Ancaq döyüş başlamamış İbrahimxəlil xanın baldızının əri, avar xanı Məmə xan ləzgiləri fikirlərindən döndərir və döyüşün qarşısını alır.

Bu arada Məhəmməd Rəfi bəy Qarabaği, Ağa Məhəmməd xan Qacarın öldürülməsi xəbərini və onun kəsilmiş başını İbrahimxəlil xana çatdırır.

Şuşa şəhəri alındıqdan və burada hərçilər yerləşdirildikdən sonra əvvəldən Qacarın yanında xidmət edən Əmir İsmayıl Müstövfi ona daxil olan baclar, qənimətlər, vergilər və hədiyyələr barədə hesabat verir. Qacar bir neçə başqa sərdar və əmiri də çağıraraq, onların da hesabatlarını dinləyir... Adət üzrə hər yerdən hədiyyələr gəlirdi. Onların arasında yemişlər də var idi. Onları xüsusi olaraq yaza saxlamışdılar. Yazda onların dadı başqa cür olur. Şuşa alınan günün sabahısı axşam Qacarın sadə axşam yeməyinə yemiş də əlavə olunmuşdu. Qacar gələn yemişləri saymaq fikrinə düşdü. O, anbardarbaşına göstəriş verdi ki, gətirilən yemişlər bir nəfər zabitin iştirakı ilə sayılsın. Şah bu göstərişi verəndə süfrəyə cavabdeh olan 2 pişxidmətin rəngi qaçdı. Çünki bir neçə qovunun əskik olduğu ortaya çıxdı. Sən demə, bu işdə ambardarbaşı da pişxidmətlərlə əlbir olmuş və bir neçə yemişi oğurlamışlar. Qacar onların qətlinə fərman verdi.

Bu gedişatı izləyən Sadiq xan Şəqaqi təzim edərək, ehtiramla xatırlatdı ki, bu gün cümə axşamının axşamıdır və sabah cümə günü başlayır. Cümə dua və yardım günü olduğuna görə, edamın icra olunması cayiz deyil. Ona görə Qacar edamın şənbə gününə saxlanmasına etiraz etmədi...

Edamlarına hökm verilmiş pişxidmətçilər həmin gecə səhərə yaxın Qacarın yatdığı otağa daxil olaraq, onu öldürdülər, tacını, həmayil və qolbağısını götürərək, Sadiq xan Şəqaqiyə apardılar və Qacarı öldürdüklərini söylədilər. Sadiq xan əvvəl onlara inanmadı. O, Qacarın özünə qarşı münasibətində heç vaxt xatircəm olmamışdı və hər zaman qorxu içərisində yaşayırdı. O üzdən də bunu Qacarın ona qarşı hiyləsi kimi dəyərləndirdi. Ancaq hadisə yerinə gəlib, Qacarı, İbrahimxəlil xanın oğlu Məhəmmədhəsən ağanın binasıda öldürülmüş görəndə bir anda donub qaldı, sonra şahın tacını, qiymətli şeylərini və qol bağını götürərək, öz otağına apardı. Sadiq xan, öz silahlılarını topladı və qaladan çıxanda dedi ki, "Şah məni İbrahimxəlil xanın dalınca göndərib". Şahın qatillərindən Abbas bəyi özü ilə götürən Sadiq xan, Səfərəli bəyi qalada buraxdı. Sadiq xan qaladan çıxandan 2 saat sonra şahın öldürülməsi xəbəri bütün şəhərə yayıldı. Qızılbaş xanları bu hadisədən qorxuya düşdülər və özlərini itirdilər. Onların hər biri öz dəstəsini toplayaraq, şəhərdən fərar etdi və dağılışdı. Camaat izdiham halında şahın yaşadığı imarətə yürüdü. Əsirlikdə olan qızılbaş əsirləri azad edildi... Bu arada İbrahimxəlil xanın qardaşı oğlu Məhəmməd bəy binaya daxil olub, şah xəzinsinin əşyalarını-qızıl və gümüş qab-qaşığı, qiymətli əşya və cəvahirləri zəbt etdi və öz evinə apardı. O, idarəçiliyi sahmana salmağa girişdi. Şahın başını Məhəmməd Rəfi bəylə Balakənə

göndərdi. Şahdan xilas olan İbrahimxəlil xan, gətirilən başı hədiyyə olaraq, Gürcüstan valisinə göndərdi. Ancaq Mirzə Camal Cavanşirin yazdığına görə, İbrahimxəlil xan, hörmətli ruhanilərin iştirakı ilə şahın başını ehtiramla yudurtdu (qüsl elədi), kəfənlətdirdi, lazımi dini mərasimlərdən sonra Cara göndərdi və orada tanınmış bir qəbristanlıqda dəfn etdirdi. Bundan bir neçə gün sonra İbrahimxəlil xan, əhalini sakitləşdirmək və şəhərdə təhlükəsizlik və asayişi yaratmaqan ötrü oğlu və vəliəhdi Mehdiqulu Ağanı Qarabağa göndərdi. Onun ardınca isə böyük oğlu Məhəmmədhəsən Ağanı Qarabağa yola saldı.

Bir neçə gündən sonra İbrahimxəlil xan özü də Qarabağa geri döndü və yenidən öz taxtına əyləşdi.

Ağa Məhəmməd xan, Şuşanı ələ keçirəndən sonra məşhur şair və İbrahimxəlil xanın vəziri, şahın Qarabağa ilk hücumu zamanı ona şeirlə məşhur məktub yazmış Vaqifi zindana salmış və edam əmri vermişdi. Şahın gözlənilməz ölümü Vaqifi edam olunmaqdan xilas etdi.

Vaqif poetik bir dillə qələm dostu Vidadiyə yazdığı bir məktubda bu inanılmaz hadisəyə işarə etmişdir.

Lakin şahın ölümündən sonra hakimiyyəti qəsb edən Məhəmməd bəy Cavanşir, 80 yaşlı Vaqifi, öz hakimiyyətinə qarşı gördüyündən, həbs etdirdi və oğlu Əli bəylə birlikdə 1797-ci ildə Şuşa şəhərinin şərq tərəfində yerləşən Cıdır düzündə dar ağacından asdırdı.

Çox keçmədi ki, Məhəmməd bəy Cavanşir də öz cəzasına çatdırıldı və Şirvan hakimi tərəfindən öldürüldü. Müctehidzadə Qarabaği, özünün "Riyaz ül-aşiqin" əsərində bu barədə ətraflı məlumat vermişdir.

İbrahimxəlil xan, yenidən öz taxtına oturandan sonra göstəriş verdi ki, Ağa Məhəmməd xanın nəşini basdırsınlar. Şahın vəliəhdi, lazım olanda onu apara bilsin. İbrahimxəlil xan yeni şah Fətəli şahla sülh müqaviləsi bağlamaqdan ötrü, Ağabacı adı ilə tarixə düşmüş məşhur bacısı Ağabəyim xanımı Fətəli şaha ərə verdi.

# QARABAĞ İRAN-RUSİYA MÜHARİBƏLƏRİNDƏ

Fətəli şahın hakimiyyəti dövründə İran və Rusiya arasında Qafqaza sahib olmaqdan ötrü bir sıra müharibələr baş verdi. Sonunda İran üçün arzuolunmaz müqavilələr bağlandı; Qafqaz, o cümlədən də, Qarabağ Rusiyanın müstəmləkəsinə çevrildi.

Rusiya, çar I Pyotrun vaxtından İranın torpaqlarını işğal etməkdən ötrü çalışırdı. Bu çərçivədə I Pyotr 1715-ci ildə Volınski adlı nümayəndəsini İrana səfir göndərdi. I Pyotrdan sonra Rusiya çariçası II Yekaterina, İranın şimal vilayətlərini işğal etmək niyyətində idi.

Ancaq İranın, əhalisinin əksəriyyəti müsəlman olan şimal vilayətləri Rusiyanın təbliğatlarına uymurdular.

Rusiyanın, cavanlığında II Yekaterinanın oynaşı olmuş baş naziri Potomkin, bütün səylərinə baxmayaraq, Arazın şimalındakı vilayətləri işğal edə bilmədi.

Ancaq Ağa Məhəmməd xan Qacarın Gürcüstana qanlı yürüşü, Tiflis və Qarabağın talan edilməsi, Rusiyaya imkan və bəhanə verdi ki, bu regiona qoşun yeritsin. Uzun sürən qanlı müharibələr, İranla Rusiya arasında Türkmənçay müqaviləsi ilə müvəqqəti də olsa, dayandırıldı. Bununla da, Azərbaycan İran və Rusiya arasında iki yerə bölündü. Bu dövrdən etibarən Rusiyanın regionda və İranda nüfuzu artdı. Əslində, dünyada qüvvələr nisbəti Rusiyanın xeyrinə dəyişmiş oldu.

Uzun sürən İran-Rusiya müharibələrində Qarabağ zonası əsas cəbhələrdən biri idi və hər iki tərəf üçün xüsusi əhəmiyyət daşıyırdı.

Əslində, İran-Rusiya müharibələrinin ən böyük səbəblərindən biri də Rusiyanın Gürcüstanı ələ keçirmək niyyəti idi. Ağa Məhəmməd xanın ölümündən 6 ay sonra Gürcüstanın yaşlı padşahı Heraklyus vəfat etdi. Onun oğlu XII Georgi (Görgin xan) şahlıq taxtına oturdu. O, əvvəl özünü İrana müti olaraq göstərirdi, ancaq sonradan Rusiyaya meyl etməyə başladı. Rusiyanın Gürcüstandakı nümayəndəsinin əli ilə bu ölkədən borc aldı və öhdəsinə götürdü ki, əgər borcunu ödəyə bilməsə, Tiflisi Rusiyanın ixtiyarına verəcəkdir. Görgin xan borcunu vaxtında qaytara bilmədiyi üçün ruslar Tiflisi işğal etdilər və general Sisiyanov Gürcüstana hakim təyin edildi. Görgin xan, öz ailəsi və əyanları ilə birgə Sankt-Peterburqa sürgün olundular.

Bu hadisələr Gürcüstan əhalisinin qəzəbinə səbəb oldu. Görgin xanın qardaşı Aleksandr narazı xalqın köməyi ilə Gürcüstanda çevriliş etmək istəsə də, yerli tayfa başçıları İran və Türkiyənin köməyi olmadan bunun mümkün olmayacağını bildirdilər. O üzdən şahzadə Aleksandr İran və Türkiyədən kömək istəməyi qərara aldı. Ancaq Türkiyə öz sıxıntılarına, İran isə daxili problemlərinə görə onun istəyinə müsbət cavab verə bilmədilər. Bu arada Tiflisdəki qondarma rus hakimiyyəti Aleksandrın planlarından xəbər tutaraq, generallar Kuliskov və Lazarevə göstəriş verdi ki, gözlənilən çevriliş hazırlıqlarını bələkdəcə boğsunlar. 1802-ci ilin dekabr ayında ruslar, əvvəllər Gürcüstana verilən vergiləri ödəmədiyi üçün, ermənilərin xəyanəti ilə, Gəncə

şəhərini işğal etdilər. I Aleksandrın hakimiyyəti zamanı Sisiyanov öz ordusu ilə İrəvan şəhərinə və Qarabağa tərəf irəliləməyə başladı. Əslində, 1801-ci ilin yanvar ayından rus çarı I Pavelin fərmanı ilə Gürcüstan, Rusiya imperatorluğunun bir parçası elan olunuşdu.

Sonunda ruslar Araz çayına qədər irəlilədilər. Bu, müharibənin yenidən alovlanmasına səbəb oldu. Çar I Aleksandr ilə şəxsi münasibətləri olan general Sisiyanov, 1802-ci ilin 8 noyabrında bütün Qafqazın komandanı təyin edildi. Bundan sonra o, bütün Qafqazı ələ keçirmək planları qurmağa başladı. Onun planlarından xəbərdar olan ermənilər, ona çatdırdılar ki, Rusiyaya hər cür kömək etməyə hazırdırlar. I Aleksandr da Sisiyanova göstəriş verdi ki, mümkün qədər ermənilərin, xüsusən, Rusiyaya sədaqətini dəfələrlə sübut etmiş erməni keşişi Danielin köməyindən çox istifadə etsin. Sisiyanov da ermənilərin, ələxüsus da, keşiş Danielin və Xoca Muradovun xidmətlərindən kifayət qədər faydalandı.

Ermənilər, Sisiyanovda azərbaycanlılara qarşı xüsusi nifrət yaratmışdılar.

Sisiyanov Gəncəyə yaxınlaşarkən, Gəncə xanı Cavad xana məktub yazaraq, ondan şəhəri təhvil verməyi, oğlanlarından birini ona girov olaraq, göndərməyi tələb etmişdi. Bu məktub Cavad xanı bərk əsəbiləşdirmiş və cavab yazmışdı ki, yaxşı olar ki, Siz öz ölkənizə geri dönün və orada komanda verin.

Sisiyanov dəfələrlə Cavad xana təslim ol məktubları yazsa da, hər dəfə ondan "Döyüşməyə hazıram!" cavabını aldı.

Sisiyanov, 6 batalyon, 11 top, 3 eskadron və hər biri 100 əsgərdən ibarət olan 2 kazak bölüyü ilə Gəncəni mühasirə

etdi. 1 ay mühasirədə qalan qalanın ətraf ilə əlaqəsi tamam kəsildi. Qalanın müdafiəsinə şəxsən Cavad xan və onun 3 oğlu rəhbərlik edirdi.

Qalada vəziyyət günü-gündən daha da çətinləşirdi. Ancaq insanlar susuzluqdan və ərzaq çatışmamasından əziyyət çəksələr də, düşmənə cəsarət və mərdliklə müqavimət göstərirdilər.

Sonunda Sisiyanov qaladakı ermənilərlə əlaqə yaratdı, onlara çoxlu vədə verdi. Hər zaman olduğu kimi, qaladakı ermənilər xəyanətə əl atdılar, şəhərin su kanallarını istifadə edilməyəcək bir hala saldılar. Bundan başqa, qalanın mühasirəsinin zəif tərəfləri barədə rusları məlumatlandırdılar. Cavad xanın əleyhinə təbliğat apararaq, Rusiyanın gücü ilə insanları qorxutmağa və ruhdan salmağa çalışdılar. Gecə ilə şəhərdən qaçmağa müvəffəq olan bir dəstə erməni isə, rus qoşununa bələdçilik etməyə başladı. Məhz bu səbəbdən, güclü düşmənə qarşı mərdliklə döyüşən şəhər, sonunda ruslar tərəfindən işğal olundu. Şəhərə daxil olan rus qoşunu kütləvi qırğınlar və qarətlər törətdi. İlk öncə Cavad xan və oğlu öldürüldü. Cavad xana xəyanət edənlər arasında Nəsib bəy Şəmsəddinli və erməni keşişi Aram, Ruben, Mikayıl və başqaları da var idi. Onlar Cavad xanın öldürülməsində birbaşa iştirak etmişdilər. Gəncənin müdafiəsində Cavad xan və 3 oğlundan başqa, Mahmud və Bağır adlı 2 qardaşı da şəhid oldu.

Sisiyanov, Gəncəni işğal edəndən sonra 1805-ci ildə Qarabağ xanı İbrahimxəlil xanla Kürəkçay çayının sahilində Kürəkçay müqaviləsi bağladı. Bununla da, Qarabağ xanlığı Rusiyanın tabeçiliyinə keçdi.

Sisiyanov, Bakı ətrafında öldürüləndən sonra, İbrahimxəlil xan yenidən İrana meyl etdi, lakin mayor Lisanoviçin hərbçiləri tərəfindən ailəsi ilə birlikdə qətlə yetirildi.

Xəlilov, ermənilərin ruslarla əlbirliyi və Qarabağın işğalında oynadıqları rol haqqında yazır ki, ermənilər, Azərbaycanın təbii və coğrafi şəraiti, ictimai-siyasi vəziyyəti haqqındakı məlumatları ruslara verirdilər. Müharibə zamanı isə onlara hər cür yardım göstərirdilər. Təsadüfi deyil ki, İbrahimxəlil xanı aradan götürmək üçün erməni məlik Cümşüd 1796-cı ildə Tiflisə getmiş, orada rus çarına xidmət barədə iltizama qol çəkmişdi. O, bunun müqabilində hər il Rusiyadan 1400 manat haqq alırdı. Beləliklə, ermənilər Qarabağın ruslar tərəfindən işğal edilməsi və İbrahimxəlil xanın öldürülməsində əsas rol oynamışdılar (12, 16).

Cozef adlı erməni İbrahimxəlil xanla münasibət qurdu, Qarabağ erməilərinin keşişinə məktub yazaraq, Tiflisdə böyümüş və onun tapşırığı ilə müsəlmanlar əleyhinə casusluqla məşğul olan Lakura adlı erməni qızı barədə məlumat verdi və təklif etdi ki, o qızı bir vasitə ilə Qarabağ xanı, 80-dan yuxarı yaşı, çoxlu oğul-qızları və nəvə-nəticələri olan İbrahimxəlil xanın yanına yerləşdirsinlər.

Zahirən qeyri-adi gözəl olan Lakuranın 22 yaşı vardı. İbrahimxəlil xan elə ilk görüşdə onu bəyəndi və onunla məhrəm bir münasibət qurmaq istədi. Bunun üçün ona şərt qoydular ki, xristianlığı qəbul etməlidir. O, zahirən bu şərti qəbul etdi və Lakura ilə yaşamağa başladı. Bu arada Lakura həm də İbrahimxəlil xanın nəvəsi Cəfərqulu xanın məşuqəsi idi.

Bu gedişin nəticəsi o oldu ki, İbrahimxəlil xandan tələb olundu ki, Cəfərqulu xanın vasitəçiliyi ilə İrana qarşı Sisiyanovdan kömək istəsin. Sisiyanov bu xahişi qəbul etdi və dərhal onun sərəncamına rus birliyi göndərdi. Bundan cürətlənən İbrahimxəlil xan, atlı və piyadalardan ibarət bir dəstəni Xudafərin körpüsünə göndərdi ki, onu mühafizə etsinlər. İbrahimxəlil xanın erməni qızı ilə evlənməsi, onun arvadı, Şəki xanının qızına çatanda, o, buna reaksiya vermədi, ancaq ərinin Sisiyanovla əlaqələri barədə Fətəli şaha məlumat göndərdi (68, 46).

İbrahimxəlil xan öldürüləndən sonra onun oğlu Mehdiqulu xan, Sisiyanovun müavini Qudoviçdən xahiş elədi ki, onu Qarabağ xanı təyin etsinlər. Mehdiqulu xan bu şərtlə Qarabağ xanı təyin olundu ki, ildə 14 min Hollandiya dokası vergi versin. Halbuki, İbrahimxəlil xan ildə ruslara 8 min Hollandiya dokası vergi verirdi. Ruslar, Mehdiqulu xana mayor rütbəsi və digər adlar verdilər. Şuşa qalası rusların ixtiyarında qalmaqda davam etdi.

Mehdiqulu xan Qarabağa hakim təyin olunandan sonra rusların Qarabağdakı komandanı general Nobulsin, Gəncə, Tərtər, Çardaxlı və Şuşa daxil, Qarabağın mühafizəsini, piyada və kazaklardan ibarət 4 batalyona, Şəki, Şirvan və Qarabağın yerli dəstələrindən olan birliyə tapşırdı.

Mehdiqulu xan, Qarabağdakı hərbi hissələrin ümumi komandanlığından xahiş etdi ki, ona icazə verilsin ki, Nobulsinin xidmət etdiyi ərazilərdən birinə 250 nəfərlik yerli süvari göndərsin, özü isə qalan qoşunu ilə İranın sərhədlərinə hücum etsin...

Sülh müzakirələrindən əvvəl Abbas Mirzə Naxçıvana daxil oldu və ordu toplamağa başladı. Topladığı ordunu

sahmana salandan sonra Qarabağa tərəf hərəkət etdi və burada hazır vəziyyətdə dayanaraq, hücum əmri gözləməyə başladı.

1810-cu ilin may ayında Abbas Mirzə, ordusunu Naxçıvana qaytardı. Onun 2000 nəfərdən ibarət ikinci ordusu Mərdan xan və Əbülfət xanın komandanlığı ilə Araz çayı tərəfdən hərəkət etdi və may ayının 15-də Mığrı və Günə kəndlərini ələ keçirdi. Yerli əhali Qarabağa və sərhədə tərəf qaçdı.

Bu xəbəri alan general Tormuzov, polkovnik Kotlyarovskinin komandanlığı ilə ora bir piyada batalyonu göndərdi. Tərəflər arasında əlbəyaxa döyüş başladı. Şiddətli döyüşlərdən sonra iyun ayının 17-də ruslar, iranlıların istehkamlarını ələ keçirdilər. İranlılar bu döyüşdə 300 əsgər itirdilər, çoxlu sayda əsgər isə yaralanmışdı. Ruslardan isə 3 zabit və 32 əsgər öldürülmüş, yaxud da yaralanmışdı. Kotlyarovskinin özü də yara almışdı.

Mığrı tutulandan sonra ərazinin həm coğrafi, həm də təbii şəraiti general Tormozovun diqqətini cəlb etdi və o, qərara gəldi ki, burada daimi bir ordu saxlasın.

İranın Mığrıda və Qarabağda məğlubiyyətindən sonra İran əsgərləri ayrıca dəstələr şəklində, bəzən də komandansız ətraf ərazilərə səpələndilər. Bu dağınıqlıq qışa qədər davam etdi. Qarın yağması ilə dağılmış İran ordusunu bir yerə toplamaq daha da çətinləşdi (78).

Bu arada böyük nüfuz sahibi Məhmmədhəsən xanın ölümündən sonra Qarabağda Mehdiqulu xan ilə Cəfərqulu xan (əmi ilə qardaşöğlu) arasında hakimiyyət uğrunda mübarizə qızışdı. Bunu yaxşı bilən Abbas Mirzə, bu vəziyyətdən yararlanmağa çalışdı. O, bu məqsədlə öz dəsti-xətti ilə

Cəfərqulu xana bir məktub yazdı və onu əməkdaşlığa dəvət etdi. Təsadüfən, bu məktub Sultan Budaqerçi ərazisində rusların əlinə keçdi və məsələ general Pavloviçə məruzə olundu.

General Pavloviç, Sultan Budaqerçinin hakimi mayor Ceyniyə göstəriş verdi ki, Cəfərqulu xanı tutub, mühakimə etsin. Lazım gələrsə, onu Tiflisə göndərsin. Əmr yerinə yetirildi və 1812-ci il yanvar ayının 16-da 3 zabit əsgər konvoyu ilə Cəfərqulu xanı Tiflisə gətirmək üçün yola çıxdılar.

Konvoyun yolu Tərtər çayı üzərindən keçirdi. Konvoy çaya yaxınlaşanda Cəfərqulu xan qəflətən atını birbaşa çaya sürdü və iti bir sürətlə onun xüsusi mühafizəçisi olan rus əsgərini suya qərq etdi, ətrafdakıların təəccüb dolu heyran baxışları arasında uzaqlaşdı. Bununla da, rusların əlindən xilas olmağı bacardı. O, general Pavloviçə məktub yazaraq, bildirdi ki, mənim heç bir günahım yoxdur və o məktubdan da xəbərim olmayıb. Mən, iğtişaşlar başlamasın deyə tutulmağım barədə dostlarıma və tərəfdarlarıma məlumat vermədim... Mən ömrümün sonuna qədər Sizə sadiq qalacağam. Əgər icazə versəniz, öz vətənimə qayıdıb öz adi həyatıma davam edərəm...

Ancaq Cəfərqulu xan öz yazdıqlarında səmimi deyildi, çünki o, heç vaxt ruslara etimad etməmişdi. Heç rusların da ona etimadları yox idi. Əslində, Zaqafqaziyanın xanlarının əksəriyyətinin ruslara etimadları olmamış, onlar hər zaman İran hakimiyyəti ilə gizli əlaqə saxlamışlar.

Bu arada Fətəli şah, Mehdiqulu xana bir fərman göndərir və ondan tələb edir ki, rusları Qarabağdan çıxarsın.

1812-ci ildə Gürcüstanda İran lehinə iğtişaşların başlaması, eləcə də, Osmanlılarla müharibə rusları məcbur edir

ki, İranla sülh danışıqlarına başlasınlar. Abbas Mirzə bu təklifi qəbul edir, lakin Talış hakimi Mustafa xana qarşı əməliyyatın bu danışıqların bir parçası olmaması şərtini irəli sürür. Ancaq Osmanlı ilə müharibənin bitməsi vəziyyəti dəyişir və Rusiya əvvəlki kimi İrana qarşı düşmənçilik siyasətlərini davam etdirir.

Ancaq 1812-ci ildə Npoleonun, o vaxta qədər misli görünməmiş 500 minlik bir ordu ilə Rusiyaya hücum etməsi, ümumiyyətlə, dünyada və Avropada baş verən ictimai-siyasi və hərbi vəziyyətin İran dövləti, xüsusən də, Fətəli şah tərəfindən düzgün qiymətləndirilməməsi nəticəsinsə 1813-cü il oktyabr ayının 12-də Qarabağın Gülüstan kəndində İranla Rusiya arasında 11 bənddən ibarət Gülüstan sülh müqaviləsi bağlandı. İran üçün biabırçı və faciədolu həmin müqavilənin şərtlərinə görə, Rusiya işğal etdiyi bütün əraziləri sahibi oldu, Xəzərdə gəmiçilik hüququ Rusiyaya keçdi. Halbuki, bu müqavilə vaxtında bağlansa idi, İran ancaq Gürcüstanı itirmiş olardı.

Gülüstan müqaviləsinə görə, ruslar Abbas Mirzənin səltənət varisliyini və onu hakimiyyətə gətirməyi öhdələrinə götürdülər.

Lakin rusların işğal etdikləri ərazidə törətdikləri özbaşınalıqlar, təkcə sadə insanlara deyil, həm də xanlara qarşı rəvac verdikləri zülm və işgəncələr, eləcə də, İran xalqının, xüsusən də, dini kəsimin və onun başbilənlərinin tələbi ilə İranla Rusiya arasında müharibənin II dövrünün başlamasını zəruri edirdi. Ruslar, hətta Qarabağın hakimi Mehdiqulu xanın var-dövlətini əlindən alıb, onu İrana qaçmağa məcbur etdilər və onun yerinə bir erməni təyin elədilər (122, 107).

Rusların zülmü ona gətirib çıxardı ki, işğal olunuş ərazilərdən çoxlu insanlar İrana köç etməyə başladı.

Bu arada İngiltərə də yeni İran-Rusiya müharibəsinin başlanmasında maraqlı idi, onlar bununla Hindistandakı müstəmlkəçilik siyasətlrini qorumağa çalışırdılar.

... Sonunda "Mücahid" ləqəbi ilə tanınan müctehid Seyid Məhəmməd İsfəhani cahad fitvası verdi və onu Molla Rza Xoyinin vasitəsi ilə Fətəli şaha göndərdi. O, bir dəstə ruhani ilə Sultaniyyədəki hərbi düşərgəyə gəldi və Fətəli şaha təzyiq göstərərək, Rusiya ilə müharibə fərmanını imzalatdırdı (89, 339).

Fətəli şah, Abbas Mirzənin istəməməsinə baxmayaraq, onu ruslarla döyüşlərdə iştirak edəcək ordunun baş komandanı təyin etdi. Həmçinin, işğal altında olan ərazilərin müsəlman xanlarına və rəislərinə məktub yazaraq, Abbas Mirzəyə hər cür köməklik etmələrini əmr etdi.

Müharibənin başlanmasını gözləməyən ruslar, ilk vaxtlar məğlubiyyətə uğrayaraq, geri çəkildilər. İran ordusu İrəvan-Göyçə, Qarabağ və Talış olmaqla, 3 istiqamətdə hücuma keçirdi.

Talış cəbhəsində Həsən xan Talışlı, Abbas Mirzənin ona verdiyi ordu ilə rusları Talış və Muğandan qovub çıxardı. Əvvəl Lənkəran limanını, sonra isə Salyanı ələ keçirdi. Bu qələbələr Bakı camaatını da ayağa qaldırdı və onlar rusları şəhərdən qovdular. Şəki və Şirvan əhalisi də eyni hərəkəti etdi. Dağıstanda da müsəlmanlar rusları qırmağa başladılar və İran ordusu asanlıqla bu regiondakı əraziləri işğaldan azad etdi.

İrəvan cəbhəsində Hüseyn xan Sərdar və qardaşı Həsən xan, məşhur rus sərkərdələrindən birini ağır məğlub etdilər. Həsən xan, Gürcüstanın son padşahının oğlu Aleksandr Mirzənin köməyi ilə İrəvanla Tiflis arasındakı bütün əraziləri azad etdi. Vəliəhdin oğlu Məhəmməd Mirzə Əmir xan Sərdarla birlikdə Gəncəni ələ keçirdilər və rusları şimala tərəf qovdular.

Qarabağ cəbhəsinə Abbas Mirzə özü komandanlıq edirdi. Fətəli şah göstəriş vermişdi ki, İran ordusu bu istiqamətdə irəliləsin və möhkəm Şuşa qalasını ələ keçirdikdən sonra Tiflisə yetişsin. Mirzə Məhəmməd xan Qacar Dəvəlinin oğlu, yeni baş nazir Allahyar xan Asəfüddövlə 15 min nəfərlik Əraq süvarisini Qarabağa-Abbas Mirzənin köməyinə göndərdi. Abbas Mirzə Şuşa yaxınlığında Qarabağ hakimi Mədətovu ağır şəkildə məğlub etdi və Şuşa qalasını mühasirəyə aldı. Şuşanın mühasirəsi uzun sürdü. Bundan istifadə edən ruslar, Tiflisdə çoxsaylı ordu toplaya bildilər. Onların xoşbəxtliyindən o arada Rusiyanın Osmanlı ilə müharibəsi sona çatdı. Rus sərkərdələrindən biri, böyük hərb təcrübəsinə malik general Paskeviç, general Yermolovun yerinə Rusiyanın Qafqaz ordusuna baş komandan təyin olundu. Qarabağın və Şirvanın hərbi komendantı Mədətovu isə general İxsov əvəz elədi.

İran hakimiyyəti bu vəzifə dəyişikliklərinə əhəmiyyət vermədi. Habuki, çar hökuməti bu iki yeni təyinatla müharibəni tezliklə öz xeyrinə sona çatdırmağı planlaşdırırdı.

Paskeviçdə oynaq ağrıları olduğuna görə, o, gecə-gündüz çalışırdı. O, iş başına keçən kimi, siyasi dustaqları işə cəlb etdi. Əslində, həmin dövrdə Qafqaz Rusiyanın sürgün yeri idi və burada kifayət qədər sürgün edilmiş insanlar

vardı. Bu insanların əksəriyyəti istedad və qabiliyyət sahibi idilər.

İrana qaçmış Mehdiqulu xan II İran-Rusiya müharibəsi başlayanda İran ordusuna daxil olmuşdu və Şuşa cəbhəsində döyüşürdü. Gəncənin ruslar tərəfindən ələ keçirilməsindən sonra Abbas Mirzə, Mehdiqulu xana əmr etdi ki, Qarabağ ellərini Qaracadağa (Ərəsbaran) köçürsün.

Həmin vaxt şah öz qoşunu ilə Ərdəbildə idi. Mehdiqulu xan və Sərdar Əmir xan Naxçıvandan yola düşüb, Qoronzuda şahzadəyə çatdılar. Səhər Mehdiqulu xan dağlıq ərazilərdən və kürdlərin yaşadıqları məntəqələrdən keçərək, yola çıxdı. Şahzadə, Çanaxçıdakı rus güclərini məhv etmək məqsədi ilə o tərəfə getməyi planlaşdırırdı.

Araz sahilində kazakların öldürülməsi ilə eyni bir vaxtda Vərəndənin sakini, Mehdiqulu xanın qardaşı Süleyman bəy, digər qohumları ilə birlikdə döyüşdən boyun qaçırdı. Belə olanda general Roota cəld hərəkət edərək, qüvvələrini Şuşaya soxdu...

Bu arada Allahyar xan bir dəstə ilə Abbas Mirzəyə qoşuldu. Yenə də yürüş qərarı alınsa da, bir nəticə vermədi. Onlar şəhərin ətrafında düşərgə qurdular. Bu arada Əmir xan Sərdarın Mədətovla döyüşdə məğlub olması və öldürülməsi xəbəri şahzadəyə çatdırıldı. Şahzadə ordusu ilə Ağdama yeridi. Mehdiqulu xanı Qarabağa qoyub, özü Gəncəyə getdi.

Abbas Mirzə, atası Fətəli şaha bildirdi etdi ki, Qarabağın bəzi tayfaları ona kömək etməkdən çəkindiklərinə görə, daxildə çar ordusunun tərəfdarıdırlar. Yaxşı olar ki, onlar Qarabağdan köçürülsünlər və Azərbaycanın cənub məntəqələrinə yerləşdirilsinlər. Fətəli şah bu təklifi qəbul etdi və

İran mənbələrinin verdikləri məlumata görə, 6 min nəfər qarabağlı Qarabağdan Azərbaycanın içərilərinə köçürüldü.

Şuşanı mühasirədən qurtaran İsxov, belə qərara gəldi ki, bütün Qarabağı ələ keçirsin.

Bu arada Mehdiqulu xan ilə, Dərələyizdə olan Paskeviç arasında əlaqə yarandı. Mehdiqulu xan İrandan üz döndərib, Rusiyanın himayəsinə keçmək istəyirdi. Knyaz Abxazov bununla bağlı Pankratevlə məsləhətləşdi. O, 2 batalyon götürərək, Mehdiqulu xanın yanına gəldi. Onlar iki ölkənin sərhəddindəki Ağ karvansarayda görüşdülər. Knyaz Mehdiqulu xanı inandırdı, onu, ona qoşulan yaxınlarını və adamlarını özü ilə götürdü (18).

Bununla da, tezliklə müharibənin taleyi dəyişdi. Avropa ilə müharibələrdə igidliklər göstərmiş və yeni çarın yaxınlarından olan general Paskeviç bu arada Qafqaza gəldi.

Gəncəyə hücum əmri alan general Mədətov Şamxorda İran ordusunu ağır məğlubiyyətə uğratdı. Bu döyüşdə Əmir xan Sərdar qəhrəmancasına şəhid oldu. 3-4 gün sonra Gəncənin hakimi, Gəncə qarnizonunun komandanı Nəzərəli xan Mərəndi qorxuya düşərək, Gəncə qalasını boşaltdı və öz əsgərləri ilə fərarilərə qoşuldu. Bu hadisə İran ordusunun məğlubiyyətinin başlanğıcı oldu. Bundan 10 gün sonra Abbas Mirzənin başçılığı ilə ruslarla aparılan döyüş İran üçün daha da ağır və biabırçı Türkmənçay sülh müqaviləsinə aparan yolun başlanğıcı oldu. Bu döyüşdə məğlub olan Abbas Mirzə, bu məğlubiyyəti bərtərəf etməkdən ötrü Şuşanın mühasirəsini dayandıraraq, bütün gücü ilə Gəncənin üzərinə yeridi...

Gəncə şəhərindən kənarda, Şeyx Nizaminin məqbərəsinin yaxınlığında baş verən son döyüşdə İran ordusu qəti

məğlub oldu. 4 min iran əsgəri öldürüldü, Cavad xanın oğlu Uğurlu xan da daxil, 4 min nəfər isə əsir götürüldü.

Əhərdə olan Fətəli şah, bu döyüşdən sonra Abbas Mirzəni yanına çağırdı, ona sərhədləri qorumağı tapşırdı, özü isə Tehrana qayıtdı.

Abbas Mirzə, Dehxarqanda (Azərşəhr) və Türkmənçayda 10 gün Paskeviçlə danışıqlar aparandan sonra Türkmənçay müqaviləsi imzalandı. Bu müqaviləyə görə, Arazın şimalında yerləşən bütün ərazilər Rusiyanın hakimiyyətinə keçdi. Bundan əlavə, İran rus dövlətinə təzminat olaraq, hər biri 1 misqal olan 5 milyon tümən qızıl əşrəfi ödədi (89).

## BƏZİ XANLARIN TALEYİ

İran-Rusiya müharibəsi başlayandan sonra, Qafqazın əksər vilayətlərinin hakimləri müsəlman olduqlarından, daha çox İrana meyilli idilər və ruslara qarşı müqavimət göstərirdilər. Ona görə də general Yermolov onları işdən uzaqlaşdırıb, sürgün etdirmək istəyirdi.

Ruslara qarşı ən barışmaz mövqe tutan xanlardan biri, yəqin ki, birincisi, Gəncə xanı Cavad xan olmuşdur. O və oğlanları rus işğalçılarına qarşı döyüşlərdə şəhid olmuşlar.

Cavad xan, Qacar elinin Ziyadlı, yaxud Ziyadoğlu qolundan olub. Ziyadoğlu Səfəvi əmirlərindən və sufilərindən biri idi. Hələ Səfəvilər dövründə Gəncə bəylərbəyiliyi vəzifəsi bu qoldan olan şəxlərin əlində olmuşdur. Ziyadoğlular, Səfəvilərin hakimiyyətinin əvvəlindən rus işğalına qədər, təqribən, 300 il müddətində bu regionda mərkəzi Gəncə şəhəri olan Qarabağın bəylərbəyisi olmuşlar. Şahverdi Sultan Ziyadoğlu, Təhmasib şahın zamanında Qarabağın hakimi idi. Ondan sonra bu vəzifədə əvvəl İbrahim Sultan, sonra isə Şahverdi Sultanın oğlu Yusif Xəlifə olmuşlar. Daha sonra II Şah İsmayıl, onun əmisi oğlu Peykər Sultanı bu vəzifəyə təyin etmişdir.

Daha sonra Qarabağ bəylərbəyi vəzifəsi Şahverdi xanın nəvəsi, Xəlil xanın oğlu Məhəmməd xana verilmişdir. O, öz tayfasının ən adlı-sanlı və güclü şəxsiyyəti idi. Onun oğlanları Mürşüdqulu bəy və Mehdiqulu bəy də dövlətin idarə olunmasında yüksək məqam sahibi olmuşlar.

Osmanlı sərdarı Fərhad paşa, I Şah Abbasın hakimiyyətə gəlməsi ərəfəsində İrandakı qeyri-sabit daxili vəziyyətdən istifadə edərək, hər tərəfdən İrana hərbi təcavüz etdi və Gəncəni işğal elədi.

Bir il sonra Məhəmməd xan Ziyadoğlu və Qarabağ əmirləri, Gəncəni osmanlılardan azad etmək üçün şəhəri mühasirəyə aldılar. Lakin Osmanlı ilə sülh müqaviləsi bağlamaq istəyən Şah Abbas, Məhəmməd xana məktub göndərərək, mühasirəni dayandırmaq barədə göstəriş verdi.

Mühasirə dayandırılandan sonra osmanlılar Məhəmməd xanı tutub, İstanbula göndərdilər. Sülh müqaviləsi bağlanandan sonra Məhəmməd xan İrana qayıtdı. Şah Abbas 20 ildən sonra Gəncəni osmanlılardan azad edəndən sonra Məhəmməd xan yenidən Qarabağ və Gəncə bəylərbəyi təyin edildi. Məhəmməd xandan sonra bu vəzifə Məhəmmədqulu xana həvalə olundu.

II Şah Abbasın hakimiyyətinin sonlarında əvvəl Mutuzaqulu xan, daha sonra Uğurlu xan Gəncə hakimi oldular.

Nadir şahın və Qacarların zamanlarında da Ziyadoğulları iş başında olmuşlar.

Nadir şahın hökmranlığının əvvəlindən Kəlbəli xan və onun 2 oğlu-Uğurlu xan və Həsənəli xan onun xidmətində çalışmışlar. Kəlbəli xanın ölümündən sonra əvvəl Uğurlu xan, sonra Həsənəli xan Gəncə və Qarabağın hakimi olmuşlar.

Səniəddövlə Etemadüssəltənənin "Səfərnamə"sində Kəlbəli xan Qacarın oğlu Həsənəli xanın məzarının Gəncə məscidində olduğu qeyd edilir.

Kərim xan Zəndin hakimiyyətinin əvvəlində, o, Azərbaycanı tutanda Şahverdi xan Ziyadoğlu Gəncənin bəylərbəyi idi. Kərim xan Zənd, onun qardaşı Rzaqulu xanı girov kimi özü ilə bərabər Şiraza aparmışdır.

Bu sülalənin son nümayəndəsi Şahverdi xanın oğlu Cavad xan olmuşdur. Cavad xan və oğlu Hüseynqulu xan Gəncənin müdafiəsində şəhid olmuşlar. Bundan sonra şəhəri işğal edən ruslar 3 gün sərasər burada qırğınlar törətmişlər. General Sisiyanovun bütün səylərinə baxmayaraq, nə Cavad xanın, nə də oğlunun cəsədlərini tapmaq mümkün olmamışdır (66, 1036).

Az sonra məsələ aydınlaşdı. Bəyim xanım, həyat yoldaşı Cavad xanın və oğlu Hüseynəli xanın öldürülməsindən sonra, bu xəbər general Kuryaginə çatmadan öncə, onların hər ikisinin meyidlərini qalanın bürcündən aşağı endirir, hava işıqlaşandan sonra onların meyidlərini tapmayan əsgərlər, heç birinin ölmədiyini düşünürlər. Döyüş yerini dolaşan Sisiyanov, ağlamaq və zarıldamaq səsi eşidərək, səs gələn tərəfə gedir. Səs bürcün altındaki otaqdan gəlirdi. Sisiyanov otağa daxil olanda meyidlərlə rastlaşır. Bu zaman sürətlə Cavad xanın xəncərini çəkib ayağa qalxan Bəyim xanım, Sisianova hücum edir. Ancaq xəncər Sisiaynovu deyil, Sisianovun, özünü irəli atan qoruyucusnu öldürür.

Sisiyanov, Bəyim xanımla birlikdə Cavad xanın digər ailə üzvlərini-arvadı Şükufə xanımı və gəlini Nisəbəyim xanımı, 3 qızını və nəvəsi Zeynəbi əsir götürür.

Şərəfsiz rus generalı Sisiyanov əsirlərdən külli miqdarda pul tələb edir. Belə ki, Bəyim xanım və Şükufə xanım ildə 1200 manat, Nisəbəyim və Zeynəb ildə 600 manat, qızların hər biri isə ildə 300 manat ödəməyə məhkum edilirlər.

Şərt qoyulur ki, bu pullar ödəndikdən sonra onlar əsirlikdən azad olunacaqlar.

Sisiyanov, Gəncəni işğal etdikdən sonra Azərbaycanın digər xanlarına məktublar göndərərək, bildirir ki, hər kim Cavad xanın oğlanları Uğurlu ağaya və Əliqulu ağaya kömək göstərsə və onları gizlətsə, cəzalandırılacaqdır.

Sisiyanov, Cavad xanın mülklərini, o cümlədən də, 19 evini, 40 emalatxanasını, zərbxanasını, dəyirmanını, şüşə fabrikini, bütün var-dövlətini və kəndlərini müsadirə edir.

Çar Aleksandr, Sisiyanovun gördüyü işləri və tədbirləri çox yüksək qiymətləndirir. Sisiyanovun 3 mart 1804-cü il tarixli təklifi ilə, işğal olunmuş Gəncə şəhərinin tarixi adı, çarın arvadı Yelizavetanın şərəfinə dəyişdirilərək, Yelizavetpol qoyulur (39, 30).

Cavad xanın ailəsi, Markiz Pavloviç və bir neçə qızılbaş xanının əli ilə əsirlikdən azad edilir (18). II İran-Rusiya müharibəsinin əvvəlində Cavad xanın oğlanlarından Uğurlu xan ruslarla döyüşdə qalib gəlir və Gəncəni ruslardan geri aiır. Ancaq bu qələbə müvəqqəti olur, ruslar bir müddət sonra Gəncəni təkrar işğal edirlər. Bu işğaldan sonra Ziyadoğlu tayfası Ziyadxanov kimi tanınır (179, 287-288).

Gəncə şəhəri ruslar tərəfindən yenidən işğal olunandan sonra Uğurlu xan və tərəfdarları İrana gedirlər. Mərhum ordu generalı Sadiq Kupal o sülalədən idi. İran ordusunun ən layiq, ən təmiz, ən qəhrəman, ən vətənpərvər və ən məlumatlı generallarından biri olan Məhəmməd Sadiq xan Kupal Xoyda anadan olub, ilk təhsilini burada aldıqdan sonra tacir atası Ağa Mirzə Məhəmmədlə birlikdə İstanbula köçmüş, orta və ali təhsilini Bosfor sahillərində al-

mışdır. İstanbul Hərb Mədrəsəsində təhsil alan Kupal, Türkiyənin böyük siyasi və hərbi şəxsiyyətləri, o cümlədən də, İsmət Paşa (İnönü), Kazım Paşa, Mustafa Kamal Paşa Atatürk ilə bir yerdə oxumuş, onlarla yaxın dost olmuşdur...

Maraqlısı odur ki, Kupal 9 yaşından başlayaraq, öz xatirələrini qələmə almışdır. Bu xatirələr öz dövrü İranının vətənpərvər bir şəxsiyyəti tərəfindən yazılmış canlı tarixidir (94, 206).

Cavad xan və onun bir qrup dostu Gəncə məscidində dəfn olunmuşlar. 1960-cı ilin əvvəllərində baş vermiş bir hadisə, Cavad xanın adını dillər əzbəri edir. Əhməd İsayev, özünün "Gəncə və gəncəlilər" adlı əsərində bu barədə yazır: "Bu hadisə mənim Gəncəyə gəlişimdən xeyli əvvəl 1960-cı illərdə baş vermişdir. Ondan 10-15 il keçməsinə baxmayaraq, onun barəsində söhbətlər davam edirdi; insanlar bu barədə ucadan və kəskin danışırdılar. Bu acı hadisə, Cavad xanın xalq arasında daha çox tanınmasına və xatirəsinin əbədiləşməsinə səbəb oldu.

"Çökək" hamamının yaxınlığında, Cümə məscidinin həyətində fəvvarə tikmək istəyirdilər. Traktor ərazini hamarlamaq istəyəndə qəflətən bir maneəyə ilişir. Məlum olur ki, bu böyük bir qəbirdir. O, beton sandıq kimi imiş. Hamı bu ətrafda çoxlu qəbrin olduğunu bilirdi. Torpağı qazmaq mümkün olmur. Baş daşının yazısından qəbrin Cavad xana aid türbə olduğu məlum olur. Traktorçu və orada işləyənlər işi dayandırır və deyirlər ki, "Günahdır, biz bu qəbrə əl vura bilmərik!"

Məsələni aidiyyatı orqalara  xəbər versələr də, maraqlanan olmur. Sonunda məqbərəni partlatmaq qərarına gəlirlər. Növbəti gün səhər məlum olur ki, Cümə məscidinin

şəhərin zinəti olan minarələrindən biri əyilmişdir. Mütəxəssislərin səylərinə baxmayaraq, minarəni əvvəlki vəziyyətinə qaytarmaq mümkün olmur. Ona görə də deyiblər ki, insanın özü-özünə elədiyini, cümlə aləm yığışsa, edə bilməz! Ən azından, artıq, oyanmaq vaxtıdır! (14, 85).

Söhbət Gəncənin Cümə məscidindən və Cavad xanın bu məscidin həyətindəki məzarından düşmüşkən, deyilməlidir ki, adıgedən məscid, Cavad xandan öncə, Şah Abbasın zamanında, Şeyx Bəhainin memarlığı ilə tikilsə də, məhz Cavvad xan onu təmir etdirmiş və yenidən qurmuşdur. Bu barədə məscidin minbərində müvafq yazılar vardır. Maraqlı burasısır ki, günorta vaxtı divarın kölgəsi müəyyən yerə düşəndə günortanın tam ortasını müəyyən etmək mümkün olur. Hətta ruslar belə bu kölgənin əsasında saatlarını düzəldirmişlər.

Məscidin, hündür qübbəli geniş daxilində imamzadə yerləşir, onun ətrafında isə tələbələr üçün hücrələr vardır. Məscidin mehrabı güzgü ilə işlənmişdir. Məscidin döşəməsi həsirdən olsa da, təmiz və səliqəlidir. Tikilinin ətrafında qədim və hündür çinar ağacları mövcuddur. Mədrəsənin 4 tərəfində içindən su axan hovuzlar tikilmişdir. Məscidin eyvanında Gəncə və Qarabağın bəylərbəyisi Kəlbəli xanın oğlu Hüseynəli xanın mərmər üzlü məqbərəsi yerləşir. Məscidin qapısının hər iki tərəfində minarəyə bənzər hündür güldəstələr inşa olunmuşdur. Məscidin qarşısında, Qəzvin küçəsi kimi çox ensiz bir küçə yerləşir. Bu küçədə köhnədən çinar ağacları əkilmişdir və bunaların görünüşlərindən məlum olur ki, onlar Səfəvi dövrünə aiddirlər. Ətraf ərazilər məscidin vəqfidir. Onlar ildə məscidə 4 min manat gəlir gətirirmişlər (179, 446).

Cavad xanın ölümündən sonra ruslar 3 gün ərzində Gəncə əhalisinə divan tutdular və kütləvi qırğınlar törətdilər. Onlar bunu Qafqazın digər xanlarını və əmirlərini, eləcə də, əhalini qorxutmaq üçün edirdilər ki, onlar rus ordusuna müqavimət göstərməsinlər.

Qafqazın müxtəlif regionlarında müharibə ocaqları yaradaraq, İranın başını qatan Sisiyanov, məqsədyönü şəkildə formalaşdırdığı vəziyyətdən istifadə edərək, Gilanı işğal etməkdən ötrü bir neçə gəmi əsgər və zabit göndərərək, Ənzəlini ələ keçirdi. Lakin Gilan əhalisinin güclü müqaviməti ilə çoxlu sayda tələfat verən ruslar, şəhəri tərk etməyə, gəmilərinə minərək, Bakıya tərəf hərəkət etməyə başladılar. Bakı xanı Hüseynqulu xan Fətəli şahdan kömək istədi. Fətəli şah, Əsgər xan Əfşar Uruminin başçılığı ilə ona kömək göndərdi. Ruslar Bakıya girməyə cəhd edəndə güclü müqavimətlə rastlaşdılar. Bu döyüşlərdə Qafqazın digər xanları, o cümlədən də, Quba xanı Şeyx Əli xan, Ləzgi xanı Sərxan xanın oğlu Nuh bəyin və başqalarının dəstələri də Hüseynqulu xana kömək edirdilər. Bu minvalla məğlub olan ruslar, Bakını işğal edə bilmədilər.

Sisiyanov, Qafqazda olduğu müddətdə bəzi xanlar və əmirlərlə münasibət yaratmış, onları müxtəlif yollarla və vasitələrlə İrana qarşı qaldıra və silahlandıra bilmişdi. Onların arasında Bakı xanı Hüseynqulu xan da var idi. Zahirən, Sisiyanovla ehtiyatla davranan Bakı xanı Hüseynqulu xan, əslində Sisiyanovun əməllərinə görə ona nifrət edir və gizlində onu öldürmək üçün plan qururdu. Bir gün Sisiyanov, Hüseynqulu xanla görüşmək istəyir. Hüseynqulu xanın razılığından sonra onlar Bakı qalasının yaxınlığında görüşürlər. Hüseynqulu xanın bu görüşdə iştirak edən əmisi

oğlu İbrahim xan arxadan atəş edərək, Sisianovu gəbərdərək, onu cəhənnəmə vasil edir.

Daha sonra Sisiyanovun başı və qolları kəsilərək, Tehrana-Fətəli şaha göndərilir.

Bu arada Hüseynqulu xan və yaxınları Bakıxanov familyasını qəbul edirlər.

Sisiyanov öz cəzasına çatdırılandan sonra Qafqazdakı rus ordusunda başıpozuqluq və hərc-mərclik başladı. Bəziləri fərarilik edərək, ətraf rayonlara dağıldılar. Qalanlar isə döyüş mövqelərini buraxaraq, geri çəkildilər.

Sisiyanovun başsız və qollarsız bədəni erməni keşişi Daniel tərəfindən aradan çıxarılaraq, kilsədə dəfn edilir. Bu həmin Daniel idi ki, rusların Qafqazı işğalında onlara hərtərəfli kömək göstərmişdi.

Bütün bu proseslərdən sonra çar, general Bulqakov başda olmaqla, Azərbaycana böyük bir təzhizatlı qoşun göndərdi. Keşiş Daniel əl-ayağa düşdü və Sisiyanovun başsız bədəni haqda Bulqakova məlumat verdi.

Bu arada ruslar, Bakıda yerli əhalinin əli ilə Hüseynqulu xana qarşı üsyan qaldırırlar və o, İrana qaçmağa məcbur olur. Onunla birlikdə İrana gələn İbrahim xan, Naibüssəltənə Abbas Mirzənin yanında xidmət etməyə başlayır.

Bundan sonra Bakı şəhəri ruslar tərəfindən işğal edilir.

Keşiş Danieli lazımınca mükafatlandıran, general Bulqakov, Sisiyanovun başsız nəşini Tiflisə göndərir və onu orada basdırırlar (39, 36).

Hüseynqulu xan, I İran-Rusiya müharibəsindən sonra Əcəm İraqının Sultanabad (indiki Əraq) şəhərinə köçür və orada vəfat edir. Hazırda onun nəslindən bu şəhərdə yaşayanlar Badkube familyasını daşıyırlar (138, 101).

Şəkiyə hücum edən ruslar, eyni vaxtda burada da öz casuslarının əli ilə Şəki xanı Səlim xana qarşı üsyan qaldırmağa müvəffəq olurlar. Fətəli şah, Şahsevən elinin böyük əmirlərindən olan Fərəculla xanın başçılığı ilə ona hərbi kömək göndərsə də, faydası olmur və Şəki də rus işğalına məruz qalır. Səlim xan, ailəsi və yaxınları ilə birlikdə Təbriz şəhərinə qaçır (179, 446).

Quba və Dərbəndin hakimi Şeyx Əli xan da I İran-Rusiya müharibəsi boyu Abbas Mirzənin dəstəyi ilə ruslara qarşı igidliklə müqavimət göstərmişdir. Hətta Quba şəhəri ruslar tərəfindən işğal edilsə də, o, tərəfdarları ilə şəhəri tərk edərək, 11 il daha ruslara qarşı döyüşmüş, daha sonra məğlub olaraq, İran sarayına pənah aparmağa məcbur olmuşdur (40, 237).

## ERMƏNİLƏRİN İRANDAN QARABAĞA KÖÇÜRÜLMƏSİ

İran-Rusiya müharibələri başa çatandan sonra ermənilərin İrandan, ruslar tərəfindən işğal olunmuş torpaqlara kütləvi köçü başladı. Ruslar Qafqazı ələ keçirəndən sonra bu regionun əhalisinin əksəriyyəti müsəlman idi. Müharibə dövründə ruslar onlara etibar və etimad etmirdilər. Ona görə də onlar əhalinin dini və milli tərkibini dəyişməyi istəyirdilər. Məhz elə bu səbəbdən də Türkmənçay müqaviləsinə, müharibə dövründə onlara hər cür köməklik göstərmiş ermənilərin Qafqaza köçürülməsi haqqında xüsusi bənd saldılar. Bununla da, çarizm Qafqazda öz mövqelərini möhkəmləndirmək və gələcəkdə Şərqə doğru irəliləmək məqsədi güdürdü.

Türkmənçay nüqaviləsi imzalanandan sonra ermənilər bütün İrandan, xüsusən də, Marağa və Urmiya gölünün ətrafından Azərbaycana, ələlxüsus da, Dağlıq Qarabağa köçməyə başladılar.

Ruslar, hələ I Pyotrun hakimiyyəti zamanı İranı, xüsusən də, onun Qafqaz bölgəsini işğal etmək planları qururdular. I Pyotr, Azərbaycanı Orta Şərqin qapısı hesab edirdi. Ona görə, Azərbaycanı işğal etmək üçün ən təsirli vasitə ermənilər və beşinci kalon idi. Onun başqa bir məqsədi isə Qafqazı işğal etməklə, Osmanlıların Xəzər dənizinə çıxış ehtimalının qarşısını almaq idi. I Pyotr öz planlarını həyata

keçirməkdən ötrü Gürcüstan və Ermənistanı hər vəchlə himayə edirdi. Bu üzdən də Qarabağ erməniləri ilə əlaqə yaratmış və onların Uri adlı nümayəndəsini qəbul etmişdi.

I Pyotrun bu sahədəki siyasəti I İran-Rusiya mühribəsinin başlanması ilə nəticələndi və ruslar 1722-ci ildə Dərbəndə, hətta Bakıya qədər irəlilədilər. I Pyotr hələ sağlığında erməniləri bu regionda yerləşdirmək istəsə də, buna müyəssər ola bilmədi. Çünki onun ölümündən sonra ruslar işğal etdikləri əraziləri boşaldaraq, geri çəkilməli oldular.

Bu uzaqgörən siyasət I Pyotrdan sonra hakimiyyətə gələn II Yekaterina tərəfindən davam etdirildi, belə ki, o, ermənilərlə sıx əlaqə saxlayırdı və Rusiyanın himayəsi ilə Ermənistan dövlətinin yaradılması fikrində idi. O, bunu baş naziri Potomkinlə müzakirə etmişdi. Hətta bu baş tutandan sora Potomkin yeni vilayətin hakimi olmalı idi. Lakin 1797-ci ildə Rusiyanın Gürcüstana müdaxiləsinin qarşısının alınması bu planın reallaşdırılmasına imkan vermədi (53, 362).

Ancaq uzun sürən İran-Rusiya müharibələrinin sonunda Rusiya öz istəklərinə nail ola bildi.

Fransalı müəllif Jan Mari Karzu "Erməistan 1915" adlı kitabı boyu ermənilərin tərəfini tutur, lakin əsərin 39-cu səhifəsində belə yazır: "İran və Türkiyə erməniləri, İran-Rusiya müharibələrində könüllü hərbi birləşmələr yaradaraq, Rusiyaya diqqətəlayiq köməkliklər göstərmiş, Rusiyanın qələbəsini asanlaşdırmışdılar. Ermənilərə görə, bu regionun müsəlman ölkəsindən ayrılması erməni xalqının azadlıq və istiqlaliyyət qazanması üçün ilk addım olmalı idi.

Burada diqqəti çəkən əhəmiyyətli məqam ondan ibarətdir ki, İran-Türkiyə müharibələrindən sonra bağlanmış

Türkmənçay müqaviləsinə əsasən, məsələ, ermənilərin İrandan Qarabağa köçürülməsi ilə məhdudlaşmadı, çoxlu sayda erməni də Türkiyədən bu regiona köçürüldülər" (115, 39).

Cavad xanın və bütövlükdə gəncəlilərin qəhrəmancasına müdafiələrinə baxmayaraq, ruslar, Gəncə şəhərini məhz ermənilərin xəyanəti ilə işğal edə bilmişdilər (121, 241).

Müharbənin sonrakı bütün gedişində ermənilər bütün mümkün vasitələrlə ruslara kömək etmişdilər. Ermənipərəst Pasdar Maçiyan yazır: "İran-Rusiya müharibəsinin II dövrü vəliəhd, yorulmaz şahzadə Abbas Mirzənin komandanlığı altında olan 35 minlik İran ordusunun cəbhə boyu sürətli irəliləməsi ilə başladı. Bu ordu az bir zaman içərisində Gümrü (Aleksandropol) və Gəncəyə (Yelizavetpol)" yaxınlaşdı və onları ruslardan geri aldı. Belə bir şayiə yayıldı ki, İran ordusu tezliklə Tiflisi də rus işğalçılarından azad edəcək.

Ancaq Şuşada polkovnik Rovetin komandanlığı altındakı 350 nəfərlik rus birliyinin ermənilərin birbaşa köməyi ilə qalanı 6 həftə boyu müdafiə etməsi və 1826-cı il 2 sentyabrda rusların general Madatovun komandanlığı ilə Şamxorda qazandığı qələbə vəziyyəti dəyişdi. 2 min nəfərlik qoşunla 10 min nəfərlik İran ordusuna qalib gələn Madatov Gəncəni işğal etdi.

Rusiya yaşlı Yermolovun yerinə Paskeviçi Qafqaz ordusuna komandan təyin edəndən sonra buradakı əsgər sayını 8 min nəfərə çatdırdı. Əlavə olaraq, erməni Madatovun qoşunu da onlara birləşdi.

Bir il sonra, yəni 1828-ci ildə Paskeviç Eçmiadzini işğal etdi və İrəvanı mühasirəyə aldı. Sonra Naxçıvana tərəf hərəkət edərək, iyun ayında bu şəhəri ələ keçirdi. Avqust ayında

İran ordusu Abbas Mirzənin başçılığı altında İrəvana köməyə gəldi, ancaq Aştarakda baş verən döyüşdə məğlubiyyətə düçar oldu. Sonunda 2 oktyabrda İrəvan qarnizonu (4 min əsgər və 50 top) təslim olmaq məcburiyyətində qaldı.

Piyada və süvarilərdən ibarət olan könüllü erməni dəstələri bütün bu döyüşlərdə ruslarla çiyin-çiyinə döyüşürdülər (53, 354). Halbuki, ermənilər hər zaman İranda dinc şəraitdə yaşamış və ehtiram görmüşdülər. Tarixi sənədlər də bu həqiqəti sübut edir: "İran Xarici İşlər Nazirliyinin Siyasi və Beynəlxalq Əlaqələr İdarəsi tərəfindən 1995-ci ildə təşkil edilmiş və açılışı doktor Vilayəti tərəfindən həyata keçirilmiş "Qafqaz regionunun farsdilli sənəd və göstərişlərinin VIII sərgisi"ndə 1468-1852-ci illərə aid 100-dən çox sənəd nümayiş etdirilmişdir. Vilayəti öz çıxışında demişdir ki, bu dövrdə İran hökumət məmurlarının azsaylı xalqlara münasibəti vilayət hakimlərinin də diqqətini çəkmişdir. Belə ki, hakimlərdən biri darğaların erməni kilsəsinə girişini qadağan etmişdir. Bu, İran əhalisi və hakimiyyətinin başqa dinlərin daşıyıcılarına göstərdikləri ehtiramın nişanəsidir" (40).

Fətəli şah da verdiyi bir fərmanla Üçkilsə monastrının keşişi Davud Xəlifəyə müraciət edərək, yazmışdır ki, Üçkilsə monastrı və ermənilərin yaşadıqları kəndlərdə, köhnədə olduğu kimi, kilsə zəngləri, dua və ağlaşma vaxtları, cənazə daşıyaraq, öz ayinlərini və qaydaları icra olunarkən, müsəlman əhali onlara mane ola bilməz. Monastrın vəqf əmlakı, əkin sahələri və bağları, padşahın izni və icazəsi olmadan kimsə tərəfindən əxz edilə bilməz. Padşahın icazəsi olmadan ermənilər dini islami idarələrə gətirilə bilməzlər (40, 140).

Ermənilər İranda hətta xüsusi imtiyazlara da malik olmuşlar.

Paskeviç, ordusunun təminatında çətinlik çəkdiyi vaxtda özünə Karqanov familyası götürmüş bir ermənininin vasitəçiliyi ilə görülmüş müəyyən işlər müqabilində, rusların nəzarətində olmayan Miyanə və Ərdəbilin müxtəlif yerlərindən köçəri şahsevənlər ruslara 7 min çetvert[70] ərzaq, yüklərin daşınması üçün 300 dəvə və 2 çadır verilmişdi (120, 263).

Milliyyətcə erməni olan Pasdar Maçiyan yazır ki, Tiflis, ya Çaylığın böyük keşişi Nerses... rus canişininə mümkün ola hər cür köməyi ən yüksək səviyyədə göstərirdi. O, hər zaman axşamlar Paskeçin çadırında olur və orada gecələyirdi. Gündüzlər isə rus ordusunun ön cəbhəsində olurdu. Çar I Nikolay keşiş Nersesin rus ordusunun qələbələrində oynadığı rola görə, ona "Aleksanr Nevski" almaz ordeni vermişdi.

Ermənilər, rusların Qafqazı zəbt etmələrinə işğal kimi deyil, özlərinin xilası kimi baxırdılar. Zaqafqaziya xalqları içərisində ermənilər, ruslara mütləq sədaqət göstərən yeganə xalqdır.

Türkmənçay müqaviləsindən sonra, çoxusu Salmas və Urmiyadan olan 35 min nəfər erməni Ermənistana köçürüldü (53, 365).

Nəfisi yazır ki, Türkmənçay müqaviləsindən sonra Arazın cənubundan Zaqafqaziyaya 80 min ailə köçürüldü. Keşiş Nersesin təqdimatı ilə Pakeviç, köçürmə işlərinə rəhbərliyi erməni Lazar Lazarevə tapşırmışdı. Lazar Lazarev lovğalanır və özünü Ermənistanın padşahı hesab edirdi. Hətta ermənilər belə onu sevmirdilər, ona görə də Paskeviç

[70] Çetvert- 0,737 qr-a bərabər çəki vahidi

onun yerinə Arqutinski Dolqorukini təyin etməyə məcbur oldu (122, 175).

Çarizm Qafqaz əhalisini tərkibini müsəlmanların əleyhinə dəyişmək istəyirdi. Ona görə o, digər tədbirlərə də əl atırdı. Bu çərçivədə ruslar Qarabağda, bu diyarın parlaq gələcəyindən xəbər verən mədən sənayesi şirkətləri yaratmağa başladılar. Bu, həm də ermənilərin bu regiona axınını və buradakı saylarının artmasını sürətləndirdi.

Müharibə bitdikdən sonra ermənilər get-gedə İranda yaşadıqları kəndləri boşaldırdılar. Pusiyanın işğal etdiyi torpaqlarda erməniləri 2 il müddətində hər cür vergidən azad etmələri onların Qafqaza axınını ağlagəlməz dərəcədə artırırdı (36, 47).

Fransa səfiri yazırdı ki, hazırda Xoyda 15 mindən artıq əhali yoxdur, çünki ermənilər buranı atıb Qafqaza köçmüşlər.

Ermənilər İrandan köçürüləndə əvvəl nəzərdə tutulmuşdu ki, Bərdə şəhəri yenidən qurulsun və ermənilər burada yerləşdirilsinlər. Ancaq ermənilər hər zaman dağlıq ərazilərdə yaşadıqlarından, Bərdənin yaydakı istisinə dözə bilməzdilər. Ona görə də Bərdə planı aradan götürüldü. Ermənilər dağlıq ərazilərdə və Şuşada yerləşdirildilər. Ermənilərin Şuşa şəhərinə yerləşdirilməsi yerli əhalinin güclü etirazına səbəb oldu. Hətta rus dövləti şayiə buraxmağa məcbur oldu ki, guya, ermənilərin Qarabağda yerləşdirilməsi müvəqqətidir (86, 4).

Ruslar Qarabağa ilk gələn erməniləri burada Marağa adlı kənddə yerləşdirdilər. Bir əsr yarım keçəndən sonra sovet dövləti "Ermənilərin bu torpaqlara köçürülməsinin şərəfinə" burada bir abidə ucaltdı (165, 3).

Erməni mühacirlərinin nəsilləri indi də Türkmənçay müqaviləsinin imzalanmasını və əcdadlarının Qafqaza köçürülməsini bayram kimi qeyd edirlər. İran İslam Respublikası Xəbər Agentıiyinin verdiyi məlumata görə, Azərbaycan Respublikasının Rusiyadakı səfiri, Qarabağ ermənilərinin "Gülüstan" sülh müqaviləsinin bağlanmasının 181-ci ildönümü münasibəti ilə Moskva teatrlarından birinin binasında təşkil etdikləri tədbirə öz etirazını bildirmişdir (163).

Halbuki, Arazın şimalında yaşayan müsəlman xalq hər zaman ana vətəndən ayrı düşmənin həsrətini yaşamış və yaşamaqdadır. Hətta bir neçə il qabaq Naxçıvan MR Ali Məclisi "Gülüstan" və "Türkmənçay" müqavilələrinə öz etirazını bildirmişdir (170, 93).

Azərbaycanın bölünməsi ilə bağlı Təbrizdə son vaxtlara qədər keçirilən "Kuşgi[71]-ye balaban" mərasimi bu həsrətin canlı təzahürüdür. Bu tamaşa qürubla başlayır və Günəş tam batanda bitir. Onun çoxsaylı oyunçuları qolları bir-birinə çarpazlanmış şəkildə 3 dairə halında rəqs edər və aşağıdakı mahnını oxuyurlar:

*Kuşgi-ye balaban Araza baxar,*
*Arazın suyu gözlərdən axar,*
*Ey Araz, quru, axma bir zaman,*
*Ey bizi oda yandırıb yaxan,*
*Sənlə ayrıldı ana baladan,*
*Kuşgi-ye balaban Araza baxar,*
*Arazın suyu gözlərdən axar.*
*Ana çığırır "Vay, balam hanı?"*
*Bala çığırır "Vay, anam hanı"?*

---

[71] Kuşgi-ye balaban-balabanın ağzı

*Mələr qoydun sən hər iki canı,*
*Kuşgi-ye balaban Araza baxar,*
*Arazın suyu gözlərdən axar.*
*Dağlarında var qanımın izi,*
*İndi də baxır anamın gözü,*
*Uca dağlardan axtarır bizi,*
*Kuşgi-ye balaban Araza baxar,*
*Arazın suyu gözlərdən axar.*
*Gün batan zaman qəlbim daralır,*
*Bağrım olur qan rəngim saralır,*
*Baxaram sənə, hava qaralır,*
*Kuşgi-ye balaban Araza baxır,*
*Arazın suyu gözlərdən axır.*
*Yardan ayrıldı adaxlı qızlar,*
*Dizi qucaqlı, ürəkdən sızlar,*
*Dövrəmə gəlin, ey adaxsızlar,*
*Kuşgi-ye balaban Araza baxır,*
*Arazın suyu gözlərdən axır.*
*İllər dolandı, ağlarkən yatdıq,*
*Tale oyandı, bir-birin tapdıq,*
*Bir ürək, bir qan bir yerə çatdıq,*
*Məhəbbət gözü bir yerə baxar,*
*Arazın suyu gözlərdən axar.*
*Çatdı bir yerə oğul, analar,*
*Uzaqdan görüb qolların açar,*
*Anan gəl deyib, bağrına basar,*
*Məhəbbət gözü bir yerə baxar*
*Arazın suyu gözlərdən axar... (72, 138).*

Azərbaycanın həsrət və ayrılıq məsələsi hər zaman Arazın hər iki tərəfində yaşayan böyük söz ustalarının ən acılı və ağrılı mözularından biri olmuş və olmaqdadır.

## ERMƏNİLƏRİN TÜRKİYƏDƏN QARABAĞA KÖÇÜRÜLMƏSİ

Qafqazın işğalında ruslara hər cür köməklik edən ermənilər, bu regionu İrandan qopardıqdan sonra Avropanın bəzi dövlətlərinin əli ilə Osmanlı dövlətində təfriqə yaratmağa girişdilər. Onlar, Anadolunun şərqində bir erməni dövləti qurmağı planlayırdılar. Ermənilərin bu fəaliyyətləri Türkiyədə bir çox ermənininin məhv edilməsinə və əksəriyyətinin ölkədən Qafqaza, xüsusən də, Dağlıq Qarabağ bölgəsinə köçməsi ilə nəticələndi.

Bu məsələni araşdıran Kaliforniya və Harvard Universitetlərinin professorları Estanford Ci Şav və Ezəlkural Şav belə bir nəticəyə gəlmişlər ki, 1877-ci ildə rusların Şərqi Anadoluya hücum etmələri Rusiyada vəzifə başında olan ermənilərin təhriki ilə baş vermişdir. Onlar İran-Rusiya müharibələrində ruslara kömək etmiş və bu üzdən də irəli çəkilmiş  şəxslər, yaxud da onların övladları idilər. Bu qəbildən olanlar, Osmanlı imperiyasındakı erməiləri himayə etmək və onlardan Osmanlı dövlətinin əleyhinə kömək almaq məqsədi ilə Türkiyədəki ermənilərlə əlaqə yaradırdılar (37, 348).

Rusları Osmanlı Türkiyəsinə qarşı müharibəyə təhrik etmiş ermənilər, özləri də bu müharibədə aktiv bir şəkildə iştirak edirdilər. Pasdar Maciyan yazır: "Xüsusən, 1877-1888-ci Türkiyə-Rusiya müharibələrində çoxlu sayda erməni zabitlər rus ordusunda can-başla ximət edirdilər. II Aleksandrın gələcək baş naziri Luris Melikyan həmin müharibədə Qafqazdakı rus ordusuna komandanlıq edirdi. Onun

komandanlığı altındakı zabitlərdən general Lazarev, Arpaçay döyüşündə rus ordusunun sol cinahının komandanı idi. Onun səyləri nəticəsində türk komandanı Muxtar paşanın ordusu məğlubiyyətə düçar oldu və bu döyüş müharibənin taleyini müəyyənləşdirdi. Ərzurum yaxınlığında baş verən döyüşdə də erməni qoşununun zabiti Tartariyanın planı ilə ruslar uğur qazandılar, Tartariyan özü isə cəhənnəmə vasil edildi. Həm də böyük hərbi mühəndis olan general Terkukasiyanın başçılıq etdiyi hərbi birlikdə erməni könüllülərdən ibarət batalyonlar da xidmət edirdilər. Onlar Bayazidin II müdafiəsində xüsusi rol oynamışdılar (53, 375)".

1828-1853-cü illər Türkiyə-Rusiya müharibələrində ermənilər, Anadoludakı rus işğalçılarına olduqca səmimi münasibət bəsləyirdilər. Onlar işğalçı rus ordusuna özlərinin azadlıq ordusu kimi baxırdılar. Bu münasibət ona gətirib çıxardı ki, ruslar "San-Estefano" sülh müqaviləsinə belə bir bənd saldılar ki, Osmanlı torpaqlarının ələ keçirilməsində rus qüvvələri ilə həmkarlıq etmiş ermənilər cəzalandırılmayacaq və təqib olunmayacaqlar (116, 85).

Ruslar, onlarla əməkdaşlıq etmiş erməniləri təşviq və himayə edirdilər. Əksinə, müsəlmanlara qarşı hər cür zülm edilirdi. İlk türkdilli "Əkinçi" qəzetinin materialları bunu bariz bir şəkildə göstərir.

Qafqaz əhalisinin milli şüurunun inkişafı və artmasından qorxan ruslar, müsəlmalara qarşı hər cür qadağalar, məhdudiyyətlər və senzura tətbiq edirdilər. Bu dövrdə müsəlman mətbuatına qarşı tətbiq olunan senzura o dərcədə amansız idi ki, hətta "Rusiyada sərçələr soyuqdan donurlar" ifadəsini belə işlətmək olmazdı, çünki bu, müsəlmanlarla

müharibə aparan rusların Allahın qəzəbinə tuş gəlmələri kimi yozulurdu.

Hətta aşağıdakı 4 misraya görə, "Əkinçi" qəzetinin nəşri dayandırılmışdı:

*Əzizim, qar qalandı,*
*Qar yağdı, qar qalandı,*
*Qarğalar laçın oldu,*
*Laçınlar qarğalandı.*

Bu bayatı belə yozulmuşdu ki, guya laçın deyəndə türklər, qarğa deyəndə isə ruslar nəzərdə tutulur (97, 293).

S.Nəfisi yazır ki, Qərbin istismarçı dövlətlərinin siyasəti ilə İranın böyük ərazilərinin ruslar tərəfindən işğal edilməsindən sonra İran dövləti zəiflədi. Bu siyasətin başında duran ingilislərin məqsədi Rusiyanın əli ilə İranı zəiflətmək planının arxasında o dururdu ki, Əfqanıstan və Hindistanda İran mədəniyyətinin təsiri güclü idi. Bu üzdən də İngiltərə İranı özünə rəqib hesab edirdi (122, 212). Bu baxımdan imperialist Qərb dövlətləri Türkiyə-Rusiya müharibələrində ermənilərdən tüklərə qarşı V kalon kimi istifadə edirdilər.

Osmanlı bayrağı altında birləşmiş xalqlar, bu ölkəni islamın dayağı və nicatı hesab edirdilər. Bu baxımdan, Seyid Cəmaləddin Əsədabadinin ideyalarında Osmanlı dövlətinin güclndirilməsi əsas yer tuturdu. Ona görə, ancaq güclü bir xilafət Şərq və Qərb müsəlmanlarını təcavüzkar düşmənlərdən qoruya bilər (160, 16-18).

Ancaq Avropa dövlətləri Şərqdə müstəqil və güclü bir müsəlman dövləti olmasını həzm edə bilmirdilər. Bu üzdən də onlar Osmanlını parçalayaraq, onun hər parçasını özlərinin müstəmləkəsinə çevirmək niyyətində idilər. I dünya

müharibəsindən sonra Osmanlının dağılması ilə onlar öz qeyri-qanuni məqsədlərinə çatdılar. Fələstin məsələsi və Livanda baş verən faciələr məhz Osmanlı dövlətinin dağılmasının acı nəticələrindən yalnız bir neçəsi idi.

Kembric Universitetinin tədqiqatçıları qeyd edirlər ki, Qərb dövlətləri XV əsrin ilk yarısında belə Yaxın Şərqdə köhnə səlib müharibələri ideyaları ilə yaşayırdılar. Onlar Misiri, Suriyanı və Ərəbistanı işğal etmək arzusunda idilər. Lakin 1453-cü ildə Osmanlının İstanbulu fəth etməsi dünyanın geosiyasi vəziyyətini tamam dəyişdi və onlar İstanbulu geri almaq planları üzərində baş sındırmağa başladılar. Bu çərçivədə Roma papası V Nikolas 30 oktyabr 1453-cü ildə verdiyi fərmanla hər kəsi türklərə qarşı səlib müharibəsinə çağırırdı... (63, 181).

Doktor Huma Natiq yazır: "Ancaq XVIII əsrdən Avropa dövlətləri Osmanlının qanına susadılar. Əvvəl Rusiya, I Pyotrun və II Yekaterinanın zamanlarında Osmanlı torpaqlarını ələ keçirməkdən ötrü 1725-ci ildən 1774-cü ilə qədər davamlı olaraq, Türkiyəyə qarşı amansız müharibələr apardı və onu zəiflətdi, XIX əsrə qədər xristian əhalinin yaşadıqları vilayətləri Türkiyədən qoparmaq üçün 9 dəfə müharibə aparıldı. 1828-ci ildə İranın ruslar qarşısında məğlub olduqları, İrəvan və Naxçıvanın itirilməsinin ardınca, Naxçıvandan əldə olunan taxıl və digər ərzaq məhsullarından bəhrələnən və səfərbər olan Rusiya, ermənilərin yaşadıqları vilayətləri Türkiyədən qopardı. İranın məğlubiyyətindən sonra ruslar 6 min nəfər ermənini İrandan İrəvan və Naxçıvana yerləşdirdilər. Türkiyə ilə müharibədə də bu siyasət davam etdirildi. Belə ki, Qars, Bayazid və Torpaqqalanı iş-

ğal edən ruslar, erməniləri Qafqaza köçməyə vadar etməkdən ötrü bu şəhərləri yerlə yeksan elədilər. Məsələn, əvvəllər abad, böyük və möhtəşəm bir şəhər olan Ərzurum, Paskeviçin hücumundan və rusların işğalından sonra xarabaya çevrildi. Bəzi mənbələrə görə, buradan 90 min nəfər, digər mənbələrə görə isə 150 min nəfər erməni İrəvan və Naxçıvana köçürüldü. Köçürülənlərin bir hissəsi yollarda aclıqdan və xəstəliklərdən öldülər. Bəziləri isə İrəvana çatsalar da, yuxarıda göstərilən səbəblərdən burada tələf oldular. Ruslar, erməniləri  boş vədlərlə aldadırdılar ki, guya, Türkiyədəki erməni sakinli vilayətləri İrəvan və Naxçıvanla birləşdirəcəklər.

Bu arada ingilis casusları da erməni keşişləri arasında Osmanlıya qarşı pozuculuq işləri aparırdılar. Onlar "İngiltərə legionunun əski dostları"  masson təşkilatının "Heg Overyun" erməni dərnəyini yaratdılar və "Masis" adlı jurnal təsis etdilər. Bu jurnal Osmanlıdakı ingilis siyasətinə dəstək verirdi.  O, İstanbulda Aznavur adlı erməninin rəhbərliyi ilə çıxırdı. "Heg Overyun" erməni dərnəyi Türkiyədə yaşayan yəhudiləri, erməniləri və müsəlmanları "İngiltərə legionunun əski dostları"  masson təşkilatı ətrafında toplayırdı. Bu insanlar Türkiyədə ingilis siyasətinin həyata keçirilməsidə fəal rol oynayırdılar. Erməni tarixçilərinin yazdıqları kimi, məhz "İngiltərə legionunun əski dostları" masson təşkilatı Sultan Əbdüləzizin zamanında 1862-ci ildə ilk dəfə ermәilərin kompakt yaşadıqları Van, Zeytun, Muş və Ərzurumda iğtişaşlar törətdi, Qərb dövlətlərinin mənafeyinə uyğun olaraq, ermənilərlə türklərin münasibətlərinə düşmənçilik toxumları səpdi (82, 284).

Nəticədə 1878-ci il mart ayının 3-də Türkiyə ilə Rusiya arasında İstanbul yaxınlığında "San-Estefano" sülh müqaviləsi bağlandı. Bu müqaviləyə əsasən, Osmanlı bir neçə yüz ildən sonra Cənubi Avropadakı müstəmləkələrindən əl çəkdi. Bolqarıstan, Rusiyanın himayəsi ilə müstəqillik əldə etdi. Onun sərhədləri Ege dənizinə qədər uzandı və Makedoniya onun bir parçası oldu. Türkiyə, Serbistan, Monteneqero və Rumıniyanın müstəqilliyini rəsmən tanıdı və Bosna-Herseqovinanın istədiyi islahatları keçirməyə haqqı olduğunu qəbul etdi.

"San-Estefano" sülh müqaviləsi Rusiyanın gücünü artırdı və ona imkan verdi ki, əski panslavyanizm ideyalarını həyata keçirsin. Bundan qorxuya düşən Avropa dövlətlərinin başçıları, Rusiyanın iştirakı ilə 1878-ci il 13 iyulda Berlində konfrans keçirdilər və müqavilə imzaladılar. Burada qərara alındı ki, Makedoniya Bolqarıstandan alınsın və Albaniya adı ilə Osmanlıya birləşdirilsin. Bosna-Herseqovina Avstriyaya, Kıbrız isə İngiltərəyə verilsin. Bu müqavilə, əslində, Osmanlı imperatorluğunun sonunun başlanğıcı idi. Bosniya-Hersoqovinanın Avstriyaya verilməsi serblərin qəzəbini alovlandırdı və sonradan I dünya müharibəsinə səbəb oldu (106).

Doktor Əliəkbər Vilayəti yazır ki, islam dünyasının tədricən işğal edilməsi və islam mədəniyyəti və qaydalarının yayılmasının qarşısının alınması ona gətirib çıxardı ki, I dünya müharibəsinin sonunda Avropanın xəstəsi (Osmanlı) yıxıldı. Bu zaman Avropa dövlətləri, II Sultan Əbdülhəmidin "Canlını şaqqalara ayırmaq olmaz!" kimi tarixi etirazına əhəmiyyət vermədilər. Beləliklə, Osmanlı imperi-

yasının əhatə etdiyi Cəbəllütariqdən Malakaya, Atlas dağlarından Sakit okean adalarına qədər geniş bir ərazini əhatə edən bütün islam dünyası bir neçə yerə böləndü və bu parçalar birbaşa, yaxud da dolayısı ilə xristianların müstəmləkəsinə çevrildi.

İngilis Lord Alenbi, Beytülmüqəddəsə daxil olanda demişdir: "Bu gün xaç yürüşləri başa çatdı!". Fransız generalı Qoroy, Səlahəddin Eyyubinin Dəməşqdəki məqbərəsinə getmiş və orada məqbərəyə müraciətlə demişdir: "Səlahəddin, biz qayıtdıq!"

Beləliklə, I dünya müharibəsində islamın bədəninə elə dəhşətli yaralar vurdular, elə dolaşıq planlar hazırlayıb icra etdilər ki, indiyə kimi islam dünyası bu dolaşıqlıqlardan və qarışıqlıqlardan xilas ola bilmir.

Osmanlının zamanında sionistlər bütün var qüvvələri ilə yəhudiləri dünyanın hər yerindən köçürüb Fələstində yerləşdirməyə çalışırdılar. Ancaq buna nail ola bilmədilər. Dünya sionistlərinin ruhani və siyasi xadimi Teodor Hertsel, 1895-ci ildə "Yəhudi dövləti" kitabını çap etdirdikdən və Şveçariyanın Bazel şəhərində sionistlərin I qurultayını təşkil edəndən sonra 1897-ci ildə Sultan Əbdülhəmidlə görüşmüş və təklif etmişdir ki, 30 milyon lirə sterlinq müqabilində ingilis yəhudilərinin Fələstinə köçürülməsinə icazə versin. Sultan Əbdülhəmid bu təklifi qəti şəkildə rədd etmiş və demişdir: "Mən yəhudilərin Fələstinə sahib olmalarına icazə verə bilmərək, əgər milli yəhudi dövləti yaratmaq istəyirsinizsə, Afrikada geniş ərazilər var, gedin, orada yaradın". Sultanın rədd cavabından sonra yəhudilər, formasonlar və daşnaklar Sultan Əbdülhəmidə qarşı mübarizəyə başladılar... (113, 268).

Qərbin müstəmləkəçi dövlətləri Osmanlı imperiyasını yox etmək üçün heç nədən çəkinmirdilər. Ancaq onlar Osmanlıda yaşayan milli azlıqları Sultan Əbdülhəmidə qarşı təhrik etmək üçün daha çox pullar xərcləyir və səylər göstərirdilər.

Çox keçmədi ki, Osmanlı dövləti ağır xəstə kimi yatağa düşdü. Rusiya, İngiltərə və Fransa acgöz və həris mirasçılar kimi, onun ətrafına toplaşdılar. Onların hər biri Osmanlıdan daha yağlı bir tikə qoparmaq ümidində idi.

Rusiya köhnədən İstanbulu ələ keçirmək və onun adını dəyişərək, Çarqrad qoymağı düşünür və bunu ortadoks xristianlığının müdafiəsi adı altında pərdələyirdi. Çar həm də cənubda dənizə açılmaq fikrində idi. Ancaq Rusiya diplomatiyası Avropa məsələlərində özünü Osmanlıda yaşayan xristian ortadoks azlıqların himayəçisi kimi təqdim edirdi. Hər zaman Hindistan yollarının qorunması və qayğısını vurğulayan İngiltərə isə, ona diqqət yetirirdi ki, Osmanlı imperiyası dağılandan sonra bu imperiyanın torpaqları elə bölünsün ki, qüvvələr nisbəti pozulmasın, başqa sözlə desək, o, rəqiblərindən geri qalmasın. Qədimdən Aralıq dənizi və onun sahillərini işğal etmək istəyən Fransa isə, ciddi-cəhdlə çalışırdı ki, Osmanlının, o zaman da xüsusi strateji önəm daşıyan və həlledici olan Asya ərazilərini öz nüfuz dairəsinə daxil etsin.

Beləliklə, Avropanın işğalçı dövlətləri, "məzlum xristian bacı-qardaşlarını azad etmək və onlara kömək göstərmək" adı altında əllərindən gələni edirdilər (116 Jan, 25-27).

Cənub-şərqi Avropanı işğal etmək istəyən ruslar, məqsədlərindən biri olan Bolqarısanı əldən verəndən sonra onun yerinə başqa bir ölkəni işğal etməkdən ötrü Osmanlı

dövlətində pozuculuq fəaliyyətlərini daha da genişləndirdilər. Onlar, o vaxta qədər Osmanlının üzünə ağ olmamış, öz dinlərini və adət-ənənələrini qoruyub saxlamış erməniləri öz tərəflərinə çəkməyə başladılar (37 Es, 344-346).

J.M.Karzu yazır ki, dini azlıqların, o cümlədən, ermənilərin həyat tərzi və rifahı heç vaxt təhlükə altında olmamışdır (116, 25-27).

Estanford Ci Şava görə, Bizans inperatorluğu, onun davamı dövründə, eləcə də, XI əsrdən başlayaraq, türklərin Anadoluda yerləşməsindən sonra 1882-ci ilə qədər ermənilər pərakəndə bir halda imparatorluğun hər yerində kiçik azlıqlar şəklində yaşayırdılar. Erməni əhalisi hətta, milliyyətçilərin sonradan özlərinə aid etdikləri 6 vilayətdə belə azlıqda idilər. Ermənilər, nəinki bir vilayətdə, hətta heç bir qəzada, rayonda və kənddə əhalinin əksəriyyətini təşkil etmirdilər və azlıq vəziyyətində idilər. Onlar əsas şəhərlərin ətrafında kənd təsərrüfatı ilə məşğul olan türk, yaxud kürd müsəlman əşirətlərin yanında pərakəndə bir şəkildə yaşayırdılar. Bu ermənilərin vəziyyəti başqalarının vəziyyətindən heç də pis deyildi. Mövcud olan iqtisadi və ictimai çətinliklər hamı kimi, ermənilər üçün də dövlət nəmurlarının və böyük torpaq sahiblərinin ənənəvi münasibətlərindən qaynaqlanırdı. Ermənilər də, Osmanlının digər təbəələri kimi, azad idilər və istədikləri kimi yaşayırdılar. Onların özlərinə məxsus kilsələri, məktəbləri və xəstəxanaları var idi. Ermənilər arasında heç bir diqqətəlayiq narazılıq mövcud deyildi.

Ermənilər həmişə Osmanlının ticarət və sənayesində əhəmiyyətli yerə sahib olmuşlar. Bundan başqa, yunan inqilabından sonra imperatorluğun ərazisində qalan yunan-

ların çoxu mədrəsələrdəki və dövlət orqanlarındakı vəzifələrindən kənarlaşdırıldılar və onların yerinə ermənilər təyin olundu (37, 342-346). Bu ermənilər xarici dil və maliyyə işlərini bilmələri, ticarət təcrübəsinə sahib olmalarına görə, Tənzimatın bütün dəqiq və dolaşıq strukturlarında, xüsusən də, təlim-tərbiyə, ədliyyə, sosial, poçta-teleqraf, əhalinin siyahıya alınması, dəmir yolu sahələrində mühüm postlarda çalışırdılar (37, 345-348). Doktor Huma Natiqinin yazdığına görə, fransız nümayəndələrindən biri and içmişdir ki, vilayətlərin idarəçiliyi türklərin deyil, erməni bankirlərinin əlindədir. Onların gücü bir çox cəhətlərinə görə, Fransanın böyük inqilabı dövründəki sərrafların gücü ilə eynidir. Vilayələrin hakimləri və paşalarının hamısı, divanın tyul[72] vergisini ödəyə bilmədiklərinə görə, məcburən ermənilərin yanına gəlir və onlardan böyük miqdarda kreditlər götürürlər. Bu üzdən də bu bamkirlər, dövləti və milləti özlərinin əsiri etmişlər. Onlar hətta kəndlilərdən, dövlətin təyin etdiyindən artıq vergilər alırlar. Hiyləgər və gözüaçıq ermənilər, bütün sənaye emalatxanalarını öz əllərinə almışlar. Onlar sərvəti və maliyyə məsələlərini öz əllərində cəmləmişlər. Əgər ermənilər azca uzaqgörən və siyasi idraka sahib olsaydılar, qərblilərin təhriki ilə öz köklərini qazımazdılar.

... Açıq-aydın görmək olar ki, Osmanlının sərvətinə sahib olmaq üçün pusquda duranlar dəfələrlə yazmış və etiraf etmişdilər ki, ermənilərin Osmanlıdakı üstün mövqeləri, Qərbin bu ölkədəki iqtisadi və siyasi uğurları qarşısında ən böyük maneədir. Əslində, ermənilərin həqiqi düşmənləri

---

[72] Tyul-hakim və paşalara ayrılan torpaq və mülk

türklər deyil, onların Osmanlı dövləti və xalqı ilə münasibətlərini düşmənçilik səviyyəsinə gətirmiş qərblilərdir. Əgər ermənilər azca uzaqgörən və siyasi anlayışa sahib olsaydılar, saxta xristian şüarları dalıca qaçmaz, özlərinin Osmanlıdakı, bütün dünyanın qibtə etdiyi üstün mövqelərini daha da möhkəmlədərdilər (82, 234).

Ancaq Serbiyanın və Bolqarıstanın müstəqillik qazanması ilə ermənilərin çoxu müstəqillik xülyasına qapıldılar, rusların, xüsusən də, erməni milliyyətçilərinin təşviqi ilə bu yöndə Esiyasi fəaliyyətə başladılar (37, 345-348). Halbuki, Anadolu Osmanlının qəlbi idi və imperiyanın digər müstəmləkə ərazilərindən fərqlənirdi. Həm də Yunanıstan, Bolqarıstan, Livan, Krit adası Osmanlıdan ayrılmışdı. Anadoluda türkdilli və türk əsilli insanlar yaşayırdılar. Ona görə də Anadoluda güclənən erməni məsələsi, Osmanlının hər hansı bir müstəmləkəsində uğur qazanmaq və ya müdafiə məsələsi deyildi. Anadoludakı böhran Osmanlı üçün həyat məsələsi idi. Sultan Əbdülhəmidin 1899-cu ildə dediyi kimi, Anadoluda ancaq biz qalmalıyıq; şükürlər olsun ki, biz hər yandan qovulan müsəlman qardaşlarımız üçün son sığınacağımızı qoruyub saxlaya bildik (116, 86).

Ermənilər, Anadoluda erməni çoxluğunun olmadığı bəzi əraziləri Türkiyədən ayırmaq və erməni dövləti yaratmaq məqsədlərinə çatmaqdan ötrü hər bir yola əl atırdılar. "İslam dünyası" qəzetinin yazdığına görə, aydın sənədlərdən başqa biri də dünya erməni ideoloqlarının işğalçılıq planlarıdır. Bu planlar erməni keşişi və onların müxtəlif cəmiyyətlərinin rəhbərləri tərəfindən 1919-cu ildə imzalanmış və Laha sülh konfransına təqdim edilmiş bir məktubda öz əksini tapmışdır. Bu məktubda Osmanlının 6 vilayətinin

ayrılaraq, onlara verilməsi tələb olunurdu. Halbuki, bu vilayətlərdə 4,5 milyon nəfər müsəlman və yalnız 6500 nəfər erməni yaşayırdı (125).

Ermənilər Avropadakı təhrikçilərinə hesabatlar verirdilər. M.S.Ordubadinin yazdığına görə, bir çox ermənilər hər ayın əvvəlində Londona, Parisə və Amerikaya gedir və hesabat aparırdılar. Xüsusən, İngiltərənin göstərişi ilə ermənilər, özlərinə Osmanlı daxilində muxtariyyət yaratmaq üçün dəridən-qabıqdan çıxırdılar. Ancaq 1862-1888-ci illərdə ermənilərin, xüsusən, Samsun, Van və Zeytunda qaldırdıqları silahlı üsyanda çoxlu tələfat vermələri onları məcbur etdi ki, yenidən İngiltərədən çarə istəsinlər. İngiltərə isə son dəfə onlara xatırlatdı ki, Britaniyanın Colandakı hərbi gəmilərinin əli Anadolunun dağlarına çatmaqda acizdir. Britaniyanın bu cavabından sonra ermənilər muxtariyyət tələbindən vaz keçdilər. Türklərlə döyüşlərdə çoxlu itkilərə məruz qalan ermənilər, katalikos Mkrtıçı Almaniyaya göndərdilər. Geri qayıdan Mkrtıç, alman hökumətinin "İndi qılınc zamanıdır!" mesajını ermənilərə çatdırdı. Bundan sonra ermənilər Türkiyədə "Daşnaksütun" partiyasını yaratdılar. Hadisələri diqqətlə izləyən Türkiyə dövləti, Mkrtıçı Qüdsə sürgün etdi və "Daşnaksütun" partiyasının Türkiyədə inkişaf etməsinə imkan vermədi. Bu partiyanın Türkiyədə bir iş görə bilməyəcəyini başa düşən ermənilər, onun fəaliyyətini Qafqaza köçürdülər. Onlar Tbilisidəki erməni-müsəlman sülh konfransında bu partiya haqqında məlumat verdilər.

1878-ci ildə türklərlə ruslar arasında baş vermiş müharibədə fəallıq nümayış etdirmiş erməni polkovnik Loros Melikov belə bir iddia qaldırdı ki, Eçmiadzinin (Üç müəz-

zin) yaxınlığında yeləşən xaraba Ani şəhəri, guya, nə vaxt-sa erməni dövlətinin paytaxtı olub və onu tələb etməyə başladı. Əslində, bu ideyanın müəllifi erməni yazıçı Arseruni idi. O, Türkiyədəki şəraiti görmüş, oradakı problemləri ölçüb-biçmiş və bu ideyanı ortaya atmış və ermənilərin Türkiyədən Qafqaza köçürülməsini məsləhət bilmişdi. Ermənilər Qafqaza köçürüldükdən sonra dünyasını dəyişən Arseruni, ölməmişdən qabaq Rusiyanın I Dumasının gələcək erməni deputatı Bahadurovu öz yerinə seçmişdi. Bahadurov, Arseruninin vəsiyyətlərini və təlimini icra etməyə başladı. O, sonunda erməni-müsəlman qırğını törətməyə nail oldu və dumaya üzv seçildi. Bahadurov, Peterburqa yola düşəndə Dumada ifadə etməkdən ötrü Arseruninin sifarişlərini özü ilə bərabər götürür. Bahadurov erməni-müsəlman müharibəsi törətməklə, Bakı vilayəti, Gəncə vilayətinin düzənlik ərazisinin müsəlmanlara, İrəvan vilayəti və Gəncənin yaylaq və dağ regionlarını isə ermənilərə verilməsi və onların Qars əyalətinə birləşdirilməsi ilə bu ərazidə erməni dövləti yaradılması tələbi ilə çıxış etdi.

Buna qədər və bu arada Qarsda ermənilər arasında xüsusi təbliğat aparmışdılar ki, ruslar ermənilləri, əsgərliyə cəlb edəcəklər. Təbii ki, bundan qorxuya düşən ermənilərə buradan Qafqaza köçmək məsləhət görülürdü.

Analoji təbliğat Qafqazda da aparılırdı və müsəlmanlara tövsiyyə edilirdi ki, onlar İrana köçsünlər.

Təbii ki, istər Qarsda, istərsə də Qafqazda aparılan bu kampaniya nəticəsiz qalmırdı (OV, 138).

Avropa dövlətləri, erməni millətçilərinin muxtariyyət, hətta müstəqillik tələblərinə biganə qalanda, daşnaqlar, erməniləri və müsəlmanları bir-birinə qarşı qoyaraq, toqquşmalar

törətməklə Britaniya və Rusiya dövlətlərinin diqqətlərini bu məsələyə yönəltməyə başladılar ki, onlar müdaxilə etməyə məcbur olsunlar. Ermənilər, Osmanlı məmurlarının milli düşüncələrini qızışdırmaqla, Sultanın ermənilərə etimadını zəifləməyə səy edirdilər. Türkiyənin şərqində təşkil edilmiş inqilabçı, əslində isə, soyğunçu və quldur erməni dəstələri vergi, poçta, məhkəmə məmurlarına hücumlar edir, yerli əhalini soyur, əziyyət verir, kütləvi qırğınlar törədirdilər. Erməni dəstələri, erməni kəndliləri və tacirləri arasında elə bir qorxu yaratmışdılar ki, hər kəs canının qorxusundan onlara sığınacaq verir, ərzaq və s. ilə təmin edirdi. Bu quldur dəstələrindəki ermənilər say etibarı ilə çox deyildi, erməni əhalisinin əksəriyyəti dövlətin tərəfində dururdu. Bundan əlavə, Sultan Əbdülhəmidin siyasəti erməni quldur dəstələrinin geniş fəaliyyətinə imkan vermirdi. Buna baxmayaraq, uzun illər sülh şəraitində yaşamış erməni və müsəlmanların qarşılıqlı etimadlarını qorumaq getikcə çətinləşirdi (37, 348-349).

Bizim məqsədimiz erməni-Osmanlı toqquşmalarını tam şərh etmək deyil, sadəcə olaraq, Osmanlıda yaşamış bəzi ermənilərin Qafqaza, o cümlədən də, Qarabağa köçmələrinə aydınlıq gətirmək niyyətindəyik. Erməni-müsəlman qarşıdurmalarında Ramsaunun, Estanford Ci Şav və Ezəl Kural Şavın apardıqları elmi tədqiqatlar diqqətəlayiqdir. Ramsau yazır ki, bu dövrdə Osmanlı imperatorluğunun başqa xalqları kimi, ermənilər də milli oyanış yaşayırdılar. Bir çox erməni ölkəni tərk edib, xaricə üz tutur və orada müstəqil bir erməni dövləti qurmaq planları üzərində çalışırdılar. Osmanlının daxilində də inqilabçı erməni qrupları fəaliyyət göstərirdilər. Dağınıq toqquşmalardan sonra ermənilər 1894-cü ildə genişlənən bir qiyam hazırlığı

görməyə başladılar. Onlar, türklərin bu qiyama görə onları bağışlamayacaqlarını və kəskin reaksiya verəcəklərini bilirdilər. Buna baxmayaraq, ermənilər, Avropa dövlətlərinin diqqətlərini öz tələblərinə cəlb etməkdən ötrü çoxlu qurbanlar verməyə hazır idilr.

Estenlerə görə, güc mübarizəsində həm osmanlılar, həm də ermənilər böyük dövlətlərin əllərində bir vasitə kimi istifadə olunurdular (37, 368-369).

1894-cü ildə bir qrup erməni terrorçusu, İtanbulun Qalata məhəlləsində yerləşən "Osmanlı" bankına hücum etdilər və bir neçə nəfər itki verdilər. Əslində, terrorçuların məqsədi bankın bütün əməkdaşlarını öldürmək və xaricilərin diqqətlərini cəlb etməkdən ötrü bankı bir müddət işğal etmək idi. Türk hökuməti, daha çox qan tökülməsinin qarşısını almaqdan ötrü o terroristlərin ölkədən xaricə getmələrinə imkan verdi. Ancaq bu arada 2 gün müddətində yerli əhali İstanbulun küçələrində 5-6 min ermənini qətlə yetirdi. Belə məlum olurdu ki, ölürənlər əvvəlcədən təşkilatlandırılmış və vəzifələndirilmiş şəxslər olmuşlar. Çünki bu qətllərdə digər azlıqların nümayəndələrinə toxunulmamışdır. Bu zaman hökumət də özünü elə aparırdı ki, sanki, heç bir şey olmamışdır (99, 333).

Pasdar Maçiyanın yazdığına görə, 1894, 1895 və 1896-cı illərdə Osmanlıda 150 min nəfər erməni öldürülmüş, 60 min nəfər erməni isə Zaqafqaziyaya mühacirət etmişdir (53, 412-413). Helen Karer Dankus isə Osmanlıdan Qafqaza köçən ermənilərin sayının 500 min nəfər olduğunu yazır (195). Ancaq X.D.Xəlilov, bu barədə daha dəqiq məlumat verərək, yazır ki, 1828-1830-cu illərdə çarizm Türkiyədən bütövlük-

də 84 min 600 nəfər ermənini Zaqafqaziyaya köçürmüş, onları, Qarabağın, İrəvanın, Borçalının, Axalxalakinin və Axaltesxisin ən gözəl yerlərində məskunlaşdırmışdır. Ermənilər təkcə Qarabağ bölgəsində deyil, Göyçə gölündən başlamış, bütün dağlıq ərazilərdə yerləşdirilmişlər.

Əvvəl Qarabağın dağlıq ərazilərinə 124 min nəfər, daha sonra qeyri-rəsmi şəkildə çoxsaylı erməni köçürüldü. 1828-1839-cu illərdə bütövlükdə 200 min nəfər erməni Dağlıq Qarabağa köçürülmüş oldu. Krım müharibəsi zamanı da xeyli sayda erməni Zaqafqaziya regionuna köçdü. Təəssüflər olsun ki, onların sayı haqqında məlumat yoxdur. 1877-1879-cu illərdə rus-Osmanlı müharibəsi dövründə də Türkiyədən Zaqafqaziyaya erməni köçü fərdi və ailələr şəklində daim davam edirdi. Ermənilərin Zaqafqaziyaya ən mütəşəkkil mühacirətləri 1893-1894-cü illərdə baş vermişdir. O zaman Zaqafqaziyaya köçən ermənilərin sayı 900 min nəfərə çatmışdır. 1908-ci ildə Zaqafqaziyadakı mühacir ermənilərin sayı 1 milyon 300 min nəfər olmuşdur. Çarizm onlardan 1 milyon nəfərini xarici ölkələrdən köçürmüş və burada yerləşdirmişdir.

1897-ci ildə əhalinin siyahıya alınması zamanı 54841 ailə Qarabağda yaşayırdı. Onlardan 29350 ailə türk, 6351 ailə erməni, 193 ailə rus, qalanlar, digər müxtəlif xalqlardan olan ailələr idilər.

Mənbələr XX əsrin əvvəllərində bura köçürülən ermənilərlə yerli ermənilər arasında ciddi maddi və mənəvi fərqlər olduğu barədə ətraflı məlumat vermişlər. Yerli ermənilər, mühacir ermənilərin dillərini çətinliklə başa düşürmüşlər. Onların, hətta, geyimləri də bir-birindən fərqlənirmiş. Mühacirlər yerli ermənilərin dillərini mənimsəmişlər (79, 18).

## QARABAĞ ÇARİZMİN HAKİMİYYƏTİNDƏ

Qafqaz, Rusiyaya ilhaq ediləndən sonra buranın əhalisi yeni bir şəraitlə üzləşdi və insanlar fərqli bir tale yaşamağa başladılar. Müsəlmanların bir hissəsi yeni şəraiti qəbul etməyib, Arazın cənubuna köçdülər. Çünki burada çarizmin yeritdiyi siyasət müstəmləkə siyasəti idi. Bununla bağlı Aliyə Erfei yazır ki, Azərbaycanın, eləcə də, bütün Zaqafqaziyanın Rusiyaya birləşdirilməsi Azərbaycanın ənənəvi həyat tərzində aşağıdakı dəyişiklikləri yaratdı:

- Feodalizm və xanlıq üsuli-idarəsinin zəifləməsi;
- Azərbaycanın ruslaşdırılması;
- Regionun məhdud şəkildə sənayeləşdirilməsi;
- Şəhərləşmə, Bakı, Tiflis və Gəncənin inkişafı;

Ruslaşdırma, öz növbəsində yeni və yarımçıq siyasiləşməyə gətirib çıxardı ki, rus standartları gücləndi və hakim mövqe qazandı.

Rus işğalının başqa təsirləri Zaqafqaziya əhalisinin milli strukturunda da özünü göstərdi. İrandan, xüsusən, Osmanlıdan ermənilərin Zaqafqaziyaya köçürülməsi İrəvan və Naxçıvanda erməni əhalili məntəqənin yaranmasına səbəb oldu. O zamankı statistikanın araşdırılması göstərir ki, regionun rus ordusu tərəfindən işğalına qədər Ermənistanın şərqində erməni əhali 20 %, müsəlman əhali isə 80 % təşkil edirdisə, işğaldan sonra Osmanlı və İrandan bura 57 min nəfər ermənin köçürülməsi, eləcə də, ərazidən 35 min nəfər müsəlmanın çıxarılması ilə buradakı əhalinin 50 %-i ermənilərdən ibarət oldu (144 Qəziy, 162).

Ruslar, Qafqazdakı qələbələrini sabitləşdirməkdən ötrü, buradakı ermənilərin sayını mümkün qədər artırmağa çalışırdılar. Məqsəd bu regionda öz güclü hakimiyyətlərini bərqərar etmək idi. Ona görə də İranla bağlanan "Türkmənçay", Osmanlı ilə bağlanan "Adryanapol" sülh müqavilələrində, ermənilərin bu ölkələrdən Qafqazdakı işğal olunmuş ərazilərə köçürülməsinin rəsmən tanınması nəzərdə tutulmuşdu. Başlanğıcda ruslar bu məsələdə elə tələsirdilər ki, hətta Urmiya və Salmasdakı köçmək istəməyən erməniləri belə zorla köçməyə vadar edirdilər. Onları Qafqazda qəsdən azərbaycanlıların yaşadıqları yerlərdə yerləşdirirdilər. Eyni zamanda, ruslar, azərbaycanlıları, öz milli kimliklərindən qopartmaq üçün bütün vasitələrə əl atırdılar. Onlar azərbaycanlıları tatar adlandırırdılar. Ruslar, ermənilərdən başqa, xoxolları və malakanları da Rusiyadan Azərbaycana köçürür, onların işlərini asanlaşdırmaqdan ötrü mühacir büroları yaradırdılar.

Ruslar Gəncə regionunda Holendrof, Malakan, Slavyanka, və s. adlarla xristian yaşayış məntəqələri yaratdılar. Ruslar, azərbaycanlıları orduda xidmətə götürmürdülər. Çünki Şərq tarixində əsrlərcə ən güclü hərbi gücə malik olmuş azərbaycamlıların yeni hərbi təlimləri mənimsəyərək, öz vətənlərini və milli kimliklərini müdafiəyə qalxacaqlarından qorxurdular (175, 68).

Qarabağ əhalisi haqqında rəsmi məlumat verən ilk çar hakimiyyəti mənbəsi 1805-ci ilə aiddir. Burada Qarabağda təqribən, 10 min ailənin yaşadığı qeyd olunur. Belə aydın olur ki, İran-Rusiya müharibəsinin təsiri ilə bu regionda əhalinin sayında azalma baş vermiş və bu rəqəm 1808-ci ildə azalaraq, 7474 ailəyə düşmüşdür. 1823-cü ildə burada

əhalinin sayı 200 min 950 nəfər olmuşdur. Onlardan 1523 ailə şəhərlərdə, 18563 ailə isə kəndlərdə yaşamışlar. Bu ailələrdən 4366 ailə erməni, 15729 ailə azərbaycanlı olmuşdur. Yəni 20 min 95 ailədən beşdə biri erməni, beşdə üçü isə azərbaycanlı ailəsi olmuşlar. 1828-ci ildən ermənilərin Qarabağa icbari köçürülməsi buradakı ermənilərin sayını artırmışdır (129, 156).

Bütün bunlara baxmayaraq, rusların 1832-ci il əhalinin siyahıya alınmasının nəticələrinə görə, Qarabağda yaşayan azərbaycanlılar əhalinin 68,8 %-ni, ermənilər isə 31,2 %-ni təşkil etmişlər (168, 64).

1804-1826-cı illərdə Gəncə, Bakı, Quba, Qarabağ, Şirvan, Şəki və Talışda xanlıq üsuli-idarələri ləğv edildi. Xanların bir çoxu, İran şahının köməyi ilə, öz hakimiyyətlərini yenidən bərpa etməkdən ötrü İrana qaçdılar. Çar hökuməti bu vəziyyətdən istifadə edərək, xanların torpaqlarını müsadirə etdi. Çarizm, xanlıq üsuli-idarəsini silahlı (idari, hərbi, təhlükəsizlik) idarəetmə ilə əvəz etdi. Xanlıqlar əyalətlərə və dairələrə bölündülər. Dairələrdən çoxu bir sərkərdəyə tabe edidi. Onu müsəlman əyalətlərinin rəisi adlandırırdılar. Qarabağ əyalətinin rəisi iqamətgahı Şuşada yerləşirdi. Başqa əyalətlər də Dərbənd əyalətinin hərbi idarəsinin rəisinə tabe idilər.

Qafqaz əyalətlərinin idarəçiliyi isə ordu komandanları tərəfindən həyata keçirilirdi. Ona görə də bu idarəçilik sisteminə komandanlıq idarəçiliyi deyilirdi.

Əyalətlər, keçmişdə olduğu kimi, ərazilərə bölünürdü. Bu ərazilər bəylərdən təyin olunan naiblər tərəfindən idarə edilirdi. Kəndlərin idarəçilikləri isə kəndxudalara aid idi.

Şəki və Qarabağda əyalət məhkəmələri fəaliyyət göstərirdilər. Onların kollegiya rəisləri komandanlar olurdu. Bakı, Quba və Gəncədə şəhər məhkəmələri mövcud idi. Xanlıq idarəçiliyi dövründəki göz çıxarılması, əl, qulaq, burun və digər bədən üzvlərinin qəsilməsi kimi dəhşətli cəza tədbirləri ləğv olundu. Əyalətlərin evlənmə, nikah, vərəsəlik və s. kimi mülki işlərinə dini liderlər olan qazilər baxırdılar.

Çarın komandanları və digər məmurları əhaliyə misli görünməmiş zülmlər edirdilər. Onlar insanların dövlət xəzinəsinə ödədikləri vergilərlə kifayətlənmir, istədikləri əmlakı müsadirə edir və yeni vergilər müəyyənləşdirirdilər (44, 177).

Çarizm, Qafqazı işğal etdiyi ilk gündən gözlərini onun təbii sərvətlərinə dikmişdi və onlardan öz məqsədləri üçün istifadə etməyə çalışırdı.

Mübaşir idarəçiliyi çarizmin ümidlərini doğrultmadı və o, 1830-cu illərin sonlarından yeni inzibati idarəçilik layihəsinin icrasına başladı.

Çar məmurları belə hesab edirdilər ki, mübaşir idarəçilik üsulunun ləğvi narazı xalqın o vaxta qədər baş vermiş iğtişaşlarının qarşısını alacaqdır.

Bu islahatın məqsədi çarizmin Qafqazda möhkəmləndirilməsi idi. 1840-cı ildə Qafqazda yeni qanunlar tətbiq olunmağa başladı. Yeni qanunlara görə, mübaşir idarəçiliyi aradan qalxdı. Qafqaz iki regiona bölündü: Gürcüstan və mərkəzi Şamaxı olan Xəzər sahili ərazilər. Bu bölgü ilə Qarabağ  Xəzər sahili vilayətə daxil oundu. Yeni idarəçilikdə köhnə məmurların yerinə ruslar təyin olundular.

Çarın göstərişinə əsasən, Qafqazın şəhərlərində rus məktəbləri təsis edildi. 1840-cı ildə bu qəbildən olan bir

məktəb Şuşada açıldı. Sonralar Şəki, Bakı, Gəncə, Şamaxı və Naxçıvanda da belə məktəblər fəaliyyətə başladılar. Bu məktəblərdə rus və Azərbaycan dilləri, coğrafiya, ilahiyyat elmləri və s. tədris edilirdi. Çarizm, bu məktəblərin vasitəsi ilə öz müstəmləkələrinin idarəçiliyində işləmək üçün münasib kadrlar hazırlamaq istəyirdi. Ancaq burada dərs deyən yerli müəllimlər öz milli mədəniyyətlərini inkişaf etdirməyə çalışırdılar.

Eyni zamanda, Azərbaycanda köhnə məktəblər və mədrəsələr də qalmaqda davam edirdi. 1858-ci ildə təkcə Şamaxıda bu məktəblərin sayı 299 idi. Onlarda 4700 nəfər şagird təhsil alırdı (96, 12).

Hələ 1822-ci ildə Qarabağda xanlıq idarəçilik üsulu ləğv olundu. 1841-ci ildən qəza mərkəzinə çevrilən Şuşa şəhəriˀ 1846-cı ildən Bakı, 1867-ci ildən isə Gəncə hərbi dairəsinin tabeçiliyinə verildi.

Şuşa qəzası Mığrı, Kəbirli, Zəngəzur, Cavanşir, Çiləyurd, Vərəndə məntəqələrinə bölünürdü. 1867-ci il dekabr ayında verilən fərmana əsasən, Zəngəzur və Cavanşir Şuşa qəzasından ayrılaraq, müstəqil qəzalara çevrildilər.

Şuşa qəzasını qəzanın rəisi, onun müavini, xəzinədar, məntəqə nümayəndələri və şəhər polisi idarə edirdilər. Şuşada məhkəmə fəaliyyət göstərirdi. O zaman Şuşanın ərazisi 4911 $km^2$, əhalisi isə 14074 nəfər idi. Şuşa qəzası 1929-cu ildə ləğv olundu.

1871-ci ildə Xurşidbanu Natəvan öz vəsaiti hesabına boru vasitəsi ilə Şuşaya su çəkdirdi və “Xan qızı bulağı”nı yaratdı.

XIX əsrin ortalarında Azərbaycanda kapital qoyuluşunun artması Şuşa iqtisadiyyatına öz təsirini göstərdi. Bu əsrin II yarısından başlayaraq, Şuşada sənaye emalatxanaları fəaliyyətə başladı. Bu, şəhərin əhalisinin artmasına səbəb oldu. 1886-cı ildə Şuşada artıq 25 mindən artıq əhali yaşayırdı. XX əsrin astanasında isə bu rəqəm 40 minə çatmışdı. Bu minvalla, Şuşa şəhəri, Tbilisi və Bakıdan sonra Qafqazın III böyük şəhəri hesab olunurdu (169, 96).

1879-cu ilin yayında taxıl və ərzaq çatışmazlığı üzündən Şuşada çörək problemi yarandı. Şəhərin o zamankı bələdiyyə sədri Ə.X.Gəncəlinin dediyinə görə, unun hər pudunun[73] qiyməti 2 manat 89 qəpik oldu. Un qıtlığı səbəbindən şəhərdə fəaliyyət göstərən çörək və lavaş sexlərinin əksəriyyəti fəaliyyətlərini dayandırdılar. Şəhərdə aclıq başladı. Gün-gündən çörək dilənənlərin sayı artırdı. Həmşəhrlərinin acınacaqlı vəziyyətlərini görən Xurşudbanu Natəvan, yoxsullara kömək etmək və onları aclıqdan xilas etməkdən ötrü, şəhərin zəngin bəylərini və tacirlərini Xan sarayına dəvət etdi. Yoxsulların xeyrinə onlardan pul və taxıl topladı. Xan qızının səyləri nəticəsində 15 çuval taxıl, 50 pud un və 1617 manat pul toplandı. Natəvanın özü 150 manat pul ianə elədi.

Beləliklə, şəhər əhalisi qışı bir təhər başa vurub, yaza çıxdı. Ancaq 1880-cı il daha da dəhşətli oldu. Quraqlıq bütün Qarabağı bürüdü. Həmin il nə meyvə, nə də taxıl olmadı. Nəticədə mal-heyvanlar sürü-sürü tələf oldular. 2 il ardıcıl davam edən quraqlıq şəhər əhalisini müsibətə düçar etdi.

---

[73] Pud- 16 kg-a bərabər çəki vahidi

1880-cı ilin qışında aclıq yenidən baş qaldırdı. Qışın sərt soyuğu aclığı daha da şiddətləndirirdi. Bu fürsətdən istifadə edən möhtəkirlər və tacirlər unun qiymətini daha da qaldırırdılar. Şəhərdə aclıqdan ölənlərin sayı gün-gündən artırdı. Şəhər xeyriyyə cəmiyyətinin payladığı 3817 manat yardıma baxmayaraq, vəziyyət yenə də vahimə doğururdu.

Bir çox ailələr ev-eşiklərini tərk edərək, uzaq yerlərə köçməyə məcbur olurdular. Təkcə yoxsullar deyil, sənətkar və tacirlər də aclığa dözə bilmir və baş götürüb taxıl yetişən kəndlərə qaçırdılar (142, 18).

XIX əsrin II yarısında iqtisadi təkamül və onunla birlikdə baş verən kəndli üsyanları münbit inqilabi şərait yaratdığından, çar hökumətini qorxudurdu. Bu üzdən 1861-ci ildə ağa-rəiyyət (təhkimçilik) qanunu ləğv olundu. Rusiyanın mərkəzi vilayətlərinin ictimai-siyasi vəziyyətlərindəki fərqlilik üzündən Qafqazdakı kənd islahatları çox gec işə düşdü. İslahat əvvəl Gürcüstanda baş verdi. Bu, insanların ona qarşı marağını bəlli bir ölçüdə artırdı.

Azərbaycanda islahatlar barədə məlumat ortaya çıxanda, yəni 1863-cü ildə Zaqatala-Car-Balakən regionunda böyük bir üsyan baş verdi. Bu üsyanın əsas səbəblərindən bəziləri yerli əhalinin icbari şəkildə xristianlaşdırılması siyasəti, ictimai münasibətlərdə dəhşətlli təbəqələşmə və böyük torpaq sahələri üzərində ədalətsiz şəxsi mülkiyyət hüquqları idi.

Qiyamçılar Zaqatala qalasını ələ keçirməyə çalışsalar da, müvəffəq ola bilmədilər və üsyan böyük bir amansızlıqla yatırıldı (44, 172).

Bütün üsyanların əsas səbəbi isə, çarizmin Qafqazda həyata keçirdiyi yanlış və mətiqsiz siyasəti idi. Bununla

bağlı Anahid Terminasyan yazır ki, Rusiyada həyata keçirilən təhkimçiliyin ləğvi qanununun, Qafqazın yerli xüsusiyyətlərini nəzərə almadan, burada tətbiqi rəiyyətin vəziyyətini dəfələrlə pisləşdirdi. 1864-cü il islahatları yalnız 1870-ci ildə Qafqazın mərkəzi və şərq regionlarını əhatə etdi. Bu ərazilərdə müsəlman əhali yaşayırdı və burada heç vaxt təhkimçilik qaydaları mövcud olmamışdır. Ancaq burada da torpaq sahibləri ilə rəiyyət arasında başqa problemlər var idi. Bu üzdən 1870-ci il islahatları kənd təsərrüfatında münasibətləri dəyişmədi. Müsəlman torpaq sahiblərinin gücü azalmadı. Müxtəlif tayfa, feodal və patriarxal ənənələri, eləcə də, çox dolaşıq mülkiyyət hüquqları rus idarəçiliyinə çətinliklər yaradırdı. Baş verən dəyişikliklər, quraqlıq ərazilərdə xüsusi əhəmiyyət daşıyan suyun bölgüsünə torpaq sahiblərinin nəzarətini aradan qaldırmadı. Ona görə də kəndlilərlə torpaq sahibləri arasında münaqişə üçün böyük zəmin hazırladı (46, 6).

Qafqazda müsəlmanların yaşadıqları ərazilərdə bir neçə üsyanlar baş verdi. Onların arasında Dağıstanda Şeyx Şamil üsyanı daha geniş vüsət aldı. Belə ki, Şeyx Şamil 24 il çar ordusuna müqavimət göstərdi. 1859-cu ildə Şeyx Şamil üsyanı yatırıldıqdan sonra tədricən Qafqazdakı bütün iğtişaşlar aradan qaldırıldı. Bununla da, bu region əməli olaraq, rus imperiyasının bir parçasına çevrildi.

Çarizm, Qafqazda hakimiyyətini möhkəmlətməkdən ötrü kəndlərdə və şəhərlərdə islahatlar həyata keçirmək məcburiyyətində idi. Bu islahatlar, torpaqsız kəndlilərin əksəriyyətini daha da narazı etdi. Ona görə də XIX əsrin sonlarında narazıların etiraz dalğaları yüksəldi və yenidən

üsyanlar başladı. Azərbaycanda bu üsyanlar azadlıq hərəkatlarına çevrildilər.

1878-ci ildə Quba nahiyəsində 120 nəfər ərbab və mübaşir öldürüldü. Bir çox kəndlərdə üsyançılar ərbabların əmlaklarını yandırır və məhv edirdilər. 1870-1880-ci illərdə Azərbaycanın Gəncə, Naxçıvan və digər vilayətlərində kəndli narazılıqları, çarın və feodalların əleyhinə silahlı mübarizəyə çevrildi (44, 207). Narazı insanlar ayrı-ayrı qruplar şəklində dağlara çəkilir və çarizmə qarşı döyüşürdülər. Xalq arasında çox sevilən belə insanlara "Qaçaqlar" deyilirdi. Azad Nəbiyev yazır ki, XIX əsrin II yarısında Azərbaycanda başlayan qaçaq hərəkatı, xalq hərəkatının mühüm bir hissəsini təşkil edir, getdikcə yeni bir mərhələyə qədəm qoyurdu. Bu hərəkat, ədalətsizliyə, özbaşınalığa, yerli feodal zülmünə, çarizmin pozucu siyasətinə qarşı yönəlmişdi. Bütün Azərbaycanı bürüyən qaçaq hərəkatı Molla Nur, Dəli Əli, Qaçaq Nəbi, Qaçaq Kərəm kimi çoxlu sayda mübariz qəhrəmanlar yetirmişdir. Xalq arasında onların şərəfinə mahnılar qoşulmuş, dastanlar yaradılmışdır (4, 3).

Azərbaycan şəhərlərində əhalinin saylarının artması, Bakıda neft sənayesinin yaranması böyük dəyişiklərə səbəb olur və çarizm buna uyğun olaraq, islahatlar həyata keçirməyə başlayır.

1868-ci ilin dekabr ayında çarın fərmanı ilə Qafqazın idarə olunmasında dəyişikliklər başlayır. Bəzi digər əyalətlərdə olduğu kimi, Yelizavetpolda (Gəncə) də əyalət hökuməti təşkil edilir, qəza mərkəzlərində isə polis idarələri yaradılır.

1883-cü ildə Qafqaz canişinliyi ləğv edilir və Qafqazın idarəçiliyi baş hərbi komandanlığa tapşırlır. Qafqazın digər

regionları kimi, Azərbaycanda da hərbi-polis rejiminin tətbiqində milli xüsusiyyətlər, yerli ictimai-iqtisadi özəlliklər nəzərə alınmırdı. İdarələr mürtəce və zalım çar məmurlarının yuvasına dönmüşdü.

1840-cı illərdə neft quyularının qazılmasında yeni üsullar tətbiq edildi. Bakıda ilk neft quyusu 1871-ci ildə qazıldı.

Çox keçmədi ki, ilk neft məhsulları investorlara bol gəlir gətirməyə başladı. Neft şirkətlərinin sayı gün-gündən çoxalırdı. Məsələn, 1873-cü ildə Bakıda cəmi 12 neft şirkəti var idisə, 1899-cu ildə onların sayı 140-a yaxın olmuşdu. Quyuların qazılması, neftin çıxarılması, buxar maşınlarından istifadə, çıxarılan neftin daşınması, neftin daşınması üçün maşınların istehsalı çoxlu investisiya və investor tələb edirdi. Rus iş adamları arasında belə investorlar yox idi. Xarici investorlar Bakı neftinə böyük maraq göstərirdilər. Onların arasında şveçariyalı Nobel qardaşları da var idi. Onlar 1879-cu ildə neft sənayesi şirkəti yaratdılar. Çox keçmədi ki, bu şirkət Bakıda öz mövqelərini möhkəmlətdi və neft sənayesini öz inhisarına aldı. Onun neftin emalı, daşınma vasitələri və anbarlama sahəsində müəssisələri meydana gəldi. Bu müəssisələrdə minlərlə fəhlə çalışırdı. 1880-ci ilin ortalarında Parisdən olan məşhur bankirlərdən Rudşile, Bakıda başqa bir inhisarçı neft şirkəti yaratdı. Sonralar ingilis şirkətləri də Bakıda fəaliyyətə başladılar.

Bakıda neft sənayesi sürətlə inkişaf edirdi. 1872-ci ildə burada 1,4 milyon pund[74] neft çıxarılırdı. 1901-ci ildə bu rəqəm 667,1 milyon punda çatdırıldı. 1898-ci ildə Bakı dün-

---

[74] Pund-0,45359249 kg-a bərabər ölçü vahididir.

yada çıxarılan neftin yarıdan çoxunu istehsal edirdi. Burada istehsal olunan neft məhsulları isə Rusiyada istehsal olunan analoji məhsulların 95 %-ni təşkil edirdi. Bakının əsas neft mərkəzləri Balaxanı, Sabunçu, Bibiheybət, sonralar isə Suraxanıda yerləşirdi.

O arada Azərbaycanda ilk banklar və bank təşkilatları meydana gəldi. Burada dəmir yolunun çəkilməsi, Azərbaycan iqtisadiyyatının çiçəklənməsində diqqətəlayiq əhəmiyyət daşıyırdı. Bakı-Tiflis dəmir yolu 1883-cü ildə istifadəyə verildi. Tezliklə Bakı-Balaxanı-Sabunçu-Suraxanı dəmir yolu xətti də işə düşdü. 1900-cü ildə Azərbaycan dəmir yolu xətti Rusiya xətti ilə birləşdirildi, rus investorlarının Qafqaz iqtisadiyyatına yaratdıqları çətinliklər artdı.

XIX əsrin II yarısında Xəzər gəmiçiliyi də sürətlə inkişaf edirdi. Dünyada neftin dəniz yolu ilə daşınması ilk dəfə Azərbaycanda baş verdi. Neft və digər malların, eləcə də, sərnişinlərin daşınması üçün çoxlu sayda gəmi istehsal olundu.

Bu arada Azərbaycanda rabitə sahəsində də tərəqqi baş verdi. 1860-cı illərdə Tiflis, Naxçıvan, Bakı, Gəncə, Şəki və digər şəhərlər arasında teleqraf xəttləri yaradıldı. Telefon xəttləri işə salındı.

Bütün bunlara baxmayaraq, o dövrdə Azərbaycan sənayesi qeyri-bərabər inkişaf edirdi, ölkə orta əsrlərdə olduğu kimi, geridə qalmışdı. Əhalinin əksəriyyəti kənd təsərrüfatı ilə məşğul idi.

Bu dövrdə Şuşada da ipəkəyirici sexlər quruldu. Məşhur Şuşa, Cəbrayıl və Gəncə xalçaları bütün dünyada daha

da məşhurlaşdı. 1872-ci ildə Şuşa xalçası Moskva sərgisində gümüş mükafata layiq görüldü. Şuşa şəhəri, Bakı, Şəki və Şamaxı kimi, ticarət sahəsində fəal iştirak edirdi.

Qafqaz əhalisi 1851-1897-ci illərdə 95 % artdı. Artım daha çox kəndlərdə baş verdiyindən, ona uyğun olaraq, kənd təsərrüfatı məhsullarının istehsalında da artım müşahidə olunurdu.

XIX əsrin sonları, XX əsrin əvvəllərində əhalinin kəndlərdən şəhərlərə üz tutması, eləcə də, iş tapmaq ümidi ilə bir çox insanların İrandan Qafqaza, xüsusən də, Bakıya gəlməsi nəticəsində Azərbaycanda şəhər əhalisi gün-gündən artırdı. Əhalinin artımı, xüsusən də, Bakı şəhərində sürətlə gedirdi. Belə ki, 1892-ci ildə burada artıq 113904 nəfər yaşayırdı. Bu say getdikcə daha da artırdı.

1846-cı ildə Xəzər sahili əyalətlər dairəsi ləğv olundu və onun yerində Şamaxı əyaləti yaradıldı. 1859-cu ildə Şamaxı şəhəri zəlzələ nəticəsində dağıldığından, əyalətin mərkəzi Bakıya köçürüldü. Bununla da, Bakının əhəmiyyəti daha da artdı.

Bu illərdə müxtəlif partiyalar yaradıldı, çoxsaylı qəzetlər nəşrə başladı. Bakıdakı İran mühacirləri də "Hümmət" və "Ədalət" kimi partiyalar yaratdılar. Bu partiyalar 1905-ci il rus inqilabında mühüm rol oynadılar.

## DAŞNAQSÜTUN PARTİYASI

Daşnaqsütun (Daşnaq) partiyası 1890-cı ildə Xristafor Mikailyan, doktor Jan Luris Məlikov, Simon Zavaryan və Konstantin Xatisyan tərəfindən Tiflisdə yaradıldı. Onun məqsədi "Böyük Erənistan" yaratmaq idi. Ermənilər bu məqsədə çatmaqdan ötrü hər cür ekstremist, avanturist və irticaçı təbirlərə əl atdılar.

Tahirzadə Behzad yazır ki, bu partiyanın rəhbərləri dəhşət saçmaq və qorxu yaratmaqla öz istəklərinə çatmaq istəyirdilər.

Partiyanın erməni yaşayan ölkələrdə şöbələri açıldı. Daşnaksütun millətçi bir nasist partiya kimi alman nasis partiyasından əvvəl meydana gəlmişdir (145, 169 ).

Erməni tarixçi Pasdar Maçiyanın atası bu partiyanın fəallarından olmuş, onun düşmənçilik törədən bir çox tədbirlərində və əməliyyatlarında iştirak etmişdir. Daşnak sözünün mənası müttəhid, müttəfiq olsa da, o, əslində, ingiislərin əlində oyuncaq olan terrorçu-inqilabçı bir partiya oldu, Türkiyə və İran dövlətlərinin və xalqlarının əleyhinə hər cür rəzilliklərə baş vurdu (113, 285).

Daşnaksütun partiyası, İngiltərənin planlarının və göstərişlərinin Rusiya, Osmanlı və İran ərazilərində icraçısı idi (79).

Partiyanın mərkəzi Tbilisidə yerləşirdi. O, burada "Druşaq" ("Bayraq") adlı rəsmi bir qəzet də nəşr edirdi.

Sonradan partiyanın mərkəzi Cenevrəyə köçürüldü. Partiyanın bayrağının üzərində "Ya azadlıq, ya ölüm!" şüarı yazılmışdır.

Daşnaq partiyasının ilk böyük işi 1896-cı ildə İstanbulda "Osmanlı" bankını ələ keçirmək, oranı 14 saat işğal edərək, bankın əməkdaşlarını girov götürmək olmuşdur.

Partiyanın 1892-ci ildəki ümumi yığıncağında onun əsas məqsədinin Osmanlı Ermənistanının siyasi və iqtisadi müstəqillik olması qərara alındı.

1907-ci ildə keçirilmiş IV ümumi iclasda isə patiyanın məqsədləri genişləndirilmiş, bunların Türkiyə və Qafqazda erməni muxtariyyatlarının yaradılması olduğu bəyan olunmuşdur.

1919-ci ildə İrəvanda təşkil edilmiş IX ümumi iclasında isə vahid və müstəqil Ermənistan dövlətinin yaradılması qərara alınmışdır.

Partiya, öz məqsədlərinə çatmaqdan ötrü, gah ruslar, gah kürdlər, gah gənc türklərlə müttəfiq olmuş, gah da kilsə ilə siyasi əhd bağlamışdır.

Daşnaq partiyası hər zaman ermənilərin milli hissləri ilə onları təhrik etmiş və "intiqam" anlayışını vurğulamışdır. O, türklər əleyhinə saxta dastanlar yaratmış və onu həyəcanlı bir şəkildə təbliğ etmişdir.

Ermənilər, Türkiyə, İran, Azərbaycan, Ermənistan və Rusiya ərazilərinin geniş bir hissəsində böyük Ermənistan yaratmaq xülyası ilə yaşamışlar. Bu xəyal kommunist rejimi dövründə də davam etdirilmişdir.

Daşnaqlar, Osmanlı rəhbərlərinə qarşı bir çox terror əməliyyatları həyata keçirmişlər. Bu əməliyyatlar 1920-ci ilin əvvəllərinə qədər güclü bir şəkildə davam etdirilmişdir.

Onlar, 1920-ci ildə Ermənistan Respublikasını yaratmağa nail oldular. 1920-ci ildə daşnaqlar tərəfindən Azərbaycan Demokratik Respublikasının baş naziri Fətəli xan Xoyski və onun daxili işlər naziri Behruz xan Cavanşiri qətlə yetirildilər (188, 48).

"Mərkəzi Asya və Qafqazdakı dəyişikliklərin mahiyyəti" əsərinin müəlliflərinin fikrincə, I dünya müharibəsində müttəfiqlərin əsas strateji məqsədlərindən biri Osmanlının geniş torpaqlarını ondan qoparmaq idi. Bu məqsədlə onlar Osmanlı ərazilərindəki milli və dini azlıqlar arasında antitürk, antiislam ideyaları və düşmənçiliyi yayırdılar. Bu çərçivədə Qərb ölkələrinin, xüsusən də, Fransanın siyasi və mənəvi köməklərinə, eləcə də, Rusiyanın aktiv hərbi dəstəyinə güvənən daşnaqlar bu siyasətdən maksimum faydalanmağa çalışırdılar. Onlar, "Böyük Ermənistan" yaratmaq üçün, ən azından, Ermənistan, Gəncə və Qarabağın regionlarının bir hissəsi, Şərqi Türkiyənin 16 vilayətini və Cənubi Azərbaycanın bir hissəsini tələb edirdilər. Halbuki, bu xəyal gerçəkləşsəydi, ermənilər orda azlıq təşkil edəcəklərdi (175, 71).

Daşnaqların bu qudurqan tələblərinə görə, Gənc türklərin əli ilə 1908-ci ildə Türkiyədə Məşrutə rejimi qurulandan və ölkədəki bütün xalqlara seçki hüququ veriləndən sonra onlar parlamentdə onlara 10 yer verilməsinə razı olmurlar. Frans Karl Anders "Türkiyə" əsərində yazır ki, 1908-ci ildə Osmanlıda parlamentdə türklərə 107, ərəblərə 45, yunanlara 27, albanlara 22, ermənilərə 10, bolqarlara 5, serblərə 4, yəhudilərə 3, kürdlərə 2, rumınlara 1, taramilərə 1, bərbərlərə 1 nəfər müəyyən edilmişdi (60, 170).

Bəzi Avropa və erməni müəllifləri yazırlar ki, guya, o zaman, Osmanlıda 2 milyon erməni yaşayırmış, halbuki, o dövrün siyahıya alma statistikasına görə, ermənilərin sayı cəmi 988887 nəfər olmuşdur.

Pasdar Maçiyan yazır ki, Daşnaksütun partiyasının təhriki və təşviqi ilə ermənilər 1896-cı ildən sonra Zaqafqaziya və İranda çoxlu sayda silahlı dəstələr yaradaraq, Ermənistana göndərdilər. Onların sayı gün-gündən artırdı. Bu dəstələr buradakı türklərə və kürdlərə qarşı vuruşurdular.

Türkiyədə isə Daşnaksütunun birbaşa təşkilatçılığı ilə erməni kişilər dağlara götürülür, orada təlim keçilir və Osmanlıya qarşı partizan müharibəsi aparılırdı. Onlar həm də türklərə və kürdlərə qarşı hər cür amansızlıqlar törədir, qətliam həyata keçirirdilər. İlk belə qətliamlardan biri 300 silahlı ermənidən ibarət dəstə tərəfindən Məzərgir kürd əşirətinə qarşı reallaşdırılmış, onun bütün çadırları yandırılmışlar (53).

"Keyhan" qəzetinin yazdığına görə, indinin özündə də Daşnaqsütun partiyasının, dünyanın, ermənilərin azlıqda yaşadıqları 24 ölkəsində terrorçu qrupları fəaliyyət göstərir və onlar "Böyük Ermənistan" xülyası ilə çalışırlar. Ordu generalı Hüseyn Fərdust, ermənilərin İran İslam İnqilabından əvvəlki dövrdəki belə fəaliyyətlərindən bəhs edərək, yazır ki, Məhəmməd Rza şahın razılığı ilə ermənilər İranda Daşnaksütun və Erməni gizli ordusu adı altında yarımgizli fəaliyyət göstərirdilər... Mən "Savak"[75]-ın rəisinin müavini olanda, İran Milli Şura Məclisinin üzvü Saginyan dəfələrlə məndən xahiş etmişdir ki, Erməni gizli ordusunun rəisini

[75] Savak-gizli polis təşkilatı

qəbul edim. Bu xahişlər onu göstərirdi ki, onların məndən əvvəlki rəhbərliklə də münasibətləri olmuşdur... Mən tərəddüd etdikdən sonra razılıq verdim. O, Saginyanla birlikdə mənim Zahidi prospektindəki iş yerimə gəldi. Çox nəzakətli rəftara malik 30 yaşlı, olduqca şıq geyimli, gur saçlı, qara gözlü, çox aram, arxayın və ağıllı bir adam idi. O, xüsusi olaraq vurğuladı ki, hər hansı bir erməniyə əziyyət verən hər kəs məhv ediləcəkdir. Hər halda onu tutduğu vəzifəyə çox uğurlu seçmişdilər. Onun seçilmə qaydasını soruşdum. Dedi ki, idarə heyəti tərəfindən seçilmişdir və ömrünün sonuna qədər bu vəzifəni icra edəcəkdir. Mən düşündüm ki, ola bilsin ki, Saqinyan da o dediyi idarə heyətinin üzvüdür. Ancaq o, mənim ziyarətçimin qarşısında özünü onun nökəri kimi aparırdı. Bu, birincinin qeyr-adi mühüm vəzifə və səlahiyyətlərə malik olduğunu göstərirdi.

I görüşümüzdən sonra mən onunla II dəfə görüşmək istədim, çünki bəzi məsələləri dəqiləşdirmək istəyirdim. Biz təkrar görüşdük. Mən onun rəhbərlik etdiyi qurumun dünya səviyyəsindəki əməkdaşlıq qaydası barədə soruşdum. O, cavab verdi ki, erməni azlığının sayca çox kiçik olduğu ölkələrdə belə təşkilat yoxdur. Ancaq oradakı azsaylı ermənilər də arxasız deyillər. Biz onları da himayə edirik. Qərarlar dünya səviyyəsində qəbul olunur. Ola bilər ki, Türkiyədə yaşayan və tə.kilatın üzvü olan bir erməniyə Filippində yaşayan kimsəni aradan götürmək tapşırığı verilsin. Bizim ordunun hissələru dünya səviyyəsində fəaliyyət göstərir. Qərarlar bu bölmələrin rəislərinin təmsil olunduğu idarə heyətində qəbul olunur (32, 497).

# QARABAĞ AZƏRBAYCAN ƏDƏBİYYATI VƏ İNCƏSƏNƏTİNİN BEŞİYİDİR

Qarabağ tarix boyu ədəbiyyat və sənət beşiyi olmuşdur. Bu diyar Azərbaycanın musiqi kimliyidir. O, ölkəyə çoxlu sayda ədiblər, şairlər, musiqiçilər, incəsənət xadimləri bəxş etmişdir (10 Firu, 8). Burada təkcə XVI-XIX əsrlərdə 110 şair yetişmişdir. Mirzə Sədra Müctehidzadə Qarabaği, "Riyaz ül-aşeqin" əsərində 79 Qarabağ şairi haqqında məlumat vermişdir. Bu əsər Yəhya Xanməhəmməd Azəri tərəfindən fars dilinə tərcümə olunmuş və çap edilmişdir.

XIX əsrin ortalarından Azəvbaycanda ədəbiyyatın, musiqinin və digər incəsənət növlərinin inkişafında xüsusi canlanma baş vermişdir. Bu inkişaf özünü qəzet nəşri, dram əsərlərinin yazılması, musiqi, poeziya, memarlıq, rəssamlıq, rəngsazlıq, teatr sahələrində böyük şəxsiyyətlərin meydana gəlməsində göstərmişdir. Firudin Şuşinski yazır ki, Şuşa şəhəri XIX əsrdə bütün Qafqazda incəsənət məktəbi kimi tanınmışdır. Hər il yayda bütün Zaqafqaziyadan bura şairlər, ədiblər, dramaturqlar, bəstəkarlar, çalğıçılar, müğənnilər, musiqiçilər və digər sənət adamları toplaşırdılar. Burada tamaşalar qoyulur, konsertlər verilirdi.

Təsadüfi deyil ki, XIX əsrdə Şuşada 26 min əhali yaşayırdı və bu əsrdə buradan 95 ədib və şair, 22 musiqişünas, 38 xanəndə, 19 xəttat, 16 rəssam, 18 memar, 5 astronom, 16 həkim çıxmışdır (10, 28). Bu dövrdə Şuşada şifahi xalq ədəbiyyatının da misilsiz nümunələri yaradılmışdır.

A.Puşkin, M.İ.Lermontov, Bestujev-Marlinski və başqaları Azərbaycan türkcəsinə, xalq yaradıcılığına və məişətinə böyük maraq göstərmişlər. M.İ.Lermontov, Azərbaycanın bir çox şəhərlərini, o cümlədən də, Şuşa, Şamaxı, Quba, Şəki və başqalarını gəzmiş, Kazan şəhərində olarkən, Azərbaycan türkcəsini öyrənməyə başlamışdır. O, yazmışdır ki, burada bu dili bilmək, ümumilikdə, Asya və Avropada fransız dilini bilmək qədər zəruridir.

M.İ.Lermontov, özünün "Aşıq Qərib" əsərini analoji Azərbaycan xalq əfsanələri əsasında yazmışdır.

Məşhur dekabrist A.A.Bestujev-Marlinski Qafqaza sürgün olunanda Azərbaycan türkcəsini yaxşıca öyrənmiş, bu dildə çoxlu bədii əsərlər yazmışdır.

O dövrdə A.Nekrasov və N.Q.Çernışevski tərəfindən nəşr olunan "Sovremennik" ("Müasir") jurnalında Mirzə Şəfinin şeirləri və "Koroğlu" dastanı haqqında çoxsaylı məqalələr dərc olunmuşdur.

XIX əsrin II yarısında Azərbaycan incəsənətində baş vermiş ən mühüm hadisə milli teatrın yaranması olmuşdur. Həmin əsrin 40-cı illərinin sonlarında və 50-ci illərinin əvvəllərində Şuşada da tamaşaxanalar və teatrlar meydana gəlmişdir.

Bu dövrdə təsviri, heykəltaraşlıq və tətbiqi sənətlər sahəsində də çoxlu yeni əsərlər yaradıldı. Belə əsərləri yaradanlardan biri, bir çox sahələrdə istedad nümayış etdirmiş rəssam Mir Möhsün Nəvvab Qarabaği idi. O, həm də kitab tərtibatı ilə məşğul olur və onlara illustrasiyalar və ornamentlər çəkirdi. M.M.Nəvvab həm də gözəl xəttat və şair idi.

Azərbaycan xalqının həyat tərzi və məişəti rus kinomatoqraflarının da diqqətini çəkmişdi. Uzun zaman Azərbaycanda yaşamış məşhur rus rəssamı Q.Q.Qaqarin isə burada təbiət və cəmiyyətlə bağlı çoxlu sayda tablolar və rəsmlər çəkmişdir. Onun unikal əsərlərindən biri də A.Bakıxanovun portretidir (44, 193-195-244).

Qarabağ regionundan çıxmış qabaqcıl ədib və şairlər, dramaturqlar və naşirlər orta əsrlərdən qalma ictimai ədalətsizlyə, geriliyə, mühafizəkarlığa və cəhalətə qarşı çıxır, demokratiyanı, mədəni və sosial azadlıqları təbliğ edirdilər. Onlar ictimai və fərdi çatışmamazlıqları və eyibləri tənqid edirdilər. Əbdürrəhim bəy Haqverdiyev, Həsən bəy Ağayev, Haşım bəy Vzirov, Nəcəf bəy Vəzirov, Fərhad Ağazadə Şərqli, Yusif Vəzir Çəmənzəminli, Firudin bəy Köçərli və bir çox başqaları Qarabağdan çıxmış böyük şəxsiyyətlərdir.

Azərbaycan musiqi sənətinin inkişafında Qarabağdan çıxmış Mir Möhsün Nəvvab, Bülbül, Seyid Şuşinski, Xan Şuşinski, İsfəndiyar Cavanşir, Cabbar Qaryağdı oğlu, İslam Abdullayev, Keçəçi oğlu Məhəmməd, Sadıqcan, Əbdülbaği, Hacı Hüsü, Məşədi İsa və bir çox başqaları misilsiz rol oynamışlar.

1883-cü ildə tanınmış musiqiçi Xarrat Qulu dünyasını dəyişəndən sonra Şuşada Kor Xəlifə adlı istedadlı musiqişünas tərəfindən musiqi məktəbi yaradıldı. Burada muğam ifaçılığı ilə yanaşı, tar və kamança çalmaq da öyrədilirdi.

XIX əsrin 90-cı illərində məşhur musiqiçi, ədib, şair, xəttat və rəssam Mir Möhsün Nəvvab, böyük xanəndə Hacı Hüsü ilə birlikdə Şuşada musiqişünaslar məclisi təşkil etdi.

XX əsrin əvvəllərində Şuşada Molla İbrahimin musiqi məktəbi də fəaliyyət göstərmişdir.

Mir Möhsün Nəvvab 1905-ci ildə Şuşada ziyalıları və həvəskar gəncləri toplayaraq, incəsnət məktəbi açır. Burada poeziya, musiqi və tarixə dair müzakirələr aparılırdı. Bu məktəb, Qulu Xarratın Musiqi cəmiyyəti və Xurşidbanu Natəvanın "Məclisi-üns"ündən sonra Qarabağın ədəbi və musiqi dünyasında əhəmiyyətli rol oynamış və bir növ mədəniyyət institutuna çevrilmişdir. Burada İslam Abdullayev, Molla Vəli, Məşədi Cəfər Çəmənli, Məşədi Cəmil Əmirov (Fikrət Əmirovun atası) və digər böyük sənətkarlar yetişmişdir.

## 1905-1906-CI İLLƏRDƏ ERMƏNİ-QAFQAZ MÜSƏLMANLARI MÜHARİBƏSİ

1872-ci ildə Azərbaycanda çıxarılan neftin yalnız 5 %-i türklər (azərbaycanlılar) tərəfindən çıxarılırdı. Halbuki ermənilər bundan 10 dəfə artıq çıxarırdılar. O zaman mövcud olan 167 neft müəssisəndən ancaq 49 və həm də kiçikləri azərbaycanlılara məxsus idi. Ermənilər isə bu qəbildən olan 55 orta və böyük neft müəssisəsinə sahib idilər.

1900-cü ildən Bakı quberniyasındakı 115 sənaye müəssisənin 29 %-i ermənilərə, cəmi 18 %-i isə azərbaycanlılara aid idi. Azərbaycanlılar rəqabətdən kənarda saxlanılırdılar. İşçi qüvvəsində də qeyri-bərabərlik hökm sürürdü. Belə ki, fəhlələrin 17,5 %-i erməni, 70 %-i isə müsəlman azərbaycanlı və başqalarının payına düşürdü (175, 69).

Ermənilər öz dini, etnik, adət-ənənə, siyasi maraqlar baxımından rusların təbii müttəfiqləri idilər. Bu üzdən ruslar bütün məsələlərdə ermənipərəst siyasət yeridirdilər. Ermənilər dövlət və ictimai işlərə, orduya cəlb olunur, regionun iqtisadi inkişafı ilə ermənilər ticarət, sənaye, xüsusən, neft istehsalında üstün mövqelərə sahib olurdular.

Şəhərlərdə mədəniləşmə və ictimailəşmə artdıqca, Daşnaqsütun partiyası da siyasi bir hərəkat kimi öz fəaliyyətini genişləndirirdi (129, 153).

1905-ci ildə Qafqazda başlayan erməni-müsəlman müharibəsinin birbaşa təşkilatçısı və təhrikçisi məhz Rusiya və onun hərtərəfli dəstəklədiyi avantürist, antiislam və antitürk Daşnaqsütun partiyası idi.

Məmməd Səid Ordubadi yazır ki, ermənilər hər vəsilə ilə müsəlmanlara qarşı qiyam qaldırır, onları çıxılmaz vəziyyətə salır, qanlı toqquşmalar yaradırdılar. Çar hökuməti nəinki bu proseslərin qarşısını almır, əksinə, hər vəchlə onları qızışdırırdı.

1905-ci il fevralın 2-də Ağa Rza adlı bir müsəlman erməni komitəsi tərəfindən Quba meydanında öldürüldü. Bu arada, fevralın 6-da bir müsəlman dustağın da erməni saldatı tərəfindən öldürülməsi müsəlmanların səbrini daşırdı və erməni-müsəlman müharibsi başladı və tezliklə bütün Qafqazı bürüdü. Çar polisi bu qarşıdurmalara və müharibəyə müdaxilə etmədi. İrəvan, Naxçıvan, Şuşa, Gəncə və Tiflisdə də erməni-müsəlman müharibəsi qızışdı. Bu toqquşmalarda 128 erməni kəndi, 158 müsəlman kəndi dağıdıldı və qarət edildi. 10 min nəfərə qədər insan öldürüldü. Öldürülənlərin əksəriyyəti müsəlman idi. Azərbaycan türkləri Bakı və Naxçıvanda, ermənilər isə İrəvan və Üçkilsədə qələbə qazandılar.

Vorontsov-Daşkov Qafqaza vali gələndən sonra ruslar hadisələrə müdaxilə etməyə başladılar. Onlar ermənilərin tərəfini tutaraq, müsəlmanlara qarşı vuruşurdular. Bu müharibə 1-2 il çəkdi (175).

Dağıdıcı və viranedici erməni-müsəlman müharibəsi çoxlu sayda can və mal qaybına səbəb oldu. Şuşa şəhəri 2 dəfə dağıdıldı və saysız qanlar axıdıldı. Onlardan birincisi 16-21 avqust 1905, ikincisi isə 13-18 iyil aylarında baş verdi. O zaman Şuşa rus hərbi komutanlar (Taqaşvili, Felişer və Qalaşcapov) tərəfindən idarə olunurdu. Bu komutanlar ancaq eyş-işrətlə məşğul idilər (31).

M.S.Ordubadi xüsusi olaraq vurğulayır ki, Şuşada yaşayan ermənilər hələ illər öncə müsəlmanlarla müharibəyə hazırlaşmış və lazımi hazırlıqlar və tədarüklər görmüşdülər. Ancaq ermənilərin qorxaq və namərd olduğunu bilən Şuşa müsəlmanları, onların müsəlmanlara qarşı qiyam qaldıracaqlarını ağıllarına belə gətirmirdilər...

Şuşada müharibədə müsəlmanların qalib gələcəklərini görən ermənilər və rus ordusunun təşəbbüsü ilə erməni keşişləri, dövlət məmurları və saldatları əllərində kilsə bayraqları və İncil, musiqi sədaları altında Şuşa məscidinə gəldilər. Rus jandarma rəisi və digər dövlət məmurları ağlayaraq, müsəlmanlardan sülh istədilər və gətirdikləri ağ bayraqlardan birini məscidin minarəsinə taxdılar ki, sülh haqqında məlumat bildirilsin.

Hətta sülh elan olunandan sonra da ermənilər Şuşa realnı məktəbinin təmiri ilə məşğul olan 17 nəfər iranlı fəhləni öldürdülər...

Şuşadakı II erməni-müsəlman müharibəsi isə rus vali Qalaşcapovun şəxsi xahişi ilə müsəlmanlar tərəfindən dayandırılır...

Erməni-müsəlman müharibələrinin müsbət nəticəsi o oldu ki, müsəlmanların gözü açıldı və onlar həqiqi düşmənlərinin ermənilər və rus dövləti olduğunu başa düşdülər...

Bu dövrdə baş verən mühüm hadisələrdən biri də Təbriz-Urmiya yolunda 1 ingilis missionerinin öldürülməsi və buna görə ingilislərin İran hökumətindən 50 min tümən qan pulu almsı oldu. Halbuki, öldürülən minlərlə günahsız yerli sakinin qanı batdı... (27, 145).

## QARABAĞ 1918-1920-Cİ İLLƏRDƏ.
## BAKI VƏ DİGƏR ŞƏHƏRLƏRDƏ QƏTLİAMLAR

Rusiyada fevral inqilabından sonra Lvov və Milyukov, daha sonra isə Kerenski iş başına gəldi və müvəqqəti hökumət yaradıldı. Onların hər biri erməni məsələsinə böyük diqqə verirdilər. Hətta Rusiyada yaşayan digər xalqlara muxtariyyət sözü verildiyi halda, finlərə, polyaklara və ermənilərə ayrıca və müstəqil dövlət sözü vermişdilər. Fevral inqilabından sonra Türkiyənin işğal olunmuş şərq vilayətləri ermənilərə həvalə olundu (53, 489).

1 əsr Romanovların zülm və istibdadını yaşamış azərbaycanlılar, 1918-ci ildə öz milli müstəqilliklərinə nail oldular. Həmin ilin 28 mayında rəsmən Azərbaycan Respublikası elan olundu. Bu arada Tiflisdə Gürcüstan Respublikası, İrəvanda isə Ermənistan Respublikası təşkil edildi. Ermənilər, rus ordusu Zaqafqaziyadan çəkiləndən sonra İrəvana və onun ətrafındakı 211 kəndə yürüşlər təşkil edərək, 300 min günahsız türkü qətlə yetirdilər və onların cəsədləri üzərində erməni dövləti qurdular (46, 130-136)[76].

Daşnaqlar bu qanlı və cinayətkar əməlləri ilə kifayətlənmədilər, rus inqilabı və vətəndaş müharibəsinin nəticəsində Azərbaycan Cümhuriyyətində yaranmış qeyri-sabit və nisbətən böhranlı vəziyyətdən istifadə edərək, burada

---

[76] Daha ətraflı məlumat üçün "İrəvan müsəlmanlar yurduymuş" kitabına baxın.

fitnə və iğtişaşlar törədərək, qarışıqlıq yaratdılar və 1920-ci ildə XI qızıl ordunun ölkəni işğal etməsinə kömək etdilər.

Hələ 31 mart 1918-ci ildə ermənilər Azərbaycanın bir çox yerlərində silahsız türklərə qarşı yürüşlər təşkil edərək, dəhşətli kütləvi qırğınlar törətdilər. Hücum edən erməni ordusunun tərkibində, Avstriya və Almaniya cəbhəsindən dönən rus ordusunun əsgər və zabitləri də var idi. Rus ordusunun komandanlarından biri, Daşnaksütun partiyasının qurucularından olan Rüstəm (Stepan) Zuryan idi (53, 493).

Çarizm azərbaycanlılara etibar etmədiyinə görə, onları hərbi xidmətə çağırmırdı. Ona görə də azərbaycanlılar silahdan istifadə qaydalarını bilmirdilər və onların silahlı qüvvələri mövcud deyildi.

Mənsur Qorqani yazır ki, ermənilər və bolşeviklər Lənkəranda qırğınlar törətdilər. Bolşeviklər, ermənilərin köməyi ilə Xəzər dənizindəki gəmilərindən Bakını bombaladılar. 52 saat sürən müharibədə Təzəpir məscidinin minarələri və Bakı qalasının bir hissəsi dağıdıldı və şəhər işğal olundu. Ermənilər, xüsusi amansızlıqla əhaliyə divan tutdular. Çoxsaylı insan, o cümlədən, 500 iranlı qətlə yetirildi. Öldürülənlər arasında İranın Bakıdakı baş konsulunun qardaşı da var idi. Nəticədə, müsəlmanlar tərksilah edildilər. Bundan sonra Biləcəridə Dağıstan müsəlmanları ilə ruslar arasında toqquşma ikincilərin qələbəsi ilə başa çatdı və Bakıda Şaumyanın başçılığı ilə bolşevik hökuməti quruldu (102, 78).

Həmin dövrdə İranın Azərbaycandakı baş konsulu Məhəmməd Saed Marağayinin verdiyi məlumata görə, o günlərdə Bakıda öldürülən müsəlmanların sayı 5 min nəfərdən artıq olmuşdur (77, 29).

Məmməd Əmin Rəsulzadə yazır: "Qəribədir ki, Müsavat partiyasının, Azərbaycanın muxtariyyətinə qarşı təhdidlə çıxan Şaumyan, işğalçı rusların çəkildikləri şərqi Türkiyədə, Leninin fərmanı ilə erməni muxtariyyəti elan edirdi. Həmin fərmanda Şaumyana göstəriş verilmişdi ki, erməni milli ideyalarının həyata keçirilməsi üçün lazımi qurum və quruluşların yaradılması həyata keçirilsin. 1 ay əvvəl Rusiya Təmsilçilər Məclisinin fəaliyyətinə son verdiyi üçün, bolşevik hökumətinə qarşı çıxan Daşnaqsütun partiyası, yəqin ki, bu fərmanın təsiri ilə, Bakı soveti ilə səmimi münasibətlər və hərbi əməkdaşlıq yaratdı (155, 21). Bu dövrdə baş vermiş kütləvi qırğınların əhatəsi o dərəcədə geniş olmuşdur ki, Azərbaycan xalqı hər il 31 martı soyqırım günü kimi qeyd edir.

Müvəqqəti hökumət Zaqafqaziyanın müstəqilliyini tanısa da, onu devirərək, hakimiyyəti ələ keçirən bolşeviklər, onun bu qərarını Rusiyaya xəyanət kimi qiymətləndirdilər.

Bolşeviklər 1918-ci il 25 apreldə Azərbaycanda Xalq Komissarları Soveti adlı hökumət qurdular. Onun başında erməni Şaumyan dururdu. Çaparidze daxili işlər komissarı, Kurqanov müdafiə komissarı, Nərimanov ədliyyə komissarı, Karinyan təhsil komissarı, Suxartsev poçt və teleqraf komissarı oldular. Bakı soveti 01 mayda yaydığı bəyanatında bildirdi ki, onun Rusiyanın mərkəzi hökuməti ilə yaxın bağlılığı vardır və son nəfəsinə qədər bütün Qafqazda və Dağıstanda sovet hakimiyyətinin bərqərar olması üçün vuruşacaqdır (67, 14).

M.Ə.Rəsulzadə yazır ki, əvvəl müsəlmanların intiqamından və Tiflisin onları himayə etməsindən qorxan və mü-

dafiə mövqeyində dayanan Bakı bolşevikləri, daha sonra özlərində cəsarət taparaq, təcavüzə keçdilər. Bu təcavüzkar qüvvənin tərkibində erməni fədailəri, o cümlədən, Amazasp və Avtisov, Petrovun da daxil olduğu rus topçuları da var idi. Gəncə tərəfdən hücuma keçən bu qüvvə Şirvanşahların qədim paytaxtı Şamaxının tarixi Cümə məscidi ərazisinə qədər hər şeyi yandırdılar. Şəhərdə ancaq erməni məhəlləsinə toxunmadılar. Ancaq işin gedişində Gəncədən gələn müsəlman birliyi ilə baş verən toqquşmalarda, 2 kilsə xaric, bu məhəllə də yandırıldı. Bolşeviklər eyni qırğınları və vəhşilikləri Lənkəran, Salyan, Quba, Kürdəmirdə də törətdilər. Bu təcavüzlər nəticəsində arvad-uşaqlar da daxil, həyata keçirilən qətliamlar, mal-qaranın, mal-mülkün qarət edilməsi heç bir təsvirə sığmaz. Gəncə şəhəri də təhlükədə idi.

26 may 1918-ci ildə gürcülər Zaqafqaziya federasiyasından çıxdıqlarını və Rusiyadan ayrı müstəqil respublika yaratdıqlarını elan etdilər. Bununla da, Qafqaz Federasiyası dövləti sıradan çıxdı. Bundan sonra Qafqaz Federasiyası seymindəki müsəlmanlar özlərini Azərbaycan Milli Şurasının üzvləri elan etdilər. Bu şura 28 may 1918-ci ildə Azərbaycanın müstəqilliyini elan etdi və 30 mayda bunu dünyanın bütün dövlətlərinə bildirdi. Fətəli xan Xoyskinin rəhbərliyi ilə ilk hökumət quruldu. Fətəli xan Xoyski sonralar daşnaqlar tərəfindən Tiflisdə qətlə yetirildi.

... Rusiya imperiyasının xarabalıqları üzərində qurulan respublikalardan Azərbaycan hökuməti yeganə müsəlman respublikası idi ki, avropalılar tərəfindən rəsmən tanındı. O, həm də bütün islam dünyasında yaradılan ilk respublika idi (155, 48-51-78).

Erməni tarixçisi Riçard Ci Havanesyan yazır ki, Fətəli xan Xoyski 1918-ci ilin noyabr-dekabr aylarında Azərbacanın bütün milli qüvvələrinin və etnik qruplarının təmsil olunduğu milli məclis yaratdı və yeni dövlət qurdu. Bu dövlət milli və etnik baxımdan daha əhatəli idi (48, 89).

Təmsilçilər məclisinə seçkilər keçirilməsi, mövcud fövqəladə vəziyyətə görə mümkün olmadığından, bu məclisin üzvlərinin sayı, digər partiyalar və etnik azlıqlar (milli demokrat Müsavat, milli mühafizəkar İttihad, kəndli Əhrar, Sosial demokrat, İnqilabçı sosialist, bitərəflər, erməni-10 nəfər, rus-5 nəfər, gürcü-1 nəfər, polyak-1 nəfər, yəhudi-1 nəfər, alman-1 nəfər) hesabına, 44-dən 84-ə çatdırıldı. 14 nazirdən 3-ü erməni, 3-ü rus idi (48, 140).

Bakı bolşeviklərin əlində olduğuna görə, Azərbaycan Cümhuriyyətinin paytaxtı əvvəl Gəncə idi.

Azərbaycan Demokratik Cümhuriyyəti dövlətinin yaranmasında Müsavat partiyası və şəxsən Məmməd Əmin Rəsulzadə mühüm rol oynadılar. Doktor Firudin Adəmiyyət yazır ki, bir qrup ziyalı, o cümlədən, Məmməd Əmin Rəsulzadə əvvəllər Müsəlman Demokrat Partiyasını yaratmış, sonra adını dəyişərək Müsavat qoymuşdular. Onun təsisçiləri Qafqaz soial-demokrat məktəbinin yetirmələri idilər və mill mövqeləri ilə seçilirdilər. Partiyanın 1918-ci ildə keçirilən qurultayında Məmməd Əmin Rəsulzadə sədr seçildi. O, hələ 1918-ci il may ayının 1-də Rusiya müsəlmanlarının Moskvada keçirilən I qurultayında Rusiyanın federal dövlətə çevrilməsi ideyasını ortaya atmışdı.

Gürcüstan Respublikasının yaranması və tanınmasında ingilislər böyük rol oynamışlar. Fransa isə Ermənistan Res-

publikasının yaranması və tanınmasını dəstəkləmişdir. Avropalılar Azərbaycan Respublikasına laqeyd münasibət bəsləmişlər. Hətta Fransa, Paris Sülh konfransında iştirak edəcək Azərbaycan Respublikasının təmsilçilərinə viza vermək istəməmişdir. Sonunda cəmi bir neçə nəfərə viza verilmişdir. Azərbaycan Respublikası nümayəndə heyətinin başçısı Əlimərdan bəy Topçubaşov özünün müfəssəl layihəsini 1918-ci ilin mart ayında Paris Sülh konfransına təqdim etmiş, Qafqazın müsəlman əhalisinin öz müqəddəratını təyin etmək hüququnu elmi əsaslarla bütün dünyaya çatdırmışdır. Bu sahədə geniş araşdırmalar aparmış erməni tarixçisi Havanesyanın yazdığına görə, Topçubaşovun təqdim etdiyi layihə erməni və gürcülərin təqdim etdiklərindən daha mükəmməl idi. Bu layihədə həm də Qafqazın tarixi, mədəniyyəti, coğrafiyası, iqtisadiyyatı, əhalisi haqqında müfəssəl məlumat verilirdi. Konfrans iştirakçıları layihənin mükəmməlliyi qarşısında donub qaldılar (143, 156-163).

1918-ci il 24 iyulda ingilislərin təhriki ilə Bakıda bolşevik hökuməti əleyhinə çevriliş baş verdi. Şaumyan və Petrov Həştərxana qaçdılar. Bakıda Xəzər hökuməti quruldu. Bu höumət ingilislərdən kömək istədi. Bu istəyin əsasında general Denstroylun komandanlığı altında kiçik bir ingilis qarnizonu Bakıya daxil oldu. Bu qarnizon, guya, ermənilərin dəvəti ilə onlara kömək üçün gəlmişdi. Əslində isə, ingilislərin məqsədi Azərbaycanı və Qafqazın digər respublikalarını himayə etmək, onların neft sənayesindən və ticarət yollarından yararlanmaqdan ibarət idi.

Bu arada Osmanlı ermənilərə qarşı müsəlmanlara kömək göstərmək və ingilisləri İran  yolu ilə Qafqazdan çıxartmaqla Qafqazı ələ keçirmək üçün Bakıya hərbi qüvvə göndərdi.

Bir müddət Xəzər respublikasını kömək gələcəyi barədə vədləri ilə aldadan ingilis generalı, Osmanlı ordusunun Bakıya yaxınlaşması ilə Bakını tərk etdi[77]. Bununla da, Xəzər hökuməti dağıldı.

Belə olan halda Azərbaycan Respublikasının paytaxtı Gəncədən Bakıya köçürüldü. Burada 120 deputatdan ibarət parlamentin açılışı oldu. Az sonra İsmayıl xan Ziyadxanoğlu Tehrana gəldi və burada Azərbaycan Respublikasının səfiri kimi fəaliyyətə başladı (178, 79-80).

Rusiyada Romanovlar sülaləsinin imperyasının dağılması, I dünya müharibəsinin  bitməyə doğru getməsi və 1818-ci ildə Qafqazda müstəqil dövlətlərin meydana gəlməsi ilə Dağlıq Qarabağ məsələsi Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında ixtilaf yaratdı. İrəvan şəhəri və onun ətrafındakl 211 kəndin 300 min əhalisini qətl etmiş və onların sümükləri üzərində Ermənistan dövləti yaratmış daşnaqlar, Dağlıq Qarabağı Ermənistana birləşdirmək xəyalında idilər. Onlar qeyri-sabit vəziyyətdən istifadə edərək, iğtişaşlar törətdilər və ingilislərin köməyi ilə Qarabağda erməni hökuməti qurdular. Daşnaqlar ingilis generalı Dru və polkovnik Nejdinin köməyi ilə 22-23 mart 1918-ci ildə Xankəndində türklərə qarşı faciəli qırğınlar həyata keçirdilər. Eyni qırğınlar Qarabağın digər

[77] İngilis generalı bu barədə "General Denstroylun xatirələri-1918" əsərində ətraflı məlumat vermişdir.

yaşayış məntəqələrində də törədildi. Bu arada Şuşa şəhərinin yarısı yandırıldı.

Azərbaycan hökumətinin xahişi ilə köməyə gələn Osmanlı ordusu, hərbi nazir Ənvər paşanın qardaşı Nuru paşanın komandanlığı altında ordu Gəncədə yerləşdirildi. Onun bir hissəsi Bakıya yola düşdü. Nuri paşa, Osmanlı ordusunu Şuşaya yeritmək istəsə də, ermənilər buna razılıq vermədilər.

1918-ci il sentyabr ayının ortalarında birləşmiş Müsavat-Osmanlı qüvvələri Bakıya daxil oldular. Nuri paşa bir daha erməniləri təslim olmağa çağırsa da, onlar bu çağırışa muxtariyyət tələbi ilə cavab verdilər. Belə olanda Nuru paşa, Camal Cavad bəyin komandanlığı altında olan XI Qafqaz polkunu Şuşaya tərəf göndərdi. Bu arada Müsavatın hərbi qüvvələrinin bir hissəsi yerli partizanlarla birlikdə 7 həftəlik toqquşmalardan sonra erməni kəndi Qara Qışlaqdakı ermənilərin müqavimətini qırdı və bununla da, Qarabağın Zəngəzurla əlaqəsini kəsdi. Bundan sonra Qarabağ erməniləri, Nuri paşanın tələblərini yerinə yetirərək, təslim oldular. Oktyabrın 7-də Camal Cavad bəy və Azərbaycan dövlətinin nümayəndəsi İsmayıl xan, Osmanlı qüvvələri ilə birlikdə Şuşaya daxil oldular. Üstündən 1 həftə keçməmiş erməni rəhbərlərindən və ziyalılarından ibarət 60 nəfər həbs edildi və ermənilərin tərk-silah olunması başladı. Şuşa təslim edilsə də, Qarabağın digər məntəqələrində silahlı erməni partizanları Osmanlılara qarşı müqavimət göstərməkdə davam edirdilər.

Mudros müqaviləsinə əsasən, Osmanlılar Azərbaycanı tərk etdilər və 18 noyabr 1918-ci ildə ingilis zabiti general Tomsonun komandanlığı altında olan müttəfqlər ordusu

Azərbaycana daxil oldu. General Tomson yerli hökumətlə rabitə yaratdıqdan sonra bildirdi ki, bizim nə indi, nə də gələcəkdə sizin daxili işlərinizə qarışmaq fikrimiz yoxdur (76, 140).

Birbaşa I dünya müharibəsindən sonra-1918-ci il oktyabr ayının sonlarında Qarabağ ermənilərinin hərbi başçıları general Andranikdən[78] (Uzanyan) xahiş etdilər ki, ermənilərin Qarabağda iqtidarını təşkil etməkdən ötrü ordusu ilə birlikdə Şuşaya gəlsin. O arada Andranikin ordusu, Zəngəzur ətrafındakı Kurindzor, Değ və Hendzursk kəndlərində yerləşirdi. Andranik, Zəngəzur və Qarabağın erməni mülki və hərbi rəhbərlərindən tələb etdi ki, onun yürüşlərində onu himayə edəcəkləri barədə yazılı iltizam versinlər. Noyabr ayının ortalarında bu iltizamları alan Andranik, 18 noyabrda Şuşa istiqamətinə yürüşə başlamışdır. Bu vaxt Şuşa bələdiyyəsinin sədri Gerasim Məlik Şahnəzəryan və erməni partizan dəstələrinin komandirlərindən Sokrat bəy Məlik Şahnəzəryan ona xəbər göndərmişlər ki, əməliyyatı 10 gün yubatsın ki, bu müddətdə onlar yerli müsəlman rəhbərlərini ona müqavimət göstərməmələri üçün dilə tutsunlar. 10 gün bitəndən sonra noyabr

---

[78] Daşnaqların komandiri, türk düşməni Andranik I dünya müharibəsində rusların tərəfində Osmanlılara qarşı vuruşmuş, 8 min nəfərlik ordusu ilə 1918-ci ilin iyun ayında Araz çayından keçərək, Xoy şəhərində kütləvi qırğınlar törətmək istəmişdir, lakin qeyrətli xoyluların misilsiz şücaətləri və Osmanlıların onlara köməyi ilə çoxlu sayda ölü və yaralı verərək, Culfaya tərəf qaçmışdır. Daha ətraflı məlumat üçün baxın: 1. Əhməd Kəsrəvi. Tarix-e hicdəh salegiye Azərbaycan, s. 6-753; 2. Doktor Məhəmməd Əmin Reyahi. Tarix-e Xoy, s. 507; 3. Əli Dehqan. Rezaiyye sərzəmin-e zərtoşt, s. 530; 4. Səməd Sərdariniya. Ğətl-e am dər do suye Ərəs.

ayının 29-da Andranik özünün quldur və başkəsən dəstəsi ilə Zəngəzurdan hərəkət edərək, Zabux dərəsi, Həkərə, Markiz və Hacı Şamlı yüksəkliklərindən keçərək, Zəngəzur yolu ilə, təqribən 20 müsəlman kəndinin arasından keçərək, ərazinin mülkədarlarından Sultan bəy Sultanovun, onlara müqavimət göstərməyə hazır olan dəstəsi ilə qarşılaşdı. Güclü toqquşmalardan sonra ermənilər ətrafdakı yüksəklikləri ələ keçirərək, Abdallar kəndinə (indiki Laçın şəhəri-*tərcüməçi*) yaxınlaşdılar. Ancaq onlar Abdallara girmədən öncə Şuşa tərəfdən üstündə ağ bayraq dalğalanan bir maşının onlara tərəf gəldiyini gördülər. Gələn maşında 1 ingilis və 1 fransız zabiti var idi. Onlar 39-cu briqadanın Qlaster Şayr polkunun 7-ci batalyonunun kapitanı Ci of Eskotabr və 6-cı Husar polkunun kapitanı Nikolas Qosfild idilər. Gələnlər, müttəfiqlərin Şərqi Qafqazdakı qüvvələrinin komutanı Tomsonun, general Andranikə məktubunu gətirmişdilər. Məktubda göstərilirdi ki, müharibə başa çatdığından, hər cür hərbi qarşıdurma Ermənistan məsələsini daha da gərginləşdirə bilər. Qarabağ məsələsi irəlidə keçiriləcək Paris Sülh konfransında müzakirəyə çıxarılacaqdır. Gələn 2 zabit Andraniki Zəngəzura-Gorusa geri dönməyə inandırdılar. Andranik, Tomsonun növbəti göstərişinə qədər Gorusda asayişi təmin etməli idi. Bu təklifi qəbul edən Andranik, 4 dekabrda öz qoşunu ilə Gorusa geri döndü (139, 145). O, geri dönərkən, yolüstü müsəlman kəndlərini qarət elədi, kütləvi qırğınlar törətdi.

1919-cu il yanvar ayının əvvəllərində Azərbaycan hökuməti Sultan bəy Sultanovun qardaşı doktor Xosrov bəy Sultanovu Qarabağ və Zəngəzura vali təyin etdi. Çox keçmədi ki, Azərbaycan Demokratik Cümhuriyyətinin nizami

və qeyri-nizami qüvvələri Qarabağın sərhədləri boyu Əsgəran, Xankəndi və Qaryagində yerləşdirildi. Şuşaya daxil olan X.Sultanov burada Azərbaycan hakimiyyətini möhkəmlətməkdən ötrü ciddi fəaliyyətə başladı. Erməni nümayəndələri ilə dəfələrlə görüşlər keçirdi, müzakirələr apardı.

Serj Afanesyan yazır ki, Andranik 1919-cu ilin martında Zəngəzuru tərk etdikdən sonra Qarabağ məsələsi Azərbaycanla Ermənistan arasında açıq mübarizə meydanına çevrildi. Ancaq ingilislərin erməniləri himayə etməkdən əl çəkmələri ilə, ikincilər avqust ayında məcbur olaraq, Azərbaycan hakimiyyətini müvəqqti qəbul etməyə razı oldular. Bu barədə rəsmi razılaşma imzalandı (32 Afan, 112).

Bu arada Mudros anlaşmasının tələblərinə uyğun olaraq, ingilis ordusu Azərbaycanı tərk etdi. Bununla bağlı baş nazir Nəsib bəy Yusifbəyli parlamentin üzvlərinə müraciət edərək demişdir ki, möhtərəm ağalar, Sizləri təbrik edirəm. Bu gündən tam müstəqilik! (155, 78).

Tarixi hadisələrdən sonra sovet dövləti öz müxaliflərini sıradan çıxararaq, hakimiyyətini möhkəmlətdi, Qafqazı, o cümlədən, Azərbaycanı işğal etmək fikrinə düşdü. 22 avqust 1919-cu il müqaviləsi ilə Azərbaycan hakimiyyətini qəbul etmiş Qarabağ erməniləri, bu vəziyyətdən istifadə edərək, qiyam qaldırdılar. Bu qiyam, daha doğrusu, xəyanət, Azərbaycan Demokratik Respublikasının süqutunda çox mühüm rol oynadı.

1920-ci il mart ayının 23-də səhər vaxtı Xankəndi, Əsgəran, Dizağ və digər yerlərdə erməni dəstələri iğtişaşlara başladılar. Ancaq bu qüvvələr arasında rabitənin kəsilməsi və Zəngəzurdan onlara köməyin yubanması səbəbi ilə məğlubiyyətə uğradılar. Şuşanın ermənilər yaşayan hissəsi yox

edildi. Əgər Deronun silahlıları 12 apreldə Qarabağa daxil olmasa və Varenda və Dizağda ümumi səfərbərlik elan edilməsəydi, ermənilərin vəziyyəti daha da pis olacaqdı.

23 apreldə Qarabağda Tağavar kəndində ermənilərin IX konfransı keçirildi. Burada Qarabağ, Ermənistan Respublikasının bir parçası elan olundu. Az keçmədi ki, bolşevik ordusu Azərbaycanın sərhədlərinə çatdı (139, 164).

M.Ə.Rəsulzadə yazır ki, Azərbaycan hökumətinin böhranlı bir vəziyyətində Qarabağ məsələsinin ortaya atılması vaxtı Şuşanın yaxınlığındakı Xankəndi hərbi düşərgəsində Novruz bayramı gecəsi şənliyinin keçirildiyi, gecə isə zabit və əsgərlərin dərin yuxuya getdikləri və istirahət etdikləri bir vaxtda ətraf kəndlərdə yaşayan və silahlanmış erməni qüvvələri qəflətən əraziyə hücum etdilər.

Xoşbəxtlikdən, bir çox əsgərlər oyaq idilər. Onlar hadisədən xəbər tutan zabit heyəti ilə hücumu dəf etdilər.

Yağı düşmən Xankəndiyə hücumla eyni vaxtda Əsgəranın məşhur keçidini də tutmuşdu. Bu, Qarabağın Bakı ilə əlaqəsini kəsmişdi. Bununla belə, Bakıya xəbər çatdırıldı ki, Xankəndidəki qarnizon mühasirədədir, əgər kömək göndərilməsə və o, məğlub olsa, bütün Qarabağ ermənilərin əlinə keçəcəkdir.

Tezliklə Qarabağa-Əsgərana əhəmiyyətli hərbi kömək göndərildi. Ermənilərin ciddi müqavimətindən sonra ikinci həmlə ilə onlar məğlub edildilər və Xankəndi təmizləndi. Geri çəkilən ermənilər yüksək dağlara qaçdılar. Onları təqib edən Azərbaycan ordusu, Keşişkəndində erməniləri mühasirəyə aldı.

Qarabağda bu hadisələr baş verən bir vaxtda Ermənistanla sərhədin Qazax ərazisində ermənilər Azərbaycan torpaqlarına soxularaq, II cəbhə açdılar. Burada da döyüşlər başladı. Xalq bu hadisələrdən qeyzə gəldi və ölkənin müxtəlif yerlərində qanlı erməni-müsəlman toqquşmaları baş verdi. Onlar daha çox Şamaxı, Şəki və Gəncə bölgələrini əhatə edirdi (155, 87).

Ermənilərin Qarabağda iğtişaş törətmələri Azərbaycan silahlı qüvvələrinin bu bölgəyə göndərilməsinə səbəb oldu. Bu üzdən də ölkə şimaldan hücum edən bolşevik ordusunun qarşısında müdafiəsiz qaldı. Serj Afanesyan yazır ki, müsavatçılar 30 minlik ordunu qırmızı ordunun hücumunun qarşısını almaqdan ötrü göndərmək əvəzinə onun dörddə üçünü Qarabağ sərhədlərinə  erməni iğtişaşlarını yatırmağa göndərmişdilər ki, nəyin bahasına olursa olsun, bu regionu qorusunlar. Bakıda yalnız 2 min nəfərlik bir qarnizon qalmışdı (43, 122).

Azərbaycan ordusunun Qarabağda olmasından sui-istifadə edən Moskva, 23 aprel 1920-ci ildə Azərbaycanın işğal edilməsi üçün fərman verdi. Fərmanda yazılmışdı: "Azərbaycan silahlı qüvvələrinin əsas hissəsi ölkənin qərb hissəsində döyüşlərdədir. Gələn məlumatlara görə, Yalama-Bakı yolunda yalnız azsaylı Azərbaycan hərbi qüvvələri mövcuddur. Bunu nəzərə alaraq, əmr edirəm:

a) XI ordunun komandanlığı 27 apreldə Azərbaycan sərhədini keçərək, sürətli bir hücumla Bakını işğal etsin. Yalama-Bakı əməliyyatı 5 gün müddətində başa çatmalıdır. Atlı cinah qüvvələri də Zaqafqaziya dəmir you xəttini ələ keçirmək üçün Kürdəmir məntəqəsinə göndərilsin;

b) XI ordu Abşeron yarımadasına çatanda, onun komandanının əmrinə əsasən, hərbi gəmilərin komandanı Raskulnikov, Ələt limanına dəniz piyadaları çıxarsın. Bakı, mövcud hərbi gəmilərin vasitəsi ilə sürətli bir əməliyyatla işğal olunsun. Neft sənayesinin sıradan çıxarılmasının qarşısı alınsın" (76, 146).

Sergey Kirov 27 apreldə XI ordudan olan 75 minlik bir kontingentlə Bakıya daxil oldu. Azərbaycan Demokratik Cümhuriyyəti süqut etdi. Bakının süqutundan sonra Azərbaycanın bir çox yerlərində işğalçılara qarşı xalq hərəkatı başladı. Azərbaycanın tarixinə qızıl hərflərlə yazılmış bu qiyamlar əksər hallarda ermənilərin xəyanəti və köməyi ilə yatırıldı. Məhəmməd Əmin Rəsulzadə yazır: "1 ay əvvəl müsavatçıların və digər millətçilərin ön gördükləri təhlükə ortaya çıxdı. Rus bolşevikləri köhnə rus sərhədinə tərəf irəliləyirdilər. İnqilabdan 1 ay sonra bütün azərbaycanlılar artıq bu acı həqiqəti dərk etmişdilər ki, ölkə dəhşətli bir işğala məruz qalmışdır. Xalq rus ordusunun Türkiyəyə girməsinə dözmüşdü, ancaq onun törətdikləri fitnə-fəsadı görüncə, məsələnin mahiyyətini tam çılpaqlığı ilə başa düşdü. Sevimli və gənc əsgərlərimiz böyük ruh və izzətlə xalqı qorumağa çalışır və təçkilatlanmış bir şəkildə məhv edilirdilər. Ziyalıların xalqla əlaqəsi qadağan edilirdi, insanların var-yoxu talan olunurdu. Milli adət-ənənələr, mədəniyyət, bütövlükdə heysiyyət amansız şəkildə tapdalanır və təhqir edilirdı. Buna dözməyən xalq, ayağa qalxırdı. Qiyam ilk öncə Gəncədə başladı. Gəncə qəhrəmanı Cavad xan son damla qanına qədər qəddar rus generalı Sisiyanova müqavimət göstərmişdi. Cavad xanın şəhəri Gəncə bu dəfə də

özünü göstərdi. Gəncənin üsyankar ruhu dözülməz təcavüzə qarşı ayağa qalxdı. Qiyamın əsasını silahlarını təhvil verməmiş Azərbaycan əsgərləri təşkil edirdi. Onlara Bakıdan da kömək getdi. Ancaq Gəncə ermənilərinin xəyanəti Gəncənin süqut etməsi ilə nəticələndi. Coşqun çaylarla qarşısı kəsilən camaat dəhşətli kütləvi qırğınla üzləşdi. Ruslar və ermənilər şəhəri yandırdılar. Bazar və dükanlar qarət edildi. Təcavüz edilməmiş irz və namus qalmadı.

Gəncə qiyamı ilə eyni vaxtda Azərbaycan hərbi hissələri Tərtər, Ağdam və Şuşada da xalq üsyanlarının özəyini təşkil edirdilər. Nəticədə Tərtərdə bir bolşevik polku məhv edildi. İşğalçılar Ağdamda da böyük tələfat verdilər. Qarabağ, Şəki, Zaqatala, Lənkəran, Quba və digər bölgələrdə də əhali bir neçə dəfə ayağa qalxdı. Lənkəran qiyamı aylarla sürdü. Zaqatala və Şəki üsyanları xüsusi amansızlıqla yatırıldı. Biz burada böyük üsyanlardan bəhs edirik, ancaq, əslində, Azərbaycanın elə bir guşəsi yox idi ki, orada insanlar rus işğalına qarşı qalxmasınlar. Onlardan bir çoxu xəyanət və qəfil zərbələr nəticəsində qeyri-mütəşəkkil və sistemsiz bir şəkildə ortaya çıxsa da, hər biri bir qəhrəmanlıq dastanıdır (155, 96).

Gəncə qiyamı və onun ermənilərin xəyanəti nəticəsində məğlub olması barədə "Zaqafqaziyada ingilis istismarı" kitabında, Britaniya Xarici İşlər nazirliyinin məxfi sənədləri əsasında ətraflı məlumat verilmişdir (67, 149).

May ayının 22-də gecə qiyamçıların komutanı polkovnik Kazım bəy, general Mirzə Məhəmməd Qacar, Cavad bəy Şıxlinski, Qacar Qənbər, Sarı Ələkbər və patizan dəstə başçılarından bir neçə nəfərlə birlikdə əməliyyat planı hazırlamaq və lazımi tədbirlər görmək üçün bir yerə toplaşdılar.

Həyata keçirilən əməliyyat nəticəsində 24 mayda Gəncədəki bolşevik ordusu qiyamçı qüvvələr tərəfindən tərksilah edildi və bütün şəhəri azad elədi. Vəziyyət belə olanda ruslar Gəncəyə Gürcüstan sərhədindən və Bakıdan kifayət qədər hərbi qüvvə göndərdilər. Şəhər toplardan ağır artilleriya atəşinə tutuldu. Buna baxmayaraq, şəhərin müdafiəçiləri 12 gün müqavimət göstərdilər. Sağ qalan qiyamçılar şəhəri tərk edərək, Qarabağ və Lənkərana keçərək, oradakı yerli partizanlara qoşuldular və mübarizələrini davam etdirdilər.

Gəncə qiyamında, hardasa, 15 min nəfər qətlə yetirildi, onların çoxunu qadınlar və uşaqlar təşkil edirdi. Sovet ordusunun tələfatı isə 8 min nəfər civarında idi (76, 150).

## QARABAĞIN 1923-CÜ İLDƏKİ MUXTARİYYƏTİ

28 may 1920-ci ildə Bakının süqutu ilə Şimali Azərbaycan kommunistlər tərəfindən işğal olundu. Çarizm dövründə, yəni əvvəlki 100 il boyu sürmüş zülm və istibdad sovet rejimində də davam etdi. Bu dövrdə də ruslar azərbaycanlılaraq etibar və etimad etmirdilər. Bunun əksinə olaraq, ermənilərə hər cür qayğı göstərilir və şərait yaradılırdı. Bununla bağlı saysız misallar gətirmək mümkündür. Ancaq Azərbaycan Sovet Sosialist Respublikasının ilk rəhbəri, Oktyabr inqilabının təşkilatçısı Leninin yaxınlarından biri və Azərbaycanda sovet rejiminin qurulmasında önəmli rol oynamış Nəriman Nərimanovun fikirləri olduqca maraqlıdır. O, Azərbaycan Sovet Sosialist Respublikasının yaranmasından 4 il sonra düz 28 may 1924-cü ildə öz qeydlərində yazmışdır "Erməni yoldaşlar, rus şovinistləri və Bakı təşkilatının rəhbərləri müsəlman fəhlələrindən istifadə edərək, cinayətkar bir siyasət həyata keçirirlər... Bunlar məlum proqrama uyğun olaraq, məqsədləri hər vasitə ilə Azərbaycan kimliyini gözdən salmaq və məhv etmk olan tanınmış şəxslərin əli ilə hər işə əl atırlar. Azərbaycanda daşnaq siyasəti hərtərəfli olaraq davam etdirilir. Mən zərrə qədər şübhə etmirəm ki, Rusiya Kommunist Partiyası Mərkəzi Komitəsi, Serqo Orcanikidzenin və Stalinin simasında biz türklərə etibar etmir, Azərbaycanın taleyini ermənilərə tapşırırlar. Təəccüblüdür ki, bu şəxslər xəyal edirlər ki, türklər tamamilə uşaqdırlar və bütün bunları başa düşmürlər" (168, 56).

Azərbaycana qarşı olan bu siyasət, bolşevik işğalının ilk günündən həyata keçirilirdi. Bununla bağlı Adri Al Elştad yazır: "Azərbaycan kommunist partiyası, əməli olaraq, Rusiya kommunist partiyasının ərazi şöbəsi hesab olunur. Ona görə də onun nə tam müstəqilliyi, nə də muxtariyyəti yoxdur. Ölkənin idarəçilik və dövlət işləri Azərbaycan türklərinə həvalə edilsə də, partiya təşkilatları rus və erməni bolşeviklər tərəfindən idarə olunur. Partiyanın yerli üzvlərinin sayı, qonşu respublikalarla müqayisədə çox azdır. 1925-ci ildə ərazi hakimiyyət orqanlarını yerliləşdirmək üçün uzun sürən cəhdlərdən sonra yenə də buradakı Azərbaycan türk üzvlərinin sayı heç yarıya da çatmırdı.

1921-ci ilin yayında rus əsilli Kirovun Azərbaycan Kommunist partiyasının I katibi seçilməsindən sonra Azərbaycanda Stalinin nüfuzu və fəaliyyəti daha da artdı.

Azərbaycan Kommunist partiyası Qafqazda I katibi rus olan yeganə təşkilat idi. Professor Paypz Vilanq, Zaqafqaziya partiya komitəsinin sədri Orcenikidze tərəfindən məhz Azərbaycana qəsd edilməsində ona Azərbaycan Kommunist partiyası və şəxsən Kirovun və ordunun kömək etdiyini sənədlərlə təsbit etmişdir. Bu qəsd müxtəlif yollar və üsullarla həyata keçirilirdi (144, 32).

Real hakimiyyətin partiya təşkilatına məxsus olması, onun başında Kirovun durması, Mirzoyan, Mirzobekyan kimi ermənilərin Azərbaycanda yüksək vəzifələrə təyin edilməsi, gələcəkdə bu torpağın, xüsusən də, onun ayrılmaz parçası olan Dağlıq Qarabağın başına fəlakət dolu bəlalar gətirdi.

Rus ordusu Azərbaycanı işğal edəndən 1 gün sonra Azərbaycan Sovet Respublikasının Müdafiə komissarı Davud Hüseynov, hələ də daşnaqların əlində olan Ermənistan Respublikasına belə bir ultimatum göndərdi ki, 3 gün müddətində hərbi qüvvələrinizi Qarabağ və Zəngəzurdan çıxarın. Orcenikidze, Kirov və Levandovskinin təsdiq etdiyi bu ultimatumda göstərilirdi ki, əks təqdirdə, Azərbaycan Sovet Sosialist Respublikasının Hərbi komissarlığı vəziyyəti Ermənistanla müharibə kimi qiymətləndirəcəkdir. General Dru, Hüseynovun tələbini qəbul etdi və ixtiyarında olan sursatı və ərzaq ehtiyatını ərazini idarə edəcək bolşevik ermənilərə təhvil verərək, 12 mayda Qarabağı tərk etdi. Qarabağ ermənilərinin X konfransı 26 mayda bolşeviklərin nəzarəti altında keçirildi və Qarabağ sovet ərazizi elan olundu.

Uzun əsrlər boyu Azərbaycanın 4 bəylərbəyiliyindən biri, Azərbaycan Demokratik Cümhuriyyəti dövründə (1918-1920-ci illər) də onun hakimiyyətində olmuş Qarabağ, tarixi və coğrafi baxımından ölkənin təbii bir parçası idi.

Ruslar Azərbaycan və Ermənistanı təkrar işğal edəndən sonra 1920-ci il may ayında Anastas Mikoyan, Leninə verdiyi hesabatda ermənilərin Qarabağın hər hansı bir hissəsinə iddialarını rədd etmiş və bildirmişdir ki, Qarabağla İrəvan arasında heç bir tarixi bağlılıq yoxdur. Qarabağ Azərbaycandan ayrılmamalıdır. Adri Al Elştad yazır ki, A.Mikoyan demişdir ki, İrəvan heç vaxt ermənilərin mərkəzi olmamış, əksinə, əsrlər boyu müsəlman türklərin yaşadıqları məkan olmuşdur (118).

Azərbaycanın sovet işğalından sonra Qarabağ Azərbaycanın tərkibində qaldı. 1920-ci il 20 dekabrda RSFSR

(Rusiya Sovet Federativ Sosialist Respublikası) ilə Ermənistan arasında bağlanan müqaviləyə görə, Rusiya tərəfi, Ermənitanın Yelizavetpol (Gəncə) regionunun Zəngəzur məntəqəsinə olan iddiasını dəstəklədi. Ancaq Qarabağ məsələsində bunu etmədi (118). İqrar Əliyev yazır ki, B.Medivani, Anastas Mikoyan və İ.Nuricanyan, Moskvaya-xarici işlər komissarı Çiçerinə və Orcenikidzeyə yazdıqları məktublarda bildirirdilər ki, mübahisə mövzusu və sovet Azərbaycanının tərkib hissəsi olan Qarabağ və Zəngəzur, şübhəsiz ki, qəti şəkildə gələcəkdə də Azərbaycanın tərkibində qalacaqdır.

Orcenikidze də bu fikirlə tam razı idi. O, Çiçerinə bildirmişdir ki, Azərbaycan, Qarabağ və Zəngəzurun dərhal və qeydsiz və şərtsiz ona verilməsində israr edir. Mənim fikrimcə də, bu, belə olmalıdır. Çünki hər iki region iqtisadi baxımdan Azərbaycana bağlıdır və İrəvandan tamamilə ayrıdır. Hər iki vilayətə Azərbaycan tərkibində muxtariyyət verilməlidir. Bu fikirlər Orcenikidzenin Leninə və Çiçerinə göndəriyi 19 iyun 1920-ci il teleqramda da öz əksini tapmışdır.

Dağlıq Qarabağ məsələsi dəfələrlə Rusiya Kommunist partiyasında, Qafqaz şöbəsində, Zaqafqaziya bölməsində, eləcə də, Azərbaycan Kommunist partiyasında müzakirə olunmuşdur.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi 10 iyul 1920-ci ildə Qarabağdakı vəziyyəti müzakirə edərək, xatırlatmışdır ki, hətta sovet hakimiyyətindən qabaq da Qarabağ kommunistləri, regionun sıx iqtisadi tellərlə Azərbaycana bağlı olmasına görə, onun Azərbaycana birləşdirilməsini zəruri hesab etmişlər. Eləcə də, Qarabağın erməni

kəndliləri onun Ermənistan birləşdirilməsindən imtina etmişlər (13, 90).

1 dekabr 1920-ci ildə İrəvanda daşnaq hökuməti süqut edəndən və Ermənistan Sovet Respublikası yaranandan sonra Qarabağ məsələsi yeni bir mərhələyə qədəm qoydu. Serj Afanesyan yazır ki, guya, Orcenikidze, Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanova istinad edərək, Zəngəzur və Naxçıvanın Ermənistan Sovet Respublikasına verilməsinə, Qarabağın isə Azərbaycanın tərkibində tam muxtariyyət olmasına tərəfdar olmuşdur (43, 184)[79].

Türkiyə ilə RSFSR (Rusiya Sovet Federativ Sosialist Respublikası) arasında 1921-cii il mart ayının 16-da bağlanan Moskva müqaviləsinə görə, Naxçıvan regionu III dövlətə verilməmək şərti ilə Azərbaycanın tərkib hissəsi kimi tanınmışdır (155,114).

Adri Al Elştad yazır: "Dağlıq Qarabağda muxtariyyət yaratmaq məsələsi əvvəl 1921-ci ilin yayında meydana gəlsə də, Azərbaycanın rəhbəri (Xalq Komissarları Sovetinin sədri) doktor Nəriman Nərimanov, 19 iyin 1921-ci ildə,

---

[79] Əlbəttə, bu iddia S.Afanesyan tərəfindən ortaya atılmışdır. N.Nərimanov, hər nə qədər bolşevik olsa da, milli ziyalı və dövlət xadimi olmuşdur. Zatən, ermənilərin saxta tarix yazmaları hər kəsə məlumdur. Bəzi mənbələr, guya, Naxçıvanın, hədiyyə kimi, N.Nərimanov tərəfindən Ermənistana verilməsi yalanını yaymışlar. Əvvəla, N.Nərimanov kimi dahi bir şəxsiyyət "Torpaqdan hədiyyə olmaz!" fikrini bilmirdi? İkincisi, bolşeviklər qəsbkar idilər, hər şeyi zorla, qoşunun əli ilə edirdilər. Hə, naxçıvanlılar işğalçı rus bolşevik ordusuna qarşı əldə silah döyüşmüşlər. Ancaq Naxçıvanda kimsə onların qərarına yox deyə bilərdi? Yerindəcə güllələyərdilər. Üçüncüsü, N.Nərimanovun hədiyyə qərarını təsdiqləyən bir sənəd varmı? (*Tərcüməçi*).

Qafqazda sərhədlər məsələsi ilə bağlı Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə müraciətində, bildirirdi ki, bu məsələ kontitusiyada kifayət qədər öz əksini tapmışdır, ayrıca bir ərazi strukturunun yaradılmasına ehtiyac yoxdur; Dağlıq Qarabağ hər zaman Azərbaycanın ayrılmaz bir parçası olaraq, qalacaqdır. Onun muxtariyyət hüquqları və səlahiyyətləri sovet konstitusiyası əsasında fəaliyyət göstərən ərazi partiya komitəsi müəyyən ediləcəkdir. Hər halda, 24 oktyabr 1921-ci ildə Azərbaycan Kommunist Partiyasının I katibi Sergey Kirovun sədrliyi ilə keçirilən büroda, Qarabağ muxtariyyətinin sərhədlərinin müəyyən edilməsi üçün ərazi, ordu, dəniz qüvvələri və daxili işlər komissarlarından ibarət xüsusi komissiyanın yaradılması barədə qərar qəbul olundu.

Belə aydın olur ki, Qarabağ məsələsi, əsasən, Azərbaycan türklərindən ibarət olan yerli idarəçilik strukturları ilə qeyri-türklərdən olan Azərbaycan Kommunist Partiyasının rərbərliyi arasında fikir ayrılığı və rəqabət mövzusuna çevrilmişdi. Ancaq diqqətə layiq olan odur ki, 1921-ci ilin oktyabr ayında baş verən bu hadisə göstərdi ki, bu partiyanın özünün bütün yerli təşkilatları üzərində tam hakimiyyəti vardır. Halbuki, yerli partiya təşkilatlarının müstəqil olması barədə iddialar səslənirdi. Hər halda, Qarabağ məsələsinin həlli 1 il çəkdi. Ola bilsin ki, bunun səbəbi Moskvada oturan yüksək rütbəli partiya funksionerlərinin Gürcüstan menşevikləri ilə olan fikir ayrılıqlarını yoluna qoymaq və Zaqafqaziya Federasiyası yaratmaq cəhdləri idi" (144, 32).

Sovet rejiminin başçıları qərara gəlmişdilər ki, Qarabağa muxtariyyət statusu versinlər. Ancaq N.Nərimanovun Bakıda olması bunu çox çətinləşdirirdi. Çünki fövqəladə

şəxsi keyfiyyətlərə malik olan N.Nərimanov, onlara Azərbaycanda xalqa zidd mənfur siyasətlərini həyata keçirməyə mane olurdu. N.Nərimanov 27 may 1924-cü ildəki şəxsi qeydlərinə əlavə edərək, yazırdı ki, Sergo Orcenikidze, Qafqaz siyasətini həyata keçirmək yolunda mövcud olan və məndən qaynaqlanan hər cür maneələri aradan qaldırmaqdan ötrü mənim Azərbaycandan uzaqlaşdırılmağımı istəyirdi. Mirzoyanla məsləhətləşən zaman, Mirzoyan ona bildirmişdi ki, biz Sizin razılğınızı gözləyirik. Razılıq versəniz, N.Nərimanovu buradan uzaqlaşdırarıq. Serqo razılıq verəndən sonra Xanbudaqov Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi seçilir. O, öz qohumlarını yerlərə ezamiyyətə göndərir və onlara tapşırır ki, heç yerdə N.Nərimanovdan bəhs etməsinlər. Bundan sonra Xanbudaqov, Mirzoyana məlumat verir ki, yerlərdə məsələ həll olunmuşdur. Mirzoyan, Orcenikidzeyə bildirir ki, artıq N.Nərimanovu Bakıdan uzaqlaşdırmaq olar. Bu minvalla məni daha yüksək vəzifəyə təyin etmək bəhanəsi ilə Moskvaya göndərdilər.

Beləliklə, bədbəxt Azərbaycan vicdansız düşmənlərin əlində oyuncağa çevrildi... Və daşnaqların Azərbaycandakı fəaliyyəti bu misallarla gerçəkləşməyə başladı...

Mirzoyanın təkidi ilə Dağlıq Qarabağ muxtaruyyəti yaradıldı. Halbuki, mən Bakıda olanda bunu edə bilmirdilər. Təkcə ona görə yox ki, mən buna müxalif idim; həm də ona görə ki, erməni kəndlilər də bunu istəmirdilər. Bu arada Mirzoyan öz daşnaq rəhbərlərindən müvafiq göstərişlər alaraq, lazımi zəmin hazırladı və məsələni Zaqafqaziya partiya komitəsinə çıxardı. Bundan sonra türk və erməni kəndlilər arasında münasibətlər pisləşdi (144).

Dağlıq Qarabağa muxtariyyət statusu verilməsi ilə bağlı Adri Al Elştad yazır ″1922-ci ilin dekabrında Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi bürosu, Zaqafqaziya patiya komitəsinin sədri Orcenikidzenin təklifi ilə Qarabağ muxtariyyəti məsələsini müzakirə etdi, bununla bağlı 3 nəfərdən (Kirov, Mirzəbekyan, Kuraquzov) ibarət komissiya yaradılması barədə qərar verdi. Büro, həmçinin, Kuraquzovun başçılığı ilə 7 nəfərdən ibarət digər bir komissiya da təşkil etdi. Bu komissiyaya Dağlıq Qarabağ ərazisində muxtariyyət yaradılması imkanlarını araşdırmaq həvalə edildi. Hər iki komissiyanın bütün üzvləri qeyri-türklər idilər. Kuraquzov 1920-1921-ci illərdə Qarabağ və ona qonşu Zəngəzurda fövqəladə komissar, 1922-1923-cü illərdə isə Ermənisatan Kommunist partiyasının rəhbərliyində olmuşdur. Yaradılmış komissiya 20 iyun 1923-cü ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə Qarabağda muxtariyyət yaradılması ilə bağlı hesabat təqdim etdi. Həmin hesabatda Qarabağın Azərbaycanın digər inzibati ərazilərindən ayrılmaqla, Daqlıq və Aran Qarabağı adı ilə 2 yerə bölünməsi təklif olunurdu. 10 gün sonra mərkəzi komitə Qarabağda muxtariyyət yaradıkması təklifi ilə çıxış etdi.

Bu minvalla 24 iyul 1923-cü ildə Qarabağ Muxtar vilayəti yaradıldı. Kurazquzov həmin tarixdən 1928-ci ilə qədər bu vilayətin xalq komissarları sovetinin sədri oldu. 1937-ci ildə isə bu qurumun adı dəyişilərək, Dağlıq Qarabağ Vilayəti qoyuldu. 1923-cü il iyun qərarına əsasən, Qarabağ muxtariyyatına qədim Dağlıq Qarabağ (Cavanşir, Şuşa, Cəbrayıl (köhnə Qaryagin), əvvəl Zəngəzur olmuş Qubad-

lının kiçik bir hissəsi) daxil idi. Bu tarixdən etibarən, rus işğalı unudulmuş kimi oldu və ərazidə yaşayan Azərbaycan və erməni xalqları arasında münasibətlər gün-gündən pisləşərək, əbədi düşmənçilik səvyyəsinə yüksəldi (144 ğəz)."

Məhz düşmənçilik siyasəti nəticəsində daşnaqlar və onların bolşevik havadarları Qarabağdakı azdaylı ermənilərə muxtariyyət statusu verdilər. Ancaq Ermənistanda 1918-ci il qətliamlarından sonra belə on minlərlə türkün yaşamasına baxmayaraq, onlara heç bir hüquq verilmədi.

Ermənistan İnqilab Komitəsinin və Xalq Komissarları Sovetinin sədri Aleksandr Myasnikyan bolşevik hakimiyyətinin əvvəllərində yazmışdır ki, Gürcüstan bolşeviklər zamanında ermənilərə istədikləri kimi əziyyət verirdilər, ancaq ermənilər, daşnaqların zamanında müsəlmanları sorğu-sualsız öldürürdülər. Çünki avropalı və amerikalı dayılarının göstərişləri belə idi. Çünki onlar "Parçala və hökm sür!" olmadan yaşaya bilməzlər (10, 3).

## QARABAĞ 1923-1988-Cİ İLLƏRDƏ

Moskvanın fitnəsi ilə Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması Azərbaycanın ərazisində türklərlə ermənilər arasında yeni nifaq toxumunun səpilməsi idi. Bu toxum 65 il sonra 1988-ci ildə öz bəhrəsini verdi. Nəticədə rusların hərtərəfli dəstəyi ilə külli miqdarda qətliamlar törədildi və Azərbaycan Respublikasının böyük bir hissəsi erməni daşnaqları tərəfindən işğal olundu.

Adri Al Elştada görə, hələ çarizm dövründə Moskvanın erməni-türk qarşıdurmasını qızışdırması, ona seyrçi qalması və bu zəmində baş verən müharibələr həm də dünyanın diqqətini Rusiyanın müstəmləkə siyasətindən yayındırmaq və diqqəti xalqlar arasında ixtilafa yönəltmək məqsədi güdürdü. Sovet dövründə eynilə davam etdirilən bu siyasət isə, Rusiyaya, saxta vasitəçi və sülhün təminatçısı rolu oynamağa və öz məkrli planlarını yerinə yetirməyə imkan verirdi. Həm də başları bir-birinə qarşı mübarizə və müharibəyə qarışan müstəmləkə xalqları Rusyaya qarşı birləşə bilmirdilər (144, 41).

Ruslar xalqlar arasında ayrıseçkiliyin və ixtilafın dərinləşməsi və kəskinləşməsində din amilindən də hər cür istifadə edirdilər. Məsələn, onlar erməni kilsəsinə hər cür şərait yaratdıqları halda, müsəlman məscidlərini daim nəzarətdə saxlayır, müsəlman ruhaniləri təqib edirdilər.

Azərbaycanda partiyanın II katibi hər zaman qeyri-türk (əsasən, rus) olurdu və əslində ölkə onun əli ilə idarə olunurdu. Halbuki, Ermənistanda II katib də erməni olurdu.

Ermənilərə ənənəvi əlifbalarından istifadəyə icazə verilmişdi, halbuki, Azərbaycanda əlifba dəfələrlə dəyişdirilmişdi.

Azərbaycan xammal bazası kimi istifadə edilirdi. Burada çıxan məhsullar xammal şəklində başqa respublikalara, xüsusən, Rusiyaya göndərilir və emal olunandan sonra onun bir hissəsi, təbii ki, dəfələrlə baha qiymətə, Azərbaycana qaytarılırdı. Bu vəziyyətə etiraz etmək isə mümkün deyildi, çünki işğalçı sovet (rus) ordusu hər an hər cür etirazı və üsyanı qan tökməklə yatırmağa hazır idi (144, 42).

Dağlıq Qarabağ Muxtar Vilyəti yaranandan sonra ermənilər hər zaman bu inzibati vahidin Ermənistan SSR-ə birləşdirilləsi üçün çalışmışlar. Hətta 1929-cu ildə bu məsələ ilə bağlı erməni əhalinin iğtişaşlara qaldırılmasına cəhd olunmuşdur.

1945-ci ildə Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin I katibi Arutunov (Haratunyan) Dağlıq Qarabağ Vilayətinin Ermənistan Sovet Sosialist Respublikasına birləşdirilməsi təklifi ilə çıxış etmişdir.

Bu təklifin ifadə olunduğu məktubu alan Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsi, onu Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin I katibi Mircəfər Bağırova göndərmişdir. Mircəfər Bağırov bu təklifə etiraz etmiş, ancaq cavabının sonunda yazmışdır ki, Şuşa xaric, Dağlıq Qarabağ Vilayətini Ermənistana o şərtlə vermək olar ki, Ermənistanda, azərbaycanlıların yaşadıqları 3

bölgə Azərbaycana birləşdirilsin, Zaqafqaziya və Qafqaz respublikalarının sərhədləri yenidən müəyyənləşdirilsin.

Bundan sonra nə Arutyunova, nə də Bağırova bir cavab verilmədi (144).

Yuxarıda haqqında bəhs olunan məktubun yazılmasından 3 il sonra 25 fevral 1948-ci ildə qəbul edilmiş SSRİ Konstitusiyasının 240-cı maddəsinə yazılmışdır: "Naxçıvan Muxtar Sovet Sosialist Respublikası və Dağlıq Qarabağ Muxtar Vilayəti, Azərbaycan Sovet Sosialist Respublikasının bir parçasıdır".

Stalinin ölümündən sonra 1954-cü ildə SSRİ-yə daxil olan respublikaların məhkəmə və qanunvericilik səlahiyyətləri artırıldı. O cümlədən, respublikaların nazirlər sovetlərinə əlavə hüquqlar verildi. Bu, bir sıra regionlarda, xüsusən də, Qarabağda milli hisslərin güclənməsinə səbəb oldu.

Nikita Xruşovun hakimiyyətə gəlməsi ilə bir çox ümummilli və beynəlxalq istiqamətlərdə yeniliklər və dəyişikliklər baş versə də, daxili problemlərin bir çoxu həll edilməmiş qaldı.

Qarabağda yaşayan ermənilərin adından 19 may 1964-cü ildə Xruşova yazılmış məktubda azərbaycanlıların, ermənilərin hüquqlarına təcavüz etdiklərindən bəhs olunurdu. O, cümlədən, guya, Azərbaycanın bu bölgəsinin inkişafı qayğısına qalınmır, qarabağlılar, mənbələrin məhdudluğu və gerilik səbəbi ilə başqa rayonların inkişafına cəlb edilirlər, ərazinin su ehtiyatları başqa yerlərdə istifadə olunur və yerli mədəni məsələlər təlimatlar əsasında həll edilir.

Ona görə də Xruşovdan xahiş edilirdi ki, vilayəti Ermənistana birləşdirilsin, yaxud da Azərbaycan hakimiyyətindən uzaqlaşdırılsın (144, 170).

Halbuki, həmin dövrdə Dağlıq Qarabağda böyük inkişaf baş vermişdi. Behnaz Əsədi Kiya yazır: "Dağlıq Qarabağ iqtisadiyyatı diqqətəlayiq dəyişikliklərə uğramışdı. 1953-cü ildə Kür çayı üzərində su elektrik stansiyası tikilmişdi. Mingəçevir su anbarı 16 milyon $m^3$ su tuturdu. O, 606 $km^2$ ərazini əhatə edirdi. Su anbarının maksimum dərinliyi 75 metr idi. Buradan çəkilən Dağlıq Qarabağ kanalının uzunluğu 175 kilometrə çatırdı. O, su anbarı ilə Araz çayını birləşdirirdi. Kanal 100 min ha məhsuldar ərazini suvarmağa imkan verirdi. Bundan başqa, isti yayda Arazı su ilə təmin edirdi.

1976-cı ildə Tərtər çayı üzərində su elektrik stansiyasının tikilməsi ilə Dağlıq Qarabağda heyrətamiz dəyişikliklər baş verdi. Qarabağın kənd təsərrüfatı üzüm, taxıl, tütün, heyvandarlıq, bağçılıq, arıçılıq, barama qurdu yetişdirmək sayəsində böyük rol oynayırdı. 1978-ci ildə bu vilayətdə 48 kolxoz, 26 sovxoz fəaliyyət göstərirdi. Ərazinin 20,2 min hektarını barlı və barsız meşələr, 1,8 min hektarını əkin sahələri, 101,7 min hektarını isə heyvandarlıq sahələri tuturdu.

Taxıl, Dağlıq Qarabağın bütün ərazilərində, tütün isə Mardakertdə istehsal edilirdi. Buradakı üzüm bağları inkişaf etmiş və mexanikləşdirilmiş üsullarla becərilirdi (139, 178)."

SSRİ-nin 1977-ci ildə qəbul edilmiş Konstitusiyasının 78-ci maddəsinə əsasən, müttəfiq respublikanın razılığı olmadan, onun ərazisi dəyişdirilə bilməz.

Həmin Konstitusiyanın 87-ci maddəsinə görə, "Dağlıq Qarabağ vilayəti, Azərbaycan Sovet Sosialist Respublikasının tərkib hissəsidir".

11 mart 1985-ci ildə Mixail Qorbaçovun Sovet İttifaqı Kommunist Partiyasının baş katibi seçilməsi ölkədə böyük dəyişikliklərin baş verməsi ilə nəticələndi və sonunda sovet imperiyası dağıldı. Bu çərçivədə Dağlıq Qarabağ məsələsi yenidən gündəmə gəldi və uzun sürən faciələrə gətirib çıxardı. Helen Kaver Dankus yazır ki, 1988-ci ilin fevral ayından Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətindəki etnik toqquşmalar haqqında məlumatlar bütün dünyaya yayılmağa və Qafqaz regionunda daxili müharibələr alovlanmağa başladı.

Qorbaçov, hakimiyyətə gələndən sonra 25 fevral 1986-cı ildə keçirdiyi ilk partiya qurultayında sələfi Brejnevin bütün fəaliyyətini başdan ayağa tənqid etdi.

Aşkarlıq və yenidənqurma ideyalarının (islahatlarının) banisi Qorbaçov da, özündən əvvəlki erməni-müsəlman düşmənçiliyini qızışdırmaq siyasətini davam etdirirdi. Adri Al Elştad yazır: "Çarizm kimi, sovet dövləti də Azərbaycan və Ermənistandakı milli münasibətlərə xüsusi diqqət ayırırdı. Qorbaçov şəxsən bu məsələni ermənilərlə aylarla müzakirə etmiş, onların fikir, düşüncə və planları ilə tanış olmuş, hətta Azərbaycandan xaricdə belə "antiermənilər"ə qarşı tədbirlər görmüşdür" (144).

Qorbaçov, antitürk və antimüsəlman siyasətində daha çox özünün iqtisadi məsələlər üzrə müşaviri Aqambekyanın təsiri altında idi. Məhz bu təsirin nəticələrindən biri idi ki, Bakıda, birbaşa Qorbaçovun göstərişi ilə sovet ordusu tərəfindən dinc əhaliyə qarşı, sonralar "Qara yanvar"adlı kütləvi qırğınlar törədildi. Qorbaçov bu qırğını törətməklə, özündən əvvəlki antiazərbaycan rus siyasətini pik nöqtəsinə çatdırdı.

Parisdə yaşayan, əslən təbrizli olan jurnalist fotoqraf Rza Deqqəti, misli görünməmiş bir səylə faciəli Bakı həqiqətlərinin dünyaya çatdırılmasında əvəzsiz bir xidmət göstərmişdir. Onun bu sahədəki hesabatları (təqdimatları) bir romanı, hətta senaryosu Rza Həqiqi tərəfindən yazılmış bir Hollivud filmini xatırladır. "Azərbaycan İnternəşinol" jurnalının baş redaktoru Beti Bleyr yazır: "Azərbaycanlılar, Bakı qırğınını qanlı yanvar adlandırırlar. O zaman tanklar və sovet ordusu Bakı küçələrini nura qərq olmuş görmüşdülər. Sovet qoşunlarının "Zərbə" əməliyyatının məqsədi Azərbaycandakı milli azadlıq hərəkatını qan içində boğmaq idi. Bu əməliyyat ilə 1990-cı ildə yanvarın 19-dan 20-ə keçən gecə sadə insanların sovet ordusu tərəfindən qətliamı həyata keçirildi. Bu gün belə, üstündən  onilliklər keçməsinə baxmayaraq, o kütləvi qırğının pərdəarxası tam açılmamış, günahkarlar lazımi cəzalarına çatdırılmamışdır. Sovet İttifaqının dağılması ərəfəsində bu qırğınla bağlı sənəd və materiallarla dolu möhürlənmiş 200 qutu Moskvaya aparılmışdır.

Qara yanvar Azərbaycanda sovet hökumətinin sonunun başlanğıcı oldu. Kommunist partiyasının üzvlərinin əksəriyyəti öz partiya biletlərini yandırdılar. Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Büro üzvü Heydər Əliyev, o zaman çıxış edərək, Bakı qırğınına görə Qorbaçovu günahlandırdı. O zaman sovet hökuməti Bakı qırğınını beynəlxamq aləmdən gizlətmək üçün əlindən gələni edirdi. Lakin gündəlik xəbərləri dünyaya çatdıran "Azadlıq" radiosunun aparıcısı Mirzə Xəzər və onun balaca kollektivi, eləcə də jurnalist fotoqraf Rza Dəqiqinin səyləri nəticəsində dünya Bakı qırğınından xəbərdar oldu" (164, 131).

"Əl-aləm" jurnalının müxbiri Əs`əd Təh yazır ki, 11 fevral 1988-ci ildə ermənilər Qarabağ və onun Ermənistana ilhaq edilməsi haqda məlumatı dünyaya çatdırdılar. Bununla bağlı Qarabağın mərkəzi Xankəndi şəhərində nümayişlər başladı. Bu, erməni-azərbaycanlı qarşıdurması ilə nəticələndi və qarşılıqlı tələfat oldu. Qarşıdurmalar 2 il davam etdi. Sonunda, elan olunmuş hərbi vəziyyətə baxmayaraq, erməniləri himayə edən mərkəzi hökumətə, rus ordusuna və şəxsən Qorbaçova qarşı ümumxalq nifrəti Bakıda misli görünməmiş izdihamlı bir meydan hərəkatına çevrildi. Bunun ardınca 20 yanvarda dünya Bakıda sovet ordusu tərəfindən törədilmiş qırğın haqda məlumat əldə etdi.

Bakı qırğınının şahidlərindən birinin dediklərindən: "Tanklar, arxasında günahsız insanların sığındıqları barrikadaları aşaraq, hər tərəfə atəş açmağa başladılar. Onlar yolları üzərində olan hər kəsi əzib keçdilər, küçələrdə işıq

gələn hər bir pəncərəyə və evə atəş etdilər. Hətta təcili yardım maşınları və həkimlər gülləbaran edildilər...” (45).

Qərbin təbliğat maşınları yenə də ermənipərəst mövqeyi nümayiş etdirdilər. Onların nümayəndələri qonaq sifəti ilə Qarabağa gəlir, buradakı nümayişçilərin sayını artırır və daha uca səslə Qarabağın Ermənistana ilhaq edilməsini tələb edirdilər. Qərb, erməni bölücülərini azadlıq uğrunda mübarizlər, Qarabağın həqiqi sahibləri olan türkləri isə qəddar işğalçı kimi təqdim edirdi. Məşhur rus siyasi müxalifi Saxarov, timsah göz yaşları axıdaraq deyirdi: “Dünya sülh və azadlıq tərəfə gedirkən, Azərbaycanda bəziləri islama qayıtmaq istəyirlər”. Hər kəs uca səslə bağırırdı ki, ey mədəni və azad düşüncəli ermənilər! Azərbaycanlılar sizin haqlarınıza bədxah zərbələr vururlar (104)!

# QARABAĞ 1988-Cİ İLDƏN SONRA

Qorbaçovun aşkarlıq və yenidənqurma siyasətindən sonra ermənilər Daqlıq Qarabağın Azərbaycandan ayrılması və Ermənistana ilhaq edilməsi məsələsini aydın şəkildə ortaya qoydular. Onların bu sahədəki fasiləsiz səyləri bir çox azərbaycanlıların öldürülməsi və Azərbaycan torpaqlarının 20 %-dən çoxunun işğalı və 1 milyondan artıq Azərbaycan türkünün öz tarixi dədə-baba yurdlarından qaçqın və didərgin düşmələri ilə nəticələndi.

Əslində, bu prosesin əsası xeyli əvvəl müxtəlif üsullarla torpaqşünas Suren Eyvazyan, yazıçı Zori Balayan, tarixçi Sergey Mikoyan və başqaları tərəfindən qoyulmuşdu. Hələ 1979-cu ildə Dağlıq Qarabağla bağlı erməni yazıçısı Sero Hanzanyan, Brejnevə geniş bir məktub göndərmişdi.

Daha sonra Xankəndi və İrəvanda kütləvi çıxışlar olmuş, Qarabağ komitəsi fəaliyyətə başlamışdır.

"Kommunist" qəzetinin[80] müxbiri, Dağlıq Qarabağın Kolanı kəndində doğulub böyümüş və həmin günlərdə Xankəndidə olmuş Ziyəddin Sultanov, o hadisələri özünün "Qarabağ gündəliyi"[81] kitabında ətraflı təsvir etmiş və 1991-ci ildə Bakıda çap etdirmişdir. O, yazır ki, əslində, Qarabağ məsələsi çox əvvəllər başlamış, 1988-ci ilin yanvar

---

[80] Sovet rejiminin dağılmasından sonra bu qəzetin adı dəyişdirilərək, "Xalq qəzeti" qoyulmuşdur.

[81] Əsər bu kitabın müəllifi tərəfindən fars dilinə tərcümə olunaraq, 1972-ci ildə Təbrizin "Əhrar" qəzetində hissə-hissə çap olunmuşdur.

ayında Ağdərə rayonunun Sırxavənd kənd sakini olan bir neçə gənc heç bir səbəb olmadan rayon mərkəzində ermənilər tərəfindən döyülmüşdür. Səbəb olaraq, deyilmişdir ki, bura erməni torpağıdır və biz burada türklərə xidmət etmirik. Həmin vaxt müxbir postuna gələn azərbaycanlı gənc bir həkimin bu sözləri heç yadımdan çıxmır: "Təyinat üzrə Əsgəran rayonuna gəlmişəm. Burda həkim kimi çalışıram. Partiyaya keçmək üçün ərizə yazıb, rayon partiya komitəsinin I katibinin razılığını almaqdan ötrü onun qəbuluna getdim. I katib mənə dedi ki, get öz yerində-Ağdamda işlə, orada da partiyaya üzv ol. Onsuz da, tez, ya gec buradan köçməyə məcbur olacaqsınız...".

Dağlıq Qarabağ hadisələri başlayandan sonra rəsmi sənədlərdə, hesabatlarda, məruzələrdə, mətbuatda tez-tez "sosialist iqtisadiyyatının çətinlikləri" ifadəsi işlədilir. Hətta sonralar Qarabağ komitəsinin sədri Arkadi Volski öz çıxışlarından birində demişdir ki, mən ölkənin heç bir yerində belə viran məntəqə görməmişəm. Doğrudan da, belə idi? Təəssüflər olsun ki, yox! Əslində, erməni rəhbərlər "sosialist iqtisadiyyatının çətinlikləri" ifadəsini tez-tez işlətməklə, 10 illərlə üzərində işlədikləri namərd planlarını örtbasdır etməyə çalışırdılar. Burada bəzi müqayisəli rəqəmləri sadalamaq yerinə düşər. Son 15 ildə Dağlıq Qarabağın sənaye iqtisadı 3 dəfədən artıq böyümüşdür. Ərzaq məhsulları, yüngül və maşınqayırma sənayeləri daha çox inkişaf etmişdir. Bu dövrdə ümumi sənaye istehsalının artımının 80 %-dən çoxu bu bölgənin payına düşmüşdür. Vilayə-

tin sürətli inkişafı maşın və avadanlıqlarla təchizat sayəsində mümkün olmuşdur. Son 3-5 il müddətində əsas sənaye sahələrinə sərmayə qoyuluşu əvvəlki 3-5 illə müqayisədə 3 dəfə artmışdır.

Respublikada adambaşına düşən orta xidmətlər vilayətdə daha yüksək səviyyədə olmuşdur. Həmçinin, burada məktəbəqədər uşaq tərbiyə müəssisələri, kino-teatrlar, kitabxanalar və digər mədəni və sosial obyektlərin sayı respublikanın digər regionları ilə müqayisədə artıq idi.

Ərzaq məhsulları ilə təminatda Xankəndi şəhəri, Bakıdan sonra II yeri tuturdu.

Ermənilərin Dağlıq Qarabağda, Azərbaycandan ayrılmaq və Ermənistana birləşməklə bağlı referendium keçirmək tələbinə Moskva tərəfindən razılıq verilməməsindən sonra vilayətin məclisi (xalq deputatları soveti) 20 fevral 1988-ci il tarixdə iclas keçirərək, Azərbaycandan ayrılmaq və Ermənistana birləşmək haqda səlahiyyətlərinə aid olmayan bir qərar qəbul etdilər. Halbuki, həmin iclasda 30 türk üzv, ümumiyyətlə, iştirak etmirdi (196, 74).

21 fevral 1988-ci ildə Ağdam şəhərinin bir qrup sakini Əsgərandakı mitinqə baxmağa gedərkən, yolda onlardan 2 nəfəri (16 yaşlı Bəxtiyar Əliyev və 23 yaşlı Əli Hacıyev) ermənilər tərəfindən qətlə yetirilir.

26 fevral 1988-ci ildə Qarabağdan qaçmış bir qrup azərbaycanlı, respublikanın sənaye şəhərlərindən biri olan Sumqayıta gəlir və burada ermənilərlə azərbaycanlıların toqquşması baş verir. Növbəti gün Qarabağdan gələn qaç-

qınlar, şəhər məclisinin binasının qarşısına toplaşır. Mitinqdə Sumqayıtda yaşayan ermənilərin şəhərdən çıxarılması şüarı irəli sürülür. Tanınmış şair Bəxtiyar Vahabzadə və digər ziyalılar camaatı sakitləşdirməyə çalışsalar da, bu, mümkün olmur. Sumqayıt həyəcanı 3 gün davam edir. Nəticədə bir qrup insan yaralanır və ya öldürülür.

1988-ci ilin noyabr ayında ermənilər Şuşanın tarixi əsərlərinə qarşı, o cümlədən, Topxana meşəsi və Cıdır düzündə vandalizm aktları törədirlər. Ziyəddin Sultanov yazır ki, bir neçə gündür ki, ermənilər misilsiz təbiət mənzərəsi olan Topxana meşəsində namərdcəsinə vəhşilik edirlər: gecə-gündüz traktor və buldozerlərlə torpağın altını üstünə çevirir, az tapılan gülləri, çiçəkləri və ağacları məhv edir, meşənin ağaclarını daşıyırlar. Topxana qanadı qırılmış quşa dönmüşdür. Əsgəran rayonunun erməni rəhbərləri bəyan edirlər ki, burada Ermənistan Respublikasının aliminium zavodlarından biri, emalatxana və istirahət mərkəzi tikiləcəkdir... Axı, Topxana təkcə bir meşə, gözəl təbiət deyildir; o, həm də Azərbaycan xalqının tarixi, ədəbiyyatı və mədəniyyəti ilə bağlı müqəddəs bir məkandır!... Topxana Azərbaycan türkünün qəhrəmanlıq və gözəllik rəmzidir!...

Əs`əd Tə yazır ki, Ermənistan 3 dekabr 1988-ci ildə Spitak şəhərində baş vermiş zəlzələdən ən yaxşı şəkildə sui-istifadə etdi. Belə ki, yardım adıyla hava nəqliyyatı vasitsəsi ilə Ermənistana çoxlu silah və sursat daşındı. Adətən, gələn təyyarələr Moskvaya enməli, orada yoxlamadan keçdikdən sonra İrəvana uçmalı idilər. Həmin vaxt bu qaydaya əməl olunmadı və təyyarələr birbaşa İrəvana uçurdular (104).

Moskva, Dağlıq Qarabağda ermənilər tərəfindən baş verən qanunsuzluqların və cinayətlərin qarşısını almaqdan ötrü konkret tədbirlər görmək əvəzinə, orada Qarabağ komitəsi adlı xüsusi idarəçilik üsulu yaradaraq, ermənilərin özbaşınalıqlarının daha sürətlə və daha geniş miqyasda və daha qəddarcasına davam etmələrinə münbit şərait yaratdı (144). Belə ki, SSRİ Ali Sovetinin 12 yanvar 1989-cu il tarixli qərarı ilə, Dağlıq Qarabağ Muxtar Vilyəti, Azərbaycanın tərkibində qalmaqla, Volskinin rəhbərliyi altında birbaşa Moskvaya tabe olan xüsusi idarəçilik üsulu-9 nəfərdən ibarət (5 nəfər Moskvadan, 3 nəfər erməni və 1 azərbaycanlı olmaqla) Qarabağ komitəsi yaradıldı. Moskva, yalnız 1990-cı ilin payızından başlayaraq, Azərbaycan məqamları ilə müzakirələr aparmağa başladı və Dağlıq Qarabağın tabeçiliyini yenidən Azərbaycana qaytardı.

Əs`əd Təh yazır ki, zamanı uyğun görən Ermənistan, Azərbaycana qarşı geniş miqyaslı hərbi əməliyyatlara başladı. Azərbaycanın 10 şəhərindən keçməklə, Dağlıq Qarabağı Ermənistana birləşdirən yolu da işğal etdi.

Ermənistan bu təcavüzdə Qərbin və Amerikanın himayəsinə də arxalanırdı (104 Səlam).

Amerika, Ermənistanı yaxşı tanımasına baxmayaraq, Azərbaycana qarşı müəyyən şərtlər, o cümlədən, insan və etnik azlıq hüquqlarının tanınması və xalqların öz müqəddəratını təyin etmək hüququnu irəli sürür.

Erməni-türk müharibələrində Ermənistan, sovet qoşunlarından da lazımi dəstək alırdı. Bunu sovet (rus) zabitləri də dəfələrlə etiraf etmişlər. 26 fevralda törədilən Xocalı

soyqırımında ermənilərlə bərabər rus hərbçiləri də iştirak etmişlər. Bu soyqırımda 1000-dən artıq insan vəhşicəsinə və xüsusi amansızlıqla qətlə yetirilmişdir.

Ermənistan azərbaycanlılara qarşı ixtisaslı muzdurlardan da istifadə edirdi. Hətta bu muzdurların bir çoxu Avropa və Yaxın Şərq ölkələrindən gətirilirdi. Azərbaycan Respublikası prezidentinin köməkçisi Əsgər Ağayevin sözlərinə görə, cəbhə xəttindən əldə olunan radio dinləmələrində ərəbcə danışıqlara da təsadüf edilir.

Bütün bu antiazərbaycan, antitürk proseslərdə ermənilərin ən yaxın dəstəklərindən biri də onların avropalı havadarlarının təbliğat kompaniyalarıdır. Bu kompaniyalarda həyasızcasına iddia olunur ki, guya, Qarabağ erməni torpağıdır və guya, Azərbaycan oranı işğal etmək istəyir.

Məsələnin ən pis tərəfi isə odur ki, müsəlman, xüsusən, ərəb mətbuatı, Avropa mətbuatının yalan və məqsədli təbliğat materiallarını və məlumatlarını tirajlamaqla məşğuldur (104).

İran İslam Respublikasının İnformasiya Agentliyinin müxbirinin Bakıdan verdiyi xəbərə görə, Ermənistanın Qarabağ bölgəsində 30 minə yaxın hərbi kontingenti mövcuddur. Onların 8 min nəfəri Ermənistan Respublikasının əsgərləri, qalanı isə daşnaqlardan ibarət tam təchizatlı və silahlı dəstələrdir. Burada döyüşən xarici muzdurların hər birinə gündəlik 400 dollar əmək haqqı verilir. Son günlər Ermənistan ordusunun, Azərbaycanın cənub-qərb zonasın-

da yerləşən Beyləqan rayonuna hücumunda Suriyadan gəlmiş 2 batalyon hərbçi muzdur da iştirak etmişdir (108 ruz"Resalət". 1372).

Azərbaycana qarşı döyüşlərdə rus hərbçiləri də ermənilərlə çiyin-çiyinə döyüşürlər. Onlar Azərbaycan torpaqlarının işğalında əsas rol oynamışlar.

Öz amansızlığı, qəddarlığı və vəhşiliyi ilə analoqu olmayan Xocalı qətliamı ilə bağlı "Sirdaş" qəzeti yazır: "1992-ci il fevralın 25-dən 26-a keçən gecə Qarabağda yerlər və göylər qan ağlayırdılar. Həmin gecə XX əsrin ən böyük faciəsi baş verdi. Erməni silahlı birləşmələri, rus ordusunun 366-cı moto-atıcı polku ilə birlikdə müsəlman türklərin yaşadıqları Xocalı şəhərini yerlə bir etdilər. Şəhər sakinləri tankların və piyadaların döyüş maşınlarının altında əzildilər. Uşaqlara, qadınlara və qocalara belə aman verilmədi, mülki şəxslər ucdantutma güllləbaran olundu. Sağ ələ keçirilən əsirlərin və yaralıların dırnaqlarını kəlbətinlə çıxarırdılar. Meyitlərin qulaqlarını kəsir, gözlərini oyurdular. Bu insanların günahı nə idi. Onların hamısının yalnız bir günahları vardı: onlar türk və müsəlman idilər.

Xocalı, Ağdam, Şuşa, Xankəndi və Əsgəran yolunun üzərində yerləşən və xüsusi əhəmiyyət daşıyan strateji bir qəsəbə idi. İllər öncə bu qəsəbədə 7 mindən artıq əhali yaşayırdı. Ancaq son illərdə sənaye müəssisələrinin burada filialları açılmış, əhali xeyli artmışdır. Qarabağ hava limanı bu şəhərdə yerləşirdi.

Xocalı qətliamında ruslar və ermənilər tərəfindən minlərlə insan qətlə yetirildi, minlərlə insan əsir götürüldü"(108). Bu günə qədər həmin əsirlərin taleyi naməlumdur.

6 may 1992-ci ildə Ermənistan Respublikası prezidenti Levon Ter-Petrosyanla Azərbaycan Respublikası Milli Məclisinin sədri Yaqub Məmmədov arasında Tehranda 8 maddəlik bir anlaşma imzalanmasından bir neçə saat sonra erməni hərbi birləşmələri Şuşa şəhərinə hücum etdi və oranı ələ keçirdilər. Bununla da, Azərbaycan Dağlıq Qarabağ üzərindəki hakimiyyətini tam itirdi və Tehran anlaşması kağız üzərində qaldı.

Ermənilər, Azərbaycan torpaqlarını işğal edərkən, heç bir cinayətdən çəkinmirdilər. Onlar hətta kütləvi qırğın silahları olan və dünya birliyi tərəfindən istifadəsi qadağan edilmiş kimyəvi və zəhərli silahlardan da istifadə edirdilər. "Sirdaş" qəzetinin verdiyi məlumata görə, erməni quldur dəstələri 1992-ci ilin aprel ayından bu yana qısa müddətdə azərbaycanlılara qarşı 28 dəfə zəhərli raketlərdən istifadə etmişlər. Ona görə həmin ilin iyun ayında cəbhə xəttindəki Azərbaycan hərbçilərinə özlərinin və ailə üzvlərinin qaz əleyhinə masklardan istifadəsi tövsiyyə olunmuşdur. Çünki VII rus ordusu tərəfindən Ermənistan ordusuna kimyəvi silahlar verilmişdir.

Sovet İttifaqı dağılandan sonra da, Moskva, çarizmin, sovetlərin antitürk siyasətini, həm də, daha da qabarıq, ancaq əksər hallarda yarımgizli yollar və vasitələrlə davam etdirmiş və bu gün də davam etdirməkdədir.

1990-cı illərdə Rusiyanın Ermənistan Respublikasında hərbi bazası yerləşdirilmişdir (109).

Belə görünür ki, ermənilər, Avropadakı havadarlarının və rus hərbçilərinin köməyi ilə hələ regionda çox günahsız qanların axıdılması və daha çox ərazilərin işğalı xəyalındadırlar. Rusiya isə öz eksponsionist siyasətindən əl çəkmək fikrində deyildir.

Ən böyük faciə isə odur ki, 100 illər boyu Rusiya diplomatiyasının ana xətti olan şovinizm bu gün də davam etməkdədir. Bu mənada günümüzdə millətçi, kommunist və demokrat olmasından asılı olmayaraq, bütün rus siyasətçiləri köhnə sovetlərin sərhədlərinin bərpasında həmfikirdirlər (50, 115).

# MƏNBƏ VƏ MƏXƏZLƏR


**Azərbaycan dilində**

1. Abbasqulu Ağa Bakıxanov. Gülüstani-İrəm.
2. Araslı Həmid, Xaqani Şirvani. Bakı: Yazıçı. 1983.
3. Azərbaycan tarixi, qədim dövr.
4. Azad Nəbiyev. Qaçaq Nəbi, Bakı. 2001
5. Azərbaycan ədəbi dilinin tarixi.
6. Camal Gökcə, Qafqaz və Osmanlı imperatorluğu.
7. C.Heyət. Türk dili və ləhcələrinin tarixi.
8. Əhməd bəy Cavanşir. 1747-1805-ci illərdə Qarabağ xanlığının siyasi mövcudiyyəti / Qarabağnamələr. I kitab. Tərtibçi: A.Fərzəliyev. Bakı: Yazıçı. 1989. 190 s.
9. Faruğ Sumer. Qaraqoyunlular.
10. Firudin Şuşinski. Seyid Şuşinski. Bakı: 1991.
11. Göyüşov R.
12. Xəlilov H.D. Qarabağın elat dünyası. Bakı: 1992.
13. İqrar Əliyev. Dağlıq Qarabağ. Bakı: 1989.
14. İsayev Ə. Gəncə və gəncəlilər. Bakı: Azərnəşr. 1991
15. Kərim Odər. Azərbaycan.
16. Qarabağın keçmişinə səyahət. Bakı: 1993.
17. Quliyev N. Azərbaycanda insan yaranmasından feodalizmə qədər.
18. Mirzə Adıgözəl bəy. Qarabağnamə.
19. Mirzə Camal Cavanşir, Qarabağnamə.

20.Camal Gökcə, Qafqaz və Osmanlı imperatoruğu.
21.Övliya Çələbinin səyahətnaməsi. III c.
22.Sami Şemseddin. Qamusi-əl-Elam. İstanbul: İkdam. 1899. 1594 s.
23.Sultanov Ziyəddin. Qarabağ gündəliyi.
24.Şərq xilafəti ölkələrinin tarixi coğrafiyası.

**Fars dilində**

25 ابراحیم فایقی. آذربایجان در مسیر تاریخ ایران.
26 احمد سلیمی فرد. شبستر.
27 احمد کسروی. تاریخ انقلاب مشروطه.
28 احمد کسروی. شهریاران گمنام.
29 ادبیات شفاهی آذربایجان. ترجمه ح.روشن. مجله "دنیا".
30 آدری آل الشتاد.
31 ادوارد براون. از سعدی تا جامی.
32 ارتشبد حسین فردوست.ظهور و سقوط سلطتنت پهلوی. جلد 1 .
33 اردوبادی م. س. سالهای خونین. مترجم صمد سرداری نیا. مجله "وارلیق".
34 از استقلالیت ارمنستان، آذربایجان و گرجستان تا برقراری رژیم شوروی. مترجم عبدالرضا هوشنگ مهدوی.
35 از پیدایی انسان تا رسای فؤدابیسم در آذربایجان. ترجمه ح.صیق. ص. 35-14 .
36 از ماست که بر ماست.
37 استانفرد جی شاو و ازل کورال شاو. تاریخ امپراطوری عثمانی و ترکیه معاصر. جلد 2 .
38 استخری ابواسحق. المسالک الممالک.
39 اسداف ف، کریم اوا س. آورندگان تساریزم به آذربایجان. مترجم امیر عقیقی بخشایشی.
40 اسنادی از روابط ایران با منطقه قفقاز.
41 اشپولر. تاریخ منقل در ایران.
42 اشرفیان ک.ز. دولت نادر شاه افشار.

43 آفانسیان سرژ. ارمنستان، آذربایجان و گرجستان: از اسقلال تا استقرار رژیم شوروی. مترجم عبدلرضا هوشنگ مهدوی.
44 افشار ا. آ. تاریخ آذربایجان.
45 العالم. 11 آوریل 1992 . مترجم هادی. روزنامه "سلام". 06 .05 .1371 .
46 آناهید میناسیان. قفقاز در تاریخ معاصر. ترجمه کاوه بایات و بهنام جعفری. 1371 .
47 آناهید میناسیان. قفقاز در تاریخ معاصر. جلد 1 . به کوشش کاوه بایات. 1377 .
48 آناهید میناسیان. قفقاز در تاریخ معاصر. جلد 2 . به کوشش کاوه بایات. 1377 .
49 بهرام امیر احمدی. پیشین.
50 بهران قره باغ.
51 بهزادی بهزاد. فرهنگ آذربایجان.
52 بهزادی رفیقه. طوایف قدیم در آسیای مرکزی و دشتهای ایران.
53 پاسدار ماچیان. تاریخ ارمنستان. مترجم محمد قاضی.
54 پرویز زارع شاهمرس. فرهنگ و تعامل فرهنگی. زنجان. عمید زنجانی. 1373 .
55 پناهی سمنان. آقا محمد خان قاجار.
56 پناهی سمنان. تیمور لتگ.
57 پناهی سمنان. شاه اسماعیل صفوی.
58 پناهی سمنان. نادر شاه.
59 پیر آمیه. الام. به زبان فرانسه.
60 تاهرزاده بهزاد.
61 تاریخ آذربایجان. جلد1 . ترجمه دکتر نصرالله اسحقی بیات.
62 تاریخ ایران. دانشگاه کمبریج. جلد 4 . مترجم حسن انوسه.
63 تاریخ ایران. دوره تیموریان. دانشگاه کمبریج. مترجم یعقوب آژند.
64 تبلیغات مینورسکی برتذکره الملوک / میرزا سمیعا. تذکره الملوک ج۱. چاپ محمد دبیرسیاقی. تهران. ۱۳۶۸.
65 تبری. تاریخ تبری.
66 تبلیغات دکتر ریاحی بر عالم آرای نادری. جلد 3 .

67 حبی
ب الله کمالی. استعمار انگلیس در ماورء قفقاز (1918).
68 حسین آبادیان.
69 حسین دوستی. تاریخ و جقرافیای ارسباران.
70 حسین صدیق. واقف-شاعر زیبایی و حقیقت.
71 حسین صدیق. هفت مقاله.
72 حلال ناصری. مجله "واربیق" .
73 حمدالله مستوفی. نحضت القلوب.
74 جیمس داون. عارف دیهیمدار. جلد 1 .
75 جیمس داون. عارف دیهیمدار. جلد 2 .
76 جیحون حاجیبیلی.
77 خاطرات سیاسی محمد ساعد مراغه ای . به اتمام دکتر باقی عاقلی.
78 خانک عشقی. سیاست روسیه در ایران. سالهای 1790-1800
79 خلیل محمدی. روزنامه "میثاق". 26 .03 .1382 .
80 دکتر عبدلل حسین زرینکوب. پیر گنجه در جستجوی ناکجاآباد.. 1360
81 دکتر حسین فیض اللی وحید. دروس و گفتگوهای روزانه ای ترکی آذربایجانی.
82 دکتر حوما ناطق. نتایج سیاسی-اقتصادی تنظیمات عثمانی. مجله "بخارا". 1378 .
83 دکترجمالادین فقیح. آتروپاتگان.
84 دکتر سجادی. محله سورخاب تیریز.
85 دکتر ضیاء صدر. زیادیهای طایفه ای وملییت ایرانیها.
86 دکتر فرخزاد ملیکزاده. مجله بررسیهای تاریخی. سال سوم. شماره 6 .
87 دکتر علی اکبر ولایتی. مسئله ایران و فلستین. روزنامه "ایران". 1376. 03. 05 .
88 دکتر محدی مجتهیدی. رجال آذربایجان دردوران مشروطه.
89 دکترمحمد امین ریاجی. تاریخ وی.
90 دکتر محمد جواد موشکور. نظری به تاریخ آذربایجان.
91 دکتر محمد طاقی زهتابی. تاریخ قدیم ترکان ایران.
92 دکتر عبدالحسین زرینکوب. پیر گنجه در جستجوی ناکجاآباد.. 1375
93 دکتر مریم میراحمدی. تاریخ سیاسی و اجتماعی ایران در عصر صفوی.

94 دکتر مهدی مجتهدی. رجال آذربایجان در دوره مشروطه.
95 دنبلی عبدالرزاق. نگارش دارا.
96 دکتر نصرولله بیات. تاریخ آذربایجان. جلد 2 .
97 رح
یم رئیس نیا. ایران و عثمانی در آستانه قرن 20 . جلد 1 .
98 رح
یم رئیس نیا. ایران و عثمانی در آستانه قرن 20 . جلد 2 .
99 رح
یم رئیس نیا. ایران و عثمانی در آستانه قرن 20 . جلد 3 .
100 رحیم ریس نیا. آذربایجان در سیر تاریخ ایران.
101 رضا شبانی. تاریخ اجتماعی ایرن در عصر افشاریه. جلد 1 .
102 رقابت روسیه و انگلیس. به اتمام محمد رفیعی مهرابادی.
103 رنه گروسه. شاهنشاهی صحراموردان. مترجم عبدالحسین میکده.
104 روزنامه "سلام" 06 . 05 . 1371 .مترجم هادی.
105 روزنامه "ایران". 27 . 11 .1375 .
106 روزنامه "ایران". 12 . 12 .1376 .
107 روزنامه "ایران". 16 . 01 .1384 .
108 روزنامه "رسابت" .28 .09 .1372.
109 روزنائه "کیهان". 16 . 01 .1372
110 روزنائه "ناصری".
111 روزنامه "عصر آزادی".26 .07. 1383 .
112 روزنامه "همشهری". 20 . 03 .1374 .
113 زاوش ح.م. تهران در گذرگاه تاریخ.
114 زریاب حونی. پیشگفتار کتاب "تشکیل دولت مللی در ایران".
115 ژان یونیر. دلاوران گمنام ایران درجنگ های ایران و روسیه. تهران. 650 ص.
116 ژان ماری کارزو. ارمنستان در سال 1915 . مترجم فریبرز برزگار.
117 ساندرز ج.ج. تاریخ فتوح منقل. مترجم ابوالقایم حالت.
118 سرداری نیا صمد. ایروان یک ولایت مسلمان نشین بود. تهران.انتشارات زوفا. 2001 .246 ص.
119 سرژ آفانسیان.

120 سعید نفیسی. تاریخ اجتماعی-سیاسی ایران. جلد 1 .
121 سعید نفیسی. تاریخ اجتماعی و سییاسی در دوره معاصر. جلد 1
122 سعید نفیسی. تاریخ اجتماعی و سییاسی در دوره معاصر. جلد 2
123 سرداری نیا صمد. ایروان یک ولایت مسلمان نشین بود. تهران.انتشارات زوفا. 2011 .246 ص.
124 سومر فاروغ. نقش ترکان آناتولی در تشکیل و توسعه دولت صفوی.
125 شاه جنگ ایرانیان در چالدران و یونان. ترجمه زبیع الله منسوری.
126 شفائی. گذارش تحلیلی پیرامون سفربه اتحاد شوروی سابق. روزنامه "جهان اسلامی". 25. 10 .1372 .
127 صدیق ح. واقف-شاعر زیبائی و حقیقت.
128 صفائی. گذارش تحلیلی پیرامون سفر به اتحاد جماهیرشوروی سابق. روزنامه "جهان اسلامی". 25. 10 .1372 .
129 طاهرزاده بهزاد.
130 عالیه ارفعی. مجله آسیای مرکزی و قفقاز. 1371 .
131 عباس اقبال آشتییانی. تاریخ مفصل ایران.
132 عباس اقبال. تاریخ منقل.
133 عباس کاتینا، موسی خورن، ک.کونیک، ملانگس آسیاتیگوس. ج 5. .
134 عبدالله حود بهراد.
135 عتمادالسلطنه. مراتیب البلدان. جلد 1 .
136 علاوه روزنامه "اطلاعات" 24 .04 .1374 .
137 علی نظمی. دویصت سخنور.
138 عناصر گرامری زبان الامی.
139 علی پورصفر. حکومتهای محلی قفقاز در عصر قاجار.
140 علیرضا راهور لیقوان، پرویز زارء شاهمرس. تاریخ قره باغ.
141 غفار کندلی حریسچی. خاقانی شیروانی. ترجمه میرحدایت حساری.
142 فرهنگ موِینِ. جلد 5 .
143 فریدون صدیقی. نماد همزیستی هویتها. روزنامه "نوروز". 26 .01. 1381 .
144 . فکر دمکراسی اجتماعی درنهضت مشروطه ایران.
145 قضیه ناگوار نو قره باغ. مجله "مطالعات آسیای مرکزی و قفقاز". 1371 .

146 قیام آذربایجان در انقلاب مشروطیت ایرن.
147 کتابخانه آستانه قدس. شماره دستنویسی 2348 ، 8 . ادبیات در جنگهای ایران و روس. ص. 28 .
148 کلاویخو. سفرنامه. مترجم مسعود رجبنیا.
149 کلمات هوار. ایران قدیم.
150 کلیفرد ادموند بوسورس. سلسله های اسلامی. مترجم فریدون بدره ای.
151 گروسه ر. امپراتوری صحرانوردان. ترجمه عبدالحسین میکده.
152 لاکارت. نادر شاه. با پیشگفتار احمد کسروی.
153 لسترنج. جقرافییای تاریخی کشورهای خلافت شرق.
154 مارکوارت. ایرانشهر.
155 محمد امین ریاحی. تاریخ خوی.
156 محمد امین رسولزاده. جمهوری آذربایجان. مترجم طقی سلامزاده.
157 محمد حسین بین خلف تبریزی برحان. برحان قاتع.
158 محمد جواد موشکوری. نظری به تاریخ آذربایجان.
159 محمدعلی تربیت. دانشمندان آذربایجان.
160 محمد کاظم مروی. عالم ارای نادری. در 3 جلد. جلد 1 . تهران. زوار. 1397 ص.
161 محمود سلبی. عمر مختار. مترجم آراز محمد سارلی.
162 مجله "آسیای مرکزی و قفقاز". 1373 .
163 مجله "اطلاعات"
164 مجله "بعست".20 . 08 . 1372 .
165 مجله "تریبون".
166 مجله "رسالت".06 . 12 . 1371 . ص. 3 .
167 مجله "مطالعات تاریخی". 1380 . بلوای ناگورنو قره باغ در آذربایجان شوروی. مترجم عبدالله ظهیری.
168 مجله "گفتگو". 1374 .شماره 8 . ص. 144 .
169 مجله "وارلیق". 1368 .
170 مجله "وارلیق". 1373 .
171 مجله "وارلیق". 1370 .
172 مسعودی. مروج الزحب. جلد 1 . 1303.
173 مطلع الشمس. جلد 1 .

174 ملیک الشعرا بهار. سبکشناسی. جلد 3 .
175 منوچهر مرتزوی. مسایِل دوره ایلخانییان.
176 منیژه ترابزاده. ماهیت تحولات در آسیای مرکزی و قفقاز. تهران. وزارت امور خارجی. 1373 . 382 ص.
177 ملیکزاده توحید دلمغانی. سلماس در سیر تاریخ و فرهنگ آذربایجان.
178 ممد سعید اوردوبادی. سالهای خونین. مترجم صمد صرداری نیا.
179 منشور گرگانی.
180 مهدی بامداد. شرح حال رجال ایران.در 5 جلد. جلد 1.
181 میرزا بزرگ. قایم مقام فراحانی. جهادیه / ادبیات در جنگهای ایران و روس
182 میرزا سمیعا. تذکره الملوک ج۱. چاپ محمد دبیرسیاقی. تهران. ۱۳۶۸.
183 میرزا محدی خان آسترابادی. جهانگشای نادری.
184 میرزامحمدخان قزوینی. یادداشت های قزوینی.جلد 2 .
185 میرهدایتی حصاری. مجله وارلیق. 1378 . 24 .
186 نادر شاه. با دیباچه احمد کسروی.
187 نادر میرزا. تاریخ و جقرافی دارالسلطنه تبریز.
188 ناصر تکمیل همایون. قره باغ در تاریخ ایران . مجله "آسیای مرکزی و قفقاز". 1372 .
189 نشریه واحد تبریز دانشگاه آزاد اسلامی. ویژه نامه نمایشگاه قتل عام مسلمانان قره باغ .
190 یاقوت حموی. معجم البلدان.
191 یدالله شکری. عالم ارای صفوی. تهران. بنیاد فرهنگی ایران. 1350 . 738 ص.
192 ولتر هینترس. تشکیل دولت ملی در ایران.
193 وکیلی سیید اسمعیل. آذربایجان قبل و پس از میلاد.
194 حدایت الله بهبودی. ادبیات در جنگهای ایران و روس. ص. 27
195 هدایت رضاقلی خان. روضت الصفا. جلد 9 .
196 هلن کارر دانکوس. امپراطوری فروپاشیده. مترجم دکتر عباس آقائی.
197 هلن کارر دانکوس. فخر ملتها. مترجم دکتر عباس آگاهی.

## Rus dilində

198 Бартольд Е. История монголов в Иране.

199 Михаил Лазарев. Антология тюркской литературы.

## İnternet resursları

200 https://www.vajehyab.com/

SƏMƏD SƏRDARİNİYA

# QARABAĞ TARİXİN GEDİŞİNDƏ
(fars dilindən tərcümə)

Bədii tərtibat: *Vüsal Quliyev*
Kompüter icraçısı: *Nilufər Əhmədova*
Korrektor: *Pənah Əhmədov*

Formatı 60x84 $^{1}/_{16}$
Həcmi 26,5 ç.v.
Sifariş: 16
Tirajı: 200
Qiyməti müqavilə əsasında

Red N Line MMC tərəfindən hazır diapozitivlərdən istifadə olunmaqla çap edilmişdir.